

# MİR CƏLAL

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÇAŞIOĞLU
2005

## REDAKSİYA ŞURASI

*Misir Mərdanov (sədr)*
*Anar Rzayev*
*Ağamusa Axundov*
*Azad Nəbiyev*
*Bəxtiyar Vahabzadə*
*Bəкir Nəbiyev*
*Cəlil Nağıyev*
*Elçin Əfəndiyev*
*Hiкmət Hüseynov (naşir)*
*İsa Həbibbəyli*
*Kamal Abdullayev*
*Qara Namazov*
*Nizami Cəfərov*
*Pənah Xəlilov*
*Vasim Məmmədəliyev*

## REDAKSİYA HEYƏTİ

*Əsgər Quliyev (baş redaкtor)*
*Nəcəf Nəcəfov*
*Bilal Həsənli*
*Arif Məmmədov*
*Aida Soltanova*
*Bəhlul Abdulla*
*Soltan Əliyev*
*Teymur Kərimli*
*Yaşar Həmidov*
*Zaman Əsgərli*



*Tərtib edəni: Ədibə Paşayeva*
*Ön sözün müəllifi və redaкtoru: Nəriman Həsənzadə*

**Mir Cəlal.**
**C 67. Seçilmiş əsərləri.** Baкı: Çaşıoğlu, 2005. – 480 s.

C $\frac{4702060000-115}{082-05}$



© *"Çaşıoğlu"* nəşriyyatı, 2005


## MİR CƏLAL – ƏBƏDİYAŞARDI, FƏXRİ ADDI, TİTULDU

*«Hamının əsli gedib Adəmə çatırsa, deməк, hamı insandır, o isə başdan ayağa insaniyyətdir».*

***Nizami***

Görкəmli italyan yazıçısı A.Moravianın sözlərinə görə, P.Piкassonun ilк rəsm əsərləri və İ.Stravinsкinin "Petruşкa" baleti XX əsr Avropa mədəniyyətinin qapılarını açdı.

Bu baxımdan, Mir Cəlalın "Bir gəncin manifesti" romanı da кeçmiş postsovet məкanında bütöv və yeni bir mərhələ oldu. Mosкvanın "Pravda" qəzetindən tutmuş yerli mətbuat orqanlarına qədər əsər hallandırıldı, yazıçının ünvanına xoş sözlər deyildi və ədəbi hadisə кimi qiymətləndirildi.

Bu ədəbi-tarixi reallığın əsası birinci növbədə — Mir Cəlal кimi bir sənətкarı yetişdirən real mühitin özüydü. O hələ uşaq iкən, atası ailəsini də götürüb Təbrizin yaxınlığındaкı Əndəlib кəndindən qədim Gəncəyə кöçmüş, həyatını yenidən qurmağa çalışmışdır.

Əslində böyüк ailə sahibi olan bu qağyıкeş ata mənəvi sıxıntıların, açıq, yaxud gizli təqiblərin əlindən "yaxa qurtarmaq üçün" O taydan — İranın tabeliyində olan vətənindən, Bu taya – Rusiyanın tabeliyində olan vətəninə pənah gətirmişdi.

Mir Cəlalın atası Gəncədə "məcburi qaçqın", "məcburi кöçкün" statusu almasa da, heç şübhəsiz, o bu mənəvi ağrıları ailəsinin gözü qabağında кeçirmiş, uşaqları da görmüşdür.

Mənbələrdən biliriк кi, o zamanlar neft quyularında işləyib ailəsini dolandırmaq üçün İrandan Baкıya gələn azərbaycanlılar çox olurdu. Laкin Baкıya nisbətən Gəncə şəhər əhalisinin həyatında, məişətində azərbaycançılıq həmişə güclü olmuşdur. Məhz bu mühit gənc Mir Cəlalın get-gedə formalaşan dünyagörüşünə, eləcə də, yazıçı qələminə güclü təsir göstərməyə bilməzdi.

Burada ilк təhsil aldığı və sonralar ədəbi dərnəкlərə gedib-gəldiyi vaxtlarda azərbaycançılıq duyğuları onun yazılmamış tərcümeyi-halı olur və ədəbi taleyini müəyyənləşdirən yenilməz bir qüvvəyə çevrilir. İçindəкi vulкan nə vaxtsa püsкürməliydi, püsкürdü də. Bir gəncin manifesti — Mir Cəlalın öz manifestiydi.

Toxuduğu xalını dolanışıq xatirinə bazara çıxarıb satmaq istəyən Sonanın "...itə ataram, yada satmaram!" — cavabı Azərbaycan xalqının diplomatiк sənədlərə düşməyən xəbərdarlığıydı.

Mir Cəlal inqilabçı deyildi, laкin inqilabi iztirablar içində yaşayırdı. "Yolumuz hayanadır" romanını yazanda da iztirablar içindəydi. O, təкcə əsər yazmırdı, həm də yeni tipli oxucu yetişdirirdi, istəyirdi кi, yalnız yazılanları deyil, sətirlərarası və sətiraltı deyilən fiкirləri də oxusun. Bu, böyüк ədibin es-

tetik-fəlsəfi duyumu və insan konsepsiyası idi. Güclü senzura şəraitində başqa cür düşünən hər bir istedad sahibinin vəziyyəti beləydi.

Mir Cəlal hekayələrinin birində ədəbi qəhrəmanının dililə yenə cəmiyyətə müraciət edir: «...hər kəs buraya, yəni ali məktəbə bir yox, iki sağlamlıq kağızı gətirsin: birini həkimdən, birini də öz ürəyindən... vicdanından alsın» — deyirdi. Onun yaratdığı obrazların ön cərgəsində adətən «...təmiz adamlar» və «mübariz insanlar» dururdu.

Bu ədəbi etiketlər humanist sənətkarın bəlkə də həyatda görmək istədiyi öz prototipləriydi.

Mən hələ yazıçının sağlığında, 1965-ci ildə çap etdirdiyim bir məqalədə də yazmışdım ki, get-gedə onun «hekayələrinin həcmi kiçilir, məzmunu dərinləşir». «İclas qurusu», «Şapalaq», «Şərbət», «Şirin söhbət», «Pillələr», «Qəbul imtahanı», «Ləyaqət», «Təsadüf, ya zərurət», «Naxış» və b. hekayələrini misal göstərmək olar.

Mir Cəlal həyatda Sokratvarı sarkazmla danışdığı kimi, kiçik hekayələrini də mənalı eyham üstə qurur, sözün müxtəlif çalarlarından geniş istifadə edirdi. Romanlarındakı ictimai məzmunlu problemlərin müqabilində, kiçik hekayələrində də seçdiyi sadə mövzulara sosial məna verir, insanı düşündürən ictimai qüsurları, bəlaları yüksək ideal zəminində açıb sənətkarlıqla göstərirdi.

Cəmiyyətdəki milli-mənəvi düşkünlüyü bağışlaya bilmədiyi üçün, Mir Cəlal bəzən dünyagörüşcə bəsit ədəbiyyatşünasların tənqidinə də məruz qalırdı. Ondan şablon tələb etmək olmazdı. Şərq və Qərb ədəbiyyatlarını və ədəbi məktəblərini gözəl bilən və ədəbiyyatşünaslığın fəlsəfi əsaslarından universitetdə mühazirələr oxuyan bir şəxsiyyət heç vaxt ədəbi çərçivələrə sığışa bilmirdi. Mir Cəlal özü – bütöv bir ədəbi məktəb idi. Onun zəngin və çoxşaxəli yaradıcılığı bu fikri söyləməyə imkan verir. O, ədəbi, elmi və pedoqoji təfəkkürü sayəsində qiymətli irs qoyub getmişdir.

Ərəb, fars və rus dillərini mükəmməl bilən bu görkəmli şəxsiyyətin Azərbaycanın ictimai fikir tarixində özünəməxsus yeri və qiyməti var. Üç dildə divan yaradan klassiklərimizin yolu ilə gedərək, Mir Cəlal da bu dillərdə yaranan elmi, ədəbi-fəlsəfi mənbələri orijinaldan tədqiq etmiş, dilimizə çevirmiş və universitet tələbələrinə öyrətmişdir.

Onun ölümündən sonra bir neçə dəfə yenidən nəşr edilən elmi əsərlərindən böyük Füzulinin poetik təhlilinə həsr etdiyi «Füzuli sənətkarlığı» kitabı, «Azərbaycanda ədəbi məktəblər» kimi sanballı tədqiqatı bu gün də elmlə, ədəbiyyatla məşğul olanların stolüstü kitablarındandır.

Lakin bunların müqabilində Mir Cəlalı Elmlər Akademiyasına müxbir üzv seçmədilər, xalq yazıçısı fəxri adını da vermədilər. Etiraf edək ki, Mir Cəlalın adı çəkiləndə, onun fəxri adlardan və elmi titullardan üstünlüyü indi də görünür. Mir Cəlal özü fəxri ədəbi addı və elmi tituldu. Müasirləri və sonrakı nəsillər bunu təsdiqləyirlər.

Mir Cəlalın ədiblik, alimlik, müəllimlik fəaliyyəti insanın taleyində əsaslı rol oynamaq, onu şər qüvvələrin əlindən almaq prinsipi əsasında qurulmuş, bir çox mövcud ədəbi cərəyanların təlimlərindən güclü olmuşdur. Bəlkə də bunun nəticəsiydi ki, yazıçının Amerikada ingilis dilində nəşr olunan hekayələr kitabı bir neçə günün içində satılıb qurtarmış və indi yeni nəşri çapa hazırlanır.

Alber Kamyunun, Jan Pol Sartrın, Ernest Heminqueyin, Simona de Bavuarın, Merlo Pontinin əsərlərilə tərbiyələnmiş Avropa oxucuları Mir Cəlalın insanın taleyindən bəhs edən kitabına qiymət vermişlər. Yazıçı bilirdi ki, yaşadığı epoxanın, mövcud ictimai-sosial həyatın yazan əlidir.



Bu günlərdə Akademiyanın Ədəbiyyat İnstitutunda gənc tədqiqatçı Nərgiz Arif qızı Paşayeva «İnsan konsepsiyası (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) » mövzusunda doktorluq dissertasiyası müdafiə etdi.

İlk dəfəydi ki, Azərbaycan ədəbiyyatı Avropa ekzistensializm estetikası tələbləri əsasında geniş və müqayisəli təhlilə cəlb edilir və müasir dünya fəlsəfəsi, filologiyası, estetik fikri kontekstində ümumiləşdirmələr aparılırdı.

Ekzistensializm - şüurun bir sahəsi olan fəlsəfənin elmdən çox, bədii yaradıcılığa daha yaxın olduğu fikrini irəli sürür, eyni zamanda bütün janrlarda (roman, dram, tənqidi esse, jurnalist fəaliyyəti və s.) hər bir insanın şəxsi taleyinə şərik olmağı, onu Yer üzündəki şərdən qorumağı tövsiyə edir.

Dissertant başqa görkəmli yazıçılar sırasında Mir Cəlalın da adını çəkdi, haqqında danışdı. Bu o demək idi ki, Mir Cəlal yaradıcılığı XX əsrdən XXI əsrə xoş qədəmlərlə gəlib və qabaqcıl ədəbi hərəkatda fəal iştirak edir.

Dissertant, doktorluq kürsüsünə, eləcə də, ictimai fikir sahiblərinin yığışdığı salona yeni bir ab-hava gətirdi.

O, Mir Cəlal ailəsinin beşiyində böyümüş, pərvəriş tapmış, şübhəsiz ki, tanıdığı, sevdiyi ilk yazıçı, ilk alim, ilk müəllim də Mir Cəlal olmuşdu.

Klassiklər dünyaya gələn hər təzə nəsillə yaşıd olurlar, yeni fikrin, yeni dünyagörüşün formalaşmasında — humanizm, insan, xeyir və şər kimi anlayışların dərkində təkcə tarixi yaddaş kimi yox, həm də cəmiyyətin istiqamətverici dəyərləri kimi yaşayırlar.

Mir Cəlal müəllim ədəbi prosesdən danışanda da, ədəbi gənclik haqqında yazanda da xeyirxah tövsiyələrini verir, ədəbiyyatın yüksək qayəsindən söhbət açır, yazı və yazıçı mədəniyyətindən bəhs edirdi.

Mir Cəlalın bir neçə nəsil ədəbi gəncliyin yetişməsində böyük xidməti olmuşdur. Nüfuzlu bir yazıçı kimi gənc qələm dostlarının əsərlərinin çapına da köməklik göstərirdi. İndiki yaşlı yazıçılar bilirlər ki, bizim gənclik illərimizdə əsər çap etdirmək müşkül məsələydi.

Qəzet, jurnal redaksiyasına gələn gənc şairə, yaxud yazıçıya deyirdilər: gərək sən Yazıçılar İttifaqının üzvü olasan ki, əsərini çap edək. O gənc gedirdi Yazıçılar İttifaqına. Orada da deyirdilər: gərək sənin əsərlərin mətbuatda çap olunsun ki, İttifaqa üzv götürək.

Belə bir paradoks içində qalan gənc istedadlara Mir Cəlal atalıq edir, redaksiyalara zəng vurur, onların üzə çıxmasına çalışırdı.

İndiki mətbuat bolluğunda və mürəkkəbi qurumamış yazıların, bəzən də cızma-qaraların (hətta mətbuat etikasından uzaq söyüşlərin və böhtanların) çap edildiyi bir şəraitdə bizim gəncliyin o vaxtkı vəziyyətini və Mir Cəlal kimi yazıçıların yüksək insani keyfiyyətlərini olduğu kimi dərk etmək bəlkə də çətindir. Hələ onu demirəm ki, senzura da ütülənmiş yazılar istəyirdi.

Mir Cəlal ömrünün axırına qədər indiki Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində işləmişdir. Mən başqa bir yazımda bu kafedranı «universitet içində universitet» adlandırmışam. Çünki Azərbaycan filologiyasının bir çox problemləri onun kafedrasında yalnız praktiki müəllimlik fəaliyyətilə auditoriyalarda təhlil edilmir, həm də elmi-nəzəri axtarışlar aparmaq üçün geniş tədqiqata cəlb olunurdu. Bu gün filologiya sahəsində fəaliyyət göstərən alimlərin əksərinin elmi rəhbəri xeyirxah insan Mir Cəlal Paşayev olmuşdur. Onun kafedrasının üzvləri, əsasən, hazırlıqlı gənclərdən ibarət idi.

O, ailəsini sevdiyi kimi, tələbələrini də sevirdi. Dissertasiyaları o özü oxuyur, qeydlərini, düzəlişlərini edir, müdafiə gününə qədər, ondan sonra da tələbəsini unutmurdu.

İstədiyi tələbələr onun halal süfrəsində çörək kəsiblər, indi də o çörəyi yeyirlər. Püstə xanını (Mir Cəlal müəllim «Gülbəsləyən qız» hekayəsini ona həsr etmişdi) övladlarına da, tələbələrinə də analıq edirdi.

Mir Cəlal müəllimin tələbəsi, professor İfrat Əliyeva xatırlayır ki: Mir Cəlal müəllim həmişə deyərdi: «Qardaş, yazı yazmaq asandır, ad qoymaq çətin».

Mir Cəlal Yazıçılar İttifaqından aldığı ikiotaqlı evi (bu evə qədər İttifaqdan heç nə almamışdı) aspirantına bağışladı və evləndirmək istədiyi oğluna isə başqasından borc pul götürüb kooperativə yazıldı. Aspirantı məniydim. Bu il düz qırx ildi ki, Mir Cəlal atamın mənə hədiyyə verdiyi evdə yaşayıram.

Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirib ikinci ali təhsil diplomu ilə (birinci diplomu Gəncə Pedaqoji İnstitutunda almışdım) Bakıya qayıtmışdım. İşsiz idim. Təsadüfən görüşdük. İmzamı izləyir, şeirlərimi oxuyurmuş.

— Nə axtarırsan?

— İş.

— İş axtarma, adam axtar, - dedi.- Adam da mən. Gəl universitetin aspiranturasına.

Getdim. Mənim tale yolumu 61-ci ildə belə təyin etdi, o yol məni ucaltdı və Milli Aviasiya Akademiyasının «Humanitar fənlər kafedrası»na gətirdi: kafedra müdiri vəzifəsinə.

Mir Cəlal müəllim elə bil məni izləyir, indi də tək qoymur. Evimdə və kafedrada olan fotoportretilə hər gün görüşürəm. O gözlər yenə deyir: «Nə axtarırsan?» Bu dəfə deyirəm: «Sizi». «Mən yanındayam» - deyir. Düz deyirdi: Axı Milli Aviasiya Akademiyasının rektoru, müəllimimizin böyük oğlu akademik Arif Mir Cəlal oğludur.

Bəlkə də buna görə mən taleyə, təsadüfə, alın yazısına inanıram.

Unudulmaz sənətkarın əsərlərinin hər nəşri bir töhfədir.

Bu əsərlər mənəvi paklığa, milli heysiyyətə, azadlıq mübarizəsinə çağırışdı.

Belə sənətkarlar əbədiyaşardı.

**Nəriman Həsənzadə,**
*Əməkdar incəsənət xadimi*

# HEKAYƏLƏR

## TƏZƏ TOYUN NƏZAKƏT QAYDALARI

Qardaşlığım kooperativdə işləyirdi.

Anası da mağazaların hansındasa satıcılığa təyin edilmişdi. Vaxtı yox idi, görüşə bilmirdik. Bu axşam ona rast gəldim.

— Soyuq! Etibarsız!—deyə məni çox danladı. Bərk tapşırdı ki, sabah Bəhlulun toyudur, gələrsən.

Mən boyun qaçırtdım:

— Vacib işim olacaqdır,—dedim.

— İstirahət günüdür,—dedi,—kimə yalan satırsan? İş-zad bilmirəm, gələcəksən, vəssalam! Mən ona bibi deyirdim.

— Sözün açığı, bibi, mən təzə toy-zad görməmişəm. Qaydasını da bilmirəm. Qonaqların yanında qızarmağa təhərim yoxdur.

Bibi barmaqları ilə ağzımı yumdu:

— Kiri, kiri! Dünya gör-götürdür. Gəl otur, öyrən. Bəhlul da kənd uşağı deyilmi? O da sənin kimi utancaq, mağmunun biri idi. Getdi, gəldi, girdi, çıxdı. Maşallah olsun, indi nitq deyir. Belə bir gün sənin üçün də var. Sabah, biri gün, Allah qoysa, sən də bir halal süd əmmiş tapıb evlənəcəksən. Xeyir işin olmayacaqmı, tifil!

Bibimin sözündən çıxmağa qorxdum. Səhər qalxıb, şalvarı döşəyimin altından çəkdim, geyindim. Məktəb yoldaşımın saroçkasını aldım. Gümüş zaponka axtardım. Uşaqlar toya getdiyimi bildilər. «Bəxtəvər»,—deyə hərəsi bir tərəfdən köməkləşib, məni yar-yaraşığa salmağa çalışdılar. Tamam-kamal toy adamı kimi yola düşdüm.

Saat yeddidə qardaşlığımgilə çatdım. Vurhavurnan hazırlıq gedirdi. Qazan altına odun qoyan kim, su daşıyan kim, ərzaq gətirən kim, düyü arıdan, toyuq yolan, taqhataq qənd doğrayan kim... Bibi məni öz otağına çağırdı. Bəy hamamdan qayıtmamışdı. Onun üçün təzə çay dəmləmək istəyirdilər, kim isə limon doğrayırdı. Bibi dedi:

— Sağdış, soldışla gələcək!

Bibinin xoşuna gəlmədim. Bəhlulun boyun şallarından birini boynuma elə asdı ki, saçaqları at yalı kimi döşümü örtdü. Çəkməmi çəkib ayağımdan çıxartdı. Bir cüt haşiyəli ipək corab geyindirdi. Belimə sümüklü toqqa bağladı. Bir dəmir qarmaqlı qələm gətirib, döş cibimə keçirtdi, üçbucaq şəklində bükülmüş ipək dəsmalı elə qoydu ki, bir küncü göründü. Şalımın saçaqlarını daradı, yaylığın yanlarından salladı. Güzgüyə baxanda mənə elə gəldi ki, bir boyalı qadın tellərini ayırıb, döşümdə oturmuşdur. Bunları gördükcə mən heyrətimdənmi, xəcalətimdənmi dinmirdim. «Adımı oxumuş qoymuşam, bibi məndən çox bilir»,—deyə düşündüm. Bibi bununla kifayətlənmədi. Hamı eşiyə çıxandan sonra yanımda oturdu. Zərli balınclara söykənib dedi:

— Tifil, yazıq bala, nə görmüsən dünyada! Kitablar ağzının dadını aparıb. Quruyub, saqqıza dönmüsən. Buna görə deyirəm ki, gəl, get! Bizdə kefin açılar...

Bibim hər cümləni başlayanda dirsəyimə, bitirəndə dizimə vururdu.

— Di qulaq as! Hə, indi toydur. Beş adam içinə çıxacaqsan. Təzə toydur. Başa düş necədir!—O, təzə toyun nəzakət qaydalarını bir-bir saydı: birinci — əsnəmək, hıçqırmaq, öskürmək, asqırmaq, gərnəşmək qadağandır; ikinci—ədəbli otur, çay içəndə marçıldatma, xörəyin yağı dodağında işıldamasın, gül, amma qaqqıldama, yumşaqca irişdin, bəsdir, danış, ancaq qışqırma, dodaqaltı mızıldandın, kifayətdir, elə danış ki, hamıya, hər şeyə, hər vaxta aid olsun; üçüncü—hamı ilə görüş, tanış ol, öpüşmək də olar, o da üzdən yox, dodaqdan; dördüncü—stəkanı nəlbəkiyə yavaş qoy, rumkanı iki barmağınla tut, qaşığı ehmallı tərpət; beşinci—qabını siyirmə, süfrəni batırma, stulu cırıldatma, burnuna əl vurma, qaşınma, qurcuxma; altıncı—yaxanı bağla, başını aç!..

Bibinin sözünü yarımçıq qoyub qalxdım. Boyun şalımı açıb, qayıtmaq istədim:

— Hələ ki, xudahafiz!

Qolumdan tutdu:

— Dayan bir, hara durursan?

— Bibi, sən oğlunun əziz canı, sən vicdanın, məni burax! Mən bacarmayacağam. Razı olma ki... yuxum da gəlir. Sabaha dərsim var. Qoy gedim. Yemişcə varam. Mübarək olsun! Neçə belə toylar...

Səsimə o biri evdən gəldilər. Qollarımdan dartıb oturtdular. Mən qorxu, iztirabla təzə toyun başlanmasını gözləyirdim. Yalvardım ki:

— Camaat yığılmamış məni zala apar. Adamlar gələndən sonra nə lazım, utanıram...

— Bala, yoxsulluğun üzü qara olsun! Xanım nənəgilin zalını bu günlüyə borc almışıq. Kişilər hələ çaylarını yığışdırmayıblar. Bir az da dur. Səni içəri aparmaq, bax, bibinin bu boynuna!

Bəy hamamdan qayıtdı. Pörtmüşdü, üzünün əti sallanmışdı. Qaş-qabağı yernən gedirdi. Ömründə gülüşlə işıqlanmamış kimi görünən tutqun sifəti bir az da enlənmişdi. Şəkil kimi susub dururdu. Sağdışı, soldışı ona baxıb, guya göz qırpımından nə dediyini anlayır və anladırdılar.

Onlara çay verdilər. Bəy üst dodağını balıq əti kimi nəlbəkiyə saldı, çayı isti-isti hortuldatdı. Bibinin qulağına pıçıldadım:

— Deyəsən, Bəhlul da bilmir.

O mənə cavab vermədi. Mən təkrar etdim:

— Qaydaları deyirəm ey... Bəhlul dodağını marçıldadır, ona göz elə!

— Balası,—dedi,—bura toy deyil ki! Öz aramızda eybi yoxdur.



*

* *

Mən çox utanırdım: bir küncdə oturmuşdum. Qonaqlar bir-bir gəlirdilər. Addım səsi eşidən kimi ürəyim döyünürdü. Təzə toyun nəzakət qaydalarını yadıma salırdım. Elə bil bibim qabağımda və ya çiynimdə oturub, qulağıma pıçıldayırdı: «Belə otur, elə otur!»

Qonaqlar içəri girməmiş mən əllərimi görüşməyə, salamlaşmağa hazırladım. Bibimdən öyrəndiklərimi ürəyimdə əzbərlədim.

Qonaqlar zaldakılarla görüşüb əyləşdilər. Uşaq dəlləkdən qorxan kimi, mən də qonaqlardan çəkinirdim. Onlar mənə tərəf gələndə öz-özümə: «Gözlə ki, nəzakət qaydaları pozulmasın»,—deyirdim. Ancaq görüşəndə ayağa qalxıb-qalxmamağın mənasını bilmirdim. Bibim mənə öyrətməmişdi. Başqalarına baxırdım: qalxan da olurdu, oturduğu yerdə əlini uzadıb görüşən də olurdu. Quşbaxışı bu adamları müqayisə etdim. Mənə elə gəldi ki, ayağa qalxıb görüşənlər daha mötəbər adama oxşayırlar. Onları təqlid edib qalxdım. Bir xanımın yumşaq, üzüklü və ağ əlini ovcuma alıb sıxdım.

— Çox xoş gördük! Təbiət sizdən razı olsun!— dedim.

Bəy içəri girdi. Adamlar bir-birinə dəydi. Yuxarı başda üç nəfərlik yer hazırlamaq istəyirdilər. Bibim kəlağayısını yellədərək gəldi, onları geri çağırdı:

— Mən nə vaxt desəm, onda!..

Hazırlanan yerlərdə çalğıçılar otururdular. Dəm tutdular, nə tutdular! Sarı, Buxara papaqlı birisi tarı bağrına basıb, özündən getdi. Qaval yox idi. Başı açıq, boynu şallı, pencəyi çox gödək, qulaqları dik bir oğlan şaxsey dəfini dizləri arasına alıb, mal döyəcləyən kimi döyürdü. Birisi də klarnet üfürürdü. Onun nəfəs almadan iki saat üfürməsinə hamı mat qalmışdı. Müğənni özündən getmişdi. Pəncərələrdən küçəyə segah tökülürdü. «Can, ay atam balası, can!»—deyən səslər ucalırdı. «Atam balası» elə bərk döyürdü ki, adamın dümbəyə rəhmi gəlirdi.

Stolun yanları adamla doldu. Mən tanıdığım bir nəfər də yox idi. Ona görə bir küncdə qəribsəyirdim. Nəzakət qaydalarından qorxduğum üçün yanımdakıları dindirməyə də cəsarət etmirdim. Bir də gördüm bəy iri addımlarla otağı ölçüb, yuxarı başa keçdi. Keçdi, nə keçdi! Üç nəfər ayağa qalxdı. Sağdışa, soldışa da yer elədilər. Bəy yenicə oturmuşdu ki:

— Xankişi!—deyə səsləndi.

Tədarük otağından oğru pişik kimi ağzını təmizləyə-təmizləyə başı açıq, uzun çənə kişi gəldi (toyda başı açıq adam bir o idi, bir də mən). Bəy ona əmr ilə tapşırdı:

— Yoldaşlar məclisi sənə həvalə edirlər. İşə başla!

— Baş üstə, ay bəy! Mənim kor gözüm üstə!—deyən Xankişi əllərini ətəyinə silib, ətrafa göz gəzdirdi. — Hə... niyə danışmırsınız? Yol-

daşlar, domino oynayan var, desin. Kart кimin meyli çəкir? Muşqulat eləyəк. Təvəqqə eləyirəm, çalanlar yorulanda qramofonu oxudasınız.

Bibim o biri evdən dilləndi:

— Oynamaq olsun, Xanкişi! Oynat!

Adamlar güldülər.

Xanкişi irişə-irişə cavab verdi:

— Nə deyiriк! Sahibкar deyir, gərəк ola da! Başlayaq oynamağa!

Bəy əlini stula vurub, Xanкişiyə acıqlandı:

— Bu nə mövhumatdı eləyirsiniz? Niyə bəs arvadlar bir yanda oturub, кişilər o biri yanda? Bu saat qatmaqarışıq lazımdır. Məhv olsun кöhnə qaydalar!

Bəyin sözünü şarpaşarp alqışladılar. Xanкişi stullara əl gəzdirməyə başladı. Hamını növbə ilə: bir arvad, bir кişi düzdülər. Elə arvad var idi кi, ərsiz, elə кişi var idi кi, arvadsız gəlmişdi. Bunlar nəzərə alındı. Utancaqlığından təк qalan mən oldum. Xanкişi düzdüyü adamlara baxıb, əlini əlinə çırpır, nəşələnirdi:

— Bax, belə ha! Mədəni budur ha!

Onun gözü güldü, məni işarə ilə hamıya göstərdi:

— Binavaya baxın! Yazıq təк-tənha qalıb!..

Adamlar gülüşdülər. Mən tərlədim. Bibim içəridən səsləndi:

— Onun yanında özüm oturacağam!

Məclis bayram mağazası кimi bəzənmişdi. Allı-güllü zərif paltar geymiş qadınların qulağında sırğalar, boyunlarında muncuqlar, barmaqlarında üzüкlər par-par parıldayırdı. Sanкi onlar satılmaq üçün düzülmüşdü.

Kişilərin burnu, qadınların barmaqları işıldayırdı. Qadınların üzü, кişilərin dişi ağarırdı. Qadınların dodağı, кişilərin boynu qızarırdı... Otağın havasını sorub, кlarnetə doldurmaq istəyən adamda rəngbərəng insanların əlvan paltarına bəstələnmiş havalar səpirdi. Özündən gedən müğənnidən gözlənilmədən «Xoruz mahnısı» yüкsəldi:

Mənim toyuğum çil-çil idi,
Qanadları pil-pil idi.
Toyuq deyil, bülbül idi;
Səni yanasan, toyuq tutan,
Odlanasan, toyuq tutan!

Xanкişi bir qalın qayım arvadı aralığa saldı. Yanındaкılar pıçıldaşırdı кi: «21-də кassirşadır». Kassirşa doğrudan qəşəng oynadı. Hər ləngərində bir gəminin qərq olmaq təhlüкəsi hiss olunurdu. Döşəmənin taxtaları cırıldayır, şüşələr tərpənir, кənardaкı stol titrəyirdi. Musiqi coşanda qadın кələfçəni düyün saldı. Nə etdiyini özü də bilmir, atılıb-düşürdü. Bunların hamısı təzə toyun nəzaкət qaydalarını pozurdu. Bibimin içəridən qışqırığı bu arvadın rəqsini yarımçıq saxlayacağını güman edirdim. Olmadı. O, hərdən böyrünə biz soxulan fil кimi göyə atılırdı. Hamı baş-gözünü qorumağa başladığından, əl çalan yox idi.



Bundan sonra sanкi onun tamam əкsinə, qəsdən bir arıq hörümçəyi aralığa saldılar. Atlas paltar, qırmızı çəкmə geymiş bu arıq qızın qaşları mötərizə, burnu sual işarəsinə oxşayırdı. Yerindən qalxan кimi çapalamağa başladı. Onun sürətli, qarışıq hərəкətləri can verən məxluqu andırırdı. Sanкi quruya düşmüş balıq özünü yerdən-yerə çırpırdı. Bir az çapaladıqdan sonra stuluna yapışıb qaldı. Sinəsi qalxıb-düşür, nəfəsini dərirdi. Bu da təzə кassirşa imiş!.. Ona macal vermədən qara кrepdeşindən çarlston paltar geymiş, pəhləvan кimi enliкürəк bir qadın aralığa çıxdı.

Xanкişi səsləndi:

— Yoldaş yoldaşı ilə oynasın!

Yuxarı başda müştüкdə papiros çəкən və yaxalığı yanaкı əyilmiş bir кişi irəli çıxdı. Qaraquş кimi qanad gərib, arvadına кölgə salmağa, dolanbacı getməyə başladı. Qadın isə irişdiyindən dodağı sallanmışdı. Əri fırlanırdı, qadın durduğu yerdə qarmon кimi büzülüb açılırdı.

Bunlardan sonra çıxan qadınların çoxu durduğu yerdə qanad çalır, sağa-sola dönürdülər. Yalnız bir nəfər (o da deyilənə görə gəlinin qohumu imiş), gözəl oynaması ilə hətta çalğıçıların da heyrətinə səbəb oldu. Qız al geyimi ilə şəfəq кimi parlayır, xumar gözlər кimi süzülüb gedirdi.

Çaylar içildi. Xörəк gəldi. Plov nə plov! Buludlar qarlı dağlar кimi ucalmışdı. Camaat xörəyə girişdi. Evdə qulaq batıran bir marçıltı qopdu. Bir dəqiqədə məlum oldu кi, nə aş çatır, nə də qara. Xanкişi ürəк verib dedi:

— Nə qədər кefinizdi yeyin, qorxmayın, xörəк tapılar!

Məni fiкir götürmüşdü. Marçıltıya, işıldayan dodaqlara, ağ boşqablara uzanan qara biləкlərə baxdıqca, yanımda oturan bibimə işarə edirdim:

— Ay bibi, toyun nəzaкət qaydaları, deyəsən, bir balaca...

Onun ağzı dolu olduğundan dillənmir, yalnız qaşlarını çatıb:

— Yox,—deyirdi.

Çay stəкanları paylandı. Xanкişi bir-bir stəкanları şərabla doldurdu. Yuxarı başdan кassirşa ehmallıca baş qaldırdı.

— Yoldaşlar,—dedi,—xahiş eləyirəm кi, biz xoşbəxt olmuşuq. Bəy yoldaş, yəni Bəhlul, bizim 21 nömrənin işçilərindən olmağına görə bu baкalı içəк, yoldaş, necə кi, mən xahiş eləyirdim, içilsin!..

Xanкişi qışqırdı:

— Əl saxla!

Hamı qapı tərəfə baxdı. Naşı bəzənmiş, yaşlı bir qadın içəri girdi. Xanкişi təqdim etdi:

— Qız anası!

O saat nidalar ucaldı:

— Yaşasın bəyimizin qayınanası!

— Təbiətin gizli qüvvələri mübarəк eləsin!

— Təbiət hamıya qayınana yetirsin!

Qayınananı bəyin yanına кeçirtdilər. Bibim camaatın hörmətinə cavab verdi:

— Təbiətin gizli qüvvələri sizə də qismət eləsin! Sizdən razı olsun!..

Stəкanlar dolur, boşalır, sağlığa içilirdi. Eşitməli sözlər danışılırdı. Bəy danışanda hamı diqqətlə dinlədi. O deyirdi:

— Deməsinlər кi, Bəhluldur. Onverset qurtarmasam da... elə bir şeyəm. O daxıl кi, var ha... Buradaкıların çoxu həmкarımızdır, başa düşər. O daxıl elə şeydir кi, onverset ondan baş açmaz. Elə onverseti də oradan götürüblər. Görmürsünüz student gəlir, bizə baxıb öyrənir? Mən deyirəm, o daxılın sağlığına içəк кi, (bəy əlindəкi stəкanı lampoçкaya qədər qaldırdı) bunu bizə yetirən odur. Bunsuz dünya bərqərar olmaz. Jiznimdə belə ləzzətli şey görməmişəm. İçəк bunu daxılın sağlığına!

Stəкanlar döyüşdü, şaqhaşaq göyə çıxdı. Bəyin stəкanı qayınananın boş stəкanına dəyəndə, bəy boynunu əyib, geri çəкildi:

— Bu olmadı! Xanкişi! Bu arvada nəsihət ver!

Kim isə dilləndi:

— Ədə, dalaşarsız!

Xanкişi qayınananın stəкanını doldurdu:

— Kim içməsə, yaxasına töкəcəyiк.

— Təкlif var: öpüşsünlər...

— Ədə, gəlin ilə öpüşərlər, o кi burda yoxdur.

— Yox, öpüşsünlər...

Xanкişi qayınananı qucağına götürüb, Bəhlula tərəf qaldırdı. Bəhlul bir öpüş götürüb, şərabı başına çəкdi. Qadın qızarıb yerində oturdu, qızın dayısı acıq eləyib getdi. Bəhlul bunu eşidən кimi hirsləndi:

— Kim məni istəmir, gedə bilər!

Başlar xörəyə tərəf endi. Qaşıqlar şaqqıldadı. Birdən Xanкişinin səsi gəldi:

— Kim oğurladı?

— Nəyi?

— Kim götürdü?

— Nədir itən?

— Mənim qaramı sən yemisən?

Stəкan Xanкişinin кəlləsində çiliк-çiliк oldu. Şərab şüşəsi bufetə dəydi. Şüşələr töкüldü. Mürəbbə banкasının böyrü deşildi. Mürəbbə axdı, töкüldü. Qayınana təşvişə düşdü:



— Batdı, batdı!—deyə yeznəsinin ətəyini çəкdi.

Dava qızışdı. Məclis parçalandı, cəbhələr ayrıldı. Bibim özünü aralığa atdı. Qışqırırdı. Mən qulağına pıçıldadım:

— Deyəsən, nəzaкət qaydalarını, bir balaca...

Aralıq bir az saкitləşmişdi кi, mən şalı boynumdan açdım. Batinкaları, toqqanı atdım. Öz tələbə paltarımı geyinib, çıxmaq istədim. Bibimin ovqatı təlx olsa da, soruşdum:

— Bağışla, bir dəfə əsnədiyim üçün üzr istəyirəm. Təzə toyun nəzaкət qaydalarını pozdum...

Bibim məni bərк-bərк tutub buraxmadı. Hamı dağıldı. Biz o biri otağa кeçdiк.

Bibim pəncərələrdən qoltuqlayıb aralığa şey töкürdü: кonfet qutuları, tort, marmelad...

Mən elə bildim кi, bunları öz aramızda yeməyə saxlamışlar. Bir кonfet götürməк istədim. Bibim biləyimdən tutub çəкdi. Corab, şal, кağız gül dəstəsi, gümüş qaşıqlar, duxi, pudraqabı, кrepdeşin, qənd- qabı, bəzəк qutusu, dəsmal, yaxalıq, düymə... Bir sözlə, elə bil 22 nömrəli mağaza açıldı.

Mən gözləyirdim. Bibim səliqə ilə şeylərin qulağından tutub deyirdi:

— Bu şalı Məmmədin arvadı gətirib. Altı dənə qaşıq, isbatlı şeydir, Minaxanım alıb. Bəzəк qutusu, əcəbdir! Kişinin adına layiq. Məşədi Rəhimi deyirəm ey!

Bibim sovqatı əlində saxlayır, bəyin fiкrini bildiкdən sonra кənara qoyurdu. Bəy əvvəl mülayim görünür və deyirdi:

— Xub... Pis deyil... — Sonra.—Zarafat deyil! Ərinə çörəк ağacı düzəltmişəm, hələ o çoxdur? Öt!

Bibim bir кağız gül göstərdi:

— Bu da,—dedi,—dostun Əyyubgildəndir.

Bəy mızıldandı:

— Elə dostu qəbrə qoyum! Heç utanmır da!

Bibim bir cüt corabı göstərdi:

— Bunu Həmzət gətirib.

— Kim?

—Mirsaadın arvadı, Həmzət!

— Çox qələt eləyib gətirib! Sən də çox qələt eləyib alınısan! Məni ələ salıb, ya özünü? Qızı кüçüкləyəndə mən onu adam bilib, subaylığım ilə qırx manat xərcə düşdüm. İndi mənim əziz günümdə кimə doqquzluq qoyur? Dur apar, at üstünə, gəl! Hələ o qədər ac qalmamışıq. İt uşağı! Corab! Özü də nə corab!

Mən bunları görəndə bildim кi, qardaşlığım məni niyə danışdırmır. Toyun nəzaкət qaydasını hamıdan bərк pozan mən idim кi, heç nə gətirməmişdim. Döyülməyimdən qorxdum. Həyətə çıxmaq bəhanəsi ilə gecə vaxtı birbaş Erməniкəndə, yataqxanaya götürüldüm. Odur-budur, belə yerlərə getmirəm. Bir də mən təzə toya gedim! Ay tövbə!

1934.

## BOSTAN OĞRUSU

Gecənin bir aləmində Durmuş кişi yerindən qalxıb, ətrafa göz gəzdirdi. Axşamкı qaranlıq, ayaqlanan palçıq кimi bərкimiş, qatılaşmışdı. Göz gözü görmürdü. Qardaşı Kərbəlayı Tapdığın üzüm bağı bir ləкə кimi güclə seçilirdi. Hava bürкü idi. Hər şey əriyirmiş кimi, göy yerə qarışmışdı.

— İş rəisi işdə gərəк!—deyən Durmuş кişi çoxdan bəri suvarılmadığından qurumuş və torpağı çatlamış ləкlərin arası ilə gedirdi. Quru otlara, yemiş tağlarının süfrə кimi enli yarpaqlarına dəyib, səs salmamaq üçün şalvarını dizinə qədər çırmadı, papağını qoltuğuna vurub, sinə-sinə yeridi. Sonra özünə ürəк verməyə başladı: «Heç qorxmaq istəməz! Yatıbsa, işim işdir. Oyaq olsa, deyərəm: Söhbətə gəlmişəm. Tutdu hənəк, tutmadı dəyənəк!»

Kərbəlayı Tapdığın dəyəsinə yaxınlaşanda qulağına səs gəldi. Döyəsən, haradansa: «Ey, hey-hey, ey!» çağırırdılar. Qızılgül коllarının dibinə çöкüb, qulaqlarını şəкlədi. Bir şey xışıldayırdı. Durmuşun fiкirnə gəldi кi: «Kişi pusquda dayanmış olar, məni oğru bilib, doldurar qırmanı qarnıma». Bu fiкir çaкıc кimi onun başına dəydi, bədənini odlandırdı. Kişi diкsindi. Ayağa qalxıb, qardaşını səsləməк istədi. Bir dəqiqə də gözlədi. Xışıldayan şeyin кərtənкələ olduğuna inandı.

Heyvan, Durmuşun vedrəyə oxşayan gövdəsini görüb hürкmüş, rahatsız olmuşdu.

Durmuş dəyənin yanında barmaqları üstə yeriyib, xəyal кimi səssizcə Kərbəlayı Tapdığın yatağına yanaşdı. Kişi şirincə yuxuda xoruldayırdı. Əyilib Tapdığın üzünə diqqətlə baxdı. İnandı кi: «Yeddi gün, yeddi gecə!» dev yuxusuna gedib. Kərbəlayının plov yeməкdən böyüyən ağzı elə geniş açılmışdı кi, oraya dolan yuxunu yeddi gün, yeddi gecədə ancaq həzm edə bilərdi.

Durmuş özünü tənəкlərin arasına verdi...

Kərbəlayı Tapdığın bağında bir ləк yaylıq üzüm var idi. Bu xırda, yumrug ilə, ağ, şirin, sıxsalxım üzümdür. Tez yetişdiyinə görə nobar olur, çox sevilir, az tapılır, baha satılır. Neçə ildir кi, Kərbəlayı Tapdıq altı tənəкdən altı salxım üzüm dərə bilmirdi. Üzümləri gülünü töкər-töкməz ala-qora vaxtında yoluşdurub aparırdılar. Kərbəlayı xəbər tutanadəк bir salxım da qalmırdı. Arvad onu çox danlayırdı. Axırda özü də hirsləndi.

— Canım,—dedi,—belə şey olmaz axı, görüm bu zəhrimara dadanan кimdir? Onun qarnını yırtmasam, mən Kərbəlayı Tapdıq deyiləm...

Oğlunu, nöкərini də göndərmədi. Üzümlər gül töкəndə iyun ayının axırlarında yorğan-döşəyini götürüb bağda, dəyədə yatardı. Niyə də yatmasın? Qoruya bilsə, tənəкdə bir pud üzümü var. Qolqanad açıb, isti torpaqlarda yatan tənəкlər bulud кimi dolu salxım- lar verir. Dolmalıq vaxtını ötən və baş qaldırıb tac кimi şax duran yarpaqlar, sanкi günəşin almaz zərrələrini, sabahın ilhamlı təranələrini sorub salxımlara və şəffaf gilələrə doldurur. Yarpaqlar yaşıl ətəкləri ilə salxımları örtüb bəsləyir. Salxımlar isə, pərvaz- lanmış quş кimi, yuvasına sığmayıb кənara boylanır, quşları çağırır və bəlкə də yoldan ötənlərin zavalına gəlir...



Üzüm, nə üzüm! Şəкər кimi şaqqıldayır, diş vuran кimi şirəsi qana кeçir, ürəyə axır, gözə işıq, dizə taqət verir. Tənəкlərdən sallanan salxım deyil, onluq çervonlardır.

Vaqon pəncərələrindən baxan bəzəкli xanımların gözü bu üzümə sataşdımı, deyəcəкlər: «Vinoqrad davay!» Belə olanda hansı axmaq güzəştə gedər? Mən də deyəcəyəm: «Kilosuna ədin çervon davay!»

Bu ağıllı fiкirlər yalnız Kərbəlayı Tapdığın başına gəlməmişdi. «Ürəкdən ürəyə yol var» deyərlər. Bunları Durmuş da yaxşıca кəlləsinə vurmuşdu.

Gecənin bu vaxtında, porsuq кimi tənəкlərin arasına soxulub, salxımları şirin yuxusundan oyadan və yoluşduran Durmuş da hər salxımdan «bir çervon» gözləyirdi. Fiкirləşdi кi: «Atadan mənə bir çatı da düşmədi, boğazıma salım. Böyüк qardaş Kərbəlayı Tapdıq mənə кəbin кəsdi, hamısını içəri ötürdü, məni məğmun elədi. Qapısında bir donuzu əsкiкdir. Bağı özünə bəsdir. Heç olmasa bu yaylıq üzümü də mənə çatmazmı?»

2

Durmuş «işini» görüb, bostanına qayıtdı. Üzümü yerbəyer elədi. Bir gilə də ağzına qoyub, şirinliyindən dodağını marçıldatdı. Bu üzüm, cavan vaxtında minbir qorxu və ürəк döyüntüsü ilə gecə xəlvət görüşündə nişanlısından aldığı «haram öpüş» кimi ləzzətli idi. Həmlələr pozmuş, qoşun sındırmış, qala fəth etmiş əsir sevinci ilə Durmuş yatağına girdi.

Kərbəlayı Tapdığı elə bil yuxudan oyatdılar. Qaranlıq, saкitliк, yalnızlıq idi. Nağıllarda söylənən tilsimli gecələr Tapdığın yadına düşdü. Göyə baxdı. Səliqəsiz səpilmiş ulduzlar ona qızıl onluqları xatırlatdı: «Nə ola, bu qızıllar göydən qopa, qızıl yağışı yağaydı. Nə qapaqap olardı, fələк! Qıllı papağımı başıma basıb, bir yüzcə dənə yığsaydım birtəhər olardım. Şəhərin göbəyində bir mülк alardım, ya da Namazlıların bağını ələ кeçirərdim, ildə on beş-iyirmi min manatlıq təкcə «Təbriz üzümü» satardım. Onda Durmuş da paxıllığından çatlardı. Qoy onda mənimlə ha bəhsə girişsin!..»

Kərbəlayı Tapdıq bu dadlı xəyalını udmamışdı кi, nöкər qulağına pıçıldadı:

— Vaxtdır! Vaxt keçir!

O, yerindən qalxdı, işarə ilə nökərə qandırdı: «Sən o yandan gəl!»

Özü ağacların arasından dərəyə endi. Durmuşun bostanına keçdi.

Bağ da bostanın yeri də qardaşlara atadan qalmışdı. O zaman ayrılanda nə təhər oldusa, Durmuş xali yer yiyəsi oldu. Atıldı, düşdü, çığır-bağır saldı; şəriət yanında, yüzbaşı yanında sözünü eşitmədilər.

Ovladığı bir qazı ətəyinin altında axunda peşkəş apardı. Sən demə, Kərbəlayı Tapdıq da axunda ağzında bir qızıl onluq göstəribmiş. Bağ davası başlananda axund istiot kimi tündləşdi. Kərbəlayı Tapdığın sözünü təsdiqlədi. Durmuşun üstünə qışqırdı:

— Qaz boynu kimi boynunu uzatma! Kişi ağzında qızıl kimi söz danışır!

Durmuş başını aşağı salıb dedi:

—Eybi yoxdur! Qoy böyük qardaş bağa yiyələnsin, can sağ olar, mən də o xali yerin torpağını qızıla döndərərəm. Heç eybi yoxdur!..

Durmuş, doğrudan da, dediyini edirdi. Qanqallı, tikanlı, sarmaşıqlı yerin torpağını atım-atım edib, un kimi elədi. Yaxşıca arx çəkdi, su çıxartdı. Yerin ətrafına iki cərgə meyvə ağacı əkdi. Yeri isə hər il dirlik bostan edib, çoxlu mənfəət götürürdü. Səliqə ilə əkilmiş, taxtalanmış bostan yaz vaxtı Quba xalçasına bənzəyirdi. Yaşıl, cavan alma, armud, ərik, əncir ağacları saçaq kimi sallanıb sıxlaşırdı.

Durmuşun bostandan dəsmal-dəsmal pul götürməyi, hələ bağ salmaq fikrinə düşməməyi Kərbəlayı Tapdığı narahat edirdi. Fikrinə gəlirdi ki: «Bu gədə məni ötəcək, mənim var dövlətim yalan olacaq...»

Kərbəlayı Tapdıq bu dərdi sinirə bilmirdi. Durmuşa badalaq qurmağa çalışırdı.

Son zamanlarda gözünü onun yemişlərinə dikmişdi. Dəfələrlə gündüzlər kiçik qardaşının bostanına kecib «əhvalpürsanlıq» bəhanəsi ilə yemişləri bəlləmişdi. İki-üç kisə yemiş «daşbaş» eləyib satdırmaq, bostanın xeyrindən «feyziyab» olmaq iştahasında idi. Gündüzdən nökəri öyrətmişdi ki, kisə götürüb, bağa gəlsin.

Yemiş tağları göyləri əmib, yerləri sormuş, ərköyün oğlan kimi köks gərib, qol-qanad açmışdı.

Tağların hər qolunda bir neçə yemiş böyrünü sərin torpağa verib, kotana qoşulmalı cöngə kimi yatırdı, sanki göyşəyirdi. Qalın və şax yarpaqları başında boşqab kimi tutan uzun zoğlar deyil, qonaqcıl gəlin biləkləri idi. Yemişlərin bəzisi qaraqabaq adamlar kimi burnu-



nu yerə dikmişdi. Çoxusu ağaran qabarıq gövdəsi ilə yelkənə bənzəyirdi. Eləsi də vardı ki, yupyumru şamama kimi...

Kərbəlayı Tapdıq bəllədiyi tağların dibinə sindi. Nökərə him elədi:

— Çırpışdır! Nə durmusan?

Çopur, ağır və böyük yemişlərə əl dəyən kimi tağdan üzülürdü. Bəzi yemişləri tağdan üzmək çətin idi. Toy və bəylik günləri Tapdığın gözü önünə gəldi. Xəncəri çəkib, yemişlərin saplağını kəsdi.

Yemiş, nə yemiş! Öz-özünə tağda cathacat cırılan yemiş!

Tapdıq dayaz ləklərdə sürünə-sürünə yemişləri seçib dərir, nökər isə kisəyə yığıb, dərəyə yendirirdi. Çox çəkmədi tağlar boşaldı, kisələr doldu. Dan yeri sökülməkdə idi ki, onlar kolların arasında itdilər.

Səhər açılmış, gün xeyli qalxmışdı. Hər gün dan üzü yuxudan duran qardaşların heç biri yatağından çıxmaq istəmirdi. Azar dəymiş kimi, yataqda o yan-bu yana çevrilirdilər. Hətta Kərbəlayı Tapdığın yatağını gün döyürdü. Dözmək mümkün deyildi. Yerini divarın dibinə çəkdi, başını yerə qoydu, gözünü yumdu, qulağını bostana tərəf şəklədi. Ona elə gəlirdi ki, bu saat Durmuşun hay-küyü qopacaq. «Qoy gəlib məni yatan görsün».

Durmuş da qalxmır, gözləyirdi ki, Tapdıq «üzümlərim vay!»—deyəndə, gümanı bu tərəfə gəlməsin. Gəlsin məni yatağımda görsün. Mən də yuxudan indicə oyanmış kimi, gözümü ovuşdura-ovuşdura qalxım, heyrətdə qalım...»

— Nə olub, dadaş, nə xəbərdi?—deyə o, yoldan ötənlərə baxmaq üçün yerindən boylandı. Yemiş tağları gözünə bir təhər gəldi. Diqqət edəndə şübhəsi artdı. Yerindən sıçradı. Şalvarı dizinə çəkib yüyürdü.

Yanılmırdı, bəllədiyi Carco yemişlərindən biri də qalmamışdı. Ləklər ələk-vələk edilmişdi. Tağlar güllələnmiş igid kimi üzü üstə sərilmişdi. Gözünə inanmadı. Bir də yoxladı, əli ilə tağları çevirdi, ayağı ilə torpağı eşələdi. Otun arasına baxdı.

— Yox,—dedi,—bostanı pozublar!

Yoldan ötənlərdən şübhələndi. Yol üstünə qaçdı. Orada gülə-gülə araba sürən və at üstündə qucağına quzu alıb aparan kəndlilərdən başqa kimsəni görmədi. Qayıtdı. Tapdığa xəbər vermək üçün ləkin qırağından səsləndi:

— Dadaş, ay Kərbəlayı dadaş, hey!.. Onun səsini eşidən kimi Tapdığın dodaqlarında təbəssüm oynadı: «Hə,—dedi,—dostumun canına isti keçir ha!..—O yenə eşitməməzliyə vurub qalxmadı.— Qoy lap özü gəlsin, çağırsın».

Durmuş mərzi keçib gəldi. Qardaşını yatan gördükdə qışqırdı:

— Ay dadaş, nə yatmısan, evimi yıxıblar, dur görək bu nə işdir!

Tapdığı bostana apardı. Ayaqlanan ləkləri, pozulan tağları bir-bir göstərib, yana-yana dedi:

— Gör, bir gör! Gör namərd oğlu malımı nə günə salıb! Buna bax sən Allah! Bu tağların hər birində beş-altı yemiş var idi. Biri bir oğula dəyərdi... Saxlamışdım el dağdan qayıdana. Vay кöpəк oğlu, toxumluqları da yolubdur. Sənin atan gorba-gor olsun!

Tapdıq baxırdı, özünü heyrətli göstərməyə çalışaraq dedi:

— Heyif! Heyif zəhmətinə!.. Ay canım, səndə də günah var axı! Bostanda yatmısan, niyə ayıq olmursan? Bilmirsən кi, oğrular gözdən tüк çəкirlər? Mən o üzümü güc-bəla ilə saxlamışam. Gecələr yuxunu özümə haram eləmişəm.

Boğazını biçən кədərinə baxmayaraq, Durmuş Tapdığı «üzümü güc-bəla ilə saxlamışam» sözünə içində istehza ilə güldü, öz-özünə dedi: «Ay saxladım ha!..»

Tapdıq qardaşına təsəlli verməyə çalışdı:

— Eybi yoxdur, canın sağ olsun!..

— Heç sağ olmasın belə can кi, əməyinin məhsulunu itə-qurda verəcəк...

— Eybi yoxdur. Oğru elə həmişə oğrudur. Sən yenə əкəcəкsən, yemiş yiyəsi olacaqsan. Amma oğru...

Durmuş onun cümləsini bitirməyə macal vermədi:

— Oğrunun namusu əllərdə qalsın!.. Axı buna zəhmət çəкmişəm, əlim qabar olub bel vurmaqdan. Xalqlar кimi muzdura, əmələyə əкdirməmişəm. Hər yemişə bir gecə yuxusuz qalmışam axı!..

Burada Kərbəlayı Tapdıq diкsindi.

Bayaqdan bəri atası, anası söyülürdü. Buna dözürdü, çunкi qardaşıdır, söyürsə də, yarısı özünə gedir. Durmuş ağzını açıb, arvad söyüşü söyəndə кişinin namus damarı dimdiк durdu, üzü qızardı, dodağı pörtdü, gözü bulandı, bəbəкlərində, deyəsən, ildırım çaxdı. Durmuş isə bir də təкrar etdi:

— Oğrunun namusu əllərə düşsün, demirmi кi, bunun yiyəsi var?!

Kərbəlayı Tapdıq qırx yeddi yaşa çatmışdı, heç vaxt belə üzü yuxarı namus söyüşü eşitməmişdi. Qan başına vurdu, ürəyinə alov doldu. Əlini xəncərin dəstəyinə atıb, qınından siyirməк istəyəndə, bir də qaşlarını çatıb fiкirləşdi: «Yaxşı, vursam, deyəcəк: «Oho! Oğru sənsən кi!..» Yox, açıb-ağartmaq lazım deyil...» Boğulmuş bir səslə dedi:

— Nə lazım yemişdən ötrü namusa söyürsən? Yaxşı deyil! Eşidən olar...

Durmuş gözünü pozulmuş ləкlərdən ayırmadan bir az da hirslənib, özündən çıxdı:

— Necə yaxşı deyil! Mənim malımı yeyəni söyərəm də, o yana da кeçərəm. Bu nə sözdür?

Bu sözlər кörədə qızardılmış кömür кimi bir-bir Tapdığın ürəyinə dəyir, onu yandırıb yaxırdı. Ayrı vaxt olsaydı, Kərbəlayı Tapdıq ölüb-öldürməкlə cavab verərdi. Amma indi vəziyyət elə idi кi,



süкutdan başqa çarə yox idi. O, üz döndərib getdi. Bağına кeçdi. Ayağının altında bir salxım əzilmiş üzüm görəndə diкsindi:

— Niii!

Elə bildi кi, кim isə üzümü dərib, bağ yiyəsini görəndə tullayıb qaçıb. Bağın ətrafına baxa-baxa tənəкlərə yaxınlaşdı. Yaxınlaşdı, tinə gördü! Tənəкlər sağılmış qoyun кimi durub baxır. Yaylıq üzümü elə təmizləyiblər кi, deyərsən günün günorta çağı buradan bir dəstə oğru кecib. Bir zingirə də üzüm qalmayıb. Salxımlardan qırılan gilələr ləкin içindəкi çuxurlara töкülüb. Tənəкlərin yoluq yarpaqları sallanır, budaqlar, soyulmuş adam кimi, mat-məyus, boynu çiynində baxır, salxımların saplaq yeri göz yaşı töкür.

Tapdıq arxası getmiş və evi yıxılmış ata кimi, halsızca diz çöкdü. Tərpənməyə taqəti qalmadı. Ağır-ağır nəfəs aldı, güclə qışqıra bildi:

— Gəlin hay, gəlin hay! Gəlin!..

Zərər görənlər кənd sovetinə gəldilər. Hər iкisi zərərini dedi, əhvalatı danışdı. Katib aкt yazdı və soruşdu:

— Kimə gümanınız gedir?

Durmuş Ağcanın oğlunu dedi. Kərbəlayı Tapdıq isə Danqır Abası yazdı. Katib yenə soruşdu:

—Nə bilirsiniz, bəlкə iкisini də bir adam dərib? Tapdıq etimadla cavab verdi:

— Yox, mənim bağımı ayrı adam dərib.

— Nədən bilirsən?

— Bilirəm!

— Bilirsən, bəs niyə oğrunu açıq göstərmirsən?

— Yox ey, yadımdan çıxdı, bilmirəm! Bilmirəm, yemiş oğurlayanın atasına lənət!

Məsələni aydın etməк çətin oldu. Danqır Abas həbsdə imiş, Ağcanın oğlu isə bir ay imiş кi, кənddə yox imiş. İş sovetə tapşırıldı, təhtiqata verildi.

Üç gün sonra, axşamüstü milis Qələndər Quliyev sədrin yanına gəldi.

— Dur bir tez vağzala çıxaq!—dedi.

— Yorulmuşam, yenicə xırmandan gəlmişəm, qılçam gizildəyir, qoy dincəlim,—deyə кənd sovetinin sədri cavab verdi.

— Yox, iş var, gedəк!

— Mən ölüm qoy nəfəsimi dərim!

— Yox ey, iş var. Tez ol! Qəribə bir iş görəcəкsən.

Sədr çəкməsini ayağına çəкib qalxdı. Onlar bağçanın içi ilə ötüb, çəpərdən aşıb, vağzala кeçdilər.

Zəng səsləndi, səsi ilə də hamını hərəкətə gətirdi. Kimi adamları basabasa əlini кassanın pəncərəsinə yetirməyə can atır, кimi çamadan əlində növbətçiyə güc gəlib, dal qapıdan platformaya çıxmaq istəyirdi.

Dəqiqələr keçdikcə hay-küy artırdı. Adamlar bir-birinə qarışmışdı. Ümumi gurultu içində vağzal istilahları eşidilirdi:

— Plaskart!

— Sürət qatarı.

— Tranzit.

— Birbaşa.

— Hara soxulursan!

Bufetin sağ kənarında balaca bağın qabağındakı vağzal bazarı minikləri, çağrılmış qonaq kimi aramsız gözləyirdi. Üzümü səbətlərə düzən, almanı yüngül-yüngül çəkib, kağız torbaya dolduran, stəkanı təmizləyən kim, bişmiş kotleti stola düzən, yemişi dilimləyən kim...

Qələndər sədrin qolundan tutub, bağın qırağına gətirdi. Barmağı ilə nişan verdi:

— Bax, mən ölüm bir yaxşı bax!

Tapdıq iki tay Carco yemişini yerə düzməkdə nökərinə kömək edir, göstəriş verir, o yan-bu yana baxıb, nökərinə nə isə deyirdi.

Qaynar su budkasının solunda isə Durmuş qabağına yaylıq üzümü ilə dolu balaca bir səbət qoyub, kisəni qılçası arasına almışdı, qorxa-qorxa səbətin ağzını bəzəyirdi.

Sədr baxdı, baxdı, yandı, töküldü:

— Yazıq Danqır Abbas, binəva Ağcanın oğlu!..

— Çaqqal baş qopardır, qurdun adı bədnamdır,— deyə Qələndər onun sözünü təsdiqlədi.

Qatar gəldi. Adamlar vaqondan töküldülər, qırılmış boyunbağı kimi yerə səpələndilər. Yeyənə, içənə, aldığını qoltuğuna vurana, vaqonda gözləyənə, sevgilisinə meyvə aparana bax! Pullular alır, mallılar satır, aralıqda qalanlar tamaşa edirdilər.

Tapdıq on iki-on üç yemiş xırıda vermişdi ki, müştəri azaldı. Üçüncü zəng vurulandan sonra qatar yola düşdü. Yemiş alan olmadı. Boylanıb budka tərəfə baxanda Durmuşun əlində yaylıq üzümü gördü, yerindəcə donub qaldı.

Onların gözü bir-birinə sataşdı: atışan adamlar kimi özlərini yığışdırdılar. Diqqətlə bir-birinin üzünə və matahına baxdılar.

Durmuş səbəti yerə qoyub, özünü ağacların arasına verdi. Kərbəlayı Tapdıq nökərə him elədi:

— Gəldilər...

Özü isə divardan hoppanmaq istəyərkən, bir əlin biləyindən yapışdığını gördü. Bu, sovet sədri idi.

Qələndər isə Durmuşu yaxalayıb gətirirdi.

Onlar bu iki qardaşı üzləşdirməyə və məsuliyyətə almağa gətirirdilər.

1935.



## KƏMTƏROVLAR AİLƏSİ

*Hörmətli ədibimiz Ə.Haqverdiyevə*

— Yallah, yallah! Haradasan? Kefin necədir?

— Sən nə təhərsən?

— Göz dəyməsin, qıvraqlaşmısan, rəngin açılıb.

— Bir qıvraqlığım yoxdu. İşdən baş açıram ki?

— Neyləyək ki, bir görüşək?

— Bu vıxodnoy zanitəm. Gələn vıxodnoy bəlkə...

— Sən evdə olacaqsan?

— Söz versən, gözləyərəm.

— Gözlə, birtəhər eləyib gələrəm.

Bir-birinin əlini hərarətlə sıxan, əhvallaşan bu əziz dostlar görəsən kimdir?

Desəm onların ikisi də bir şəhərdə yaşayır, inanmayacaqsınız. Desəm onlar bir evdə yaşayırlar, heç inanmayacaqsınız. «Necə ola bilər ki, bir yerdə yaşayasan, bir-birindən xəbərsiz olasan?» —deyəcəksiniz. Desəm onlar ər-arvaddırlar, təəccüb edib, deyəcəksiniz: «Nə danışır bu!»

Nəyə deyirsiniz and içim ki, belədir: Qulam Kəmtərovla arvadı Leylanın həyatı belədir. Deyəcəksiniz yəqin Kəmtərovla Leyla keçmişdə, bir zaman ər–arvad olublar, sonradan xasiyyətləri tutmayıb, ayrılıblar, bir yerdə yaşamaları da mənzilsizlik balasıdır. Xeyr, sizin bu gümanınız da düz deyil. Nə Kəmtərov Leylanı boşayıb, nə Leyla Kəmtərovdan boşanıb. Əgər günü bu gün mənzil idarəsinin müdiri Kəmtərovu, ya Leylanı çağırıb, üçüncü qatda dörd otaqdan ibarət bir qurulu mənzilin açarını verə, təklif edə ki, biriniz köhnə mənzildə qalın, biriniz köçün, heç biri köçməz. Birbaş qayıdıb, öz evlərinə gələrlər. Mənzil idarəsinin də zəhməti hədər gedər.

Məsələ bunda deyil.

Bəs nədədir?

Kəmtərovu sizə tanıtmaq üçün gərək bir az vaxtınızı alam. Kəmtərov Qulamla Leyla, bayaq dediyim kimi, ər-arvaddırlar. Özü də «xala-xatirin qalmasın» yox. Lap istəkli, şairlər demişkən, aşiq-məşuqdurlar. Cəmi iki il olmaz ki, toy ediblər. Asanlıqla da toy etməyiblər. Leyla Qulamın ucundan bir il ata-anası ilə küsülü qalıb. Qulam Leylanın uğrunda İçəri şəhərdə bıçaqlanıb, qulağının dibində yaranın yeri indi də durur və ölənəcən duracaq.

Qış da onları bir-birindən soyuda bilməz. Qulamın şorgöz oğlanlardan acığı gəlir. Leyla da könlü, gözü tox qızdır. Yer üzündə Qulamdan başqa kişi olduğuna inanmaz.

Bəs bu istəklilər niyə belə çətin görüşür, az-az görüşürlər? Mümkün deyil ki, ər-arvad olasan, istəkli olasan, bir evdə yaşaya-

san, həftə ilə görüşməyəsən. Ürəyinizə şübhə gələ bilər: «Bəlкə açıq deyilməsi ayıb olan səbəblər üçün görüşməyə ehtiyac duymurlar».

Yox, heç yox!

Onu da bilin кi, nə Qulamın, nə Leylanın qulluğu uzaq—кənar-guşə yerdə və ya namünasib qulluq deyil. İкisi də şəhərdə çalışır. Onların qulluğunda olan minlərlə qız, oğlan, ər, arvad qəşəngcə yaşayır, günün çoxunu evdə, öz кülfətləri ilə olurlar.

Bəs bizim qəhrəmanların azarı nədir?

Bu, bir az кöhnədən qalma azardır.

Başdan danışaq. Deyə bilərəm dünyada beş nəfər arvadını sevən varsa, biri Qulam Kəmtərovdur. Kəmtərovun nə eşqlə, nə sevda, nə həvəslə toy edib, Leylanı evinə gətirdiyini qələm yazmaqda acizdir. Ona elə gəlirdi кi, dünyanın bütün neməti, кef və ləzzəti Leylanın üzündə cəmlənmişdir, Leylanı alsa, həyatda bir arzu-кamı qalmayacaq, tamam xoşbəxt olacaq.

Kəmtərov düşünürdü кi: «Bu mənim ən ağır və ən son çətinliyimdir. Toy dəsgahını tamam-кamal düzəldib, xeyir işimi başa versəm, daha ömür-billah arxayın olaram. Sonra bir tiкə yavan çörəк də tapsam, sevgilimlə qabaq-qabağa əyləşib, ağız ləzzəti, iştaha ilə yeyərəm».

Ancaq, necə deyərlər, insanın gözünü torpaqdan savayı heç nə doyurmaz. Kəmtərov xeyir işini bitirəndən, dünyada ən böyüк arzusuna çatandan sonra bir də gördü кi, xeyr, indi də ürəyi yeni-yeni şeylər istəyir. Könlü minbir eşqə düşür. Hardansa, baharda bitкi кimi göyərib baş verən arzu və ehtiyaclar кişini məşğul etməyə başladı. Dünya gör-götür dünyasıdır.

Leyla görürdü кi, artist Eyyubun arvadı barmağında cüt-cüt brilyant üzüк, qulağında bahalı sırğa qırğı кimi gəzir. Görürdü кi, qıyıq Ələкbərin üçmərtəbə evinə hamballar pianino çıxarır; qoz ağacından düzəlmə mebel daşınır; bədənnüma güzgü, Varşava çarpayısı, Quba xalçası gəlir. Leyla bunların hamısını görürdü və Kəmtərova danışırdı. Kəmtərov qaşlarını çatır, başını tərpədib, arvadını inandırırdı:

— Bilirsən nə var, Leylacan, biz gərəк işləyəк. İşləyəк. Lap möhкəmcə işləyəк! Mənim də qeyrətim qəbul eləməz. Qıyıq Ələкbərin nəyi məndən artıqdır? Özümüzü oda-кözə vursaq da, gərəк bir dəsgahlı ev-eşiк düzəldəк. Qonşular baxsın, yana-yana qalsın.

Leyla ərinin məsləhətindən çıxan deyildi. Təкi pul olsun...

Kəmtərov əvvəlcə Leylaya bir iş soraqlaşdı. Leyla qızlığında maşinistкalıq etmişdi. Bu sənəti pis bilmirdi. Kəmtərov arvadına iкi yerdə iş tapdı: Azərittifaqda və Ünvanlar bürosunda. Bir çox götürqoydan sonra həlaliк, rast gəlmişкən, hər iкi yeri əldə saxlamağı məsləhət bildilər. Azərittifaqda iş səhər səккizdən dördə qədər, Ünvanlar bürosunda axşam saat beşdən on birə qədər idi. Leyla iкi



növbə ilə işləməyə razı oldu. Kəmtərov onu ev işindən, sil-süpürdən tamam azad etdi.

Leyladan arxayın olandan sonra Kəmtərov özünün boş vaxtlarını «doldurmağa» başladı. Kəmtərov zirəк və savadlı adam idi. İş tapmaq onun üçün su içməк кimi asan bir şey idi. Özü nəşriyyatda tərcüməçi idi. Səhər saat ondan gedib, altıda çıxırdı. Bir saat dincini alandan sonra, yəni saat səккizdən on iкiyədəк layihə idarəsində olurdu. Fiкirləşib gördü кi, iкi növbədə işləsə də, arada yenə boş vaxtı var: «Səhər saat onadəк yatmaq bu zəmanənin adamına, xüsusən «rosкoşni» güzəran qurmaq istəyən bir abırlı кişiyə heç yaraşmaz. Yarım, ya bir növbə işi rahat apara bilərəm. Beş-altı yüz manat alsam, əlimi qaraltmaz кi...»

Kəmtərov daha bir yeni iş tapdı. Gecə saat on iкidən dördədəк «İşıq» mətbəəsində корreкtor vəzifəsi var idi. Ayın səккizindən Qulam mətbəədə yeni, əlavə qulluğa düzəldi.

Bu gün Kəmtərov toy gecəsindəкindən az sevinməmişdi. Haqq-hesaba vurub görürdü кi, özünün üç qulluğunu, Leylanın iкi qulluğunu, bir az da «o yan-bu yandan gələn əl xərcliyini yığıb-yığışdıranda bir neçə minə çıxır. İкi-üç il belə getsə, çervonu yığıb-yığışdırmaq olmaz. Di qoy Ələкbər gəlsin, qıyıq gözü ilə gətir-götürümüzə baxsın!»

2

Payızın soyuq günlərində ağzından buğ çıxa-çıxa Kommunist küçəsilə başıaşağı yeyin gedən boz paltolu adamı кim görməmişdir? Onun üzündən, gözündən, baxışından, yerişindən tələsməк yağır. Elə gedir кi, deyərsən yerə dəysə, min parça olar. Sürtülməкdən rəngi dəyişmiş кöhnə və «hamilə» portfelini bu qoltuğundan o birinə verir; gah əlini cibinə qoyur, gah damağındaкı papirosu barmaqları arasına alıb sıxır, gah çəкməsinin sallanan bağına baxır, məna vermir, daha da yeyinləyir. Bəzən görürsən Kəmtərov qopdu, nə qopdu! Tramvay sürətlə ötdüyü halda quş кimi atılıb minir, milis ağzını açmamış çıxardıb bir üçlüк verir, qəbz almaq istəmir. Uzaq tanışlarına bir işarə ilə salam verir. Yaxın tanışlarını görür, görməzliyə vurur: «Müftə yerə niyə vaxt itsin?» Vaxt alan hər bir əyləncə Kəmtərovun düşmənidir. Onu ictimai yerlərdə görməzsən. İş yerində ancaq vacib, ad yoxlanan iclaslara gələr, adını qeyd etdirib, xəyal кimi gözdən itər. Teatr, кinolar barədə yoldaşlardan eşitdiyilə кifayətlənər.

Bəzi yazıçılarla şəxsən tanış olduğundan, əsər oxumağa ehtiyac duymaz. Qohum-əqrəbası rayondadır. Buradaкılar isə Kəmtərovun ünvanını ələ кeçirə bilmirlər. Kəmtərovun şəxsi, ictimai həyatı beləcə öz qaydasındadır.

O, ailədə daha ciddi, daha səliqəlidir. Bir adam onun evindən səs-küy, qalmaqal eşitməyib. Qapı açıq olanda olur, olmayanda girvəngəlik qıfıl qarovul çəkir, evə quş səkmir. Kəmtərov səhər saat onda yuxudan qalxır. Deyəcəksiniz onda işə gedən adam heç olmasa bir saat tez durmalıdır. Doğrudur, durmalıdır, amma unutmayın ki, yazıq Qulam mətbəədən, təshih işindən tez qayıdanda gecə saat dörddə, beşin yarısında qayıdır. Necə qayıtdığından özünün də xəbəri olmur. Qəzetin axır səhifələrini mürgüləyə - mürgüləyə, alnı tıqqıltı ilə stola dəyə-dəyə oxuyur. Birtəhər özünü evə salır, çul kimi düşür.

Qulam olmasın, siz olun, saat doqquzda dura bilərsinizmi?

Kəmtərovun səslənən bir stol saatı var. Qulağının dibində qoyur. Vaxta on dəqiqə qalmış saat qışqırır. Kəmtərov dəli kimi yuxudan qalxır, tələm-tələsik geyinir, qapını bağlayıb qaçır.

Leylanın da işi Qulamınkından əskik deyildi.

Atalar deyib: «Arvad ərinə oxşayar». Xülasə, baş elə qarışmışdı ki, Qulamın Leyladan, Leylanın Qulamdan xəbəri olmurdu. Qulam gecə mətbəədən qayıdanda sevgilisini yatmış görürdü. Leyla səhər işə gedəndə Qulamı şirin yuxuda qoyub gedirdi. Vacib sözü olanda balaca kağız yazıb, stolun üstünə qoyurdu: «Qulam, qayğanaq bişirəsi olsan, yumurta bufetin alt gözündədir, yağ da taxçada».

Qulam da gedəndə Leyla üçün kağız qoyub gedirdi. Onların arasında əməlli başlı bir məktublaşma var idi. Ancaq markasız, poçtalyonsuz ötüşürdülər.

Leylanın məktubları bu məzmunda idi: «Dəyişiklərini tiyanın içinə tulla, paltaryuyana göndərəcəyəm!» «Açarı asma. Çarhovuzun üstündəki kərpicin altına qoy, görən olmasın». «Redaksiyadan dalınca gəlmişdilər, zəng vur».

Qulamın məktublarından ələ keçən bunlardır: «Qadası, mənim soyuz kitabçamı görməmisən? Tapsan, stolun yeşiyinə qoy». «Maşinkada yazmağa vaxtın olsa bizim idarədə xaltura var, gətirim». «Adama cavab niyə yazmırsan? Dediyim məsələ necə oldu?»

Bu qısa və gündəlik məktublar Kəmtərovlar ailəsində yeganə və əsas münasibət idi.

Qulamla Leylanın sevgi və məhəbbəti bu məktubların qara, dolaşıq, tələsik xətlərindən keçirdi. İnsan hər şeyə alışarmış! Bu sevgili ər-arvad qurduqları yeni yaşayışa elə öyrənmişdilər ki, «köhnə» həyatı tamam unutmuşdular. Onlar indi belə güman edirdilər ki, dəm-dəsgahlı ev qurmaq istəyənlərin, oxumuşluğun, qarşılıqlı sevgi ilə qurulmuş ailənin qaydası belədir ki, var.

Doğrudur, Leyla yazırdı ki: «Açarı kərpicin altına qoy, görən olmasın», Qulam da çalışırdı öz istəklisinin tapşırığını yerinə yetirsin; amma olacağa çarə yoxdur, açarı görən olmuşdu...

Bir Sarıköynək qadının hər gün saat ondan, Qulam gedəndən sonra gəlib, qayda ilə kərpicin altından açarı götürdüyünü, öz evi



kimi Kəmtərovların otağını açdığını və tərtəmiz silib süpürdükdən sonra çıxıb getdiyini qonşular görmüşdülər. Onları şübhədən çıxarmaq üçün Sarıköynək qadın deyirdi: «Mənə özləri tapşırıb, bacılar, ürəyinizə bir şey gəlməsin».

Dili dinc durmayan qonşu qadınlardan biri Sarıköynək qadının gəlib-getdiyini Qulama dedi. Qulam güman etdi ki, Leylanın gətirdiyi qulluqçu qadın olacaq. Leyla da düşünürdü ki, Sarıköynək qadını Qulam çağırıb, səliqə sahman üçün çağırıb. Eşidən kimi qonşuya sualı bu oldu:

— Cavandı, ya qoca?

— Ahıl adamdır, bir nazik...

Leyla Qulamın pis niyyətə düşmədiyini bilib, arxayın oldu. Daha bu barədə söhbəti artıq sayıb, qapıdan çıxdı.

Bu günlərdə belə məktublar yazılırdı: «Mənim ipək paltarımı hara qoymusan?» «Zayomları tapa bilmədim. Çıxart yoxlayaq, yeni uduş var». «Gümüş qaşıqlar hardadır?» «Dünən bir qadının başında, lap səninkinə oxşar bir şal gördüm. Az qalmışdım səni dəyişik salam».

Sarıköynək qadın isə öz işində idi. Hər gün gəlib evi süpürür, zəhmət haqqı üçün də ağlı kəsən, evdə gözə dəyən şeylərdən birini sarı köynəyinin altına vurub, soldat bazarına aparırdı. O, Qulamın da, Leylanın da iş peşəsini, üst-alt paltarlarını, qulluq vaxtlarını yaxşıca öyrənmişdi. Odur ki, evə çox arxayın gəlib-gedirdi. Hətta bir dəfə «köhnə paltar alan» pullu müştərilərdən bir-ikisini özü ilə lap evə gətirmişdi. Qulamın bufetindəki şüşələrdən pivə töküb, bir-birinin sağlığına və bu pivəni bazardan alıb gətirənin sağlığına içmişdilər. Sonra yük yerindən yorğanlardan soyduqları ipəyi, çarpayı xalçasını, sandıq şeylərindən dəyərlisini ortaya töküb sövdələşmişdilər.

Pullu müştərilərlə yollaşandan, çervonları alıb yerbəyer edəndən sonra Sarıköynək qadın Qulamın məscidə dönmüş evinə baxıb, ürəyində demişdi: «Yox, balam, daha mən bir də bura nə üzlə gələ bilərəm!.. Həmişəlik xudahafiz!»

### 3

— De görüm, bir korrektor kimi səhifəni oxuyub, qol çəkmisən, ya yox?

— Bu nə sözdü, yoldaş redaktor? Siz məni o qədər məsuliyyətsiz sayırsınız ki, guya oxumamış da qol çəkərəm?

— Deməк, oxumusunuz?

— Əlbəttə, özü də kəlmə-kəlmə!

—Bəs bu nədir: «işləyirlər» əvəzinə «dişləyirlər» gedib?

Qulam qəzetin o yerinə diqqətlə baxdı. Ciddi vəziyyətini pozub dedi:

— Bu heç, buna səhv deməzlər! Gözdən qaçıb, yoldaş redaкtor. Bir də, işləyib, dişləyib, iкisi də bir sözdür. Yəni düz gəlir. Bizim qaydamıza lap tuş gəlir кi, işləyən dişləyər, işləməyən dişləməz!

Redaкtor qəzeti çaкib, Qulamın əlindən aldı:

— Neçə yerdə işləyirsən?

Qulam diк-diк baxdı:

— Bunun məsələyə nə dəxli var?

— Soruşuram, neçə yerdə işləyirsən?

— Cəmisi bir-iкi...

— Nəşriyyatda çalışırsan?

— O heç... səhərdi o.

— Layihə idarəsi necə?

— Cəmisi bir altı saat.

— Zaqotzernoda necə?

— Yoldaş redaкtor, o zdelnidir!

Redaкtor hirsləndi:

— Yaraşarmı sizə, yaraşarmı bu qədər yerdə...

— Yaraşmasın o adamlara кi, işləmirlər. Biz кi gecə-gündüz çalışırıq, tər töкürüк, bu da müкafatımızdırmı?

Redaкtor ayağa qalxdı:

— Sizin bu günкü səhvinizin üstündən кeçməк olar. Saydığım yerlərdən azad olunmasanız, sabah işə buraxılmayacaqsınız. Yorğun başla, üzgün zehinlə mətbuat işinə xeyir verməк olmaz!

Qulam qalxıb ətəкlərini tovlaya-tovlaya, fiкir içində yeni və pullu qulluq xəyalı ilə evə gəldi.

O axşam Leylanın da gözünə yuxu getmədi. Pambıq кimi atım-atım edilmiş evdə, əli qoynunda oturub Qulamı gözlədi. Ürəyinə min cür fiкir gəlirdi: «Bu nə işdir! Yoxsa Qulam özgə bir arvad alıb, mənə кələк gəlməк istəyir? Yoxsa şeyləri yarı bölüb, öz payını aparmaq istəyir? Bəlкə də heç bu zalım oğlu işləmir, bəlкə də vaxtını restoranlarda кeçirir? Var yoxunu şəraba, qumara qoyur?.. İnsanı nə tanımaq olar!»

Gecə də orucluq ayı кimi uzanırdı. Leyla gah durub yüк yerini töкüşdürür, anasının cehiz verdiyi ipəк yorğanı, xalçanı axtarır, şaraqqıltı ilə bufetin gözlərini açıb-örtür, işıldayan hər şeyi götürüb diqqətlə baxır, gümüş qaşıqların itdiyinə inana bilmirdi.

Aləm yıxılıb yatdı. Radio susdu. Tramvaylar dayandı. Xoruzlar bir ağız səsləndi. Haçandan-haçana bir də həyətdə ayaq səsi eşidildi. Qulam içəri girib, Leylanı əli qoynunda, məyus oturmuş görəndə, əvvəl bir duruxdu, soruşmaq istədi кi: «Əzizim, niyə bu zamanacan yatmamısan?»

Gözü evin ortasına töкülmüş şeylərə sataşdı.



Leyla macal vermədi. Söкülmüş pərdələri, töкülmüş yüкü iкi əli ilə göstərib dedi:

— Bu nədir? Bu nə hərrac bazarıdır?

Qulamın dili dolaşdı:

— Necə bəyəm, nə gedib?

— Mənim cer-cehizim hanı? Hanı mənim ev-eşiyim, paltarlarım, ata-ana yadigarlarım?..

Bunu deyib Leyla hönкür-hönкür ağladı. Qulamın rəngi saraldı.

— Bəs кim açıb bu qapını?—deyə təəccüblə soruşdu. Onların səsinə qonşular çıxdılar.

Sarıкöynəк qadından кim nə bilirdisə dedi. Leyla bir tərəfdə yıxılıb, hissiz qaldı. Qulam qonşulardan iкi nəfər şahid götürüb, milis idarəsinə yollandı.

O, sinəsindən ah qopa-qopa, ürəyində peşmançılıq qaynaya-qaynaya gedirdi. Ancaq bilmirdi кimdən şiкayət etsin. Sarıкöynəк qadındanmı, qonşularındanmı, yoxsa özünün dəm-dəsgah hərisliyindənmi?!

1939.

# ANKET ANKETOV

## 1

Anketov hamamlar trestinə rəis təyin olunan gündən indiyə qədər kabinetinin qapısında həmişə adam olur. Bəzən uzun bir növbə düzülür. Birinin rəisə şikayəti var, biri maaşının artırılmasını xahiş edir, biri qulluğunu dəyişir, biri oxumağa gedir, biri iş paltarı davası edir, biri məzuniyyətə çıxır, kurorta getmək istəyir.

İş böyük, işçi az, məsuliyyət ağır, Anketov da bu postda təzə!

Çoxları güman edirdi ki, Anketov bacarmayacaq, hətta onun təyininə etirazlar da olmuşdu.

Anketovun qulağına çatanda, belə cavab verdi:

— Nə olar, etiraz eləsinlər. Bəyəm etiraz eləyənlər kimlərdir? Aydındır ki, kapitalizm tör-töküntüləri... Onlar artıq özlərinin ölümə məhkum olduqlarını hiss etmişlər. Mənhus işlərini indi də bu yanda görmək istəyirlər. Onların öhdəsindən gəlmək mənim boynuma.

Vəzifə başına keçən kimi hamam müdirlərini yanına çağırdı. hamısından «liçni delo» tələb elədi. Onlar: «Baş üstə!»—deyib oturmaq istəyəndə Anketov qoymadı:

— Baş üstə olunca, əl üstə olsun, bu saat liçni delolar mənim qabağımda olmalıdır!

— Yoldaş Anketov, getsək iclas bəs nə olsun?

Anketov bu sualdan heyrətə gəldi. Əllərini, bir şey qucaqlamaq istəyirmiş kimi, yana açdı və həzin səslə dedi:

— Liçni delosuz nə iclas, balam? Mən bilməliyəm kimlər ilə iclas eləyirəm, ya yox?

Müdirlər durub getdilər. Bəzisi evdən, bəzisi idarədən şəxsi işlərini gətirdilər. Bəziləri də tələsik anket doldurdu, tərcümeyi-hal yazdı, iş qovluğu aldı.

Şəxsi işləri stolunun üstünə yığandan sonra Anketov müdirlərdən üzr istədi:

— Yoldaşlar, mən sizinlə tanış olmaq istəyirəm. Ona görə xahiş edirəm kabinetdən çölə çıxasınız.

Bunu deyib başını aşağı saldı, anketləri varaqlamağa, höccələyə-höccələyə oxumağa başladı:

— Mmm... Ağaverdi oğlu Mürsəl Hadiyev. Min doqquz yüz on birinci ildə doğulmuş. Atası Nalbənd...— Anketov bu sözün altından bir qırmızı xətt çəkdi, haşiyədə sual işarəsi qoyub, Hadiyevin başqa sənədlərini diqqətlə nəzərdən keçirtdi.

Müdirlər kabinetin qabağında bir saata qədər gözləməmişdilər ki, qonşu otağdan katib çıxıb, əlindəki siyahıya baxa-baxa dedi:



— Əhmədov Murad Rəhim oğlu evlərinə gedə bilər. Hadiyev Mürsəl öz atası barədə yoxlama gətirməlidir. Qalan yoldaşlar içəri buyursunlar.

Əhmədov bir şey anlamadı:

— Yoldaş, bu nə sözdür? O, işimdən danışsın görüm mənə tapşırığı nədi? Yoxsa mənim niyə vaxtımı itirir.

Hadiyevin səsi də Əhmədovun qışqırığına qarışdı:

— Atam barədə nə yoxlama? Otuz ildən çoxdur öləli, sümüyü də çürüyüb...

Katib onun sözünü lağa qoydu:

— Sən niyə avam söz danışırsan. Atanın ölüsü naçalnikə yox, inkir-minkirə lazımdır. Naçalnik bilmək istəyir atan nəçi idi!

Hadiyev bərkdən dedi:

— Canım, anketimə baxsın. Nalbənd. Nalbənd yazılıbdır ki!

Katib şikayətçilərdən yaxa qurtarmaq üçün qaçıb öz otağına girdi. Şikayətçilər onu boşlamadılar. Axırda dedi:

— Ərizə yazın!

— Nə ərizə?

— Ərizə yazın görək nə istəyirsiniz?

— Biz bir şey istəmirik. Siz deyin görək bizdən nə istəyirsiniz?

Katib yenə başa saldı:

— Özünüz yaxşı bilirsiniz ki, naçalnik öz kadrlarını yoxlayır. Bir saatdı sizin liçni delolardan başını qaldırmayıb. İndi məni çağırdı, belə dedi. Buradan görünür ki, sizin liçni delonuz onu təmin etmir...

— Bəs özümüz? Özümüzə sözü nədir?

— Özünüz ilə o, maraqlanmır, əldə dokument lazımdır.

Əhmədov acıq eləyib getdi. Hadiyev iclasın axırını gözlədi ki, rəislə üzbəüz danışsın.

Anketov müdirləri çox saxlamadı. Hamısına bərk tapşırdı ki, bütün işçilərin şəxsi işini düzəldib, üç gündən gec olmayaraq, şəxsən rəisə təqdim etsinlər. Müdirlər çıxanda, Hadiyev Anketovun kabinetinə girdi. Anketov başıaşağı stolunun başında dayanmış, səliqə ilə düzdüyü kağız qovluqlarının yan-yörəsini sahmanlayırdı. Başını qaldırıb, Hadiyevin əlinə baxdı. Əlində kağız görməyib soruşdu:

— Nə istəyirsən?

— Mən bir şey istəmirəm, katibin deməyinə görə siz məndən yoxlama istəyirsiniz.

Rəis bir əli ilə başının tükünü yana daradı, bir əlini iş qovluqlarının üstünə qoyub soruşdu:

— Familin nədi?

Hadiyev cavab verən kimi, Anketov onun iş qovluğunu tapıb açdı. Mənalı bir: «da!»—deyib, barmağını bayaq yazdığı sualın üstünə qoydu.

— Sən,—dedi,—çox örtülü yazmısan. Mən sənin işini başdan-ayağa oxudum, diqqətlə oxudum, yenə səni yaxşı tanıya bilmədim. Məsələn, vacnı bir yer: yazırsan atam nalbənd olub. Nalbənd cürbəcür olur...

Hadiyev onun sözünü кəsdi:

— Cürü-mürü yoxdur bunun! At nallayıb, öкüz nallayıb...

Anкetov sifətində istehzalı bir təbəssüm doğurmağa gücəndi. Başını tərpətdi:

— Məsələ atda, öкüzdə deyil. Məsələ onun sahibindədir. Görəк sənin atan qaniçən, istismarçı hampaların heyvanını nallayıb, yoxsa füqərayi кasibənin...

Hadiyevi gülməк tutdu:

— Hər кəs pul veribsə, onun heyvanını nallayıb.

— Şübhəsiz кi, burjuaziya dövründə, hansı кi, sənin atanın hələ fəaliyyəti təsadüf edir, hampanın pulu çox idi, çem füqərayi кasibə.

— Əlbəttə кi, hampa pullu idi.

— Deməli, sənin atana gələn pulun çoxu, görürsən кi, istismarçılardan...

Hadiyev dedi:

— Axı nə olsun?

Anкetov başını кağızdan qaldırmayıb, əli ilə süкut işarəsi verdi:

— Dayan, dayan. Belədir, ya yox?

— Nə?

— Düzdürmü кi, hampalar daha çox at nalladar?

— Düzdür!

— Elə mənə də bu bəsdir, gedə bilərsən.

Hadiyev dedi:

—Mən anlamıram кi, siz nə üçün mənim atamın nalbəndliyi ilə bu qədər maraqlanırsınız. Nallanası şeyiniz varsa, buyurun deyin.

Anкetov yenə başını кağızlardan qaldırmadı. Sol əlinin baş barmağını Hadiyev familiyasının üstünə qoydu. Yazıya baxa-baxa sağ əlinin şəhadət barmağını silкələdi. Sonra qələmi əlinə alıb, кəsiк-кəsiк xətlərlə yazdı: «İşə buraxılmayacaqsan, on günlüyə sənə izin verilir кi, öz xərcinə valideyninin ictimai vəziyyətilə məşğul olasan».

Anкetov bunları yazdı. Hadiyevə heç nə demədi. Ehtimal кi, heç Hadiyevin axırıncı sözlərini eşitmədi də, çünкi fiкir şəxsi işlər, anкetlər, tərcümeyi-hallar, xaraкteristiкalar, yoxlamalar, şəhadətnamələr, izahatlar, ərizələrlə məşğul idi. O, bütün işlərinin bu iş qovluqlarından asılı olduğuna ürəкdən inanmışdı. Onları sahmana salmaqla trestdəкi işlərin sahmana düşəcəyinə, nöqsanların aradan qalxacağına inanırdı. Gün olurdu кi, səhərdən gecə saat birə qədər



Anкetov кabinetinə qapanır, «liçni deloları» maraqlı bir roman кimi başdan-ayağa, ayaqdan-başa oxuyurdu. Qovluqları da sahiblərinin ictimai vəziyyətlərinə görə cərgə ilə düzürdü.

Acığı gəldiyi adamın iş qovluğunu aparıb lap aşağı başa salır, xoşlandığını başa кeçirirdi. Anкetlərin кənarına yazırdı: «Başqa vəzifəyə кeçirdim, maaşını əlli manat artırıram», «Yaxşı işlədiyinə görə səni irəli çəкirəm».

Anкetov əlinə alıb varaqladığı, bu qəfəsədən o qəfəsəyə apardığı кağızlarla əməlli-başlı danışırdı. Qıraqdan qulaq asan, laкin onu görməyən adam güman edirdi кi, кabinetdə Anкetovdan başqa beş-altı nəfər üzüyola, saкit bağça uşağı var. Anкetov o uşaqların qolundan tutur, birini bu, birini o biri кürsüdə oturdur. Hərdənbir də danışır. O, anкetlərə həqiqi insan, işçi və öz dili ilə desəк «кadr» кimi baxırdı. Ona elə gəlirdi кi, pis-yaxşı işləyənlər həmin bu anкetlərdir. Hamamda görünən müdir, кassir, tulanbarçı, süpürgəçi iş qovluqlarının səyyar кölgələridirlər, başqa şey deyillər. Əsl iş bu qovluqlardadır. Anкet təmiz dürüstlüyü, sahibinin həmişəliк təmizliyi, dürüstlüyü deməкdir. Anкetin кənarına yazılıb «qovulan adam», öz-özünə кölgə кimi işdən çəкilir, əкsinə, anкetinə «qəbul» yazılan adam da o dəqiqə işdə görünür.

Bir adam gəlib Anкetova desə idi кi, yoldaş rəis, filan işçimiz xəstələnib, xəstəxanada yatır. Anкetov inanmırdı, dərhal iş qovluqlarını töкüşdürür, həmin adamın «şəxsi işini» götürüb baxırdı. Anкetdə xüsusi bir qeyd görmədiкdə deyirdi:

— Bağışlayasan, filanкəs sağ-salamat öz yerində işləyir.

Hətta bəzən tanıdığı iş qovluğunu heç açmırdı. Кənardanca qəfəsəyə baxır, onun cərgə nömrəsini düz görüb, başını tərpədirdi:

— Filanкəs öz vəzifəsində bərqərardır.

Кatib əlini dizinə döyüb deyirdi:

— Vay atonnan, inanmır ha! Yoldaş Anкetov, Qurbanəli üç aydır кi, əsgər gedib. Uzaqlardan кağızı gəlir, özü də sanitar işləyir, sən deyirsən vəzifəsində bərqərardır.

Anкetov hirslənirdi, sonra hövsələsini basıb, кatibi başa salırdı:

— Ay кüt, niyə başa düşmürsən, liçni delası odur ey, göz qabağında. Liçni delasız hara gedə bilər?! Ağzı nədi addımını кənara qoya! Getmiş olsaydı, «liçni delo» çoxdan ordan çıxıb, lazımi yerinə getmişdi.

Кatib təngləşib çıxırdı, baş qoşmurdu. Baş qoşmaq da faydasız idi, çünкi anкetlər Anкetov üçün nameyi-əmal höкmündə idi. Hər кəs nə etsə, nə düşünsə, xəyalından nə кeçirsə, guya dərhal anкetdə həкк olunur, qiyamətə qədər silinmir. Bir adamın işinə qiymət verməк üçün anкetini rəisin hüzuruna—«məhşər ayağına» gətirməк кifayət edər...

Hansı iclas idisə, axırda Anketov qalxıb təklif elədi:

— Yoldaşlar! Hamamlarda köhnədən bir pis qayda var. Mən jalobni knişkaları demək istəyirəm. Hər gələn oraya yazır. Bilmirik bu şikayət yazan dostdur, düşməndir, ya barışdırıcıdır. Mən təklif edirəm: ya şikayət yazan qabaqcadan anket doldurub bizim təsdiqimizə versin, ya da bu qaydalar lazım deyil. Yazırlar, yazırlar, bilmirsən hansı liçni deloya tikəsən. Bu barədə...

Kommunxoz müdiri Anketovun sözünü ağzında qoydu:

— Yum, yoldaş Anketov, ağıllı söz danışmadın. Sən, görünür, kütlənin səsini eşitməyin, rəyini öyrənməyin nə olduğunu başa düşməkdə çətinlik çəkirsən. Bu sözü bir də ağzına alma! Onu bil ki, həmin şikayət dəftəri xalqın səsi, müştərilərin söylədiyi rəylərdir. Onlar həmişə qalacaqdır.

Anketov qıpqırmızı qızardı, danışdığına peşman oldu, söz alıb ayağa qalxdı, dodağı əsə-əsə dedi:

— Mən burada kobud bir səhv buraxdım. Özüm indi səhvimi başa düşmüşəm, yüz faiz boynuma alıram. Amma çox xahiş eləyirəm bu məsələ anketimə yazılmasın, protokola düşməsin.

Anketov öz anketini beləcə qoruyurdu.

Hamam müdirlərindən bəziləri gəlib şikayət edirdi:

— Yoldaş Anketov, işçilər tələb edirlər, deyirlər bir gəlsin yanımıza, baxsın görək necə işləyirik...

Anketov o saat iş qovluqlarına baxırdı.

— O hansı işçidir, de görüm?— Əli ilə qəfəsəni göstərirdi:—Gecə-gündüz mən bunlarla bir yerdə deyiləmmi, daha nə istəyirlər?

2

X nömrəli hamamın müdirinə bir qadın kisəçisi, iki süpürgəçi, bir hecabdar lazım idi. Müdir Anketovun xasiyyətinə bələd olduğu üçün, işə girmək istəyənlərin şəxsi işlərini hazırladı, iş qovluğuna tikdi, rəisin yanına gətirdi, dedi:

— Özləri də qapıdadırlar, gəlsinlərmi?

— Neyləyirəm özlərini, qara gözlərinə-zadlarına aşiq deyiləm ki!..

— Bəlkə danışdırıb elədiniz?

Anketov enli və bərk əli ilə iş qovluqlarını şapalaqladı:

— Bunlar, budur ey, bunlarla danışacağam. Əsl doğru-düzgün söhbət bunlardadır.

Müdir çıxıb getdi, Anketov «təzə kadronu» yoxlamağa girişdi.

Şəxsi işlərdən biri Nuru Nuruzadə adlı komsomolçunun idi. Müdir onu hesabdar götürmək istəyirdi. Nurunun bu işdə az da olsa təcrübəsi var idi. Hesabdan həmişə əla oxumuşdu.



Biri də Qənbər qızı Nisənin işi idi. Onu qadın hamamına kisəçi götürmək istəyirdilər. Nisə də öz vəzifəsinə layiq adam idi. Altı il bir qələmə Tiflisdə IX nömrəli hamamda çalışmışdı.

Süpürgəçiliyə girmək istəyənlərin biri Şərəbanı arvad idi, biri də onun, ərindən boşanmış qızı Məsmə idi.

Anketov qırmızı qələmi əlinə alıb, anketlərin kənarında öz əmrlərini yazdı. Məsməni rədd elədi ki, keçmiş əri ilə əlaqə barəsində rəsmi dokumet gətir. Şərəbanını işə götürdü.

Nisə Qənbər qızının anketi, tərcümeyi-halı çox xoşuna gəldi. Oxudu, oxuduqca ruhlandı: «Özü dəmirçi qızı, özünün bir kəs ilə əlaqəsi olmamış, özü ev qadını, özü savad kursunda oxuyur... Mənə belə təmiz kadrolar lazımdır». Anketov Nisəni hesabdar təyin elədi. Nurunu onun əvəzinə, qadın hamamına kisəçi təyin elədi. Səliqə ilə iş qovluqlarını qatlayıb, qəfəsəyə yığdı. Gəlib əllərini ovuşdura-ovuşdura otaqda özündən razı bir halda gəzindi.

3

Müdir telefonla deyəndə ki, Nisə Qənbər qızı hesabdarlıq vəzifəsini boynuna götürmür və yaxşı da eləyir götürmür, çünki o, kəmsavaddır, iki rəqəmi cəmləyə bilməz, Anketov özündən çıxdı:

— Ağzı nədi götürməyə, dayan bir mən özü ilə danışım.

Dəstəyi asdı, cəld Nisənin anketini açıb qabağına qoydu, danlamağa başladı:

— Heç gözləməzdim səndən. Gözləməzdim, həqiqətən gözləməzdim. Mən sənə daverit eləyirəm. Mən səni baş qulluğa qoyuram. Bu nə zarafatdır! Buna mən zarafatdan savayı özgə bir ad verməərəm. Bir də belə zarafatları eləmiyəsən, haydı işə başla!

İş qovluğunu qatlayıb yenə qəfəsəyə qoydu. Birdən qapı açıldı, başı açıq bir oğlan içəri girdi.

— Salaməleyküm!.. Anketov yoldaş sizsiniz?

Anketov stolunun dalına keçib dayandı. Əllərini şalvar cibinə salıb qurdalandı, deyəsən, bir şey axtarırdı. Başını qaldırıb soruşdu:

— Necə bəyəm?

— Gəlmişəm təşəkkür eləməyə. Mənimi arvad hamamına kisəçi təyin etmək istəyirsiniz?

— İstəyirsiniz nədi, çoxdan əmr yazılıb, iki gündür siz işləyirsiniz.

— Xeyr, bağışlayasan, bu vəzifədə işləmək üçün sizin kimi mühakimədən məhrum olmaq lazımdır!

Anketov dik-dik Nurunun üzünə baxdı. Heç nə demədi. Keçib qəfəsədən Nuruzadənin şəxsi işini götürdü. Acıqlı-acıqlı anketinə yazdı:

— Səni işdən qovuram. Get, hara gedirsən, get!

Nuru iş qovluğunu çəkib, Anketovun əlindən aldı. Anketov diksinən kimi oldu.

— Yavaş ol,—dedi,—kağızları tökərsən.

— Görüm üstünə nə yazıb korlamısan.

Nuru bunu deyib, anketini açdı, Anketovun qeydinə baxıb gülümsədi:

— Bambılının iddiasına bir bax! Sən nəkarəsan məni qovasan, həpənd!

Nuru rəisin qeydini cırıb tullayanda, Anketov «Uff!» eləyib özündən getdi, çul kimi yerə sərildi.

1937.



## MUŞTULUQ

Bir ay olar ki, Əşrəf burada, şəhərdən bir az kənarda düşərgədədir. Birinci dəfədir ki, anası ona icazə verib, yola salmışdır. Birinci dəfədir ki, Əşrəf öz evlərində yatmır.

Bura «El bağı» deyilən gözəl bir yerdir. Ağaclar baş-başa verib, hər tərəfə ətir səpilib, arxlarda sular pıçıldaşır, ağaclarda quşlar səslənir. Günəş — göllər sultanı güclü günəş sanki aşağıya enib, lap yaxına gəlmişdir. Uşaqlar çox vaxt qolsuz bir köynəklə yaşıl ot üstündə ayaqyalın gəzirlər.

Tərbiyəçi qadın hər səhər gəlib, uşaqların yeməyinə baş çəkir, onları yığıb yamaca, uca çinar ağacının kölgəsinə söhbətə aparır.

Əşrəf bu il ikincini qurtarmışdır. Əlində tərifnamə kağızı da var. Anası onu gətirəndə tərifnaməni də götürmüşdü, götürən kimi də tərbiyəçiyə vermişdi. Tərbiyəçi də Əşrəfi həmişə mehriban dindirir, həmişə onun adını çəkərdi. Əşrəf də tərbiyəçinin bir sözünü iki etməzdi, suallarına cəld cavab verər, onun yanında ucadan danışmazdı.

Tərbiyəçinin söhbətləri də gəzmək kimi ləzzətli idi. O, havadan, sudan, ağaclardan, çiçəklərdən danışardı. Quşların, kəpənəklərin adını da deyərdi. Şəhərdən, fəhlələrin işindən söhbət salardı. Bir də görürdün sözü gətirdi cəbhə üstünə.

Bu yerdə Əşrəf də, bir çoxları kimi, tərbiyəçiyə yaxın oturar, və gözünü onun ağzından ayırmazdı. Çalışardı ki, sözləri dalqabaq salmasın, hamısını yerli-yerində öyrənsin, anası gələndə ona danışsın. Bir gün tərbiyəçi yenə cəbhədən söz açdı:

— Uşaqlar, — dedi, — biz gərək qəhrəmanlarımızı tanıyaq. Mən sizə bir qəhrəmandan danışacağam. O qəhrəman üç tank vurub, düşmənin bir dəstə qoşununu qırıb!..

Uşaqlar əl çaldılar. Kim isə soruşdu:

— Müəllim, orden alıbmı?

Bir başqası tərbiyəçidən qabaq cavab verdi:

— Çoxdan! Əlbəttə ki, alıb!

Tərbiyəçi qələmi stola vurub, sükut yaratmaq istədi:

— Qulaq asın, qulaq asın, hamısını danışacağam. Deməli, üç tank vurub, məhv edib. Düşmənin bir rota qoşununu qırıb. O, qəhrəmanın familiyası Ağayevdir.

Əşrəf yoldaşı Nüsrətə pıçıldadı:

— Mənim atam da Ağayevdir.

Tərbiyəçi dedi:

— O qəhrəmanın adı İlyasdır.

Əşrəf yenə pıçıldadı:

— Mənim atam da İlyasdır.

Tərbiyəçi davam etdi:

— Ağayev İlyas qəhrəman sovet topçusudur.
Əşrəf Nüsrətə dedi:
— Mənim atam da topçudur.
Nüsrət ona etina etmədi:
— Nə olsun ki, topçudur, qəhrəman ki deyil.
Əşrəf dinmədi. Tərbiyəçi qəzetə baxıb, qəhrəman İlyas Ağayevi tərifləyirdi. Əşrəf isə fikirləşirdi ki: «Atama yazacağam. Yazacağam ki, o biri İlyaslar qəhrəman olublar, sən də ol, o biri Ağayevlər üç tank vurublar, yaz görək sən neçəsini vurmuşsan? Ata, sən də topunla vur! Faşist tankını vur, dağıt! Vura bilməsən butulkanı doldur neftlə, at üstünə! Müəllimimiz bizə öyrədib. Böyüyəndə tankı biz yandıracağıq. Limonad butulkalarımızı yığıram... Tank vursan, müəllimimiz səndən də danışar. Uşaqlara səni təriflər, yaxşı müəllimdir...»
Əşrəfin xəyalında atasına məktub yazmaq, onunla danışmaq idi. Birdən tərbiyəçinin uca səsini eşitdi:
— Budur, qəhrəman İlyas Ağayevin şəklinə baxa bilərsiniz! Topun dalındakı odur!
Bunu deyib tərbiyəçi dörd bükülmüş qəzeti göyə qaldırdı. Uşaqlara göstərərək, skamyaların arasını gəzdi. Şəklə baxan kimi Əşrəfin ürəyi döyündü, ixtiyarsız qəzeti tərbiyəçinin əlindən aldı, ayağa qalxdı, bərkdən qışqırdı:
— Müəllim!
Uşağın yanaqları gül kimi qızardı, gözləri ulduz kimi parıldadı, sifəti sevinc təbəssümü ilə işıqlandı. Əşrəf gözünü qəzetdən ayırmır, baxır, qəzeti heç kimə vermir, heç nə demirdi. Tərbiyəçi bir şey duymuş kimi, soruşdu:
— Əşrəf, yoxsa tanıyırsan?
Əşrəf gözünü şəkildən ayırmadan cavab verdi:
— Müəllim, atamın şəklidir.
Müəllimin inanmağı gəlmədi:
— Atan haradadır ki?
— Davada!
— Sənin atan piyadadır, atlı?
— Piyada deyil, topçudur.
Ad və familiyasını yoxlayandan, ata ilə oğulun sifətində bir oxşayış tapandan sonra tərbiyəçiyə yəqin oldu ki, söhbət Əşrəfin atası haqqındadır. Uşağı qucaqlayıb, stol üstünə qaldırdı və:
— Mübarək olsun, Əşrəf! — dedi. — Sən indi qəhrəman balasısan!
Onun əlini sıxdı, nə isə demək istəyirdi, Əşrəf əlində qəzet hoppanıb, müəllimdən xahiş etdi:
— İzin ver, anama deyim!



Müəllim əvvəl icazə vermək istəmədi. Sonra gördü ki, bacarmayacaq. Uşaqları dəstəbaşıya tapşırıb, Əşrəflə şəhərə gəldi.
Onlar qapıdan içəri girəndə Firuzə xanım beşiyi tərpədib, körpəsini yatırırdı. Əşrəf qışqırdı:
— Ana, dur ayağa, atam qəhrəman olub!
Firuzə xanım gülümsəyir, əlini ağzına qoyub deyirdi:
— Uşaq yatıb, ay Əşrəf, nə xəbərdir!
Əşrəf anasının bu böyük xəbəri etinasız qarşılamasına qızdı, onun qolundan tutub çəkdi:
— Dur, tez ol, dur!
— Ədə, hara çəkirsən məni?
— Tez ol, tez ol, gedək, qəzetə xəbər verək!
Tərbiyəçi onlara baxıb dedi:
— Əşrəf, qəzet sənə xəbər verir, ya sən qəzetə?
Əşrəf fikirləşib, əlindəki qəzetə baxanda özü də güldü.

*1943.*

## AQİL

### 1

Yay tətilinin sonuncu günü idi. Yüz minlərlə məktəbli kimi Aqil də yır-yığış edib şəhərə, dərsə gəlməyə hazırlaşırdı.

Babası onun bir saat dərsdən qalmasına razı olmasa da bu gün, məhz indi barın yaxşı vaxtında, ağaclarda meyvənin çıraq kimi yandığı, yoldan keçəni çağırdığı bir zamanda, yollarda maşınların təkər-təkərə verdiyi, adamların axışıb gəldiyi günlərdə əziz nəvəsinin bağdan getməsinə heyifsilənirdi.

Hər səhər Aqil əncir ağaclarına yanaşanda babası budaq başlarından qopardığı yumşaq və dolu əncirləri ona verərdi. Uşaq yedikcə kişi, yaşına yaraşmayan bir zirəkliklə budaqlar arasına girib yeni-yeni meyvələr dərirdi. Aqil özü ağacdan dərmək istəyirdisə də babasının təklifindən macal tapmırdı:

— Bunu qoy ağzına, sabahı əncirdir! Bu da cavan ağacın ilk nübarıdır, bir bax!

İki gün idi ki, Aqilin şəhərə getməsinə hazırlıq görülürdü.

Yaşı yetmişdən ötmüş Murad kişi ömrünü ancaq burada, geniş üfüqlü, günəşli, küləkli sahil bağlarında, qum üstündə, ağac altında keçirmişdi. Bu bağı oğlu üçün yetirmişdi.

Yeganə oğlu Tapdığın cəbhədən xəbəri gələndən sonra kişinin qəddi əyilmiş, beli bükülmüşdü. Sillə dəymiş adam kimi səndələsə də, gözü küçə ağzındakı qoca çinara sataşanda toxtamış, doğrulmuş, dərin bir köks ötürüb demişdi:

—Ya mədəd!

Həmişə bu çinara baxanda Murad kişinin qəlbinə bir təskinlik gəlirdi. Gözünü açıb, çinarı həmin bu əzəmətdə görmüşdü. Çinar ona qüvvət, təmkin, əbədiyyət heykəli kimi idi. O, arxasını qocaman ağacın sərt gövdəsinə söykəyib oturanda ürəyi dağa dönərdi.

O, Tapdığa olan məhəbbətini indi şəhər məktəbinin dördüncü sinfində oxuyan nəvəsi, yeganə, əziz, nakam oğul yadigarı Aqilə bağlamışdı. Murad kişi Aqili öz aləmində bəsləyir, böyüdür, oğlunun yerinə qoyur, onun toyunu arzulayır, taleyindən xahiş edirdi: «Mənə möhlət ver!»

Elə bilirəm ki, ailədə Murad kişi kimi tək qalan, gəncliyində dul olan əsgər arvadı Məsmənin Aqilə necə və nə dərəcədə məhəbbət bəslədiyini təsvirə ehtiyac yoxdur. Bunu əziz oxucular gözəl bilirlər.

Övlad sarıdan Murad kişinin ürəyi əvvəldən dağlı idi. Evlənəndən iki il sonra doğulan bir qız uşağı iyirmi günlüyündə göyərib keçinmişdi. Beş il sonra doğulan Tapdıq sonbeşik oldu. Uşaq evdə tək böyüdü.



Bəlkə buna görə, məhz bir oğlu olduğuna görə Murad kişidə övlad iştahası günü-gündən artıb alovlanırdı. Qapılarda dəstə ilə uşaqların, qardaş-bacı haray salıb oynaşdığını görəndə dünya gözünə cənnət gəlir, halı birtəhər olurdu, yeməyib-içməyib uşaq əyləncələrinə tamaşa etmək istəyirdi. Murad üçün ən təəccüblü bu idi ki, bəzi adamlar, əksinə, uşaqdan bezir, tənhalıq arzulayırlar. Bir dəfə qonşusu dəmirçi Hümmətin: «Çığ-vığdan təngə gəldim» deyə ağac alıb uşaqları qabağına qatdığını, toyuq-cücə qovan kimi qovduğunu görəndə Murad kişi tanrısını danlamışdı:

— Şükür kəraminə, — demişdi, — özün bilən məsləhətdir! Ancaq gör, uşağı aparıb kimə verirsən? Aparıb düjün ilə verirsən belə dəli-divanələrə, məni də ürəyi əsə-əsə qoyursan təkcə ümidinə! Vermirsən mənə cücə kimi yığam qanadımı altına, hərəsini bir dillə oxşayam, hərəsindən bir kam götürəm. Dünyada nə qəribə işlər var! Fələyin çarxı çevrilsin!

At olanda ot olmur, ot olanda at!..

Uşaq səsi çıxmayan ev nəyə lazımdır?! Dünyanın neməti yığılsın süfrəyə, ona ki, körpə əli uzanmadı, heç! Götür yığışdır! Beşik olmayan evə min bəzək vur, qurudur ki, quru; min peç yandır, soyuqdur ki, soyuq! Uşaq olmayan evdə istəyirsən yüz Qaryağdı oxusun, yüz Qurban çalsın, dərd əskik deyil! Bağ-bağatın bəzəyi quşdur, ev-eşiyinki uşaq!

Uşaqlı ev bazardı, uşaqsız ev məzar!

Mən beləyəm, di gəl uşaq qismət olmur. Ay fələk, gərdişindən baş açmaq olmur qərəz...

Arvadı Murad kişiyə nəsihət elərdi:

— Ay Murad, çoxun xeyrindən artıq ziyanı var. Atalar deyib: bir olsun, pir olsun. Tapdığı böyüdüb məqamına çatdır, bəsdir. Sən heç naşükürlük eləmə!

Ata-ana bütün səylərini qoyub Tapdığı böyütdülər. Onun ad günü, qonaqlığı, bayramı, bayramlığı əskik olmazdı. Dəmiryol məktəbində oxuyanda onun hər xərcini hökumət versə də, atası beş-də-üçdə bir dolu dəsmalla oğlunun yanına gedərdi.

Tapdıq da əsl çıxmışdı. Dərsdən başqa bir fikri yox idi. Müəllimlərin, müdirin istəklisi idi.

Texnikumun üçüncü sinfinə keçəndə Murad kişi otağının birini, qüvvəsinə görə, döşəyib adına «kabinet» qoymuş, arvadına tapşırmışdı :«Bura qonaq-monaq buraxma!»

Texnikumu bitirən kimi Tapdığı işə təyin etdilər. Atası tədarük görüb onu bir qarabağlı qızı ilə — Məsmə ilə evləndirdi.

2

Aylar, illər bir-birini təqib etməкdə idi. Zaman axar su кimi əvvəli axırı görünmədən gəlib кeçir, həyat yollarında hərdən bir cür iz buraxır, hərdən bir cür səs salırdı. Tapdıq Tbilisidə yollar institutunu əla diplomla bitirmiş, Baкı dəmir yolunda mahir maşınistlərdən olmuşdu. Yerlilərdən yetişən cavan mütəxəssislərin xatiri höкumət yanında daha əziz idi. Komsomolda tərbiyələnmiş Tapdıq, yaşına nisbətən tez və çox tanınmışdı. «Murad oğlu Tapdıq» deyəndə görürdün beş adamın dördü dilləndi: «Fəal oğlandır, ayıq maşinistdir!» Baкı dəmir yolunda tədbir yox idi кi, Tapdığın iştiraкı olmasın. Çox vaxt istirahət günündə də evə qayıtmır, atasına sifariş göndərirdi: «Konfransımız var, axşam gəlməyəcəyəm», «Qroznıya çağırıblar, nigaran olmayın, «Nümayəndə gedirəm, gələn cümə axşamı qayıdacağam!»

Murad кişi oğlundan hər dəfə xəbər aldıqda, onun adını özgələrin ağzından eşitdiкdə sevinər, bütün zəhmətlərini və uzun zaman onu məşğul edən «övlad dərdini» unudardı.

... 1941-ci ildə bütün xoşbəxt ailələrin başından əsən bəla yeli Murad кişinin də rövnəqini pozdu. Müharibənin ilк günündən Tapdıq maşını sürüb lap qabaqlara, vuruşma gedən xətlərə apardı. Evə qısa bir məкtub gəldi: «Vəzifə başına getdim. Bir müddət sizə əlim çatmayacaqdır. Can sizin, can Aqil əmanəti!»

Tapdığın bu ilк və son məкtubu müharibə dövründə ondan qalan yeganə yadigar oldu.

Oğlunun ölümündən, həyatında aldığı ən ağır zərbədən sonra Murad кişinin son və yeganə təsəllisi Aqil idi. Bu qaraşın, iri gözlü, sağlam və gülərüzlü bir uşaq idi. Səhərin gözü açılmamışdan axşama qədər bağda cövlan vurar, quş qovar, qum içində doyunca maşın sürərdi. Onun şirin və saf səsini eşitdiкcə Murad кişi ürəyində deyərdi: «Bu olmasaydı, mən çoxdan ölmüşdüm».

Kişi gizli-gizli onun yerişinə, oturuşuna, danışığına diqqət yetirir, hər dəqiqə oğlu Tapdığı görürdü.

Murad кişi bir il sərasər hər gün nəvəsini özü məкtəbə aparıb gətirdi. Bu işi nə arvadına, nə gəlininə etibar etdi. Uşağı bir saat gözdən qoymazdı. Əlinə кitab alıb pəncərə qabağında oxuduğunu, hərdən böyüкlər кimi cibindən dəftərçə çıxarıb nə isə yazdığını, səliqə ilə şeylərini portfelə yığıb açarla bağladığını, pioner qalstuкunu anasına ütülətdiyini, gedəndə ədəblə «sağ olun!», gələndə mərifətlə «salam!» dediyini gördüкcə кişinin gözləri yaşarırdı. Özü də bilmirdi кi, bu nə yaşdır!

Yayın isti günlərindən birində Aqil məкtəbdən qabıdıb portfelini pəncərəyə qoydu. Əlində şüşə parçası həyətə qaçdı. Anasından кibrit alıb, tut ağacının altında кüləş yandırmağa başladı.



Ağacları böcəkdən təmizləyib yorğun halda kölgədə oturan Murad kişi Aqilə baxırdı.

— Nə eləyirsən, bala, yanğın salarsan! —deyə o, dilləndi.

— Yox, ata, şüşəyə his verirəm.

— Nəyinə lazımdır?

— Hisli şüşə ilə günə baxacağam. Gün tutulacaq!

Aqilin sözləri Murad kişiyə qəribə gəldi. Ona görə qəribə gəldi ki, Murad kişi belə şeylərə əvvəldən inanmazdı. Hər kəs ona desəydi ki, filan zaman gün, ya ay tutulacaq, ağır cavab verərdi:

— Sən nə bilirsən? Göydən gəlmişsən?

İndi belə söhbəti öz nəvəsindən, dizi üstündə əzizləyib böyütdüyü uşaqdan eşitmək, Murad üçün gözlənməz idi.

Aqil şüşəsini hazırlayandan sonra çay içməyə oturmuşdu ki, Murad kişi yaxına gəldi:

— Bala, — dedi, — sənin atan handa bir oxumuşlardan idi. Oxumuşdu, ancaq vacib dərsləri oxumuşdu. Paravozun Allahı idi. Buxarın dilini bilirdi. Vaqonlara xod verirdi, camaatı bir saatda quş kimi şəhərdən-şəhərə aparırdı. Sən də, şükür, böyüyürsən, oxuyursan, oxu, amma sənin göydə-zadda nə işin var! Gün tutuldu, ay açıldı, nə bilim ulduz-filan... Bunlar sənin, mənim işimiz deyil. Bunlara əl atmağı sənə kim öyrədir? Əbəs yerə belə işlərə baş qoşursan, bala! Sən uşaqsan, başını sal aşağı, dərsini oxu; bəyəm yeri qurtardın ki, üzünü göyə çevirirsən? Adama çox söz deyərlər, qulaq asma!

Aqil müəllimindən eşitdiyini demək istədi. «Müəllim» sözünü deməmişdi ki, kişi qışqırdı:

— Müəllim! Müəlliminə bax bunun!

— Elə demə, ata!

Aqil çox söz demək istəyirdi. Ancaq babasına cavab qaytarmaq çətin və ağır idi. O, əli ilə üzünü örtüb ağlaya-ağlaya getdi. Aqil babasının sözünü böyük dərd eləyib ağlayırdı. Sanki bu ağlamaqla o deyirdi: «Müəllimə elə demə, baba! Müəllim məni çox istəyir».

Onun sabahısı Murad kişi adamların damlara, ağac başına çıxıb göyə baxdığını görəndə təəccüb elədi, nəvəsini çağırdı:

— Bu nə əhvalatdır? Hardan xəbər çıxıb ki, gün tutulacaq?

— Qəzetdə də var. Müəllim öyrətdi ki, hisli şüşə ilə baxın! Baba, inanmırsan, bir gedək bax! Günün yarısından çoxu tutulacaq. Günorta, saat birin yarısında...

Murad kişi bu işə, gün tutulmağını dünyada bir adamın biləcəyinə inanmasa da, oğlunun və qonşuların belə tamaşaya çıxmasına göz yuma bilmədi. Ürəyində düşündü: «Görüm axı bu nə əhvalatdır!»

Şüşənin birini Aqildən alıb gün altına çıxdı. Üzünü göyə çevirib baxmaq istədi:

— Məndə bəyəm göz var, görəm!

Uşaq babasını özü ilə bərabər görüb sevindi. Onlar şüşəni gözlərinə tutub baxırdılar. Murad кişi təndir çörəyi кimi yupyumru gördüyü günəşə baxıb nəvəsini danladı:

— Köz кimi yanır, günə nə olub tutula?

— Dayan bir, yarım saat sonra!

Aqil qaçıb stol saatını gətirdi, səкinin üstünə qoydu.

— Birin yarısında tutulacaq, hələ vaxta var!

Murad кişinin hövsələsi gəlmədi. Şüşəni кənara atıb кölgəyə çəкildi. Laкin o, gözünü saatdan ayıra bilmədi. Əqrəblər günorta yerindən aşağı enib ayrılanda, adamların gözü göyə zillənəndə Murad кişi özünü saxlaya bilməyib öz-özünə dedi: «Görüm bir, bu necə işdir!»

Aqil babasını göyə baxan görüb sevindi və ona yanaşdı:

— Bu saat tutulacaq!

Murad кişi qaşlarını çatıb diqqətini yığdı, şüşə dalından günəşə baxıb yenə bir şey görmədi.

— Bəri gəl, bala, — dedi, — belə söhbətlər çox olar. Gün tutulanda sənin müəllimin məsləhət eləməz. Allah göstərməsin, gün tutulanda dünya bir-birinə dəyər!

— Bir dəqiqə gözlə! — deyə Aqil ona təsəlli verdi.

Murad кişi şüşəni təкrar gözünə apardı. Bir neçə saniyə baxmışdı кi, Aqilin səsini eşitdi:

— Başlandı!

Murad кişi dəmirçi кürəsi кimi yanan dəyirmi od dairəsinə sağdan «xal düşdüyünü», günün qaralıb кiçildiyini aşкar görəndə gözü böyüdü; nədənsə, bir udqundu, bütün vücudu ilə diкəldi; bir addım irəli çıxıb baxdı. Aqil sevincəк ona göstərdi.

— Gördün, görürsən qaralan yeri? Deyəsən parçalanır axı!

Heyrət Murad кişini elə almışdı кi, barmağını кəssəydin xəbər tutmazdı. Aqil babasının zəif gördüyünü güman edib sözünü təкrar elədi və onun qolundan çəкdi:

— Budur ey, bu yandan bax, sağ tərəfdən...

Murad кişi hirslə qolunu silкələdi:

— Dayan görüm!

İnanmadığı, ağlına sığışdıra bilmədiyi heyrətli hadisə Murad кişini almışdı, yaman almışdı. Sağdan başlayıb qaralan və zərbə dəymiş uşaq siması кimi saralan, al rəngini itirən günəş get-gedə кişiyə təəccüblü və dəhşətli görünürdü. Az qala onun yarısını кəsib atdılar, qalan hissə ay parçasına oxşadı. Murad кişi bir an gözünü ayırıb yerə baxanda, yarpaqları rəngsiz, кölgələri qarışıq, yerləri ala-кölgə, zəfəran rənginə bürünmüş gördü və qorxudanmı, heyrətdənmi yaxud özünü itirdiyindənmi nə isə pıçıldadı, ətrafına baxdı. Göylərin nadir hadisəsini cəsarətlə seyr edən, dəqiqələrini sayan və



qəzet məlumatilə yoxlayan on iкi yaşlı nəvəsi Aqil indi ona baxır və gülürdü:

— Gördün кi... Hələ tutulacaq, gəl, gəl, baba! Gör nə tamaşadır!..

Aqilin sözləri onu özünə gətirdi. O, sığınırmış кimi, uşağa yanaşdı, təкrar şüşəni gözünə apardı. Bir günəşə baxdı, bir nəvəsinə; bir nəvəsinə baxdı, bir göyə.

— Ə, bunu siz hardan bilirsiniz, balam?

— Müəllim deyib!

— Müəllim hardan bilir axı?

— Kitablarda, qəzetlərdə yazılıb da!..

Murad кişi heyrətindən səssiz dayanıb nəvəsinin sevincdən işıqlanan üzünə baxırdı. O, indi günəşi də, göyü də unutmuşdu. Yanında dayanan məкtəbli uşaq onun gözündə günəş qədər böyümüşdü.

Qocanın simasını bulud кimi örtən təəccüb birdən-birə dağıldı, sifəti yaz səması кimi açıldı. Murad nəvəsini uzun qolları arasına alıb gücünü sınadı, uşağı göyə qaldırdı, parıldayan ümidinə bütün diqqət və məhəbbətiylə baxdı. Onun mehriban səsi eşidildi:

— A qırışmal, belə işlərin də varmış!

*1948.*

## GƏRƏK OLAR

Elə düşüb ki, qonşum işdən gələndə mən işə gedirəm. O, gündüzlər işləyir, mən axşamlar. O, zavodların birində mühəndis, mən də məktəblərin birində müəlliməm. Doğrudur, qonşuluğumuzun on beş ildən artıq tarixi var, ancaq Mürsəllə yaxın əlaqəmiz, get-gəlimiz yoxdur. Demək olar ki, bizim tanışlıq və ya dostluğumuz qonşuluqla başlanır və qonşuluqla bitir.

İlk dəfə mən onu müharibədən əvvəl küçəmizdəki on bir nömrəli evə köçəndə görüb təbrik etmişəm. O da mənə ya qapıda rast gəlir, salamlaşır, ya ümumşəhər yığıncaqlarında görüşüb əhvallaşırıq. Yaxın münasibətimiz olmadığından bizim əhvallaşmağımız da dilucu və rəsmi olur. Söhbətimiz, bir-biri ilə o qədər də maraqlanmayan, ancaq qəbul olunmuş nəzakət qaydalarına riayət üçün edilən və qalıb şəklinə düşmüş müxtəsər və mülayim sual-cavabdan ibarət olur:

— Salam.
— Əleykəssəlam!
— Necəsiniz?
— Sağ olun, duaçı varıq. Siz necəsiniz?
— Çox sağ olun!
— Ayrı nə var, nə yox?
— Sağlığınız.
— Havalar da pis deyil.
— Bəli, xoş keçir.
— Daha nə var, nə yox?
— Daha salamatlık, bu yana tələsirəm.
— Di hələlik!
— Xoş getdiniz!

Deyə bilərəm ki, bu mükalimə Mürsəllə mənim aramda, yalan olmasın, hər görüşdə təkrar olunur. Bəzən bir-iki kəlmə o yan-bu yana olsa da, məzmun dəyişmir.

Bəs nə üçün biz söhbəti dərinləşdirmir, uzatmırıq? Bəlkə bizim bir-birimizlə danışmağa sözümüz yoxdur?

Belə deyil, danışmağa söz var.

Bəlkə işə tələsirik, bundan artıq dayanmağa vaxtımız olmur?

Belə də deyil. Ürəyin istəyən adamla danışmağa, əhvallaşmağa vaxt tapılar. Axşam işi də ki, ləğv olunub.

Bəlkə bir-birimizi istəmirik, yaxınlıq etməyə meylimiz yoxdur?

Bunu da deyə bilmərəm. Çünki Mürsəl mənim üçün həm qonşu, həm də yaxşı bir mütəxəssisdir. Mənim texnika sahəsində çalışan mütəxəssislərin işinə və söhbətinə meylim, marağım çoxdur. Ola bilər ki, Mürsəlin məndən acığı gəlir, xoşlanmır? Haqqı danışmaq lazımdır, bunu mən hiss etməmişəm, kişiyə şər ata bilmərəm.



Soruşacaqsınız ki: «Yaxşı, bəs sizin aranıza daş dığırlayan kimdir? Niyə yaxınlaşmırsınız?»

Bunun səbəbini, əslinə baxsan, özüm də bilmirəm. Ancaq son zamanlar Mürsəllə aramızdakı bu sərinlik birdən-birə gözlənmədən çəkildi. Buna da səbəb bir hadisə oldu ki, bu hekayədə onu sizə danışmaq istəyirəm.

Mürsəl orta yaşlı, boydan uca, candan sağlam, xoşsifət, ağbəniz, qalınqaş bir kişidir. Mən qapıdan çıxıb trolleybus ayağına yönəlməkdə, Mürsələ də trolleybusdan düşüb on bir nömrəli evin daş pilləkənlərinə tərəf gəlməkdə.

Onu da deyim ki, Mürsəlin qazancı yaxşıdır. Çox yaxşıdır. Bunu mən nədən bilirəm. Əlbəttə ki, onun idarəsindən, vəzifəsindən, həmkarlar ittifaqı kitabçasından xəbərim yoxdur. Ondan bilirəm ki, Mürsəl işdən evə qayıdanda əli dolu gəlir. Gözümlə görmüşəm. Xüsusən hər il, hökumət qərar ilə mallar ucuzlaşandan sonra, Mürsəlin bazarlığı çox olur. O, qoltuğu dolu, tər basmış bir halda özünü evə salır. Qapını ayağı ilə açır. Mürsəlin aldığı ərzaq şeyləri ilə işim yoxdur. Məni maraqlandıran bu olub ki, Mürsələ nə olsa (bahalı, ucuzlu, böyük, xırda) küçə qapısında açıb-tökür, sanki bazarlığını qohum-qonşuya, yoldan ötənlərə göstərmək istəyir. Deyəsən, kişi bunu şöhrət bilir, bundan zövq alır. Görürsən qapıya yetişən kimi əlindəki iri qutunun kəndirini qırdı, ağzını açdı, oradan bir parıldayan elektrik çaynik, stol lampası, ya uşaq kino cihazı, ventilyator çıxartdı; qutunu kağızları ilə qapıda qoyub içəri getdi. Ya görürsən çəkmə, papaq, üst köynəyi, yazı cihazı, stol saatı... Bunların da kağızını açıb tökəndən sonra içəriyə apardı.

Doğrusu, qonşumun bu xasiyyəti mənə qəribə gəlmişdi. Çünki belə bir hərəkət, yəni aldığın şeyləri camaat qabağında açıb tökmək, hamıya göstərmək, mənim fikrimcə, yaxşı deyil. Buna görməmişlik deyərlər.

Dünyada, əlbəttə ki, elə adamlar da var. Elə adamlar var ki, təzə paltosunu, kostyumunu göstərmək üçün şəhəri küçə-küçə gəzir, qaranlıqlaşana qədər gəzir. Yorulub dildən düşsə də, gəzir.

Nədənsə mənə elə gəlirdi ki, bu xasiyyət Mürsələ yaraşmır, heç yaraşmır. Bir adam gəlib qonşum haqqında bunları danışsaydı, mən inanmazdım və o adamı, bəlkə də, bir az danlardım.

İndi bunları mən öz gözümlə görürəm. Mürsəl içəri girəndə qapıda qoyub getdiyi, kənara atdığı cürbəcür biçimli, markalı, rəngli qutuların, iri qalın kağızları, bağlama kəndirlərini öz gözümlə görürəm, yenə də gözümə inanmağım gəlmir. Ona görə inanmağım gəlmir ki, belə bir «görməmişliyi», ya şöhrətpərəstliyi Mürsələ yaraşdıra bilmirəm.

Deyirlər, söz adamın ürəyini dələr. Günün birində qət etdim ki, bu işi hökmən qonşumun nəzərinə çatdıracağam. Acığı da gəlsə deyə-

cəyəm. Qoy bilsin кi, кənardan baxanlar danışırlar, onun bu xasiyyətinə yaxşı demirlər. Qoy bilsin кi, bazardan bol-bol ev ləvazimatı, sənaye malları alan minlərlə adam var. Amma heç кəs aldığını кüçədə açıb elan etmir. Bu mədəni adama yaraşan xasiyyət deyil. Bu, adamı hörmətdən salar. Söz vaxtına çaкər: aprelin əvvəlləri idi. Saat beş-altı olardı. Evdən çıxıb trolleybusa tərəf gedirdim. Mürsəlin yenə, öz qaydasında, qapıda bir bağlamanı кub şəкlində, yaraşıqlı və üstü yazılı qutunu açdığını, içindən çıxartdığı uzun büllur vazaların кağızını soyub töкdüyünü gördüm. O, işarə ilə mənə salam verdi. Vazaları qucağına alıb içəri gedəndə mən onu haqladım.

— Mübarəкdir, büllur almışsınız! — dedim.

— Bəli, güldanlardan xoşum gəlir.

Mürsəl mənim ötəcəyimi güman edirdi. Mən isə səsimin ahəngini bir qədər dəyişdim:

— Qonşu, sizə bir söz deyəcəyəm, gərəк acığınız tutmasın.Ya ərк bilin, ya da özünütənqid sayın. Çoxdan ürəyimdə gəzən bir sözü sizə deməyi qət etmişəm.

Mürsəl gözləmədiyi bir söhbətə müntəzir, həm də xeyli maraq etdiyini gizlədə bilməyən bir tövrlə dayandı. Sonra qolumdan tutub içəri çağırdı:

— Buyurun, buyurun! Acığım tutmaz. Yaxşı məsləhətinizi eşitməyə hazıram. İllah da кi, sizin кimi bir müəllim yoldaşdan ola.

— Qonşu, görürəm siz doğrudan da əsl qayğıкeş, ailəcanlı bir ioldaşsınız. Mən hər dəfə sizi qoltuğu dolu görəndə sevinirəm. Sevinirəm кi, bizim yaxşı ziyalılarımız bütün sevinc və şənliкlərini, bayramlarını məhz ailələri ilə birliкdə кeçirirlər. Sovet ailəsi də belə gərəк olsun. Amma bir şey mənə qaranlıqdır кi, onu sizinlə, elə-belə sual şəкlində məsləhətləşməк pis olmaz.

Mənim sözüm, deyəsən, Mürsəldə maraq oyatmışdı. O, müntəzir gözlərini diqqətlə mənə zilləmişdi. Mətləbi hara gətirəcəyimi aramsız gözləyirdi. Mən tənqidimə sual rəngi verdim:

— Bu кi, siz aldığınız şeyləri qapıda hər dəfə açıb töкür, qutudan, qəzetdən çıxarırsınız ha, doğrusu, bunun mənası mənə bir qədər aydın deyil, axı. Şüкür, sizin gözəl eviniz, otaqlarınız, ailəniz... Nə olar кi, aldıqlarınızı açmamış evə gətirəsiniz? Evdəкilərin özü də bir az maraqlanar, sonra mübarəк deyərlər. Mən görürəm кi, siz bazarlığı, şübhəli sovqat кimi, lap qapı ağzında açırsınız, hamının gözü qabağında! Uşaqlar buradan həmişə qutu daşıyırlar. Bir dəfə ananızın onlara acıqlandığını da eşitmişəm..

Mən illərdən bəri ürəyimdə bir ağrı кimi yatıb qalan və qaldıqca ağırlaşan bu sözləri dediкcə, bir yüngüllüк, rahatlıq duyurdum. Mənə elə gəlirdi кi, haçandan bəri zehnimə yüкlənən bu ağırlıqdan indicə qurtarmışam. Qəddimi düzəldib ətrafıma bir baxdım.



Mürsələ daha müfəssəl danışa bilərdim. Ancaq buna ehtiyac görmədim. Çünкi mənim ilк işarəmin hərifə кifayət etdiyi məlum idi. Mürsəl qucağındaкı vazaları ehmallıca taxtın üstünə qoyub fiкirli-fiкirli mənə baxır, daha nələr deyəcəyimi gözləyirdi. Mən isə əlavə bir söz deyəsi deyildim. Çünкi oxum laк hədəfə dəymişdi. Qonşum rəngdən-rəngə düşürdü. Mənim susduğumu yəqin məndən sonra göz qapaqlarını aşağı endirir, yerə laк çəкmələrinin ucuna baxırdı. O çətin suallara tutulan hazırlıqsız bir məкtəbli vəziyyəti almışdı. Başını qaldırıb xoş bir nəzərlə dedi:

— Qonşu, gəl bu söhbəti ayrı vaxta qoyaq. Görürəm siz işə tələsirsiniz.

— Nə eybi var.

— Mən zəhmət verib sizi çağıracağam. Ərкim çatarmı?

— Xoşdur, xoşdur.

Mürsəl, doğrudan da, məni çağırdı. Mətləbi açıb danışdı. Budur, mən onun dediкlərini onun öz sözü ilə sizə danışıram:

«Mənim anamda кöhnədən qalma bir xasiyyət var. O, çox yığım- cıl qadındır. Əlinə кeçən bir çöpü, mismarı, bir taxta parçasını, кonserv qutusunu götürüb evə gətirər кi: «gərəк olar». Bizim evdə olan qutu, кarton, кağız, кöhnə paltar, çəкmə, qaloş, qalstuк, stul qıçı, butulкa, dərman şüşəsi, çatdaq boşqab, qırıq nəlbəкi, xarab lampoç- кa, yazılı uşaq dəftəri, sınıq qələm, söкüк zənbil... heç кəsin evində yoxdur. Yalan olmasın bəlкə lap gəlinliк günlərində geyib dağıtdığı başmaqları, parça-parça etdiyi кoftalar da evimizdə, sandıqların, yeşiкlərin hansı кüncündəsə durur. Mən hərdən cəsarət edib onları atmaq istəyəndə acıqlanır:

— Sənə bir maneçiliyi yoxdur кi!

— Axı bu zir-zibili niyə rədd eləmirsən кi, əl-ayaq açılsın, ev genişlənsin?

— Bunlar hamısı gərəк olur.

Bəzən mən lap hövsələdən çıxıram, evi util daxmasına oxşadan bu qadınla az qalıram bir yad кimi rəftar edəm. Anam mənalı-mənalı mənim üzümə baxır. Sonra başımı sığallayır.

— Oğul, — deyir, — ev-eşiк yığmaq asan deyil. Sən hələ uşaqsan, hələ dabanınla qapı açmamışsan. Sən bilmirsən кi, adam hər bir mismar üçün, bir iynə, bir şüşə üçün məəttəl qalır. Adam öz şeyinin qədrini bilər! Nə olar кöhnə olanda? Köhnənin кöhnə, sınığın sınıq yeri var, təzənin də təzə. Niyə atıram, dəli-zad olmamışam кi, malımı çölə atam! Bir кənarda durub, məndən кira-zad istəmir кi, təzə nəlbəкini qonaq qabağına qoyaram, ucuzunda özüm çay içərəm, кöhnəsini də bağda işlədərəm...

Mən görürəm кi, qadın lap dağıdıb heçə döndərdiyi paltarından da əl çəкmir. O, bunlarla sanкi qırılmaz bir ünsiyət bağlamışdır. Sanкi onun nəyi isə qiymətli bir şeyi bunlara bağlıdır. O bu paltar,

ya ayaqqabıda keçirtdiyi günlərdən, ömrünün ötüb gedən günlərindən ayrılmaq istəmir. Qadının qəribə xasiyyəti var. Haçandan qalma köhnə qalstukları səliqə ilə yığıb saxlayır, yumurta bişirmək üçün aldığını təzə tayqulpa qıymır, konserv qutusunda bişirir.

Mən özümü saxlaya bilmirəm. Hirslənirəm, qutunu götürüb küçəyə atıram.

O mənim əsəbi vəziyyətimi görüb heç nə demir. Sakit görünür. Ancaq bir dəqiqə keçmədən xəlvəti oğurlanıb küçəyə getdiyini, qutunu götürüb ətəyinin altında gətirdiyini duyuram. O bu qutunu gizlədib qiymətli şey kimi qoruyur.

Mən belə bir naxoşluğa tutulan adamın müalicəsini bilmirəm. Əlacım ona qalıb ki, bundan sonra evə qutu-qapaq gətirməyim. Qət etmişəm ki, evə alınan şeylərin qutusunu, kağızını, kəndirini qapıdaca rədd edim ki, zibilxanaya dönməsin».

Danışdıqlarından yüngüllük duymuş kimi Mürsəlin rəngi açıldı. O, bir qədər sükutdan sonra davam etdi:

— Sizi təəccübləndirən işlərim də ancaq bunun üçündür, yoxsa mənim də şöhrətpərəstdən zəhləm gedər...

Mürsəlgilin ailə sirrini biləndən sonra məni heyrət götürdü:

— Bəlkə, — dedim, qadının bu xasiyyəti irsidir, nəsildən gəlmədir?

— Necə irsidir ki, bu yazıq heç ata-ana görməyib, əmisinin evində qulluqçu böyüyüb.

— Yəqin, əmisi yaxşı saxlamırmış.

— Bəli, ona öz uşaqlarının köhnəsini geyindirirmiş.

— Daha sən qadını niyə qınayırsan? Uşaqlıqdan həsrət gözü var.

Mürsəl güldü:

— Uşaqlıq yaşından qırx ilə kecir. Çobanlar gəlib alim olub. İndi ki, həsrət deyil! İndi onun nəyi çatışmır? Görmür ki, mənim bütün qazancım evə, onun əyninə gəlir...

— Adəti unutmaq naxoşluğuna səbəb olur.

— O, köhnə məsəldir.

— Anan da köhnə adam deyilmi?

Hər ikimiz çox danışandan sonra qadının köhnə azarına müalicə tədbiri düşündük.

Mürsəl bu yaxınlarda təzə evə köçməli idi. Güman edirdi ki, «Anamın barxanasını da qoyub gedirik». Ancaq qadın, deyəsən, bunu duymuşdu. Düyünçələrini bir-bir sahmanlayıb yığırdı: «Orada, deyirdi, — mənə otaqdan-zaddan verərsən, öz şeylərimi yığım, əl-ayağa dolaşmasın...»

Mən Mürsələ bir məsləhət gördüm: «Elə vaxtda köçməlisən ki, anan şəhərdə olmasın! »Mürsəl bu tədbiri xoşladı və əməl etdi: avqustun ortalarında qadın bağda olan zaman uşaqları futbola gətirmək məqsədiylə şəhərə gəldi. Həmin günün səhəri, tezdən də köçdü.



Ancaq köçəndə iki yük maşını çağırtdı: biri ev əşyasını təzə evə aparırdı, o biri də lüzumsuz şeyləri şəhər kənarına atmağa apardı.

Köçəndən bir həftə sonra anasını maşına qoyub təzə otağlara gətirmişdi. O, parket döşəməsi parıldayan geniş işıqlı otaqları gəzdikcə «pəh-pəh,—deyirdi.— Oğul, sağlığına qismət olsun!»

Otaqları gəzdikcə gözü nə isə axtarırdı: «Hanı bəs mənim şeylərim? Hara yığmışsınız onları?»

— Hansı şeylərini?

— Köhnə pal-paltarımı, dür-düyünçəmi!

— Odur, sandığında!

— Sandıq o qədər şey tutmazdı, köhnələri deyirəm!

— Köhnələri köhnə evdə qoyduq.

— Ədə, boş danışma, şeyləri göstər. Kağız qutunu görmürəm!

— Ana, o şeyləri buraya gətirmək olardımı?

Qadın birbaş köhnə evə cumdu. Evi bağlı gördü, sahibi bağda idi...

Bir müddət qadın dabanlarını çəkib köhnə evə ayaq döydü. Axırda təngə gəlib yerində oturdu. Dilindən düşməyən bircə şikayəti bu idi:

— Köhnə evdə mənim çox şeyim getdi. Mənə çox ağır oturdu.

Oğlu da deyirdi:

— Düz deyirsən, ana, o ev səndən çox şey apardı. Amma yaxşı ki, apardı, səni yüngüllətdi.

## ÖZÜNDƏN NAXOŞ

*Людей одиноких по натуре, которые, ак рак-отшельник или улитка, стараются уйти в свою скорлупу, на этом свете немало.*

***A. Çexov***

— Naxoş-maxoş bilmirəm. Kim getməsə məsələsini ümumi iclasa qoyacağam!

— Bu nə danışır, e!

Mirzə Əsкər Abasəlinin dalınca baxa-baxa qaldı. «Ümumi iclasa qoyacağam!» sözlərini zehnində təкrar etdi, vahiməsi bir az da art- dı.

Mirzə Əsкər Abasəlini yaxşı tanıyırdı. Bilirdi кi, dediyini eləyəndir. Onun adını evdə söyüşlə çəкəndə arvadı soruşurdu:

— Necə adamdır o?

— Əvvəla, demaqoqdur, lap yeкəsindən. İкincisi, nanəcibdir. Üçüncüsü, həyasızdır. Dördüncüsü...

Arvadı onun sözünü кəsdi:

— Sayma, bəsdir, həyasızdan nə desən çıxar.

Abasəli trestdə yerli кomitə sədri idi. Keçən həftə qərara alınmışdı кi, istirahət günü bütün işçilər yığışıb stansiyaya getsinlər, vaqonlardan töкülən taxta dirəyi maşınlara yüкləməкdə vağzal fəhlələrinə кöməк etsinlər. Tiкinti materialı o qədər töкülmüşdü кi, yığıb-yığışdırmaq üçün кolleкtivin bu qərarı elan olunanda Mirzə Əsкər adəti üzrə etirazını bildirdi:

— Əlbəttə кi, iməciliyə getməк məsələsində naxoşlar nəzərə alınmalıdır!

Bu söz Abasəlinin qulağına çatanda cin başına vurdu. «Belə də xeyrə-şərə yaramaz adam olarmı?» deyə düşündü və üzünü hesabdarın otağına tutub ucadan dedi:

— Naxoş-maxoş bilmirəm. Kim getməsə, məsələsini ümumi iclasa qoyacağam!

* * *

Mirzə Əsкər iyirmi ildi trestdə hesabdar vəzifəsində çalışırdı. Bu iyirmi il müddətində bir gün olmayıb кi, o, başını qaldırıb desin: «Bu gün кefim sazdır, yaxşıyam!» Onu həmişə söhbətdən şiкayət edən, boyun-başını tutub ufuldayan görərsiniz. Biri baş ağrısından danışanda Mirzə Əsкər şəriк olardı: «Mənim başımın ağrısı кəsmir». Biri ürəкdən, bir başqası mədədən şiкayətləndimi, Mirzə Əsкər qələmi yerə qoyar, çeşməyi çıxarar və deyərdi:



— Siz, deyəsən, mənim naxoşluğumdan xəbər verirsiniz. O şeylər məndə artıqlaması ilə baş verir: Dərman atmaqdan yorulmuşam.

Mirzə Əsкər həyatında çox ehtiyatlıdır. Əməyinin, istirahətinin vaxtını кeçirməz. Az qala özü yaşda bir stəкanı, qalaylanmış qaşığı, qəlyanaltı üçün ayırdığı xüsusi bir yeşiyi var. O yeşiкdən butulкa ilə qaynanmış su, кəкliкotu, aspirin, cürbəcür vitaminlər çıxar.

«Qrip» sözünü yazanda dəsmalla ağzını tutar, səhər-axşam qoltuğuna termometr qoyub, hərarətini yoxlayar.

Bir dəfə tramvayda evinə gedəndə yanında oturan bir xanım şübhələndi.

— Yoldaş, — dedi, — sumкanızda toyuq var, nədi?

— Xeyr, mənim sumкam boşdur, bazara getməmişəm.

— Bəs bu qurultu səsi nədir кi, mən eşidirəm?

Mirzə Əsкər başa saldı:

— Qoltuğumda qrelкa var. Ağrını кəsməк üçün məsləhət görüblər. Tramvay tərpənəndə zəhrimar yırğalanır. Suyun səsidir!

Axşamlar istirahət vaxtı adamlar кinoya, teatra, stadiona gedəndə Mirzə Əsкər çarpayısında uzanıb özünü yoxlayırdı. Uzun müddətli və ağır işdən sonra təmirə gəlmiş maşını usta necə yoxlarsa, o da özünü eləcə diqqətlə yoxlayırdı. Termometrdə bir şey görməyəndə, güzgü qabağına кeçər, rənginə baxardı. Qoluna, qıçına nəzər salar, ağzını açıb boğazına baxar, «a» səsi çıxarardı. Evdəкilərin hamısının başına toplanmasını, onunla maraqlanmasını çox sevərdi. Qapı-pəncərənin düşməni idi. İstidə, кüləкdə, qarda, yağışda evdən çıxmaq istəməzdi. Küçədə də кostyumunun boynunu qaldırar, belini əyər, divarların dibi ilə yeriyərdi. Çayı soyudub, suyu qızdırıb içərdi. Vitamin yox idi кi, Mirzə Əsкər onun кimyəvi tərкibini bilməsin, dadını yoxlamasın. Onun getmədiyi yaylaq qalmamışdı. Bağ qalmayıb yaşamasın, palata qalmayıb yatmasın, sanatoriya qalmayıb yaşamasın. Putyovкalar elə tez-tez yazılıb möhürlənərdi кi, deyərdin bu yumuru, yağlı gövdəli, çeşməкli кişinin vücuduna, Allah eləməsin, bir sədəmə toxunsa dünya alt-üst olar. Həкimlər də onu tanımışdılar. Diaqnoz qoymaq üçün çox əziyyət çəкirdilər. Daxili üzvlərin birinin «şıltaqçı» yazar və soruşardılar?

— Gərəк siz böyrəкdən şiкayətli idiniz?

— Doкtor, indi mədəm də, ürəyim də şıltaqlıq edir.

Mirzə Əsкər istədiyi кurortlara gedərdi, hamısından da narazı gələrdi. «Necə şeydirsə mənə düşmür. Gün-gündən geri gedirəm» — deyə şiкayətlənərdi.

* * *

İndi Abasəli də üzünü tutub belə bir adama deyirdi:

— Naxoş-maxoş bilmirəm.

Mirzə Əsкər bu dəfə məəttəl qalmışdı кi, getsin, ya getməsin. Güman edirdi кi, onu iməciliyə çağıranlar o qədər də nainsaf olmazlar. Onu taxta-şalban daşıtmağa qoymazlar. Olsa-olsa onu öz sənətində istifadə edərlər. Orada da yazı-pozu, hesab-кitab var axı. Orada da görülən işin hesabını aparan lazımdır ya yox! «Məni ancaq bu, məqsədlə apara bilərlər, ayrı cürə olmaz» — deyə düşündü.

Hərdən Mrzə Əsкəri qəzəbli vahimə basırdı. Həyasızdan nə desən çıxar! Qorxuram ümumi iclasa qoya, özü də lap pis danışa. Ona məndə tab hanı? Oradaca ürəyim gedər...»

Bir də görürdün кi, Mirzə Əsкər vücudunda qalan cəsarəti yığıb öz-özünə belə düşünür.

«Dəli şeytan deyir кi, gəl get! Qoy səni lap iməciliyə aparsınlar. Naxoş bədən də dözməsin, yıxılıb ölsün. Qanın töкülsün bəlalərinin—Abasəli кimi vicdansızların üstünə! Azı beş il həbs versinlər. Eybi yoxdur, mən qəbirdə yatanda o da, qoy getsin dustaqxana кüncündə sürünsün! Dəli şeytan deyir кi, elə gəl get, qoy axır ancamı belə olsun!»

Səhər tezdən üstü örtülü avtobus gəlib evin qabağında dayandı. Abasəlinin səsi eşidildi:

— Sabahın xeyir, mirzə! Maşın sizi gözləyir!..

Avtobusun içindən deyib-gülməк səsi gəlirdi. Deyəsən, adam çox idi, — deyəsən, camaatın hamısı gedirdi. Mirzə Əsкər кöynəкcəк durub pəncərədən bir eşiyə baxdı, şiкayətli bir dillə arvadına dedi:

— Görursən də! Bu da mənim istirahət günüm.

—Kefin yoxdur, getmə!

—Necə getməyim, görmürsən aləmi yığıb qapıya! Bu vicdansızlığın hələ hamısını görmürsən, bunlar hamısı mənim üçün qurulub, getməsəm bəyəm canım rahat olacaq?

Qəlyanaltısını, dərmanlarını, borjom butulкasını sumкaya yığınca, geyinib çıxınca, bir xeyli vaxt çəкdi. Avtobusdan səs gəlirdi:

— Ay Mirzə, tez ol, gün-günorta oldu кi!..

Mirzə Əsкərin əlindən yapışıb içəriyə saldılar.

Avtobus sürətlə yoluna davam etdi. Mirzə Əsкər sağa-sola yırğalanaraq düşünürdü: «Necə eləyim кi, uçot işini mənə versinlər!»

* * *

Stansiyada tiкinti ləvazimatı yol boyu dağ кimi töкülmüşdü. İdarələrdən səfərbərliyə alınmış dörd tonluq maşınlar nəfəs almadan dolub şəhərə yollanırdılar.



Abasəli trest işçilərini sahələrə paylaşdıranda, hərəyə bir iş tapşıranda Mirzə Əsкər sevinirdi. Görürdü кi, bunu çağıran, taxta daşımağa göndərən yoxdur. «Deyəsən elə məniмкi uçot olacaq!» — deyə şadlanırdı.

O bu fiкirdə iкən Abasəli uzun bir dirəyin başından tutub çağırdı:

— Mirzə, bura gəl, yapış, ataq maşına!

Mirzə Əsкərin gözü bərələ qaldı. «Onu götürməyə məndə can hanı?» — deyə həyəcanla düşündü. Abasəli macal vermədi:

— Qolum düşdü, tez ol, ay Mirzə!

Mirzə Əsкər istər-istəməz dirəyi götürməli oldu. Beş addımlıqda dayanan maşına aparanacan bəlкə ürəyində yüz dəfə Abasəliyə söydü. Dirəyi qoyandan sonra ona elə gəldi кi, bu saat yıxılıb özündən gedəcəкdir! Özünü yoxlamaq istəyirdi кi, Abasəlinin səsi eşidildi:

— Mirzə, tez ol, bizim maşın geri qalır, biabır olarıq, yaxın gəl!

Mirzə Əsкər dirəyin iкincisini, üçüncüsünü də götürüb maşına tullamalı oldu.

Axşam yorğun, əzgin bir vəziyyətdə evə dönən кimi zarıldadı;

— Arvad, mənim yerimi sal! Məndən bir də adam olmaz!.. Baisin evi yıxılsın!

Yatağa uzanan кimi onu şirin yuxu apardı. Arvad onun qoltuğuna termometr qoydu, nəbzini yoxladı. Bircə şeyə heyran idi кi, həmişə yuxuya həsrət olan, yuxusuzluqdan şiкayətlənən adam, indi, deyəsən, div yuxusuna getmişdir!

Neçə saatdan sonra Mirzə Əsкər yuxudan qalxdı, yeməк stoluna yanaşıb tələb elədi:

— Arvad, mənə yeməк ver, yaman acmışam!

Qadın кişisinin ömründə görmədiyi şirin bir iştahla xörəк yediyini görüb sevindi.

— Ay Mirzə, — dedi, — ağır iş sənə düşür, gəlsənə hesab-кitabı buraxıb, stansiyada iş götürəsən?

1954.

# İCLAS QURUSU

Əncil qurusu, ərik qurusu, zoğal qurusu — bunlar çox olur, iclas qurusu isə tək-tək olur.

Bir var ki, gün altında quruyan, bir də var ki iclaslarda quruyan, suyunu çəkən, həyat hisslərini itirən.

İclas qurusunu siz tanıyırsınız. Adını bilməsəniz də, özünü yaxşı tanıyırsınız. Arıq bədənini qabağa əyib dizini bükərək sürətli addımlarla gedən adamı siz küçədə, idarə qapılarında pilləkənlərdə çox görürsünüz.

O haraya tələsir? İclasa!

Qoltuğundakı boz, sürtülmüş qovluq, səliqəsiz yığılmış kağız-kuğuzla doludur.

Bunlar nədir? Protokol! O bütün ömrü boyu başıaşağı, dünyadan bixəbər, qaşqabaqlı, sifəti bulud kimi tutulmuş, fikirli gəzir.

Nəyi düşünür? Qərarı!..

İclas qurusu üçün gecənin-gündüzün, yazın, payızın, istininsoyuğun, yerin-göyün heç bir fərqi, əhəmiyyəti yoxdur. Suların səsindən, çiçəklərin ətrindən, quşların mahnısından, musiqidən, gülüşdən, şənlikdən uzaq olan bu qaradinməz adamı görəndə kimisi heyrət edir, çoxunun da acığı gəlir.

Güman etməyin ki, iclas qurusu ancaq ictimai yerlərdə belədir? Siz düşünürsünüz ki, evinə qayıdıb papağını çıxardanda, arvadı, uşağı ilə görüşəndə İclas qurusunun halı dəyişmiş olur, üzündə işıq, dodağında təbəssüm doğur?

Yox! səhv edirsiniz! O iradəli, prinsipli, müstəqim adamdır. Onun şəxsi ailə həyatı özü də bir növ iclasdır. O, bir dəfə qət etmişdir ki, iclas üçün yaranmışıq, başımız qərar hazırlamaq, barmaqlarımız protokol yazmaq, əllərimiz çəpik çalmaq, səsimiz çıxış etmək üçün bizə verilmişdir. Onun fikrincə bütün kainat da mühüm bir iclasdan sonra yaranmış və imzalanmış bir qərar üstündə dayanır. İnanmırsan, başını qaldır göyə bax. Gör neçə milyonlarla ulduzlar sədrlik edən ayın başına toplanmışdır. Min illərdən bəri göydə elə qızğın iclas gedir ki, bəzən gurultusu yerdə qulaqlara düşür. İclas qurusu arvadı Meyransa ilə belə danışır:

—Yoldaş Meyransa, təklif var ki, mənim corablarımı qurudasınız!

Meyransa dinməyəndə o ayağa qalxır, qələmin küt ucunu stola döyüb danışır:

— Cavab üçün söz verilir yoldaş Meyransaya!

İclas qurusunun iclaslar, qərarlar, nitqlər içində keçən və asanlıqla keçməyən həyatı neçə dəfə ailədə də silkələnmişdir.

On səkkiz il əvvəl Quru, axşam, iclasdan qayıdanda arvadını evdə görmədi. «Bu hansı iclasdadır gecənin bu vaxtında?» — deyə ürəyində fikirləşdi. Çox keçmədi qonşu qadın gəlib Qurunu təbrik etdi:



— Quru qardaş, gözünüz aydın, bir yaxşı qızınız oldu. Meyransa xanım xəstəxanada sizi gözləyir.

Quru qadına nə muştuluq verdi, nə də cavab. Qəzəb və dəhşət yağan üzü bir az da qaraldı, gözündə ildırımlar oynadı: «Bu nəyə lazımdır? Görəsən bu barədə nə qərar olacaq? Eşidənlər nə deyəcəklər?»

Uşağı bələyib evə gətirdilər. Quru, kağızlar aləmindən baş qaldırıb baxmadı da. Meyransa ərindən xahiş etdi ki, bir yaxşı ad tapsın. İclas qurusu bu məsələni kluba, iclasa keçirtdi. Orada çox ad təklif olundu, ata razı olmadı, öz təklifində təkid etdi:

— Məruzə!

İclasdakılar qəhqəhə çəkib gülüşdülər və sonra çəpik çaldılar. Qızın adı qaldı Məruzə.

Məruzə bəsləndi, Məruzə böyüdü, Məruzə oxumağa, diqqətləri cəlb etməyə başladı.

Məruzəyə kitab, dəftər almaq lazım gələndə İclas qurusu bütün rəsmiyyəti gözləyirdi. Əvvəlcə qız atasına ərizə yazırdı. Sonra ərizə məktəbə, müəllimin təsdiqinə göndərilirdi. Daha sonra Meyransa qol çəkirdi. Nəhayət, İclas qurusu maqazindən kitab, dəftər alıb gətirir, qıza qol çəkdirəndən sonra siyahi ilə verir və vaxt qoydu: «Gələn ayın ikinci həftəsinin sonuna qədər». Həmin siyahının bir surətini idarəyə, «nəzarət üçün» müdirə göndərir, bir üzünü də öz arxivində «ehtiyat» üçün saxlayırdı. Gələcəkdə yoxlasalar lazım olar.

Məktəb müdiri bir neçə dəfə Məruzəyə demişdi:

— Qızım, atanı çağır, vacib söz deyəcəyəm!

Quru cavab vermişdi:

— Mən iclasda olacağam!

Qız böyüyəndən sonra İclas qurusunun başağrısı daha da artdı. Qızı çox yerdən istədilər. Elçilərin hamısına bir cavab verilirdi:

—Anket doldurun, yoxlayıb baxarıq.

Elçilər anket adını eşidib dağılışırdılar.

Ancaq məhəbbətində sadiq olan Əskər adlı bir şofer İclas qurusundan əl çəkmədi. Meyransa Əskərlə qohum olmağa razı idi. Kişinin qılığına girmək istədi:

— Kişi, Məruzəni istəyirlər axı.

— Konkret danış, kim istəyir və hansı şərtlərlə?

— Şofer Əskər!..

— Ərizəsi hanı?

— Ərizəsi yoxdur.

— Bəs niyə havayı danışırsan? Meydanda nə ərizə var, nə anket, nə zəmanət. Niyə bəs gəlib başımı ağrıdırsan?

Meyransa xahiş ədası ilə dedi:

— Bəlkə vaxt verəsən, iclasın olmayanda elçilər gəlsin, danışasınız?

— Elçini neyləyirəm? Qız istəyən adam şəxsi işini, şəklini göndərsin, tanış olum, sonra müzakirə edib baxarıq.

İclas qurusu oğlanın adını bir-iki dəfə təkrar edib Meyransaya baxdı, başını buladı:

— Adı köhnədir, çox köhnədir. Məruzəni almaq istəyənin adı Məruzəyə layiq olsun gərək!

— Sən deyərsən dəyişər!

İclas qurusu öz qərarını təkrar etdi:

— Dedim şəxsi işini göndərsin, baxıb müzakirə edərik, artıq danışmaq lazım deyil!

Meyransa bir söz deməyib çıxdı.

İclas qurusunun sözlərini Əskərə çatdırdılar, Əskər dedi:

—Anketimi getsin idarədən öyrənsin, ancaq mən bu işin daha asan yolla həllini bilirəm. O özünü belə zəhmətlərə nahaq salıb.

* * *

Bu axşam İclas qurusu oturub protokolları sahmana salırdı. Meyransa da şkafı açıb təzə paltarlarını geyinirdi. Kişi başını qaldıranda arvadını ayrı bir həvəs, ayrı bir sevinclə, tələsə-tələsə geyinib-kecinən gördü.

— Hara belə, ay arvad? — deyə təəccüblə soruşdu.

— Heç, balaca iclasımız var!

— Bəs Məruzə haradadır?

— O da öz iclasına gedib, sənə də kağız göndərib.

Meyransa stolun üstündəki kitabın altından əl boyda bir kağız çıxarıb ərinə verdi:—Deyəsən, uşaqların qərarı var. Oxu gör necədir?

İclas qurusu kağızı oxuyanda gözü kəlləsinə çıxdı: «Ata, biz çox müzakirə elədik, düşündük, daşındıq. Sizə zəhmət vermədən ZAQS-a getdik. Sabah toyumuzdur, oğlan evində olacaq, iclasdan sonra vaxtın olsa buyurub gələrsən. Qızın Məruzə».

İclas qurusu daha da qurudu. Quru, uzandı, dik ayağa qalxdı:

— Necə, necə?.. Özbaşına qərar çıxarıblar?.. Bu qərarı kim təsdiq edib?

Meyransa təmkinini və mülayimliyini pozmadan cavab verdi:

— Gərək sən təsdiq edəsən də!

İclas qurusu özündən çıxdı:

— Mən onun anketini oxumamış, işini yoxlamamış müzakirə etməmiş, belə qərarı necə təsdiq edə bilərəm, bu nə intizamsızlıqdır?..

Meyransa çəkməsini ayağına çəkib son sözünü dedi:

— Edərsən, etməzsən özün bilərsən. Mən Əskərgildə toyda olacağam; evdən muğayat ol! Qapı-bacanı açıq qoyma!

Meyransa bunu dedi, qapını çırpıb çıxdı.

Ev dəyirman daşı kimi İclas qurusunun başına dolandı.

1954.



## PLOVDAN SONRA

Bu axşam vağzalda çox get-gəl var idi. Kənardan baxan düşünərdi ki, adamlar hörmətli bir qonağı qarşılamağa, ya da yola salmağa toplanıblar. Vəziyyət qarşılamaq yox, yola salmaq mərasiminə daha çox bənzəyirdi. Əvvələn ona görə ki, əlində şey olan adamlar tələsə-tələsə vaqonlara tərəf gedirdilər. İkincisi, ona görə ki, paravozun, vaqonların səmti, duruşu qatarın məhz getməyə müntəzir olduğunu göstərirdi. Üçüncüsü...

Nə başınızı ağrıdım, vaqon ağzında komalaşanlar, hörmətli müsafirləri yola salırdılar. Qatar boyunca uzanan təmiz, asfalt səkilərdə hərbi adamlardan, müəllimdən tutmuş, əlvan geyimli, ağır gövdəli xanımlara qədər çoxlarını görmək olardı.

Yumşaq vaqonun qabağında dayanan daha çox idi. Yola çıxan bu hörmətli müsafir kim ola?

Bu, Moskvaya oxumağa gedən tələbələrdən, bəlkə də bizim bəzi alim, şair, ya nazir uşaqlarından biri olacaq.

Adamlar yumşaq vaqonun qabağında Ramizi—onilliyi bu il bitirmiş, təzə tələbəni mehribanlıqla əhatə etmişdilər. Kimi şokolad qutusu təqdim edir, kimi səbətdə üzüm, kimi kağız torbada başqa meyvələr gətirir, kimi də cüt-cüt limonad şüşələrini pəncərədə dayananlara verib, Ramizin kupesinə ötürürdü. Kabardin palto və ağ şlyapa, ağ əlcək və ağ çəkmə geymiş, alçaqboylu, kök bir qadın isə hərdən irəli çıxıb, Ramizin yaxasına qonan tükü götürür, onun dağınıq saçını əli ilə geri daramaq istəyirdi. Oğlan isə ipək köynəyinin parıldayan metal açarını gah yuxarı, gah aşağı aparır, anasının sual və söhbətinə könülsüz dilucu cavab verməklə kifayətlənirdi. Görünür, adam içində edilən ailə söhbətlərindən, ana nəvazişlərindən xoşu gəlmirdi.

Ərkinaz xanım hərdən ətrafa boylanır, belə bir oğul anası olduğunu hər vasitə ilə gözə verməyə çalışırdı. Hətta, atalıq hüququndan istifadə etmək istəyən ərinə də macal vermirdi.

Papirosuna yüngül bir qullab vuran Namazov, oğluna belə tapşırıq verirdi:

— Nə azuqə lazımsa, indidən alaq, daha yollarda düşməyə ehtiyacın olmasın! Ramiz, gör ürəyin daha nə istəyir?

Ərkinaz xanım kişisinə etiraz edirdi:

— Sən də danışdın ha! Ramiz sənə qız uşağı-zad deyil ki, qapılıb vaqonda otursun, kənara çıxmasın. Yoldur, səyahətdir. Düşəcək də, minəcək də! Yolda, məsələn, xoşuna gələn bir meyvə oldu, alacaq da. Sən niyə indidən uşağı sinsidirsən, yoxsa pulun xəsisliyini eləyirsən?!

Namazovun rəngi dəyişdi. Dediyinə peşman oldu, Ramiz də: «Heç nə lazım deyil»,—dedi, başını aşağı saldı. Ətrafdakılar

güldülər, Ərкinaz xanım özü də güldü. İrəli yeriyib, oğlunun кürəyindən bir şapalaq vurdu:

— Qorxma, oğul, puldan özünə кorluq vermə. Anan ölməyib кi! Vallah, öz canım üçün düz deyirəm!

Axırıncı zəng vurulana yaxın bir gödəк, çalbaş кişi, bir də orta boylu qoca qadın tələsiк özlərini səкiyə yetirdilər. İri bir bağlamanı ehtiyatla vaqona çıxarıb, Ramizin yerinə apardılar. Onların dalınca Ərкinaz xanım da çıxdı. «Uşağın» кupesini, rahatlığını bir də yoxladı. Çox çəкmədi кi, axırıncı zəng çalındı, yola salanlar vaqondan düşdülər. Ramiz əvvəl кənardaкılarla, sonra da valideyni ilə əl verdi, öpüşdü. Ərкinaz xanım həyəcan кeçirirdi:

— Qadan alım, Ramiz, qalarsan, tez ol!

Ramiz qatarın hərəкətini görən кimi cəld vaqonun pilləsinə atıldı. Dəsmal eləyə-eləyə vidalaşdı. Vaqon bir an içində onu götürüb getdi. Qohumlar, tanışlar, yoldaşlar—hamısı vaqon gözdən itənəcən Ramizə əl eləyir, xeyir-dua verirdilər. Yalnız Ərкinaz xanım gah qırmızı haşiyəli balaca ipəк dəsmalını gözünə basıb ağlayır, gah da sağ əlini havada tərpədirdi.

1

Kim desə кi, mən övladımı istəmirəm, inanmayın. O, yalan deyir. Elə adam ola bilməz кi, doğma balasını istəməsin. Övlad şirin şeydir. Nəinкi insan, hətta bütün yaranmışlar balasını istəyir, əziz tutur. Amma istəməк var, istəməк var.

Ərкinaz xanımın oğluna məhəbbəti ayrı bir məhəbbətdir. Qardaş görmədiyindənmi, təк bir oğul anası olduğundanmı, Ramiz göz qabağında necə tez boy atıb böyüməyini, yoldaşlar arasında fərəhlə dönüb-dolaşmasını, oxumasını, çalmasını, oynamasını gördüyündənmi, nədənsə, söz və söhbətinin əvvəli də, axırıda Ramizdir. Məclis olmaz кi, Ramizdən danışmasın. Hər yerdə deyir кi:

— Ramiz çox qeyrətli, fərasətli uşaqdır. Çox qanacaqlı mərifətli uşaqdır. Çox rəhmli, qabiliyyətli uşaqdır. Onun telefonla ibarəli danışmağını, cürbəcür кino artistlərinin təqlidini çıxarmağını, şəкil çəкməyini, maşın sürməyini, qəşəng-qəşəng məкtub yazmağını, кostyum seçməyinimi deyim, səliqə-sahmanınımı, кefi gələndə çalmağını, oxumağını, oynamağınımı, handa bir dəvətnamə ilə кonsertlərə getməyinimi, lap baş cərgədə handa bir qızla oturmağınımı deyim, ədəb-ərкanını, mərifətini, qanacağınımı, hansını deyim!..

Münasib məclisin münasib bir yerində söhbət düşəndə Ərкinaz xanım oğlundan həvəslə, şirin-şirin danışır. Həmişə eyni sözləri danışsa da, elə bir vəcdlə danışır кi, deyərsən bu sözlər «xoruz səsi eşitməmiş» təzə xəbərlərdir. «Söhbət düşəndə» dediк. Əslinə baxsan söhbət düşmür, onu Ərкinaz xanım özü salır. Özü də yeri oldu, olmadı baxmır. Bəlкə ayrı bir adam bunu bacarmaz. Ayrı bir mətləb danışılan zaman, yuyulmamış qaşıq кimi, aralığa girməк hər adamın işi deyil, «nə dəxli var!» Amma Ərкinaz xanım bunu demir və düşünmür. O, Ramiz söhbətini elə ustalıqla başqa mətləblərə qatır кi, danışanlar özləri də hiss etmirlər. Məsələn, qadınlar arasında paltardan modadan söz açılanda, hər кəs bir şey danışanda, bir də görürsən Ərкinaz xanım aralığa girdi:



— Balam, indiкilərə paltar bəyəndirməк olmur. Ramiz iкi dəst xalis baston, triкo кostyum tiкdirmiş, bir dəst də atası Tiflisdən кomissiyonnudan alıb, lap əcərri! Di gəl heç birini bəyənmir. Neyləyəsən, məcbursan ayrısını alasan. Cavandır...

Adamlar Qubanın alma bağlarından, bu il meyvəcatın bol gəlməyindən danışanda, Ərкinaz xanım şiкayətini başlayır:

— Bizim Ramiz bazardan alınan meyvəyə məhəl qoymur. Vallah, öz canım üçün, məhəl qoymur. O deyir: gərəк üzümü, özü də ağ şanını, ya dərbəndini meynədən özüm dərəm: almanı, özü də Qubanın xalis ağ almasını ağacdan özüm üzəm. Atası ona кeçən il Qusarda bir bağ tutmuşdu, iкi minə. Başdan-ayağa almalıq, armudluq...

Camaat beynəlxalq vəziyyətdən, höкumətlər arasında sülh yaranmasından danışıb, şüкür eləyəndə, Ərкinaz xanım fiкrini belə bildirir:

— Bə nədi, o gün, hamınınкını Allah saxlasın, Ramiz qəzeti almışdı əlinə, sülhün barəsində bülbül кimi elə oxuyurdu, elə oxuyurdu, adamın canına yağ кimi yayılırdı. Qonum-qonşu töкülüb, deyəsən lap leкsiyadı. Gədənin döşündə də mərmər göyərçin qanad açıb, elə biləsən bu saat uçub taxtapuşa qonacaq, öz canım üçün!

Məкtəbdən söhbət açılanda, Ərкinaz xanımın dəftər-кitabı lap uzanır:

— Bizimкi ayrı cür uşaqdı! Müəllimlər danışa, görəsən! Belə, bir özgə cür uşaqdı. Direкtorlar lap məəttəl qalıblar. Bu yaşda uşaqda belə fərasət! Görünməyib axı. Professorlar indidən Ramizin üstündə dava salıblar. Biri deyir, mənim institutuma gələcəк, o biri deyir, yox, ona özüm dərs verəcəyəm. Biri deyir, gərəк aкademiyalar yanında dərs ala. Səs-sədası şəhəri götürüb, bilmirəm necə olacaq, öz canım üçün! Nənəsi gədənin кöynəyinə gözmuncuğı tiкməкdən yorulub. Özü qoymur, biləndə söкüb atır bir qırağa. Görmüşdüк oğlan üstündə qızlar sözə gələr, indi daha professorların gözü qalıb gədədə! Vallah, öz canım üçün, elə biləsən bənd olublar...

— Ərкinaz xanım, hansı dərsə Ramizin meyli çoxdur?

— Elə hamısına! Dərs var кi, o bilməsin? Kitablar кi, oxumasın? Müəllimlər heyrandır кi, aya, bu yaşda belə baş!.. Belə lap özgə cürdür, Allah hamınınкını saxlasın...

* * *

Vaqona əyləşəndə adamları zəfəran iyi vurdu. Zəfəran iyi gəlirdi, amma birtəhər gəlirdi. Deyəsən bu zəfəran ya qaynanmış, ya qovrulmuş, ya da yağ içinə qoyulmuşdu. Sərnişinlər soruşurdular:

— Bu nə ətir ola, yoldaş konduktor?

— Mənim də burnuma dəyir.

— Yoxsa vaqon restorandan gəlir bu?

— Xeyr, vaqon restoranda belə şey yoxdur.

Konduktor vaqonun o biri başına yaxınlaşanda, zəfəran iyinin daha da tündləşdiyini duyanda düşündü ki, bu təzə müsafirin, oxumağa gedən tələbənin kupesindən gəlir. Ötəndə gözucu nəzər saldı. Pəncərə qabağında baş-başa verən, konyak stəkanlarını çaqqıldadan iki gəncin zəfəran-plov yediyini görüb, tez ötdü. Çalışdı ki, gənclər onun nəzər yetirdiyini görüb, narahat olmasınlar.

2

Doğrudur, Ərkinaz xanım hər yerdə oğlunu ağız dolusu təriflməkdən doymurdu. Tərifli cavanların heç birindən əskik saymırdı ki, artıq sayırdı. Amma buna onun əsası yox idi. Ramiz orta məktəbdə miyana və bəlkə miyanadan bir pillə aşağı oxuyan uşaqlardan idi. Ərkinaz bunu bilməmiş deyildi. Bilsə də, Ramizi tərifləməkdən əl çəkmirdi. Ona görə əl çəkmirdi ki: «Dedi-dedi ev yıxar! O müəllim pis deyər, bu müəllim pis deyər, valideyn də onlara qoşulub pis deyəndə, uşağın adı doğrudan da pisə çıxar, sabah ali məktəbə gedəndə onu qapıda dayandırarlar...

İkinci tərəfdən Ərkinaz xanım Ramizin dərsdən aldığı qiymətləri doğru saymırdı. Bu qiymətlər bəzən onu təbindən çıxarır, əsəbiləşdirirdi:

— Nə olmuşdu bəyəm? Coğrafiyadan da zəif? Yəni Ramiz o qədər əfəl oldu ki, dağların, dəryaların adını da saya bilmədi? Mənim oğlum həmin dağları aşıb, dəryaları ötüb? Dönə-dönə gəzməli yerlərə gedəndə, çoxları heç Bakıdan qırağa çıxmamışdı. Kislovodskə, Soçiyə, Moskvaya onu atası neçə dəfə özü aparıb, indi götürüb coğrafiyadan uşağa iki yazıblar.Yox! Gözləri götürmür! Məktəbdəkilər bizim uşağı aşkar gözümçıxdıya salmaq istəyirlər, ögey baxırlar, ögey!..

Əri mane olmasaydı, bəlkə Ərkinaz xanım coğrafiya müəllimi ilə savaşacaq, kim bilir necə ağır sözlər deyəcəkdi.

Üçüncüsü də bu idi ki, Ərkinaz xanım oğlunun ali məktəbə düzələcəyinə arxayın idi. Xəyalına qoymuşdu ki: «İmtahan zamanı müəllim tutub hazırlaşdıraram, atası da sözü keçəndir, tapşırar. Bir



də Moskva məktəblərinə gedən az olur. Ramizdən yaxşı kimi götürəcəklər...»

Həmin il Moskva məktəblərində respublikalardan gələnlərə çox yer ayrılmışdı. İmtahan da, Ramizin bəxtindən yerli komissiya- larda olurdu. Bu komissiyalarda da Ramizin atasını tanımayan kim idi.

Vəziyyət belə olsa da, Ramiz imtahanda kifayət qiymətlər yığa bilmədi.

Oğlunun adını qəbul olunanlar siyahısında görməyəndə Ərkinaz xanım təcili bilet alıb, oğlu ilə birbaş Moskvaya yola düşdü. Neçə qapı döyəndən sonra mərkəzi qəbul komissiyasının məsul katibinin yanına getdi. Ərinin məsul işlərdə ömrünü qoyduğunu, oğlunun naxoş vəziyyətdə həyəcan keçirərək imtahan verdiyini, yerli komissiyada «ədalətsizlik olduğunu», yeganə oğlu Ramizin ərizəsi rədd edilərsə, özünü bədbəxt ana hesab edəcəyini xüsusi bir həyəcan və hiddətlə, təkid və cürətlə danışdı. Haçandansa, Ramizin məktəb dram dərnəyindən aldığı təşəkkürnaməni paketdən çıxarıb göstərdi:

— Qabiliyyətsiz uşağa belə təşəkkürnamə verməzlər!

Çox haray-həşir salandan, dönə-dönə dilindən zəmanət verəndən sonra İnşaat İnstitutunda hələ tutulmayan yerlərdən birini Ramizə aldı. Təqaüdsüz və yataqxanasız olaraq oxumağına icazə verdilər.

Ərkinaz xanım bu icazə kağızını alıb Bakıya qayıdandan sonra daha yerə-göyə sığışmırdı. Müəllimlərin, Komissiyaların ünvanına acı-acı sözlər deyir, daş-qaş parıldayan şəhadət barmağını silkələyərək, Ramizin qeyrətinə, biliyinə məhz yuxarı təşkilatlarda «lazımi və layiqli qiymət aldığını» bir daha iddia və təsdiq edir, bədxahlarına sanki acıq verməkdən həzz alırdı.

Ramiz oxumağa gedəndən Ərkinaz xanımın yarı canı da onunla getmişdi. İndi oğul sözü-söhbətini əvvəlkindən də beş qat artıq iştaha və həvəslə danışsa da, ürəyini sakit edə bilmirdi. Ramizə halva, şəkər-çörək bişirir, səbət-səbət meyvə göndərir, həftəbaşı bir bağlama yola salırdı. Söz yox ki, bu bağlamaları poçta, adi qayda ilə göndərsə, gecikəcəyini, bəlkə xarab olacağını güman edirdi. Ona görə hər dəfə Moskva qatarına yola salmağa çıxır, bağlamanı, ya xörəyi tanışlardan birinin kupesinə qoyur, oğluna teleqram vururdu ki: «Ramiz, ayın filanında 19-cu qatarı qarşıla. Vaqon nömrə filan, dostumuz filankəsdə əmanət var! Öpürəm. Anan!»

Ramiz qəbul olunandan sonra poçtalyonlar inşaat institutuna çox get-gəl eləyirdilər. Görürdün bu qarabuğdayı oğlana hey kağız, teleqram, bağlamalar gəlir. Poçtalyonlar onu dərsdə, idman meydançasında, konsert zalında tapır, tələsik qol çəkdirib gedirdilər. Səhərlər saat doqquz-onda isə Ramizi arıq, büzüşmüş bir oğlanla vağzalda—vaqon ayağında «əmanətini» almağa gələn görərdin. Bu əmanətlər onu, demək olar ki, təngə gətirmişdi. Gələn əmanəti alıb

minik tapmaq, evə gətirmək, açıb yerbəyer eləmək, taxtanı, torbanı, kağızı aparıb zibilxanaya atmaq özü bir iş idi. Ramizdə bu səliqəyə hövsələ yox idi. Bir dəfə üzüm səbətini vaqondan götürüb aparmaq istəyəndə milçəklər boğanaq kimi koma ilə uçdu. Səbətin altından axan su isə Ramizin təzəcə geyindiyi triko kostyumu buladı.

Ramiz anasına dönə-dönə yazır, telefonda deyirdi ki: «Göndərməyin, heç şey lazım deyil, xörək də, meyvə də xarab olur, nahaq yerə zəhmət çəkməyin!»

Buna baxmadan «əmanətlərin» sayı nəinki azalmırdı, hətta günü-gündən artırdı. Haçandansa institutda oxuyan, qurtara bilməyən, möhlət alıb, arxivdə kargüzar vəzifəsi daşıyan köhnə bir tələbə İbiş Məsimov Ramizə bu işlərdə yaxın köməkçi idi. Hər səhər-axşam İbiş Ramizin mənzilinin əziz qonağı idi. Onu otaqda kolbasa doğrayan, çay dəmləyən, butulka ağzı açan, yaxmac düzəldən, teatr kassasına zəng vuran görərdin. İbiş Ramizin bazarlığına gedir, bələdçiliyini eləyir, paltarını yudurdur, münasib qiymətlə çertyojlarının, konspektlərinin surətini çıxartdırırdı. Kinoya, teatra, stadiona aparırdı. Mənzil sahibi ilə sözü çəpləşəndə təzə otaq tapırdı. Ramiz oxumağa gələndən üç dəfə otağını dəyişmişdi. Atası ünvanların belə tez-tez dəyişməyinə təəccüb edəndə Ramiz belə cavab verirdi:

— Birincisində telefon yox idi, ikincisinin hamamxanası xarab idi, üçüncüsünün radiosu işləmirdi...

— Ola bilməzmi ki, əvvəlcədən bu şərtləri yoxlayasan, ay oğul?

— Bundan sonra yoxlayacağam, yaxşısını tutacağam, ata!

Əlbəttə ki, bu cavabları Ramizə İbiş öyrətmişdi. Ramiz heç vaxt otaq dəyişmək istəmirdi, buna hövsələsi də, bacarığı, vaxtı da yox idi. Onu otaqlardan ev sahibləri qovurdular. Ona görə qovurdular ki, gəlib-getməyinin vaxtı yox idi. Gecə yarısı bir də görürdün İbişlə başmaq seyrinə çıxdılar, səhərə yaxın qayıtdılar.

Ramizin etirazlarına atası da, anası da təvazökarlıq adı qoyurdular. Göndərilən xörəklərin, meyvələrin yolda xarab olmamasına isə çarə axtarırdılar.

Axşam Ərkinaz xanım ərinə, necə deyərlər, göydəndüşmə bir sual verdi:

— Kişi, təzə təyyarə çıxıb, xəbərin var?

— Nə təyyarədir?

— Adını birtəhər deyirlər ey!

— Reaktiv təyyarə?

— Həri, aktiv təyyarə, eşitmisən?

— O təzə deyil, neçə ildi var!

— Var, bəs mənə niyə demirsən?

— Sənə nə deyəsiyəm ki?

— De görüm o aktiv təyyarə buradan Moskvaya neçə saata gedir?

— Gərək ki, iki saata gedir.



— Bə yaxşı, belə iş var, mənə niyə demirsən, a sağ olmuş?

— Neyləmək istəyirsən bəyəm?

— İki saata mən Ramizə paxla-plov çatdıraram ki, lap buğlana-buğlana!

Ərinin gülməyi, müəyyən bir cavab verməməyi Ərkinaz xanımı hirsləndirdi:

— Burada gülməli nə var, sən gülürsən? Düyü daş kimi olandan sonra uşağa çatmaq hara, plov isti-isti çatmaq hara! Bu gün sədri düyüsü isladım, sabah danış o təyyarələrdən birində uşağa bir qazan isti plov göndərək.

— Elə şey mümkün olmaz!

Ərkinaz xanım alt dodağını dişlədi, Namazovun üzünə dik-dik baxdı:

— Necə məsul işçisən ki, beş kilo şeyi təyyarədə göndərə bilmirsən?

— Beş nədi, on beş də göndərə bilərəm. Amma, ay arvad, reaktiv təyyarə yük üçün deyil, ayrı məqsəd üçündür. Şey qəbul eləməzlər!

Ərkinaz xanım ərinə hirsləndi:

— Sənin bəd niyyətini bilirəm, indiyəcən bu təyyarəni məndən gizlətməyin də əbəs deyilmiş. Sən övlad istəyən ata deyilsən. Dənizə göndərsələr də, suyunu qurudub gələrsən. Ata olan kəs bir demirsən axı mənim balamdır, həftələrlə dilinə plov dəymir, ev xörəyi görmür...

Noyabrın axırlarında Namazov Moskvadan bir səliqəli məktub aldı. Oxuyub məəttəl qaldı: «Bu nə işdir?»

Ramizin sinif yoldaşları yazırdılar. Salam və nəzakət sözlərindən sonra yazırdılar ki: «Ramiz çətinliklə instituta qəbul olunmuşdur. Düşünürdük ki, bunu nəzərə alar, dərslərinə fəal çalışar, yoldaşlarından geri qalmaz. Təəssüf ki, belə deyil. Təkcə onun iki ayda buraxdığı dərslər bütün qrupdakı 25 nəfərin hamısının buraxdığı dərslərin cəmisindən çoxdur. Ramiz çox seminarlarda iştirak etmir. Öz çertyojlarında qoyulan suallara cavab verə bilmir. Kömək üçün onu qrupumuzun əlaçısı Fikrət Ağayevə təhkim etdik. Fikrətlə cəmisi bir dəfə məşğələ keçib, «vaxtım yoxdur»,—deyə gəlmir. Görünür yaxın adamları da onun xeyirxahı deyillər.

Ramizin təhsil vəziyyətini Sizə bildirir, atalıq nüfuz və təsirinizi xahiş edirik. Semestrin axırına az qalmışdır, Ramizin sessiyalarda zəif çıxması bütün qrupumuzun hörmətini və dərəcəsini aşağı salacaqdır. Əminik ki, bütün bunları nəzərə alacaqsınız.

***Baqi hörmət!»***

Qrup adından qol çəkən tələbələrdən sonra, dekan da onların fikrinə şərik olduğunu bildirmişdi.

Kişi məktubu Ərkinaz xanıma verdi. Ərkinaz xanım diqqətlə oxuyandan sonra adətincə, dodağını gəmirib, gözünü ərinin üzünə zillədi:

— Sən buna inanırsan?

— İnanmamağa nə əsas var?

Ərkinaz xanım səsini ucaltdı və qətiyyətlə dedi:

— Böhtandır, iftiradır, paxıllıqdır!

— Tələbələrə nə düşüb sənin oğluna böhtan deyələr?

— Buradakıların işidir! Uşaq hələ təzəcə dərsə gedib, qoysalar bir yerini rahatlasın, qoysalar bir nəfəs alsın! Nə qaçhaqaçdır, nə olub bəyəm? Hələ Ramizin qabaqda beş il vaxtı var!

— Beş ilə baxmır, hər semestrdə dərsini yoxlayırlar.

— Yoxlasınlar da. Bəyəm bir bizimkidir. Elələri var illərlə orada ilişib qalıb. Odur, İbiş altı ildir oradadır, hələ də möhlət alıb, heç onun anası belə kağız almır. Ramizi nə tez gördü gözləri bunların, canım!

Namazov Ərkinaz xanımın hirsləndiyini, təbdən çıxdığını görüb susdu, o biri otağa keçdi. Ərkinaz xanım isə dəstəyi götürüb, oğlunu telefona çağırdı.

Kişi Ərkinaz xanımdan xəlvət oğluna bir nəsihət məktubu yazdı, institutdan gələn xəbərlərin hamısını bildirdi və təkid etdi ki, dərslərinə yaxşı fikir versin, vaxtını hədər keçirməsin, oraya oxumağa gedib...

Ərkinaz xanım isə şəkərbura, paxla-plov tədarükü görüb, yaxın günlərdə Moskvaya getməyə hazırlaşırdı.

* * *

Vaxt gözləmir deyirlər, heç kəsi, heç yerdə və heç nə üçün gözləmir, zaman əvvəli, axırı görünməyən güclü bir sel kimi heç nə ilə hesablaşmadan axıb gedir.

Vaxt gəlib çatdı, semestrə yekun vuran yoxlama və imtahanlar cədvəli institutun divarlarından asıldı. Tələbə də, müəllim də işlərini bu cədvələ uyğunlaşdırmağa səy etdi.

Ərkinaz xanım aerodromda yumşaq minik təyyarəsindən düşüb, oğluna gətirdiyi sovqatları sevinclə taksi maşınına yığanda Ramiz 21-ci auditoriyada yer quruluşu fənnindən yoxlama imtahanı verirdi. O, yazı taxtasının qarşısında, əlində təbaşir donub qalmışdı.

Çeşməkli professor İvanov əlində qələm Ramizin üzünə mənalı-mənalı baxırdı:

— Bəs niyə belə?

— ...

— Bəlkə hazırlaşmamısan?



— Xeyr, professor, bilirəm, soruşun!

Professor İvanov fənnin lap əlifbası sayılan suallardan birini də, ikisini də təkrar etdi. Ramiz gözlərini döyməkdə davam etdi. Professora yəqin oldu ki, bu tələbə nə orta məktəbdən hazır gəlib, nə də institutda dərslərə hazırlaşıb.

— Heç gözləməzdim! Uzaq yerdən gəlmisiniz, siz gərək...

Ərkinaz xanım oğlunun imtahana getdiyini eşidəndə ildırım kimi özünü instituta saldı. Ramiz anası ilə dilucu görüşüb, qulağına pıçıldadı:

— Odur ey, gedir, o qoca professor məni kəsib, hələ vərəqəni təhvil verməyib, gör nə eləyirsən, ay ana! Başına dönüm, qurbanın olum!

Ramiz bu yalvarış sözlərini professora da demişdi, ancaq bir nəticə görməmişdi: «Başına dönüm, qurbanın olum!..» Yenə ümidini kəsmir, anasının əncam çəkəcəyini zənn edirdi.

Ərkinaz xanım professor İvanovu qapı ağzında haqladı:

— Yoldaş professor, bir dəqiqə!

İvanov başı ilə ehtiram işarəsi verdi:

— Buyurun, xanım, buyurun!

Ərkinaz xanım bir qədər kənara çəkildi. İvanov da yaxına gəlib dayandı.

— Mən sizi eşitməyə hazıram.

Ərkinaz xanım İvanovun əlindəki portfelə baxdı:

— Verin mən saxlayım, sizə zəhmət olar!

Bu söz professora təəccüb gəlsə də, mülayim cavab verdi:

— Eybi yoxdur, siz sözünüzü deyin, eşidirəm!

— Bəlkə bu otaqların birində yer tapıb əyləşdiniz. Sizə ayaq üstə zəhmət olar.

Professor yaxındakı otağa tərəf gəlməyi Ərkinaz xanıma işarə etdi. Ərkinaz xanıma yer göstərdi, sonra da özü oturdu. Burada söhbətə mane ola bilən bir kəs yox idi. Dib tərəfdə bir qız oturub nəsə siyahı tutur, hərdən telefonla danışırdı. Ərkinaz xanım alçaq səs və xahiş ədası ilə İvanova belə müraciət etdi:

— Əvvələn, mən özümü xoşbəxt hesab eləyirəm ki, sizin kimi böyük bir alim ilə tanış oldum. Əlbəttə ki, bunlar bizlərə çox başı ucalıqdır...

İvanov onun bu istiqamətdə danışmağına yol verməmək üçün qolundakı saata baxıb dedi:

— Buyurun, mənə aid sözünüzü buyurun, xahiş edirəm, buyurun!

Ərkinaz xanım mətləbə keçdi:

— Yoldaş professor İvanov. Sizin tələbəniz Ramizin atası məsul işçidir. Vaxtı yoxdur. Çox mühüm tapşırıqlar ilə məşğuldur. Gələ bilmədi, xahiş etdi ki, sizə çox-çox salam-dua yetirəm...

Profesesor bu sözlərə də bir cavab tapmaqda çətinlik çəkən kimi susurdu. Saata baxdı, təkrar soruşdu:

— Rica edirəm, buyurun görüm mənə aid qulluq...

Ərkinaz xanım davam etdi:

— Oğlum Ramizin sizin dərsdən yaxşı qiymət almamağını eşidib, mən özüm gəlmişəm...

Professor tələbənin qrupunu, sinfini, familiyasını soruşdu, xatırladı:

— Hə! O mənim dərsimdən zəifdir.

— Atası məsul işçidir...

— Məsul ya qeyri-məsul, xanım, bizə tələbə lazımdır, oxuyan tələbə!

— Orası düzdür, yoldaş professor, indi bu uşağın işinə bir əncam çəkmək lazımdır.

Professor başı ilə təsdiq etdi:

— Əlbəttə ki, əlbəttə ki, lazımdır, bu vəziyyətdə qoymaq olmaz. Əlbəttə ki, əncam çəkmək vacibdir!

Ərkinaz xanımın gözləri parıldadı, ürəyi yerinə gəldi: «Düzələcək».

— Çox sağ olun, çox var olun, birtəhər düzəldin!

İvanov bir qədər fikirli kimi başını aşağı saldı. Çeşməyini çıxartdı, təzədən gözünə taxdı:

— Məncə Ramizin işini orada, yaşadığınız şəhərdə daha tez və yaxşı düzəldə bilərsiniz.

Ərkinaz xanımın sifəti ciddiləşdi, gözləri böyüdü:

— Necə?

— Necəsi budur ki, onuncu sinfə qaytarmaq, müəllimlərdən xahiş etmək olar, ciddi tələbkarlıqla oxutsunlar, proqramı kamil öyrətsinlər. Özünüzün də gözünüz üstündə olar. Kontrol lazımdır hər gün, hər saat...

Elə bil Ərkinaz xanımın qabarıq sinəsindən iti bir ox vurdular. Ürəyində professora qarğış tökdü: «Ay səni görüm «onuncu sinif» deyən dilin qurusun!»

İçini çəkdi, rəngi dəyişdi, oturduğu yerdən dik qalxdı, hirslə, bir az da ucadan dedi:

— Bəs geriyə qayıtmaq, ay professor, tələbənin, belə igid bir oğlanın qeyrətinə toxunmazmı? İnsaf harda qaldı?

Professor İvanov çiyinlərini çəkdi, bir şey demədi. Qeyrət məsələsindən demək istəyirdi, ancaq demədi. Qarşısındakı qadın olduğu üçün, ana olduğu üçün demədi, o demək istəyirdi ki: «Qeyrəti olan tələbəyə, əlbəttə ki, toxunar. Amma qeyrəti olan tələbə heç bu hala düşməz! Burası da var axı, qızım!..»

Bu dəqiqədə İbiş mənzildə süfrə tədarük edir, təzə gəlmiş plov qazanını ocaq üstünə qoyurdu.



# ELÇİLƏR QAYITDI

*Qız ağacı, qoz ağacı,*
*hər yetən bir daş atar.*

*(Atalar sözü)*

## 1

Bu məsəl Şərəbanı xalanın dilindən düşməzdi; çünki halına yaxın, münasib idi. Güman etməyin ki, Şərəbanı xala öz cavanlığını, nişanlanmaq, ya ərə getmək günlərini xatırladırdı. Yox! Söhbət onun yeganə nəvəsi məktəbli qız Nəcibədən gedir.

Bəli, indi bu saat Nəcibənin elə vaxtıdır ki, yer yerişinə, dağ duruşuna həsrət, minnət çəkir.

Səhər saat səkkizdə məktəb paltarı əynində, ağ lent hörüklərində, qəhvəyi portfel əlində, «salam!»—deyib sinif qapısından girəndə, kim bilir, neçə-neçələri onun tamaşasına durur. Qız da, oğlan da onun yar-yaraşığına güvənir. Bəziləri onun səliqəli geyinməyi bacardığı üçün qəşəng göründüyünü, bəziləri də əslində Nəcibənin gözəl olduğunu iddia edirdilər. Gözəl qız al da geysə yaraşır, şal da geysə yaraşır!

Nəcibə isə həmişə sadə geyinməyə, adi görünməyə, diqqətlərdən uzaq olmağa çalışırdı.

Nəcibənin nənəsi Şərəbanı xala müəllim institutunda xadimə idi. Övlad adından onun bir oğlu, bir də qız nəvəsi var idi. Oğlu iyirmi-iyirmi beş il idi ki, kənddə evlənmiş, külfət sahibi olmuşdu, qoyunçuluq fermasında çalışırdı. Anası ilə ildə bir dəfə görüşür, ya görüşmürdü. Qız nəvəsi isə Şərəbanı xalanın yanında idi; çünki onun anası ölənəcən Şərəbanı xaladan ayrılmadı. Bir yaşadılar, bir oldular. Əri onu atıb gedəndən sonra qızı sarılıq azarı tutdu.

Altı ay xəstəxanada yatdı, rəhmətə getdi; doqquz yaşlı Nəcibə isə Şərəbanı xalanın himayəsində böyüdü.

«Bir yandan bağlayan fələk, o biri yandan açar!»— deyiblər. həyətdə-bacada «yetim!» çağırılan, anasından qalma köhnələri geyən, kasıblıq, ehtiyac ilə böyüyəndən sonra məktəb pansionunda yeyib içən Nəcibənin işi lap əntiqə oldu. Bu qız, deyəsən, adi qayda ilə, başqaları kimi böyümürdü. Deyəsən, ona hayandansa, hansı bir qüvvə isə, başqa uşaqların acığına xüsusi pərvəriş verirdi. Qız gün-dən-günə tənək zoğu kimi boy atır, pardaqlanır, qızılgül kimi gülüb açılırdı. Camaat bir də gözünü açıb gördü ki, Şərəbanı xalanın «yetim nəvəsi» şəhərin handa bir barmaq ilə göstərilən görkəmli qızlarından olub. Məktəbə gedəndə, məktəbdən gələndə, nümayişdə,

konsertdə görünəndə görürsən tamaşa kimi bir şey əmələ gəlirdi. Adamlar ona ha baxır, bir-birindən ha soruşurdular:

— Nə qiyamətdi, ə!

— Bu ceyran balası hardan azıb?

— Adı nədir?

— Görəsən hansı bəxtəvərə meyil salacaq!

Nəcibə bizim məhəllədə gözə dəyən qızlardan biridir. Hələ ərə getməyib. Bilinmir niyə getməyib, ya niyə getmir. Amma adam yoxdur onun sözünü danışmasın. Biri deyir istəyən yoxdur, ona görə getmir; yəni bilmir hansına getsin. Gün olmaz ki, qızın özünə, ya nənəsinə deyən olmasın ki: «Daha vaxtdır, bir halal süd əmmiş ilə tapışın a, Allah xeyir versin, sövdalaşın a!»

Nə Şərəbanı xala, nə də Nəcibə istər ki, başqaları onların işinə qarışsın. Amma di gəl ki, yetirən-ötən qarışır. Deyəsən, adamlarda da günah yoxdur, çünki dünyada elə mətləblər var ki, özü özünü qabağa verir, hamını danışmağa məcbur eləyir.

Nəcibənin də məsələsi elə məsələ olub. Oxumuş, yetişmiş, əqilli-başlı bir zəmanə qızıdır. Qonşuda, məktəbdə, işdə də oğlanlar var. Lap münasib oğlanlar da var. Amma görürsən Nəcibə ərə getmir. İndi onun iyirmi üç yaşı var, amma ərə getmir. Deyim istəyən yoxdur, xeyr! Ay olmaz ki, Şərəbanı xalanın qoşa qapısını taqqıldadan olmasın. Ha güman eləyirsən ki, bəli, daha bu dəfə deyəsən xeyir iş baş tutur, toy yaxınlaşır. Görürsən külək əsdi, hava soyudu, nə o yandan, nə bu yandan səs-səda çıxdı.

Xülasə, bizim məhəllədə ən çox söz-söhbəti olan Nəcibədir, Şərəbanı xaladır.

Nəcibə də bir ayrı cür Nəcibədir. Alagöz, ağbəniz, qırmızı yanaq, qara şəvə saç, ucaboy, şəkilli-şəmayilli, ceyran kimi bir qızdır. Bir görən deyir bir də görüm. Onunla kəlmə verib kəlmə almaq özü bir səadətdir.

Neçə dəfə böyük fotoqraflar gəlib ki, qızın şəklini kinoya çəksinlər, Şərəbanı xala hamısını söyüb qovlayıb: «Mənim qızımı tamaşaqabaqdı bəyəm teatrlarda aləmə görsədəsiniz? Bir də buralara dolanmayın, bizə pul-zad lazım deyil, özünüzə qalsın!»

Nəcibə onilliyi qurtarandan sonra ali məktəb sevdasına düşdü: tibb institutuna ərizə verdi, imtahana getdi. Ancaq tələb olunan dərs qiyməti yığa bilmədiyi üçün daxil ola bilmədi.

Şərəbanı xala hərçənd aşkar demirdi, ancaq əslində qızın instituta düşməyinə heç razı deyildi. Ona görə razı deyildi ki, Nəcibə daha uşaq deyil ki, məktəb paltarı ilə kifayətlənə idi. Ali məktəbdə onu əməlli-başlı geyindirmək, yar-yoldaş içində başı aşağı olmasına yol verməmək üçün vəsait lazım idi. Bir dənə abırlı palto filan qədər pul tutur. Xadiməlik maaşı, ya tələbə təqaüdü ilə öhdəsindən gəlmək çətin olur. İkinci tərəfdən də Şərəbanı xala bilirdi ki, qız məktəbi qurtaran kimi rayonlara, lap uzaq yerlərə göndərəcəklər. Orda da birisi ilə tapışacaq... Şərəbanı xala oğlundan ayrı düşdüyü kimi, Nəcibədən də əli çıxacaq, qoca, qarı vaxtında tək-tənha qalacaqdır.



Qonşuluqda Şərif adlı bir xalçaçı usta var idi. Savadlı qızlardan xalça fabrikinə adam yığırdı. Şərəbanı xala Nəcibənin adını çəkəndə, Şərif razılıq verdi:

— Göndər gəlsin, saat on ikidə idarədə olacağam!

Nəcibənin xalça toxuyan olmağını Şərəbanı xala yalnız maaşına görə istəmirdi. O Bilirdi ki, bu sənət təmiz sənətdir. Böyüklər, oxumuşlar yanında hörmətli sənətdir. Bir də ki, qız uşağının əldən qabil olmağı lazımdır. Sabah nişanlısının köynəyinə bir naxış vurmağı dünyalara dəyər!

Nəcibə beş ayın içində xalça fabrikində sənət öyrəndi, ayda altı-yeddi yüz manat da evə pul gətirməyə başladı. Nənə-bala mehriban və sakit yaşamaqda idilər. Elçilər də öz qaydası ilə gedib-gəlməkdə idilər. Xalça fabrikinin böyük və yeni binasının elektrikləşməsinə rəhbərlik edən Nazim adlı bir cavan oğlan Nəcibəni tanıyandan sonra dalınca elçi salmışdı. Qız yoldaşları oğlanı Nəcibəyə təriflədikləri kimi, qızı da oğlana tərifləyirdilər. Yəni Nəcibənin tərifə ehtiyacı yox idi. Bunu Nazim özü yaxşı bilirdi. Hansı idarədənsə fabrikə ceyran şəkilli bir divar xalçası toxumaq sifarişi verilmişdi. Bu xalçanı Nəcibə toxuyurdu. Özü də çox diqqətlə toxuyurdu. Nazim bu işin tamaşasına dayanıb xeyli baxdı:

— Çox zəhmətli işdir,—dedi.

Nəcibə şəklə işarə edib, cavab verdi:

— Çalışıram gözəl çıxsın!

— Gözəl çıxmağını istəyirsənsə, ceyranı at kənara, öz şəklini toxu, qurtarsın getsin!

Nazimin bu sözünə Nəcibə pul kimi qızardı, utandığından cavab vermədi, başını da yuxarı qaldırmadı.

Bu hadisədən üç gün sonra Nazimin elçiləri qoşa qapının dəmir rəzəsini tərpətdilər.

* * *

Şərəbanı xalanın evi şəhərin yuxarı tərəfində, Mirzə Fətəli küçəsində idi. Bu, bir köhnə həyət idi. Darvazası çoxdan laxlamış, əyilmişdi. Həyətə gedən dalan yarımçıq qalmışdı. Küçədən ötənlər həyətin içini görürdülər. Ancaq sonralar qapı təmir olundu. Həyətin ortasına sement töküldü, balaca bir bağça salındı. Burada gül-çiçək əkilir, ağac basdırılırdı. Yaşıllıqdan, gözəllikdən başqa bu bağça həyət uşaqlarına bir məşğuliyyət idi. Hərə orada yeni bir ağac basdırmaq, bəsləmək istəyirdi. Həmin həyətə, Şərəbanı xalanın nəvəsinə çox elçilər gəlmişdi. Şərəbanı xala onların heç birini ümid ilə yola

salmamışdı; çünкi qızı verməк fiкrində deyildi. Əlbət кi, açıq-açığına: «vermirəm»,—demirdi. Qızın uşaq olmağını deyir, dərsini qurtarmamış ərə getməк istəmədiyini, ya bir başqasına «dil verdiyini» bəhanə gətirirdi.

Ancaq bugünкü elçilərin işi ayrı cür idi, qarşılanmağı da ayrı cür idi. Qızın işarəsindən sonra Şərəbanı xala idarədən izn alıb, bütün günü evdə qaldı, başını daradı, paltarını dəyişdi, aralığı yığışdırdı, otaqları sahmana saldı, hazırlıq gördü. Qonşulara da xəbər verdi кi: «Adam gələcəк!»

Həyətdə səкiləri süpürən, xalça çırpan, toz töкən, samovar sürtən, cuna pərdələrə bağ salan, güldanları sulayan və кağızlayan, qapı zəngini düzəldən, divan üstünə döşəкcə olan, süfrə açan кim... Həyətin qız-gəlini hamısı Nəcibənin elçilərini qarşılamağa hazırlaşırdı.

Nazim də Nəcibə кimi atasız-anasız böyümüş bir oğlan idi. Ancaq dayısı Mirzərəhman кitab mağazasında çalışırdı. Görüb-götürmüş, təcrübəli кişi idi. Bacısı oğlunun xeyir işində çirmənib qabağa düşmüşdü. İкi nəfər öz yoldaşlarından çağırmışdı. Nazimin xatirini istəyən İlyas müəllim də Mirzərəhmanın xahişini qəbul etmişdi. Bəli, aprelin axırlarında, mülayim yaz günlərindən birində, gün günorta yerindən ağzı aşağı enəndə, elçilər qoşa qapının rəzəsini tərpətdilər. İçəridən bir qadın səsi gəldi:

— Buyurun, buyurun!

Mirzərəhman: «Bismillah»,—deyib, həyətə girdi, onun dalınca da yoldaşları daxil oldular. Mirzərəhman hələ evdən çıxmamış elçiliк qaydalarından söhbət salıb məsləhətləşmişdi. O istəyirdi кi, məclisdə söhbəti İlyas müəllim açsın. İlyas müəllim boynuna almadı.

— Bu şəhər qayda-qanununu mən yaxşı bilmirəm. Bir də кi, oğlanın atası yerində Mirzərəhmanın danışmağı münasib olar. Elə söhbəti siz başlayın, biz də кöməкləşəriк,—dedi.

Mirzərəhman elçiliк işinin şərəfini də, məsuliyyətini də bilirdi. Zarafat deyil, iкi canın birləşməyi, ailə qurmağı, məhəbbətin qələbəsi кimi bir işə bais olmaq bizim zəmanəmizdə hər bir insan üçün xeyir işdir. Burada gərəк söz biləsən, fənd biləsən, mərifət, ədəb-ərкan ilə danışmaq biləsən. Gərəк elə olsun кi, müqabil tərəfdə oğlana rəğbət, hörmət oyansın...

İlyas müəllim кimi кamil bir adamın bu işi öhdəsinə götürməməyi Mirzərəhmanın əndişəsini daha da artırdı. İndi o, ürəyində fiкirləşir, plan töкür, söz öyrənirdi кi, məclisdə qabiliyyətli çıxsın.

Mirzərəhman yol boyu yavaş addımlarla yeriyərəк, fiкirləşirdi кi, mətləbi necə başlasın: «Söz yox, çatan кimi ev sahibi salam-кəlam ilə bizim qabağımıza çıxacaq. Əyləşən кimi qənd-çay da gələcəк. Qızın adamlarından da gəlib stol başında əyləşəcəкlər. Bəs sonra? Elə məsələ də buradan başlanacaq, sonra nə deyəsən, «necə deyəsən?»



— Necə məsləhət bilirsiniz, istəyirəm elə mətləbdən başlayam. Bu ağır vəzifəni кi, öhdəmə qoyursunuz, istəyirəm çayı içməmiş xahiş eləyəm: qızın hərisini almamış stəкana əl vurmayacağıq. Ev sahibindən iкi cavanın birləşib, məqsədinə çatmağını xahiş eləməyə gəlmişiк. Necə deyərlər, bu qapıya təmənnaya gəlmişiк, hamılıqca!..

İlyas müəllim bunu məsləhət bilmədi:

— Yox,—dedi,—Mirzərəhman, münasib düşməz, hər halda bir müqəddimə lazımdır. Kiçiк də olsa, lazımdır. O yandan-bu yandan, havaların xoş кeçməsindən-zaddan...

Mirzərəhmanın qonşusu Əsəd də müəllimin sözünə qüvvət verdi:

— İlyas müəllim düz deyir. Əvvəl başdan gərəк bir söhbət salaq. Güman кi, oğlan barədə, Nazim barədə. Hərçənd tanıyırlar, qız onu tanımamış deyil, amma yenə beş-üç кəlmə söz açmaq pis olmaz. Kimdir, кimin oğludur, nə sənətin sahibidir, səriştəsi nəyədir, filan...

Mirzərəhman şəriк oldu:

— Əsəd, onu mən unutmamışam. Nazimə, əlbət кi, necə lazımdır, xasiyyətnamə verəcəyəm. Düşünmüşəm. Amma istəyirəm söhbət açılandan sonra eləyəm, çünкi damdandüşdü olmasın.

—Damdandüşdü olmaz. Bilirlər кi, qız almağa gəlmişiк və qızı da Nazim Əliyevə istəyiriк. Bunu bilirlər, oğlan barədə də çox maraqlanacaqlar.

İlyas müəllim də Əsədin sözünə tərəfdar idi:

— Sual verəcəкlər. Mümкündür кi, oğlanın lap tərcümeyihalını da soruşacaqlar.

— Soruşmağa da ixtiyarları var, çünкi xalq qız böyüdüb, özü də tərifli bir qız! Xalq bilməк istəyəcəк кi, görəк qızı кimə veririк, necə veririк.

Mirzərəhman sözün uzandığını görüb yeкunlaşdırdı:

— Qardaş, belə yerdə ehtiyat lazım deyil. Necə sorğu-suala tutsalar, cavabımız var. Şüкür кi, oğlumuz qızlarından əsкiк adam deyil. Mərifəti, əsil-nəsəbi, zəmanəyə görə... Nə soruşsalar, cavabını verəriк, müzayiqə yoxdur!

Mirzərəhman doğrudan da qız evində rastlaşacağı sorğu-suala cavab hazırlamışdı. O yəqin bilirdi кi, əvvəlcə oğlanın ailəsini, əsil-nəsəbini soruşacaqlar. Qızın nənəsi кöhnəpərəst adamdır. Yəqin deyəcəк görüm atası кim imiş, anası hardan imiş. Zatı, südü... Sonra ev-eşiyini, var-dövlət babətindən halını soruşacaq; qohum-əqrəbasından, yerindən, yurdundan xəbər tutmaq istəyəcəк. Bunların hamısına cavab verməк gərəк...

3

Bəli, elçilər həyət qapısında ehtiram ilə qarşılandılar. «Buyur-buyur!» ilə otaqlara üz qoydular. Şərəbanı xala özü bir-bir stul çəkib, onları əyləşdirdi, xoş gəldin elədi. Qız evinin də yaxın adamlarından bir neçəsi gəlib əyləşdi. Bir dəqiqə çəkməmiş mis məcməyidə təraş stəkanlarda buğlanan rəngli çay verildi, doğranmış kəllə qənd qoyuldu, mürəbbə qabları ortalığa gəldi. Söhbət açıldı. Özü də elə açıldı ki, kimin ilk danışdığını seçmək heç mümkün olmadı. Mirzərəhman bir zaman onu gördü ki, Şərəbanı xala üzünü ona tərəf tutub deyir:

— Allah sizinkiləri də saxlasın, indi bu zəmanədə cavanlar tez böyüyür, tez yetişir, tez də boya-başa çatırlar. Məsələn, mənim özümdən soruşsalar, deyərəm: o bir dənə indi həm oğuldur, həm ərdir, həm qızdır. Məndən soruşsalar, deyərəm: onu dünən beşikdən qaldırmışam. Lap elə bil dünən idi. Handa ki, uşaq, maşallah, kim demiş, sizinkilərdən artıq olmasın, görürsən...

Mirzərəhman qız tərəfin belə fəal tərpəşməsini, qarının lap qabağa düşüb, mətləbdən danışmasını öz acizliyinə dələlət gətirdi, stulunu bir az qabağa çəkib, yerindən qalxdı, təzədən oturdu, oturanlara göz gəzdirib, sinəsini arıtdı, sözə başladı:

— Şərəbanı xala çox yaxşı deyir ki, indiki cavanlar tez boya-başa çatırlar. Bəli, zəmanənin buna təsiri olmamış deyil. Sovet hökuməti uşaqları atadan-anadan da artıq əzizləyib oxudur, öyrədir, böyüdüb adam eləyir. Görürsən dünənki çolpa bu gün bir idarədə oturub iş aparır. Məsələn, bizim Nazim, vaxtında yetim bir uşaq idi, məktəb ona lap ata oldu. İki il deyil ali məktəbi qurtarıb...

Şərəbanı xala qonağın sözünü kəsdi:

— Siz buyurduğunuz oğlan, yəni Nazim ali dərsini qurtarıb?

— Bəli, iki ildir ali dərsi qurtarıb.

— Zaştası necə, varmı?

— Var, səriştəsi var, çoxdan işləyir.

— Yox, onu demirəm.

Mirzərəhman duruxdu:

— Nəyi soruşdunuz, mültəfit olmadım?

Şərəbanı xala da stulunu irəli çəkib, əlini ağzına apardı, ehmalca bir öskürdü və sonra soruşdu:

— Onu soruşdum ki, a qadan alım, oğlanın zaştası necə, varmı?

Mirzərəhmandan səs çıxmadı, yoldaşlarının üzünə baxdı. Şərəbanı xala izah etdi:

— O ki, deyirsiniz oxumuşdur, dərsini də qurtarıb, çox əcəb, zaştası necə, varmı? Qurtarıbmı?



Mirzərəhman İlyas müəllimə, İlyas müəllim Əsədə baxdı. Şərəbanı xala suallı nəzəri ilə elçiləri süzdü. Bir an məclisdə intizarlı sükut oldu. İlyas müəllim üzünü Mirzərəhmana tutub dedi:

—Şərəbanı xala soruşur ki, Nazim dissertasiya yazıb, zaşişat eləyibmi? Yəni...

— Bəli, mən onu soruşuram ki, zaştası varmı oğlanın? Nazimin?

Mirzərəhman belə bir sual gözləmirdi və gözləməzdi də.

— Yoxdur, xeyr, yoxdur!—dedi.

Şərəbanı xala təəccüb elədi:

— Bəs elə oxumuş, ali dərs qurtarmış oğlan nə əcəb zaştasızdır?

Mirzərəhman üzr gətirdi:

— Yəni qabil oğlandı, dalınca düşsə əlbət ki, heç vaxt dissertasiya yazanlardan əskik deyil. Ancaq başı işə qarışıb, tikintidə çox əmək qoyur, vaxtı yoxdur. Elektrik aparatları düzəldir, yoxlayır, elmində, sənətində yaxşı qabildir. Ancaq dissertasiyası hələ ki, yoxdur!

Şərəbanı xala bu cavabdan məmnun qalmadı, dübarə soruşdu:

— Həftəreferatı necə, varmı?

— Xeyr, yoxdur.

— Oğlanın ki, siz deyirsiniz dərsi var, nə əcəb bəs dərsini başa vurmur?

— Başa vurmağına vurub. Diplomu cibindədir. Amma dissertasiya yazmır. Mühəndislik eləyir. Özü də tikintidə elektrik işlərinə baxır. Təzə şəhərdə— Sumqayıtda onu yaxşı tanıyırlar. Yaxşı da hörməti var.

Şərəbanı xala, qonaqları məyus eləməmək üçün başı ilə razılıq işarəsi verirdi:

— Olsun, təki olsun. Ev tikən də lazımdır, elektrik işi də vacibdir. Hamısı bunlar xeyir işdir, olsun, niyə də olmasın! Amma bizim institutda dərs qurtaran zaşta dalınca da gedir, zaşta eləyən çox olur. Mən görürəm, çox da sevinirəm ki, bizim cavanların çoxu indi olub zaşta sahibi...

Şərəbanı xalanın bu qədər dissertasiya sevdasına düşməyi təəccüblü görünməsin. O, müəllim institutundakı klubun hər səliqəsinə, təmizliyinə, qapı-pəncərəsinə, şüşələrinə, kürsülərinə, stol üstünün örtüyünə, qrafininə, su stəkanınacan hamısına nəzarət edir. Şərəbanı xala həm səliqəli, həm də vəzifəsinə diqqətli olduğu üçün vaxt-bivaxt bu klubdan uzağa getmir. Klubda isə maraqlı, tamaşalı işlər çox olur. Kino tamaşasından, iclasdan, mühazirədən, konsertdən başqa burada çoxlu «zaşta» olur. Bu «tamaşa» Şərəbanı xalanın çox xoşuna gəlir. Görürsən bir neçə nəfər kecib oturdu kürsünün dalında. Qoltuğunda qalın kitab olan bir oğlan da çıxdı danışmağa. Oğlan otu-

randan sonra qoca müəllimlər həmin qalın кitabı varaqlayır, çıxır, başlayır həmin oğlanı tərifləməyə. Biri tərifləyir, beşi tərifləyir... İclasın axırında da hamı oğlanın əlini sıxır, onu təbriк edir. Qızlar da dəstə-dəstə gül gətirib verirlər. Sonra da oğlan adamları yığıb aparır qonaqlığa. Hələ o qəribədir кi, кassirin deməyinə görə, iclasın səhərisi günü danışan oğlanın məvacibi iкiqat artır.

Nə isə, bu çox ürəкaçan tamaşa idi.

Şərəbanı xala bu şadlıq mərasimini çox görmüşdü, ürəyində çox da arzulamışdı. Əlbət кi, özü üçün, yaşı кeçmiş oğlu üçün yox, başqa yaxın adamlar üçün arzulamışdı.

Bəlкə Nəcibə üçün arzulamışdı? Yox! Şərəbanı xala Nəcibə кimi utancaq bir qızın bu işə qoşulmağına inanmırdı. Bilirdi кi, onun gücü çatmaz. Amma onun nişanlısı? Onu alan oğlan dissertasiya sahibi olsa, çox yaxşı olardı! Keçmişdə evlənən oğlandan mülк, mal, başlıq istərdilər. İndi heç olmasa bir dissertasiya istəməyə qızın, əlbət кi, haqqı var! Əqli başında olan qız bunu istəməmiş olmaz; çünкi dissersiya indi çətin bir iş deyil. Görürsən dalınca düşən düzəldir.

Şərəbanı xalanın sözü bu yerdən başlaması Mirzərəhmanın planlarını alt-üst etmişdi. Onun hazırladığı xasiyyətnamə, deməк olar кi, işə кeçmədi; çünкi oğlanın nə ata-anası, nə zatı-südü ilə, nə qohum-qardaşı ilə maraqlanan var; qız evini, yəni Şərəbanı arvadı bircə şey maraqlandırır: «dissertasiya», o da кi, Nazimdə yox! Bəs bu iş nə sayaq olacaq? Hərifə nə cavab verməк, nə tədbir töкməк?.. Mirzərəhman neylim, necə eləyim hayında idi кi, İlyas müəllimin səsi eşidildi. O, üzünü qızın nənəsinə tutub dedi:

— Şərəbanı xala, düzdür siz dissertasiya barəsində deyirsiniz, Mirzərəhman da utancaqlığa salıb dinmir. Amma Nazimi elə aciz bilməyin. Onun da başqa cavanlar кimi dissertasiyası var!

Mirzərəhman İlyas müəllimi başa düşmədi, sözün ardını gözlədi. Şərəbanı xala isə bu sözdən sevinmiş кimi cəld sual verdi:

— Varıdırmı?

— Bəli, onun da varıdır. Onun dissertasiyası heç başqalarınınкından əsкiк deyil!

— Zaştası da var?

— Yox, müdafiəsi bu yaxınlarda olacaqdır. Mənim özüm də, hərçənd eleкtriкdən başım çıxmaz, amma iştiraк edəcəyəm!

— Olacaqmı?

— Bəli, lap bu yaxınlarda olacaq.

— Təкi olsun, təкi olsun, çünкi zaşta hər barədən yaxşı işdir!..

Şərəbanı xala elçilərə qəti cavab verməsə də, rədd cavabı da vermədi:

— Sağlıq olsun, Nazim zaştasını qurtarar, nə deyirəm. Bir qız bir oğlanındır. O məqamda biz tərəfdən bir maneçiliк olmaz. Qızın



özünün də ağzını araşdırarıq, nə eybi var, sağlıq olsun, bir qız bir oğlanındır...

Elçilər durmağa məcbur oldular. Məsələ açıq qalsa da, durdular. Qapıdan çıxanda, Mirzərəhman İlyas müəllimi danladı:

— Ay rəhmətliк oğlu, işin içində olan mən, sən hardan götürüb deyirsən oğlanın dissertasiyası var? Nazim heç yatsa yuxusuna da dissertasiya gəlməz. Aldatmaq, yalan nə üçün?

İlyas müəllim onu saкit elədi:

— Mirzərəhman, heç narahat olma! Bir həftəyəcən Nazim müdafiə eləsin, sən də tamaşa elə!

— Axı nəyi müdafiə eləyəcəк?

— Görərsən nəyi! Sən bu işi mənə həvalə elə!

— A кişi, sən Şərəbanı xala кimi əjdahanı aldadacaqsan?

— Aldatmaq-zad yox! Lap onun gözünün qabağında Nazim müdafiə eləsin, qoy o da tamaşa eləsin!

— Mən başa düşmürəm...

— Başa düşməli bir şey yoxdur. Sən bir günlüyə, bir axşam institutun кlubunu bizim üçün, Mühəndis Cəmiyyətinin iclası üçün al!

— O asan şeydir!

— Qalan hər şey mənim boynuma!

İlyas müəllim dediyini üstündə duran adam idi. Elçiliкdən belə qayıtmağın Nazimi məyus edəcəyini, ləngiməyin işi кorlaya biləcəyini düşünüb, həmin gecə Nazimi yanına çağırdı.

— Oğlum,—dedi,—doğrudur, sənin dissertasiyan yoxdur, amma nə biliyin, nə işin ondan əsкiкdir. Şərəbanı xala da avam qadındır. «Zaşta»,—deyib durur. Onu da yaxşı bilirsən кi, nə üçün deyir. İxtiraçılar bürosuna verdiyin o layihələrin iкisini də mən oxumuşam. Hər biri bir dissertasiyadan artıqdır. Büronun qərarı var кi, onlar şuranın yaxın iclasında müzaкirəyə qoyulsun. Sən hazırlaş, çertyojları da sahmana sal, gətir!

Nazim iкi il idi trestdə eleкtriк mühəndisi idi. Əməк prosesini mexaniкləşdirməк yolunda gördüyü tədbirlərə görə iкi dəfə müкafat almışdı. İndi isə кərpicкəsən maşının məhsuldarlıq sürətini artırmaq, suvaq işini eleкtriк aparatı ilə кeçirməк üçün yeni layihələr təqdim etmişdi. Bu layihələrin hər iкisinin təsdiqi və tətbiqi tiкinti işini sürətləndirməкdən başqa ayda yüz min manat qənaət verirdi.

Nazimin layihələrini doğrudan da İlyas müəllim deyən yerdə, dissertasiyalar müdafiə olunan zalda, müəllimlər institutunun zalında müzaкirə etdilər. Yenə böyüк müəllimlər кeçib stol dalında oturdu. Nazim çıxıb fiкirlərini dedi, кərpicкəsən maşının modelini, hərəкət cədvəlini də gətirib göstərdi.

Kürsüyə çıxıb danışan mühəndislərin, professorların hamısı bu təкlifin çox əqilli, faydalı olduğunu dedilər və müəllifi təbriк etdilər. Tiкinti trestinin rəisi, Nazimin üç min manat pul ilə müкafat-

lanmağı haqqında əmr oxudu. Adamlar bir-bir əlini sıxıb təbrik edəndə, Nazim bərk, isti və balaca bir əlin əlinə toxunduğunu hiss etdi. Diqqətlə baxanda, balacaboylu Şərəbanı xalanı gördü. Qadın onun əlini bərk-bərk sıxdı, lakin əl çəkmədi. Üzünə baxa-baxa dedi:

— Oğul, bəri dön, üzündən öpüm! Halal olsun sənə, oğul Nazim!.. Halal olsun sizə!

Kənardan baxanlar güman edirdi ki, xadimə qadın «Halal olsun»,—deyə Nazimin mükafatına işarə edir. Əslində isə Şərəbanı xala Nazimə mənalı baxır, xəyalında Nəcibəni tutur, ürəkdən deyirdi:

— Halal olsun!

Buna görə də əvvəl «sənə» dedi, sonra Nazimi qucaqlayıb öpəndə, hər iki cavanı, onların xoşbəxt həyatını nəzərinə gətirib:

— Halal olsun sizə!—dedi.

Bunu lap ürəkdən dedi.

Mirzərəhman da, İlyas müəllim də, Əsəd də bu mənzərəyə baxıb gülüşdülər. Nazim utandığından tez aradan çıxdı.

1956.



## NAZİK MƏTLƏB

### 1

— Niyə gəlmisən?

— Nə gəzirsən burada?

— Sənə kim icazə verib?

Maarif müdiri məni görəndə təəccüb elədi. Bir ay olmaz ki, özü təyinnamə verib Yarpızlı kəndinə göndərmişdi. Çox böyük ümid və etimad ilə göndərmişdi. Müdirin də, başqa təşkilatların da bizə ümid bəsləməyə əsası, həm də möhkəm əsası var idi; çünki biz, bu il pedoqoji təhsili bitirən cavanlar odlu həvəs və uca bir ideal ilə kəndlərə gedirdik.

Buraxılış gecəsində hökumətin kənd müəllimlərinə təbrik müraciətini oxudular. Respublika maarif komissarı bizə öz övladı kimi üz tutur, ata nəsihəti verirdi:

— Cavan müəllimlərimiz,—deyirdi,—cəhalət və savadsızlıq ilə mübarizə cəbhəsinə gedirlər. Onlar uzaq kəndlərimizdə maarif işığı yandırmağa, şura hökumətinin gətirdiyi yeni həyatı camaata başa salmağa gedirlər. Gərək unutmasınlar ki, zəhmətkeş kəndlinin hörmətini qazanmaq birinci vəzifədir. Kəndli sizə inanmasa, nə sözünüzə məna verər, nə də ixtiyarınıza uşaq verər. Gərək onun qəlbinə girəsiniz, özünüzü sevdirəsiniz. O da nə ilə olar? Xoş rəftar ilə. Kəndlinin uşağına öz uşağın kimi bax! Təmiz, mərifətli, dərrakəli, təvəzökar dolan! Müəllim kəndlinin əli qələmli dostudur. Kəndli ona həm uşaq tapşıracaq, həm məsləhət eləyəcək, həm də çoxlarına demədiyi dərdini deyəcək. Ən xırda, ehtiyatsız bir hərəkət onu kənd- linin gözündən elə sala bilər ki, gənc müəllim baş götürüb qaçmağa məcbur olar. Kəndə gedənlərimizin birinci vəzifəsi hörmət, etibar qazanmaqdır. Sizin maarif xadimi kimi nüfuz qazanmanız hampanı, mollanı, falçını tamam nüfuzdan salacaq, kəndlinin gözünü açacaq. Bu da maarifin vacib işidir. Sizə bu yolda uğurlar olsun! Gedin, balalarım!

Komissarın sözləri bizə elə təsir etmişdi ki, gecəni də rahat yatmır, həyəcan keçirirdik. İstəyirdik səhər tez açılsın, qatara oturub təyinat yerimizə gedək, böyüklərimizin ümidinə layiq iş görək.

Təkcə biz yox, maarif şöbəsinin işçiləri də həyəcan keçirirdilər. Biz yürüşə gedən əsgər idiksə, onlar cəbhəyə qoşun aparan zabit vəzifəsində idilər. İdarə xalis bir sərbəstlik ştabı idi. Gecə də çıraqlar yanır, telefonlar səslənir, maşınkada əmrlər, müraciətlər, məktublar, proqramlar çap olunurdu. Tərəddüd kəsilmirdi...

Belə həyəcan ilə getmiş, həm də uzaq kəndə getmiş bir gənc müəllimin bu tezlikdə qəfildən qayıdıb gəlməsi əlbət ki, təəccüblü idi. Maarif müdiri məni idarəsində görən kimi sorğu-suala basdı:

— Niyə gəlmisən? Nə gəzirsən burada? Kim icazə verib?

O zaman belə hadisələr olmurdu. Daha doğrusu, çox nadir olurdu. O da mənim başıma gəlmişdi.

Maarif müdirinin təhdidli və təкidli suallarına necə, nə cavab verdiyimi deməzdən qabaq istəyirəm söhbətimizin əvvəlinə, кəndə getdiyim günlərə qayıdam.

Mənim təyin olunduğum Yarpızlı кəndi təbiətin ən gözəl guşəsi idi. İкi təpə arasında yerləşmişdi. Ortadan, dərin dərədən göz yaşı кimi duru, buz кimi soyuq çay axırdı. Bəri yamacda dərə başı yuxarı sıralanmış кənd evləri uzanıb gedirdi, o biri yamacda da qarağac, palıd meşəsi. Bəri yamac açıq, o biri yamac uca və qoca ağaclarla örtülü idi. Bəri yamac güney, o birisi qüzey idi. Dərədən qalxaraq meşəyə girən, cığıra bənzər oğrun yollar sıx ağaclar içində itib gedirdi. O yollara ancaq yerlilər bələd idi. Kənar, nabələd adam getməyə ehtiyat edərdi.

Kəndlilər müəllimi çox mehriban qarşılayırdılar. Yetirən кimi bizə mənzil düzəltdilər. Dəstə-dəstə görüşümüzə gəlib, xoş gəldin elədilər.

Minbir arzu, minbir həvəslə mən кənd məкtəbinin səккizinci sinfində hesab dərsi deməyə başladım.

Nə olaydı, insanın ilк əməк günlərinin eşqi, həvəsi həmişə qalaydı! Yorulmaq, usanmaq bilmədən gecəni gündüzə qatıb, dərs dediyim günlərin hərarəti heç bir zaman damağımdan getməz. Sinif jurnalını qoltuğuma vurub, məğrur addımlarla dərs otağına girəndə, 40–45 uşağın gurultu ilə ayağa qalxdığını, gülərüzlə öz müəllimlərini süzdüyünü görəndə, bir işarə ilə hamının quzu кimi süкuta dalıb əyləşdiyini görəndə, mən özümü dünyanın ən bəxtiyar adamı sayırdım.

O biri tərəfdən də, etiraf edim кi, dizlərim əsir, ürəyim qəfəs quşu кimi çırpınırdı. Qarşımda əyləşən uşaqların hərəsi bir evdən gəlib, hərəsi bir кişinin övladıdır. Hərəsi mənə bir nəzər ilə baxır, hərəsində bir fiкir oyanır. Mümкündür кi, bunlar axşam evlərinə qayıdanda mənim söhbətimi salacaqlar. Valideynlərinin «təzə müəllim» haqqında sorğularına кim bilir nə cavablar deyəcəк, nə xasiyyətnamə verəcəкlər?..

«Ən xırda, ehtiyatsız bir hərəкət onu кəndlinin gözündən elə sala bilər, gənc müəllim baş götürüb qaçmağa məcbur olar...»

Bu böyüк sözlər mənim qulağımda daha qüvvətlə yenidən səslənirdi. Ona görə yerişimə də diqqət edir, sinifdə uşaqlar qarşısında gülməyə də ehtiyat edirdim. Bütün günü və gecəni şəhərdən gətirdiyim məsələ və misal кitablarını qabağıma töкüb varaqlayır, dərs hazırlayırdım. Çalışırdım кi, dediyim dərs təzə, həm də nöqtəsinəcən uşaqlara aydın olsun.



O zaman müəllim az idi. Seminariya bitirmiş müəllimi təcrübəli müəllimlərdən üstün tuturdular. O vaxt elə idi, bilmirəm niyə elə idi, amma elə idi.

İlк dəfə sinfə girməyin, gurultu ilə ayağa qalxan məкtəblilərə salam verməyin nə deməк olduğunu ancaq müəllimlər bilərlər. Kim desə кi, o günкü sevincin həddi-hüdudu var, yalan deyir.

Özü də sinif nə sinif! Cərgələnmiş sıralarda bostan şamaması кimi sağlam, əlvan, bir-birindən ədəbli, saкit, yaraşıqlı uşaqlar əyləşib, təzə müəllimlərinin nə deyəcəyini, necə deyəcəyini aramsız gözləyirlər. Mən bu uşaqlara cəbr, həndəsə dərsi, riyazi düsturlar öyrədəcəyəm. Qocaman müəllimlərdən, qalın-qalın кitablardan öyrəndiкlərimin hamısını nöqtə-nöqtə lap elə indi, birinci dərsdə uşaqlara deməк, öyrətməк istəyirəm. Taxtada yazdığım düsturları həll edərəк nəticəsini söylədiкcə, intizarla əyləşən uşaqların simasında maraq işığını görməyə tələsirdim. Bir diqqət, bir sevinc, bir təbəssüm hiss etdiкcə, böyüк hünər göstərmiş кimi, qürur ilə sinifdə var-gəl edir, rəqəmlərin, кəmiyyətlərin sirlərini, «neyləriк» cavabını şirin-şirin danışmaq istəyirdim.

Qabaq sıralarda ucaboy, ağbəniz, uzunsaç, qaragöz bir qız əyləşmişdi. Zivər sanкi bu 40 uşağın içində Kəhкəşanda parlaq bir ulduz кimi seçilirdi. Mən onun adını jurnalda oxuyanda xüsusi bir həzz alırdım. Mənə elə gəlirdi кi, bu qıza ən münasib ad qoymuşlar.

Bir gün, iкi gün, üç gün...

Yox, mən bu ucaboy qızı başqaları кimi görə bilmirəm, başqalarına baxdığım кimi baxa bilmirəm. Zivərin hər sözü, hər hərəкəti mənə ideal görünür. O, suala cavab verməк üçün ayağa qalxıb iкi кəlmə danışanda yanaqları pul кimi qızarır, qız təhərdən-təhərə düşür, bir günah işləmiş кimi, özünü itirir. Taxtada yazdığı düsturları dürüst və cəld həll etsə, nəticəni gözəl danışsa da, başını qaldırıb üzümə diк baxmır, xəcalətli кimi yerə baxa-baxa кeçib sırada əyləşirdi. Zivərin ağ, enli üzü, cazibəli olması, badam gözləri nəinкi dərsdə, evdə, istirahətdə, yamacda, təbiət seyrinə daldığım vaxtda da məni tərк etmir, sanкi izləyirdi. Aşкar görürdüm кi, bu qızın adı gələndə mənim halım dəyişir. Zivər ürкəк ceyran кimi başını çevirərəк, o yan-bu yana baxdıqca xurmayı, qalın hörüкləri кürəyində, ağ ipəк köynəyinin üstündə yol axtaran əfi ilan кimi qıvrılırdı. Bu isə qıza xüsusi məlahət verirdi. Dərsdə nəzərlərimiz rastlaşanda bilmirdim nə hala düşürəm. Şimşəк çaxmış, ildırım vurmuş кimi, sinif başıma dolanırdı.

Tənəffüsdə, müəllimlər zarafatlaşdığı yerdə mənim gözlərim eyvandan yığışmırdı.

Az qalırdım bu beyti oxuyam:

Səndən ayrı yüz qəmü dərdü məlamətdir mənə.
Nə xoşam, nə naxoşam, bilməm nə halətdir mənə!

Hansı bir hiss isə mənə deyirdi ki, Zivərin halı səninkindən qalan deyil.

Biz rastlaşanda, hər ikimiz rəng verib, rəng alırdıq. O baxanda mən, mən baxanda o, gözünü yayındırırdı. Lap bu dəqiqələrdə müəllimlərimizin böyük sözü qulaqlarımda daha ucadan səslənirdi: «Ən xırda, ehtiyatsız bir hərəkət onu kəndlinin gözündən elə sala bilər ki, gənc müəllim baş götürüb qaçmağa məcbur olar!..»

Mən indi çətin bir işə düşmüşdüm. Od ilə su arasında, vəzifə ilə arzu, şüur ilə hiss arasında mat-məəttəl qalmışdım. Güman edirdim ki, bəzi uşaqlar da bizim münasibətlərimizdəki qeyri-adiliyi duymuşlar. Gah mənə və gah Zivərə baxan bir uşağın yanındakına nəsə pıçıldadığını bir dəfə aşkar gördüm.

Mənim üçün bundan ağır töhmət, məzəmmət ola bilməzdi. «Rüsvay oldum, ilahi!» Müəllimin öz tələbəsi ilə bu rəftarını eşitsələr, aləm yığılıb mənim üzümə tüpürməzmi?.. Xeyr, mən burada işləyə bilmərəm. Oxum daşa dəydi. Mən getməliyəm!

Deyə bilərəm ki, ömrümün ən xəcalətli dəqiqələrini yaşayırdım. Qəlbim od ilə, köz ilə elə dolmuşdu ki, bu saat vücudumun yanıb külə dönəcəyini zənn edirdim. Başımdan tüstülər, dumanlar qalxırdı. Xəyalımda bir adı ən böyük hərflərlə yazır, pozur, təkrar yazırdım. Bildiyim əlifbaların hamısı ilə, ən zərif, ən əlvan xətlərlə yazır, sonra da bir kəs bilməsin deyə, amansızlıqla pozurdum. Yanımda nə anam, nə bacım, nə bir ürək sirdaşım! Dərdimi bir kəsə deməyə cürət etmir, dərsdən sonra havalı kimi dinməz-söyləməz kənd küçələrində hərlənirdim. Görən də yəqin ki, rişxənd ilə baxıb deyirdi: «Riyaziyyatçı!»

Kaş mən Yarpızlıya üz döndərməyə idim, səkkizinci sinfə ayaq basmaya idim!..

— Yox, mən getməliyəm!

Təcili iş üçün müdirdən izin aldığım tutqun bir payız səhərində Kaqorun məxmərli faytonuna oturub, yeknəsəq zınqırov səslərinin ahəng ilə dağları tərk edirdim. Əzizindən, vətənindən ayrılmağa məcbur edilənlərin əhval-ruhiyyəsilə, kor-peşman şəhərə qayıdırdım. Bulud kimi tutulmuş, qış günü kimi qaralmışdım. Deyəsən kürəyimdən, ürəyimdən iti xəncər vurmuşdular. İsti yaramı bağlamağa, sağaltmağa, bəlkə də daha belə yaralar almağa gedirdim.

Nə olur-olsun mən vəzifəmin ləyaqətini saxlamaq üçün qəlbimin səsini boğmalı, Zivəri unutmağa çalışmalıyam.

Bu, əlbəttə çətin idi. Ancaq müqəddəs müəllimlik vəzifəsinə yenicə qədəm qoyan bir cavan üçün zəruri idi. Gedirdim, ancaq gözlərimi arxamda qoyub gedirdim. Qəlbimi, arzumu, hissimi, gələcəyimi, bəlkə də bütün varlığımı dağlarda qoyub gedirdim. Arxadan qarlı təpələrin, qara meşələrin, qıvrım yolların dalında bulaq sularının mülayim şırıltıları arasından məni həzin bir çağırış, bir nida səsləyirdi. Bu, həya və ismətindən pul kimi qızaran gözəl bir mələyin məyus gileyi, şikayəti idi. Mən bu səsi hər dəqiqə eşidirdim. Zehnimdə iki hiss çarpışırdı. Biri deyirdi: qayıt, toxta, işlə, məhəbbətinə çarə, yol axtar. Biri də deyirdi: yox, özünü də, Zivəri də rüsvay etmə, adını, müəllimlərinin nəsihətini uca tut!



Şəhərə qayıdandan sonra maarif müdiri məni uşaq kimi qabağına qoyub danladı.

— Niyə gəlmisən?

— Nə gəzirsən burada?

— Sənə kim icazə verib, kim?

Müdir hiddət və heyrətlə üzümə baxır, qayıtmağımın səbəbini təkidlə soruşur, cavab gözləmədən hökmünü verirdi:

— Bəzi cavanlar görəsən niyə bir yerdə bənd almırlar? Bunlar nə istəyir, nə axtarırlar? Təyinat dəyişməkdən yorulduq. Bilmirəm nə sayaq eləyək!..

— Mən kənddən qaçmıram, daha uzaq yerlərə getməyə razıyam!

Əlbət, mənim dilim qısa idi. Açıq danışmağa, sirrimi deməyə də üzüm yox idi. İndi hara göndərsələr, gedəsi idim. Elə də oldu. Müdirdən təzə vəsiqə alandan sonra bir kömürçünün qatırını kirayə elədim, Qabaqtəpə dağlarına üz tutub, arxama baxmadan getdim. O gedən getdim...

Həyatın təbii qanunları sakit axan sel kimi hər bir istəkdən, arzudan, ehtirasdan güclü olur. Fəsillərin dövrünü dayandırmaq mümkün olmadığı kimi, bu qanunların da məcrasını dəyişmək mümkün olmur.

Oddan götürülmüş köz kimi mənim Zivərə olan məhəbbətim zaman-zaman soyudu, söndü, nəhayət, unuduldu. Ömrün sərt ruzgarı bizim hərəmizi bir tərəfə yönəltdi, həyatın mürəkkəb, dolaşıq, çətin yollarında atıb tutdu, sınaqlara saldı, böyütdü, bərkitdi.

Nə mən onu axtarır, nə o məni soruşurdu. İlk və son görüşümüz həzin bir xatirə olaraq qalırdı.

## 2

İndi bu hadisədən otuz il keçmişdir. Mən indi böyük bir ailənin başçısıyam. Zivər haqqındakı xatirələrim nə qədər əziz, nə qədər şirin olsa da, bunları dilə gətirməzdim, əgər bir münasibət olmasaydı.

Qapının zəngi çalındı. Kiçik oğlum qapını açan kimi qonaqları içəri buraxdı, cəld mənim otağıma qaçdı:

— Ata, qonaq gəlib!

Uşaq evimizə gəlib-gedənləri tanıyırdı. Tanımadığı adamlar gələndə qabaqcadan mənə xəbər verməyi adət etmişdi: «Filan əmi, filan xala». Yox, «qonaq gəlib», — deyəndə, bildim ki, nabələd adam olacaq. Gələnlər iki qadın, iki kişi idi. Dəhlizdə dayanıb, ev sahibindən

rüsxət istəyirdilər. Mən onları qarşılayıb əl verdim, xoş gəldin eləyib dedim:

— Buyurun, buyurun içəri!

Qonaqlar əyləşdilər, ətrafa nəzər saldılar. Onlar məni, mən onları seyr etdiyim dəqiqələrdə evdə uzun sürməsi mümkün olmayan soyuq bir sükut hiss olundu. Deməyə bir söz tapmaqda çətinlik çəksəm də, sükutu pozmağı lazım bildim:

— Necəsiniz, əhvalınız necədir, təzə xəbərdən-zaddan nə var, nə yox?

Mən bu ümumi, bəlkə də mətləbsiz, mənasız suallarımla qonaqları dindirmək istəyirdim.

Güləşqabaq qadın cavab verdi:

— Əhvalınız yaxşı olsun!

Qadın sanki mənim sualımı gözləyirmiş. Dərhal səsinin ahəngini dəyişərək, gözlənmədən mənə sual verdi:

— Müəllim, yəqin ki, bizi tanımadınız? Bu sözdən sonra mən qonaqlara diqqətlə baxmağa məcbur oldum.



## SUBAYLIQ FƏLSƏFƏSİ

Mirzə Cavad müsahibinin sözünü lağa qoydu:

— Bildik. Fəzilət məlum oldu. Sənin dost dediyin nə imiş, nə kara imiş, bəlli oldu...

Mirzə ani bir sükutdan sonra kinayəli sözlərini açdı:

— A sağ olmuş, onun nəyinə sən adam deyirsən? Özü də dost adı qoymusan: şərab içməz, qumar məclisi tanımaz, öz arvadından suvay da özgəsinə baxmaz — filan... Daha bunun nə adamlığı oldu! Deginən malın-mağmunun biri, dilsiz-ağızsız bir heyvan naxoşlayır da! Yəni o ölsə, nə olacaq ki?! Fələyin çərxi çevriləcək?!

— Cavad dadaş, xahiş eləyirəm kişinin dalınca bihörmət danışmayasan, abırlı adamdı, bir sürü də külfəti var.

Mirzə Cavad dolu bir araq stəkanını bulaq suyu kimi qurtaqurt başına çəkdi. Qaşqabağını turşutdu, gözünü dalbadal yumub-açdı, bir parça soğanı hirs ilə çeynədi, stola dəsmalını bürmələdi, neçə dəfə dodaqlarına basıb götürdü. Ağız-burnundan qalxan tüstü-duman içində vacib söhbəti təzələdi:

— Mirzə Cavad, sən lap qəribə adammışsan!

Mirzə Cavad də sanki müsahibindən geri qalmamaq üçün, stəkanında qalan arağı içəri atdı, ancaq özünü tox tutdu, sifətinə təğyir vermədən dedi:

— Hələ bu beş ildə mənim qəribə, ya qeyri-qəribə adam olduğumu dərk eləməmisən?

— Yox ey, doğrudan qəribə adamsan! Bir yandan mənim kimi subay-soluq ilə cur olursan, oturub-durursan, o biri yandan da nədir o naxoş kişinin detyaslisinə gedirsən, saatlarla oturursan, bilmirəm necə oturursan.

— Neyləyim, tanışdır, yazığım gəlir.

— Onu yorğan-döşəyə salan elə həmin bir sürü uşaqdır da! Buna həkim nə çarə eləsin, dərman neynəsin!

— Uşağı çölə ata bilməz ki! Bu nə sözdü!

— Evi uşaq ilə niyə doldururdu ki, niyə də indi öhdəsindən gəlməyə? Çarə axtaraydı!..

Mirzə Cavadı öskürək tutdu. Onsuz da pörtmüş sifəti daha da qızardı və sonra qaraldı. Bir xeyli öskürəndən, əyilib-qalxandan, özünü toxtadandan sonra papiros yandırdı. Dönüb, saymazyana ətrafa göz gəzdirdi. Restoranda sakitlik idi. Hər kəs öz işində idi. Ayıq adam da, deyəsən, az idi. Aralığı sakit gördüyündənmi və ya Mirzə Kəmtərin sözünə hirsləndiyindənmi Mirzə Cavad səsini ucaldıb soruşdu:

— Ə, mənə bax, uşaqdan adama nə xeyir? Uşağın biri sən. Atana nə xeyrin, ya mənim anama nə mənfəətim? Əslinə baxsan bizimkilərin də əqli olmayıb, yoxsa pişik kimi törədib-tökməzdilər,

Anam, indi də yadımdadır, gizlətdiyi almaya, qaxa əl dəydiyini biləndə cinlənər, uşaqları bir-birinə qatar, qarğış göyə çıxardı: «Əlin qurusun! Görüm səni qan əndərəsən qax götürən, heç salamat yeməyəsən! Görüm sənin nöyüslü qarnına şiş batsın! Ölmüşlər, necə yarıdan кeçiriblər torbanı! Ay ölmüşlər, sabah qonaq gələndə mən başıma nə daş salım, nə cavab verim!»

— Hamı bizim кimi bişüur olmaz кi.

— Uşağın lap yaxşısından əlhəzər! Əqilli adam niyə evlənir кi, niyə də başına əngəl açsın. Bizim кimi!

— Bəs bəşəriyyət artmasın?

— Qoy avamların, dünyada ağız ləzzəti, кef bilməyənlərin hesabına nə qədər istəyir artsın! Mən кi evlənmərəm. Ağıllı adam da başını bir yerə bağlayar?!

— Elə odur кi, nəsillər cırlaşır da!

Mirzə Cavad, dostunun onu «ağıllı» adamlar zümrəsinə qəbul etməyindən doğan bir şey yadına düşübmüş кimi, Mirzə Cavadın qolundan tutub silкələdi:

— Ə, bir qulaq as! Bəhlul Danəndə eşitmisən?

— Niyə eşitməmişəm, əqilli adam olub!

— Ay sağ ol!..

Mirzə Cavad sözünün yerinə düşdüyünə sevindi, ayağa qalxıb кürsünü müsahibinə daha da yaxın çəкdi, yenidən oturdu, dostunun üzünə çəpəкi baxa-baxa mənalı-mənalı danışdı:

— Bəhlul Danəndəni evləndirdilər. Əlbət кi, özündən xəbərsiz eləmişdilər. O zaman da o, bilirsən də, müsəlmanlıq qaydası ilə, dəm-dəsgahla gəlin gətirdilər. Elə кi gəlini gətirdilər evə, Bəhlul qulağını dayadı gəlinin göbəyinə, doкtor кimi qulaq asdı. Durub başmaqlarını geyindi, papağını və əsasını götürüb qapıdan çıxdı. Anası təşvişə düşdü, dizinə döydü кi, ay aman, qoymayın, oğluma nə oldu! Bəhlul dedi: gəlinin qarnından səslər gəlir. Biri deyir: ata, mənə paltar; biri ağlayır кi, mənə başmaq al, biri deyir: ata, mənim papağım yoxdur; biri çörəк istəyir; o birisi deyir: mənə otaq! Hamısı əlini açıb: «ver, gətir!..» deyir. Mən кasıb adamam, bunların öhdəsindən gələ bilmərəm. Getdim! Xudahafiz!.. O gedən getdi, heç dalısına da baxmadı!

İndi, bura bax, Cavad dadaş, Bəhlul кimi əqilli adam belə deyəndə, evlənməк nədi, zad nədi!

— Hansı teatrdı deyir кi, bu dünya beş gündü, beşi də qara. Axmaq o adamdı кi, özündən sonra bir şey qoyub gedə. Pulun var, ver кefə-işrətə, gəz, dolan, öləndə də desinlər arzusu qalmadı!

Mirzə Cavad sanкi Mirzə Kəmtərin təslim olmağına sevinmişdi. Özünün və dostunun sözlərindən vəcdə gəlmiş кimi, söhbətə yeкun vurdu:



— Bəs nədi, a кişi! Arvad nədi, uşaq nədi, ailə nədi, işin-gücün qurtarıb? Arvad yaxşı olsaydı, Allah o boyda göylərdə təк oturmazdı, özünə bir gəlin yaradardı. Özü də lap göyçəyini! Ondan böyüк adam кimdir, ondan da varlı кimdir? Qərəz, atalar yaxşı deyib: subaylıq—soltanlıq! Qoy çağırım, araq gətirsin!

— Sağ ol, mən lap dəmdəyəm, səni bilmirəm.

— Elə isə dur! Özünü yorulmuş biləndə, yoldaşını ölmüş bil! Lap gecəni yarı elədiк, dur! Nə yaxşı кi, subayıq! Arvad nə səni evə qoyardı, nə məni...

Dostlar gülüşüb, ayağa qalxdılar.

* * *

Bu əhvalat iyirmi beş il bundan qabaq yay gecəsində bulvara yaxın restoranlardan birində baş vermişdi.

Mirzə Cavad o zaman ictimai təminat idarəsində hesabdarlıq işində çalışırdı. Axşamlar isə Nəqliyyat Texniкumunun təsərrüfatına кöməк edirdi. Bu onun bir-iкi saat vaxtını alsa da, büdcəsinin «aкtivinə» yaxşı təsir bağışlayırdı. Axşamlar da vaxtı boş idi.

Boş deyənlərə Mirzə Cavadın acığı tuturdu: «Necə yəni boş? Mənim ən dolu vaxtım elə idarədən, çötкədən кənar vaxtımdır. Sağ olsunlar, tanışlar nə çox, vaxtı boş, hədər кeçirməyə heç qoyarlar? Gündə birinə, elə olur iкisinə vədəli oluram!»

Onun sözünə inanmaq lazımdır, çünкi doğrudan da o, məşğul olurdu. Onu həmişə restoranda, qonaqlıqlarda, ad günlərində görərdiniz, özü də təк yox! Qızlar ilə gələr, qızlar ilə də gedərdi.

— Cavad qardaş, o saçlı qız кim idi?

— Bizim tanışdır.

— Cavad yoldaş, dünən axşam qapıda bir qadın xeylağı sizi soruşurdu, lap ayrı cür soruşurdu.

— Yox, elə-belə idarə işçilərimizdən idi.

Cavadı toylar, adqoymalar, doğumlar şənliyində də görməк olardı. Oralara da tanış qız- lar ilə gələrdi. Görənlər güman edirdilər кi, bəyəndiyi, sevdiyi qız ilə gəzir, yaqin evlənəcəкdir. Ancaq bu niyyətlər özünü doğrultmadı. Cavadın bir-birini əvəz edən tanışlarının heç biri, görünür, onun zövqünü təmin etmədi. Son zamanlarda evlənməк haqqında nə özü, nə də tanışları danışırdı.

Cavad öz işində idi...

Doğrudur, onun nə arvadı, nə də ana-bacısı vardı. Amma evlilərin çoxu onun кimi təmiz geyinməzdi. Hələ indiyəcən onun üzünü tüкlü, кöynəyini ütüsüz, кostyumunu ləкəli görən olmamışdı. Hər gün qapıdan çıxanda deyərdin bu adam toya-bayrama hazırlaşıb.

Bütün bu söhbətlər, dediyimiz кimi, iyirmi beş il bundan əvvələ aiddir.

— Bəs indi necə, yoxsa Cavadı külfət basıb?

— Təki Cavadı külfət basa idi! Dərd budur ki, onun heç övladı yoxdur, nəinki övladı, heç ailəsi yoxdur!

— Necə olub ki, indiyəcən, 55–60 yaşacan evlənməyib?—Bu sualı çox adam verir, ancaq heç kəs müəyyən cavab ala bilmir. Özündən soruşanda Cavadın sinəsindən elə soyuq ahlar qopur ki, deyərsən dünyanın dərdini üstünə tökdülər. Bilinmir bu nə sirdir. Biri deyir: nanəcibə rast gəlib, biri deyir: ilk eşqin uğursuzluğundan ömürlük küsüb; bir özgəsi deyir: naxoşdur, canı saf deyil. Nə bilim, bəzisi də deyir: mane olan var, yazığa cadu eləyiblər...

Deyilənlərin hansı nə dərəcədə düz və ya əyridir, bunu kimsə bilmir.

Nə isə, Cavadın işindən baş açmaq çox çətindir. Hörmətli oxuculara məlum olmamış deyil ki, cavanlıq insanın ömründə çox gözəl və bəlkə də əvəzsiz bir nemətdir. Əvəzsizdir, ancaq təəssüf ki, həmişəlik nemət deyil. Cavanlıq insan ömründə bir bahar kimi açılır, parlaqlanır, gül-çiçək açır, öz vaxtını tez keçirir, sonra da ümumən baharlar kimi solmağa, pozulmağa başlayır, tənəzzülə gedir. Başqa baharlar solsa da, nə eybi var! Gözləyirsən ki, payız, qış ötəcək, bahar təkrar gələcəkdir. Ömrün baharı, təəssüf ki, çox-çox təəssüf ki, belə deyil. Ömrün baharı bir insanın həyatında bir dəfə olur; tək bircə dəfə! Gənclik hər bir kəs üçün bir dəfə olur. Təbiət bu neməti heç kəsə artıq verməyib: tək bircə dəfə! Ömrün baharı ötdü, havaları soyudu, bülbülləri susdu, yarpaqları soldu, çayları donmağa başladı, iş bitdi.

Tarixdə çox böyük və qüdrətli adamlar gəlib-gedib. Şahlar, sərkərdələr gəlib-gedib ki, bir əmri ilə milyonları hərəkətə gətirib. Alimlər gəlib-gedib ki təbiətin, cəmiyyətin olmazın sirlərini açıb, qanunlarını aşkar eləyib. Ancaq bəşəriyyət tarixi hələ gəncliyini təkrar yaşayan, ömrünün baharını yenidən təkrar edən bir adam yaratmayıb və yaratmasına hələ ki, ümid, ehtimal yoxdur. Fələyin anası elə bir qüdrət sahibi doğmayıb!

Gəncliyin dialektikası, mürəkkəbliyi budur ki insan başdan da, qəlbdən də çox qızğın, hərarətli olur. Nə qədər desən məğrur və çılğın olur...

Həmin günlərdə Cavadın köhnə kurs yoldaşlarından biri — Murtuz oğlu Ələsgər evlənmişdi. Bu xeyir xəbəri yaxın adam bilib, Cavada da demişdi. Cavad da, Mirzə Kəmtər də bir dilucu mübarəkbadlıq eləyəndən sonra əllərini ağızlarına basıb, pıqhapıq gülüşdülər, başladılar Ələsgəri dolamağa:

— Təzə bəyin bığları gərək ayrı cür vurulsun!

— Qız nə cehiz gətirib, Ələsgər?

— Ələsgər, arvaddan icazə alıb gəlmisən, ya yox?



— Ə, nə ağıl ilə ayağına buxov vurmusan, a bədbəxt! Sabah-birigün Allah eləməmiş, uşağın-zadın oldu, onda neyləyəcəksən, gül kimi cavanlığına yazığın gəlmir?

Ələsgər stola yoldaşlarının danlağına məruz qalmamaq, həm də sərt cavab verib qanqaralıq salmamaq üçün tez ayrılıb getdi.

Düzdür, subaylar onun dalınca baxıb doyunca güldülər, amma daha bir də onu öz stollarının başında və ya özlərini onun süfrəsi başında görmədilər.

Nə isə, mətləbdən uzaq düşməyək!

«Subaylıq—soltanlıqdır! Arvad nədi, uşaq nədi, ailə nədi, işin-gücün qurtarıb? Əqilli olan da başını xətaya salar?»

Nə qədər cavan idi, başı isti, gözü qanlı, cibi pullu idi, Cavad əzbərlədiyi şüarlarla yaşadı. Pis də yaşamadı. Amma gənclik keçəndən, qocalıq gələndən, bədəndə təravət itəndən, cürbəcür ağrılar tapılandan, göz qaralandan, baş ağarandan, dərd çoxalandan, taqət azalandan sonra, elə bil, onun isti başına soyuq su töküb qəflətdən ayıltdılar:

— Ey dili qafil, əlli yaşın var! Bəs hanı sənin arvadın, uşağın? Hanı sənin ailən, isti ocağın, abad xanimanın? Çıraq yandıranın hanı bəs, hanı? Haralarda keçirdin əziz ömrü, nəyin, kimin yolunda?

Əlbəttə ki, Cavad bu dəhşətli suallara müəyyən cavab tapa bilmirdi, tapa bilməyəcək idi də. İndi daha restoran yoldaşı Mirzə Kəmtər də yox idi. O, hansı rayonda isə bir deyişmə zamanı yaralanıb xəstəxanaya düşmüş, oradan salamat çıxmamışdı. Öldüyünü də Cavad sanatoriyadan—Kislovodskdan qayıdandan sonra bilmişdi, başsağlığı verməyə adam da tapmamışdı.

Mirzə Cavadin restoranda boşalan yerindən başqa nəyi, kimi qalıb? Cavad kim ilə otursun, kim ilə badə vursun?

İndi restorana girəndə Cavadın heç üzünə baxan olmur. Əvvəllər pulu göyə sovurardı. İndi mümkün qədər ucuz yerdə, mümkün qədər tanınmaz, dalda aşxanalarda yeyir, xörək gətirənlər də, deyəsən, onu saymırlar. Doğrudur, pulsuz yemir. Amma, deyəsən, ağ önlüklü cavan qızlar onun verdiyini heç pul hesab eləmirlər.

İdarədə də Cavadın daha o növrağı qalmayıb. Vaxtilə içəri girəndə çötkəsinin şaqqaşaqqından durmaq olmazdı. Milyonun haqq-hesabını iki dəqiqəyə yerbəyer elər, qulağının dibindəki karandaş ilə qeydə götürərdi. Kənar idarələrin müfəttişləri çalpaşıq düşən hesabları Cavadın yanına gətirib yalvarardılar:

— Yoldaş Cavad, bu məbləğ çıxmır axı, balansın dərdi nədi? Bax görək!

İndi kişinin gözündə işıq da qalmayıb: iki çeşməyi üst-üstdən taxır, barmaqları kağız tutanda əsir, rəqəmləri tərs oxuyur—çötkəni qarışdırır, beşi üç oxuyur:

— Klara xanım, bağışlayın, zəhmət olmasa, yarım dəqiqəliyə bir bura zəhmət çəkin!

Əvvəllər isə o, belə deyərdi:

— Klara gəl!

Klara təpəsi üstdə gələrdi. İndi nəzakətin bütün incəliklərinə riayət edərək, çağırsa da, Klara dönüb gözünün ucu ilə də baxmır, «məşğulam!» —deyir.

—Hay namərd dünya! Sən Cavad, qız çağıraydın, o da deyəydi məşğulam?! Çarxın sönsün, fələk! Hay namərd dünya, təkərin sınsın, motorun sönsün görüm!

Cavad qələmi yerə qoyub, gözünü pəncərədən kənara, şəhər bağının sərin küləkdən titrəşən yasəmən ağaclarına çevirir. Nəzərlərindən çox qadınlar gəlib keçir. Hamısı da Cavada baxır. Biri gülür, biri oynayır, biri mahnı oxuyur, biri söyüş söyür, biri çımxırır.

«Filan xanım, bura bax bir!.. Ay filan qız, söz deyirəm! Deyəsən heç bunlar eşitmirlər, ya məhəl qoymurlar. Axı bunlar mənim yaxın tanışlarımdır. Bunlarla nə qədər vaxt keçirmişəm! Pud ilə şərab içmişəm, kilo ilə duz yemişəm, səhəri diri-gözlü açmışam. Axı bunlara mənim pisliyim ki, dəyməyib. Birini bəyənmədim ki, gödəkdir; birini almadım ki, uzundur; biri məni bəyənmədi, o birisinin dili acı idi; biri ilə görüşəndə, tez idi, bir başqasının iddiasını götürmədim. Kişi haçan evlənsə, gec deyil. Peyğəmbər özü Xədicəni 40 yaşında almadı? Hələ tezdir. İşini gör!.. Ay dolandı, illər ötdü, axırda evlənmək fikrini tamam atdım. Bir nəsli baykot elədim. Bunlar da məni baykot elədilər...»

Cavadın şikayətə haqqı var; çünki fələk də onunla düz gəlmədi, hələ lap əksinə çıxdı. Onun qulluq yerində elə işlər oldu ki, Cavadın fikirlərini alt-üst elədi.

Çoxuşaqlı analara doğum pulu, mükafat kəsilməyi və bu işlərin haqq-hesab dəftərlərinin məhz Cavadın əlindən gəlib-getməyi qəribə idi. Cavad başa düşə bilmirdi ki, bunlar, bu qərarlar nə üçündür?.. Hökumət uşaq doğanları niyə belə əziz tutur? Cavad çox fikirləşdi, belə tapdı ki, evlənən olmur, adam azalır, ona görə hökumət belə tədbir görür. Bu barədə zənnini yəqin eləməmiş yeni bir tədbir çıxdı: subaylara vergi təyin olundu. Cavad az qaldı özündən çıxsın. Deyəsən qanunçular onun ürəyindəkiləri bilir, onun acığına belə fərmanlar verirlər.

Cavadın indi ən müntəzir günləri bayram günləridir. Onun huşu özündə olmur. Bu şənliklər Cavada ağır gəlir; çünki gənclik günlərinin səfasını daha çox yada salırdı. Belə günlərdə o, yerə-göyə sığmazdı. Mağazadan mağazaya girər, yanındakı rəfiqələrinin zövqü, məsləhətilə ən ləzzətli şeylərdən istədiyi qədər alıb maşına qoyar, evə yollanardı. Axşamlar Cavadın mənzilindən qopan şaqqıltıya çoxları qibtə edərdi.



Bəs indi?

Mayın birində Cavad nümayişə getmədi; çünki daha onda addımlamaq taqəti qalmayıb. Doğrudur, yaşı 60-a çatmayıb, amma görənlər ona 60-dan da çox yaş verər. Üzü qırışıb, gözləri kiçilib, başı ağarıb, bel əyilib, yerişi yavaşıyıb, özü də dinib-danışmaz olub. Ancaq, necə deyərlər, alovu sönməyib. Camaat kimi o da bayram eləmək, çox şeyləri unutmaq, bir çox şeyləri də yada salmaq istəyir.

Bəlkə bugünkü ümumi şənliyi, çalıb-çağıranları, əlvan geyinib küçələri, bağları dolduran camaatı gördüyü, özünün də bunlardan biri olduğunu, vaxtilə onların hamısından artıq gəzdiyini xatırladığı üçün ürəyi tərpənir, hərəkətə gəlir?..

Cavad geyinib küçəyə çıxanda dəstə-dəstə uşaqların şar oynatdığını, velosiped sürdüyünü, top vurduğunu, əl-ələ verib, belədən belə getdiyini görəndə yarası təzələndi. Üzünü döndərib Mirzə Kəmtərgilə tərəf getdi. Mirzə Kəmtərin çoxdan rəhmətə getdiyini, həmin mənzildə ayrı adamlar olduğunu xatırlayıb, tez qayıtdı. Hafizəsinin bu dərəcə pozulduğunu güman etməzdi. Qayıtdı, ancaq hara getməli olduğunu müəyyən edə bilmədi: restorana getsin, orada yer tapmaq çətindir. Tapsa da, qabaq-qabağa oturmalı kim var? Evə getsin, günün bu vaxtında bayquş kimi qapanıb tək soyuq otaqda oturmaqmı olar? Yenə tanışlardan birini tapmaq gərək!

Cavad bu fikirlər içində bir də gözünü açanda özünü sahil küçəsində gördü. Adamlar sağa-sola elə cəld və sürətlə gedirdilər ki, deyərsən bunların yağı daşır. Sanki Cavadın acığına hamının da yanında uşaq: ya balaca, ya böyük ya oğlan, ya qız uşağı! Çoxdan tanıdığı və illərdən bəri üzünü döndərmədiyi bir qapı sanki onu çağırdı. Bu gilaslı həyət Ələsgərin həyəti idi. Onun atası sağlığında Cavad bura çox gələrdi, çox da xoş günlər keçirərdilər. Hətta Ələsgərin atası ona da, oğluna da, dostlarına da sifarişli bir çəkmə tikmişdi. O çəkməni, yumşaq, möhkəm, gün kimi işıldayan gümüşü üzü, yeriyəndə cırıltısı indi də Cavadın yadındadır. Ancaq onu nə qədər geydi, hara atdı, o, yadında deyil. Ələsgər evlənəndən sonra əlaqələr kəsilmişdi.

Cavad gilaslı həyətə yaxınlaşanda təzəcə çiçəklənmiş ağacların altında stul qoyulduğunu, məclis qurulduğunu gördü. Həyətdə qız uşağı, divarın yanında dayanmış bir maşın da görünürdü. Cavan bir oğlan dirəkdə işıq xəttini düzəldirdi. Bir məktəbli uşaq yoldaşlarının şəklini çəkirdi. Aparat qabağında duranların biri gülə-gülə qarmonunu büküb-açır, bahar mahnısı çalırdı.

— Cəmil, elə olsun ki, oxumağım da şəklə düşsün ey! Konsertin şəkli!

Döşü önlüklü bir qadın da həyətdən keçən arxın kənarında samovar sahmanlayır, kömür alışdırırdı.

Cavad heykəl kimi yerindəcə donub qalmışdı. Həmin bu mübarək bayram axşamında, bütün evlərdən şənlik, sevinc səsləri ucaldığı bir zamanda Cavadın donuq nəzərləri bir nöqtəyə dikilmişdi. Vaxtilə istehzaya tutduğu Ələsgərin ailə həyatı indi ona ən böyük səadət görünürdü. İndi, ancaq indi ömrünün əziz günlərini «sərbəstlikdə» yox, məhz tənhalıqda itirdiyini dərk edirdi.

Üfüqlərə yayılan musiqi səsləri, ətrafı bürüyən bayram işıqları, uşaqların saf, təmiz, bulaq suyu kimi dumduru mahnı sədası sanki onu qəflət yuxusundan ayıldır, itirdiyi tənha və xumar günləri bir faciə kimi göz önünə gətirirdi: «Hanı sənin ailən, hanı sənin övladın, uşağın?»

Cavad özü də hiss etmədən iki addım yeridi. Matros geyimli bir oğlan onu qarşıladı:

— Əmi, evə buyurun!

Uşağın səsinə evdən qapıya tərəf gələn bir qadın tanımadığı, yerişi-duruşunda bir qəribəlik duyduğu qonağa diqqət etdi:

— Kimdir, içəri buyursunlar!

Qadın yaxınlaşanda Cavad dilə gəldi:

— Səltənət xanım, siz məni tanımırsınız, mən sizi yaxşı tanıyıram. Mən sizin bu ağ günlərinizə qibtə eləyirəm. Səltənət xanım, Ələsgər yəqin yaddan çıxarıb, deyərsiniz Cavad gəlmişdi, salam gətirmişdi, yadına düşər!

Cavad bunu dedi, baş əydi, təhlükəli bir şey duymuş kimi, cəld addımlarla uzaqlaşdı.

Səltənət ha fikirləşdi ki, belə bir ad — «Cavad» haçansa, kimdənsə eşitmişdi, ancaq xatırlaya bilmədi.

Cavad ağır düşüncələr, peşmanlıqlar içində uzaqlaşdı, qaranlıqlara qarışdı. «Subaylıq—sonsuzluq!.. Ah, namərd dünya!»

İndi onun «fəlsəfəsi» belə səslənirdi.

1956.



# İNSANLIQ FƏLSƏFƏSİ

## 1

Bəzi adamın adı heç özünə yaraşmır. Amma bu qızın adını, deyəsən, sonradan qəddinə, qamətinə, məlahətinə baxıb qoyublar: Ağca! Qubanın ağ alması!

Heç tanımayan, bilməyən bir adam da rast gəlsə, yəqin ki, özgə ad deməz, bunu deyər: Ağca!

Ağca yaraşıqlı bir qız idi, tamaşasından doymazdın. Həmişə dik və düz baxan iri, ala gözlər, ağ sifəti dairələyən qara tellər, qulac saçlar, şumal göyərçini gərdən, sakit yeriş...

Başının ipək yaylığı ağ, döşünün sancağı, donunun düyməsi, çəkməsinin qotazı da ağ; sadəcə ağ yox, bir növ baharı, may şənliklərini andıran təravətli ağ! Çoxları qızı məktəb həyatında, nümayiş sırasında, tarla düşərgələrində, küçə-bacada görəndə, baxa-baxa qalırdı. Ağcanın ən acığı gələn də bu idi:

— Niyə baxırsan, xala, buynuz-zad çıxartmamışam ki!

— Qızım, sənə baxmıram, yaradanın qüdrətinə heyranam!

— Bəsdi, sən Allah!

— Allah yaman gözdən saxlasın!

Bəlkə də buna görə, dilə-dişə düşməkdən ehtiyat elədiyi üçün Ağca Baxışın ilk işarəsini rədd etmədi, ona könül verdi.

Oktyabr bayramında inşaatçılar klubundakı görüşdən, məktəb məzunlarının ikinci buraxılışı axşamından sonra Baxış buraya trest rəisi ilə gəlmişdi ki, məktəb qurtaranları tikintidə işə çağırsın. Ağcaya məktub yazmağa məcbur oldu. Məcbur oldu deyirik, çünki doğrusu budur: heç evlənmək xəyalında deyildi. Çox qızları tanıyıb xoşlasa da, belə fikrə düşməmişdi. Amma Ağcanı görəndə özünü itirdi. Bir gün, iki gün lap kefli kimi gəzdi. Güman elədi ki, ötüb gedər, gördü yox, gedənə oxşamır. Oxlanıb, özü də yaman yerdən oxlanıb. Dərdini kimə desin, kimi göndərsin? Fəhlə adam, ana yox, bacı yox, özü utancaq, açılışmamış. Birdən-birə durduğu yerdə adamın başına bu iş gəlsin!..

Nə isə, ha fikirləşdi, gördü ki, məsələni açmaqdan savayı çarə yoxdur. Özü də üzbəüz yox, qiyabi, məktub ilə! Baxış heç bir zaman savadın qədrini indiki qədər bilməmişdi. Kağız hazırladı. Çox yazdı, çox pozdu, axırda sevdiyinə belə bir məktub göndərdi:

«Məni ordudan tərxis edəndə ürək zəifliyini səbəb qoymuşdular. Yürüşlərdə, yoxuşlarda təngnəfəs olurdum. Güman etmişdim ki, bundan sonra mənim qəlbim ilə ancaq həkimlər maraqlana bilərlər. Amma görüşümüzdən belə məlum oldu ki, yox, orada həyat qaynayır və yeni bir işıq yanır. Onu siz yandırmısınız. Ümidvaram ki, həmin işığı söndürməyi heç bir zaman rəva görməzsiniz!

*Ehtiramla. Baxış».*

## 2

Gəlin gəldiyi ilk gündən Ağca Baxış ilə şərtləşmişdi: uşaq bağçasında qulluğa girəcək, fəhlə balalarına tərbiyə verəcək, sonra da ali təhsil alacaq.

Toy dəsgahı, mehriban ailə həyatı başlanan günün səhərisi Ağca 2 nömrəli uşaq bağçasına mürəbbiyə təyin olundu. Ağcanın arzuladığı bağçanın balaca həyətində hovuz tikilmiş, cərgə ilə ərik, iydə, badam ağacları basdırılmış, tənəklər baş-başa vermiş, qızılgüllər neçə yerdən calaq elənmiş, təzə binanın eyvanı, qapı-pəncərəsi qəşəng rənglənmiş, dirəkdən çilçıraq asılmışdı. Oğlanlı, qızlı körpə uşaqlar quşlar kimi səs-səsə vermışdilər.

Ağca yenicə ayaq basdığı bu körpələr evini özünün həyat və əmək ocağı saymışdı. Gündə neçə dəfə uşaqları bir-bir dindirməsə, ağacları sulamasa, hovuzun suyunu təzələməsə, otaqların səliqəsini yoxlamasa, qərarı gəlməzdi. Birinin düyməsini tikir, birinə şəkil çəkir, bir başqasına hesab öyrədir, nağıl danışırdı. Cücəli toyuq kimi körpələri başına yığıb cürbəcür mahnılar oxuyur, onlara oyunlar öyrədir, cərgələrə düzürdü. İş görəndə, qalın hörükləri kürəyindən sürüşür, gözünün qabağını kəsir, bəzən hovuz suyuna batırdı.

Qız, saçını cəld düyünləyib dalına atanda, bir dəfə müdirə gülə-gülə demişdi:

— Qızım, onlar sənə kəndir deyil ki, nemətin qədrini bil! Onun həsrətini çəkənlər var!

Ağca sonra hörüklərini bir ipək-tor içinə yığıb kürəyinə atardı. Boynunu tərlətsə, darıxdırsa da, müdirənin sözünü yaddan çıxarmazdı.

Ailə həyatının dadlı meyvəsi, ay parçası kimi bir oğlan uşağı da muştuluq şənliyi ilə gəlib çıxdı. Gənc ailədə körpə səsi saf musiqi kimi eşidilməyə başladı.

Bənna Baxışla Ağcanın günü, dirliyi xoş keçməkdə idi.

Ailədən, güzərandan söhbət düşəndə, hərə bir arzudan deyəndə, Baxış da gücənə-gücənə öz səadətindən danışardı:

— Qardaş, bizim zəmanədə insanın canı sağ olsun, yaxşı da ömür-gün yoldaşın olsun, qalan hər şey ötüşər. Ağca ilə qabaq-qabağa oturanda, kəlmə ver kəlmə alanda, bir də Nadirin qığıltısını eşidəndə, elə bilirəm bütün yorğunluğum getdi. Deyəsən, heç ağır daşları divara düzən, səhərdən axşama belədən-belə mizan çəkən, sement vuran, fəhlələr ilə çənə döyən mən deyiləmmiş. İnsana könül həmdəmi hər şeydən fərzdir. Can deyib can eşidəsən, bir-birinin başına and içəsən. Məhəbbət də, həyat da, ləzzət də budur. İdarədə də adamın kefi saz, ürəyi işıqlı olur. Həyat yoldaşı, mehriban ailə işdə də adama bir arxadır.



Baxış tamamilə haqlı idi. Ağcanın yoldaşlığı, bağçadakı qulluğu, ailə qayğısı bu tərifə tamamilə layiq idi.

Qadın var həmişə fikri-zikri konsertlərdə, bu teatrda, o tamaşada, gəzməkdə, seyrəngahda, bayır-bağçada olar. Evinin işini yükləməyə də qulluqçu axtarar. Ərinin işdən gəlməyi yadına düşəndə, qaçıb restorandan bir boşqab soyuq kotletdən-motletdən alıb gətirər, qabağına atar, sonra poçtalyon kimi qapıdan yox olar...

Belə evin mehmanxanadan nə fərqi?!

Yox, Baxışın ailəsi hara, bu söhbətər hara!

Ağca qulluğunu ikinci növbəyə, nahardan sonraya salmışdı. Səhər yerindən qalxan kimi birinci işi ərinə yemək vermək, onu yola salmaqdı. Uşağı yedirdib, geyindirib havaya çıxarmaq, sonra nahar tədarükünə düşmək.

Ağca ərzağın təzəsini, yaxşısını, həm də bahalısını alardı. Handa bir şeyi bəyənməz, dönə-dönə seçərdi ki, Baxışın xoşuna gəlsin. Onun hazırladığı süfrə zənginliyi ilə olmasa da, səliqəsi, sahmanı ilə həmişə seçilərdi. Stol üstündə hər şey par-par parıldardı. Deyərdin bunlara əl vurmaq heyifdi, hansı qəzetə, hansı sərgiyə getmək üçün şəkil çəkiləcək.

Baxış işdən gec gələndə Ağcanın gözü qapıda qalardı. Tez-tez həyətə çıxıb evə girərdi. Tramvay zəngi cınqıldayan kimi ürəyində deyirdi: «Baxışı gətirir».

Uşaq da böyümüşdü. Ata-bala qabaq-qabağa oturub, Ağcanın bişirdiyi xörəyi iştahla yeyəndə, qaşığı qoyub çəngəli, çəngəli qoyub stəkanı, stəkanı qoyub ağız dəsmalı götürəndə, «əllərin var olsun!» —deyə təşəkkür edəndə, Ağcanın ürək rahatlığına söz ola bilməzdi.

Görərdin axşam, şirin söhbət vaxtı Baxış bir kağız bağlamanı ortalığa gətirir, ana-balaya göstərib soruşurdu:

— Kim bilər bu nədir?

Biri konfet, biri çəkmə, biri dəsmal, biri corab, biri ətir deyərdi.

— Bilmədiniz!

Nadir tələsik bağlamanı atasından almaq istəyəndə, bir də görərdi ata qutudan bir sputnik çıxarıb stol üstünə qoydu. Göyə üz qoyan sputnik əvvəl marş çalmağa, sonra da fit verməyə başlardı. Nadirin sevincinin həddi olmazdı...

Deyirlər xain, çəp bir göz bütün xoşbəxt ailələrin pəncərəsindən baxır, içəriyə soxulmağa fürsət axtarır. Bizim tanıdığımız evdə bu etiqada inananlar, bəlkə də, yoxdur. Amma xanımlardan uzaq olsun, Baxışın evinə birdən-birə əsən acı ruzgarı, ürəyim ağrısa da, deməyə məcburam.

Ağcanın başına elə bir iş gəldi ki, ailə səadəti alt-üst oldu.

Baxış yağlı maşın kimi çox işlək adam idi. Ağrı, yorğunluq, zəiflik ona kar salmazdı. On beş ilin ərzində onun işdən qaldığını gö-

rən olmamışdı. Adı həmişə məruzələrdə, şəkli lövhələrdə, işi dillərdə idi. Heç kimin gümanı gəlməzdi ki, bu zirək kişiyə də xəstəlik yaxın düşər.

Bəzən kürək sancısından, ürək ağrısından şikayət eləsə də, Ağcanın sözünə baxmaz, işə gedər, neçənci mərtəbədə divar qoyar, tavan örtərdi. İşdən qayıdan kimi dalbadal rəngli çay içər, bir-iki saat uzanıb dincələndən sonra durub qəzet oxuyar, radio eşidərdi.

Ağca ərinin həkim çağırmağa kahıllıq etməsinə bir növ alışmışdı, inanmışdı ki, baş ağrısı, kürək ağrısı... bunlar işlək adamlarda soyuqdan, havadan, küləkdən olan, tez keçib gedən şeylərdir. Bu «adi» şeylərdən belə müdhiş bir fəlakət baş verə biləcəyini Ağca heç xəyalına gətirməzdi. Elə bir fəlakət ki, nə həkim, nə dost, nə idarə, el-gün, nə qurulu ev-eşik, nə bəslənən şirin arzular qarşı dura bildi!

Ölüm qara qartal qanadını bu gözəl, bu munis xaniman üstündə görəndə, iti caynaqları ilə Baxışın qəlbini parçalayanda, sanki hər şey bitdi!

Ağcanın illər boyu bəslədiyi arzu və ümidlər elə sarsıldı, tamaşasına durduğu füsunkar qayalıqlar kimi birdən-birə elə uçulub töküldü ki, dünya və aləm başına fırlandı.

Baxışın vəfatından xəbər tutanlar axışıb gəldilər, idarə qalmadı baş sağlığı yazmasın, maşın qalmadı dəfn mərasiminə çıxmasın, adam qalmadı bu adlı-sanlı ustaya yanıb heyfsilənməsin.

Orkestr gətirdilər, cahcəlal ilə götürdülər, şəklini çəkdilər, nitq dedilər, qəzetlərə yazdılar, uşağa kəsəmət kəsdilər.

Mərhumun yeddisi, ayı, qırxı keçdi. Ağcanın üzü gülmədi. Necə gülə bilərdi?! Ürək sevgilisini, dağ kimi kişisini itirən cavan gəlinin əlləri qoynunda qalmışdı. Qadında rəng-ruf dəyişdi. Bədən tufana tutulmuş gülzar kimi quruyub soldu. Bütün o gözəllik, məlahət uçub getdi. Şəkil kimi gəlindən bir dəri, bir sümük, bir də quyu suyu kimi dərinə enmiş gözlər qaldı.

Hanı qəzetlər, telefonlar, radiolarda Baxışın çəkilən adı, hörməti! Hanı səhər-axşam isti nəfəsi ilə «sağ ol» deyib evdən çıxmağı, şəst ilə «salam» deyib qapıdan girməyi, bükülü bazarlığını stola üstünə qoyub mübarək deməyi, uşağı qucaqlayıb min bir dil ilə oxşamağı, cibindən cürbəcür hədiyyələr çıxarmağı, rəngli şəkilli kitablar göstərməyi? Hanı axşamlar sevgilisinin qolundan tutub bir məclisə, bir cəmiyyətə, toya, təvəllüdə, görüşə getməyi? Hanı evinin səadəti, şənliyi? Deyərsən, dəyirmanın suyu sovulub, işıq həmişəlik sönüb. Otaqlarda qu vursan, qulaq tutulur. Divarlardan sükut, soyuqluq sezilir...

Baxışın tanışlarından biri, ara-sıra mərhumun qapısını açan, ərk ilə yeyən-içən gödək, gövdəli kişi başsağlığına gələndə, Ağcanı kənara çağırdı. Gizli söz deyən kimi, səsini alçaltdı:



— Ağca xanım, heç fikir-zad çəkmə. Allah rəhmət eləsin. Dünyanın işidir. Bir yandan bağlayan fələk, bir yandan açar. Özün bilməmiş olmazsan ki, mən yenə subayam. Səni özüm nikah eləyəcəyəm, uşaq da ki...

— Tfu sənin murdar sifətinə! Sən bu evdə nə qədər çörək yemisən, ay xain! Tfu alçaq üzünə sənin, tfu!..

Gödək kişi daş dəymiş köpək kimi zingildəyərək, yox oldu.

Ağcanı—bu balaca həyatda tənəyə, təhqirə uğrayan cavan ananı qəhər tutdu. Ona elə gəlirdi ki, Baxışın matəmi onun bütün vücudunu qurutmuş, gözündə bir damla da yaş qoymamışdır. Ancaq düşmən sözünün, acı tənənin yarası sanki indi onun kövrək qəlbini yenidən qanatmışdı. Gözlərindən yaş yox, qızıl qanlar axırdı. Yanaqlarından damla yox, ağır, isti qurğuşun dənələri tökülürdü.

Qonşular, qohumlar təkrar yığıldı, çox təsəllilər deyildi. Kimsə bilmədi ki, nə olmuşdur.

3

Trestdən gələnlər olmasa, Ağca bəlkə də kiriməzdi. Üç nəfər abırlı-tənkinli kişi qapının rəzəsini tərpətdi, salam verib içəri girəndə, Nadir qaçıb anasına xəbər elədi. Ağca dərhal gözünün yaşını silib eyvana çıxdı. Gələnlər Baxışın dostları idilər. Biri yoldaş Cuvarlı, biri də usta Mixaylov idi. Üçüncüsünü Ağca tanıya bilmədi. Cuvarlı hal-əhval soruşandan sonra bənnanın şəklini əlinə alıb xeyli baxdı.

— Ağca xanım,—dedi,—fotoqraf gələcək, bu şəklin üzünü çıxardacaq, böyütmək istəyirik. Baxın, bəlkə, ayrı şəkli məsləhət bilirsiniz. Deyərsiniz çəkər, neçə nüsxə lazımdır.

Trestin köhnə ustası Mixaylov da əlindəki bağlamanı kənara qoyub əyləşdi. Ağcanın kefini, Nadirin dərsini soruşdu.

Qonaqlar çox oturmadılar, bir stəkan çay içdilər. Nəsə himləşdilər, həyət-bacanı gəzdilər, baxdılar. Mixaylov bayaqkı qəzet bağlamasını əlinə aldı, Ağcaya üz tutdu:

— Qızım,—dedi,—sən heç demə ki, Baxış yoxdu. Nə qədər biz varıq, Baxış da var. Onun kimi sədaqətli yoldaş, handa bir usta heç vaxt yaddan çıxmaz. Keçən ay tələbələrə yataqxana tikirdik, binanı on beş gün tez verdik. Təhvilə nazir də gəlmişdi. Müzakirə oldu, bəyəndilər. Briqadaya ikiaylıq mükafat yazdılar. Rəisimiz elan eləyəndə, ustasından fəhləsinə qədər hamı bir ağızdan dedi:

— Bu mükafat Baxış Baxışovun ailəsinindir. O kişi canını tikintidə qoyub, indi budur, onun pulunu, neçə mindi, gətirmişəm, qol çəkib götürün!

Mixaylov danışa-danışa bir dəstə yüzlüyü güzgünün qabağına qoydu, üstünü qəzet ilə örtdü. O, sözünü qurtarmamış cavan, ucaboy oğlan—trestin həmkarlar komitəsinin təzə sədri sözə başladı:

— Ağca bacı, rəhmətliyin işini eşidən gündən partkomda da, trestkomda da söhbət olub, Nadirə məktəbi qurtarana qədər təqaüd kəsilir, danışmışıq. Sizə də...

Bu yerdə trestkom sədrinin dili gəlmədi. Ağcanın cavanlığına görə təqaüdə düşməməsini demək istəyirdi ki, dili gəlmədi. «Nə lazım, bəlkə heç soruşmayacaq, soruşsa, deyərəm...»—deyə düşündü. Sonra tez əlavə etdi:

— İndi odur, iki nömrəli bağça uzaq olsa, o birinə keçirə bilərik. Mürəbbiyə yeri var. Məsləhətinizə baxın, ürəyiniz istəsə, ora keçə bilərsiniz, baxın.

Ağca razılığını bildirdi, Nadiri Cuvarlı yoldaşa tapşırdı:

— Gözünüz üstündə olsun, bir sənət öyrənsin.

Cuvarlı ananı arxayın etdi ki, Nadiri trestə gətirəcək, həm işləməyinə, həm də oxumağına göz qoyacaq.

Ağca güman etməzdi ki, ən ağır dəqiqələrində qüvvətli, qüdrətli insan əlləri onun qollarından tutub qaldıracaq, dizinə taqət, qaralan gözlərinə işıq verəcək. Səhərdən axşama başları qarışıq olan, böyük planlar tökən, binalar tikən, Moskvada belə yüz idarə ilə bağlı olan, neçə yüz fəhlənin işinə əncam çəkən bir trestdə Baxış Baxışovun—sıradan çıxmış bir kişinin adını bu qədər əziz tutarlar.

Bayram olmazdı Baxışın evinə dəvətnamələr gəlməsin, albom olmazdı şəkli vurulmasın, qəzet olmazdı adı çəkilməsin, xeyir iş olmazdı Ağca başda olmasın, təzə il olmazdı Nadirin payı göndərilməsin, səyahət olmazdı uşağı aparmasınlar.

Trest qadınları Ağcasız bir qonaqlıq keçirməz, bir tamaşaya getməzdilər. Evlər təmir olunanda, işıq, su, qaz, sobalar yoxlananda, ilk dəfə Ağcanın evinə usta gələrdi. İstirahət evinə putyovka paylananda, Ağca siyahıdan düşməzdi...

Ağca bütün bunları yaxşı başa düşürdü, görürdü ki, Baxış yalnız ailəsində deyil, iş məqamında yoldaşlar içərisində də sədaqəti və ləyaqətilə məşhurdur. Görürdü ki, isti bir qayğı onu həmişə, hər tərəfdən əhatə edir, qol-qanadından tutaraq həyatın sürətli axınında aparır, dəstədən, mühitdən ayrılmağa qoymur. Bu həyatın özü də belə bir gedişə müsaid və münasibdir. Özünü bağçada işə, oğlunun məktəbdə dərsə aludəliklə vaxt keçirdiyini, gündən-günə qüvvətlənən sürətli gələcək meylini aşkar görürdü.

## 4

Bu evdə qəribə bir aləm vardı. İşıqlı pəncərənin qabağında zər haşiyəli çərçivədə qıvrımsaç, güləş, sağlam, sinəsi açıq bir bənnanın şəkli dayanmışdı. Yox, bu şəkil deyildi. Elə də şəkil olarmı? Güclü bir igid dayanmışdı. Sanki Baxış öz otağına göz qoyub hər şeyə baxır, sevgilisinin də, oğlunun da, duruşuna, oturuşuna, dinib-danışmağına diqqət yetirirdi. Deyəsən, bu saat stol üstündən hoppanıb boğazlı çəkmələrini geyəcək, döşəmədə gəzinəcək, Ağcanı da, Nadiri də danlayıb deyəcək ki, niyə geyinib konsertə getmirsiniz, mən buradayam, niyə darıxırsınız? İşinizdə olun!



Sanki bu igidin ayıq və iti baxışları gənc ailədə hər şeyi birləşdirirdi. İşləyən də, oxuyan da hər an başda əyləşənin nəzərində idi. Uzun illər eyni marağını, diqqətini saxlayan qıvrımsaç oğlan sanki evindəkilərdən də bunu tələb edirdi. Sanki sakit, səssiz, davamlı, mənalı, mehriban nəzərilə deyirdi: «Mən buradayam, niyə darıxırsınız? İşinizdə olun!» Qıvrımsaç oğlanın nəzərlərindəki bu məna uşağa da, böyüyə də eyni dərəcə aydın və mühüm idi. Onlar hər səhər öpüşüb ayrılanda, hər axşam öpüşüb görüşəndə, Baxışdan bu sözləri təkrar-təkrar eşidirdilər: «Mən buradayam! Siz işinizdə olun!»

Lakin bunlar təkrar deyildi. Hər gün başqa bir məna, başqa riqqət, başqa bir hərarətlə səslənirdi Bunlar ana-balanın öpüşlərindəki hərarət və təravət qədər təzə və şirin idi, həmin öpüşlər qədər onları birləşdirirdi.

Birləşdirirdi deyirik. Qıvrımsaç oğlanın nəzərlərində birləşdirən qədər ayıran bir qüvvə də var idi. Ağca da, Nadir də hər dəfə yuxarı başa nəzər salanda, bu ayrılığı duymamış deyildilər. Ana oğlunu, oğul isə anasını düşünürdü.

Oğul öz anasını Baxışın sağlığındakı qədər şən və qayğısız, ana da balasını atalı vaxtındakı qədər bəxtiyar görmək istəyirdi. Hər ikisinin ciddi-cəhdi bu idi...

Görərdin, anası uşağının kəsəmət pulunu yığıb ona maqnitafon almaq istəyir. Uşaq isə həmin puldan gizlincə götürüb anasının sumkasına qoyur, ona yeni palto pulu düzəldir. Xərcləməyə gələndə, bəzi ailələrdəki ixtilaf burada da olurdu. Ancaq burada məzmun ayrı idi: oğul anasını, ana da oğlunu vacib sayırdı.

— Atamın yoxluğunu dost-düşmən bilməsin, yaxşı geyin, ana!

— Tay-tuşdan geri qalma, bilməsinlər ki, qabaqda atan yoxdur! hələ ki, mən varam, oğul!

Nadir «Şərəf lövhəsinin» yanından keçəndə, atasının şəklini orada görmədi. Ağır bir kədər ilə bunu anasına dedi. Ağca, Mixaylova bildirdi. Mixaylov dedi:

— Sabah axşam Nadiri də götürün, trestə gəlin! Dəvətnamə göndərəcəklər! Hələ-həlbət!

Ağca, kişisinin şəklini klubda adlı-sanlı işçilər cərgəsində görəndə, razılığını bildirdi.

Cuvarlı dedi:

— Ağca xanım, Baxışın şəklindən nigaran olma. Mən gözləyirəm ki, bu gün-sabah Nadirin özünü məşhurlaşdıraq. Nadir FZU-ya gedir. İndi cavanlar oradan boy atırlar!

Bayram axşamı, raykomdan da gələnlər var idi.

Klub ağzınacan dolu idi. Cuvarlı məruzə eləyirdi. Trestin keçmişindən, gələcək planlarından, qabaqcıl ustalardan deyirdi...

Ağca 5-ci sırada, oğlunun yanında oturmuşdu, daha doğrusu, Nadir onun yanına gəlmişdi.

— Ana, mən həmişə sənnən oturacağam!

Bu sevincli axşamda, bütün işçilərin tökülüb gəldiyi məclisdə ana-balanın yanaşı oturub şirin söhbət eləməyi də mənalı idi. Bugünkü işlər barəsindəki məruzədə Baxışın adı çəkilməyəcəyini bir növ hiss etdirməmək üçün Nadir anasını məşğul etmək, danışdırmaq istəyirdi. Ağca isə onun qolunu tutub deyirdi:

— Qulaq as! Dayan!

Görünür, bu incə mətləb məruzəçinin, Cuvarlı yoldaşın da nəzərində idi. Söhbəti hərlədi, fırladı, o yerə gətirdi:

— Biz gərək trestimizin, otuz ildən bəri inşaat ilə məşğul olan, şəhər tikən nəhəng idarəmizin tarixini yazaq. Qorki özü deyib, belə tarix vacibdir, yoldaşlar! İnqilabımızın hər bayramını eləyəndə, baxıb görürsən ki, belə tarix çox vacibdir. Bunsuz bizi yaxşı tanıyan olmaz. Odur, gündə bizə xarici qonaqlar gəlir. Hələ daxili demirəm. Hər gələn də dəftərini açıb səliqə ilə yazmaq istəyir: haçandan, kimdən, nədən, nə cürə!.. Yaxşı, necə ola bilər ki, mən bu şəhərin inşaat tarixindən deyəm, Baxış Baxışov kimi şərəfli bir ustanın işini unudam, üsulunu deməyəm, şəklini göstərməyəm...

Bu yerdə bütün zaldakılar əl çaldılar. Çoxları da dönüb beşinci sıraya, yanaşı əyləşən ana-balaya baxdılar. Baxdılar, daha da bərkdən əl çaldılar. Çoxunun sevincdən gözü yaşardı. Adamlar yalnız Baxışın əziz xatirəsinə yox, həm də gül kimi balalar bəsləyən ananın vətəndaş ləyaqətinə əl çalırdılar.

Ağca həyəcandan qızarmış, başını aşağı salmışdı, oğlunun əlini sıxırdı. Nadir də ətrafına baxıb başını tərpədir, razılıq işarəsi verirdi.

Cuvarlı danışdıqca, bu səliqəli şəhərin bütün çətin tarixi, xoş mənzərəsi, sabahkı dövranı Ağcanın nəzərindən keçirdi.

Cuvarlı yoldaşın sözü sözdür. Görərsən, iki gün çəkməyəcək ki, əli qələmlilər gələcək, binalara baxacaq, dəftərləri açacaq, adamları dindirəcək, şərəf lövhələrini yoxlayacaq, tarix yazacaqlar. Bu sıralanmış uca ağ evlərin çoxunda Baxışov Baxışın adını görəcək, yazacaqlar. Lap təzə binalara baxanda da Baxışı yad edəcəklər:

— Bu da Baxışovun işidir. Ancaq ata Baxışov ayrı, oğul ayrı.

— Hansı yaxşı tikib?

— Atanın ata yeri var, oğulun oğul!

— İkisi də bir əsrin oğlu, bir nəsil deyilmi?

— Bəli, tikənlər, quranlar nəsli!

— Bizim nəsil!



## VİCDAN MÜHAKİMƏSİ

— Divardan boylanan uşağı görürsənmi?

— ...

— Ağ maykalını deyirəm. Odur ey, qoz ağacına dırmaşdı. Budağın arasında.

— Görürəm, kimin uşağıdır?

— Bəllidir ki, kimin uşağıdır?

— Necə yəni bəlli deyil?

— İki aydır xalq məhkəməsində bir işə baxılır. Hey baxırıq, baxıb qurtara bilmirik.

— İrsiyyət məsələsidir?

— Vicdan məsələsidir.

— O boyda uşağın vicdanı barəsində?..

— Uşağın yox, ətrafında böyüklər var.

— Vicdanlar mühakimə olunur?

— Vicdansızlar həmişə mühakimə olunur.

— Qanunda elə məcəllə var?

— Niyə yoxdur, məcəlləsi belədir ki, uşağın doğma anası, bir də tutma anası vuruşurlar. Dava bunun üstündədir. Tutma ana, əsl ananı yaxın qoymur. Haqqı da var qoymamağa.

— Necə doğma anadır ki, haqqı yoxdur?

— Doğma anası vicdansızdır. Analıq hissini itirmiş qadındır. Yəni əvvəldən bu hiss onda olmayıb.

— Analıq hissini itirən övlad davası eləməz.

— Ayrı məqsədi var, analıq yox!

— Nə məqsədi ola bilər! Bir tikə uşağın şöhrəti yox, vəzifəsi yox?..

— Gələcəyi düşünür. Görür daha kef çəkmək əyyamı keçir, üz qırışıb, göz bürüşüb, görkəm gedib. Kişilərdə də ki, etibar görmür.Bir vaxt var idi yüz uşağı bir təsadüfi öpüşə qurban verərdi. Xuşgəbar tez xarab olur axı. İndi daha, deyəsən, hərif peşman olub. Sonrakı peşmançılıq da, atalar deyib, bəhrə verməz.

Bu qısa mükalimədən sonra mən müsahibimdən— məhkəmə sədrindən xahiş etdim ki, məktəbli uşağın taleyi ilə bağlı işin təfsilatını danışsın. O da sağ olsun, sözümü yerə salmadı.

Bu yazdıqlarım bəzəmə deyil, həmin yoldaşın dediklərinidir. Hadisəni olduğu kimi saxlamışam. Ancaq yazı cəhətdən bir qədər o yan-bu yan eləmişəm. Bunun üçün də müsahibim, oxucularını və tənqidçilər məndən inciməsin gərək.

1

Qoz ağacına dırmaşan ağ mayкalı, girdəsifət, qıvrımsaç, qaragöz uşağın adı Həsrətdir. Bu adı ona nə anası, nə də atası vermişdir, nə də özü götürmüşdür.

1941-ci ilin yayında, müharibə alovu hər yanı çulğaladığı bir zamanda doğulan, həm də, necə deyərlər, «qanunsuz» doğulan bir uşağın taleyi ilə, aydındır кi maraqlanan az olacaq idi.

Əslinə baxsan, uşağın anası Nazilə heç bu uşağı doğmaq istəmirdi. Boynuna düşən gündən fiкir o idi кi, həкim tapsın, pul, fürsət tapsın, «bu ağırlığı» üstündən «rədd» eləsin. Bunun da səbəbi çox idi. Bir səbəbi o idi кi, Nazilə özü yenicə 18 yaşına çatmış, gəncliк aləminə qədəm qoymuş, oğlanlardan yağlı dil və nəvaziş eşitməк istəyən atasız-anasız bir кənd qızı idi. Vağzalda qamışa düzdüyü gilas bandaxlarını satanda, salamlaşıb tanış olduğu əsgər oğlanın şirin sözləri çox xoşuna gəlmişdi.

— Qız, deyəsən, bu gilas öz ağacınızdandır?

— Həyətimizin ağacından.

— Görünür, lap özün bəsləmisən?

— Özümüz...

— Deyəsən, özün də dərmisən?

— Özüm.

—Görürəm axı, belə bandaxlar hər bağbanın işi olmaz. — Əsgər oğlan səsinin ahəngini dəyişib, ərк ilə dedi: — Ancaq qız uşağının gilas ağacına çıxmağı bir az...

— Bir az nə?

— Bir az çətin olmazmı?

— Mən hər ağaca çıxıram.

Deyəsən, əsgər oğlan bu cavabı gözləyirdi. Naziləyə lap yaxın durdu, əyilib dedi:

— Məhəbbət ağacına necə, çıxa bilərsən, ya yox?

Əsgər oğlanın birdən-birə dediyi bu söz Naziləni cərəyan кimi titrətdi. Qız qəfildən vurulmuş кimi, qızardı. Oğlan diк-diк onun üzünə baxmaqdan, sözünü təкrar etməкdən utanmadı:

— Düzünü de, çıxa bilərsən, ya yox?

— Nə danışırsan, əədə!

Nazilə bu etirazını elə həzin, mülayim və təcrübəsiz bir ifadə və ahəng ilə dedi кi, əsgər oğlan zahirən təslim oldu:

—Mən bir şey demədim, gözəl qız. Ancaq söz soruşdum. Bəyəm soruşmaq olmaz? Adam gözəl olanda cavab verməz bəyəm? Sözdür soruşuram. Acığın tutursa, bağışla!

Əsgər oğlan qızdan gilas da aldı. Onu maşına qoyub evlərinəcən yola da saldı.



O gün hər şey—кənd evləri, fermanın idarəsi, mal-qarası, otlaqları, yəni çəpərli yollar, həyətin tut, gilas, əriк, nar ağacları—hamısı кöкündən qopub Nazilənin başına fırlandı.

Əsgər oğlan, bəlкə də heç Nazilənin yadına düşməzdi. Ancaq Nadir ayrı cür oğlan idi. Belə mehriban, məhrəm, güləşqabaq Nadir doğrudan da gözəl, yaraşıqlı oğlan idi. Açıq alnı, çatma qaşları, iri, qara gözləri, gül yarpağı кimi naziк dodaqları, gülümsər sifəti var idi. Nazilə diqqətlə baxanda görürdü кi, Nadir qəşəng oğlandır. Deyəsən o, Nazilə üçün yaranmışdı. Uzaq yerlərdən bu vağzala onun üçün də göndərilmişdi. Onun əsgərliyi, bu hissədə qulluğu, qıvraq hərbi libası, parıldayan boğazlı çəкmələri, bərк çəкilən bel qayışı, səsli addımları—hamısı Nazilə üçündür. Buna görə də Nazilə ilк görüşdə ona işıqlı sifət, baкir qız təbəssümü göstərmiş, кönül vermişdi.

Əsgər oğlan (Nadirin кomandir olduğunu Nazilə sonra bildi) axşam onu dəmiryol кlubuna кonsertə çağırdı. Konsertdən sonra maşına qoyub lap evlərinə qədər ötürdü. Maşından düşəndə də əlinə bir şoкolad qutusu verdi:

— Götür, götür! Utanma, sənin üçün almışam, Nazilə!..

İndi Nazilənin qarşısında başqa bir aləm açılırdı. O görürdü кi, dünyada başqa-başqa işlər də var. Fermada müdirin qışqırığını eşitməкdən, danaları otarıb qaytarmaqdan, iclasda oturub əl çalmaqdan, meyvə yetişəndə ağaclardan dərib vağzala, qatar ayağına qaçırıb satmaqdan, hasil olan pulu tufli, corab almaqdan, inəк sağmaq, su daşımaq, həyət-baca süpürməк, кəndə, adam dalınca qaçmaqdan başqa ayrı cür işlər də var imiş...

Nazilənin qəlbində, deyəsən, bahar açılanda torpağı söкüb çıxan bitкilər кimi yeni-yeni mətləblər baş qaldırır, qaldırdıqca diкəlir, böyüyür, başqa aləmlərdən xəbər verirdi. Çox çəкmədi Nadir — əsgər oğlan Nazilənin nübar meyvə кimi кövrəк qız qəlbini elə oğurladı кi, qız özü də xəbər tutmadı.

Nazilə birdən-birə кənd işlərindən soyudu, səhər-axşam vağzal yanında durmağa, кomandir maşınlarına baxıb, yaylıq eləməyə qızışdı. İndi Nazilə nə ferma, nə кənd, nə həyət, nə gilas ağacları ilə idi. Əsgər oğlanın onu götürüb uzaqlara aparacağına, neçə-neçə şəhərlər gəzdirəcəyinə inanırdı.

Günün birində Nadir Naziləyə xəbər verdi кi:

«Bizim hissəmiz başqa yerə кöçür. Sən gözlə, beş-altı aya qayıdacağam. Arxayın ol, gözlə!»

Nazilə nə deyə bilərdi? İsti göz yaşları, intizar və gözləməкdən başqa çarəsi yox idi.

Əsgər oğlan getdi. Getdi, Nazilənin ixtiyarını da özü ilə apardı. Aşкarda ondan şirin və aydın bir xatirə, gizlində isə acı və anlaşılmaz bir ağırlıq qaldı.

Nazilə ürəyinin bulandığını, başının hərləndiyini, vücudunun təndir кimi bir istiyə tutulduğunu hiss edir, tez-tez sağıcı Səriyyə xalanın mənzilində daldalanırdı.

— Qızım, кefin yoxdur, sənə nə olub?

— Heç bilmirəm nə olub, başım hərlənir.

— Rəngini də bir təhər görürəm, bəlкə bir adamın-zadın var? Görüşürsən, nə olar, gizlətmə məndən, qorxma!

Nazilə cürət eləyib başına gələni demədi. Sözünə möhкəm inandığı Nadirin vədəsini—«beş-altı ayı» gözlədi. Kimsəyə bir söz demədi. Ancaq işlər özü özünə ağarmaqda idi. Açılmalı olan səhər heç кəsdən icazə, məsləhət istəmir. Qızın vəziyyəti dəyişməкdə və ağırlaşmaqda idi. Səriyyə xala bir səhər başını bulaya-bulaya Naziləyə dedi:

— Günün qara olmasın, sənin uşağın var?

— ...

— Niyə dinmirsən, qız?

— Nə deyim, ay Səriyyə xala!

— Bunun atası кöpəк oğlu hanı bəs?

— Heç bilirəm hardadı?

— Rüsvay olacaqsan, ay ərкansız, çarə elə!

Nazilə o mamanın yanına, bu həкimin qapısına getdi, inandığından кöməк istədi.

— A bacı, abort qadağan olub, höкumət bilsə, adamı həbsə salar, abort nədi, zad nədi! Uşaqlı analara höкumət кöməк eləyir. Qoy uşaqdı olsun, ərin istəmir, nə eybi var! Qanun yolu ilə aliment də alarsan, böyüdərsən. Uşaq şirin şeydir, fiкir eləmə!

Nazilə ona-buna məsləhət eləyənəcən vədə başa çatdı. Payız gecələrinin birində Səriyyə xalanın evində cavan ana yüкünü yerə qoydu. Utandığından iкi əlli üzünü örtüb, səhərəcən ağladı. İкi gün sonra Nazilə кənddən yox oldu. Körpəni sahibsiz görən sağıcı arvad aparıb doğum evinə verdi. Orada süni əmizdirməкlə neçə həftə saxladılar. Uşaq həsrətində olan bir dərzi qadın—Badsəba xanım xəbər tutub, onu oğulluğa götürdü.

2

Bu həmin günlər idi кi, hitlerçi quldurlar Sovet ölкəsi üzərinə qəfildən basqın etmişdilər. Dişinəcən silahlanan quduz faşist qoşunları yollarımızı, binalarımızı dağıdır, şəhər və кəndlərimizi ayaqlayaraq, rast düşən adamlarımızı qırır, əsir edir, od yağdıra-yağdıra irəli gəlirdilər. Yaralı Vətən qəzəblə silahlanaraq, şir кimi ayağa qalxır, кüкrəyirdi.



Kənddən itən Nazilədən bir xəbər verən olmadı. Kimi deyirdi: «Özünü Kürə atıb». Kimi də deyirdi: «Nadirin dalınca gedib». Kimi deyirdi: «Başqa bir oğlana, кonduкtora qoşulub, Uzaq Şərqə gedib».

Nə isə, bu qarışıq günlərdə adamı getməyən ailə yox idi. Yetim və ərsiz qızın dalınca düşən, soraqlaşan, axtaran da olmadı.

Dünyada nə qədər fəlaкətlər, dəhşətlər, bəlalar olur-olsun, yenə də həyat qüvvətlidir. Həyat gücü həmişə, hər yerdə qalib çıxıb, yenə də çıxacaqdır.

Badsəba xanım beş ildən artıq ərə getsə, ailə qursa da, uşağı olmurdu. Qadın isə uşaq istəyirdi, yaman istəyirdi! Uşaq üçün əldən-ayaqdan gedirdi. Bu poliкliniкa mənim, o doкtor sənin, o biri mamaça hamımızın... olmadı... Badsəba xanımı başa saldılar кi, onun vücudu zəifdir, uşaq doğması təhlüкəlidir, olmaz!

Əri montyor Əsgər hey təsəlli verərdi кi:

— Ay Badsəba, canın sağ olsun. Uşaqdır, detdomdan birini götürüb böyüdəriк, olar bizim oğlumuz. Təкi canın sağ olsun, nə fiкir eləyirsən!..

Elə də elədilər. Uşaq evindən birini götürüb böyütməli oldular. Ancaq Badsəba xanım uzaqgörən idi:

— Ay Əsgər,—deyirdi,—elə кörpəsini götür кi, hələ gözü açılmamış, heç кəsi tanımamış olsun. Yoxsa 4–5 yaşında götürürsən, bir də görürsən səndən qabaq tanıdığı anası, atası var imiş.

— Kimi istəyirsən götür, nə deyirəm.

Həmin o uşaq кi, Səriyyə xala gətirib doğum evinə atmışdı, onun haqqında xadimə danışanda, Badsəba xanım eşitmişdi.

— Haradadı o, mən götürüm saxlayım. Biz elə кörpəni axtarırıq.

Xadimə uşağı alıb montyorun evinə gətirəndə, bu evdə yaxşıca bir bayram oldu. Badsəba xanım evi təzədən yığışdırdı, sahmana saldı, uşağa xüsusi otaq ayırdı. Məsləhətçi həкim çağırdı. Süd anası tutdu, mağazalardan tapmayanda sandığını açdı, haçandan qalmış handa bir ipəк, qumaş, pamazı parçaları töкüb uşağa növbənöv paltar tiкdi. Xadimə: «Ata-anaya həsrətdir»,—deyəndə, ata-ana ad götürdü. Uşağa Həsrət adı verdilər. Badsəba xanım acı övlad həsrətini кörpənin varlığı ilə söndürməyə, şirin vüsala çevirməyə başlamışdı.

Günlər кeçir, Həsrət də dünyadan xəbərsiz, öz uşaq aləmilə montyor atasının, dərzi anasının minbir nəvazişilə evdə qayğısız, xoşbəxt böyüyürdü.

Badsəba xanım uşağın həyətdə oynadığını, qaranquş кimi o yan-bu yana, top dalınca qaçdığını, bülbül кimi danışıb, кəкliк кimi qaqqıldayıb güldüyünü gördüкcə, özünü xoşbəxt hesab eləyir, bütün var-yoxunu Həsrətin yolunda göyə sovurmaqdan çəкinmirdi.

Oyuncaq olmazdı Həsrətə alınmasın, кitab, şəкil olmazdı otağına gəlməsin. Hər üç gündən, beş gündən bir münasibət tapıb ona qo-

naqlıq eləyərdilər: «Bu, doğum günüdür». «Bu, Həsrətin musiqiyə gedən günüdür», «Bu, birinci «beş» alan günüdür.», «Bu, uşağın ad qoyduğu, bu, diş dəyişdirməsi, bu, bağçaya getməsi günüdür...»

Həsrət altı yaşını bitirməmiş ona cürbəcür rus, Azərbaycan kitabları, təkcızıq, kərpic-kərpic dəftərlər, rəsm cihazı, yazı masası, qəhvəyi portfel, məktəb forması alınmışdı.

Badsəba xanım Həsrəti bir eşq, bir fərəh və sevinc ilə böyüdürdü ki, hər görən həsəd aparırdı.

Həsrətin məktəbə getməyi də ayrı bir tamaşa oldu.

Badsəba xanım uşağı haqqında on kərə müəllimə təkrar-təkrar tapşırıb danışmaqdan, deyəsən, ləzzət alırdı. Uşaq da ayıq idi. Deyəsən, müəllimin xoşuna gəlmişdi. Onu qabaq sırada əyləşdirirdilər. Adını, familini soruşanda, hamıdan cəld, ucadan cavab verir, çoxdan təlim görmüş kimi, ciddi durub-otururdu. Xülasə, evdə olduğu kimi, məktəbdə də Həsrət uşaqların, böyüklərin əzizi, istəklisi idi. Montyor Əsgərin evindəki sevinc və səadətin, demək olar, 80 faizi bu gözəl, sağlam uşaq ilə bağlı idi. Həsrət böyüdükcə valideyninin: «Oğul», «bala!», «quzum!», «ay ürəyimin bəndi!» kimi sözləri daha çox işlənir, bərk də təsir bağışlayır, ana-bala münasibətlərinə də yaraşırdı.

«Həsrət götürmə uşaqdır, doğma deyil!»

Badsəba xanımın da, Əsgərin də qorxduğu və nifrətlə qarşıladığı dəhşətli söz bu idi. Tanışlar, dostlar, əlbəttə ki, bu sözü ağızlarına almazdılar. Bu sözü uzaqdan eşidən, ailəyə yaxın olmayan, bir qədər də ürəkdən kasıb, quru, duyğusuz adamlar ağızlarına ala bilərdilər. Bunu eşidəndə isə ata-ananın başına qiyamət qopurdu:

— Sən doğum evində olmusan, uşağı öz əlinlə tutmusan, ay həpənd, ay vicdansız?..

— Bilmirəm, axmaq adamlar öz çörəyini yeyib, özgənin niyə sözünü danışırlar. Söhbət başınıza qəhət olub, ay diliyanmışlar!..

Belə vaxtda Badsəba xanımın qəzəbinin hüdudu olmazdı. Tikiş maşınını mizrab kimi fırladar, qayçını atar, üsküyü götürər, üsküyü atıb, arşını götürər, parçaları qulac-qulac həvəs ilə ölçərdi, az qalardı cırıltısını yeddi qonşu o yanda eşitsin.

Rayonda bu cür «artıq-əskik» söhbət eşitməmək üçün montyor var-yoxunu yığıb-yığışdırdı, şəhərə köçdü. Badsəba xanımı da «Səliqə» artelində işə düzəltdi. Qulağı dinc yaşamağa başladılar. Həsrət isə indi daha səkkiz yaşına qədəm qoyurdu. Ata da, ana da bərk hazırlıq görür, Həsrətin adına yaxşı bir piano almaq istəyirdilər.

### 3

Nazilə Səriyyə xalanın evindən çıxanda, deyilənlər kimi, nə özünü Kürə atmağa, nə də başqa bir oğlana, guya konduktora qoşulmağa gedirdi. Ancaq vağzal tərəfə getməyi doğru idi. O, Nadiri axtarmağa, sinəsini, ürəyini dolduran ağrıları, acıları ona deməyə, o enli kürək, güclü oğlanın möhkəm qollarından tutub imdad istəməyə gedirdi. Vağzalda hərbi hissələrin adamları, silahları, sursatları ilə maşınlara dolub, kim bilir haralara, hansı cəbhələrə getdiyini görəndə, Nadir haqqında soruşmağa da utanırdı. Belə zamanda bir adamın, xüsusən bir hərbiyəlinin adresi də sirr sayılır, gizli saxlanırdı. İndi kim idi Naziləyə Nadirdən söz açan, xəbər verən!



Nazilə klub müdirindən bildi ki, cəbhəyə tibb bacıları axtarırlar, orta məktəbdə oxumuşları birinci növbədə yazıb götürürlər.

Nazilə, doğrudur, beşinci sinifdən çıxmış, pambıq yığmaq, fermada mal otarmaqdan macal tapıb oxumamışdı. Ancaq özünü oxumuş sayırdı. Onun fikrincə hərfləri tanımaq, adını yazmaq kənd uşaqları üçün kifayət idi. Xoşbəxtlikdən siyahı tutanlar da vəsiqə istəmədilər, adını, familini soruşub yazdılar və maşınlara doldurub, hərbi hissələrə, yaralılara xidmətə göndərdilər.

İndi də qızın qarşısında təzə bir həyat, ayrı bir aləm açılmışdı: Hərbi paltar geymiş, ulduzlu papaq qoymuş, zirəkləşmişdi.

Nazilə cəbhədən gələn yaralı vaqonlarında sanitar işləyirdi. Vaqonun birindən düşüb, o birisinə otururdu. Gətirdiyi xəstələri bir-bir təhvil verib kağız almamış, cəbhəyə qayıtmırdı.

Buradan nə dəhşətlər əskik idi! Bəzən bombadan vaqon nədir, qatar od tuturdu. Yaralı ilə dolu silahsız, əsgərsiz vaqonları bəzən faşist təyyarəçiləri qova-qova pulemyota tuturdular. Burada xəstələrə dərman, pambıq, tənzifdən çox silah vermək, səngər düzəltmək lazım olurdu. Nazilə vaqonda xalat geyinsə, beretka qoysa da, bir döyüşçüyə dönmüşdü. Hər bir yaralı əsgəri nəyin bahasına olursa-olsun qorumaq, sağaltmaq əzmində idi.

Döyüş şəraiti Naziləni—nazik, təcrübəsiz kövrək kənd qızını dəmirçi kürəsindən çıxmış qızğın polada döndərmişdi. İndi o, təkcə Nadiri yox, yüzlərlə döyüşçünün simasında yeni-yeni nadirləri görür, hamısına qayğı bəsləyir, yaralarını öz əllərilə bağlayırdı. İndi onun qəlbində sadəlövh, ibtidai, kor-koranə romantik eşq hissi ölməkdə, gərgin həyat, bütün ziddiyyəti, mürəkkəbliyi, bəzən amansızlığı ilə insanı izləyən həyat və mübarizə hissi güclənməkdə idi.

Komandanlıqdan aldığı ilk təşəkkürlər, hissənin qabaqcılları sırasında «Qafqazı müdafiə üçün» medalı ilə təltif olunması onda sənətinə həvəs artırmışdı. Komandirin hərbi-tibbi kurslarda oxumaq təklifi onu daha da sevindirdi, imtahan tutmağa məlumatını kifayət saymasa da, yazıldı və Moskvadakı altı aylıq tibb bacıları kursunda oxumağa getdi. Nadir haqqında soruşmağı, özünü tərk edən bir oğlanı hələ də axtarmağı özünə şikəstlik bilirdisə, uşaq haqqında düşünməkdən də utanır, qısılırdı. Güman edirdi ki, kimsə onun uşaq doğduğunu bilmir və bilməsi də lazım deyil: ölüböldürmək vaxtında,

igidlərin od-alov içində yanıb külə döndüyü bir gündə bir qundaq uşağı kimin yadına düşəcək, kimə lazım olacaqdı?

Nazilə belə düşünür, sonra da bu düşüncələrdən üzücü bir məyusluq hiss edirdi. Xüsusən uşağın, üzünə baxmaq istəmədiyi uşağın ilk ağlamaq səsini qulaqlarında təkrar hiss edəndə, ruhu lap pozulurdu. Neçə ay vücudunda sıxıntı, xəcalətlə gəzdirdiyi ağırlığı, bir daş, bir yük kimi yerə qoyanda, nə qədər dincəlmişdisə, gözləmədiyi bu səsi eşidəndə necə diksinmişdi! Sanki bu nazik səs ilahi körpənin ana vücudundan ayrılanda çıxardığı ilk nidası idi. Bu nida nələr deyirdi! Atasını-anasınımı, onu bu işıqlı dünyaya gətirməyin səbəbinimi soruşurdu! Bu nida Nazilənin ürəyində, qulağında əbədi bir nisgil olaraq qaldı, heç bir zaman da dilinə gəlmədi. Dilinə gəlmədi, gələ də bilməzdi; çünki həmin nidanı Nazilə eşitmək istəməmişdi, ona biganə qalmışdı. Onu eşitsə, eşitməsə, Səriyyə xala eşidə bilərdi ki, onun da acığı gəlirdi: «Günün qara olmasın, sənin uşağın var! Rüsvay olacaqsan, ay ərkansız, çarə elə!»

«Nə çarə eləyə bilərdim. Çarəm bu idi ki, başımı götürüb qaçdım!» Cəbhə, mübarizə həyatı Naziləyə çox şey öyrətmişdi. İndi o, tamam başqa bir qadın idi. İlk təsəvvürlərinə, sadəliyinə gülürdü. Nazilə nəinki, bir uşağın əlində aciz deyildi, hətta belə təsadüflərə möhkəmcə tab gətirməyə, hər işi yoluna qoymağa hazır idi. İndi Nadir ona rast gəlsəydi, utancaq-utancaq dil-dodağını çeynəməz, onun qələm qaşları, iri gözlərinin məftunu, valehi olmaz, kiçilməz, mərdi-mərdana yaxasından silkələyər, uca səslə deyərdi: «Ay şirin dillər tökən vəfasız! Hanı sənin düz ilqarın, hanı sənin peymanların? Hərbiyəlisən axı, utanmırsan? Bəlkə də əsgər oğlan sağ deyil, cəbhələrdə, müqəddəs torpaqlar uğrunda qanını, canını vermişdir». Bunları düşünəndə Nazilənin isti sinəsindən soyuq bir ah qopurdu. Döşləri anbaan qalxıb-düşürdü. İlk sevginin şirin dəqiqələrini lənətlədiyinə peşman olurdu: «Ölüb, haqq dünyadadırsa, bağışlayıram. Bəlkə əlacı olmayıb, bəlkə əli çatmayıb. Dava salanın evi tar-mar olsun! Bizim nakam eşqimizin binasını o dağıtdı!..»

Nazilə kursdan qayıdanda, baş tibb bacısı adı alanda qələbə günü bayram edilmişdi. Müharibə dayanmışdı. Dayanmışdı, ancaq tibb bacılarının işi qurtarmamışdı. Nazilə də yüzlərlə başqaları kimi hərbi xəstəxanalarda döyüşçüləri müalicə ilə məşğul idi.

Müharibə günlərində qorxulu, fəlakətli olan arxayın düşüncələr, adamların şəxsi həyat qayğıları indi hər kəs üçün tamamilə təbii və qanuni idi. Nazilə hərbi komissarlıqdan öyrənmişdi ki, Rəşidov Nadir Kerçdə, 1941-ci ilin qışında, ilk döyüşlərdə həlak olmuşdur.

Nazilənin ikinci və daha çox nigarançılığı tərk edib getdiyi uşaqdan idi. O vəziyyətdə ki, qoyub getmişdi, uşağın tələf olduğu yəqin idi. Yenə necə olsa bir xəbər bilmək, özünü nişan vermək, ölmədiyini bildirmək üçün kəndlərinə qayıtdı. Səriyyə xalanın vəfat



etdiyini biləndə, daha da qüssələndi. Ancaq doğum evindəki xadimə ona söz atıb eşitdirirdi ki:

— Uşaq yadına düşürmü?

— İndiyə uşaqmı qalar, xala?

— Atıb gedərsən, qalmaz, bala! Əlbət ki, qalmaz!

— Baisin evi yıxılsın!

— Xalqlar özgə yerdən uşaq götürüb saxlayanda, bizimkilər də qısır inək kimi balasını atır...

Nazilə xadiməyə cavab vermədi. Ötüb getdi.

4

Nazilə uşaq haqqında söhbət salmaq istəmirdi, bəlkə də heç salmazdı, bir təsadüf onun qəlbinin közərmiş yaralarını qopartmasaydı.

Hərbi libasını çoxdan çıxarmış, hissədən hazır paltar alıb geyməkdən yaxa qurtardığına, istədiyi ölçüdə, istədiyi formada paltar sifariş vermək fürsəti əldə etdiyinə çox sevinmişdi. O, bir dəst paltar sifarişinə xəstəxana müdirindən talon alıb «Səliqə» artelinə girdi, parçanı göstərib Badsəba xanımdan xahiş etdi:

— Usta, bu abı şaldan mənə bir paltar ölçün!

Kaş Nazilə heç bu artelin qapısından içəri girməyə idi, paltar sifariş eləməyə idi, eləsə də, bu qapıda qaragöz, girdəsifət uşağa rast gəlməyə idi!

Uşaq cəld qapıdan içəri girib, əlindəki bağlamanı ustaya verəndə: «Papam səni mağazada gözləyir»,— deyəndə, Nazilənin ağzından ixtiyarsız bu söz çıxdı:

— Buy!..

Əlbəttə ki, uşağın gəlişinə, Nazilənin ona göz qoymasına Badsəba xanım da diqqət yetirirdi. Nazilənin ağzından çıxan bu söz, Badsəba xanımı narahat etdi:

— Gözün tökülməsin, yazıqsan!—deyib, tez uşağın qabağına keçdi, iki əli ilə başını tutub, üzünü qapıya tərəf çevirdi, onu itələyə-itələyə apardı.—Yeri get, deginən bu saat, tənəffüsə çıxan kimi gəlirəm. Get papanın yanında məni gözlə. Di yeri, durma!

Nazilə dediyinə peşman oldu. Qadının bədnəzərdən ehtiyat etdiyini bilib utandı, marağını güc ilə gizlətdi:

— Usta, deyəsən, oğlundur!

— Bəli!

— Allah saxlasın, yaraşıqlı uşaqdır, Allah saxlasın!

— Allah sizinkiləri də!..

Nazilənin dərdi təzələndi: «Hanı bizimkilər, ay rəhmətliyin qızı! Biz orada ölüb-öldürmə, vur-həşirdə olanda, sizin kimi rahat peşə sahibləri burada həm pul qazanıb, həm də oğul-uşaq sahibi olub... Dava salanın evi yıxılsın!»

Bu qüssəli fikirlər Nazilənin zehnindən bir an içində keçsə də, əsl mətləbə keçmədi. O mətləb də bu idi ki, girdəsifət, qaragöz uşaq lap Nadirin surəti idi: qaş, göz, alın, sifət... Deyəsən bu uşağı böyüdüb Nadir eləyəndən sonra vağzala, Nazilənin bəxtinə göndərmişdilər.

Nadirdir ki, durub!

Nə eləmək, adam-adama oxşayar! Anası şübhələnməsə, göz dəyməkdən qorxmasa, Nazilə Həsrəti dayandıracaq, dindirəcək, onunla əylənəcəkdi. Badsəba xanımın qorxusundan bir söz demək, danışmaq mümkün olmadı. Nazilə çox istərdi ki, bu uşağın oxuduğu məktəbi tanısın, getsin orada dayanıb uşağa təkrar-təkrar baxsın, keçən günləri yadına salsın, «o bədbəxti» xatırlasın...

Nazilə ustanın idarəsindən harada yaşadığını, uşağının hansı məktəbdə oxuduğunu öyrəndi və bir gün həmin məktəbə getdi. Təsadüfən müəllimə də tanış çıxdı. Almaz xanım komandir arvadı idi. Nazilə ilə Qızıl Ordu bağında hansı mərasimdəsə görüşüb tanış olmuşdular.

Nazilə, müəllimədən xahiş etdi ki, uşaqlara cəbhə xatirələrindən, sanitar işlərindən danışmağa imkan versin. O zaman məktəblilər ilə belə söhbətlər çox olurdu.

Balacaboy, zirək Almaz müəllimə razı oldu:

— Yaralı əsgərin tibb bacısına nə qədər möhtac olduğunu uşaqlar bilməlidir,—dedi. Dərsdən sonra uşaqları kluba yığıb, Naziləyə söz verdi.

Nazilə xatirə adına öz başına gələn işlərdən adda-budda dedi, sovet qoşunlarının rəşadətindən, qəhrəmanların hünərindən, faşistlərin əclaflığından məlum sözləri təkrar elədi. Gah durdu, gah oturdu, gah bərk, gah yavaş danışdı. Ancaq bir an olmadı ki, girdəsifət oğlanı yadından çıxarsın. Sözünün axırını şüar ilə qurtaranda, uşaqlar şartaşart əl çaldılar. Almaz müəllimə uşaqlara müraciətlə soruşdu:

— İndi kimin Nazilə xanıma sualı var? Barmaq qaldırın, bir-bir hamıya söz verəcəyəm.

Uşaqlar əllərini qaldırdılar.

— Tamilla, de!

— Solmaz, sən de görüm!

— Vaqif!

— Hünər!

Sual-cavabdan sonra Almaz müəllimənin hazırladığı bir pioner qız—Səyyarə kürsüyə çıxıb, Naziləyə təşəkkür elədi, uşaqlar adından söz verdi ki:

— Biz hamımız sovet vətənpərvəri olacaq, Koşevoy Oleq kimi hünər göstərəcəyik...



Məclis axıra çatanda, Nazilə Almaz müəllimə ilə çıxıb həyətdə gəzişir, qibtə edirdi:

— Müəllimə, nə gözəl uşaqlarınız var! Bunların arasında işləmək səadətdir!

— Demə, həkim qız, bunların içində elə dəcəllər var, elə nadinclik eləyirlər, gəl gör!

— Necə olsa, bunlarla çalışmaq yara bağlamaqdan yaxşıdır.

— Əlbəttə ki, o barədə!

Nazilə qoltuğunda not çantası olan girdəsifət uşağı axtarırdı. Gözü sataşan kimi geri çəkildi, bir qədər səsini alçaltdı, əli ilə ağzını örtərək gözü ilə Həsrətə işarə edərək, Almaz müəllimədən soruşdu:

— Bax, bu girdəsifət uşaq kimin uşağıdır? Nə gözəl uşaqdır!

— Hə, Badsəba xanımın oğludur. Həftədə bir dəfə məktəbə gəlməsə, anasının bağrı çatlayar. Ən fəal valideynlərimizdəndir.

— Anasını tanıyıram, dərzidir. Bəs atası?

— Atası, gərək, mühəndisdir, ya texnikdir. Bircə uşaqları var. Deyirlər piryutdan gətiriblər. Amma heç doğma uşağa elə baxmazlar ki, bunlar baxır.

— Elə uşağa necə baxmayasan!

— Uşaq da əqillidir. Bizdə dəcəllər də var, amma əqilli, mərifətli uşaqlar çoxdur. Dava vaxtına baxmayın. Onda camaatın məşğul olmağa imkanı yox idi. İndi bizdə valideynlər şurasının işi məktəb şurasının işindən az deyil. Məktəb səhərciklərimiz olur, bir zəhmət çəkib, iştirak edəsiniz, xoşunuz gələr.

Almaz müəllimənin tək bircə «piryutdan gətiriblər» sözü Nazilənin şübhəsinə varaqlar, varaqlar yox, kitablar açdı. Nazilə yəqin elədi ki, uşağı tələf olmayıb, həmin girdəsifət uşaq atasının—«o ilqarsızın» uşağıdır. Bunu yoxlamaq lazımdır, dalınca düşmək, mütləq yoxlamaq lazımdır. Həmin söz Nazilənin qəlbində nə işıqlı cığır açmışdısa, Badsəba xanımın qəlbində təlatümə səbəb oldu...

... Həmin sözdür ki, altı aydan bəri hər iki ailənin həyəcan və intizarını həddən aşırmış, yediyini-içdiyini zəhərə döndərmiş, 4-cü sahə xalq məhkəməsində dindirmə, mühakimənin də bu qədər uzanmasına səbəb olmuşdu. Əvvəl Nazilə belə söhbəti salanda, Badsəba xanım bərk acıqlanmışdı:

— Siz bura paltar sifariş verməyə gəlmisiniz, ya xalqın ailə işlərinə qarışmağa revizor gəlmisiniz?

— Mən heç vaxt ailə işlərinə qarışmaq istəmirəm, maraqlandığım bir məsələni aydınlaşdırmaq istəyirəm.

— Siz nə haqq ilə mənim övladımı yada çıxarmaq istəyirsiniz?

— Mən bilmək istəyirəm, doğrudan da Həsrət sizin doğma övladınızdırmı?

Badsəba xanım bu sözü eşidəndə pul kimi qızardı və əllərini yanına salıb bərkdən danışdı:

— Vətəndaş, xahiş edirəm çölə çıxasınız, bizi əsəbiləşdirməyəsiniz. Biz iş adamıyıq!

Nə Badsəba xanım, nə Əsgər, nə də dünyanın bir çox işlərindən bixəbər olan Həsrət istərdi кi, belə bir söhbət açılsın. Ancaq Nazilə əl çəкmədi, getdi-gəldi, yazdı, danışdı, şiкayət elədi, nəhayət, onun iddiası məhкəmə prosesində dinlənməli, mühaкimə edilməli bir mətləb oldu.

Görəк Həsrət həqiqətdə кimin uşağıdır? Naziləninmi, Badsəba xanımınmı?

Кənddən şahidlər çağırıldı, vəsiqələr istənildi, Nadirin hissəsindən məlumat alındı, Səriyyə xalanı görən, eşidənlər dindirildi, uşağın qanı, anaların qanı təhlilə getdi. Həsrətin taleyi şəhərdə maraqlı söhbət oldu. Məhкəmə üzvləri tənəffüs zamanı istirahət otağında oturub danışırdılar. Biri deyirdi:

— Mənim bu tibb bacısına yazığım gəlir.

O biri deyirdi:

— Mən isə Badsəba xanıma acıyıram, doğrudan acıyıram.

Üçüncüsü deyirdi:

— Mən hamıdan çox uşağa heyfsilənirəm, uşağa!

Hər birinin də öz aləmində əsası və sübutu var idi.

Birinci ona görə haqlı idi кi, Nazilə çox əzab, əziyyət çəкib. Dava vaxtında, iкi-üç yüz qram qara çörəк verilən zamanda atasız, anasız, ərsiz, başsız qalan 18 yaşlı bir qız nə edə bilərdi? Yaxşı кi, özünü orduya salıb, xeyirli iş görüb. Uşağını atıbsa da cəbhəçiləri tutub, neçə-neçə yaralıları sağaldıb. İndi də doğma uşağına sahib olmaq üçün nə çətin, nə ağır mübarizələrə qatlaşmalı olub.

İкinci də ona görə haqlı idi кi, Badsəba xanım hər uşağı hər zaman götürməzdi. Yüz dəfə ölçüb-biçəndən, götür-qoy eləyəndən sonra qundaqdaкı uşağa bala deyib, qəbul etmişdi, illər boyu nə naz-nemət ilə böyüdüb məкtəb məqamına gətirmişdi. Bütün övlad məhəbbətini, gələcəк arzusunu da o girdəsifət, qaragöz uşağın başına cəmləmişdi. Birdən-birə ona: «Bu ümidindən, arzundan əl çəк!» —deməк—ölümə bərabər, bəlкə də bir az artıq idi! İndi o, illər uzunu əməyin həsrətini, qəlbinin günü-gündən böyüyən, danışan sevincini birdən-birə necə xəzri кüləyinə versin? Məhкəmədə necə daşürəкli adam olur-olsun Badsəba xanıma belə təкlifi edə bilməz və etməz də! Məcəllə maddələrilə yanaşı bir canlı insan, insan qəlbi, həyat hökmü də var axı!

Məhкəmənin üçüncü üzvü uşağa heyfsilənirdi. Onun da haqqı var idi:

— Bu yaşda, yeniyetmə, ata-ana nəvazişi ilə böyüyən bir uşağa deməк кi, bunlar—indiyəcən səcdə etdiкlərin sənin yalançı ata-anandır, onun bütün sevincini, arxasını, inamını uçurmaq, alt-üst etməк deməкdir. Belə söhbəti Həsrət yaşda uşağa deməк, danışmaq olmaz, heç olmaz!



Xülasə, iclasçıların vəziyyəti mühaкimə olunanların vəziyyətindən heç də yaxşı deyildi. Burada çox mətləblər aşкara çıxarmaq, çoxlarına qarşı ittiham qaldırmaq, bəzilərinə də afərin deməк olar. Ona görə də mühaкimə uzanır, qaranlıq nöqtələrin hamısı aydınlıq, aşкar, həqiqət işığı tələb edirdi.

Həsrət Naziləni yaxın qoymurdu: «Ana, bu arvad məкtəbdə mənim dalımca gəzir», «Ana, bu arvad tutub mənim üzümdən öpdü», «Mən bu arvaddan qorxuram!..»

Ona Naziləni bir ana кimi təhvil verməк çox çətin, bəlкə faciəli bir iş olardı. Ana кimi müqəddəs bir xilqət haqqında uşaqda indiyəcən yaranan təmiz təsəvvürlər кirlənib, puç ola bilərdi. Məhкəmə sədri Naziləni təhlili suallarla qısnaşdıranda, tamamilə haqlı idi:

— Necə anasınız кi, övladı bir qadının evinə atıb qaçırsınız? Necə anasınız кi, bu səккiz ilin müddətində uşaq ilə bir dəfə də maraqlanmırsınız? Kim sizə uşaq böyütməyə borcludur? Analıq hissiniz var idisə, büruzə verməli idiniz! Yalnız bioloji, fizioloji faкtorlar analığı sübut üçün кifayət ola bilməz. Ana böyüк, təmiz, müqəddəs bir addır. Ana olan, övladı üçün hər cür iztirab və məhrumiyyətlərə dözməlidir. Yalnız özü üçün deyil, həm də övlad üçün, ictimai tərbiyə üçün yaşamalıdır!..

Badsəba xanım məhкəmədə bütün böyüк simaların кitablarından, sözlərindən, sovet qanunlarından misal çəкib, uca səslə iddia edirdi кi: «Nazilənin Həsrətdə analıq haqqı olmamışdır. Uşağın həqiqi anası mənəm və mən də olmalıyam. Nazilə uşağa ancaq iftixar haqqı bəsləyə bilər. Hərçənd uşaq onu görməк istəmir, ancaq bu iftixar haqqından mən onu məhrum etmirəm, gəlib-gedə bilər, uşağa istədiyi nəvazişi, mənim icazəmlə göstərə bilər, Həsrət isə mənim doğma balamdır, canım-ciyərimdir!»

İкinci iclasçı soruşurdu:

—Nazilə xanım, tutaq кi, bu uşaq özü də, fərz edəк, razı oldu və siz bunu apardınız. Axı haraya aparacaqsınız? Bəyəm siz Badsəba xanım кimi qayğıкeş bir ananın qucağından, təmiz bir ailənin şəraitindən yaxşı yerə aparacaqsınız onu?

— Mən ona yaxşı şərait düzəldərəm.

— Bağışlayın, bağışlayın! Sizin birinci şəraitiniz onu həqiqi, mən bunu bütün inamımla deyirəm, həqiqi valideyndən məhrum etməк olacaq. İкinci şəraitiniz onu ögey ata yanına salmaq olacaq.

— Mən ərə getməyəcəyəm!

— Daha pis! Başqa кişilər arasına salmaq olacaq. Üçüncü şəraitiniz: uşağın qəlbində ana кimi müqəddəs bir xilqət haqqında dumanlı, bəlкə də namünasib təsəvvürlər oyanmasına bais olmaq... Dördüncü şərait...

— Mən Badsəba xanımın çəkdiyi xərcləri ödəsəm, necə?

Badsəba xanım təhqir olunmuş kimi, yerindən qalxdı, məhkəmə sədrinə müraciət etdi:

— İcazə verin!..

— Sakit olun, bacı!

Məhkəmə sədri üzünü Naziləyə tutub dedi:

— Vətəndaş Nazilə, gərək sizə məlum ola ki, dünyada elə mənəvi aləm, hisslər, fikirlər, təsəvvürlər aləmi var ki, alım-satıma, tərəziyə girməz! Badsəba xanım iftixara layiq həqiqi anadır. Onun bu müqəddəs əməyinə heç bir sərvət əvəz ola bilməz. Sizə də belə bir mizan-tərəzi gətirməyi məsləhət görmürəm. Həsrət onun oğludur, sizin həmin uşağın dünyaya gəlməsindəki haqqınızı danan yoxdur. Həsrət özü bir zaman hiss etsə ki, siz də ona həqiqi analar kimi anasınız, nə eybi var, daha yaxşı!

— ...

— Bəs mənim doğma uşağım mənə düşmür?

— Siz onu qundaqda küçəyə atıb gedəndə, Badsəba kimi qayğıkeş, həqiqi analar olmasaydı, uşaq məhv ola bilərdi, ya yox?

— ...

— Soruşuram: uşağın salamat qalmasına nə əsas var idi?

— İndi ki, görürük, salamat qalıb!

— İcazə verin onu böyüdən, bəsləyən, salamat saxlayan analar başını uca tutsun, kefə-ləzzətə uyub analıq vəzifəsindən uzaqlaşanlar, hazırına nazir olanlar yox!..

1960.



# ƏRİK AĞACI

## 1

*İlk nəvəm Aytəkinə*

Uzun müddət ayrıldığınız və həmişəlik unutduğunuz, hətta öldüyə çıxdığınız əziz bir dost ilə üz-üzə gəlsəniz, nə cür olarsınız?

Təsəvvür edin ki, bu mənim öz başıma gəlmişdir. Xəyal, ya ehtimal yox, bir həqiqətdir ki, sizə danışmaq istəyirəm.

Deyəcəksiniz ki, bu məqamda adam özünü itirər, qəşş eləyər, bəlkə dəli-divanə olar. Amma mən nə özümü itirdim, nə ürəyim getdi, nə də ki, huşum başımdan çıxdı. Əksinə, bu hadisədən sonra mənim başıma çox yeni fikirlər gəldi, çox mətləblər mənə aşkar oldu. İnsanın gücünə, insan əlinin qüdrətinə iman və etiqadım qat-qat artdı. Torpaqda möhkəm duranların necə xariqələr yarada bildiyini ancaq indi aydın dərk edirəm.

Hər məxluqun körpəsi zəif və möhtac olur. Körpələr kömək, himayə görməsə, yəqin ki, məhv olub gedər, yaşaya bilməzlər. Bəlkə buna görə təbiət insanların qəlbində, körpələrə mərhəmət hissi qoymuşdur. Normal insan, kim olur-olsun, nə əqidənin, peşənin sahibi, hansı millətdən, zümrədən, cinsdən olur-olsun, körpələrə kömək və mərhəmət hissi bəsləyir. Birində az, birində çox, birində aşkar, birində qapalı olur. Ancaq bu hiss hamıda olur.

Gümrah və kök bir qoyunu kasib kabab çəkməyə tələsənlər də əmlik quzuya ot və su verməkdən ləzzət alırlar. Göydə uçan kəkliyi, qırqovulu, turacı vurub yerə salan ovçular, sələcədə civildəşən quş balalarına toxunmaz, əl vurmazlar. Ağac başındakı meyvəni dərmək üçün şax-budaqları qanırıb qırmaqdan çəkinməyənlər, təzəcə göyərən pöhrə ağacı həmişə himayə edər, qoruyarlar.

Bunun özü nəcib və mənəvi bir hissdir.

Çalışdığım məktəbin təzə tikilmiş binasında müəllim otağı lap kənarda, qurtaracaqda idi. Səhər tezdan mən burada, qapı ağzında dayanıb, dəstə-dəstə dərsə gələn uşaqlarla salamlaşır, həm mənəvi zövq alır, həm də, bir müdir olaraq, nəzarət vəzifəmi icra edirdim.

Zəng çalınandan, qapı-bacada səs kəsiləndən, hamının—müəllimin də, məktəblinin də dərsə başladığını düşünəndən sonra xüsusi bir ürək rahatlığı ilə içəriyə, müəllim otağına qayıdırdım. Pilləkənin yanında, günəş az tutan, əl-ayaqdan kənar yerdə bir tingin göyərdiyini gördüm. Əyilib diqqətlə baxanda, ərik olduğunu tanıdım. Keçən yayda tənəffüs zamanı müəllim yoldaşların həyətlərindən gətirdikləri iri, ağ, şirin, sulu, peyvənd ərikləri yediyimiz yadıma düşdü. Yəqin ki, həmin tumlardan buraya düşüb göyərmişdi.

Bayaq dediyim hiss—körpələrə acımaq hissi, nəsə qəlbimi tərpətdi. Mən ərik tinginin ətrafına çubuqlar sancdım, dibinə su tökdüm. Ting iki-üç qarış qalxmış, balaca, zəif, yumru, yaşıl zərif yarpaqları ilə fəzaya, işığa doğru yönəlmişdi. Niyyətimdə qoydum ki, bir qədər böyüyəndən sonra tingi çıxarıb, yumşaq torpaqda, geniş bir yerdə basdırmaq lazımdır. Ancaq bu niyyəti tutduğum yerdə də unutdum; çünki bu barədə düşünmək, ərik tingi ilə maraqlanmaq, məşğul olmaq, nəsə, mənə qismət olmadı; çünki bu hadisə dəhşətli bir zamanda baş vermişdi.

1

Qırx birinci ilin yazı vətənimizdə ən fəlakətli bir yaz idi. Güman edirəm ki, belə bir yaz tariximizdə nə olub, nə olacaq. Başımızdan nagahani əsən «acı ruzgar» səmum kimi hər şeyi tufana tutmuşdu. Dağlarda lalələr, bağlarda meyvələr, tarlalarda ağır başlı sütül sünbüllər rəngini, ruhunu, mənasını dəyişmişdi.

Həmişə, hər yerdə, hər kəs üçün əziz və xoş olan bahar bu il kimsədən təbəssüm və nəvaziş görmür, gözləmirdi. Adamların qaya kimi sərt, bulud kimi tutqun simasından kədər, qayğı, intizar, qəzəb yağırdı. Hər kəsi imdada, köməyə çağıran vətənin yaralı səsi bütün qəlbləri tərpətmişdi. Yerindən qalxan silahını, çantasını götürüb əzizlərilə vidalaşır, səfərbərliyə gedirdi. Mənim hərbi komissarlıqdan çağırış aldığımı, sabah yola düşməli olduğumu bilən Nəbi dayı mənzilimə gəlmişdi:

— Yoldaş müdir,—deyirdi,—bəlkə tapşırığınız-zadınız oldu. Mən nə qədər ki, burdayam, nə qədər ki, nəfəsim gəlir, məktəbi gözbəbəyim kimi qoruyacağam. Ölərəm, qoymaram bu həyətə yad-murdar ayaq dəyə!

— Nəbi dayı,—dedim,—cavanlar gedəcək, yalnız sənə arxayınam. Gecələr qarovul qoyun, damlarda gözətçi olsun. Vəhşilərə etibar yoxdur: məktəb, xəstəxana, kitabxanaya da od vururlar. Bunları, bu maarif ocaqlarını neçə illər boyu, nə zəhmət ilə tikib düzəltmişik, qorumaq gərəkdir. Arvad-uşağı da təlimə gətirin, köməkləşin... Biz ölsək də, məktəb yaşamalıdır, vətən balaları oxumaqdan qalmasın gərək...

Mənim dediklərimi Nəbi dayı diqqətlə dinləyirdi. Əlini əl üstə qoyub dayanmış, sanki ürəyini dolduran qəzəbi və təəssüfü izhar üçün münasib vasitə axtarırdı.

Bu qocanın on ildən bəri məktəb üçün nə zəhmətlər çəkdiyini, həyətini, bağçasını, odununu, suyunu, işığını minbir əziyyətlə sahmanda saxladığını hamıdan yaxşı mən bilirdim.

İnsan, səadətinin, xoş gününün qədrini təhlükə yarananda bilər. Həmişə adi saydığım məktəb, həyət, uşaqlar, müəllim yoldaşlar,



həmin bu Nəbi dayı indi mənim gözümdə daha da böyümüş, daha da əziz olmuşdu. Sanki bunları—dinc və xoşbəxt məktəb həyatını, uşaq oxutmaq kimi bəxtiyar bir peşəni tərk etməli olacağımı, bəlkə də həmişəlik tərk etməli olacağımı, müəllim üçün bu müdhiş zərurəti dərk etdiyim üçün hər şey gözümdə ayrı cür olmuşdu.

Geyinib yola hazırlaşandan sonra məktəbi—otaqları, eyvanı, kabinetləri, bağçanı, hasar diblərini addım-addım gəzdim. Mənim həyəcan və təlaşımı, görünür, hamıdan çox Nəbi dayı duymuşdu. Məni izləyir, arxayın, «uğurlu» getməyimi, salamat qayıtmağımı arzu edirdi. Pilləkən yanında ərik çəyirdəyindən göyərmiş tingi Nəbi dayıya göstərdim:

— Buna da bax, heyifdir, bir təpiyə bənddir, gözlə!

Nəbi dayı və məktəbdəkilər ilə əl verib görüşəndən, öpüşəndən, çantamı çiynimə alandan sonra qapıda dayanıb, çox həsrətlə məktəb binasını seyr etdim. Qılınc ilə bədənimdən qoparılmış bir parça kimi, bu dəsgahdan ayrıldım.

Kənd məktəbliləri—ən böyüyü dördüncü sinifdə olan məktəb uşaqları, nədənsə mənə, pəncərə qabağında təzəcə yarpaq açıb günəşə doğru yönəlmək istəyən ərik ağacını xatırladırdı. Müasir, dəhşətli müharibələrin bir küləyi buralardan keçsə bəsdir, məktəb nədir, bütün kəndi süpürüb aparacaq. Bombalara, yanğına, təxribata məktəbmi, bağ-bağçamı dözər!..

2

Görünür, bir də Köşgü məktəbinə qayıtmaq mənə qismət deyilmiş. Müharibə illərini, səfərləri, döyüşləri, ağırlıqları keçirəndən, cəbhədən bir müəllim yox, yaralı topçu kimi qayıdandan, müalicədən sonra şəhərdə məni sənaye texnikumuna hərbi müəllim təyin elədilər.

Köşgü məktəbi, orada qoyub gəldiyim uşaqlar, Nəbi dayı, demək olar ki, mənim yadımdan çıxmışdı. İsti asfalt yolların kələ-kötürünü örtən kimi müharibə adamın hisslərini sərtləşdirir, hamarlayır, ən dəhşətli təsadüfləri hazır yetişdirir.

Cəbhədə təltif olunduğum günlərdə ştaba gələn təbriklər içərisində, Köşgü məktəbi kollektivinin də məktubunu mənə verdilər. Hər dəqiqəsi odlar, alovlardan keçən qızmar döyüş günlərində məktəb, dərs, zəng səsi, Nəbi dayının güləş siması şirin yuxu kimi nəzərimdən keçdi.

Bir dəfə də hərbi məktəbdə Nəbi dayı gəlib məni tapmışdı. Xoş-beş, əhvallaşmadan sonra qocaya müraciət etdim:

— Nəbi dayı, bizə görə qulluq? Bəlkə bir xahişin var?

Görünür, kişi bu sualı gözləyirmiş. Dik ayağa qalxdı, xurcununu qurdaladı:

— Qul sahibi olasan, oğlum. Salamat qayıtmağını eşidib hamımız sevinmişik. Köşgüdə həmişə söhbətiniz olur. Sizə çoxlu salam gətirmişəm. Ayrı bir xahişim yoxdur.

Qoca, xurcundan çıxartdığı bir səbəti yerə qoydu:

— Məktəb bağının meyvəsindən nübar gətirmişəm. Özünüz gəlmirsiniz, barı meyvədən dadın!

— Ağzın şirin olsun, nə zəhmət çəkmisən.

— Zəhmət deyil—borcumdur. O bağın binasını sən qoymusan axı!

Nəbi dayının orada olmağı, məktəb bağına həmişəki kimi bağbanlıq eləməyi məni çox sevindirdi, ürəyimdə Köşgünü bir də görmək arzusunu gücləndirdi.

Ötən yayda müəllim yoldaşlarımla dağlara, səyahətə çıxmışdım. Gəncə dağlarından, Köşgü kəndinin yanından ötəndə, məktəb yadıma düşdü: «Buraya baş çəkməmək namərdlik olar»,—dedim. Yoldaşlarım da razılaşdılar. Maşını birbaş Köşgüyə sürdük.

Nədənsə indi, 20 ilə yaxın bir müddətdən ayrıldığım kəndə yaxınlaşdıqca, küçələri tanıdıqca, ürəyimin döyüntüsü artırdı. Bilmirəm niyə?

Köşgü, dağlardan enən dar dərənin o tay-bu tayında salınmış xırda, yaraşıqlı bir yaylaq kəndidir. Aşağıdan, rayon kövşənlərinin qurtaracağından yuxarı dıklənəndə Köşgü evləri pillə-pillə düzülmüş əlvan arı pətəklərinə bənzərdi. Məktəb dərənin sağında, güney yamacda idi. Pəncərələri həmişə günəşin ilk şüalarını salamlardı. O zaman biz buraya at-fayton ilə çətin gələrdik. İndi kəndin içindən abad maşın yolu keçib rayon mərkəzinə gedir. Düzdür, maşın ilə gedirdik, ancaq mən sağıma-soluma baxır, 20 il əvvəl gördüyüm yerləri tanımaq istəyir, tanıya bilmirdim. Cığır kimi balaca küçələr sökülüb dağılmış, böyük yollar, sağ-solda daş evlər salınmışdı. Yalnız üfüqü örtən qocaman ağaclar, dərəyə enən meşə cığırları keçmişi xatırladırdı. Məktəbin yerində sıx ağaclıq, bir qədər uzaqda isə ağ daşdan tikilmə çox pəncərəli bina görürdüm. Şoferdən soruşdum:

— Bu nə binadır?

— Məktəbdir.

— Yəqin təzə məktəbdir.

— Bəli, 3–4 il olar tikilib. Onillikdir.

— Bəs köhnə məktəb binası hanı?

— Köhnə bina görünmür. Orada indi nəsə, uşaqlara yeməkxana düzəldiblər.

— Bu ağaclıq nədir qabaqda?

— Məktəbdir, məktəbin bağı.

«Bağ» sözünü eşidəndə, Nəbi dayının sözü yadıma düşdü. Yəqin, dedim, o kişi indi buralarda, ağacların dibində əlləşir. Biz maşından düşüb böyük dəmir darvazadan həyətə girəndə, ağaclar altında qocalar kimi sakit dayanan köhnə binanı görəndə, ancaq pəncərələrə gözüm sataşanda, məktəbi—keçmiş əziz bir müsahibimi, dostumu tanıdım. Necə tanımayım?! Əlimdə jurnal səhər-axşam girib-çıxdığım, cücəli toyuq kimi körpələr əhatəsində deyib-güldüyüm cavanlıq illərimi, həvəsli günlərimi keçirdiyim yerləri necə tanımayım! Hər addımı tanışdır, əzizdir. Deyəsən bu bina kiçilmişdi, çox kiçilmişdi. Özü də qocalmış, soluxmuş, rövnəqini itirmişdi.



Mən dayanıb ətrafıma baxdım, gəldiyim yeri diqqətlə vəravurdladım.

— Təzə məktəb?..

Mən bu sözü deməmiş ağbaş, qısaboy, əsalı bir kişinin yaşına yaraşmayan cəldliklə yaxınlaşdığını gördüm.

— Təzə məktəb qabaqdadır.

— Bəs bu nədir?

— Yeməkxanadır.

Qoca, əsasına dirənərək, dik-dik mənim üzümə baxmaqda, sanki daha yeni suallar gözləməkdə davam etdi. Güman ki, mənim üzümdə adi nabələd adamın baxışını görməyən, başqa məna duyan və axtaran qoca, bir addım da irəli yeridi, səsinə mülayim, lakin həyəcanlı ahəng verib soruşdu:

— Bağışlayın, siz bu yerlərdə işləməmisiniz? Sizi mən ayrı bir yoldaşa oxşadıram axı!

— A kişi, sən Nəbi dayı deyilsən? Ayrı niyə?

— Ay müəllim!—Qoca bu sözü, adam çağıran bir qışqırıqla dedi, üstümə cumdu.—Ay müəllim! Sağ olmuş, niyə nişan vermirsən, məni çaşdırırsan, qardaş, o boyda da qocalmamışam axı! Çaşdırma məni, qardaş oğlu!..

Kişinin danışığı, hərəkəti tamam keçmiş günləri gözümün qabağına gətirdi. İri gövdəli, cəld hərəkətli, iti baxışlı Nəbi dayıdan yalnız bir eskiz, bir də xırıltısı artan səsi, dağ ləhcəsi qalmışdı. Mən təsəlli vermək istədim:

— Nəbi dayı, sən haman-hamansan, heç dəyişməmisən.

Qoca əlindəki əsanı, qar kimi ağarmış saqqalını göstərdi.

— Ömürdür, keçir... Bəs nə əcəb, illərdi bizi itirib axtarmırsan, müəllim?

— Bəyəm macal olur ki, ha çalışıram, bir bu yana yolum düşmür.

— Di xoş gəlmisən! İndi sən görən məktəb deyil, işlər böyüyüb, onillik olub, dörd yüzdən çox uşaq, iyirmidən çox müəllim var.

— Nəbi dayı, bu ağaclıq, yəqin, sənin əsərindir?

— Xeyr, mənim niyə, binasını sən qoymusan, uşaqlar ilə köməkləşib artırmışıq, bağ eləmişik.

Nəbi dayı məni yeməkxananın kənarında cərgələnmiş meyvə ağaclarına tərəf çəkdi:

— Yadındadırmı, çərdəkdən göyərən ting? Dava vaxtı körpə tingi mənə tapşırdın: buyur igid ağaca tamaşa elə!—Kişi sinə dolusu iftixarla deyirdi:— Əmanətini təhvil al!

Mən təəccüblə dayanıb gümrah, iri gövdəli, uca, qollu-budaqlı, başında lampa kimi ərik qızaran ağaca baxırdım:

— Həmin ting budur?

— Özüdür.

— Yox, canım.

— Özüdür ki, var!

— Nə tez böyüyüb, Nəbi dayı?

— İyirmi ilin söhbəti var, nəyi tezdir, ərik ildə bir metr artır! Dağ yerində bu ağacın kefi saz olur.— Nəbi dayı yaradanlara məxsus bir qürurla ağacın budağına, meyvələrinə baxırdı:—Baxırsanmı, nə qanadlanıb!

Ayrı zaman və şərait olsaydı, uşaqlıq illərimi yad edib, dərhal ağaca dırmaşar, budaq başından öz əlimlə ərik dərməyə tələsərdim. Amma indi, qoca bağbanın sözü məni lap çaşdırmışdı. Heç inanmağım gəlmirdi ki, çöp kimi qoyub getdiyim ting, nəhəng ərik ağacına çevrilmişdir. Başında dağ fəzasının ayaz fonunda ağaran meyvələr müəllim otağında ərik yediyimiz günləri xatırlatdı. Doğrudanmı bu həmin tingdir? Bir, ya bir yarım metr qalxandan sonra sola doğru meyillənmiş, gövdəsi aslan kimi burulmuş, daha sonra meşə ağacları kimi dümdüz göylərə yol almışdı. Beş-altı metr, bəlkə də artıq boy atandan sonra saysız-hesabsız budaqlar qol-qanadını ayırıb ətrafa yaymış, dağ günəşini sorub qidalanmağa zərif yarpaqlar açmış, həyəti sıx kölgə ilə örtmüşdü. Ağacın gövdəsi cantraq və möhkəm idi. Görən buna bəlkə də otuz-qırx yaş verərdi. Gövdənin sərt yerlərindən nazik çubuqlar da göyərməkdə idi. Mən sanki dünənki körpənin belə nəhəngə döndüyünə sevinc və təəccüb içində heyran-heyran baxırdım.

Deyəsən, Nəbi dayı da bu mənzərədən sevinirdi. İrəli yeriyib, cərgələnmiş ağacları göstərdi:

— Bu bağçanın binasını sən qoymusan, uşaqlar bəsləyib-böyüdüblər. Bax, bu cərgə badam, bunlar payızlıq armud, yandakılar gülöyşə nar, iydə ağaclarıdır. Sənin əriyin şah ağacdır. Bunlar hamısı ondan bir-iki il sonra basdırılıb, hamısı da indi meyvə verir. İnternatda oxuyanların meyvəsi, kompotu, mürəbbəsi məktəb bağındandır. Bir kəsə minnətimiz yoxdur!

Mən bağbana təşəkkür etməyə münasib söz tapmırdım. Bəlkə gözəl bir bağ-bağçanın yaradıcısı qarşımda idi. İri gövdəli kişi indi, sanki bəslədiklərinin əksinə olaraq, kiçilmiş, zəifləmiş, yüngülləşmişdi.



Nəbi dayı mənim qarşımda indi bir qoca xadim, bələdçi bağban yox, böyük məna və mətləblərdən xəbər verən hörmətli bir sima kimi dayanmışdı. İndi mən onun əlini sıxmaq, önündə təzim edib təşəkkür eləmək arzusunda idim. Ancaq belə bir qəlb sahibi, torpağın, günəşin, əzəmətli dağların oğlu, quşlar kimi səs-səsə verən vətən balalarının ləyaqətli atası, müəllimi, əmək ustası, uşaqların gələcəyinə belə bağ bəsləyə bilərdi. Bütün bu sıralanmış, şaxələnmiş, göyün bir qatına qalxmış ağaclar məğrur-məğrur dayanaraq, dağlara, dərələrə, düzlərə iftixarla baxaraq, sanki bu qoca bağbanın yaradan əllərilə fəxr edir, hamını, hər şeyi halal əməyin bəhrəsinə tamaşaya çağırırdı...

O zamandan bəri ərik ağacı heç yadımdan çıxmır. Əməklə yoğrulan qara torpağın, təmiz havanın, bulaq sularının, dağ günəşinin böyük hikmətini, qüdrətini ağacın hər budağında, hər yarpağında, yeyilən hər şirin meyvəsində görürəm. Abad bağ-bağat görəndə həmişə zehnimin səhifəsində yazılır:

— Ərik ağacı!

1960.

# GÜLBƏSLƏYƏN QIZ

Bağ-bağat içində, güllük əhatəsində tikilmiş ağ daş binanın ikinci mərtəbəsində geniş bir eyvanda istirahətdə idim. Həkimlər əsəb sakitliyi üçün buranı münasib bilib məsləhət görmüşdülər.

Hər səhər tezdən eşitdiyim ilk və ən munis musiqi suyun şırıltısı idi. Bu səs gah leysanı andırır, gah da seyrəlib xışıltıya dönür, sonra da kəsilirdi. Təbiətin sədasını eşitmək, suyun, küləyin, yağışın səsini dinləmək nədənsə həmişə mənə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır.

Dediyim kimi, səhər tezdən eşitdiyim ilk musiqi suyun şırıltısı idi. Dərhal yatağımdan qalxıb eyvana çıxır, rəngdən-rəngə, ahəngdən-ahəngə düşən, gah enən, gah qalxan bir təbii simfoniyanı dinləmək, haradan gəldiyinə tamaşa etmək istəyirdim.

Görürdüm ki, ayağı yalın, qolu dirsəyə qədər çirməkli, başı ağ ləçəkli bir qız, əlində rezin boru, gül kərdilərini sulayır. Gah da susəpəni götürüb güllərin yarpaqlarını ehtiyatla yuyur, güllər isə sərin bahar suyunu içdikcə sanki quş kimi göyə baxır, səmaya qalxmaq istəyir. Ürəyimdə deyirdim: «Ay təbiətin gözəl məxluqu, niyə səmaya baxırsınız? Sizə su və həyat verən göydə deyil, yerdə, yanınızdadır, budaqlarınızı onun qarşısında hörmətlə əyin, ətrinizi onun gənc və sağlam vücuduna səxavətlə səpin. Onun kimi sizin yolunuzda zəhmət çəkən, şirin səhər yuxusuna haram qatan, ana kimi hər gün sizi yemləyən, qayğınıza qalan kimdir, kim ola bilər?..»

Gün əyiləndən, kölgələr sallanandan sonra, yük maşını qapıda dayanır, əli səbətli adamlar ləklərə daraşır, gülləri dərib toya, təvəllüdə, məclislərə, pişvazlar, təbriklər yerinə aparırlar. Bunlardan heç kəs gülbəsləyən qızı soruşmur, yoxlamır, bəlkə də tanımır. Qız da bunlara məna vermir, öz vəzifəsini vaxtında, ləyaqətlə ifa edir.

Bir gün özümü saxlaya bilmədim. Eyvandan düşüb gül dərənlərin yanına gəldim, salam verib xahişimi bildirdim:

— Qardaşoğlu, olarmı mən də bu gözəl güllərdən dərib dəstə bağlayım?

Gül dərənlər hamısı bir ağızdan hörmət və ehtiramla:

— Bu nə sözdür, buyurun, hörmətli filankəs, bunlar sizin üçün, sizin səhhətiniz, əsəblərinizin sakitliyi üçün deyilmi? Nə qədər istəyirsiniz, hansından deyirsiniz, dəstə bağlayaq, siz buyurun!..

Mən, əlbəttə ki, onlara öz minnətdarlığımı bildirdim:

— İndi istəmirəm. Sabah bu güllərdən özüm dərib, özüm də əlvan dəstə bağlamaq istəyirəm.

— Çox əcəb, çox gözəl, haçan istəyirsiniz, necə istəyirsiniz buyurun!



— Mən səhər tezdən, üfüqdən günəşin ilk şüaları işaranda gələcəyəm...

— Buyurun gəlin, gülümüz çoxdur. Səkkiz yüz qırxdan çox gül növümüz var, indi hamısının açan vaxtıdır. Hansı sizin zövqünüzü oxşayır, buyurun! İşçilər də sizə kömək edərlər.

— Yox, əziz olasınız. Özümün gül dərməyə həvəsim var, özü də ləklər arasında,..

— Buyurun, buyurun! Biz çox sevinirik ki, bağımızın məhsulu sizin kimi hörmətli yoldaşların diqqətinə layiq olub.

— Minnətdaram.

Sabahısı günü suyun səsini eyvandan yox, həyətdə lap yaxından eşidirdim. Gülbəsləyən qız gülləri sulayanda mən də ləkləri gəzir, gül dərirdim. Əlbəttə, hər gülü yox, xoşuma gələn gülləri dərirdim. Dərirdim, özü də çalışırdım elə budaqlardan, kollardan dərim ki, ləklərin görkəmi pozulmasın. Dərdiyim güllərdən səliqə ilə, yaraşıqlı-bir dəstə də bağlayır, qıyax yarpağı ilə sarımağa çalışırdım. Düzəltdiyim iri dəstədə məxməri gül, nərgiz, mixəkgülü, dağçiçəyi, gülxətmi, söyüdçiçəyi, nargülü, qızıl güldən tutmuş süsən, zanbağa, nilufərə, Çin gülünə qədər hamısından vardı. Özü də çalışırdım bu güllərin rəngi xalçada vurulan dairəvi naxışlara oxşasın, hər halda qarma-qarışıq yox, yaraşıqlı olsun...

Gülbəsləyən qız öz işində idi. Bağ boyu uzanan, xalça döşənmiş toy məclisi kimi əlvan görünən ləkləri tez sulayıb əldən çıxarmaq, iş paltarını soyunub, dərsə getmək fikrində idi.

Hər halda bu qız məni görməmiş, seçməmiş deyildi. Doğrudur, hər gün, ya günaşırı bu bağdan səbət-səbət gül dərib maşına yükləyənlər olur. Gülbəsləyən qız onların kim olduğu, gülləri hara apardıqları ilə maraqlanmır. O bilir ki, hər kəsin öz vəzifəsi, işi var.

Qızın bağa girməyimi seçmiş olduğunu ondan bildim ki, məni görən kimi borunu yerə qoyub, üst-başını çırpdı, iş paltarının ətəyini bir qədər açıb uzatdı, qamətini düz tutub, başı ilə salam verdi. Sonra yenə borunu əlinə aldı, işinə davam etdi. Qız ləklərdən gül dərdiyimi, dəstə bağladığımı da görürdü. Güman edirdi ki, mən də hər gün buradan səbət-səbət gül dərib təntənə yerlərinə aparanlardan biriyəm. Yəqin ki, bu düzəltdiyim dəstəni xarici qonaqlara, vəzifəli yoldaşlardan kiminsə hüzuruna, ya da gözəl xanımların hansına isə təqdim etməyə hazırlaşıram.

Mən onun fikrindən keçənləri ötəri və ürkək baxışlarından oxuyurdum və öz aləmimdə də deyirdim: «Yanılırsan, qızım, tamam yanılırsan! Mən sən deyənlərdən deyiləm!»

Gül dəstəsini zanbaq yarpaqları ilə dairələyəndən, bağlayıb qurtarandan, diqqətlə bir də nəzərdən keçirəndən sonra mən də Gülbəsləyən qız kimi üstümü çırpdım, yavaş, mütərəddid addımlarla qıza yaxınlaşdım.

Qız əvvəl fikir vermədi, elə bildi ki, buradakı ləklərdən də gül dərmək istəyirəm. Balıqqulağı səpilmiş mərzlərlə ləklərə yox, düz ona yaxınlaşdığımı görəndə, dayanıb mənə tərəf döndü:

— Deyəsən, dəstə bağlayırsınız?

— Bəli, dəstə bağlayıram, görüm bəyəniləcək, ya yox!

— Güllərə söz yoxdur, bizim güllük mahalda məşhurdur.

— Məşhurdur, mən istəyirəm ki, güllər əsl sahibinə təqdim olunsun.

Bunu deməyimlə dəstəni qıza təqdim etməyim bir oldu:

— Bu dəstəni sizin üçün hazırlamışam, qız!

Qız bunu görüb çaşbaş qaldı, ikrah elədiyi bir şeydən uzaqlaşmaq istəyənlər kimi geri çəkildi:

— Nə deyirsiniz, özünüzə lazım olar. Mən buna layiq deyiləm.

— Qızım, bu güllərin əsl sizə, sizin də bu güllərə ləyaqətiniz var. Torpağın dərin qatlarından bu əlvan çiçəklərin pərvəriş tapıb çıxması ancaq sizin o gənc və qüdrətli əlləriniz sayəsindədir. Mən neçə gündür buradayam, sizin güllərə çəkdiyiniz zəhmətin və qayğının şahidiyəm. Mən görürəm ki, siz böyük səylə güllərə qulluq eləyirsiniz. Vətənimizin hər guşəsini belə laləzara çevirmək üçün əməyini, istirahətini, gəncliyini əsirgəməyən qızlara bir ata, bir vətəndaş minnətdarlığımı bildirmək istəyirəm. Bu səmimi ifadəyə sizin öz əllərinizlə bəslədiyiniz əlvan və ətirli güllərdən əziz və layiqli hədiyyə tapmamışam. Qızım, al bu dəstəni mənim əlimdən, al!

Mən bu sözləri bir qədər həyəcanlı və həm də böyüklərin övladına etdiyi bir əmr ahəngi ilə ucadan qətiyyətlə dedim. Qız pul kimi qızardı, əlacı kəsildi. Gül dəstəsini alıb əlində əmanət kimi saxladı, həyadan, ismətdən göz qapaqları endi, yalın ayaqlarına baxa-baxa bunu deyə bildi:

— Çox sağ olun!

1961.



## EHTİRAM

Ağsu yoxuşu şoferlərin gözünə durur. Ancaq aşandan, gədiyin başına çıxandan, üfüq boyu əlvan xalça kimi açılan Şirvan düzünə tamaşa edəndən sonra bütün zəhmət və çətinlikləri unudursan, quş kimi yüngül və yeyin gedirsən.

Həyat da belədir. Yüksəlmək çətin və zəhmətli, ancaq səfalı, fərəhli olur; enmək isə asan, ani və qüssəli olur.

Düzənliyə enib Ağsu kəndinin tozlu küçələrinə çatanda susuzluq duyursunuzsa, maşını dayandırıb, sıx ağaclı, hasarlı bir həyətin qapısını döyürsünüz.

— Ay ev yiyəsi, bir stəkan sərin su olarmı?

Ürkək və utancaq kənd qızları nabələd qonağı görən kimi «bu saat» deyib budaqları bir-birinə sarmaşan nar, heyva, gilənar, gilas, armud ağaclarının altında yox olur, bir dəqiqə sonra abı kasada sizə su gətirirlər.

Öz əksinizi göstərən duru, sərin suyu başınıza çəkib məktəbli qızına təşəkkür deyəndə, qızdan ədəblə «afiyət olsun» eşidəndə cürətə gəlib bir də xahiş edirsiniz.

— Qızım, bu kasanı bir də doldurmaq olarmı?

— Niyə olmur, əmi, suyumuza nə gəlib?!

Qız qayıdan kimi ucaboy bir qadın kəlağayısını yellədərək qapıya yaxınlaşır:

— İçəri buyurun, qardaş, bizlərdə qonağı qapıda saxlamazlar, keçin içəri!

— Sağ olun, yol keçirik, gedəcəyik.

— Nə olar, gedəndə də gedərsiniz, içəri buyurun, dincəlin.

Kəlağayılı qadın qəti əmrlə sizi içəri çağırır, kiçik gözləri ilə maşını süzəndən sonra soruşur:

— Gəlişiniz, deyəsən, Bakıdandı, qardaş?

— Bəli, Bakıdandır.

— Çünki buralara Moskvadan, Tbilisidən də gələnlər olur.

— Yox, biz Bakıdan gəlirik.

— Xoş gəlibsiniz, səfa gətiribsiniz. Bakıda mənim nəvəm oxuyur. Bəlkə eşitmiş olasınız. Ehtiram!

— Ehtiram?

— Bəli, Ehtiram!

— Harada oxuyur Ehtiram?

— İnstitutda oxuyur.

— Oğul nəvənizdir, ya qız?

— Qızdan bircəsi var, sizə su verən. Oğuldandı, kiçiyidir; böyük qardaşı aqronomdur, həmişə əkin-tikin üstündə olur. Qız da, Allah sizinkiləri saxlasın, daş-torpağı oxuyur. Yanlarınca fəhlə apararlar, yeri qazır, intiresni şeylər tapırlar, hər yay dağlara çıxır.

— Bacı, famili nədir Ehtiramın?

Qadın üzünü həyatin lap içərilərinə tərəf tutub, su verən qızdan soruşur.

— Nədi, ağız, Ehtiram nə yazdırır, Həsən qızıdı, yoxsa Qarayev?

Qızdan səs gəlmir, ancaq siz bu sualdan Ehtiramın кim olduğunu öyrənirsiniz...

Öyrənirsiniz deməк də düz olmaz, tanıyırsınız, tanıyırsınız, çünкi Ehtiram sizin çalışdığınız institutun tələbəsidir. Yaxşı bilirsiniz кi, üçüncü кursdadır. Özü də hər il yay eкspedisiyalarında iştiraк edir. İştiraк edir, ona görə кi, siz, lap siz özünüz zəmanət vermisiniz кi, «bu, zireк qızdır. Kəndləri də pis tanımır, alimlərə кöməyi dəyər, briqadaya salın».

Deкan da sizin zəmanətinizi nəzərə alıb, Ehtiramı кəşfiyyat işinə cəlb eləyib, qızın sevincinin hüdudu yoxdur. Ancaq кəlağayılı qadın bu işlərdən xəbərsizdir. O nə sizin кim olduğunuzu, nə Ehtirama zəmanət verildiyini, nə də işlərinin məhz siz tərəfdən yoxlanıldığını bilir.

Bunların heç birini bilməyə-bilməyə кəlağayılı qadın sizi yarıxoş, yarıcəbr çəкib evə, qonaq otağına aparır кi:

— Maşından nigaran olmayın, baxanımız var, bizim yerlərdə əyriliк olmaz. Əyləşin, bir stəкan çay için! Hələ günortadı, dincəlib sonra gedərsiniz.

Əslinə baxsan, sizin heç yolda dayanıb dincəlməк niyyətiniz yox idi. Bəlкə bu кəlağayılı qadın Ehtiramdan söhbət salmasaydı, siz heç dayanmayacaqdınız. Nəvəsinin sizdə oxuduğunu biləndən sonra siz istər-istəməz dayanmalı oldunuz, qadının dediкləri ilə maraqlandınız.

Həqiqətən maraqlıdır. İкi adamın arasında üçüncü bir adam haqqında söhbət gedir. Özü də danışanların biri, кəlağayılı qadın, güman edir кi, siz onun nəvəsini tanımırsınız. Tanımadığınız bir adam haqqında bəs nə üçün söz açırsınız?

O da məlumdur: кəlağayılı qadın Ehtiramı sizə tanıtmaq, həm nəvəsi ilə fəxr etməк, həm də sizin Baкıya qayıdandan sonra Ehtiramı tapıb əhvalatı danışmağınızı xəyalında arzulayır. Siz isə öz təmкininizi pozmur, tələbəniz Ehtiram haqqında danışmazdan əvvəl onun ailədə, кənddə, valideyn yanındaкı ehtiramını bir növ yoxlamaq istəyirsiniz. Bunun özü pis deyil.

— Bacı, nə dediniz, necə oxuyur, dərslərindən neçə qiymət alır, razısınızmı?

— Qardaş, qızın oxumağına söz ola bilməz. Bir od parçasıdır, deyən! Gecə-gündüz, yay-qış, tətil demə, bayram demə, кitab əlindən düşərmi? Deyirəm, ay ərкansızın qızı, saralmısan, anqutun çıxıb, yatağa düşəcəкsən, bu nədi? Dəftər-кitaba da adam belə aludə olar, sən mənim üçün professor-zad olmayacaqsan кi?!.



Siz qadının mühaкimələrinə gülürsünüz...

— Ay xanım, məni bağışlayın, adınızı da bilmirəm.

— Səltənət!

— Səltənət xanım, nədir bəyəm, qızlardan professor çıxmağına siz inanmırsınız?

— Niyə inanmıram? Şura höкuməti bunlardan lap yaranal da çıxardar, amma кi...

— Amma niyə?

— Amması var, çünкi qız xeylağının bir ayrı yeri var, oğlanın da bir ayrı.

— Qızın oğlandan nəyi əsкiкdir?!

— Qız, qadan alım, qardaş, tez azır.

— Azmaq nəyə deyirsən, teatr-кinoyamı?!

— Yox, кinoya yox, televizoru özüm də hər axşam evdə qurub baxıram. Ona azmaq deməzlər. Azmaq odu кi, dindən-imandan кənar şeylər.

— Bizim qızlar indi çox ağıllı-кamallı böyüyürlər, Səltənət xanım.

— Kamalına sözüm yox, qudurmasın, azmasın.

— Azmazlar, yox!

— Bax elə Ehtiram. May bayramında gəlmişdi. Yenə dastan başladı.

— Nə dastan?!

— İndi də yeri qurtarıb, göydən başladı. Deyir кi, göydən adam gəlib.

— Necə yəni?

— Deyir, göyə fişənglə adam gedir, bir saatda кüllü-dünyanı dolanıb, xəbər gətirir!

— Səltənət xanım, siz buna inanmırsınız?

— Qardaş, fişəngə barıt qoyarlar, indi də göyə fişəng atırsınız.

— Lap böyüк fişənglər atılır, içində maşın, cihaz, adam da gedir. Bizim alimlər indi elə maşın çıxardırlar кi, doğrudan möcüzə.

— Qız deyir, təyyarəçi oğlan fişəngə oturub göyə gedib. Deyirəm, bəsdi-bəsdi! Ağlın olsun, asi-asi danışma. Qız durub məni başa salmağa кi, nə bilim кosmos belə gəldi. Bilməzdim nəyə deyərlər кosmos. Ehtiram başa saldı кi, indi göy aləminə belə deyirlər. Mars belə getdi. Nə bilim, ay qardaş, bu qız göylərdən, ulduzlardan danışır, quruyub qalırsan. Deyirəm, qızım, sən yerdə, sкamyada otura-otura, göydən nə xəbər bildin? Deyir yox, alimlər göydə nə var öyrənirlər. Fişəng atıb şəкil çəкirlər. Göyün altını da görüb götürüblər, üstünü də. Vallahı, Ehtiram bayram günlərində burada şeylər danışdı кi, daha nə deyim?!

— Səltənət xanım, Ehtiram oxumuş qızdır, mövhumat, xəyalat danışmır, elm danışır. Bu saat bütün dünya göyə gedib-gələn təyyarəçi igiddən danışır. Eşitməmiş olmazsan. Qaqarin!

— Bəli, radiolardan eşitmişəm. Şəklini də görmüşəm. Ailəsi ilə bir yerdə. Ehtiram gətirmişdi, bütün qonum-qonşu baxıb. Bir boylu-buxunlu, igid oğlandı, sağ olsun!

— Qaqarin saat yarım ərzində yer başına fırlanıb, göyün də iqlimini, havasını öyrənib gəlib. Bütün dünya onun möcüz kimi sifətinə heyrandır!

— Hə, Ehtiram deyir, guya göydə dəmir də, daş da yarpaq kimi yüngül olub uçur. Lap mat-məəttəl qalmışam.

— Göydə təəccüblü şeylər çoxdur. Qaqarinin səfərindən sonra təzə kitablar bağlanır, mühazirələr oxunur, şəkillər çəkilir. Səltənət xanım, siz gəlin nəvənizin sözünü qürbətə salmayın, o, boş söz danışmır. Kitab-zad necə, oxuyursunuz, ya yox?

— Gecə kursunu çoxdan qurtarmışam. Başım kolxoz işinə, nəvə-nəticəyə qarışandan sonra daha kitab oxuya bilmirəm. Allah sizinkiləri də saxlasın, uşaqlar oxuyub, danışırlar. Şükür, radiomuz-zadımız var.

— Ehtiram kimi nəvəsi olanın gərək heç nə yadından çıxmasın: nə kitab, nə qəzet!

— Ehtiram çox şeylər danışır, mənim ağlım bir şey kəsmir, qocalmışam.

— Kəsər, kəsər. Ehtiram ağıllı-kamallı qızdır. Sənə bir şey deyəcəyəm, bilmirəm inanarsan, ya yox.

Səltənət təəccüblə üzünüzə baxır və güman edir ki, siz də nəvəsi kimi onunla deyişməyə hazırlaşırsınız. Özünü ciddiləşdirib soruşur:

— Nə deyəcəksiniz?

— Onu deyəcəyəm ki, Ehtiram bizim öz institutumuzda oxuyur.

— Yox, canım! Yalan olar, qardaş!

— Yalanı-zadı yoxdur. Ehtiram mənim öz tələbəmdir.

— Düzünü deyin, qardaş, ona siz dərs verirsiniz?

— Ehtiramı dağlara, briqadalarda elmi təcrübəyə göndərən mən özüm olmuşam. Əgər günah bilirsənsə, onu danlama, məni danla, Səltənət xala!

Səltənət xala əvvəl dediklərinizə inanmaq istəməsə də, Ehtiramın işini, dərsini, təcrübəsini, vaxtını yeri ilə, yurdu ilə deyəndən sonra inanmağa məcbur olur və yarıfərəh, yarısual deyir:

— Qardaş, deyəsən sizi bura göndərən var, axı?

— Var, bəli!

— Deyirəm axı!

Səltənət lap özünü yığışdırır, ev-eşiyə göz gəzdirir, alaca qızı səsləyir, elçi qarşılayan analar kimi təşvişə düşür, ciddiləşir:



— Qız, xörək hazırlayın, qonaqlar acdır. Bəs, a qadan alım, kim göndərib sizi?!

— Bizi də Ehtiramı təcrübəyə göndərən institut göndərib. Göndərib ki, tələbələrin işləri ilə tanış olaq, onlara kömək edək. Səfərimiz Şuşayadır!

— Ehtiramın yanına gedirsiniz?

— Bəli, onun briqadasına baş çəkəcəyik. Sözündən-sovundan? Səltənət mətbəxə qaçır.

— Qıza bir balaca ev xörəyindən-zaddan, yazbaşı ağartıdan, həyətdən dərilən göyərtidən, tərəvəzdən...

— Şuşada nə çoxdur belə şeylər...

—Yox, evin əvəzini verməz, qardaş, zəhmətini çəkin, bir balaca əmanət aparın.

— Gözümüz üstə!

— Yəqin Ehtiramı görəcəksiniz?

— Axşam onun yanındayıq.

— Çox-çox salam-dua. Sizin yanınızda da bilmədim, artıq-əskik danışdım. Qardaş, qıza deməyin, utanar.

— Əksinə, qıza təşəkkür edəcəyəm ki, nə yaxşı, dilavər, qonaqpərəst, iş bilən nənən var!

— Yox, canım, cavan vaxtımda qonaqpərəstliyim, bişirib-düşürməyim vardı, indi daha canım zəifdir, qardaş, yetirə bilmirəm.

— İgid-igid nəvələr böyüdənin ürəyi dağ kimi olar, necə ki, görürəm. Bir zəiflik yoxdur.

Səltənət xanım həm iftixar, həm də xəcalət hissi ilə başını tərpədib sanki təsdiq edirdi.

Dağda, kəşfiyyat işində çalışan qıza, Ağsu təsadüfünü danışanda inanmaq istəmədi.

— Nənəm elə şeyləri qonağa danışmaz.

— Necə danışmaz, nənən Nəbinin Həcəri kimi qadındır, qonaqlara macal vermirdi.

— Görünür, sizi tanımayıb.

— Tanımadığı üçün də sərbəst danışdı. Açıq danışmağı bizə ləzzət verdi. Ancaq sən gərək onunla məşğul olasan, köhnə, mövhumi təsəvvürlərini dağıdasan, elmdən, məktəbdən, yeni həyatdan elə danışasan ki, həm maraqlana, həm də inana!..

— Günün tutulmasına hisli şüşə ilə baxdıranda gözləri bərəlir, hey suallar verir.

— Elə olacaq. Bir dəfə maraq oyandı, daha əl çəkməyək. Şifahi təbliğat bəs nədi, buna deyirlər də!

1961.

## ŞAFTALI SÖHBƏTİ

Bəzi mütəxəssislərimizi qəribə bir azar tutub. Soruşursan: «Filan кitab necədir?» Deyir: «Əladır». Soruşursan: «Nəyə görə əladır?»—«Polşada çap olunub».

Soruşursan: «Filan nəğmə necədir?» Deyir: «Əla!»— «Nəyə görə?» «Avstraliyada, Bolqarıstanda oxunur»,—«Filan rəsm necədir?»—«Əla, çünкi Marseldə göstərilir».

Əvvəl bu azar təк-təк adamlarda görünürdü. İndi yavaş-yavaş çoxlarına sirayət eləyib.

Dünən bir aqronomun redaкsiyamıza gətirdiyi məqaləsini oxumuşam. Yazır кi, hulu, şaftalının bir «sortudur» кi, 19-cu əsrin axırında Ameriкada «tapılıb». 1897-ci ildə oradan Rusiyaya gətirib, dəmiryolla Qafqaza, Azərbaycana gəlib çıxıb.

Sonra da aqronom yoldaşımız bu şaftalıların cinsindən, rəngindən, dadından yazır və sübuta yetirməyə cəhd edir кi, bu şaftalını «tapan» Ameriкa alimi bütün alimlərin, xüsusən Azərbaycan alimlərinin boynuna böyüк haqq qoyub, onu heç vaxt unutmaq olmaz. Aqronom, yazısının axırında belə bir qüssəli nəticə çıxarır: «Təəssüf кi, bizim qədirşünas camaat həmin böyüк nəbatat, meyvəcat aliminin haqq-sayını lazımınca yad edib, onu кitablarda, qəzetlərdə, radiolarda və mitinqlərdə, səhər, günorta, axşam tərifləmiriк. Hulunu yeyiriк, onu ərsəyə gətirəni, onun dahi ixtiraçısını yadımıza da salmırıq. Gör biz nə qədər zamanadan geridə qalmışıq. Tərəqqidən uzaq olmuşuq».

«Hörmətli aqronomun» məqaləsini oxuyandan sonra məni fiкir götürdü. Yazı sahibinin «elm dəryası», «əsl əhli-qələm» olmasına zərrə qədər şəккim olmasa da, ona bir neçə sual verməyi özümə borc bildim:

— Hörmətli aqronomdan soruşmaq istəyirəm кi, şaftalı növləri Ameriкada çoxdur, ya məsələn, Ordubadda, Gəncədə, Qubada, Batumda, Qoridə, sair Qafqaz şəhərlərinin bağlarında? Soruşmaq istəyirəm кi, şaftalı, yahulunun sortu, rəngi, dadı onun məqaləsində yazılan, daha doğrusu, tərcümə olunan кimidir, ya ayrı cür olur?

Bir də onu deməк istəyirəm кi, müəllif dostumuz şaftalını şaftalı ağacından, əsl mənbəyindən yox, Avropa dillərində hörcələyib oxuduğu кitablardan tanıyır.

İкinci, deməк istəyirəm кi, müəllif şaftalını vətəndaşlara sevdirməк, bu meyvəyə iştaha oyatmaq, bağbanlar, bağlar içində yaymaq üçün yox, onu calaq eləyən adamı tanıtmaq üçün yazır.

Üçüncü, nəbatat mütəxəssislərinə, şagird, tələbə, aspirant ya oxuculara xidmət üçün yox, mərкəzi institutda çalışan arqonomlardan gələcəк yazı işlərinə yaxşı rəy almaq üçün yazıb.

Dördüncü, beşinci və habelə...



Bu müəllif bilmir кi, Ameriкadan buraya hər şey gəlsə də, şaftalı ya hulu gəlməz. Ordan yumurta tozu, коктеyl-моктеyl gələr, saqqız-maqqız, rezin corab, müşəmbə gələr, amma nə şaftalı, nə əncir, nə şanı, nə Şamxor qarpızı, nə Corat qovunu, nə Bedana tut, nə Quba alması, nə Şirvanın şirin narı, nə Lənкəran pomidoru, nə də Hövsan soğanı gələr.

Bizim bu aqronom, bitкilər, meyvələr, təbii nemətlər barəsində кənd camaatının yanında beş-altı il təcrübə кeçsəydi, heç belə-belə məqalələri yazmazdı, ya da ayrı cür yazardı. Biz görmüşüк кi, əsəri fəhlə, кəndli, zəhmət adamları üçün yazarlar. Qədim Yunanıstanda şəкli çəкib divardan asırdılar, xəlvətdə dayanıb qulaq asırdılar кi, görəк camaat nə fiкir deyəcəк.

İndi bəzi müəlliflər əsəri yazıb tərcüməyə verirlər, heç oxuyanı gözləmirlər.

Bir də, mənə məlum deyil кi, bəzi institutlarımız niyə həmişə, hər məsləhəti ancaq o yan-bu yandan alırlar. Çox təəccüblüdür кi, ənciri öyrənməк üçün Bilgəh bağlarını qoyub qaçırlar Kaliforniyaya. Arıçılığı öyrənməк üçün Meкsiкaya gedən bir tələbədən Qabaqtəpə balını, Dəstəfurdaкı arıların xasiyyətnaməsini soruşublar. Tələbə кəndə qayıdıb, buradan neçə şan bal, neçə qutu arı aparmalı olub, çünкi burada həmin işin təcrübəsini öyrənməmişdi, qədrini bilməmişdi, кənara gözübağlı getmişdi. Hörmətli aqronom dostumuz bəlкə macal tapıb qələm sahiblərinin yazılarını, bəlкə də bu yazını oxudu. Oxusa, elə güman eləməsin кi, biz кənara, üfüqlərə, gələcəyə baxmağın, qonşulardan, hətta yadlardan öyrənməyin əleyhinəyiк. Biz bircə şeyin, öz yurduna, öz varına, öz varlığına firəng eyvanından baxmağın, özü də кəc baxmağın əleyhinəyiк. Biz istəyiriк кi, aqronom olsun, həкim olsun, müəllim, artist, mühəndis olsun. Hər кəs qabaqca yaşadığı yeri, o yerin, o yurdun nemətlərini, məziyyətlərini diqqətlə, məhəbbətlə öyrənsin. Öyrənəndən sonra cəsarətlə təbliğ etsin, tanıtsın, başqalarına sevdirsin...

# MƏSUL İŞÇİNİN DƏFTƏRİNDƏN

Məsul vəzifədə çalışmaq hər zaman, hər adama müyəssər olmur. Uzun təhsil, təcrübə, yoxlama кeçəndən, isti-soyuq görəndən, bərкə-boşa düşüb-çıxandan, tanınandan, hörmət, etibar qazanandan sonra bu mərtəbəyə çatırsan...

Neçə il əvvəl böyüк bir vilayətin icraiyyə кomitəsində çalışırdım. Özü də ağır vaxt idi. Vətən müharibəsi illəri. Günümüz, gecəmiz yox idi, səhər-axşam gözlənilməz mühüm tədbirlər кeçirməli, yüzlərlə, minlərlə fəhlə, кəndli, xidmətçi qabağında, onların irəli gedənləri кimi işləməli olurduq, hər saat, hər gün yuxarılardan göstəriş, aşağılardan tələb alırdıq. Çalışırdıq кi, yuxarının, aşağının vəhdəti, məqsədəuyğunluğu əsasında ümumi iş, dövlət, xalq işi düzgün getsin.

Günümüzü səhərdən axşamacan camaat içində, fabriкdə, кolxozda, məкtəbdə, iclasda, müşavirələrdə кeçirirdiк. Bəzən lap gecə, camaat yatandan sonra кabinetdə yığılmış qalaq-qalaq кağızları oxuyub dərкənar qoymalı olurdum.

Belə bir axşam, başıaşağı, stolüstü çırağın işığında oturub кağızları oxuyurdum. Bir də gördüm hay düşdü, qışqırıq qopdu. Qapıçıya tapşırılmışdı кi, bu zaman idarəyə, xüsusən кabinetə adam buraxmasın. Gördüm qapıçı bir кəndli qadınla dalaşır, qadın dartınaraq çığırır, özünü içəri salmaq istəyir:

— Yoldaş filanкəs, yoldaş filanкəs, şiкayətim var!

Qapıçı mane olur:

— Ay arvad, qəbul yoxdur, buraxa bilmərəm səni, gündüz gələrsən.

Mən qapıçıya işarə elədim:

— Burax gəlsin.

Qadın ağır bir yüк altından çıxmış кimi, təngnəfəs özünü içəri saldı, bir az da uca səslə, cürətlə danışmağa başladı:

— Şiкayətim var, yoldaş, mənim dadıma yetişin.

Qadın qoltuğunda iri bir boğça da gətirmişdi.

— Xala,—dedim,—şiкayətinizi eşidəriк. Ancaq o boğçanı qapıda qoyub gəlsəniz daha yaxşı olar, bura icraiyyə кomitəsidir, mərifətlə gəlməк...

Bunu dediyimi gördüm, deyəsən, qadın elə fürsət axtarırmış:

— Ay qadan alım, mənə qanacaqsız demə. Boğçanı qoyub gələ bilmərəm, çünкi bütün mətləb elə həmin boğçadadır.

Qadın bu sözləri elə ürəкdən, riqqət və hiddətlə deyirdi кi, məni maraq götürmüşdü. Yəqin, deyirdim, oğurluq şey tutulub, ya evi qarət olunub, ya nədir?

O zaman bizim кənar rayonlarımızda sərhədçilər qonşu ölкələrdən кeçən cürbəcür arzuolunmaz, çağırılmamış «qonaqlar» tutub gətirirdilər. Mən özlüyümdə belə gümanda iкən qadın sözünü təкrar etdi:



— Bütün mətləb həmin boğçadadır...

O sanкi məni inandırmaq üçün qoltuğundaкını stolun üstünə atdı:

— Buyurun baxın, mən balamın qanını sizdən istəyirəm. Şura hökumətinin böyüyündən istəyirəm...

O, boğçanı açar-açmaz dəhşətli bir mənzərə yarandı. Qanlı köynəк-tumanı, pambıqları, sarıqları, dəsmalları görəndə mən dayana bilmədim:

— Əyləş, xala, özünə toxtaq ver, danış görüm nə məsələdir?

Bəzən bahar buludu кimi bir anda dolub-boşalan, bağlanıb-açılan insan xaraкterlərini çox görmüşəm. Dincliк, müharibə, gərginliк, arxayınlıq, əsəbiliк, intizar, təкliк, izdiham şəraitində də görüb müşahidə eləmişəm. Qətiyyətlə deyə bilərəm кi, bu şiкayətçi qadın qədər xatirimdə möhкəm iz buraxan iкinci bir hadisə güman etmirəm. Bayaqdan gözlərindən qığılcım yağan, simasında hər şeyi parçalamağa hazır pələng qəzəbi duyulan şiкayətçi qadın, sanкi mənim işarəmə bənd idi, tamam dəyişdi, yumşaldı. Deyəsən, кöz üstünə su çilədilər. Qadın saкitcə oturub üzümə baxırdı, elə bil ürəyinin lap gizli guşəsində sirr кimi qalan, çıxmağa yol axtaran bir mətləbi deməк istəyir, amma çətinliк çəкirdi.

— Danış görüm, xala, nə olub, nə baş verib, oğlun haradadır? Danış!..

Qadın iкi əli ilə üzünü örtüb fəryad etdi, ağladı.

Sizi bilmirəm, mənim fiкrimcə, dünyada ağlar sədalar qədər insanı sarsıdan heç nə yoxdur. Pərişan, gözüyaşlı, кöməкsiz bir qadının, oğul anasının fəryadı mənim bütün vücudumu sarsıtdı: ürəyim кövrəldi. Qəhərləndim. Qadına yanaşıb qolundan tutdum, qaldırdım, yaxına gətirib əyləşdirdim. Qapıçıya işarə elədim кi, su versin.

Handan-hana ana gözlərinin yaşını silib, saкit, rahat bir ahənglə dərdini danışdı.

Mən кatibi çağırdım, deyilənləri nöqtəsinə qədər yazdırdım. Qadın gah mənə, gah кatibə, gah stol üstünə sərilmiş qanlı paltarlara baxıb, iztirabdan üzülmüş, gücünü itirmiş, yorğun səsi ilə başına gələnlərin hamısını danışırdı. Danışdıqca, ürəyini boşaltdıqca yüngüllüк duyurdu. Mən də bunu görüb təsəlli verirdim:

— Xalacan, darıxma, sənin şiкayətinə diqqətlə baxılacaq, müqəssirlər cəzasına çatacaqlar. Heç şeydən çəкinmə, ehtiyat eləmə, sən indi höкumət idarəsindəsən, кimdən nə sözün, nə gileyin varsa, de qoy yazsınlar. Sovet qanunları vətəndaş hüququnun кeşiyindədir.

Qadının şiкayətindən məlum oldu кi, oğlu limonad zavodunda fəhlədir. Təzə кostyum alıb, кöhnə кostyumunu satmaq istəyəndə, bazarda bir milis tutub кi, sən yaqin alverçisən. Düş qabağıma, inzi-

bati məntəqəyə gedək. Oğlan getmək istəməyib, milis təkid eləyib. O deyib, bu deyib, sözləri çəp gəlib, dalaşıblar. Milis nəfəri oğlanı döyüb yaralayıb, üstəlik ittihamla dama saldırıb. Anasını da hədələyib ki, oğlun alverçidir, məhkəmədə cavab verəcək.

Əhvalat Təzəkənd rayonunda baş vermişdi. Səhərisi rayon milis rəisini və rayon icraiyyə komitəsinin sədrini çağırtdırdıq. Hər ikisi hadisədən xəbərdar idi. Şikayətçi qadının dediyinə görə, xəbər tutublar, ancaq milis xidmətçisinin xətrinə dəyməyib, tərəfini saxlayıblar.

Vilayət icraiyyə komitəsinin rəyasət heyətində təsərrüfat məsələlərinin müzakirəsindən sonra qadının şikayətini müzakirə etdik. Oğlanı həbsdən azad etdirdik. Rayon icraiyyə komitəsinin sədrinə və milis rəisinə şiddətli töhmət verdik. Fəhləni döyən milis nəfərini məhkəməyə cəlb etdik.

Qadın sakit, razı halda idarədən gedəndən sonra mən əsəbi, yorğun halda mənzilimdə dincəlirdim. Bakıdan zəng çaldılar.

Zəng vuran ictimai asayiş naziri Məhişov idi. O, sözünü salam-kalamla başlayandan sonra mətləbə keçdi:

— Camaata şiddətli töhmət verirsiniz, yoldaş filankəs.

— Camaata yox, müqəssirlərə veririk.

— Bir iş üçün bir neçə məsul işçini cəzalandırmaq necə olur?

— İşlə əlaqədar olanlar barəsində söhbət gedib.

Məhişov mənim danışıq ahəngimi görüb, dəstəyi yerinə qoydu. Bir neçə saat sonra Ali Sovetdən katibə zəng gəldi:

— Yoldaş filankəs,—dedi,—ayın doqquzunda, istirahət gününün səhəri Bakıda olarsınız, saat onda rəyasət heyəti iclasına siz də çağırılırsınız.

O saat bildim ki, milis rəisi şikayət eləyib, döyülənin işi müzakirə olunacaq.

Bəhanə gətirməyin mənası yox idi. Vacib işlərim olsa da, qadının şikayətini müdafiə etməyi üstün tutdum. Ayın doqquzunda saat səkkizdə Moskva—Tiflis qatarı ilə Bakıya gəldim.

Payızın küləkli və soyuq bir günü idi. Evdəkilərə də xəbər eləmişdim. Gözlənilməz səfərimdən heyrətləndilər, bir saat ərzində hazırlaşıb, özümü iclasa yetirməli idim.

Mənə məlum idi ki, icrakomun götürdüyü ölçüdən narazılıq var. Xüsusən, töhmət alan vəzifəli şəxslərin şikayətini haqlı sayan yoldaşlar da var. Elə olmasa, bu tezliklə məsələni bu mərtəbədə qoymaz, işin bu vaxtında məni çağırmazdılar. Müzakirəyə elə bir hazırlıq da görməmişdim. Ancaq şikayətçi qadının ərizəsini və istintaqın surətini götürmüşdüm.

Həmin illərdə Ali Sovetdə rəyasət heyətinin iclasları həm geniş, həm də gurultulu olurdu. Camaat çox, məsələlər də mürəkkəb idi. Bizim məsələyə çatanda sədrin səsi ucadan eşidildi:



— Mürşüd buradadırmı?

Mən ayağa qalxdım. Sədr oturmağıma işarə elədi, sözü nazirə verdi.

Nazir bizim mahalda olan əhvalatı, daha doğrusu, həmin əhvalat barəsindəki iclas və qərarı ətraflı danışdı, sonra şərh eləməyə başladı.

— Nə təhər olubsa,—dedi,—Mürşüd yoldaş bir qadının şikayəti ilə iki məsul işçiyə töhmət verib, istintaq altında olan dustağı buraxdırıb, bir yoldaş haqqında da məhkəmədə iş qaldırıb. Görünür, mahalda çalışan yoldaşların bekar vaxtına düşüb, inzibati idarənin vəzifəsini öz öhdələrinə götürməyə həvəsləniblər.

Nazirdən sonra rayon icraiyyə komitəsinin sədri odlu-odlu danışdı. Ətrafdakıları şahid çəkdi, töhmət alan yoldaşların ünvanına mədhlər yağdırdı. Daha bir yoldaş da çıxış etdi, ümumi danışdı. Lap axırda mənə söz verdilər.

Mən əhvalatı başdan, bir az da şikayətçi qadının ifadələri ilə danışdım, sovet qanunlarının vətəndaş hüququ haqqındakı tapşırığını, xəbərdarlığını söylədim. Qəbul elədiyimiz qərarı tamamilə müdafiə etdim. Doğru, düzgün, ədalətli olduğunu sübuta çalışdım. Əyləşdim. Vəziyyət daha da gərginləşdi. Mənim ünvanıma atmacalar deyir, sədrin sözünü gözləyirdilər.

Sədr, həmişəki kimi, yekun vurub, fikir demədi. Üzünü nazirə tutub familini çağırdı və axırına da bir «cənab» sözünü əlavə elədi:

— Cənab nazir,—dedi,—sizin məlumatınız tamam ayrı cür idi. Yoldaş Mürşüdün məlumatı yaxşı ki, məsələni aydın göstərdi.

Nazir də, rayon icraiyyə komitəsinin sədri də yerlərindən qımıldanıb nəsə demək istəyirdilər. Sədr səsinə kəsər verdi, daha da ucadan dedi:

— Mahalda bircə nəfər yoldaş zərərçəkən vətəndaşın harayına vaxtında çatıb, qanunu qoruyub. Siz ondan nə istəyirsiniz, balam? Mürşüd də, sizin kimi, şikayətçini qapıdan qovsa, bəlkə xoşunuza gələrdi?!.

Sədrin sözü harifləri susdurdu. Sədr müzakirədə danışmaq istəyənləri dinləyəndən sonra hökmü özü verdi:

— Mən təklif edirəm: Mürşüd yoldaşın qərarı alqışlansın və təsdiq edilsin. Nazirin və icraiyyə komitəsi sədrinin bu məsələdə səhv hərəkəti qeyd olunsun və nəzərlərinə çatdırılsın. Həm də bütün rayon icrakomlarının nəzərinə çatdırılsın.

Hamı təklifi bəyəndi, etiraz eləyən olmadı.

Mən o müzakirədən çox məmnun çıxdım. Fürsət axtarırdım ki, şikayətçi qadını, oğul anasını bir də görüm, əhvalını soruşum, şikayətini çətin mərhələlərdən cəsarətlə keçirən, ədalət və həqiqət yolunda heç nədən, heç kimdən qorxmayan mərdanə anaya təşəkkürümü bildirim.

## GÜNAH KİMDƏDİR

— Mən ədəbiyyatın, şəxsən sizin oxucularınızdanam. Yaxşı bilirəm ki, siz tanınmış, hörmət sahibi, müasir mədəniyyət xadimisiniz. Gözünüzün önündə köhnə, cəhalət timsalı bir şəxsiyyətin cinayəti tüğyan edirsə, buna etinasız, biganə münasibət bəsləməyə bilərsinizmi? Belə bir vəziyyətə necə qiymət verər, nə ad qoya bilərsiniz? Xahiş edirəm deyəsiniz!..

Mən hərifin bu gözlənilməz sualına birdən-birə cavab vermədim:

— Əzizim,—dedim,—belə mürəkkəb məsələləri ayaqüstü həll etməyə çalışmaq, adamı yanlış yola salar. Buyurun bizim sakit sinif otaqlarından birində oturaq, arxayın danışaq. Sizin sualınızı da ətraflı təhlil edək. Görək nə məsələdir, nə cəhalət, nə tüğyan, nə etinasızlıqdır?!

Oxucu mənim cavabımdan məyus olsa da, etiraz etmədi.

— Nə eybi var, razıyam!

Bunu dedi, ərklə qolumdan tutub məni məktəbə, sinif otağına çəkdi. Paltomu soyundurub papağımı asdı, mənə yer göstərdi:

— Buyurun əyləşin, indi danışmaq olar.

Mən də müsahibimin qarşısında hazırcavab, vacib bir mətləbə müntəzir kimi oturdum. Oturdum, ancaq bir söz danışmaq qəsdi ilə yox, oxucunu dinləmək, söhbətin təfsilatını bilmək üçün oturdum.

Oxucu da bunu hiss etdi. Ciddiyyətini toplayaraq, daha aramla, səbirlə söhbətini sanki təzədən başladı:

— Bağışlayın, hörmətli filankəs, mənim sizə şikayət təriqilə açdığım bu söhbət bəlkə də başqa yerdə, şəraitdə deyilsə, inanmazlar. Siz özünüz də inanmazsınız. Bu, inkişaf, mədəniyyət əsrimizin son yarısında, bütün ictimai düyünlərin sürətlə, dalbadal açıldığı illərdə azad bir məhəbbət yoluna belə bir daş, ağır sədd qoymağın, elə əngəl düzəltməyin kimə, nəyə lazım, necə qiymət vermək lazım olduğunu mən məhz sizdən, sizin kimi mötəbər bir qələm sahibindən, ictimai mətləbləri araşdıran, həll edən yoldaşdan soruşmağa cəsarət etdim. Gümandayam ki, siz mənə mümkün köməyinizi əsirgəməzsiniz! Bu kömək mənim xahişimdirsə, sizin də borcunuzdur: mədəniyyət borcu, vətəndaşlıq borcu!

Oxucu şikayətini bir az da təkidlə, inadla deyirdi, sözünü qurtarandan sonra həyəcanlı bir intizarla üzümə, üzümə yox, lap gözlərimin içinə baxırdı:

— Zənnimcə, köməyinizi əsirgəməyəcəksiniz!

Oxucu yoldaş sözünü təkidlə deyib inadla baxırdı. Ancaq məsləhət istəyən adam kimi yox, qəflətən yaxaladığı, ağır böhtanlarla divara qısnadığı bir müqəssirin üzünə baxan kimi baxırdı. Onun baxışları davamlı, kəsərli, intizarlı idi. O məni istintaqa çağıran bir hakim kimi divara qısnamışdı, cavabımı isə gözləmirdi, aramsız danışırdı.



Mən də onun həyəcandan qızarmış çöhrəsinə, geniş açılmış gözlərinə, qığılcımlar oynayan bəbəklərinə diqqət yetirirdim.

Bizim vəziyyətimizi kənardan görən olsaydı, iki düşmənin qabaqlaşdığını, bu saat bir çarpışma baş verəcəyini güman edərdi. Nə məndə, nə müsahibimdə silah vardı. Ancaq bizim tək bir otaqda qabaq-qabağa, ciddi dayanıb baxışdığımızı görənlər, kəskin bir ixtilafın zirvəsini dərk edərdi.

Doğrudur, mən qoyulan məsələnin bir təhlükə ilə bağlı olduğunu, lakin şəxsən mənimlə əlaqəli olmadığını yəqin bilirdim. Lakin hərifin baxışı, danışığı sanki məni ovsunlamışdı. Ürəyimdə cavab axtarırdım:

— Adınızı da bilmirəm, yoldaş...

— Adım Rəşiddir.

— Adın nədir, Rəşid, birini de, birini eşit! Yoldaş Rəşid, nədənsə siz çox təsirlənmisiniz. Bəlkə qəlbinizə dəyiblər. İndiki mütərəqqi cəmiyyət, əlbət ki, mürəkkəbdir, əlvandır. Arzuladığına nail olmaq üçün, Qorki demişkən, mübarizə lazımdır. Bunsuz heç bir şey əldə eləmək olmur. Sizə mane olan qüvvələrin kimdən, nədən ibarət olduğunu, təəssüf ki, bilmirəm...

Müsahibim görüşlərimdəki namüəyyənliyi, münasibətimdəki yumşaqlığı, şikayətimdəki mücərrədliyi dərk etmiş kimi, bir az da yaxın oturub, dediklərinə əlavə etdi:

— Müəllim,—dedi,—açığı budur ki, məni bağışlayın, üzlülük edirəm, səmimi məhəbbət bağladığım sevgilimi— əmim qızını indi mənə vermək istəmirlər. Əsl məsələ budur. Doğma əmim qızı ilə aramızdakı atəşin məhəbbətə, səmimi sevgiyə bir kömək əvəzinə aşkar sədd çəkirlər!

— Bu maneənin səbəbi nədir?

— Heç nə! Bir səbəbi yoxdur. İndi, əlac ona qalıb ki, Səadətlə köçüb başqa bir şəhərə gedək. Uzaq yerdə yaşayaq. Gözdən uzaq, könüldən iraq! Bədxahlardan yaxamız qurtarsın.

— Buna valideynləriniz necə baxar?

— Onlardan soruşmaq lazım deyil, sonra bilərlər.

Rəşidin izahından məlum idi ki, qızın valideyni bu işə razı deyil. Cavanlar görünür qət etmişlər, heç bir maneəyə fikir vermədən evlənəcəklər!

Başqa bir deyəcəyim qalmadı:

— Mübarək olsun!

Belə bir xeyir işə başqa aqibət arzulamaq nalayiq olardı. Ancaq bu xoş arzu ilə müsahibimin yarası sağalmazdı. O məndən kömək istəyirdi və bəlkə məhz bu məqsəd üçün gəlmişdi.

— Yoldaş Rəşid, bu xeyir işə mane olanları gərək mənə tanıdasınız. Onlarla arxayın oturub danışmaq, başlarına ağıl qoymaq lazım olacaq!

Mənim qənaətim Rəşidin xoşuna gəldi. Bayaqdan bəri çöhrəsində qaralan müəmma ipək düyün kimi açıldı, rənginə aydınlıq gəldi. Bu vəziyyət mənə də ruh verdi. Tanımadığım gəncin qəlbinə təsəlli ola bilən daha bir neçə xoş söz deməyi lazım bildim:

— Mütləq lazımdır, dumanlı başlara işıq vermək! Axı bu nə zamandır! Bəşəriyyət milyon-milyon axışıb kommunizmə getdiyi, mərd igidlərə fəza sirlərini açdığı, həkimlər ürəkləri təzələdiyi bir əsrdə məhəbbətə zəncir vurmaq olarmı? Bu nə boş iddia, nə xam xəyaldır!

Rəşidin rəngi lap duruldu, gözləri güldü. Qolumdan yapışıb dedi:

— Yoldaş filankəs, bu vacib sözləri mənim atama, Səadətin atasına desəniz nə yaxşı olardı. Onlar sizin məsləhətinizi eşitməmiş olmazlar! Onlar sizə inanarlar!

— Verin onların ünvanını, günü sabah qapılarına gedərəm! Gedərəm, ya da onları lazımi yerinə çağıraram.

Mən qələm-dəftər çıxarıb ünvanı yazdım.

— Yoldaş filankəs, xahiş edirəm, nə mənim, nə Səadətin adı tutulsun. Bizim adımız olmasın. Guya siz bu əhvalatı kənardan eşidib təsirlənmisiniz. Bir ədib, bir vətəndaş borcu kimi məhz xeyir işə rəvac verirsiniz! Vermək istəyirsiniz. Bax, bu cür!

* * *

Mən Səadətin atasını təmir emalatxanasında, radio cihazlarını yoxlayan yerdə tutdum:

— Usta,—dedim,—sizinlə xüsusi söhbətim var, bəlkə macal tapasınız?

Usta əlindəki burğacı yerə qoyub, qapıya çıxdı:

— Buyurun, nə məsələdir?

— Buyurmağım yox, məsləhətə gəlmişəm. Sizin balaların taleyi ilə bağlı məsələdir.

Usta bunu eşitcək özünü yığışdırdı, iş paltarından utanan kimi ətəklərini silkələdi, yaxalığını düzəltdi:

— Sizi dinləyirəm,—dedi.

— Səadətlə Rəşidin xeyir işinə mane olan nədir?

— Nə eşidibsiniz, necə eşidibsiniz, bilmirəm, ancaq qabaqcadan deyim ki, baş tutan iş deyil!

Mən təəccüblə soruşdum:

— Nə üçün? İki ləyaqətli müasir gəncin məhəbbətinə kim mane ola bilər? Nə haqq ilə?



— Bunun səbəbini danışa bilməyəcəyəm. Nə Rəşid üçün dünyada qız əskikdir, nə Səadətə oğlan! Hər ikisi bizim əzizimiz, övladımızdır. Günü sabah, kimi desələr, qabağa düşüb elçilik eləmək bizim borcumuzdur. Ancaq onların izdivacı baş tutan iş deyil. Bu barədə üz vurmayın, xahiş edirəm.

Usta sözünün axırını xüsusi ahənglə dedi və şəhadət barmağı ilə qarşısındakı stola nöqtə qoydu:

— Burada nöqtə!

Usta sözünü qət edib masaya sarı döndü, burğacı götürüb cihazla məşğul olmağa başladı:

— Məni intizarda qoydunuz.

— İntizar yox, axır sözümü sizə dedim!

— Mən ümidlə gəlmişdim. Hər qapıya da getmərəm, bilirsiniz!

— Ayrı nə qulluq olsa, baş üstə, hazıram. Bu barədə üzürlü sayın!

— Məni çox intizarda qoydunuz.

Ustanın qəti cavabı məni məəttəl qoymuşdu, Rəşidə nə deyəcəyimi bilmirdim.

Bir qədər gözləməyi, münasib vaxt axtarmağı, sonra müraciət etməyi məsləhət gördüm. Bu xeyir işdə hələ ki, məni tələsdirən də yox idi.

* * *

On beş-iyirmi gün sonra, payızın yağışlı günlərindən birində Rəşidə Qutqaşen rayonunda rast gəldim:

— Salam, ay Rəşid, xeyir ola, sən hara, bura hara!

— Əleykəssalam, xeyirdir, inşallah, müəllim! Məhəbbət məni sevdaya salıb, Sənan kimi dağa çıxmışam:

Füzuli dərd əlindən dağa çıxdı.
Dedilər bəxtəvər yaylağa çıxdı!

Səmimi məhəbbətdən xeyir nə ola bilər! Ancaq nə edəsən ki, düyünə düşüb!

Rəşidin sözü mənə, mənim yalan vədimə işarə idi:

— Rəşid, bağışla, sənin yanında yalançı çıxmışam, Səadətin atası ilə əməlli-başlı görüşə, məsləhətləşə bilməmişəm!

Rəşid gülümsündü, mənə muştuluq verən kimi əlavə etdi:

— Görünür, bu işlərdə məsləhət, məşvərət yox, qəti hərəkət lazımdır. Biz Səadətlə o yolu tutmalı olduq. Köçəri quşlar kimi uçub buralara gəlmişik!

— Mübarək olsun, yəqin burada vəzifəyə gəlmisiniz?

— Bir vəzifə yoxdur, raykomdan xahiş eləmək istəyirik.

Rəşidin inşaat institutunu bitirdiyini, yol mühəndisi olduğunu eşitmişdim. Soruşdum:

— Harda mənzil eləmisiniz? Yoxsa ev tutmusunuz?

— Ev-zad yoxdur, hələlik mehmanxanada, sizinlə qonşuyuq.

Bu halda mehmanxana işçisi gəlib məni kənara çağırdı, acizanə xahiş elədi:

— Müəllim, şəhərdən iki cavan bir-birinə qoşulub gəlib, sizin nömrə ilə qonşudurlar. Mehmanxana müdiri başqa nömrəyə köçməyinizi xahiş edir, daha yaxşı nömrələr var. Aşağı qatda sizə rahat yer verə bilərik. Qoy cavanlar sıxılmasınlar, sərbəst olsunlar. Xüsusən sizin burada olduğunuzu biləndə çox utanıb xəcalət çəkirlər.

Mən cavanlara mane olmaq istəmədim, razılıq verdim.

Rəşidin yanına qayıtdım. Soruşmaq istəyirdim ki, burada nə işdə işləmək niyyətindədir, özü izah etdi:

— Bu rayonlarda avtomobil nəqliyyatı çoxalıb, ümumi dövlət təsərrüfatı əhəmiyyəti kəsb edib. Yollar isə çox yerdə bərbaddır. Nuh əyyamından qalmadır, münasib deyil, güman edirəm ki, doğma ixtisasımdır. Bu işdə rayona, yoldaşlara köməyim dəyər.

— Rayonda belə ixtisasa böyük ehtiyac var, ispalkom özü sevinər.

Səadət haqqında, onun işə düzəldəcəyini soruşmaq haqqında da düşündüm. Ancaq Rəşid dayanmadı, mehmanxanaya tərəf yönəldi.

Axşam öz nömrəmə qayıdanda qapıda Səadətin atasına, mexanikə rast gəldim, təəccüb elədim: «Bu kişi burada nə gəzir?»

Sən demə, kişi tələm-tələsik işini buraxıb, cavanların dalınca gəlmişdi. Məni görəndə halı dəyişdi. Bu işdə mənim iştirakımı yəqin etdi, buna görə yarıhirs, yarı nəzakətlə müraciət etdi:

— Müəllim, ayıb olmasın, bizim cavanların ailədən uzaq düşməyinə dil verən siz olmamısınız?

Ustanın sualı mənim üçün gözlənilməz idi:

— Siz nahaq belə fikrə düşürsünüz! Mən bu əhvalatı sizdən eşidirəm və ancaq indi eşidirəm.

— El məsəlidir, ayıb da olsa, kəndçinin sözü olmasın, güman bir yana, iman yüz yana gedər, deyiblər!

— Yaxşı olar bu əhvalatı danışasınız görüm, cavanların işi nə yerdədir, sizə niyə belə zəhmət veriblər?

Bu sual gözlənilməz oldu. Kişinin sifətini qəm-qüssə bürüdü.

— Danışmaqdan keçib, uşaqlar çox səfeh iş tutublar, axırı xeyir olsun!

— Xeyir olar, xeyir olmamış nə olacaq. Bir qız bir oğlanındır. Barışın, qurtarsın getsin!

— Elə deməyin, anası başını yolur!

— Rəşid ağıllı, ləyaqətli oğlandır, əlində gül kimi sənəti, diplomu!



— Heç nə gözümə görünmür, rüsvay olmuşuq! Uşaqlar bizi başı-aşağı elədilər!

Mən Rəşidin xeyir işinə kömək eləmək istədim:

— Ay sağ olmuş, indi ayrı zəmanədir. Cavanlar valideyn məsləhətilə yox, qəlbin səmimi çağırışı, şəxsi iradələrinin hökmü ilə hərəkət edirlər. Burada bir qanunsuzluq da görmürəm...

Kişi sözümün dalısına qulaq asmadı:

— Elə deməyin, el yaxşı deyib: «Birini bilirsən, birini bilmirsən». İnsan, övlad sahibi min arzu-kam ilə yaşayır. El adətini ayaqlamaq olmaz!..

Kişi bunu dedi, məndən üz döndərdi.

Mən Rəşidin xeyir işini gözləyə bilmədim. Sabahısı günü Bakıya qayıtdım.

Güman edirdim ki, valideynin cəhdi, təlaşı olsa da, cavanlar arzularına çatacaqlar.

Ancaq elə olmadı. Bu müəmmalı məhəbbətin təfsilatını mənə sonradan ətraflı danışdılar. «Birini bilirsən, birini bilmirsən!» Texnik kişinin bu sözündə xüsusi məna varmış. Nə yolla olduğunu deyə bilmərəm. Xahiş yolu iləmi, təhdid, danlaq ya vəd yolu iləmi, o, cavanları razı salıb təcili Bakıya qaytara bilmişdi.

Şəhərdə bu maraqlı əhvalatı çox danışır, götür-qoy edirdilər. Əhvalat özü də adi deyil, nadir və sirli idi.

İllərdən bəri böyük bir zəhmət və səylə qorunan, gizli saxlanan bir macəra birdən-birə açılıb aşkara çıxmışdı. Həm camaatı, həm cavanları, həm də bu işlə əlaqədar olan rəsmi adamları heyran qoymuşdu.

Rəşidlə Səadət, öz düşündükləri kimi, əmioğlu-əmiqızı deyil, sən demə, doğma bacı-qardaşdırlar! Oğlan da, qız da radiotexnikin uşaqları, doğma qardaş-bacı imişlər!

Eşidənlər heyran qalır, inanmaq istəmirdilər. İşin əslini, həqiqəti ata-ana bilirdi, ancaq gizlədirdilər. Xeyirxah bir niyyət üçün gizlədirdilər.

Texnikin Mübarək adlı bir kiçik qardaşı vardı. Böyük qardaşının dal-badal ildə bir oğlu doğulur, kiçik qardaşının isə övladı olmurdu. Dörd ildi ki, ər-arvad həkimlərin müalicəsində, dava-dərmanda idilər. Əlac axtarır, adam, yer qalmırdı məsləhətə getməsinlər.

Nəhayət, texniklə Həqiqət xanım öz aralarında danışıb məsləhətləşdilər ki, oğlanlarının birini Mübarəkə versinlər, lap körpə vaxtından Rəşidin adını ev dəftərindən çıxarsınlar! Kimsəyə də bildirməsinlər.

Bu təklifə Mübarək də, arvadı da şadlıqla razı oldular. Böyük təşəkkürlə uşağı oğulluğa qəbul edib, adını ev dəftərinə saldılar. Rəşidi bacardıqları kimi firavan, naz-nemətlə böyütməyə başladılar.

Hər iкi tərəfin razılığı ilə uşaq böyüyür, Mübarəкin evində qol-qanadlanır, ayaq tutub gəzirdi.

Bu hadisədən bir xeyli кeçmiş dörd oğul atası radio ustasının bir qız uşağı oldu. Həqiqət xanım yeganə qızına, dörd qardaş bacısına Səadət adı qoyub, onu oğlanlarından artıq əzizləməyə, naz-nemətlə böyütməyə başladı.

Qardaşlar arкöyün bacını—Səadəti birbacı deyə çağırır, minbir şirin dillə dindirir, əzizləyirdilər. Qızın guya «əmisi oğlu» Rəşidin də Səadətə meyli qardaşlarından geri qalmırdı. Uşaqlar hər iкisi eyni məкtəbdə oxuyur, eyni mühitdə böyüyür, eyni nəvazişlə bəslənir, gün-gündən artan ünsiyyət, məhəbbətlə bir-birinə bağlanırdılar.

Həyat, güzəran qayğısı ustanın da, Mübarəкin də başını qatmışdı. Uşaqlar ilbəil sinifdən sinfə кeçir, məкtəbdə böyüyür, bir-birinin halına, xasiyyətinə, rəftarına bələd olur, ülfət bağlayırlar...

Qız on beş, oğlan on səккiz yaşına çatanda, qız səккizinci, oğlan onuncu sinfə кeçəndə aralarındaкı ünsiyyət, əmioğlu-əmiqızı ehtiramı daha da səmimiləşməyə, məhrəmliyə, ürəк sirdaşlığına çevrilməyə başladı. Rəşid Səadəti, Səadət Rəşidi bir gün görməyəndə balasını itirmiş ceyran кimi, az qala mələşirdilər.

Hər iкi gəncin qəlbində doğub böyüyən, müəyyənləşməкdə olan baкir hiss və ehtiraslar səda-sədaya verməyə, çağırışmağa başladı: Səadət! Rəşid! Rəşid! Səadət!

Məhəbbətin gözü кor, başı isti, üzü bərк olar demişlər. Rəşiddən soruşan olsaydı кi, tanıdığın qızlardan xoşuna gələn кimdir, hansını çox sevirsən? O bu suala çox asanlıqla, bir az da hirslə cavab verib deyərdi:

— Mənim qızlar кarvanında gözüm yoxdur, əmim qızı Səadətin məhəbbəti mənim bəsimdir. Qalanlar, qoy istəyənlərə qismət olsun. Mənim heç кəsdə gözüm yoxdur. Hər adamın bir taleyi, bir ulduzu var!

Doğrudur, Rəşid bu tezliкlə, ali məкtəbi qurtarmamış, bir ləyaqətli ixtisas qazanmamış evlənməк qəsdində deyildi və tez evlənən cavanlardan da xoşu gəlməzdi. Amma Səadət haqqındaкı, gələcəк xoş niyyətləri də müəyyən idi. Nə qızın özünə, nə valideyninə, nə yoldaşlarına bu barədə bir söz deməsə, sirr açmasa da, qəlbinin ən dərin guşəsində Səadət sözünü iri, qızıl hərflərlə səliqəli yazıb vacib dərs proqramı кimi təкrarlayırdı.

Ona elə gəlirdi кi, atası da, Həqiqət xanım da Səadəti məhz onun üçün böyüdür, bu gözəl qızın tərbiyə-təhsilinə ayrı cür səy göstərirlər!

Rəşid onu da görməmiş deyildi кi, əmisi Səadəti oğlanlarının hər birindən çox istəyir, onu daha şux, daha zəngin libaslarla məкtəbə yola salır, onun adını hamıdan qabaq çəкib, кefin tez-tez soruşurdu:

— Qızım Səadətin кefi necədir?



Həqiqət xanım da, texniк кişi də qızlarından кef-əhval soruşanda bəlкə də qəsdən ucadan səslənir, Rəşidin qulağına çatdırmaq üçün xüsusi ahənglə təкrar edirdilər:

— Səadət, кefin necədir, yaxşısanmı, qızım?

Bu xoş sözləri ana deyib ata təкrar edir, ata deyib ana təкrar edirdi. Bunları Rəşid həyəcansız eşidə bilmirdi. Xüsusən qız dillənəndə, ata-anasının sualına baş qaldırıb ala gözləri ilə diк baxanda, кəкliк кimi nazla yeriyib cüt hörüкlərini enli кürəyində tərpədəndə razılığını ifadə edib:—«Çox sağ olun!»—deyəndə sanкi Rəşidi çağırırdı. Bəlкə də ürəyindən кeçirdi, süкutla Rəşidə xitab edib gileylərini izhar edirdi: «Haçan görəcəyəm, haçan eşidəcəyəm кi, o igid əmioğlumun şirin dilindən bu xoş suallar çıxsın: «Səadət, əzizim, кefin necədir?»

Səadətin bunu ummağa haqqı vardı. Çünкi o, baкir qəlbinin anbaan duyulan, get-gedə güclənən, sinəsini qabardan həyəcanlarını, gənc ürəyinin кaman simi кimi zərif tellərində səslənən titrəyişləri dərк edirdi. Məhəbbət onu tutmuşdu, yaman tutmuşdu.

Eyni əhvali-ruhiyyəni, deməк olar кi, Rəşid də кeçirirdi. Doğrudur, röyalarda, xəyal aləmində кeçirir, dilinə gətirmir, dəftərinə yazmır, yoldaşlarından, sirdaşlarından gizlədirdi. Ancaq özündən, qəlb aləmindən gizlədə bilmirdi.

Bir də görərdin saat iкidə, yuxarı siniflər məşğələdən çıxanda, qızlar dəstə ilə evlərinə yollananda ucaboy, enliкürəк, qıvrımsaç bir oğlan funiкulyor yolunun başında əfsanəvi pəhləvan Bəhramın qarşısında dayanıb sanкi həsbi-hal edir. Qızlar кarvanının başı açılanda, cavanların şaqraq gülüşləri eşidiləndə də məhəl qoymur, gözünün ucu ilə də baxmır, baxmaq istəmir.

Ancaq qızların biri ya qəsdən, ya sadəliкlə işarə edəndə:

— Səadət! Qız, əmioğlun dayanıb, Bəhram şahla söhbət edir, deyəsən, bir bax!

Səadət adını eşidəndə Rəşid, ceyran vurmuş кimi cəld dönər, sevgilisinin həyəcanlı baxışlarını salamlardı. Belə anları nə Rəşid, nə Səadət unuda bilirdi. Hər iкisi vurğun кimi dayanıb bir-birinə baxır, nitqdən lal olur, dilə gətirməyə nadir кəlmə axtarırdılar.

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı.
Kölgə təк bir yerdə durmağa qərarım qalmadı!

Böyüк şairin bu məhəbbət кəlamı ürəкlərdə səslənərdi; bilinməzdi кi, bunu кim dilinə gətirdi: oğlanmı, qızmı?

— Qızlara salam!

— Tamaşaya durmusunuz!

Rəşidin göl başında dayanmağına nə tamaşa, nə həsbi-hal demək olardı. Bu ancaq həyəcanlı intizar, Səadətin intizarı idi. Dayandığı dəqiqələrdə də görərdin pəsdən mahnı oxuyur:

Bu dünyada daş daşıdım, gəmim dolmadı.
Gənc yaşımda bir qız sevdim, mənim olmadı!..

O illərdə, sevənlər arasında dəb düşən bu səmimi mahnını çox yerdə, çox cavanlar çox ürəkdən oxuyurdu. Bəziləri öz tərcümeyi-halı ilə, bəziləri məhəbbət macərası ilə bağlayıb oxuyurdu, ancaq Rəşidin belə kədərli nəğməni təkrar etməyə nə əsası, nə haqqı vardı!

Ona görə oxuyurdu ki, Səadəti görəndə, əmiqızının adı çəkiləndə Həqiqət xanım ibadətə dayanmış kimi susur, hətta fürsət tapıb hərdən qəsdən eşitdirirdi:

— Rəşidin toyunda, özüm qabağa düşəcəyəm, Bakının handa bir professor qızlarına elçi düşəcəyəm...

Əvvəl Rəşid istədi Həqiqət xanımın sözünü qulaqardına versin:

— Əmidostu, professor qızlarını mənə peş çəkmə! Əvvəla, mənim evlənmək niyyətim yoxdur, ikinciyə qalan yerdə, məgər mən professor-zad axtarıram? Atalar deməyib ki, könül sevən göyçəkdir? Sən mənim qəlbimi qaynarından niyə kənara, dağa-daşa çəkirsən?

Həqiqət xanım hiss etmişdi ki, Rəşidin qəlbinə toxunur. Bunu bilsə də, işarəsində bir qəbahət duymur, oğlanın qulağını doldurmaq istəyirdi. Hər vasitə ilə, hər fürsətdə Rəşidin diqqətini Səadətdən yayındırmağa, qızı unutdurmağa çalışırdı. Ona görə də bəzən kədərli mahnılar oğlanın yadına düşür, nakam və köməksiz bir gəncin fəryadlarını eşidən, acıyan kimi pəsdən təkrar edirdi:

Gənc yaşımda bir yar sevdim, mənim olmadı!..

Mahnının son sözləri ağır bir hökm kimi səslənir, arzularına zidd, ağır təəssüflərindən gələn kədərli səda kimi çıxırdı:

Olmadı mənim, olmadı!..

Bu son sözləri Rəşid həmişə xüsusi həsrət, atəşlə deyirdi, ətrafına baxır, dinləyən görməyəndə, vay xəbəri almış kimi, şappıltı ilə dizinə döyüb təkrar edirdi:

Olmadı, hay, olmadı, vay, olmadı!..

Doğrudur, bu kədərli mahnını oxuyurdu, amma bir an belə Səadəti unutmurdu. Gələcək taleyini düşünəndə sanki bədxahlarına xitabla bərkdən deyirdi:

— Namərd dünya!



Bir ayağını irəli qoyub dayanır, sağ əlini qaldırıb şəhadət barmağını sanki düşmənin gözünə güllə sıxacaqmış kimi havada silkələyirdi:

—Ya Səadətdir, ya heç kəs!

Vəssalam!

Rəşidə hey eşitdirirdilər:

— Əmiqızını almaq olmaz. Nəsil korlanar, günahdır, eyibdir.

Bunları Səadətə də eşitdirirdilər. Ancaq Rəşidin dedikləri Səadəti hər şeydən çox məşğul edir, müttəsil düşündürürdü:

—Ya Səadət, ya heç kəs!

Vəssalam!

İndi, cavanların həyat və arzularında romantik xəyallar alovlandıqca, müəyyən rəng aldıqca texnikin ailəsində, Həqiqət xanımın niyyətlərində qayğı və gərginlik artır, kəskinləşirdi.

İnsan həyatında qayğı da, qəm-qüssə də olan şeydir. Heç kəs deyə bilməz ki, mənim günüm həmişə deyib-gülmək, toy-bayramla keçib. Doğrudur, dünyada elə nikbin, qayğısız, hərcayi, dözümlü adamlar var. Ancaq texnikin, Həqiqət xanımın ailəsinə üz verən gözlənilməz, qəribə əhvalat heç bir təsəlli, heç bir səbir, dözümlə ötüşən deyildir.

Rəşidin Səadətə olan qeyri-qanuni, qeyritəbii sevgisini rədd etmək üçün nə çarə, nə tədbir mümkünsə görmək lazım idi. Nə valideynin məsləhəti, nə həkimlərin dediyi, nə yoldaşların arzusu, heç biri Rəşidi əzmindən döndərə bilmirdi. Əksinə, oğlan onunla bu qədər məşğul olanları, valideynin bu xeyir işə bədgüman münasibətini gördükcə daha da əsəbiləşir, atasından-anasından, əmisindən daha bərk inciyirdi. Kişilər də oğlanı əzmindən döndərmək üçün hər vasitəyə, bəhanəyə əl atır, ancaq əsl həqiqəti açıb aşkar deyə bilmirdilər.

«Bu nə iş idi başımıza gəldi!», «Qız doğulunca bir daş doğulaydı», «Belə yerdə adamlar silaha əl atarlar da», «Allahu əkbər, əstəğfürullah, demişdim ha!»

Hər iki ailədə səssiz, «pıçhapıçla» da olsa, kədərli məsləhət, məşvərət söhbəti gedir, axırı da bir yerə çıxmırdı. Həqiqət xanım günün birində bu söhbəti cavanların tanış müəllliminə açdı, məsləhət istədi.

Müəmmanı valideynlər özləri yaratmışdılar. İndi də içindən çıxa bilmirdilər.

Həqiqət xanım tamam təbii, səmimi bir dillə oğlu Rəşidə müraciət edib deyirdi:

— A bala, bu boyda ölkədə, qız-gəlin dünyanı götürdüyü yerdə, bir-birindən gözəl, oxumuş, mühəndis, həkim, adlı-sanlı qızlar sənə göz dikdiyi yerdə, nə oldu sənin bu əmin qızı mataha döndü; heç kəs onu məsləhət görmür, sən iki ayağını bir başmağa dirəmisən, deyirsən «budu ki, bu!» Gəl inadından əl götür, bala! Axırı yaxşı olmaz.

Böyük məsləhətinə qulaq as! Ulu sözünə baxmayan uluya-uluya qalar, bala!

— Əmidostu, siz oxumuş, təcrübəli anasınız, gərək belə təklifi mənə etməyəsiniz! Axı qəlbə zor olmaz! Məni iradəmdən dönməyə məcbur edən, ancaq bircə hökm ola bilər! Sevgilim «yox» desə, mən təslim ola bilərəm, ayrı heç kəs, heç nə! Məhəbbətə zor olmaz, bilirsən!

Həqiqət xanım, axırda oğlanı hədələyirdi:

— Mən sənin böyüklərinlə danışam gərək!

— Kimdir mənim böyüyüm?

— Mən bilirəm kimdir!

...Rəşid Həqiqət xanımın sözünə məna verə bilmədi. Bilmədi ki, «böyüklər» deyəndə Həqiqət məktəbi, komsomol təşkilatını, ya valideyni, ağsaqqalları nəzərdə tutur. Ancaq xəyalında cavab verdi ki, nə valideynin, nə komsomol böyüklərinin məni arzumdan döndərməyə gücü çatmaz. Sevgiyə nə zor!

— Əmidostu, bəlkə siz məni qızınıza, Səadətə layiq bilmirsiniz! O sizin öz işinizdir. Ancaq belə bir iddiaya Səadəti çətin inandıra bilərsiniz! Yəqin bilin ki, boş söhbətdir.

Həqiqət xanımın «böyüklər» deyib müraciət etmək istədiyi nə valideyn, nə komsomol katibi idi, onun nəzərdə tutduğu böyük, müraciət etdiyi adam Rəşidin də, Səadətin də müəllimi, cavanların hər ikisinin təhsil-tərbiyəsinə əmək sərf edən Azad müəllim idi.

Doğrudur, Azad müəllim cavanların sevgi macərasından xəbərsiz idi, ancaq hər iki gəncin müəmmalı sevgisi haqqında arada bəzən eşitmişdi, maraqlanmışdı.

Bir gün, bayram məclislərindən birində Həqiqət xanıma müraciət etdi:

— Səadəti musiqi təhsilinə göndərirsinizmi, xanım?

— Özü maraqlıdır, amma görək necə olur?

— Necə olacaq, onun istedadına kim şübhə edə bilər?

— Orası elədir. İndiki cavanlar da bəzən sözə baxmırlar!

— Onu Səadətə, ümumən sizin uşaqlara demək olmaz!

— Müəllim, sizin çox nikbin niyyətiniz var!

— Məncə elə lazımdır.

Həqiqət xanım müəllimin sözündən cürətləndi:

— Sizə deməli sözüm var, müəllim!

— Mən hazır, buyurun!

— Məktəbdə haçan macalınız olar, bir yarım saat vaxtınızı alım!

— İstirahət axşamı boşam!

— Saat ikidə, üçdə gələ bilərəmmi?

— Buyurun, müəllimlər otağında olacağam!

— Məsləhətə gələcəyəm, vaxtınız olsa!



— Buyurun, buyurun!

İstirahət axşamı müəllimlər otağında, Azad müəllimin yanında hörmətli bir məsləhət məclisi quruldu. Azad müəllim üzünü valideynlərə tutub deyirdi:

— Mən sizin hamınızdan, atadan da, anadan da küsürəm. Buna mənim haqqım var! Bizdən tələb olunur ki, cavanları həqiqət, doğruluq, düzgünlük əsası ilə bu yolla böyüdək, tərbiyə edək. Çünki yalan bizim cəmiyyətə yaddır! Yalan yeriməz. Siz uşaqları körpəlikdən yalana inandırmısınız, özünüzün inanmadığınız bir yalanı həqiqət adına yeritmisiniz. Ay canım, belə bir yalan kimə, nəyə lazımdır? Bilirsiniz ki, bizə yalan yaramaz!

Cavanlar böyüyəndə, yalan əsasında sevgi yoluna düşəndə, qeyri-qanuni izdivac yolu tutanda ayılıb başınıza döyürsünüz! Halbuki bu yalana heç zaman ehtiyac yox idi. Rəşid öz doğma atasının oğlu kimi sonsuz əmisinin övladlığına keçə bilərdi, Səadətlə də belə qeyri-qanuni, qəribə məhəbbət yoluna düşməzdi. Bacı-qardaş məhəbbəti belə faciəli bir mənzərə ilə nəticələnməzdi. Kimə xoşdur ki, indi, biriniz qızı, biriniz oğlanı danlayır, hamınız cavanlardan həqiqəti gizlətmək istəyirsiniz! Vaxtı ilə qol qoyduğunuz yalanla həm balaları, həm özünüzü, həm camaatı aldatmısınız! Çox təəssüf!

Gec də olsa, həqiqəti açıb demək, cavanları başa salmaq lazımdır! Yalan bizim tərbiyəmizə, əxlaqımıza yaddır. Cəmiyyətimiz, inkişafımız ancaq həqiqət üstündə bərqərar olur. Rəşidlə Səadət bacı-qardaşdır. Burada gizli bir şey yoxdur, qoy hamı bilsin! Balalara həqiqəti uca səslə deyin! Rədd olsun yalan! Bəzək-düzək yalanı yaşatmaz!

Yaşasın həyat həqiqəti!

Gün kimi parlaq həqiqət!

Azad müəllimin sözlərini Rəşid də, Səadət də eşidirdi.

1969.

## SEVİNC HAQQINDA

Həkimlərdən, psixologiya alimlərindən, ictimaiyyətçilərdən soruşursan:

— Sevinc?

Bu suala hərə bir cavab verir, cavablar da bir-birinə az oxşayır.

Hamıya məlumdur ki, bütün başqa haləti-ruhiyyələr kimi, sevinc də cürbəcür olur, müəyyən hadisələrdən doğur, yeni şəraitdə sönür. Çoxdan ayrıldığın əzizini birdən görəndə sevinirsən. İllərlə həsrətini çəkdiyin istəklinin qəlbini ələ gətirəndə, böyük intizardan qurtaranda, xəstəlikdən sağalanda, ana məhəbbətinə, övlad səadətinə, dost sədaqətinə nail olanda... Xülasə, dünyada kədər oyadan təsadüflər kimi, sevinc doğuran hadisələr də çoxdur, mürəkkəbdir, əlvandır, saymaqla qurtarmaz. Bu haqda harada, nə vaxt, kimlə söhbət salsan, maraq, ixtilaf, tərəddüd görəcəksən...

Göygöldə yəqin ki, olmusunuz. O bahar, dağlar qızının füsunkar hüsnünə, tükənməz məlahətinə vurulmusunuz, içərinizdə görməyənlər varsa, hamısına qismət olsun, bu müqəddəs ziyarətdən doymaq olmaz.

Bahar fəslinin ilk günlərindən birində belə xoş günləri insan, hətta təbiət özü də unutmur. O günlərin qışı, sərt soyuqları ötüb, baharın mülayim nəfəsi kainata yayılıb, ancaq güclü günəş qızğın pərdəsini hələ yer üzünə sərməyib, üfüqdən boylanan günəş şüaları təbiəti yenicə tərpədib oyadır, bənövşələr, lalələr, yarpızlar, yemliklər, zanbaqlar, nərgizlər zümrüd gözlərini açıb bahar fəslini salamlayırlar, quşlar səs-səsə verirlər.

Belə günlərin bir günortasında istirahət saatlarını təbiət döşündə keçirmək istəyən cavan müəllimlərin bir dəstəsi maşınla Göygöl sahillərinə səyahətə gəlmişdi. Var olsun memar, mühəndis, inşaatçılarımız, Göygölü tam abad etməsələr də, unutmamışlar da!

Orada sanatori, mehmanxana, düşərgə, istirahət evi tədbiri görüblər. Həmin saatlarda müəllimlər, yamacda xəzəllər, yaşıllıqlar üzərində, kabab süfrəsi ətrafında əyləşib, mavi gölün göz yaşı kimi duru suyunu, zərif ləpələrini, laciverd səmanın, haraya isə süzən ala bulud karvanının suda əksinə baxırdılar. Dərin bir maraqla təbiəti seyr edir, odlu bir ehtirasla təbiətdən danışırdılar.

İnsanın təbiətində iki ümdə xasiyyət qoyulubdur: sevinc və kədər; sevinc əlaməti fərəh, kədər əlaməti qəm... Böyük ədibin bu sözlərini təkrar edən Şahid müəllimə yoldaşları sual yağdırdılar:

— Sevinc nədən doğur?

— Adam nəyə, nə zaman sevinir?

— İnsan haçan daha çox sevinir?

— Mənim qarnım tox, əynim qalın, cibim dolu olanda sevinirəm.

— Qabağımda erkək ətinin kababı, yanında da beşulduz!



— Bu şərtlə ki, şair demişkən, «cinsi-lətif həmdəmin ola»!

Şahid müəllim sözə qarışdı:

— Mən ali məktəbi qurtaran ildəki sevincimi heç vaxt unutmaram!

— Mən təzə mənzilə köçəndə uçmağa qanad axtarırdım!

— Qardaş, mən ilk övladım olanda!..

— Mən Moskvanı görəndə...

— Mən Parisə gedəndə...

Əyləşənlərin hamısı söhbətə qarışır, səmimi sözünü deyir, ürəyini boşaldırdı.

Altun Dağlı qara, qıvrım saçını ovcuna alıb, dirsəklənmişdi. Deyilənləri sükut və diqqətlə dinləyirdi. Kənardakılar güman edərdilər ki, o bu söhbətlərlə az maraqlanır, nə isə düşünür, məşğuldur, ya təbiətin seyrəngahı ona indiki söhbəti unutdurmuşdur.

Müəllim yoldaşların biri kəsir, o biri başlayırdı. Biri ehtirasla, biri mülayim, biri zarafatla, biri ciddi, biri təfsilatla, biri müxtəsər sözünü deyir, əl çəkirdi.

Altun Dağlı, vurğun vurmuş kimi, birdən ayağa qalxıb, ucadan müraciət etdi:

— Ay yoldaşlar! Ay uşaqlar!

Hamı susdu. Güman etdilər ki, Altun Dağlı özünə xas bir ciddiyyət, bir qədər də hirslə hamıya aid, hamını cəlb edən bir iş haqqında nəsə demək, bəlkə də əmr eləmək istəyir. O, üzünü sahil seyrindən məclisə, əyləşən yoldaşlara tərəf döndərdi, addımının birini irəliyə qoydu. Yenə dirsəyinə söykəndi. Bu dəfə dirsəyini torpağa yox, sol dizinə söykədi, sağ əlini ələm kimi havaya qaldırıb, ilk sözünü təkrar etdi:

— Ay yoldaşlar, ay uşaqlar! Sevinc doğuran hadisələr məni də düşündürüb, məşğul edib, bu dəfə yox, həmişə! Hər anın bir niyyəti, görüşü! Mənim də sevincli dəqiqələrim, saatlarım olur. Ən xoşbəxt saatlar! Bunlar nə qarnım, nə cibim, nə kefim, nə vəzifəm, nə rütbəmlə bağlıdır, qətiyyən! Mən o zaman ki bir şey yaradıram, məsələn, bir az yazıram, uzun fikirlər, hisslər, ehtiraslar, iztirablar, ağrılar, sızıltılar keçəndən sonra, nəhayət, başladığım bir əsərin son fəslini başa vururam, tarixini qoyuram, onda sinəmdə bir pələng gücü duyuram. Dünyanın bütün sevinci qəlbimi qaynadır, güman edirəm ki, kainatda məndən güclüsü yoxdur. Böyük bir qala fəth etmişəm. Bütün xalq bir dağdan qalxan ordu kimi, alqış deyib əlimi sıxır, kainat mənə qızılgül bağı kimi görünür. Məncə, bu, yaratmaq sevincidir. Quşların, suların, göylərin həyat ahəngini yaratmaq sevinci!

Yaratmaq, xalqa layiq bir iş görmək sevincidir, qəlbimlə duyuram!

Məncə, bundan böyük sevinc yoxdur.

Gəlin həmişə bu sevincin həsrətini çəкəк, ürəк döyündüкcə bu sevincdən ayrılmayaq!

Yoldaşları ayağa qalxdılar. Altun Dağlının əlini sıxdılar, yaradıcı intizar və ehtirasın şirin təfəккür təxəyyülünə daldılar.

Göygöl füsunкar duruşu, məbhut, mənalı baxışı ilə gölə gələn zillı qonaqlarının süкutla yamacları tərк etmələrinə heyrət və sevinclə baxırdı. Bir müntəzir gəlin кimi baxırdı, qonaq sevən ana кimi fəxr edirdi.

1969.



## MÖHÜR

Möhür ya əyar yaxşı şeydir. Bir sənədin həqiqətini bilməк üçün möhürünə baxırlar. Bir matahın əslini bilməк üçün əyarını yoxlayırlar. Üstündə əyarı olmayan qızılı heç кəs qızıl saymaz. Onu ustasına, zərgərinə baxdırmamış heç кəs qızıl olmasına inanmaz.

Adam adamdır, hər кəs bilir кi, adamla necə rəftar etməк lazımdır.

Doğrudur, adamın aldatmaq dərəcəsini, ləyaqətini yoxlamaq üçün nə möhür var, nə əyar, nə də qeyri-zahiri bir əlamət var. Adamın adamlığı möhürdə yox, özündə, yaşda yox, başda, zahirdə yox, batində!

Çox zaman belə bir əlamət axtarmağa da ehtiyac yoxdur. Amma bəzi yerlərdə, bəzi vaxtlarda və bəzi adamlara rast gələndə görürsən кi, adamın da möhürünə, əyarına baxılır.

Doğrudur, heç кəsin əl-ayağına ya alnına möhür vurmur, dərisinə əyar yapışdırmırlar, amma möhürü əvəz eləyən əlamət də olmamış deyil. İnsanı yoxlamaq üçün nə rənginə, nə sifətinə, nə boy-buxununa baxırlar. Bircə sənədinə, cibindəкi dəftər-кağızına baxırlar: pasportu, vəsiqə, şəhadətnaməsi, diplomu!

Xüsusilə diplom indiкi zəmanədə yaman dəb düşüb. Nə pul, nə libas, nə yaraşıq o qədər lazım olmur, nəinкi diplom!

Diplom var daşdan кeçir, bəzi idarə müdirləri nə savada, nə hünərə, nə mərifətə baxırlar. Onlarınкı diplomdur. Möhürlü, imzalı diplom! Əgər varsa, işin düzələcəк, yoxsa, qalan şeylər əfvayıdır!

Adamların məzmun və mahiyyətini yoxlamaq üçün bundan asan, bundan aşкar, bundan yüngül yol yoxdur! Qapı ağzında dayanan bir qulluqçuya tapşırırlar. O da gələnlərin hamısının sənədinə, vəsiqəsinə, diplomuna baxır, sanbalını yoxlayıb buraxır.

— Keç!

Bu üsul çox dəb düşmüşdü, çoxlarının da işi lap yüngülləşmişdi.

Hər şeyin bir çürüyü çıxdığı кimi, bu üsulun da çürüyü çıxdı. Bir də görürsən cibində möhürlü, imzalı diplomu, amma söz soruşursan, görürsən lap savadsız!

—Haranı qurtarmısınız?

— Budur diplomum, al bax!

— Özünüz deyin!

— Filanı, filanı!

— İкi dəfə iкi neçə eləyər?

— Altı?

— Göydə ulduz neçədir?

— Göydə ulduz aladı, arvad başa bəladı!..

— Ay sağ ol! Verin o diplomun üzünü çıxardaq, sizin şəxsi işinizə tiкəк.

— Burada dur, bu saat gəlirəm.

Hərif götürüldü nə götürüldü! Daha izi-tozu da görünmədi. Bir neçə belə əhvalatdan sonra çox diplomlara da etibar azaldı.

Başladılar adamı nə möhür, nə əyar, nə sənəd, nə diplomla, ancaq adamlıqla, işlə, məzmunla, keyfiyyətlə tanımağa. Cəmiyyət, təşkilat, kollektiv arasında hörmətin, izzətin oldu, adamsan, olmadı, sənin eybini nə diplom, nə vəsiqə, nə sənəd örtər! Həqiqət budur. Çalış adamlıq, zəhmətkeşlik, yaratmaq məharətin, hörmətin olsun. Yoxsa səni heç yerdə, heç zaman, hec kəs layiqli mütəxəssis, adam yerinə qoymaz!

Möhürlə metalı tanıyarlar. Adamı işlə, əməllə, etibarla tanıyar, sayarlar!

El içində etibarın olmadı, heç! Heç bəndənin etibarı itməsin.

Bu elə bir itkidir ki, ömür boyu axtarsan, tapa bilməzsən!

— Filankəs...

— Adə, o fırıldaqçını deyirsən? Qoysana rədd olsun! Onu tövləyə qoymurlar ki, qulan-quşqun oğurlayar.

— Diplomu, vəsiqəsi!

— Uşaq olma! Görəsən harada nə kələklə ələ keçirib. Elə diplomlara bir quruş verən olmaz. Fırıldaqçının eybini diplom yox, torpaq örtər!

Adamın gərək özündə sanbal olsun. Payız yarpağını külək vurar belədən-belə, elədən-elə! Xəzələ xəzəl deyiblər, qızıla qızıl! Xəzəl yüngül olur, hər dəqiqə suyun üzünə çıxır. Qızıl ağır olur, dibə yatır. Atalar deyib «Ağır otur, batman gəl!..»

1970.



## DÜZƏLMƏDİ

Utancaqlıq!

Kimdən soruşsan, deyər ki, utancaqlıq yaxşı xasiyyətdir. İnsanın qanacağını, mərifətini, abır-həyasını göstərir. Beləsinin hər yerdə hörməti, izzəti var. Adı yaxşılığa çəkilir, ünvanına bir irad tutan olmur.

Zahirən belədir. İlk baxışda mənzərəni bu cür görürsən. Amma əslinə baxsan, utancaqlıq o qədər də yaxşı xasiyyət deyil. Adamın özünə də, başqalarına da görürsən, ziyan gətirir.

Eşidənlər deyəcək, boş danışırsan. Halbuki mən bunu həyatda təcrübəmdə görmüşəm, inanmışam. Dostun, ya tanışın səndən bir xahiş eləyir, sənin də buna imkanın olmur. Açıqca deyə bilmirsən, imtina edə bilmirsən; hərifin sözünü nə tutursan, nə atırsan. Ürəyində nisgil olur, qalırsan kəsilə-kəsilə.

Mənim, sizdən yaxın olmasın, yaxın bir tanışım var, görüşəndə salaməleyk, xoş-beş eləyirik. Özü aşpazdır, pis də aşpaz deyil. Əvvəl iş yerini göstərmişdi, indi bilmirəm harada çalışır. Amma arabir görürəm. Bir gün üzünü mənə tutdu, ərkyana gileyləndi, xahiş eləyib dedi:

— Filankəs, Allah daha da artıq eləsin. Görürəm, əli qələm tutanların hamısı bərk ayaqda sənə müraciət eləyirlər. Yazılarını sənə oxuyub məsləhət soruşur, rəy alırlar. Nə olar, çıraq olub işığı öz dibinə də salsana, bizim kimi kimsəsizlərə də bir nəzər yetirsənə!

— Dostum,—dedim,—mən bir adi qəzet yazan, sən də, şükür, mahir aşpaz! Peşəniz səliqəli, hörmətli peşədir. Ancaq mənim sizin sənətdən nə başım çıxır ki, bir məsləhət də verim?

— A kişi, aşpazlığı demirəm. O barədən korluğum yoxdur. İndi xörək bişirməyi bir yana qoymuşam. Yazı-pozu ilə məşğulam, çoxdan qələm işlədirəm.

Mən quruyub qaldım:

— Belə de! Sağ olmuş, mən nə bilim?

— Bəli, indi mən də yazıram. Hələ ki bir povest yazmışam, evdə uşaqlara oxumuşam, sağlığına bəyəniblər.

— Mübarək olsun, niyə çapa vermirsən?

— Hələ tezdir.

— Dəmiri isti-isti döyərlər!

— Yox, canım, uşaqların rəyi ilə yazı yetirmək çətindir.

— Bəs nə fikirdəsən?

— O fikirdəyəm ki, sizin kimi bir qələm sahibinə oxuyum, lazım bilsəniz, balaca rəydən-zaddan alam, sonrası da görək nə olar?

— Təqaüdə, dincəlməyə çıxan adamın təzədən qalmaqala düşməyi nə əcəb?

— Xeyr, qalma-qal olmaz. Mənim povestimdə qalma-qal nə gəzir? Tamam dinclik, salamatlıqdır.
— Təki olmasın.
— O barədə arxayın ol, ancaq qalma-qalı odur ki, gərək hörmətli adamlardan birinə oxuyam, məsləhət alam.
— Təzə yazanlara məsləhət verən xüsusi dərnəklər, idarələr var. Müraciət eləsəniz!
— Eləmişəm. Bəziləri, görürsən, baxmırlar, açığını deyim, gözləri götürmür.
— Baxarlar, vəzifələridir.
— Elə demə, vermişdim birinə, iki ay stolunun yeşiyində saxlayandan sonra qaytardı.
— Nə dedi?
— Bir şey demədi.
— Oxumamışdı?
— Oxumuşdu.
— Oxusa bir söz deyər.
— Demədi. Görünür, xoşuna gəlməyib.
— Onda ikinci bir yoldaşa ver oxusun!
Dostum, deyəsən, belə bir fürsət axtarırdı. Diqqətlə gözlərimin içinə baxıb dedi:
— İkinci yoldaş lap sən! Özümüzün də, şükür, uzaqdan salamələykimiz var. Budur, neçə dəfədir deyirəm, xahiş eləyim oxuyasan, üzümdən gəlmir, utanıram, doğrusu!
— Povestin neçə səhifədir?
— Çox deyil, cəmi dörd-beş yüz səhifə ola, ya olmaya!
— Onu arxayın adama oxutmaq lazımdır.
— Arxayın adam lap sənin özün!
— A kişi, mən külfət sahibiyəm, səhərdən axşama qədər idarədə çalışıram, başımı qaşımağa macalım olmur. Əcəb arxayın tapmısan!
Dostum tez sözümü kəsdi:
— Canım, mən o cür sırtıqlardan deyiləm ki, iki ayağımı bir başmağa dirəyib deyəm: lap elə bu gün, ya sabah oxu! Haçan münasib oldu, götür oxu, sonra fikrini deyərsən, ya lap yazarsan, mənim də əlimdə bir dəstavüz olar.
Mən gördüm ki, söhbətimiz uzandıqca tanışımın iştahası artır, povestini mənim boynuma yükləməyə fürsət axtarır.
— A filankəs,—dedim,—elə uzun yazıları indi, yayın bu istisində oxumaq nə sənə xeyirdir, nə mənə! Elə yazını sərində, dinclikdə gərək oxuyasan ki, səni tər basmasın!
— Orada istidən də, sərinlikdən də söhbət gedir.
— Nə münasibətlə?



— O babətdən ki, adam darıxmasın. İstidə sərinləsin, soyuqda qızınsın! Povesti elə yazmışam şirin oxuyacaqsan, inşallah!
Tanışımın, görünür, yazı-pozu haqqındakı mülahizələri aşpazxana çərçivəsində müəyyənləşmişdi.
— Eybi yoxdur,—dedim,—qoy havalar sərinləsin, gətirərsən birlikdə oxuyarıq.
— Çox sağ ol,—dedi,—mənim sizə o qədər zəhmətim dəyməz. Özüm ucadan oxuyaram, siz də cücə çığırtmasından sonra məxməri çay qabağınızda, aramla qulaq asarsınız.
— Əlbət ki, mümkündür.
«Mümkündür» deyən kimi tanışımın gözlərində elə bil ümid çırağı yandı. Tez qabağa keçdi, yaxamdan yapışıb povestinin əhvalatını danışmağa başladı:
—Əsərdə,—dedi,—qabaq-qabağa bir arvad, iki kişi götürmüşəm, bu kişilər başlayırlar bir-birini burunlamağa, biri də...
Gördüm ki, hərif fürsətdən faydalanıb məni əhvalatla tanış eləmək, sonra da ayaqüstü fikir soruşmaq niyyətindədir. Cümləbaşı nağılını kəsib sual verirdi:
— Necədir, mən ölüm? Belə demək olar, ya yox? Niyə operalarda yazırlar, biz bəyəm səhnədəkilərdən ibrət götürə bilmərik? Necə sözdür? Tənqidçilər özləri yazır ki...
— Əlbət ki, sağlıq olsun, havalar sərinləyəndən sonra oturub oxuyarıq.
Tanışımın gözlərində qığılcım parladı:
— Bilirəm,—dedi,—oxusan xoşun gələcək, mən elə şey yazmaram ki, müştərinin iştahını küsdürsün.
— Elədir!
— Əsəri də səliqə ilə süfrə kimi ağ kağızda çap elətmişəm, görəcəksən, inşallah! Dadı-duzu yerində, ürəyinə yatacaq!
— İnşallah.
— Sərinlərə də bir şey qalmayıb, bu gün avqustun iyirmisidir, bir aydan sonra payız küləyi bizi kabab kimi yelləyəcək!
— İnşallah!
Bu halda məni telefona çağırdılar, tanışımdan üzr istəyib aralandım. Aralandım, o ayrılmaq oldu, bir də hərifi görə bilmədim. Hərdən zəng eləyib hal-əhval soruşur, yadıma salırdı ki, havaların soyumasına az qalıb, inşallah!..
Havalar soyudu, lap soyuqlar düşdü də, ancaq tanışım məni münasib yerdə tuta, məqsədinə nail ola bilmədi. Qarlı yanvar günlərində müalicəxanaların birində hərif qabağımı kəsdi:
— Sağ olmuş, hardasan, sərin düşəndə, eyvanda süfrə açıb neçə dəfə səni arzulamışam.
— Nə olub bəyəm?
— Əsər böyrü üstdə yatıb qalıb, dəmlənib.

— Eybi yoxdur, qoy dəm alsın.
— Bəs sonra necə olsun?
— Bu soyuqda, əlbət ki, uzun şeylər oxumaq... Sağlıq olsun havalar yumşalanda, yazbaşı!
— Nə qalıb, sabah-biri gün novruz bayramıdır.
Novruz da gəldi, aprel, may da düşdü. Tanışım hər macala məndən xəbər tutub deyirdi: «Əsərin ora-burasını təzədən yağlamışam, nə deyirsən? Qiraət məclisi düzəltməklə halın necədir?»
— Tələsik iş tərsə düşər. Qoy istilər düşsün, arxayınlıqla oturub oxuyarıq.
Təkrar istilər gəldi. Povest bizdən əl çəkmədi:
— Ay filankəs, havalar yenə qızışıb, ha!
— Havalar öz yolu ilə, bizim özümüzün də qızışmağımız lazımdır.
— Araqla aran necədir? Döymə kabab yanında? Təzə ətdən deyirəm, ey!
— Araq məsələsi yox də, iki-üç aydır müalicədəyəm, qəzetə baxmağa da icazə vermirlər.
— Bizim əsər qəzetdən maraqlıdır.
— Təki olsun, həkimlər oxumağa izin vermir.
— Allah şəfa versin, bəs haçan?
— Havalar sərinləşsin.
— Havalar qızışsın...
— Havalar sərinləşsin...
Neçə ildir, neçə fəsildir tanışım məni harada görürsə, havaların vəziyyətindən mənə dəqiq məlumat danışıb vədə verməyimi gözləyir. Mən də utancaqlıqdan ona müəyyən bir cavab deyə bilmirəm:
— Hələ bir oxuyan olmayıb?
— Olub. Dərnəklərdə götür-qoy eləyiblər, tələsik məsləhət də deyiblər. Amma əqlim bir şey kəsmir.
— Tələsmək, deyirəm, işə ziyandır. Gözləyək, görək bir macal taparıq. Sizin əsər də gərək münasib vaxtına, yerinə düşsün ki, peşmançılıq olmasın.
— Bəli, mən tələsən deyiləm, yetmiş ildən bəri sinəmə yığdıqlarımı yazmışam.
— Yaxşı eləmisən.
— Mən elə sizi gözləyirəm.
— Gözləmək yaxşıdır, inşallah, havalar düzələr!
— Düzələndə sizə zəng vurmaq olarmı?
— Olar, olar, niyə olmur!
Bir belə, iki belə, nə isə təzə yazıçı tanışımın əsərini oxumaq mənə qismət olmadı.
Hərdən rast gələndə, kinayə ilə mənə işarə vururdu:



— A filankəs, deyəsən, havalar düzəlmədi?
— Darıxma, düzələr, ümidsiz şeytandır!
— Yox, deyəsən, düzəlmədi.
Görürdüm ki, tanışım yazıçılıq hissi ilə olmasa da, aşpazlıq təcrübəsi ilə işinin aqibətini hiss etmişdir:
— Yəni deyirsən düzəlməyəcək?
— Yox, düzələnə oxşamır, səndən naxoş, iştahım qaçıb!
— Qaçmaz, inşallah, aşpazlığa baxma, yazıçılıq hövsələ istəyir. Səbr elə!
— Haçanacan? Yazıq povest dəmdə qaldı, dəmdən də düşdü, soyudu da!
— Yaxşı əsər soyumaz, dözümün olsun!
— Deyirsən də!..

1969.

## ATAN GƏLSİN...

Müharibə qurtarandan sonrakı illərdə, zabitlik kurslarında təkmilləşdirməyə gedəndə yoldaşlarla çox görüşür, çox dilləşirdim. Moskvada, Qorki küçəsində bir ucaboy kapitan qabağımı kəsdi:

— Müəllim, xoş gördük! Necəsiniz, kefiniz necədir? Şükür, yaxşısınız, elə həmən-həmənsiniz, on beş il əvvəlki!

Mən cavan oğlanın üzünə baxa-baxa qaldım. Əhvallaşmasına mülayim cavab verirdim, həm də fikirləşirdim: «Harda görmüşəm bu igidi, ilahi!»

— Deyəsən, məni tanımadınız, müəllim?

— Hardansa mənə tanış gəlirsiniz, amma yadıma sala bilmirəm, keçən gündür, tələbəm olmamısınız?

— Necə tələbə, sizi çox incitmişəm, bağışlayın!

— Yadıma gəlir, orta məktəbdə.

— Mənə neçə il dərs demisiniz, dəcəl Rüstəmi tanımırsınız?

Dəcəl Rüstəm deyəndə məktəb gözümün qabağına gəldi, müəllim otağının qabağında Rüstəmi danladığım elə bil dünən idi.

— Ay Rüstəm, maşallah, marşala oxşayırsan, necə tanıyım? Daha səndə uşaqlıqdan, dəcəllikdən əsər-əlamət qalıb ki, tanıyam?! Xalis komandir, döyüşçü!

Rüstəm başladı döyüş günlərindən, cəbhə epizodlarından danışmağa. Mən də onun əziz, qayğısız məktəb günlərini yadıma saldım. Özümün də gəncliyim, komsomol vaxtlarım dilə gəldi...

Bu həmin Rüstəmdi ki, nadinclik üstündə tez-tez məsələsini qoyur, atasını çağırtdırırdım. Çox zaman da atam xəstədir deyib, ayrı qohumlarını gətirirdi. Bir dəfə küçədən hambalı tutub bir manat vermiş, «dayımdır» deyib məktəbə gətirmişdi.

Mən də inanmışam, ağzıma gələni kişiyə deyirəm:

— Canım, bu bacıoğlunuza bir nəsihət versəniz! Yoldaşlarına tənəffüsdə bir-bir badalaq vurub üzü üstə yıxır, dalınca baxıb gülür. Uşaqlar ağlayır, bu da arsız-arsız gülür...

«Dayı» sağ olmuş da, deyəsən, Rüstəmdən yanıqlı imiş, uşağın sirrini açdı:

— Müəllim,—dedi,—mən bunun dayısı, qohumu-zadı da deyiləm. Məni küçədən tutub yalvardı, bir manat pul vəd elədi, məktəbə xahişə çağırdı. Manat da lazım deyil. Yazığım gəldi, mən xahiş eləyirəm, bu uşağın günahından keçəsiniz. Bir də belə qələt eləməz!

Kişi qəzəblə üzünü Rüstəmə tutdu:

— Bir manat sənin olsun. Mən məktəbi də, müəllimi də tanıyıram. Səndən bir də dəcəllik eşitsəm, özüm gedib sənin atanı buraya gətirəcəyəm, sənin qulaqlarını dibindən çəkib çıxaracağam. Bəsdir müəllimləri incitdiyin, şələ-küləni dalına verib elə qovarlar, bir də məktəb üzü görməzsən, bəsdir!



Müəllimlər də güldülər, uşağı danladılar:

— Rüstəm, müəllimi aldatmaq da təzə bir günah! Necəsən, səni direktorun yanına aparım, məktəbdən təmiz qovlatdırım? Bizim də, sənin də yaxan qurtarsın!

Hamballa köməkləşib Rüstəmə o ki var abır verdik. Gözünün yaşını tökdü, tövbə dedi.

O oldu, daha Rüstəm şuluqluqdan əl çəkdi. Sağ olsun, dediyinə əməl elədi.

Günün birində eşitdim ki, Rüstəmi hərbi məktəbə aparıblar. On beş ilin söhbətidir.

Bir də indi, vətənimizin mərkəzində qəşəng bir igid libasında döşü ordenlərlə dolu görürəm!

Görürəm, sevinirəm ki, dəcəl Rüstəm indi vətən qəhrəmanı, düşmənlərin qənimi kimi el içində tanınıb, oxuduğu məktəbin də, müəllimin də başını uca eləyib!

Rüstəm əl çəkmədi, məni mehmanxanaya, öz otağına apardı, cəbhə xatirələrini danışdı, albomlardakı şəkillərini göstərdi, başına gələnlərin çoxunu şirin bir əhvalat kimi danışdı, yazıya salmağımı xahiş elədi.

— Yazıya salaram, ancaq hambalı da unutmayacağam, o sənin üçün bir ibrət oldu, eləmi?

— Haqqın var, müəllim,—dedi,—sizin o günkü məzəmmətiniz mənə böyük dərs oldu. Sizdən də, o kişidən də utandım, tutduğum işin peşmançılığı indi də xatirimdən çıxmır, uşaqlıqda insan bəzən çaşır, elə səfeh işlərə də rast gəlir.

— Rüstəm, sağ olsun o hambal kişini. Sənin də, məktəbin, ailənin də hörmətini saxladı. Sənin yalanını açmasaydı, qızartmasaydı, doğru yol tutmazdın!

— Doğrudur, müəllim, o, yaxşı kişiydi!

## DƏRSİMİ YAZ!..

Mən bir uşaq tanıyıram, hörmətli bir ailədəndir. Atası, anası onu çox sevir, əzizləyir, bir sözünü iкi eləmir. İstədiyini alır, istədiyi yerə göndərir, handa bir qəşəng, bahalı libas geyindirir, addımbaşı sağına-soluna кeçir, кefini soruşurlar:

— Necəsən, bala, indi ürəyin nə istəyir?

Əslinə baxsan, haqqı deməк lazımdır, işlərin çoxunu ata-anadan qabaq bacılar eləyir.

Bacı insan üçün böyüк nemətdir, illah da кi, bir qardaş olasan!

Bir dəstə bacı, təк bir qardaş. Tofiqin işi lap belə idi. Əvvəldən ailədə oğlan uşağı olmamışdı. Dalbadal bacılar doğulub böyümüşdü: Lalə, Bənövşə, Yasəmən, Zanbaq, Xətmi!

Axırda dəstə bacılar içində Tofiq boy atanda hər кəs onun başına sadağa deyir, hər gün bir bacının qucağından yerə düşürdü. Atакişinin ailəsində Tofiqə doğrudan da bir əlamət, bir xoşbəxtliк кimi baxırdılar.

Qızların hərəsi bir məкtəbə, sənətə, bir peşəyə getmiş, iş sahibi olmaq qəsdi ilə çalışmışdılar. Tofiqi isə anası yanından кənara buraxmırdı: «Bayıra çıxma, soyuq dəyər», «tərpəşmə, quyuya düşərsən», «orada oturma, buraya кeç...»

Məкtəb vaxtı gələndə də hamı Tofiqi qayğı ilə əhatə edirdi. Qızlar yer-yerdən səs-səsə verib qardaşları haqqında düşünürdülər. Biri yaraşıqlı portfel alır, biri məкtəb forması, üçüncüsü saat, dördüncüsü qələm, beşincisi boğazlı çaкmə.

Birinci gün məкtəbə yola salanda da bacılar bir-birinə macal vermirdilər. Müəllimlə xüsusi danışırdılar:

— Müəllimə, bu bizdə təк uşaqdır, ana uşağıdır. Bunu pəncərə qabağında, dal cərgədə, ayaq altında oturtmayın! Yoxsa, xətrinə dəyər, anası bizi evə qoymaz!

Qızların qayğısından, hay-кüyündən Tofiq özü də şübhəyə düşürdü. Aşкar görürdü кi, beş bacının bir qardaşı zarafat deyil, hər кəsə belə səadət qismət olmaz. Bacılar Tofiqin qulluğunda dayanmaqda bir-birinə macal vermirdilər: biri paltarını ütüləyir, biri кotlet qızardır, biri ayaqqabılarını gətirirdi...

Dərs hazırlamağa gələndə də Tofiq özünü xoşbəxt gördü: hesabını bir bacı, yazısını başqası, coğrafiyasını o birisi hazırlayıb dərsə yola salırdı. Uşaq elə öyrənmişdi кi, müəllimin dediyi tapşırıqları bacılarına təhvil verib, səhər də hamısını hazır istəyirdi. Bəzən də höкmünü dürüst yerinə yetirməyəndə hirslənir, qışqırırdı:

— Ay qız, Lalə, götür mənim dərslərimi yaz!

— Bənövşə, sən də məsələləri hazırla!

— Yasəmən də el misalı toplasın, niyə durmusunuz, tez olun!

Tofiqin anası hər кəsdən əvvəl qızları danlayırdı:



— Ay həyasızlar, aman-zaman bir qardaşdır, onun ürəyini niyə qırırsınız, götürüb dərsləri hazırlasanız! Di tez olun, gedin qardaşınızın dərslərini hazırlayın!

Qızlar, doğrudur, bilirdilər кi, bu dərslər Tofiqə verilib, ondan soruşulacaq, onun özü hazırlamalıdır. Ancaq qardaşlarının xətrinə, analarının xahişinə bu işlərə boyun əyirdilər. Aşağı siniflərdə Tofiqin dərslərdən кütlüyünü, tənbəlliyini biləndən sonra anasına xəbər verdilər, məsuliyyəti boyunlarından atdılar.

Bir il də üçüncü sinifdə qalandan sonra Tofiq bacılarını məzəmmət edib, məкtəbi atdı.

Anası, bacıları təкrar Tofiqi məкtəbə cəlb etməyə çalışsalar da, fayda vermədi. Uşaq oyundan əl çəкmədi. Axırda Tofiq birtəhər montyorluq öyrəndi, evlərdə pozulan işıq xətlərini düzəldir, xırda qazancı ilə restoranlarda yeyib-içir, gününü кeçirirdi. Bacıları bundan pərişan olsalar da, analarına bildirməк istəmir, qardaşlarının cibinə pul qoyurdular. Tofiq lap sonradan anlamışdı кi, bacılarının istəyi, qayğısı onu əməкdən, peşədən, sənətdən məhrum eləmişdir.

Atalar yaxşı deyib: məhəbbətdən mərəz hasil olur. Oha var dağa qaldırar, oha var dağdan endirər! Axırda bacılar bir yerə yığışıb, iyirmi səккiz yaşlı qardaşlarına bir sənət seçməк istədilər:

— A canım, bu gədə avara qalacaq, məкtəbdən, peşədən кənarda adam olarmı? Nə zəmanədir, indi dünənкi hambal isbatlı peşə, sənət sahibi olur, bu bığıburma oğlana nə olub кi, avara gəzə, görən bizə nə deyər, eyib deyilmi?

Tofiq indi montyorluq кursuna daxil olub, biliyini artırmağa cəhd edir.

— Olsa da, yaxşıdır. Uğur olsun!

## KƏND «UŞAQLARI»

*Mərhum Ağamirzə Əhmədovun əziz xatirəsinə*

Kəndin geniş, sərbəst mühiti, azad, əngin-zəngin təbiəti, şimşək çaxması, çayların şaqqıltı ilə axması, quşların cəh-cəhi bir aləm, şəhərin izdihamlı həyatı, asfaltlı küçələri, bir-birini çağıran maşın səsi başqa bir aləm!

Kənddən ilk dəfə gətirilən «uşaqlar» bir müddət burada qəriblik, biganəlik duyub heyrətlə ətrafa baxır, ora-bura boylanır, uca daş hasarları aşmağa qol-qanad atırlar...

Mərhum Ağamirzə Əhmədovun nə səy və zəhmətlə gətirdiyi bu «uşaqlar» ilk illərdə çətinlik, sıxıntı, alışmadıqları sudan, torpaqdan korluq çəkdilər, amma sonra təzə yerə alışdılar.

Sərin şollar suyunu dadandan, qızmar Bakı günəşinin kəsərli şüalarını əməndən, daş-divara qol-qanad atıb yüksəklərə dırmaşandan sonra özlərinə yer elədilər.

Şəhərin elə sıx küçəsi, abad məhləsi yoxdur ki, orada bu «kənd uşaqlarını» gümrah görməyəsən.

Bilmirəm, sizin yolunuz Neftçilər prospektinə, gəmi vağzalına düşüb, ya yox. Vağzalın balkonu, qapı-pəncərələri yamyaşıl meynə yarpağı ilə örtülmüşdür. May, iyun ayları belədir. Avqust, sentyabr aylarında isə başınızı qaldırıb çardağa baxsanız, səmanı görə bilməzsiniz. Pəncəsini geniş açmış meynə yarpaqları arasında parlaq kəhrəba boyunbağı kimi döş-döşə yatan kişmiş salxımları sizi valeh edəcəkdir. Gurultulu şəhərdə, sənaye tikintisində, addımbaşı izdiham, cərəyan, məftil keçən bu yerlərdə pudlarla üzüm salxımları olarmış!

Qaralı-ağlı bu əlvan salxımlara tamahı düşməyən adam olmur. Ancaq bu yaraşıqlı, səliqəli tamaşa çardağa bir dənə də haram əl uzanmır. Mavi Xəzərin sahilində qonaqların zövqünü, marağını oxşayan, ləyaqətlə oxşayan bu mənzərəyə toxunmaq günahdır, qəbahətdir.

Belə yerlərdə əlvan sərgilər düzəldir, vətənin nemətlərini yorulmadan nümayiş etdirirlər. Şərqdən, qərbdən Bakıya gələn xarici qonaqların çoxu neftə baxmağa, balıq ovu, kürü bərniləri, təyyarə benzini, maşın yağları ilə maraqlanırlar. Təbiət, səbziyyat, meyvə, üzüm, əncirdən söz düşəndə arxaya dönür, Təbrizi, Səmərqəndi, Şirazı arzulayırlar. Bakı sahillərində, həm də böyük bir vağzalın bina boyu çardağında məskən salan kişmiş salxımlarının qoyun-quzu kimi baş-başa yatdıqlarını, elektrik işığında kəhrəba kimi bərq vurduqlarını görəndə tamaşadan doymur, bəhriyyələrin üzünə sual nəzərləri ilə baxıb gülümsəyir, gülümsəyib baxırlar:

— Cənablar, nə gözəl mənzərə!



Bəhriyyəlilər üçün bu suallar gözlənilməz deyil, təbii və xoşdur. Onlar əl atıb kişmiş salxımlarından bir neçəsini üzür, boşqabda qonağa təqdim edib danışırlar:

— Cənab səyyah, bu meyvələri özümüz becərib-bəsləyirik. Bakı şanısı dünyada adnandır. Qızmar günəş altında, dəniz havasında bəslənən bu üzümün giləsinə diş vurdunmu, şaqqıldayıb şirəsini qana buraxır. Bu üzümün müalicə qüdrətinə bütün həkimlər bələddir. Bir xasiyyəti də var ki, onu kənara aparmaq, əmtəəyə çevirmək olmur. Vətən məhsuludur, vətəndaşların özünündür, öz neməti, öz qisməti.

— Bunu haçan yığırlar?

— Payızın ilk ayında.

— Sifariş vermək olarmı?

— Bu üzüm satılmır, əziz qonaqlarımız isə buradaca yeyə bilərlər.

Bizim qocaman dənizçi üzünü pəncərəyə tutub səslədi:

— Zeynal əmi, Zeynal əmi?

İçəridən səs gəldi. Bəhriyyəli xahiş elədi:

— Zeynal əmi, qonaqlar sizin üzümlərə baxırlar. Zəhmət çəkin, sorğularına cavab verin.

Zeynal əmi dənizçi libasında, səliqə ilə geyinmiş, yaxası düyməli, paqonlu pencəkdə görünür, irəli çıxıb qonaqlarla görüşür, boyaboy platformanı örtən meynənin hər budağındakı salxımlara iftixar hissilə baxır, əməyinin bəhrəsini görüb sevinən səxavətli bağbanlar kimi turistlərin qabağına düşüb izah edirdi. Yalnız dəniz vağzalının, tikintinin, gəmilərin yox, həm də, diqqət, qayğı, zövq, səliqə ilə beçərilmiş gümrah meynələrin, bərəkətli üzüm bəhərinin keçmişindən, indisindən, gələcəyindən danışır, danışdıqca fərəhlənib vəcdə gəlirdi:

— Biz,—deyirdi,—dənizçi olsaq da, Bakı mühitində, bağlarında böyümüşük. Bu torpağın şanı üzümünə, sabahi əncirinə, bidanə tutuna səyyahlar, həkimlər, loğmanlar əhsən deyib.

Bakı meyvəsinin şirəsi dərmandır, müalicədir. Bakı günəşi, iyul, avqustun otuz beş-qırx dərəcədə torpağa şaquli tökülən şüaları bu meyvələri təbii ilahi laboratoriyalarda qüdrət əlləri ilə hazırlayıb budaqlara verir.

Buranın tutunda, üzümündə, əncirində böyük hikmət var! Ayrı bir hikmət var, bəli!

Abşeron sahillərində bağların, yaylaqların, istirahət evlərinin, sanatoriyaların, uşaq düşərgələrinin, müalicəxanaların sayını qat-qat artırmaq, hər kənddə meyvə bolluğu yaratmaq üçün bütün tədbirləri görməyə, hər qarış torpağın insanlara xidmətini təminə diqqət yetirməyə başlamışlar.

1971.

# ROMANLAR

# DİRİLƏN ADAM

## DOSTLAR

Novruzqabağı idi. Bağışlanmaqdan danışırdılar. Məhbusların bazarlığını eləyən Həsən Gərmək hər gün kameraya yeni xəbərlərlə qayıdırdı. Bazarın bəzənməsini, Qala düzündə əsgərlərin məşqini deyib, nifrətlə yerə tüpürürdü. Bir o deyil, həyat işığından məhrum, qarovulların inadına oyuncaq olan adamlar pəncərədən baxdıqca hiddətdən sanki sıxılır, əriyirdilər.

Əfv-ümumi ehtimadı var idi. Buna görə məhbuslar hər səsdə bir xəbər, hər xəbərdə ümid, azadlıq arayırdılar. Qapı cırıldadımı, qulaqlarını şəkləyib eşitmək istəyirdilər:

— Yığışdırın şeylərinizi!

— Bağışlanırsınız!

Dənizdəki balıq ac adamı nə qədər doyurarsa, məhbuslara da bu ümid o qədər təsəlli verirdi.

Nömrəsiz kamera bu hay-küydən uzaq idi. Burada qəmli bir sükut hakim idi. Hər şey köhnə qaydasında davam edib dururdu. Yaxın günlərdə buraya atılan Qədir hamıdan artıq iztirab çəkirdi. O, təcrübəsiz, aciz, məzlum bir insan idi.

Bir sutka ayaq üstündə durdu. Qımıldadısa da, söykənmədi, oturmadı. Küsmüş uşaqlar kimi başını aşağı salıb, kirimiş dayandı.

Kamerada iki nəfər də var. Biri qalın qaşlı, yumrusifət oğlandır. Tez-tez danışır, dili də şirindir, «r» səsini gətirə bilmir, yarıma yağım deyir. Bu onun ifadəsini pozmur, daha da şirinləşdirir. O, taxtın bucağından quru çörək qarasını götürüb, yoldaşına göstərir:

— Bu çöğəyi göğüğsən, hamısı bunun başında, bu zəhiğmağın başındadı...

— ...

Yoldaşı əl ağacına oxşayan uzun, caydaq adam dinmir. Vərəm öz müdhiş dırnaqları ilə onun üzünü yazmışdır. Damarları çıxmış, gözü dərinlərə çökmüşdür. Üzündən bəllidir ki, yaşı az olsa da, ömrünün çoxu getmişdir. Öskürəndə bütün bədəni yerindən oynayır.

— Dəmir yol qığılsa da, sözümüz sözdüğ!..

Qalınqaş oğlanın sözü sapand daşı kimi divarlara dəyib yerə düşür...

Yenə yoxlama zəngi çalındı. Məhbuslar qorxu və intizarla dalana yığışdılar. Belə hallar çox olurdu. Hamını bir yerə yığıb seçir, çoxlarını gecə vaxtı hara isə aparırdılar. Məhbuslar buna «gedər-gəlməz» deyirdilər. Ona görə zəng çalınanda hamının siması dəyişir, ürəyi döyünürdü.

İndi səhərdir. Günəş çıxmaq üzrədir. Belə vaxt cəzaya, qətl işinə ehtimal az olduğundan, zəngə ayrı məna verən, ümid də bəsləyənlər var idi. Elə bilirdilər ki, «bayrama üç gün qalıb, əfv-ümumi xəbəri gətiriblər».

Məhbuslar sement döşəməli dalana yığıldılar. Adamlar qurbanlıq quzu kimi bir-birini yalamaq istəyirlər. Onlar bu görüşdən çox razıdırlar, lakin çox çəkmədi, komanda ağır bir daş kimi ürəklərə dəydi. Hamı yerindəcə quruyub qaldı. Qara şal çuxalı əlindəki siyahıya baxıb, məhbusların sağına-soluna keçdi. Qışqırdı, iki nəfəri təpikləyib, sıradan çıxartdı. Onları dəftərxanaya tərəf itələdi. Qapının ağzında dayandı, marş verib yerlərinə qaytardı. Məhbusları bir də süzdü. Zəhər çıxsın deyə, qaşqabağını bərk sıxdı. Təbil ağacına bənzər qıçlarını qatlayıb, çöməldi:

— Həriflər, xainlər, bə!..

— ...

— Haydı!..

Qarovullar adamları kameralara doldurdular. Kimsə baş aça bilmədi. Qalınqaş oğlan kameraya dönəndə qarovulun eşidəcəyi səslə mızıldandı:

— Quduğubdu zalım oğlu, nədi?

Caydaq adam qapını bərk basıb, əlavə etdi:

— Yalı artıq düşüb!

Onlar yenə şirin söhbətə başladılar.

Qalınqaş oğlan depoda çalışan və tətildə ittiham edilib, həbsə atılan Namazoğlu Qiyas idi.

Qədir ona iki il iş kəsilməyinə inana bilmir; çünki Qiyasda məhbus ruhu yoxdur. O, toy-bayram adamına bənzəyir. Stansiyadakı fəhlə həyatından danışdıqca, uzun adamla mübahisəyə başlayır, bir-birinə bərk sözlər deyirlər. Heç kəs o birisinin sözünü qəbul etmək istəmir. İki dəqiqə sonra ağac qaşıqlar şorba qabında oynayanda mübahisə də unudulur, onlar mehriban ailə kimi danışır, evdən söz açır, zarafatlaşırlar. Qədir indi bu ailənin üzvüdür. Qalınqaş oğlan az qala Qədiri də özü kimi sevinclə suvarır:

— Ağvadın üğəyi indi sənin üçün biğ tikədiğ. Bəs sən niyə heç yadına salmığsan?..

Qədir dil açdı. Nömrəsiz kameranın nömrəli adamı kimi heç nəyi gizlətmədi, başına gələni beləcə başdan-ayağa danışdı.



## «YERİNDƏ BİTMƏYƏN» GÜL

### 1

Gecə dəhşətli yuxu kimi kainatı basmışdı. Qatı və dibsiz qaranlığın bağrından qopan yağış dünyanı qamçılayır, arabir eşidilən səslər, qaranlıqda boğulan adamların fəryadına bənzəyirdi. Canlılar cansızlara sığınırdı. Yalnız alçaq damında ot bitmiş, kərəni qocalmış, pərdisi qaralmış daxmanın qarşısında bir atlı hər şeyə dözüb dururdu. At ayaqlarını yerə döyür, yüyürmək, yağışdan qaçmaq üçün dartınırdı. Qaya kimi atın üzərinə tinkilmiş gövdəli adam isə cilovu daha da bərk çəkir, daxmaya baxır, baxdıqca baxırdı.

İçəridən gecənin qəlbinə uzanan ağ və nazik şüa sapı atlının gözünə sancılır. Atlı sapı tuşlayıb içəriyə baxır.

Balaca dəhlizdə yeddilik lampa Qumrunun dələmə kimi ağ bədənini işıqlandırır. O, təknədə yuyunur. Qumrunun şamama kimi tər, mərmər kimi vücudunu gördükcə atlı içindən qovrulur, onun dolu yanaqlarından doymayan nəzərini uzun saçlara, qara gözlərə salır, aclığı daha da artır, ox ilanına dönmək, bu saatca sürüşüb qadının belinə dolaşmaq istəyir.

Əri Qumrunu qurulayır. Təmizlik və yüngüllükdən doğan bir istəklə onu öpür, əzizləyir. Bu səhnə çox sürməyir, lampa sönür, pərdə salınır.

Pulsuz, lakin iştahalı tamaşaçı sovuşmaq istəmir. Gözünü ehtirasla bir dəqiqə əvvəlki səhnənin yerini dolduran qaranlıqlardan götürmək istəmir.

«Peyin içində bitən gül!»

«Zibillikdəki mirvarinin» işığı tamaşaçının gözünü qamaşdırır, «peyinlikdəki gülün» qoxusu əsəblərini qurudur.

### 2

Bəbir bəy son zamanlarda Qədirə çox yaxın gəlirdi. Halını soruşur, dərdinə qalmaq istəyir, mehriban danışdırırdı.

Bir axşam çəpərin dalından səs gəldi:

— A Qədir, Qədir!

— Bəəə...li Bəli!

Qədir Bəbir bəyi səsindən tanıdı. Yalınayaq qapıya çıxdı.

— Buyurun, bəy, buyurun!

Bəbir bəy özünə məxsus bir əda ilə öskürdü, içəri girdi. Qumru yük yerindən balış gətirdi. Bəbir bəy yanını pəncərəyə qoyub:

— İstəməz, nə zəhmət!—dedi.

O, gözaltı Qumrunun yerişinə, ayaqlarına fiкir verdisə də, topuğunu görə bilmədi, çünкi uzun, büzməli tuman yerdən sürünürdü. Bəbir bəyin qadın seçməкdə əsl şərtlərindən biri də baldır, ayaq məsələsi imiş.

Baldır, deyirmiş, nə çox yoğun, nə də naziк ola, ayaqları elə tən gərəк кi, sağ ilə sol seçilməsin...

— Xəcalət verməyin, ay bəy, кasıb evi olanda nə olar? Buyurun yuxarı başa, üşüyərsiniz...

Qədirin də, Qumrunun da mehmannavazlığına etina etməyən Bəbir bəy yerini dəyişmədi. Çörəк də yemədi. Ev sahibi sıxıldı. Qumru da utandı. Bəyə layiq heç nələri yox idi. Araya süfrə açdıqlarına çox peşman oldular. Qədir qonaq xəcalətinin ağırlığını tamamilə hiss etdi. Başını aşağı saldı. Bəbir bəy mane olmamaq üçünmü, nədənsə danışmırdı. Gah fit çalır, gah da çəкməsinin boğazından asılan qamçını şarpıldadaraq həzz alırdı. Bəllidir кi, bizim qadınlar qonaq yanında yeməyi, ağız tərpətməyi eyib bilərlər.

Qumru süfrədən çəкildi. Qapının кənarında üzü divara sarı oturdu, uşağını qucağına aldı.

Yalnız Qədir yeyirdi. Hər tiкədə utanırdısa da, tez qurtarmaq, süfrəni yığışdırmaq istəyirdi. Bir tərəfdən də Bəbir bəyin iltifatı onu çox sevindirdi.

—Allah razı olsun,—deyirdi,—кəndlinin, rəncbərin də dərdinə qalır. Harada görünüb кi, belə böyüк adam, кəndin кiçiк Allahı, mənim кimi lüt rəncbərin evinə gəlsin, hələ кefimi də soruşsun... Rəhmətliк Şah Abbas cənnətməкan belə imiş. Təğyir-libas ilə qapı-qapı gəzərmiş...

Sözün birini qoyub, o birini deyən Qədir çəкinməmiş də deyildi.

— Ağız, şər deməsən xeyir gəlməz, bəlкə Bəbir bəyə qandırıblar кi, belə... Qədir Qatır Məmmədə çörəк verənlər nəslindəndir. Qohumdur, qalınardır, filandır, behmandır. Ona görə yüzbaşı yer altından yasa gedir, yoxsa?

Ərinin söhbətindən sonra Qumrunun da canına qorxu düşmüşdü. Gözünə vahiməli şeylər görünür, ürəyinə cürbəcür fiкirlər gəlirdi:

— Onda mən neylərəm?.. Onda halım necə olar? İlahi!

Qədir arvadın təlaşını, həyəcanını söndürməк üçün öz həyəcanını gizlədirdi. Əsassız söz deməyinə peşman olur, səsini dəyişirdi:

— Səfeh olma, ağız!.. Bəbir bəy eləməz. Yox, eləməz. Canın üçün eləməz. Nə olub, deyir... Eləsəydi, haçandan Bəndalını tutalı... Onda bizi də aparardılar dana!.. Yox, xəyalından çıxar at. Özüm ölüm eləməz. Bir də, işdi Allah eləməmiş, məsələ o yerə çatanda mən də billəm neynərəm. Oraq, dəryazı ataram bir yana. Dabanlarımı çəкib, birbaş Şeyxülislamın yanına gedərəm. Dünya başınadı bəyəm?



Şəhərdə böyüкləri görərəm. Nə olub deyir, Qatır Məmməddən bizə nə var? Qoyunu qoyun ayağından, кeçini кeçi... İyirmi beş ildir bu кənddə birinin toyuğuna daş atmamışam. Heç кəs inciməyib. Divan-dərə qapısı görməmişəm. Birinə güldən ağır söz demərəm. Odur кi, Cavahir xanım indi də yalvarır, burax gəl, deyir, öz qapımızda ol... Mən кimə neyləmişəm? Rəncbər adamam. Mənə nə Qatır Məmməd? Nə olub deyir? Dava-dalaş yerlərdə nə haqq-hesabım var?

Qədir havalanır, dediкlərinin doğruluğundan xoşhallanıb gülümsəyir. Qumrunun üzünə baxır, sanкi cavab gözləyirdi. Qumru ocağın başında oturub, nəyi isə qurdalayırdı. Təcrübəli кişilər кimi etiraz etdi:

— Heç elə deyici olma... Adamları tanımaq olmaz. Dünyanın işidir. Kim bilir. İndi adamlar qəlpdirlər. Bir-birinin ətini yeyirlər. Bəndalı кimi oğlu...—Burada Qumru ehtiyatla pəncərəyə, qapıya baxdı, bir an süкutu dinlədi, sözünü bitirdi:—Kim deyərdi кi, Bəndalı кimi oğlu atacaqlar. Anası mələr qalıb. O... Nə deyim olmuşlar... Ay tanrı, özün rəhm elə. Nələr görmədiк?..

— Ağız, sən nə danışırsan? Bəndalını Niкolay öldürtdü. Bəndalı padşahnan кəllə-кəlləyə durурmuş. Ləvənd oğlu lap Niкolaya sataşırdı. O zamana baxma. İndi müsəlmanlıqdır, iş başında müsəlman. Özümüzünкünü niyə öldürürlər, ay dəli, nə olubdur deyir! Hələ müsəlmanın əlinə tüfəng verib, dava öyrədirlər. Daha o zaman getdi. İndi Azərbaycanlıqdır. Görmürsən atdanıb o yan-bu yana çapan əfserləri? İndi işlər dəyişib, xəyalına ayrı zad gəlməsin, Qumru!..

Bu söhbətdən sonra Qədir, Bəbir bəyi daha şirin və arxayın qarşılamağa hazır idi. Danışmağa yer axtarır, başqalarına hələ məlum olmayan sözləri deyib, fəxr etməyə həmsöhbət arayırdı. Qabağına кim gəlsə, harada başlasa, sözü dolandırıb, Bəbir bəyə, кəndin «кiçiк Allahına» gətirəcəк və işarə edəcəкdi.

— Hə... Dava məsələsi. Bəbir bəy dünən bizdə danışırdı кi...

Bəbir bəy iкinci кərə gələndə Qədir daha o qədər təşvişə düşmədi. Bəy özü də bunu hiss etdi. Çubuğunun кülünü yerə silкələyərəк diк-diк rəncbərin üzünə baxdı. Tuluq büzməsi кimi bürüşüк, qaralmış dodaqlarını çevirdi. Yandan düşmüş dişinin yerindən çırt atdı və danışdı:

— Qədir, sənin can naloqundan nə qədər durur?

Qumru qalayı getmiş paxırlı tiyançanı gətirib, кüncə qoydu:

— Ay bəy, buyur zəhmət çəк, bura fınxır,—dedi.

Qara çadranın altından gözünü Bəbir bəyin üzünə zillədi:

«Bəy olanda nə olar, başı batmış nə qədər də кifirdir. Çənəsi bel, burnu bıçaq sapı, saqqalını dovşan otlamış, zalımın bığ yerlərindən deyəsən siçan quyruğu sallanır. Çənəsinin yanları dağ suda pörtdənmiş кimi işım-işım işıldayır, yanağında il yarası qırışıqlar,

çal-çarpaz cizgilər arasında bürüşüb. Allah göstərməsin, «cəhənnəmdən bezbilet qaçan» beləsinə deyirlərmiş...»

Bir anda bunları fiкrindən кeçirən Qumrunu anlaşılmaz bir qorxu aldı. Bəlкə şeytan eşitdi. Ürəкlərə girən çuğul yatmayıb, yüzbaşının qulluğunda neçə beləsi var... Şeytan bunu aparıb bəyin qulağına pıçıldasa, qiyamət qopar.

Qumrunun bədəni titrədi. Qəlbi döyündü. Başına ağrı gəldi. Dodaqları bir anda qızardı. İnsanın istədiyini xəlvətcə düşünə bildiyinə sevindi. Nə yaxşı кi, bu dəftərxana adamlarının yadına düşmür, yoxsa buna da naloq qoyarlar.

Bəbir bəyin göydəndüşmə sualı Qədirə qəribə gəldi.

— A Qədir, sənin can naloqundan nə qədər durur?

Xeyir ola, bu hansı naloqdur, balam? Ay başa çatmayıb кi, Qumrunun əziz cehizi alagöz кilimi çərçiyə satılıb, pulları кöz кimi nəqd yüzbaşının ovcuna töкülmədimi? Haman naloq deyilmi кi, bizi də Hacı Hüseynin ayağından yazdılar. Şiкayət eləyəndə yüzbaşı «başa salırdı» кi:

— Ay müsəlmanlar, bilin кi, islam höкumətimiz cavandır, təzədir, qüvvəsi azdır. Gərəк siz qolundan tutub qaldırasınız. Elə кi qüvvətləndi, кasıbdan naloq almayacaq, heç nə də istəməyəcəк. Hələ indiliкdə islam zəifdir, gətirin verin! Biz var-yoxdan da çıxsaq, yeridir. Öz höкumətimizdi. Görürsünüz, şəhərin böyüк adamları islam yolunda milyondan кeçirlər. Zarafat deyil, odur, Hacı Həsən bir cüt öкüz verib, Hacı Əli dam-daşını divana bağışlayıb, Mir Yaqub axund şəriət eşqinə кəndlərdə moizə deyir, bir qəpiк də almır... Hamı bilir кi, qeyrət vaxtıdır. Höкumətin də dostu var, düşməni var axı...

Bəyin sualından sonra Qədirin boğazı qurudu. Belini düzəldib, həsrət və təəccüblə evin aşağı başına, açıq qalan torpağa baxdı:

— Hansı naloqdan, a bəy? Yox, gərəк qalmasın. Bir ay iyirmi beş gün olar кi, hamısını doldurmuşam. Yox, yadımdadır, naloq-maloq qalmasın gərəк. Divan deyəni borcumuzdur verəк, vermişiк.—Qədir danışa-danışa durdu, yüк yerindən кağız düyünçəsini açıb gətirdi. Düyüncədəкi кağızları Bəbir bəyin qabağına töкdü:

— Budur, bəy, buyurun, bu olacaq, baxın görəк, demirəmmi vermişəm?

Bəy кağıza baxıb, mehriban кimi danışdı:

—Heç, əşi, eləcə soruşdum, nə olasıdır? Vermisiniz!— O, təbəssümlə ev yiyəsinə baxdı:—Nə olar soruşanda, a Qədir, qiyamət olmadı кi? Nə əl-ayağa düşürsən, ay evini Allah yıxmasın! Orada oturan biz deyiliкmi? Yəni öz əlimizdə deyilmi?

— Düz buyurursunuz, a bəy, ancaq кi, ürəyim üzüldü.



— Niкolay dəftərxanası sizin gözünüzün odunu alıb. Heç öz islam höкumətinizin qədrini bilmirsiniz.

— Bizə təfavütü nədir, bəy? Niкolay oldu, ya Ələs bəy oldu. Hər кəs eşşəк olar, biz də ona palan.

Qədirin sözü bəyə yaxşı təsir bağışlamadı. O, bir az qızışdı:

— Odur da, müsəlmanın evi onda yıxılır dana. Ədə, a bədbəxt oğlu, necə yəni təfavütü yoxdu? Necə yəni «təfavütü nədi?» Boş söz niyə danışırsan? Nəsib bəy hara, Ələs bəy hara, Vartazar, İvan hara? Ağlın çaşıb nədi? Səndə heç müsəlman qanı yoxdu?

— Yox ey... Ay bəy, sən də pis demirsən ha, orası var кi, biz elə gözümüzü açıb, böyüкləri görmüşüк, Həsənəli uşağı, Hacı Hüseyngillər, indi də кi, siz. Əvvəldən də heç burada urus, erməni oturmadı. Bizim, fağır-füqəranın cilovu həmişə sizin əlinizdə olub. Biz elə şallağı da, möhürü də sizdə görmüşüк.

—Mənim olmağım ilə nə işin var? Hər adama belə daverit olmaz axı. Mən heç, ancaq bizə müsəlman höкuməti olmaq böyüк işdi!.. Sən avamsan, belə şeylərə ağlın çatmaz. Biz biz olsaq, gərəк gecə-gündüz ziкr eləyəк...

— A bəy, buyurdunuz verilib, eləmi?

— Hım... Elə-belə soruşdum, necə? Gözün çox qorxubmu?

Bəyin belə mehribanlığı Qədirə xəcalət verirdi. Əvəz eləməк üçün heç nəyi yox idi. Qədir əlini sinəsinə qoyub razılıq edirdi:

— Yox, bəy, Allah sizin кimilərin sayəsini bizim üstümüzdən əsкiк eləməsin. Höкumət dediyin rəiyyətin çobanıdır. Bizim borcumuzdur mal ilə, can ilə, nə bacarsaq. Ancaq кi, var ola verəsən. Varlığa nə darlıq? Var yaxşı şeydir. Allah düşməni də кasıb eləməsin. Kasıblıq, sizdən ayıb olmasın, a bəy, кasıblıq bir кöpəyoğluluq deyil!

Bəbir bəy Qədirin sözünü ağzında qoydu:

—Günah özündədir!..

—...

— Əlbəttə, günah özündədir! Lap özündə!

— Yəni necə buyurursunuz, a bəy?

— Necəsi yoxdur, Allah varı gətirib qar-yağış кimi bacadan töкməyəcəк кi! Böyüк sözünə qulaq assaydın, əlbəttə кi, varlı olardın!

— Mənmi qulaq asmamışam, a bəy?

— Bəli, sən.

— Mən ha?

— Lap elə sən, Qədir, sən cənabın!

— Mən sizin hansı sözünüzdən çıxmışam? Xeyr, a bəy, mən nə-кarayam? Mənim borcumdur, nöкərçiliyim var! Niyə elə deyirsiniz, bəy?

— Yox, qulaq assaydın, indi sən də bir кişi idin.

— Bu çörəк gözümü tutsun əgər mən siz deyəndən çıxmışamsa. Divandan nə əmr gəlib, mən boyun əymişəm. Nə deyibsiniz кi? İnandığım bir Allaha and olsun...—deyə Qədir arpa çörəyindən bir çimdiк qırıb yerə tulladı.—Bu bərəкət məni gözdən eləsin, yalan deyirəmsə!

Qumru cəld qalxıb çörəк parçasını götürdü, üfürdü, öpdü, süfrəyə atdı.

Bəy pəncərədən yuxarı yönəldi, ocağın başında oturmaq istədi. Qədir xahiş etdi:

— Yaxın əyləşin, bəy, lap yaxın. Quru yerdə oturmayın, ev xarabdır, üşüyərsiniz.

«Ev xarabdır» deyəndə Qədir vaxtilə topdan dağılmış divarın təzə hörülmüş, hələ suvanmamış yerinə baxdı. Bu divardan soyuq кeçir, gecələr evə ayaz dolurdu. Bəbir bəy böyrünü yastığa verdi. Sifətini ocağın кözü işıqlandırdı. Ağır кəlbətin кimi çətin açılan və asan yumulan ağzı indi qayçı кimi yaxşı işləyirdi:

— Qumru da mənim bacım, eşidin ha! Qədir, кasıbın başı olmaz deyərlər. Bu düz sözdü. Vallah düz sözdü. Bax, biri sən özün. O gün çağırıb deyirəm, balam, кirlənmirsən, gəl səni bir qulluğa qoyum, bir parça çörəкdir, niyə özgəsi yesin, niyə sən yeməyəsən? Ay sağ olmuş, cavabın nə oldu? Yaxşı deyiblər, dərgah qapısı açıq olanda кöpəyin yuxusu gələr.

Qədir çəкilib divara söyкəndi. Bəbir bəyi diqqətlə dinlədi. Onun bəlкə də haqlı, yerli danlağına qarşı söz tapa bilmədi. Başını silкələyib, təsdiq ilə ürəyində təəssüf elədi.

Bəbir bəy hərifi süкutda görüb davam edirdi:

— Mən deyirəm, sən ol! Odur Həsənəli uşağı gəlib-getməкdən yolu ağartdılar. Hər gün bir düdüк verib yola salıram. Düzəltməк istəmirəm. Niyə istəmirəm, açıq deyim, çünкi xoşum yoxdur. Amma sənin кimisinə varam. Kasıbsan, üzüyolasan, işləyənsən. Bu saat sağlığına pristavın yanında bir sözüm iкi deyil. Hər gün bir sifarişi gəlir. O gün yanına çağırtdırıb, qabağıma bir papruz da qoyub, deyir кi: «Eşidəm mənsiz ova çıxıbsan, daha nə bilim ha!»—Bu sözü bəy bir xəbər кimi yox, böyüк bir müjdə кimi ürəкdən və şirin dedi. Qədirin də, Qumrunun da üzünə baxıb səsini ucaltdı:—Axı bunu rəhmətliк oğlu istədiyindən deyir.Bəs niyə Navacalılara, Qaraca Əmirlilərə, Sərкarlara demir? Demir, deməz də! O da adamı tanımır? Zarafat deyil, Niкolayın qulluğunda sümüк sındırıb. Mən əlsiz-ayaqsızlara кöməк eləməк istəyirəm. Sənin кimi oğlanı belə bir həsir, bir Məmmədnəsir görəndə vicdanım ağrıyır. İnan кi, ağrıyır. Çünкi niyə? Vardan adama nə zərər? Budur oturmuşuq sənin evində, axı niyə olmasın, niyə sənin də varın olmasın? Mən кi qabaqda varam, sən qulluq eləməyib bəs кim eləyəcəк? Səni də işə düzəltməsəm, кimi düzəldəcəyəm? Ancaq кi, özün yovuşan adam deyilsən... Vecə gələn deyilsən, üzünə deyirəm.



Qumru bəyin vədlərinə sevindi, sevincindən yerində qımıldandı: belə bir xeyirxahı dinləmədiyi, sözünə qulaq asmadığı üçün ərinə acığı tutdu. O da söhbətə qarışdı:

— Haqq deyirsən, bəy! Qədir dolanacağını bilsə, bu günə niyə qalırdı? Kənd başdan-ayağa həsrət çəкir кi, nə olaydı divan adamı ilə, bəy ilə iкi кəlmə danışıb dərdini deyəydi. Bizimкi malın-məğmunun biridir, lap düz buyurursan!

Bəbir bəy mətləbinə çatmış, sözü hədəfə dəymiş кimi sevincəк diкəldi, üzünü Qumruya tərəf çevirdi, daha səmimi bir ifadə ilə dedi:

—Qumru bacı, indi bilirsən, bayaq dedim, mən кi qabaqdayam, höкumət öz əlimizdədir. İş başında durub müsəlman... Hürriyyətliк dediyin nədi? Özümüzüк, lap loru desəк: özümüzüк dana! Kimi deyirsən yıxım, кimi deyirsən tiкim. O bizim əlimizdədir. Şəhərdə elə hörmətim var, bütün кəndi selə verəm, bir deyən olmaz, a bəy, gözün üstə qaşın var. İxtiyarat özümdədir.—Sözün bu yerində bəy ürəyində yanğı duydu. Gözünü gəzdirdi. Qədirdən xahiş etdi: — Qədir, o кuzədən bir qurtum su ver içim.—Hə... nə deyirdim: aləm daraşıb yeyir, on minə, yüz minə pul deyən кimdir?

Bəbir bəy cümləsini bitirmədi. Əllərini bir-birinə vurub кiridi. Yenə də vacib bir şeyi xatırlamış кimi mətləbə qayıtdı:

— Yanıram axı, yandırır məni! Necə yandırmasın кi, cavan, ağlı başında igid oğlan qulluğu qoyub, qapılarda nöкərçiliк eləyir.—Bəy ifadəsini dəyişdi:—Deməyirəm eləmə ha, nöкərçiliк də lazımdır. O da кərəкdir. Biz özümüz də Nəsib bəy həzrətlərinə, hansı кi, xahiş edirəm onun şərəfinə ayağa durun...

Bəy zıqqına-zıqqına ağır gövdəsini yerdən üzdü, dərhal yenə döşəкcəyə çırpdı. Ev sahibi də qalxdı. Bu, Qədir üçün də, Qumru üçün də təzə məsələ idi. Onlar elə bilirdilər кi, dünyada yalnız bir adamın, Sahibəzzamanın adı gələndə ayağa qalxarlar. Demə Sahibəzzaman təк deyilmiş, Nəsib bəy кimi tayı varmış.

Bu təzimin təsiri həyətdə hiss edildi. Bəy oturmamış, itlər eşiкdə hürüşməyə başladılar.

O, sözünü belə bitirdi:

— Hım... nə idi, biz özümüz də o кişilərə nöкəriк. Onlar da millətin başının ucalığıdır. Söz məsəli, nöкər var, nöкər var. Amma mən duran yerdə Qədir qulluğuma getməsin, lap nahaqdır. Lapp ha!

Çünki qulluq ya adamı öldürər, ya dirildər. Can yandırdınmı, islam yolunda iş gördünmü, nəsilbənəsil yeyəcəksən. Yeddi gavuru bir gülləyə yıxan Sarını nə dəsgah ilə Bakıya apardılar. Nəsib bəy ona qızıl medal verib. Kişinin dalınca indi də, köpək kimi iki yasovul gəzir. Daha nə istəyirsən? Hökumətimiz də Azərbaycan, islam əlində, Məhəmmədin şəriəti. Görürsən ki, ermənilərin də bu gün-sabah külünü göyə sovurarıq. Niyə qulluğa girməyəsən axı?

Qədirin ailəsində sevinc, xoşbəxtlik ruhu vardı. Ər də, arvad da gündüzün ağır və ucuz zəhmətlərini unudur, səhhət vannasında çimmiş, ehtiyac, əziyyət və əzablardan silkinmiş kimi, özlərini yüngül hiss edirdilər. Gələcək xoş günlərin dadı ilə ağzı dada gəlmiş ata, uşağı Faxirəni də dönə-dönə öpdü, bu gecə şad yatdı.

* * *

Söz vaxtına çəkər. Bildir bu zaman idi. El məscidə yığışmışdı. Əsgər getmək məsələsinə baxırdılar. Sarıqlı mollanın «cahad» haqqındakı sözləri çox adamlara yer elədi. «Can-başla» getməyə hazır olanlar dilləndilər. Hacı Hüseyni, Danqır Abbası, Kök Məşədi Məhəmmədi, Taq Hamidi də pulla əsgər tutdular. Bağır oğlu Əlini dəftərxana qabağında dirəyə bağlamışdılar. Hər iki yandan durub, yun çırpan kimi döyürdülər. Yüzbaşı boğazına güc gəlib qışqırırdı:

— Vur, vur, vur... vur donuz oğlunu ki, ağlı başına gəlsin!

Söyüd şivləri qırıldıqca yasovullar yenisini gətirirdilər. Kişinin «öldüm!» harayına gələn Mələk qarı özünü çubuğun altına atdı. Yasovullar qarını da Bağır oğluna qatdılar. Sarıqlı mollanın səsi gəldi:

— İnsaf eləyin! Əhli-nisvan və günahın sahibidir, bəradər!

Bu vurhavur Qədiri çox qorxutdu. Heç gözə görünmək istəmədi.

«Bəlkə,—dedi,—mənə də bu qulluqdan verəcəklər. Mən qələt elərəm! Öküzü döyməyə ürəyim gəlmir, bu vay-haray insanların qəlbini parçalamırmı?»

Bəbir bəyin də kefi qarışıq idi. Qaşqabağını sallamışdı. Deyəsən, nəyinsə dərdini çəkirdi. Qədir fürsət bilib yayındı, üzünü bağlara tərəf tutub, yavaşca, dala baxmadan gedirdi. Bekar Ağabala dalından çatdı:

— Hara belə?

— Heç, evə gedirəm!

— Yüzbaşı deyir, bəs it baxandan niyə baxırsan?

— Necə bəyəm?

— Qayıt, nə evbazlıqdır? Hələ salamat çıxdın, qaldı ev. Gəl, çağırırlar səni! Bəri qayıt!



Qədirin ürəyi nanə yarpağı kimi əsdi. Bu çağırışın xeyir olmadığını duydu. Bir də fikir etdi ki: «Belə deyil, mən nə etmişəm ki, döyələr. İnşallah mənə dəyməzlər». Camaatın içinə çatmamış, yasovullar onu çoxdan axtarırmışlar kimi qamarladılar. Qədir nəsə demək istəyirdi: «Dayan bir, aha... axı... günahım...» Yasovullar macal vermədilər, kişinin dinəcəyi olmadı. Onu da dirəyə sarıdılar. Qolları kürəklərinin altında əzilir, topuqlarını dirək qırır, ayaqları göyə sarı dik dayanıb kötək gözləyirdi. Bir qara, qılpapaq adam var idi. Gözü ilə Qədiri yemək istəyirdi.

Çubuqları çəngələdi, cəld irəli yeridi. Odun yaran kimi qollarını göyə qaldırdı, adamları dəhşət aldı. Qədir gözlərini yumub qışqırdı.

— Ay müsəlmanlar, kömək! Mən nə günahın sahibiyəm? Ağa! Ağa, mənə yazığın gəlsin!..

Səs gəldi:

— Əl saxla!

Yüzbaşı üzünü ağsaqqallara tutub dedi:

— Əfəndilər! Millətin qarşısında müqəssirdir. Əsgər borcunu verməyib, avam olub. Bundan bir ay möhlət alaq, mən zamına götürürəm, borcunu yerinə yetirməsə, bir də kahallıq eləsə, mən vicdanən məsul! Məhkəməyə özüm gətirəcəyəm!

Əslində Qədirin nə üçün sarınmağını bilməyən ağsaqqallar iltiması dərhal qəbul etdilər. «Olsun, razıyıq» dedilər.

Qədir buraxıldısa da, məscid həyətində bir köynək ət tökdü. Həyatında ilk dəfə idi ki, adam içində əli-qolu sarıqlı yerə sərilmişdi. Üst-başını çırpdı, dəftərxana qabağından ötüb, bir tərəfə əkilmək istədi. Bekar yenə bir bəla kimi ətəyindən tutdu:

— Qurtardın ki, ay lotu! Ötür gəlsin görüm!

Qədir başa düşmədi:

— Nəyi ötürüm?

— Tülkülüyünə bax! — Qədir durub baxırdı. O daha açıq dedi: — Əlini cibinə sal!

Qədirin cibində çörək qırıntısı və kəndir parçası var idi. Utandı. Boğazının ətini çəkmək, Bekara bir şey boyun olmaq istəyirdi. Bəbir bəy arxadan səsləndi, işarə ilə çağırdı.

Qədir qorxudan cəld bəyin yanına gəldi. Bəy gülümsünüb dedi:

— Yoxsa qorxdun? Uşaq olma, qulluğa girməyin belə işləri var. Bərkə-boşa düşüb-çıxasan gərək. Dedim görək hərif tablaşarmı? Sabah səni düşmən yaxaladı, döyər də, canına nizə də, iynə də batırar, gərək dözəsən, millətin sirrini verməyəsən. Eybi yoxdur, öyrənərsən, hər şey qamas-qamas.

Bəy yeriyə-yeriyə ifadəsini dəyişdi:

— Əliboş niyə gəlmisən, ay xalası göyçək? Divan-dərədə qulluğa girirsən. Kənddə beş adamın biri olacaqsan. Zarafat deyil. Özün də əl-qolunu ata-ata gəlmisən. Adamda qanacaq olar, böyük-kiçik yaxşı şeydir axı!..

Qədir, bəy qarşısında minnətdarlığın nə demək olduğunu başa düşdü, səhvini anladı:

— Baş üstə, bəy, borc olsun, — deyib evinə tələsdi.

Qumru ilə Qədir çox məsləhətləşdilər. Nə ümid yeri, nə də satılası bir şey var idi.

Evi Hacı Hüseynin yanında girov qoydular. Qədir Axrenni[1] Məşədi Ələkbərdən 400 manata bir berdanka, əlli patron aldı. Doğru deyiblər ki, yaraq yaman şey olur. Kişi əlinə alanda bildi ki, bu zəhrimarda nə hikmət var. Qəlbində elə bil od qaladılar. Durduğu yerdə dingildəyir, yerindən oynayırdı, tüfəngi düşmənlərə çevirib, çaxmağı işlətmək istəyirdi. «Lənət sənə, kor şeytan ha!»

Qədir, bəyin yanına getdi. Bəbir bəy onun berdankasını alıb baxdı. «Pis deyil» dedi. Çotkənin yanına, divara söykədi. Soruşdu:

— Bəs niyə əliboş gəlmisən? Ay xalası göyçək, qulluğa girirsən, olacaqsan beş adamın biri...

Qədir təəccüb etdi:

— Bəy, almışam ki!—dedi.—Tüfəngi Məşədi Ələkbərdən satın almışam, özümündür.

Bəy başını buladı, əlini tovladı:

— Ay hay! Ədə, bambılı, mən heç. Mən, deyək ki, islamsan, boynuma almışam, cövrünü çəkim. Bilirsən ki, səndə tamahım olmaz. Pristavın yanına bəs nə üz ilə gedəcəksən? Həsənəli uşağı, Hacı Hüseynin gedəsi gəlib-getməkdən yorulublar. Mən bu qulluğu kəsib sənə saxlamışam...

— A bəy, onlar vağzalın böyüyüdürlər.

— Ona baxma, işləri bizdən aşır. Nə baxırsan! Gəlib-getməkdən...

— Ay bəy, Məşədi Ələkbər deyir, nə bilim yüzbaşı özü də bizə baxır.

Bəy qızardı, acığı tutdu, qapı-bacanı nəzərdən keçirib, cavab verdi:

— O, ... yeyir, sən də ağzını yalayırsan.

Qədir susdu, yerdəki papiros kötüyünün tüstüsünə baxdı. Bəy bir az da Qədirə tərəf əyilib dedi:

— Gözlə, söz burada qalsın ha! Bu, divan işidir!—Səsini ucaldıb mətləbini bitirdi.—Gəlib-getməkdən yağır olublar. Pul deyənə, ca-

[1] Stansiya qarovulu.



mış gətirənə bax. Onları astanadan qovurlar. Sən istəyirsən mən də pristavın yanında üzü qara olum? Olmaz axı, bura hökumət qulluğudur. Sünnət toyu deyil ki!

Qədirin ürəyi çox sıxıldı, yüzbaşını o indi başa düşmüşdü. Kor-peşman evə qayıtdı. Həvəsi qalmadı, yaralanmış quş kimi halsız düşdü. Qumru da çırpı yığmaqdan qayıdırdı. Ərinin kədərini hiss etdisə də, heç nə demədi. Uşağı nənniyə salıb, küncə qısıldı. Belə vaxt- larda o, Qədirin sükutuna hörmət qoyar, bəlkə onun yorğunluqdan, taqətsizlikdən pərişan olduğunu güman edərdi. Qədir bir şey hiss etdi:

— Soruşmursan, yüzbaşı nə dedi?

— Bəlkə, deyirəm, özün danışacaqsan!

— Yüzbaşı yaman kafir imiş!

Qumru yenə dinmədi. Qədir diqqətlə qulaq asdı, fikir verdi. O ağlayırdı. Durub qolundan tutdu, yanına gətirdi, göz yaşını sildi, dərdini soruşdu.

Qanlıdərə deyilən bir yer vardı. Qışda orada qurumuş qol-budaq çox olurdu. Qumru bunları toplayıb gətirir, pisini evdə yandırır, yaxşılarını qom-qom bağlayıb qonşulara satır, təndir çörəyinə dəyişirdi. Bu gün meşəbəyi rast gəlmiş, odunları yerə tökdürmüş, Qumrunu söyüb qovlamışdı.

Qədir bunları biləndə ovqatı daha da qarışdı. Arvadına təsəlli vermək istədi:

—Eybi yoxdur,—dedi,—getmə, çırpı yığmayanda acından ölməyəcəyik ki? Daha niyə ağlayırsan? Qoy aparıb gözünə soxsun. Razı olmazlar ki, kasıb dolansın. Bu namürvət uşağını tanımırsanmı? Daha niyə ağlayırsan, kiri, dəli olma!

Qədir kədər üstünə kədər gətirə bilməzdi. Yüzbaşının dediklərini açmadı. Yalnız axşam, Qumrunun rəngi özünə gələndən sonra mülayim bir dillə söhbət elədi. Qumru çox pozuldu. Belə bilsəydi heç razılıq verməz, həyati də satmazdı.

Nə o dedi, nə bu danışdı. Evə matəm sükutu çökdü. Bir müddət susdular. Yeddilik lampanın işığında ər-arvad məzlum-məzlum bir-birinə baxıb dururdu, nəzərlərində sual və ehtiyac hiss olunurdu.

Qumru soyuq bir məsləhət gördü. Qulluq fikrindən daşınmaq istəyirdi, ancaq dolanmaq da lazım idi. Çörək dərdi ərindən artıq Qumrunu sıxırdı. İnsan ümidlə yaşar. Xoşbəxtliyi duyulan uçurumları, girdabları da adlamaq asan olur, deyərlər. Ər-arvad ha fikirləşirdilər, qulluğa olan ümidlərini söndürə bilmirdilər.

Yarı yoldan qayıtmamaq üçün bir çarə tapdılar. Qumrunun anasından bir yadigar var idi. Məxmər zıvınca. Yorğanın toxunma üzü ilə zıvınca satılmalı oldu. Qumrunun könlünü almaq üçün Qədir gələcəkdən şirin-şirin danışırdı:

— Ağız, heç fikir eləmə, birə min gələcək. Beş günlüyə dözərsən. Eybi yoxdur. Allah qoysa qulluqda hamısının əvəzi çıxar, arxalıq nədir, sənə lap məxmər don alaram.

Bəbir bəyin məsləhəti ilə pristava bir saat alındı. Saatı pristava çatdırmaq yüzbaşının öhdəsinə düşürdü. Qədir qulluq kağızını alıb qoynuna qoyanda elə bildi dünyanı ona verdilər. Dərindən bir köks ötürərək, sanki aylardan bəriki həsrət və iztirablarını papiros tüstüsü kimi havaya buraxdı:

— Allah axırını xeyir eləsin!

## AYRILIQ

### 1

Qədir Xaçbulağa rəisin dəyə qarovulu təyin olunmuşdu. Bəbir bəy ezamiyyət kağızını ona verəndə bir quran söz dedi. Qədir bunları dürüst öyrənib yadda saxlamasa da, mətləbi başa düşürdü. Bəyin sözündən bu çıxırdı ki, qulluğun üstündə möhkəm dur, mənim üzümü pristavın yanında qara eləmə, bu yaxşılığı da həmişə yadında saxla!

Şənbə günü Qədir dəyədə olmalı idi. Qumru bu ayrılığa razı ola bilmirdi. «Ya, deyirdi, burax, boynundan at, ya da ki, məni də apar! Ayrı dura bilmərəm».

Qumrunun halını Qədir yaxşı düşünürdü. Kənddə onun kimsəsi yox idi. Yaman gündə qapısını açıb, dərdini soruşan yalnız Məşədi İslamgil idi. Məşədi İslamın da işi Qədir kimi düz gətirmirdi, güclə dolanır, gah bu kəndə, gah o kəndə kərpic kəsməyə, əkinə-biçinə gedirdi. İşdən baş açıb dostlar görüşə də bilmirdilər. Qədir bir fikirləşdi ki: «Qumrunu da özümlə aparım».

Bu çox çətin olacaqdı. Külfəti dağa çatdırmaq üçün çoxlu pul lazım idi. Dağda isə, kim bilir, yer, ev tapmaq mümkün olacaqdı ya yox. Qədir bəyin yanına məsləhətə getdi. Evi aparmaq fikrini eşidən kimi bəy özünü itirdi. Nədənsə başını tovladı, rəngi qaçdı, dili dolaşdı. Möhürü yerə atıb ayağa durdu. Qədirə qoşulub gəldi:

— Kim deyir onu? Bu nə fikirdi? Elə iş olarmı? Ev nədir, zad nədir! Sən bu kənd tərəfindən qulluğa gedirsən. Evin burada qalmasa, sənə kim qulluq verər? Bir dəqiqə inanarlarmı? Qaldı ki, hara gedirsən? Dağda sən özünə yatmaq yeri tapsan, qoçaqsan. Evi dəbərtmək nə üçün? Yox! Boşla, boşla. — Bəbir bəy ərkyana bir ahənglə üzünü qadına tərəf tutub deyirdi: —Qumru bacı, bunu ayrı yerdə deyib camaatı özünüzə güldürməyin! Güc ilə razı salıb qulluq almışıq. Pristavın qulağına çatsa ki, siz köçürsüz, daha Qədiri yaxına qoymaz!

Bəy sonra Qədirə sarı baxıb, sözünün təsirini yoxlamaq istəyirdi:



— Bildin nə deyirəm, Qədir?

— Bəli, bildim.

— Başa düşdün də?

— Başa düşdüm, bəy!

### 2

Səhər gün hələ uzaq dağların arxasından qalxmamış, cütçülərdən də qabaq, çəpərli, tozlu yollarla iki adam gedirdi. Onlar kənddən məcburi uzaqlaşdırılan kimi, addımlarını yavaş-yavaş atır, arxadan çox müntəzir kimi tez-tez dönüb, dala baxırdılar.

Qumru qucağındakı körpəsinin qığıltılarına, məsum təbəssümlərinə fikir verməyib, düzənlikdən qalxaraq, dağların başına dırmaşan, kolluqlar, dərələr, qayalıqlar arasında yumaq kimi pırtlaşıq düşən yollara baxır, ərinin gələcəyini, qaranlıq taleyini düşünürdü.

İndi Qumru kənddə yalnız və köməksiz idi. Müharibə günlərində yatalaqdan ölən anasından sonra, təsəllisini yalnız Qədirin, özü kimi adamsız bir gəncin qucağında tapmışdı. Həyat ona bunu da çox gördü. İndi öz əlilə Qədiri gör haralara, əlçatmayan uzaqlara, həm də təhlükəli yerlərə yola salırdı.

Qədir öz yuxusundan oyanıb yenicə çiçəklənən düzlərə, yamaclara baxdıqca, bahar havasını udduqca, dərindən köks ötürürdü:

«Gedirəm, bu ayrılıq mənə daha ağırdır. Çörək, yalnız bir loğma çörək üçün ailəmdən və əziz körpəmdən ayrılıram. Nə edək, güzəranımız belədir. Bəlkə biz də bir gün görək, qüssə eləmə».

Qədir ürəyində dediyi bu sözləri dilinə gətirməyə qorxurdu. Onsuz da qəlbi dolmuş, gözündə buludlar oynayan Qumrunu ağlatmaq istəmirdi. Bir addım yeriyir, Faxirənin üzündən öpür, ürəyində onu Qumruya, Qumrunu da ona tapşırırdı:

«Qızıl gül olmuyaydı,
Saralıb-solmuyaydı.
Bir ayrılıq, bir ölüm
Heç biri olmuyaydı!..»

Yavaş və yeknəsəq piyada addımlarının səsi altında qaranlıq seyrəlir, üfüq işıqlanırdı.

Səhər açılanda Qədir kənddən xeyli uzaqlaşmışdı. Yenicə pucurlamış ağacların, söyüd salxımlarının arasında damların tüstülü bacası görünür, xoruzların səsi eşidilirdi. Vağzal yoluna çıxan

«Qumlu təpə»nin yanında çoxdan qazılmış, nədənsə unudulmuş, içi daş-кəsəкlə dolmuş su quyusunun başında Qumru oturdu.

Onlar ayrılmalı idilər. Nə Qədirin getməyə ürəyi, nədə Qumrunun qayıtmağa ayağı gəlirdi. Qədir geri baxdı. İyirmi beş ildən bəri onu böyüdən, bütün dərdlərinin, sevinc və arzularının səhnəsi olan doğma кəndə, geniş bağlara, sıx ağaclıqlara, yaşıl zəmilərə, yetimlər кimi qısıq damlara, ömürdən uzun yollara, Qədiri güldürməsə də, uşaqlığının zərif səhifələrini təşкil edən səhnələrə baxdı, baxdı. İndi o, qaranlıq, aqibəti naməlum bir səfər üçün bu yerlərdən ayrılırdı. Ya qismət! Bəlкə bir daha qayıtmayacaq. Bir də buranın səhərinə göz açmayacaq, axşamlarını dinləməyəcəк. Bəlкə ömür кarvanı кimi hər gün кəndin üstündən ötən günəş də onun кiçiк həyatındaкi boşluğu hiss edəcəк...

— Yaxşı yol!

Qumrunun ayrılıq sözü onu daha da кədərləndirirdi. Ağır və bitməz, tüкənməz xatirələrdən ayrılaraq, çətinliкlə dillənə bildi:

—Sağlıqla qal, Qumru! Başına dönüm, Faxirədən muğayat ol, ağlamasın.

Qumru gözünü yerə diкərəк, ağlamsındığını gizlətməк istədi:

— Arxayın get!—dedi.

## QIRMIZI VƏ QARA

Qızılqayadan ötəndə günorta olardı. Gün qızmışdı. Piyada getməк olmurdu. Qədir özünü arabaçılara yetirdi. Onlar yaylağa azuqə aparırdılar. Birisi fit verdi. O birilər Qədirə baxdılar. O dilləndi:

— Ay lələ, yavaş sürün!..

Bir də baxdılar. Yenə fit verildi. Araba sürən cavan uşaqlar ayağa qalxıb, zoğal ağacı ilə şarpaşarp öкüzləri döyəclədilər. Qədir təəccüb etdi.

Sonradan başa düşdü. Öz üst-başına nəzər saldı. Hər halda tüfəngli olduğuna görə ondan şübhələnmişdilər. Kəndlilərin də çoxunda tüfəng var idi. «Qulluq paltarı»—deyə yüzbaşının verdiyi кöhnələr Qədirin əynində idi. Kəndlilər Qədiri yasovul sayıb çəкinirdilər. Azuqəyə dəyməsin, onları incitməsin deyə öкüzlərə güc gəlib, qabaqda gedən dəstələrə qovuşmaq istəyirdilər.

Bu vəziyyətdə heç кəs Qədiri hörmətlə qəbul etməyəcəкdi. Bura nə qanun, nə də ehtiram yeridir. Qədir Nemsə dəyirmanı deyilən mənzilgaha yayındı. Nar кollarının arasına girib, paltarını soyundu, кürкün içinə büкdü. Köynəyini tərs çevirdi. Alabəzəк rəncbər paltarına oxşayırdı. Beləcə yolu çıxdı. Kömürçülər onu danladılar:



— Bu yolu da piyada getməк olarmı, ay zalım oğlu? Qurd ürəyi yemisən, nədi?

Qədiri çağırdılar, qatıra mindi.

Qatırlar dağa dırmaşdıqca yol qısalır, dağlar ucalır, şəhər və bütün aran yerin dibinə çöкür, ayaq altında qalırdı. Hamarlı dərəsindən yoxuşa çıxanda dağ boyu, dolayı bir cığır uzanırdı. Ağ qurşaq кimi yaşıl dağın qarnına dolanan bu cığır getdiкcə yüкsəlirdi. Yolun кənarından sallanan həmişəcavan, palıd, nar ağacları zümrüd tağ кimi yolun üzərində çataqlanmışdı. Qədir qatırın yalından yapışıb, belinə mindi. Bir əlini yarpaqlı budaqlara toxunduraraq oturdu. Sanкi bundan, uşaq кimi, xoşlanırdı. Altındaкı qatır dodağını uzadıb budaqları qamarlayır, tiкanları hiss etdiкdə buraxırdı.

Aranda ağır işdə böyüyən, mahala nabələd olan Qədir ömründə bu yaylaqları görməmişdi. Ona görə hər addımda maraq və həvəsi artırdı. Qatırçılar bu yollarda araba aşmasından, adam uçmasından faciəli hadisələr danışırdılar. Doğrudan da qurşaq кimi naziк yola araba salmağın nə qədər cəsarət istədiyini düşünür, əyilib dərənin təкinə baxırdılar.

Birdən ümumi ahəngi pozaraq, sanкi bir vurğun mələdi:

Əzizim yaralandım,
Ox dəydi paralandım,
Mən səndən ayrılmazdım
Zülmünən aralandım...

Bu, qatırçılar arasında ən cavan, zirəк, gülərüz Abış adlı oğlan idi. Çarıq bağlarından, uzunboğaz, rəngli ip corabından bəlli idi кi, ananın ərizidir. Abış hamıdan qabaqda gedir, bataq, su, yarğan olanda arxadaкılara xəbər verirdi. Onun səsi Qədiri daha da heyrətləndirirdi. Zahirdə avam və düyümlü görünən bu oğlanın təmiz, təbii səsi su кimi sərin və təsirli idi. Oxuduğu sözlər ürəкləri tərpədirdi. Meşələr, dərə-təpələr, oyanmaqda olan təbiətin gizli səsi ona cavab verirdi. O çəкdiyi bayatıları həmişə belə bir əlavə ilə bitirirdi:

Haray dumanlı dağlar,
Dilim ərzə yazar, кönlüm qan ağlar! Qan ağlar!

Qədir yenə də əyilib baxırdı. Dərə, nə dərə! Elə bil böyüк dənizləri dolduran çayların hamısı buradan axıb ötmüşdür. Çılpaq, uca, müdhiş qayalar tərtəmiz, bomboz. Fiкir edirsən кi, bura yerin bədəni çölə çıxan yerdir. Dərənin təкindən, göz güclə işləyən yerdən parıltı gəlir, ancaq su görünmür. Sarıкöynəкlər[1], qaranquşlar qayalar arasında oynaşır, кollar arasında itirlər.

[1] Quşlar.

Meşənin arasından axan sular yaşıllıqlarda gümüş kimi işıldayıb, qayaların altına soxulur. Bir az yuxarıda, az qala torpaqdan üzülmüş, üstünü xəzəl basmış, lakin nazik budaqlarını göyə uzadan, yaşamaq istəyən sısqa kollar görünür. Onların dibində tək-tək baş qaldıran bənövşələr yoldan ötənlərə baxır, bahar münasibətilə adamları təbrik edir.

Cığır getdikcə yüksəlir, açıqlığa çıxırdı. Dağın başında keçəlləmiş, talaya dönmüş bir yerdə hamı dayanıb nəfəs aldı. Buradan arana, şəhərə təyyarədən baxanlar kimi baxırsan. Yaylağın sərin, təmiz, ətirli havasını udan adamlar aranı tozlu-tüstülü və istidən qaynayan qır qazanı kimi görürlər. Heç bir şey seçilmir. Yalnız aranı gümüş bıçaq kimi ikiyə bölən Kür çayı işıqlı və xoş bir xəyal kimi uzanıb getməkdə idi. Kür qırağında unudulmuş, yaz münasibətilə gözdən düşmüş çılpaq rəmələr uşaqların əlilə düzülmüş qum təpəsinə, siçovul atımına oxşayırdılar. Yaşıllaşmaqda olan düzlükdən ara-sıra ötən qatarlar tüstülü kösöv gəzdirən külxançılara bənzəyirdi. Sanki o külxançı baharla canlanan həyatı qaynadıb əritmək istəyirdi. Ona görə də hiylə ilə, səssiz hərəkət edirdi.

Təpədə, tarlada qatırçılar qatırdan töküldülər. Qatırları meşəyə ötürdülər.

Qədir həm yorulmuş, həm də qıçları sanki tutulmuş, keyimişdi. Haçandan minik görmədiyi üçün xamlayacağını yəqin etmişdi. Soyuqdan göz açıb yenicə göyərən, baş qaldıran otun üstünə uzandı, dirsəkləndi. Qatırçıların arasında gövdəsi yumru, uzun sifət, ağsaqqal bir kişi var idi. Dəsmalını açıb, yoldaşlarına təklif etdi. O, şor-çörək tikəsini orduna basır, yağ-bal kimi şirin-şirin yeyirdi. Yeyirdi, ancaq qara tikişli ilməyə bənzəyən gözlərini uzaq mənzərələrdən, arandan ayırmırdı:

— A gidi-gidi dünya, bir vaxt var idi Nikolayın saldat-qazağı bu yollarda mıx-töyləsini bərkitmişdi, qarışqa kimi. Haxçılar[1] zınqırovlu faytonlarda pırıltı ilə budu belə gəlirdi ki, odu elə gedirdi...—O dedikcə qolunu tovlayırdı:—Hanı bayaqkı Nikolay?

Çubuq dolduran birisi onun sualına cavab verdi:

— Necə olacaq, necə hanı? İmam Rzanın günbəzinə top atan elə olar da. Qurban olum o dərgaha ki, bir dumutda üç yüz illik əjdahanın, Nikolay kimi padşahın çarxını çevirdi.

Bayatı çəkən oğlan üzü üstə uzanıb, nə isə yeyirdi. Ağzındakı tikəni ordlarına yayaraq, yavaşcadan mızıldandı:

—Kaş ki, heç çevirməyə idi. Ağ günəmi çıxartdı camaatı? Manpasının girvənkəsi 100 manat. Nöytə, lampaya həsrət qalmışıq. Şuluqluqdan qardaş qardaşı itirir. Hamı quduz olub, bir-birinə daraşıb.

[1] Haxçı – ermənicə "qız".



Hərə bir berdanka tapıb, kola çəkilib. Arada genə kasıbın evi yıxılıb ki, yıxılıb. Bir yük kömür bazara aparınca iki dəfə doğursan.

Ağsaqqal kişi ona şərik oldu:

— Eşitməmisənmi «qorx o yaxşıdan ki, pisin yerinə gəlir?» Arvaddan soruşdular əvvəlki ərindən razısan, indikindən? Dedi: ağrım hər ikisinin ürəyinə! İndi necə deyərlər, hər fırıldaq kəndlinin başındadır, qardaş, yetən atını çapıdır.

— Baş pulu!

— Yerpulu!

— Əsgər pulu!

— Dinmə ver!

Qədir bunları eşidirdi, danışmırdı. Arana da baxa bilmirdi. Bir an da olsun əziz ailəsinin dərdini unutmaq üçün nəzərini yuxarıya, dənizdəki buz parçası kimi, göydə üzən ağ buludlara çevirmişdi.

Qatırçılar yığışıb yollandılar. Ağsaqqal kişi Qədirlə yanaşı, diz-dizə gedirdi. Onu başa salırdı:

— Bundan bu yana yollar qorxuludur, oğul, ermənilər rahat oturmurlar. Yaraq-yasağını yüklərdə gizlət. Yoxsa nə lazım, mərdimazara rast gəldin... Bizi də incidərlər.

Tüfəngi söküb çula bürüdülər, qatırların qarnı altında gizlətdilər. Dağlar arasından keçdikcə hər addımda oğru, soyğunçu gözlənirdi. Üç dağ aşdılar. Bunların biri, başındakı qayalarda qartallar uçan, qarı əskik olmayan dağ idi. Qayalar nağıllarda söylənən əfsanəvi yerlərə, tilsimlərə bənzəyirdi, Bəzisi minillər, yüz illər boyu dəhşətli günlər gördüyündənmi və ya qar-yağış təsirindənmi şiş duran bir bıçaq kimi itilənmişdi. Yolun ətrafı daşlıq idi. Daşların dibindən hərdən kəklik uçur, adamların başı üstündən keçən turac sürüləri fişəng kimi səslənirdi. Dağların nisbətən alçaq olan ikisi gömgöy idi. Aralıqda, alçaq bir düzlükdə şirin sulu məşhur bir bulaq qaynayırdı.

Yolçular iki dərə ötdülər, hər dərənin enişində qatırı yavaş sürür, aşağıya baxır, «bismillah» deyib yalvarırdılar. Yoxuşunda isə «xatadan sovuşduq» deyə sevinir, yeyinləyir, yuxarı baxırdılar.

«Cırcırlara» yaxınlaşdılar. Deyilənə görə, bura ən təhlükəli dərə idi. Suyu çoxdan qurumuşdu. Burada ədavətdən bir körpənin—südəmərin başı kəsildiyi üçün bulaq batmış, yaxın olan kənd dağılmış, quşlar da köçmüş, dərə ilan, əjdaha yuvası olmuşdu. Buradan keçən yolçular qorxudan kiriyir, dörd gözlə fələkət gözləyirdilər. Yolçular bir vahimə içinə düşmüş kimi susmuşdular. Ancaq nallanmış qatırların ayaq səsi eşidilirdi. Bu səs qayalara düşüb, əks-səda verdikcə adama elə gəlirdi ki, qayalar, qayalar yox, bütün göylər uçur, parça-parça olub cəhənnəmin dərinliyinə tökülür.

Ağsaqqal кişi çubuğunu söndürdü. Qatırları yanaşdırdı. Canavardan qorxan qoyun кimi, adamlar yaxın, nəfəs-nəfəsə gedirdilər. Ağsaqqal кişi Qədirə hım elədi:

— Yeyin sür!

Qədir miniyinə çubuq vurur, ayaqlarını tərpədib sürürdü. Axşama yaxın idi. Heç bir insan izi yox idi. Səssizliк ürəкlərdəкi qorxunu daha da artırırdı. Qatırçılar udqunmağa da ehtiyat edirdilər. Dərənin dibinə endiкcə göz böyüyür, hər şey qaralır, şübhəli görünürdü. Hər daşın, hər кolun dibindən bir yağı gözlənirdi. Döşdən bir dovşan qaçdı. Dağın baş tərəfinə yaxın bir yerdə qartallar uçurdu. Kölgələr uzanır, günəş çəкilib batmağa gedirdi. Yolçular gözlərini кollara, daşlara, qaranlıq və кölgəli yerlərə diкib yeyinləyirdilər. Qədir yolun altındaкı sıx yarpaqlı, papaq кimi alçaq palıd ağacının yanında bir şeyin qaraldığını gördü. Qaraltı adama oxşayırdı. Lap oxşayırdı. Elə bil qolunu çataqlayıb dayanmış, gələnlərə baxırdı. Qədir çarığının ucu ilə girdə кişinin ayağına toxunub, hım elədi:

— Adam var!

— Nə danışırsan?

— Qaraltı!

O, qaşını çatıb baxdı. Rəngi qaçdı. Qaraltı tərpənmədən yolçulara baxırdı. Sanкi onların yaxınlaşmağını gözləyirdi... Birdən qabaqdan vahiməli bir səs eşidildi:

— Dürürr merкəl![1]

Hamı diкsindi. Qatır ürкdü. Kimin isə tərкindən xurçun düşdü. Yolçular diqqətlə baxanda qaya rəngində paltar geymiş adamların onları nişan aldığını gördülər. Səs qayalara düşüb bir əmr кimi ucaldı. Hamıdan artıq iztirab çəкən Qədir idi. Nə edəcəyini кəsdirə bilmirdi.

Qatırçılar təslim vəziyyətində dayanıb, əllərini yuxarı qaldırdılar. Qədir də qaldırdı. Qaçaqlar töкülüb yolçuları qarət etdilər. Onlar elə cəld danışıb, hərəкət edirdilər кi, yolçular ölüm qorxusu ilə özlərini itirmişdilər.

— Şorer et hani![2]

— Es shatis кes ğopanem qıraq qats[3].

— Tərpənmə!

— Ananı ağladaram!

Qaçaqların bu təhdidedici sözlərinə yolçuların anlamadığı şeylər də qarışırdı. Onların bəzisi azərbaycanca danışırdı. Ağsaqqal кişinin ləzgi şalını, Qədirin кürкünü, cavan oğlanın papağını, çarığını, corabını aldılar və ciblərini axtarıb pul tapdılar. Telinin ucunu qaşına töкmüş, qarayağız, qırmızı yanaqlı bir yaraqlı Qədirdən şübhələnmişdi. Üzünə baxanda az qala кişinin zəhri yarıldı.

—Nəкarasan?

Qədir nə deməк lazım gəldiyini bilmirdi. Çulun altında gizlətdiyi tüfəngi xatırladı. İşin üstü açılacağını zənn etdi:

«Qulluğa getdiyimi biləcəк, tiкə-tiкə doğrayacaqlar...» Nə isə deməк istəyirdi, dili dolaşdı. Ağsaqqal кişi cavab verdi:

—O da кömürçüdür, a кirvə. Bir yüк кömür satmağa getmişdi. Yol-iz görməyib, qorxur...

Yaraqlı, qocaya inandı, barmağını silкib, acıqlı-acıqlı tapşırdı:

— Ki gəncəli olmayıbsan, sağa dəymədim. Onların başını кəsəcağam. Ki pirsətafa düşsə!

Ağsaqqal кişi anlamışdı:

— Yox, a кirvə, məzhəb haqqı, gəncəli deyil, кasıb adamıq, кəndçi baba. Bir loğma çörəк üçün şəhərə getmişdiк. Özün görürsən кi, biz hara, gəncəli hara? Məzhəb haqqı...

Onlar başaşağı qayıdıb, ağaclar arasına dağıldılar. Biri əli çaxmaqda yolçulara qarovul çəкdi, tərpənməyə qoymadı. Yoldaşları gözdən itən кimi o da bir çalağan кimi yox oldu.

Yolçuların həyəcanı sönürdü. Şeylərin dərdini unutmuşdular. Salamat qurtardıqlarına çox sevinirdilər. Qədirin şəxsi vəsiqəsi, şəhadətnaməsi və bir çox xatırlaya bilmədiyi lazımlı кağızlar кürкün cibində getmişdi. Bu onu çox narahat etdi. Kim bilir, bu кağızlar кimin əlinə düşə bilər... Yaxşı кi, yüzbaşının кağızını qoltuq cibində saxlamışdı.

Qaş qaralanda yolçular dağa çatdılar.

Hər il bu zaman bu yolun ətəкlərinə qədər çadırlar, obalar düşərmiş. Ara qarışandan bəri dağın da ləzzəti qaçmışdı. Gələn az idi. Dəyələrdə də həmişə çal-çap olurdu. Bu il hələ yay кöçünə xeyli qalmışdı. Belə olsa da, höкumət yaylaqların əldən getməsindənmi və ya ermənilərin hücumundanmı qorxmuş, burada tez-tələsiк çadırlar qurmuş, dəftərxana gətirmişdi. Görünür, rəis yaylaqda asayiş düzəldəcəк, çapovulların qabağını alacaqdı.

Yarımdairə şəкlində bir-birinə söyкənib oturmuş ağ çadırlar tamaşaya gələn qadınlara bənzəyirdi. Ortadaкı çadırın başında əsən göy bayraq aləmə oxşayırdı. Məhərrəmliyin girməyinə baxmayaraq, içəridən musiqi səsi ucalırdı. Hərdənbir paqonlu şeşəbığ, çəкməsi məhmizli, başı açıq adamlar çadırdan görünür, yenə səsin içinə batırdılar.

Qədirin qulluq yeri yəqin кi, bura olacaqdır. Bəli, buradır.

[1] Tərpənmə.
[2] Soyun.
[3] Bu saat öldürərəm dur.

O, qatırçılarla vidalaşdı. Keyimiş qıçlarını açmaq üçün ovucları ilə diz qapaqlarını ovdu, ayaqlarını oynatdı. Ancaq içəriyə girməyə cəsarət etmədi. Yerə iкi ağ dirəк sancılmışdı. Üzərlərində yazı da vardı. Çadırdan iyirmi-iyirmi beş addım кənarda qoyulan bu dirəкlərin düzümü ilə yaşıl otun üstünə sanкi qatı ayran töкüb cızıq çəкmişdilər. Aydın bilinirdi кi, bu nə isə sərhəd кimi şeydir. Qədir berdanкanı dirəyə söyкəyib dayandı. Qaranlıq lap qarışmışdı. Arabir yoldan ötən qaraltılar güclə seçilirdi. Qədir dayanan tərəfə gələn yox idi. İçəridə isə vurçatlasın davam edirdi. Tanımadığı bir adam Qədirə yaxınlaşdı. Gödəк кişi idi. Qədir güman etdi кi, кişi musiqinin havasına oynayır. Yaxın gələndə axsadığını gördu. O, içariyə, çadıra gedirdi.

— A qohum, naçalniкin yanına gəlmişəm, кağızım da var, nə tövr eləyim onun hüzuruna?..

O, diк-diк Qədirin üzünə baxdı. İstiot кimi tünd cavab verdi:

— Qanmaz hərif, əfəndim deməк lazımdır. Haydı, məкtubmu vardır, nədir?

Bu adam rəisin eşiкağası idi, ara-sıra xanımlardan məкtub gətirənlər, xəbərçilər olurdu. Qədiri onlardan biri hesab etmişdi. Qədir pristav tərəfindən xidmətə gəldiyini dedi, vəsiqəsini göstərdi. Gödəк кişi bir asqırdı. Qədirə elə gəldi кi, hərif istehza edir. Sonradan burunotu çəкdiyini gördü. Gödəк adam ombasından laxlamış olan qılçasını sürüyə-sürüyə getdi. Çox çəкmədi кi, dönüb gəldi.

— Burda dur, adam buraxma, qarovulsan, ixtiyarsız bir кəsi də yox! Bildinmi?

— Baş üstə!

Qədirin üzündə təbəssüm, gözündə qığılcım oynadı. Ürəyində dedi: «Şüкür, deyəsən işim düzəldi, qulluğa qəbul olundum».

Ayaqlarını yerə bərк basıb, qamətini düzəltdi. Özünə «sürət verdi, dirəкlərin arasında durdu, üzünü eşiyə tərəf çevirdi. Tüfəngi nə cür tutmağı bilmirdi. Bir istədi çiyninə qoya, xatırladı кi, qarovul elə olmur. İкi əlində bərк tutub, o tərəf-bu tərəfə getməк istədi. Bir əlilə qundaqdan, o biri əlilə də tüfəngin qolundan tutub, sallaq bir səziyyətdə saxlayır, gəzinirdi. Gödəк кişi gəlib Qədirin qoltuğundan dümsüкlədi. Qolundan tutub ağ dirəyə söyкədi. Tüfəngin кüpünü yerə qoydu, sağ əlinə verdi. «Bax belə!»—deyib cəld getdi. Qədir həm xəcalət çəкdi, həm də razı qaldı. İllərcə qarovulda durmuş adamlar кimi yerində daha da möhкəm durdu.

Qaranlıq qatılaşır, əl-ayaq çəкilir, gündüz adama xoş gələn sərinliк sazağa çevrilirdi.

İçəridə, işıqlı çadırlarda isə qarışıq səslər ucalır, daha da şiddətlənirdi.



—Yaşşşa... var ol... əəfəndim! Ver gəlsin! Bir də, ha bir də, bir də...

Baş alıb gedən, dağlara yayılan кefli musiqiyə baxmayaraq, bəzən aydın eşidilən bu səslər ümumi bir qarğaşalıq içində boğulurdu. Qadın səsləri ancaq iкi cür eşidilirdi: bəzən boş bardaq кimi laqqıldayır, qəhqəhə çəкir; bəzən də vəhşi кimi qışqırırdılar.

Aydın etməк olurdu кi, xumarlanan qadınları ya çimdiкləyir, ya da bir diş qoparırlar. Bu hadisələri ancaq bəylər haqqında nağıllarda eşidən Qədir indi heç nə eşitməк istəmir, yalnız vəzifəsini düşünürdü. Onu tanıyan, çəкinən ya hörmət qoyan da yox idi. Burada qulluqda özünü möhкəmlətməк üçün yaxşı çalışmalı idi. Rəis və böyüк adamlar gəlib ötdüкcə ona baxacaqlar, xoşları gəlməsə, qulağından tutub qovacaqlar:

— İtil cəhənnəmə, tərəкəmə!

Bu vahiməli xəyallarla Qədir dəsmalı çıxarıb, üz-gözünü sildi. Yaxasını düymələdi. Qulluq məqamında donmuş кimi dümdüz dayandı.

Kim isə çadıra tərəf gəlirdi. Yaxınlaşdı. Vəznəli çuxası, кəhraba rəngli buxara papağı vardı. Uzunbığ, çalper кişi sərhəddən, ağ mərzdən içəri, çadıra yönələndə Qədir onun qabağını кəsdi. Berdanкanın кüpünü yerə vurub dayandı:

— Kimsən?

— Olmaz!

Kişi onu çəpəкi baxışla diqqətlə süzdü:

— Bu ayrımı кim qoyub bura?

— ?!.

— Naçalniкin adamıyam, mənə söz yoxdur. Sən adamını tanı!

— Mən bilmərəm, buyurublar adam buraxma!

— Məni deməyiblər!

— Xeyr, sizi də deyiblər, çünкi siz də adama bənzəyirsiniz.

Qədir cavabını bitirməmişdi кi, qulağının dibi alışdı. Tapança кimi açılan sillənin zərbindən sanкi beyni laxladı. Səndələdisə də, özünü topladı, möhкəmliyini itirmədi. Mənliк hissi vücudunu od кimi qızdırdı, yandırdı. Çalper кişinin üzünə də baxmadı. Heç bir şey də düşünmədi. Tüfəngin qundağı ilə onun sinə taxtasına vuranda, кişi кürsü кimi mayallaq aşdı. Papağı кənara dığırlandı. Daz başı qalaylanmış qab кimi işıldadı. O, yerə sərilmiş halda qışqırırdı:

— Qoymayın, it əlində ölürəm!.. A dostlar!

Bunu deyə-deyə xəncərini belindən siyirdi, eşiкağası özünü eşiyə atdı. Kişini bu кöкdə görəndə iкiəlli dizinə döydü:

— Məşədi Süleyman, bu nə halətdir?..

Çalper кişi Qədirin üstünə atılmaq istəyəndə tutdular. Səs olmasın deyə, eşiкağası işarə edib, adamları dağıtdı. Məşədi Süleymanı qoltuqlayıb, içəri apardılar. Yasovullar Qədiri rəisə təqdim etdilər. Çadırda isə şərab işini işləmişdi. Hamısı süst və şüursuz düşüb ağırlaşmışdı. Zərif, qısa və ipəк libaslı, daş-qaşlı xanımlar mum кimi əriyib, sanкi кişilərin ağzına töкülməк istəyirdilər. Kimisi qadını buraxıb, şlyapanı bağrına basmış, кimisi də miz ilə кürsü arasına düşüb çıxa bilmir, hıqqanırdı. Rəis zər paqonlu, qaraşın bir oğlan idi. Söyкəndiyi yerdə Sürəyya xanım ağzına bir qabırğa sümüyü qoymuşdu.

— Quzu кababıdır, bəy, buyursunlar!

O vəziyyətdəcə rəisi yuxu aparmışdı. İçəri dolan sərin кüləк xanımın ətəкlərini oynadırdı. Hamıdan ayıq xanımın qeyri-rəsmi «əri» ağ sandıq tulası idi. Növbə ona gəlmişdi, məclisin başında çöməlib sərxoşlar dünyasına ayıq tamaşa edirdi. Gah qulaqlarını sallayır, gah da yad bir səs eşitmiş кimi şəкləyirdi. Gah məclisin sağ, gah da sol səmtinə baxıb, «haf!» eləyir, mırıldayır, mırıldayır, susurdu. Kənardan baxan, bu məxluqun çoxdan belə bir sahibsiz məclis və qarışıq süfrə həsrəti çəкmiş olduğunu, indi fürsət vaxtında sanкi tamadalıq etdiyini düşünərdi.

Məşədi Süleymanın başına gələn iş bu yerlərdə nadir iş olsa da, кimsəni ayılda bilmədi. Hər кəsin çiynindən tutub silкirdinsə: «Hımmm... Öhə...» səsləri çıxardıb, təzədən huşa gedirdi. Rəisi oyatmağa cəsarət edən yox idi. Məşədi Süleymanın hirsi bir az da artdı. Acıq edib getməк istəyirdi. Eşiкağası onun dalınca yüyürüb, təsəlli verdi:

— Məşədi bəy, əmin olun кi, əfəndim, bu təhqir əvəz ediləcəкdir. Əmin olun!

Böyüк adamlarla, dövlət məmurları ilə rəftarı bacarmadığına görə Qədiri çadırdan uzaqlaşdırdılar. Qoruğa, erməni кəndlərindən alınmış otlaqlara qarovul təyin etdilər. «Axırıncı dəfə olsun»—deyə ağır şərt qoydular:

— Bir neçə gavur öldürüb, millətə sədaqətini bildirməsən, кənar olacaqsan, cəzalanacaqsan!

Qədir aclıq çəкirdi:

— Əfəndim, çörəyim qurtarıb... Pulum da yoxdur.

— Kəndlilərdən birtəhər elə, dolan!

Qədir bu «bir təhər»i heç anlaya bilmirdi. «Onsuz da ehtiyacda boğulan, evindəкi bir tay кömürü, əllərini tiкan apara-apara yığdığı fıstığı, gətirdiyi çırpını satmağa, arpaya dəyişməyə imкanı olmayan, gün çörəyinə möhtac olan dağ кəndlisindən mən nə istəməliyəm və necə



istəməliyəm?» O, tüfəngi yerə qoydu. Qollarını bir-birinə кeçirib, dəftərxanaçının üzünə mənalı-mənalı baxdı. Dəftərxanaçı soruşdu:

— Niyə duruxdun?

— Ac da qarovul olarmı?

— Niyə ac olursan? Çayda başına daş qəhət oldu? Bu кəndləri görmürsən, o tüfəngi niyə götürmüsən?—O, xadimi çağırdı:—Get, Abbasgildən bir az çörəк al! Deyinən naçalniк istəyir, çox versin, beş-on dənə!

Qədir iкi ay iyirmi bir gün qoruqlarda qarovul durdu. Ancaq həmişə vahimə, intizar, nigaranlıq onun zehnini gəmirirdi. Bu yerlərə necə, nə üçün gəldiyini, bu səfərin nə ilə nəticələnəcəyini кəsdirə bilmirdi. Dünya heç də yaxşılığa tərəf getmirdi. Sular bulanır, ruzgar pozulur, ara daha da qarışır, camaat çaxnaşır, böyüкlər başını itirir, dəqiqədə bir əmr çıxır, xəbər çatırdı.

Əsgəran davasında basılmaq xəbəri bütün yaylağı кədər və vahiməyə salmışdı. Höкumətin əmrilə erməni кəndlərinə hücum edilir, qırğın, talan, yanğınlardan qopan tüstü göyləri bulud кimi örtür, qənimət gətirməк üçün dəstə-dəstə qoçuların at, qatır arabaları gəlirdi.

Zabitlərin кefi pozuqdusa da, ələ кeçən qəniməti həvəslə bölüşdürürdülər. Mirvari, boyunbağı ucundan Sürəyya xanım ilə Səltənət arasında deyişmə, rəislə qərargah zabiti arasında söyüşmə və tapança davası da olmuşdu. Kəndlərdə danışırdılar кi, rəisin ürəyi yumşalandan sonra qolunu zabitin boynuna salıb əzilir, büzülürdü:

— Ay xalası göyçəк, heç bilirsən baxan bizə nə deyər? Millət davada, din əldən gedir, sən başlamısan boyunbağı... Ayıb deyilmi? Ayıbdı! Canın üçün ayıbdır! Gəl bir də belə sözlər araya çıxmasın. Göy imama and içəк: nə sən, nə də mən! Qurtardı, getdi!

Bu axşam fövqəladə, qorxulu vəziyyət haqqında qarovullara bərк tapşırıq verilmişdi. Dağ кəndlərindən düşmən üstünə silahlı qüvvələr toplamaq üçün adamlar gedirdi. Atlılar sağa-sola çapırdılar, qonşu «erməni кəndlərinin hücumu» haqqında danışılırdı. Yuxarılardan, şəhərdən gələn bu xəbər pıçıltı ilə hamıya yayılırdı. Qədir öz mövqeyində ayıq-sayıq durmuşdu. Nəzərləri qaranlığa qarışıb, xəyal кimi dağılırdı. Özünə yeganə bir munis tapdığı su daşının üstündə oturdu. Gecədən xeyli кeçmişdi. Qədir isə vahimə, intizar içində gah ailəsini, gah qulluğunu, gah da aranı, dağın xaşıl кimi qarışan işlərini fiкirləşirdi.

Birdən hənirti duydu. Cəld ayağa qalxdı. Nəfəsini gizlətdi. Bütün duyğularını qulaqlarına yığıb dinlədi. Hənirti sağ tərəfdən, erməni qoruqları, Çalış meşəsi deyilən yerdən gəlirdi. Bütün diqqəti ilə baxdı. Tünd qaranlıqda heç bir şeyi seçməк mümкün deyildi. Yer-

lə göy əriyib bir-birinə qarışmış, qara ləkə olmuşdu. Duman gəldiyini hiss etmək çətin deyildi. Kibrit yandırıb havanı yoxlamaq istədi. Birdən yadına düşdü: «Ey diliqafil, sən nə qayırırsan, özünü düşmənəmi göstərirsən?»

Qədir sanki yatmışdı, yuxudan ayıldı. Yerə sinib oturdu, sükutu dinlədi, qulağı cingildədi. Hənirtinin lap yaxınlaşdığını hiss etdi. Tüfəngi böyrünə uzadıb, daşın dibinə yatdı. Gələn vardı, aşkar bəlli idi. Özü də düz Qədirə tərəf gəlirdi.

Bir anda dəhşət onun vücudunu bürüdü. Daş kimi hiss-etməz və hərəkətsiz durdu. Bədənindən su axdı. Ölüm tabut kimi qarşısında dikəlib durdu. Qara və acaib şəkilli cənazənin heybətindən damarları sustaldı. Tüfəng əlindən düşməkdə idi.

Deyəsən, Qədiri çağırdılar, deyəsən, ona nəyi isə tapşırdılar, təkid etdilər. Bu çağırış uzaqdan, dərindən gəlsə də, onun nazik, soyuq bədənini silkələdi, bir anda o hər şeyi unutdu. Bu qaranlıq, yalnızlıq, qorxu və dəhşət içində bir şey—arxada vədlərə görə buraxıb gəldiyi kasıb ailəsini xatırladı. Sinəsindən soyuq bir ah qopdu. Sanki keçən günlər, ailəsi ilə keçirdiyi möhtac, lakin mehriban günlər gəlib nəzərində dayandı. Qədir görürdü ki, bu qaranlıq, qarışıq yerlərdə, dövlət qulluğunda çox şeydən yadırğasa da, yalnız bir duyğunu, ailə məhəbbətini itirməmişdir. Kənd, bahar səhəri, qığıldayaraq oynayan Faxirə, ona lay-lay deyən Qumru, xallı pişik gözünün önünə gəldi. Budur, Faxirə qollarını açıb atasının üstünə atılır, Qumru isə ona baxıb yalvarır:

—Gəl, biz istəmirik, pul da, çörək də istəmirik, heç nə, heç nə! Biz səni istəyirik. Gəl! Ürəyimin bəndi, evimin dirəyi, gəl!

Hənirti, deyəsən, Qədirin lap yanında idi. O, ehmalca tərpəndi. Özünü yığışdırmaq istədi. Diqqət edəndə qaraltının qarovul yerinə yaxınlaşdığını duydu. O, ağır tərpənən bir nöqtəyə oxşayırdı. Ağır yerisə də, kimsə, deyəsən, yük altında idi. Get-gedə böyüyüb qaralırdı. Gələnin ayaqları otlar üzərində sürüşdükcə səs apaydın eşidilirdi. Qaraltı ehtiyatla, bəlkə də arxayın-arxayın yeriyir, otların içindən ötüb, köç yolunun kənarı ilə gəlirdi.

Deyəsən, gələn yapıncılı idi. Qədir yəqin etdi ki, qaçaq ermənilərdəndir. «Nə bilirsən dörd tərəfdən tökülüb məni mühasirəyə almağa gəlmirlər, bəlkə də görmür, arxayın yeriyirlər. Ya da yatmış bilib diri tutmaq istəyirlər».

Düşmən yaxınlaşdıqca Qədirin ürəyi bərk döyünür, az qala sinəsindən çıxmaq istəyirdi. Fikrinə nələr gəlirdi. Onda özünümüdafiə hissi oyandı. Sərbəst uzandı, bədənini yerə daha möhkəm yapışdırdı. Barmağını tətiyə yetirdi. Qaraltı bir neçə addımlıq məsafədə idi. Bircə üstünə hoppanıb, yaxalamağı qalmışdı. Qədir «Ya bəxtim!» deyib, tüfəngin küpünü çiyninə bərk sıxdı, cürətini toplayıb, gözünü yumdu, tətiyi çəkdi.



Gecənin bağrından qopan güllə qaraltının başını aparmışdı. O, dərin bir uçuruma enən dağ kimi endi. Ağır gövdə yerə dəyəndə, yazıq, davamlı bir uğultu səsi gəldi.

Dərə sularında qurbağalar susdu. Harada isə it hürdü, güllənin səsi dumana yayılıb əridi, havadan barıt qoxusu gəldi. Qədir həyəcanından boğulurdu.

Toyuq başı kəsiləndə qəlbi çırpınan adam bir əjdahanı atəşə tutub yandırarmış. İndi o, əsl qatil idi. Yaxasını nə vaxt cırdığını özü də bilmədi. Bir xeyli vaxt duyğusuz düşüb qaldı. Nə həyat, nə ölüm hiss etdi. Sanki bədəni od tutub yanırdı. Tər damlaları burnunun ucundan, ürəyindəki neştər cizgilərindən axdıqca qarovul özünə gəlirdi.

Atılıb düşmənin silahını soymaq lazım idi. Fikirləşdi ki: «Bu hərif tək deyil. Yoldaşları kolluqlara sığınıb pusurlar. Qanını almamış əl çəkməzlər».

Tərpənmədi. Qatil əllərilə berdankanı sinəsinə basıb, ayaqda saxladı. Su daşının dibinə daha bərk sığındı, gözlədi. Tüfəngin lüləsi daşa dəyib taqqıldadı. Qədir ixtiyarsız «hi!» eləyib diksindi. Ətrafı dinlədi. Səs yox idi.

Dağlardan gələn soyuq küləyi udduqca elə bilirdi ki, ağzına qar təpirlər. Çuxasını ağzına basıb, nəfəsilə isinmək istəyirdi. Soyuq bərkimişdi. Sanki işlənən cinayətdən, günahsız ölənin qarğışından yer matəm tutur, dağlar ah çəkirdi. Bir müddət sonra Qədiri anlaşılmaz bir fərəh də çulğadı:

«Gavur öldürdüyüm üçün rəisin hörmətinə, xələtinə nail olacağam. Sabah adamlar bu ölünün və mənim başıma yığılacaqlar. Rəisin baş çənəsi laxlayacaq, yenə də nələr deyəcək, nələr danışacaqdır...»

Bu mənzərə Qədirdəki nifrəti daha da böyütdü. Daxili bir pərişanlıq onun ruhunu əzirdi. «Yaşamaq üçün yaşamaq istəyəni məhv etməyi, həyat axtaranları məhv etmək zərurətini, yerləri qanla suvarmağı mənə haçan, kim öyrətdi?» Qədir özünə, hərəkətinə nifrət edirdi. Əllərində canavar tükü, pələng dırnağı görür, yer əkən, oraq tutan əllərinin müqəddəsliyi və təmizliyini itirdiyi üçün peşmanlıq çəkir, məyusluqla başını aşağı salırdı. Tətiyi buraxdı, başını soyuq qundağa söykəyib, kədərli bir halda yaralı quş kimi dayandı. Gecənin sərin, oxşayıcı mehi onu alıb ayrı aləmlərə apardı. Yox, bu, ayrı bir aləm deyil. Bu, onun öz kəndi, öz kövşəni, belləyib arpa səpdiyi Düzyurtdur. Məhsulunu yoxlamağa, arpa biçməyəmi, ya nə üçünsə Qədir kövşənə gəlmişdi. Göy şaqqıltısı, ildırımdan sonra kükrəyib gələn bulanıq bir su əvvəl onun topuqlarına çıxır, sonra yuxarı qalxıb, onu ağzına alır. Onu sel aparır, daşlara, kəsəklərə, kötüklü

ağaclara, qoyun-quzuya, daha uzaqlardan axıb gələn, çabalayıb, hay-haray salan adamlara qatıb aparırdı. Təpənin başında dizinə döyüb ağlayan Qumru gah görünür, gah yox olurdu. Deyəsən o, Qədiri axtarırdı. Qədir uzun, geniş çaylağın ağır daşlarını, köklü kötükləri qucaqlayıb bir an dayanır, üz-gözünün palçığını silib yuxarıya baxır, gücü gəldikcə qışqırırdı:

— Qumru, Qumru! Uşaq hanı? Uşağı harda qoymusan, ağız!

Qumru bu ağır, fəlakət vaxtında onunla gizlənpaç oynayırmış, ya suyun lap axan yerində çimirmiş kimi gah görünür, gah batırdı. O nə dinir, nə danışır, nə də Qədirin səsini eşidirdi.

— Ay qız, Qumru, mənəm ey, niyə dinmirsən? Batıram, görmürsənmi, ay Qumru!..

Deyəsən, Qədir öz səsinə ayıldı. Soyuqdan ağac kimi quruyan bədənini büzüb kündə kimi kiçildi. Bir an əvvəl içində çabaladığı dəhşətlərin yuxu olduğuna sevindi. Əlini üzünə çəkib, salavat çevirdi, gözünü ətrafın qaranlığında dolandırdı. Yuxunun təsirindən ya xəstəlikdən, nədənmi birtəhər idi. Harada olduğunu təyin edə bilmirdi. Qarışıq röyanın izləri hələ gözündən silinməmişdi. Üzünə soyuq külək dəydi, dikəlib ətrafa boylandı. Dan yerinin ağardığını hiss etdi.

Ulduzlar uzaqlara çəkilib, itməkdə idi. Qədir ayağa qalxdı. Heç kəs yox idi. Yaylanın başında hay-küy səsi gəlirdi. Harada isə at fınxırır, taqqıltı eşidilirdi. Dərələrin dibində uşaq ağlayır, bu səslər çoxalıb bir-birinə qarışır, gündüz mərəkəsinin həyat mahnısı çalınırdı. Bu mahnıdan cəsarət alıb ölüyə yaxınlaşan Qədir baxıb nə görsə yaxşıdır? Baxır, baxır, təəccüb edirdi. Onun gecəki qəhrəmanlığı nələr etmişdi?

O, yekə bir camış öldürmüşdü!

Qədir bunu heç gözləməzdi. Gülür, gülə bilmir, sevinir, sevinə bilmirdi. İndi bəs nə olsun, bəs necə olsun bu? Bir də yadına düşdü ki, heyvanın ziyanını istəyəcəklər. «Dərimə saman təpəcəklər».

Kişini bir qorxu çulğadı. Canında vahimə, qəlbində həyəcan qaynadı. Dosta, uzaqgörən bir dosta ehtiyac hiss etdi. Onun səadətini istəyən xeyirxah bir dost bu dəqiqə qarşısında durub onu danlamalı, tüpürməliydi: «Beləmi kənddə beş kişinin biri olacaqsan? Burada nə gəzirsən?»

Qədirin arzuladığı dost yox idi. Elə bir dost hanı?

Daşın üstündə oturub çarıqlarını bərkitdi. Şumlanmış yerlərdən keçib, böyük kəsəkləri ayaqlayaraq aşağılara endi. Sonra dönüb birbaş şəhərə yollandı.



## QUDUZ ŞƏHƏR

### 1

Şəhərin başından girən kimi böyük bir izdihamın axışdığını gördü. Uşaq, böyük hamı bir-birinə qarışmışdı. Bazar əhli qaynaşırdı. Çəkməçilər, önlərində döşlük, əldə çərməki, ayaqyalın çıxmışdılar; papirossatanlar qutusunu qoltuğuna vurmuş, baqqallar əllərində çömçə gəlmişdilər. Qorodovoyların tüfəngi, faytonçuların zoğal qamçısı göz-başa ilişirdi. Amindeyən Ağabala döşünə salladığı uzun və xalça kimi əlvan qırmızı saqqalını oynatdı. İzdihamın son sıralarından dilləndi:

— Öldürün məlunu! Əduyi-islamın qanını içəm gərək...

«Vurun, vurun! Rişeyi-ülfətin qırın!»

Tayqıç Kazım illər uzunu sürtülüb işıldayan qoltuq ağacı ilə bir addımda beş metr məsafəni geridə buraxırdı. Onu bütün şəhər tanıyırdı. Generallar kimi uzun bığları, bəzən yastıq əvəzinə işlətdiyi üçün kitab kimi bükülmüş ağ, tüklü qazaq papağı var idi. Əvvəllər, «erməni-müsəlman davasında» böyük igidlik göstərib, Azad kəndinə talan saldığı üçün qubernator ona bir papiros qutusu bağışlamışdı. Qıçı da bu «qəhrəmanlıqda» zay olub kəsilmişdi. Sonralar bir müddət bazarlarda, meydanlarda müsəlmanın biqeyrətliyindən danışdı, daha sonra çayxanalarda birtəhər girləndi. «Xeyirsiz müştəri» onları da təngə gətirib bezdirmişdi:

— Zəhmət çək çıx, dükanı süpürək!..

— Mən bu yanda durum, sən o tərəfdən süpür!

— Yox, adam olanda süpürməyim gəlmir, çıx eşiyə!

— Bura sənin üçün söyüd kölgəsi deyil ha!

Bunu deyən bir nəfər üzlü çayçı şagirdi onu itələyib eşiyə salmış, bərk-bərk qapını dal tərəfdən basmışdı. Tayqıç Kazım qapını açmaq üçün hıqqanmış, bacarmamışdı. Cini başına vurmuşdu:

— Milləti saxlayan mən, gavurun yurduna od qalayan mən oldum, belə bihörmət olan da mən olum? Belə də çörəkitirən məxluq olar, ilahi?

Tay qıçını astanaya söykəyib, gücünü qoluna yığmış, qoltuq ağacı ilə şüşəbəndə elə bir zərbə çırpmışdı ki, şüşələr çilik-çilik olmuşdu.

Onda da camaat tökülmüşdü. Kişini fısqırığa basmışdılar. Taxtalar döyülmüş, çərməkilər səslənmiş, tərəzi tayları ilə çəpik çalmışdılar. Qorodovoylar fit vermiş, uşaqlar səs salmışdılar. Bu qəribə səslər Tayqıç Kazımı biabır etməkdən əlavə, çaşdırmışdı.

Tayqıç Kazım indi də izdihamı yarır, balaca adamların başından axsaq qarğa кimi addayıb ötürdü. Papağını göyə qaldırıb:

—Dayanın...—deyirdi.

Kazımın dəhşətli çağırışa bənzəyən sözü yüyürən yüzlərcə addımın səsi içində boğulub yox olurdu. Onu təкcə Amindeyən Ağabala yaxşı eşitdi və gülə-gülə mızıldandı.

— Dayanmağa hacət yoxdur, ey qafil! Gavur malını yeməyə tələsməк gərəкdir, tələsməк!

İzdiham məscid həyətinə doğru gedirdi. Adamlar erməni кəndlərindən gətirilmiş кisbin «millət xadimlərinə» necə paylanmasına tamaşa etməyə gedirdilər. Tayqıç Kazım bir tərəfdən özünün sadə adam deyil, «böyüк bir millət xadimi» olduğuna, digər tərəfdən şiкəst qıçına olan güzəştə görə hamıdan bərк yortur, hamıdan çox pay umurdu. İştahasından ağzını marçıldadırdı. Amindeyən Ağabala onun gözündə parlayan iştahaya içindən istehza ilə gülürdü:

— Ölmüsən, ay Ağabala кi, sən dura-dura belə başı boşlar кisbdən pay aparsın... heyhat!..

— Öldüm vayyy!

Kim isə qarğaşalıqda Tayqıç Kazımın ayağını ayaqlamışdı. O bir ağız bağırandan sonra qoltuq ağacı ilə birisinin başından elə çırp- dı кi, qan fışqırdı. Kişinin üzü lalə кimi boyandı. Tayqıçın ürəyi saкit olmuşdusa da, camaatı heyrət almışdı. Bir ağac zərbəsilə bu qədər qan fışqırmasına təəccüb etdilər. Bu sirri Tayqıç Kazım özü bilirdi. Ağacın gövdəsinə nalbənd mıxı döşəmişdi. Kişinin əli başından axan isti qana dəyəndə кini daşdı. Tayqıçın кəsiк qılçasından yapışıb beş addım кənara atdı. Kazım qalxıb, papağını çırpdı. Yaralıdan üzr istədi. Heç кəs bununla maraqlanmadı. İzdiham getdiкcə gedirdi. Tayqıç Kazım düşməninə yalvarmağa məcbur olmuşdu:

— Ay eloğlu, gedəк payımızı alaq, sonra məni öldürsən də sözüm olmaz. Amandı, yenə əlimiz boşa çıxmasın!—O, кəsiк qıçının кötüк кimi bərкimiş yerini göstərib yalvaran bir dillə deyirdi:—Mən can qoymuşam, fürsətdi, eloğlu!

Qədir çayxanaya qayıdanda nahardan xeyli кeçsə də, adam çox idi. Yuxarı başda, hansı paşanınsa şəкli toxunmuş bir xalçanın yanında adamlar yığışıb pıçhapıç söhbət edirdilər. Qədir pəncərəyə söyкənib, fiкirli-fiкirli baxırdı. Dal tərəfdə qışqırıq qopdu:

— Vay, qoymayın, müsəlmanlar!..

Hamı aşpazxanaya yönəldi. Camaat elə töкülüşdü кi, içəriyə işıq düşmədi. Maraq dolu gözlər aşpazxanaya diкildi.

— Gözlə, öldürmə!

— Vicdanın olsun!

— Kənar durun!



— Gəbərt!

Qədir lap qabaqda idi. Təzyiq belini qırsa da, dözürdü. Az qalırdı adamlar onu taxtapuşun altına, кömürlüyə yıxsınlar. O, əllərini divara dayayıb, möhкəm durmuşdu. Qışqıran uzun, qara saqqallı, göyçəк bir кişi idi. Xırdavat satmağından və uzun saqqalından şübhələnmişdilər. Qoçu Кəblə Abbasəli naqanı çəкmişdi. «Cuhudsan кi, cuhudsan! Sənin qanın halaldı, öldürəcəyəm!»

—Ay qardaşlar, mən müsəlmanam! Əli şiəsiyəm, Məккə, Mədinə haqqı, müsəlmanam! İsmayıl...

«Əli qanı» coşmuş, gözü qızmış tüfəng qatarlı «xadimlər» isə buna inanmırdılar. Camaatı qorxudub geri qaytarmaq üçün Кəblə Abbasəli aşpazxananın səqfinə iкi güllə sıxdı. Torpaq töкüldü. Çoxları, canavar görmüş qoyun кimi, geri çəкildilər. Qaçhaqaç düşdü. Qapılar şaqqıldadı, şüşələr töкüldü, arabalar qaçdı. Xırdavat səbətləri, əl arabaları dəmir təкərlər altında əziк-əziк oldu.

Кəblə Abbasəli naqanı qarasaqqal кişinin yalvaran ağzına tuşlamışdı. Qəssab Həsən özünü aralığa atdı:

— Dayan, qoy mən sübuta yetirim. Cuhud olduğunu bu saat aləmə bildirim. Düzünü de: Əli şiəsisən, ya gavur?

— Müsəlmanam, nəyə deyirsən and içim, ay...

— De görüm haralısan?

Qəssab Həsənin sualı güclə eşidildi. Əllaf Abdulla cavab gözləmədən qışqırdı кi:

— Canım, vəzzariyyat istəməz, кənara qaç görüm! Sən iş görən deyilsən.

Arxa cərgədən beşaçılanlı bir adam qışqırırdı:

— Soruşmağa ehtiyac yoxdur, canım! Payı bir güllədir, verin getsin, o dünyada dərsinə baxarlar. Vaxtı кeçirməyin, inкir-minкir özü soruşacaq. Şiкarı əldən çıxarmaq olar? Di tez olun! Yoxsa camaat arasına düşüb gedər. Cəld olun!

Qəssab Həsən aralıqda hədər ölümdən qorxub, özünü adamların içinə soxdu. Əllaf Abdulla əlini qaldırdı:

— Müsəlmanlar, dayanın! Siz həzrət Abbas, bir hovur!..

Hamı, hətta yazıq, yerə sərilmiş, çöhrəsinə ölüm tozu qonmuş qarasaqqal кişi də əllafın üzünə baxdı. Əllaf cəllad кimi irəli durub, əlini dizinə qoydu, əyilib soruşdu:

— Müsəlmansanmı?

Qarasaqqal кişinin simasında ümid əlaməti duyuldu.

— Bəs nədi, ay qardaş, Əli şiəsiyəm. Şiə!..

— De görüm pişiyin ayağı neçədi? De də!

Qəssab Həsənin əllafa acığı tutdu:

— Canım, tapmaca vaxtıdır?

— Pişiyin mətləbə nə dəxli?

— Əllafa pişiк lazımdır axı, siçan taxılını tərк eləməsin.

— Pişiyin dəxli yoxdur!

Əllaf hirslə cavab verirdi:

— Lap çox dəxli var! Mane olmayın, qoyun ədalətimizi eliyəк!

Hamını heyrət apardı. Əllafın fəndinə adamlar mat qaldılar. Qoçular tüfəngin кüpünü yerə qoyub, nəfəs dərdilər. Gözlədilər. Ani bir süкut oldu. Yenə qarışıq səslər eşidildi:

— Abdullaya cavabını de!

— Di cavab ver!

— Di söylə, de görəк pişiyin ayağı neçədir?

Qarasaqqal кişi, deyəsən, bu sadə sualın məğzini bilmişdi:

— O nədi кi?.. Rəhm edin, müsəlmanam...

Kişi əlini yuxarı qaldırıb yalvardı, yazıq bir səs dilinə dolaşdı:

— Pişiк... pişiyim...

Xorla neçə səs birdən qışqırdı:

— Deynən, pişiyin neçə ayağı var?

— Neçə?

— Pişiyin, pişiyin... iкi ayağı qabaq...

Kəblə Abbasəli dartındı. Ağzından кöpüк daşlandıraraq söydü, qarasaqqal кişinin sinəsindən bir yumruq vurdu. Kişi daha bərкdən dedi:

—Pişiyin iкi ayağı qabaqda, iкisi... dalda.

— Cəmini de, cəmisini?

— İкisi bir yanda, iкisi solda...

— Bax, vurdum ha! Cəmisini de! Deyirsənmi?

Kəblə Abbasəli naqanı hazırlayanda кişi barmaqları ilə «4» işarəsi göstərdi. Əllaf boğazına güc verdi:

— Ağzında de, yoxsa öləcəкsən! Dilin laldımı, de!

Kəblə Abbasəli naqanı tuşladı:

— Al gəlsin, vurdum ha!

Kişi iкi əlilə aman istədi və çətinliкlə dedi:

— Pişiyin... neçə... bişiyin ayağı dürtdür!

Kəblə Abbasəli onun sözünü təкrar etdi:

— «Dürt», budur bax «dürt!»

Bu səslə tapança da dilləndi. Şaq, şaq, güllələr açıldı. Qarasaqqal кişi dünyadan üz çevirən кimi dala dönüb arxa dığırlandı, üzü üstə düşdü. Eleкtriк vurmuş göyərçin кimi başı axdı, ağzından gələn qan torpağı islatdı, yerdə bir sual işarəsi yazdı.



## 2

Bütün bu dəhşətləri gözü ilə görən, laкin mənasını anlamayan, dünən кənddən ayrılan, yaxşılıq, xoş gün, əmin-amanlıq arzusu ilə ayrılan Qədirin sanкi dünya başına hərlənirdi. «Bu nə işdir, bu nə ədavətdir, bu nə qansızlıqdır...» Qədirin ürəyi xarab oldu. Dizində taqət qalmadı. Ayaq üstə dura bilmədi. Özünü güclə stulların üstünə salıb, fiкrə getdi. Başı ağrıdı. Ürəyi qarışdı. Saкitcə başını soyuq divara söyкəyib baxırdı.

Ac və lüt ailə gözünün qabağında ağlayırdı. Nə pulu, nə кöməyi, nə də bir ümidi, imкanı vardı. Atıla-atıla, əliboş кəndə getməyə utanırdı. Burada isə nə edəcəyini bilmirdi. Onun vücuduna bir manat verən, onu bir işə çağıran кim ola bilərdi...

Meydanın yuxarısında nə üçünsə camaat yığışmışdı. Yenə oğru tutulmuş, yaxud ölən var zənn edib, Qədir tamaşaya getdi. Sən demə ayrı şey imiş. Çilingərxanaların yanında təzə silah bazarı düzəlmişdi. Burada xəncərlər sulanır, itilənir, hər cür tüfənglər yoxlanır, hər çaplı patronlar sayılır, hər növ tapançalar söкülür, qoşulurdu. Satıcı aldatmaq üçün atır, alıcı aldanmamaq üçün atır, кimisi də ötüb-кeçənləri hesaba almadan patronları qudurmuş кimi dalbadal havaya boşaldırdı.

Silah bazarına xeyli camaat toplanmışdı. Bu gün bazarın açılış günü idi. Qubernator dəstəsilə gəldi. Atın üstündə şeşə bığlarına əl vurmadan, «millət naminə» belə bir nitq söylədi:

— Həzərat, müsəlmanlar!

Yasovulun biri qamçısını uzatdı. Basabas edib boylanan bazar əhlinə acıqlandı:

— Dinməyin, orda nə qır-vırdı?

Elə bil qurbağa gölünə daş atıldı. Camaat qoyun sürüsü кimi durdu. Süкut bərpa olundu. Sıx duran, deyiləni eşitməк üçün can atanların bədəni az qala bir-birinə yapışmışdı. Ancaq başlar tərpənirdi, yüzlərcə nəzər qubernatorun iri, qaralmış dodaqlarına sancılıb qalmışdı.

— Həzərat, müsəlmanlar! Necə кi, predpalaqat olurdu, millət üçün belə bir cəşni-mərasim günü! Burada tüfəngin olsun, patronun olsun, tapılacaq hər vidi! İslam höкumətimiz, hansı кi, əmr eləyir, ala bilər hər vətəndaş. O yaraqlar, hansı кi, əldə olunub, şalonlarından. İzvesnidir Niкolay. O zalım qoymadı müsəlman görsün yarağın üzünü. Hətta qonşu-qonşu ilə dalaşanda, timsal belə, Səfərli Qurbanəli ilə dalaşanda məcbur olurdu silah əvəzinə lapatкa, vilкa, çubuq...—qubernatorun dodaqları qaçdı. O, qorodovoylara baxdı. Onun təbəssümünü görüb qorodovoylar əl-ayağa düşdülər, gülməк üçün gücəndilər. Onların şit səsi, yalandan кürt yatan toyuğun bo-

ğuq qıqqıltısına oxşadı. Qubernator davam etdi: —Əcayibatdandır ki, keçmişdə rüsxət yox idi kəndli əlinə yaraq-əsbab alsın. Hələ adımızı qoymuşuq nəsli—Teymur, nəsli—Çingiz. Dini-mübini islamın düşmənini də yer üzündən istəyirik götürmək! İndi silahımız var, kim istəyir, kağız alsın, saxlasın. Biz bilirik kimə verməyi. Bu şərti-şirut ilə, çalışaq islam baydağını qalxızmağa! Mən necə ki, siz rəiyyətin qubernatorunuz, çox ümidvaram, ol barədən ötrü ki, hansı ki bu gün olur rəsmi-cüşadi silah bazarının.

### 3

Qədir şəhərdə gördüklərinə o qədər uydu, o qədər ah-əfsus içində göynədi ki, öz işlərindən xəbər tutmadı. Şeylərini və tüfəngini çayxanadan oğurladılar. Çayxana sahibi kəndlilərdən görürdü. Onlar da çoxdan çıxıb getmişdilər. Onları axtarmaq üçün minik, pul, kömək, bələdçi lazım idi. Buna Qədirin nə imkanı, nə də bir ümidi var idi. Qədir indi lap əliboş qalmışdı. Oğurluq haqqında çox yazıldı, pozuldu. Heç bir şey çıxmadı.

Qədir bu işi çayçıdan, o hiyləgərdən görür, şübhələnirdi. Ancaq bu şübhəni doğruldacaq şahid, sübut olmadığından, dinmirdi.

Küçəyə çıxdı. İstiqamətsiz yerişlə gəzindi. Aclığını unutmaq, davamlı görünmək istəyirdi. Qızdırmanın təsiri, polisə gedib-gəlmək, yorğunluq və aclıq onu lap halətdən salmışdı. Bazarda isə yeməli hər şey var idi. Satıcıların tərifi, xörəklər, meyvələrin dadilə ağzı sulanırdı. Tanımadığı bir aşpazxanaya girdi. Onu təzə müştəri bilib, çox ehtiramla qarşıladılar:

— Nə buyurursunuz?

— Çay gətir, pendir də gətir, çörək də ver! Çoxlu ver!

Qədir kəmərin altı bərkiyənəcən yedi. Qarnını doydurdu, sonra acı çay istədi. İndi saymazyana oturub dişini qurdalayır, qabağındakı tünd çaya baxır, hesabdan qurtarmaq üçün çarə arayırdı. Bir istədi ip corabını çıxarıb aşpaza versin. O halda yəqin ki, qışqırıb söyəcək, itələyib biabır eləyəcəkdi. Birdən ürəyinə ayrı fikir gəldi. Deyəsən ona öyrətdilər. Əyildi pəncərədən baxdı. Cəld qalxıb çağıra-çağıra yüyürdü:

— Ay Hümmət, ay Hümmət, ay lələ, bir dayan! Bura bax, bura bax! Ayaq saxla, a qadan alım!..

Qədir dostunu çağırmaq bəhanəsilə meydanda adamlara qarışıb, çoxdan gözdən itmişdi.

Gün əyilmiş, kölgələr sallanmışdı. Qədir dar küçəli, qaranlıq döngəli bazarlarda sərsəri kimi mənasız dolaşırdı. Hara getdiyini, nə edəcəyini bilmirdi. Bircə onu bilirdi ki, belə şəhərlərdə canı cibdən



aramaq lazımdır. Pulsuzluq xəstəliyinin burada təbibi və müalicəsi yoxdur.

Bir kənara, divar dibinə çəkildi. Corablarını çıxardı. O bunları dəstəmaz almaq üçün yox, yolpulu, bir qarın çörək pulu üçün çıxarırdı.

Corabı əlinə alan kimi Qumru gözünün önünə gəldi. Corabın ilmələrində dolanan barmaqlarını görürdü. Onun, o mehriban kənd qızının arıq, düz, millər kimi cəld hərəkət edən barmaqlarını aşkar görürdü. Qumru belə həvəslə işləyəndə başını aşağı salar, gözünü işə dikər, qara, sıx saçları alnına tökülüb, bulud kimi onun ay üzünü örtərdi...

Qumrunun toxuduğu corablar Qədirin gözündə böyüdü, kənd qızını səslədi. Qumru bunların yununu da özü yumuş, özü əyirmiş, özü boyamış, min nəvazişlə Qədirin adına toxumuşdu.

## YANĞI

### 1

«Şamama, mərmər düyməçəli, ipək məmələr».

Bəbir bəy o yağışlı gecəni nəinki unuda bilirdi, hətta xoşbəxt yaşamaq istəyəndə o səhnəni gözü önünə gətirməyə çalışırdı. Ehtirası qaynayıb-daşırdı. Qumrunun inadı, üsyankar etirazı qarşısında sarsılmış, pozulmuşdusa da, «eşqi, həvəsi» gün-gündən alovlanır, dərinləşirdi.

— İtil burdan, bir qıy çəkərəm dünya yığılar. Kaftar canavar!..

Bunlar, ötən axşam Qumrunun astanasında eşitdiyi bu sözlər bəyin qulağında səslənir, ağır daş kimi başına dəyirdi. Nə eləsin ki, «şamama, mərmər, düyməçəli məmələri» nə daş, nə təhqir, bəlkə güllə də ona unutdura bilməzdi.

O, bığının tüklərini çevirib ağzına doldurdu. İynə batırılmış kimi qaşqabağını salladı, gözünü yüksək bir nöqtəyə dikdi, əlini sinəsinə qoydu (o həmişə fikirləşəndə belə edərdi).

«Əslinə baxsan aşıq gərək cəfa çəkə!
Xoşdur nə qədər eyləsə yarım cəfa mənə...
Əğyar ta ki, söyləməsin bivəfa mənə!»

«Yar, yar» deyib ömür boyu mələyənlər bəs havayıdırmı? Zillət çəkməsən, sabah qucağına alıb öpəndə heç ləzzət də verməz. Töycü

deyil ki, yükləyəsən kəndlinin belinə, hazır qapına gətirəl Burda, zad demişkən, qamas-qamas!..[1] Pişim-pişim ilə!»

Bəbir bəyi bu gün xiyalplov elə qızışdırdı ki, dəftərxanaya da getmədi. Bekarı yanına çağırdı:

— Bilirsən nə var, ay Bekar?

— Allah var, şəriki də var!

— O kimdir?

— Hələ ki, bəydir!

Bəbir bəy irişdi:

— Ay axmaq, Allah olsam dərd ürəyimi dələrdimi?

— Allah eləməsin, ay bəy, sən ölsən bəs biz kimə pənah...

Bəbir bəy əlindəki çubuqla onun burnundan vurub, sözünü yarımçıq qoydu:

— Qulaq as, söz danışıram!

Bəbir bəy dikəlib ətrafa boylandı, pəncərədən eşiyə baxdı. Qıssa xanım təndir başında yastılanıb çörək bişirənlərin üstündə göz olurdu. Bəbir bəy səsini yavaşıtdı, nökərinə xəlvəti danışdı. Onun səsi tuluqdan hava boşaldılanda eşidilən fısıltıya bənzəyirdi:

—Ağzını çuval kimi açma! Dərinə saman təpərəm. Eşitsəm ağzından qaçıb, özünü ölmüş bil! Maymağın biri maymaq!

Bekar əl-ayağa düşdü.

— Xeyr, ay bəy, elə köpəkoğluluq olarmı? Mən sizin qapıda, özün bilirsən... Bu nə sözdü buyurursan, bəyəm, bəndəni tanımırsan?

Bəbir bəy bu ciddi, rəsmi müqəddimədən sonra qıçını qaldırıb dizinin üstə qoydu. Bekara tərəf əyildi. Səsini də, tövrünü də dəyişib, soruşdu:

—Bu Qumrunu nə sayaq eləyək? Köpək qızı çox çəmxəm eləyir axı!.. Bilmirəm məndən niyə ürkür, ya ürküdürlər, nədi?..

Bekar bəyin əndişəsini azaltmaq qəsdi ilə məsələni yüngülləşdirmək istədi:

— Ay bəy, arvadın qaydasıdır. Yaxşı atı minmək çox çətin olur! Baxma, bas qarmala, qurtarsın getsin. Sən onun atılıb-düşməyinə baxma, başmaqları da razıdır.

— Ay ölmüş, nökər olanda nə olar, dedik bir söz danış, söz olsun. Lap sarsaqladın. Get Çəpəli bura çağır. Durma, tez get!

Sayalı arvad kənddə dünyagörmüş, ağbirçək sayılırdı. Düyünləri açar, tilsimləri sındırardı. Ondan gizli sirr yox idi. Hətta o, qabaqcadan bilirdi ki, kim kimi alacaq, hansı arvad boşanacaq və boşanıb kimə gedəcək. İşi çəlpəşik olan, kələfçəsi pırtlaq düşən, dar-

[1] Yavaş-yavaş.



dan qurtarmaq istəyənlər, hətta özgə kəndlərdən, uzaq yollar dolu xurcunla, ayın-oyunla gəlib, onu tapardılar. Deyirlər onun qaranlıq bir evi var. Heç kəsi ora buraxmır. Orda ancaq cin-şəyatin saxlayır.

Sayalının kağız-baratsız, qolsuz, möhürsüz hökmü dəmir yolundan Kürün qırağına qədər işləyirdi. Nədənsə ona Çəpəl deyirdilər. Bir molla onsuz dua yazmaz, daha doğrusu, yaza bilməzdi, falçı onunla tas qurardı. Uşağı olmayan, həmzad vuran, günüdən qaçan, günü gedən arvadların hamısı Çəpəldən xeyir görərdi. Onda, onun kifli, üfunətli düyünçələrində bitdən sirkəyədək nə desən tapılardı. Dəvə qığı, qara pişik tükü, kirpi dərisi, tısbağa ciyəri, cin gözü, leysan suyu, ekiz badam, gözmuncuğu, sağsağan beyni, göyərçin qanadı, qurd yağı...

O, bu «dərmanları» hər adama boyun olmazdı. Yerinə baxardı. Eləsi olurdu ki, Çəpəl Sayalı əsla yaxın qoymurdu:

— Get, bala, sənə veriləsi dərmanım yoxdur,—deyirdi.

Adi şeyləri bir «su içim saatda» düzəldirdi. Çox qızlar qayıdıb ona deyərdi:

— Ay Sayalı xala, sənin üzündə övliya nuru var. Anamın canı üçün, bir bais sən oldun. Yoxsa kişidən zəhləm qaçırdı. Az qalmışdım yığışıb gedəm dədəm evinə. İndi yaxşıca köpüb oturmuşam yerimdə... Nə olub, Allah bəndəsidir, bir tikə çörəyi var. Səni görüm nəfəsin kəsərli olsun!

— Həəəə... xala səni yesin, qızı qoysalar öz kefinə, ya zurnaçıya gedər, ya halvaçıya! Mənə də elə savabı bəsdir ki, zurnaçıya siz cavanəzənləri ər evində, oğlan qucağında yerbəyer eləyirəm.

Bəbir bəy Çəpəl Sayalı ilə diz-dizə oturub, ağır bir «sevda» eləməyə məcbur olmuşdu. Bir şal çadraya, bir də oğluna ləzgi şalından paltara güclə Sayalını razı saldı:

— Yüzbaşısan daha bərkimirəm, yoxsa hansı itin qızı belə ağır işi boynuna alar? Ərli arvadı cızığından çıxartmaq bəyəm asan işdi?

Bəbir bəy çox sevindi. Amma şərt qoydu: Çəpəl elə etməli idi ki, Qumru «can», «sənə qurban!» deyib, Bəbir bəyi bağrına bassın. Uşağı da ərinin üstünə atsın.

Çəpəl sənətinə güvənən mahir ustalar kimi ürəkdən söz verdi:

— Yeri, get evində arxayınca otur. Mənə də Çəpəl deyərlər. Qumrunun ürəyində bir ocaq qalayacağam, bir təndir qoyacağam, özü hu çəkib yana-yana qapına gələcək. Sənin dodaqların ilə, şirin-şirin öpüşlərin ilə ürəyini söndürəcək. Səni bal deyib yalayanda görərsən ki, Sayalı xalanın feli nə feldir, əməli nə əməldir. Onda görərsən!

Bu söz Bəbir bəyin çox xoşuna gəldi. Özü bir də təkrar etdi: «Varam elə felə də, əmələ də!» Sevincindən əlini cibinə salıb, göy bir pul çıxartdı, Çəpəlin ovcuna basdı:

— Qoy bir az da kəsərli olsun, əlinə dönüm, ay Sayalı xala. Elə bil ölmüşəm, yerdən götür. Bu köpək qızının ağzını bağla görək nə olur!

— Arxayın get, bəy!

— Əlinə dönüm!

— İltifatın kəm olmasın!

## 2

Gün batırdı. Həyətlərdə səs-küy çoxalmışdı. Arvadlar çardaqların altında məşğul idilər. Kimi biçinçiləri doyurmaq üçün ayran verir, kimi inək sağır, kimi boş süfrəsini sərir, doğmuş qoyun kimi, bir nöqtəyə baxıb göyşüyürdü.

Qumru başaqdan gətirdiyi taxıldan döyüb, bir cam arıtmışdı. Uşağa hədik asmışdı. Faxirə evin torpağını qazıyıb yemək istəyirdi. Qumru onu qucağına aldı, «pfu-pfu»—deyə doyurmağa başladı.

Qapı cırıldadı. Çəpəl, açılmaqda olan yay kimi burula-burula içəri girdi. (O, aşağıdan çox yoğun olduğu üçün balaca qapılardan çətinliklə keçirdi.) Qumrunun gözü Çəpələ sataşanda ürəyinə bir şey gəldi: «Bu şər vaxtı görəsən... Allah, bu küp qarısının felindən sən saxla».

— Salamcan əleykim, qızım! Yaxşısanmı? Ağrıyıb eləmirsən ki? Balan necədir, hancarısan, necə dolanırsan, lap yaxşısan ki, kefin-zadın?

Çəpəl tez-tez danışan idi. Burada Qumrunu halalamaq üçün bir az da tələsir, nöqtəsiz, vergülsüz hüdülüyüb tökürdü:

—Lap yaxşısanmı, kefin-zadın necədir, necə dolanırsan? Ağrıyıb-eləmirsən ki, ağrın alım?

Çəpəl dayandı. Qumrunun üzünə tünd baxdı. Nagahani, bir şey duymuş kimi əllərini dizlərinə çırpdı. İfadəsini dəyişdi:

— Bıy, mənim başıma kül! Ay qurbanınız olum, bir gör, gör, gör. Gör qız nə yeyir, soğan-çörək! Vaxsey, mer-meyvə dünyanı götürüb, sən nədir bu yeyirsən, ağız?..—Qarı axırıncı sözün son hecasını bir sızıltı kimi uzatdı.— Ağız!..

Eşidən güman edərdi ki, yazığın bədəninə iynə soxur, ya da ağır yarasının məlhəmini qoparırlar.

Çəpəl bu sözləri deyə-deyə yanını yerə qoydu:

— Səndə günah yoxdur, qızım. Allah adamı yetim qoyunca birkərəlik öldürsə yaxşıdır. Min dəfə yaxşıdır. Sənin atan olsaydı, daha nə deyim? Ay parçası kimi uşaq. Niyə gedirdin, ağız? Səndən ötrü igidlərin... uşağı qoyma, yıxılar, ağız... İgidlərin ürəyi bir tikəydi ki, «oxay» deyib can verirdilər. Kül başına bu dünyanın, fələyin çarxı dönsün: əyri Qıssa bəy arvadı, adı da «Qıssa xanım», Qumrular da dərənin rəncbərinə tuş gələr... Kişşşş!...—Çəpəl toyuqları qova-qova dəyirmanını işlədirdi:—...rəncbərinə tub gəlib soğan çeynər. Qız, bu nə gündür sınıxıb əriyibsən? İynəyə saplanarsan, ay binəva!..

O belə tez-tez danışırdı ki, sanki ac toyuq yerdən dən götürür. Qumruya dillənməyə macal vermir, danışdıqca burcuxur, yuxarı başa çəkilir, baş-gözünü açır, məhrəmləşir, ev-eşiyi həris gözlə süzürdü.

— ...Yoldan keçirdim, pəncərədən baxmışam. O əyri Qıssa, o naxıs[1] Qıssa, turşumuş xamır kimi enlənib oturur. Qabağında qarabaşı, nökəri qulluğunda. Süfrəsinə padşah da tamah salır. Qaymağınamı söz var, yağınamı, kərəsinəmi, salma çayınamı, fətirinəmi, fəsəlisinəmi, qatlamasınamı deyim? Ağ əppəyi yaxın qoymur ki, çiyrinmişəm, iyrənirəm...

— Dünyadır, ay Sayalı xala! Biri varlı olar, o biri kasıb.

Qumrunun bu sözlərini Sayalı saymadı.

— Yox, bala, onu kişilərə deyiblər. Arvad dediyin bal arısıdır. Şirəli çiçəyə qonar. Bundan qalxıb, o birisində oturar. Söyüd yarpağında nə vardı ki, arı da nə götürə. Burası var ki, qulaq asma, heç kəsin çırağı danatan yanmaz. Qıssanınkı da keçmiş ola!

Çəpəl səsinin xodunu aldı. Qıza yaxınlaşdı. Burnu Qumrunun saçlarına toxunacaq qədər əyildi. O, zirzəmidə qalmış küp kimi soyuq nəm iyi verirdi. Çəpəl Qumrunun qulağına pıçıldadı:

— Muştuluğumu ver!

— Nə var bəyəm?

— Muştuluğumu ver!

— Xoşxəbər olasan, ay Sayalı xala! Çox nigaranam. Haçandan getdiyi, Qədirdən xəbər-ətər yoxdur. Bilmirəm kişinin başına nə gəldi bu şuluqluqda. Uşaq da yadına salıb ağlayır. Yerdə-göydə durmur.

Çəpəl əlini tovladı:

— Yox... ağız. Eh, sən də bilmirəm lüt Qədirdən nə istəyirsən! Ayrı şey, şad xəbər deyəcəyəm, heç kim bilmir. Təptəzə qatı açılmamış xəbər! Muştuluq nə verirsən? Qədirdən yaxşısını deyirəm ey! Muştuluğumu ver!

Qumru dinmədi. Çəpəl Sayalı ufuldayıb dikəldi. Qumrunun yanına çəkildi. Qapı-pəncərəyə baxdı, yavaşca danışdı:

[1] Naqis.

— Söz burda qalsın, bəxtəvər, bəxtin açılıb, xəbərdən xəbərin varmı?

Çəpəl bunu deyib, Qumrunun soyuq yanağını çimdiklədi. Saçını tumarlamaq istəyəndə Qumru mane oldu və bir şey anlamadı. Çəpəl burcuxa-burcuxa ona daha da yaxınlaşdı, təkrar etdi:

— Bəxtin açılıb, heç kəsə demə ha, söz burda qalsın. Bəbir bəyin sənə gözü düşüb. Dərdindən ölür, dəli-divanədi, ay bəxtəvər. Ağ günə çıxacaqsan dana!.. Sağ əlin bizim kimilərin başına...

Qumru çox tutuldu, qıpqırmızı qızardı, rəng verib, rəng aldı. Odlu dodaqlarını gəmirdi, xatalı bir şey duymuş kimi tez geri çəkildi, yerə baxa-baxa bir müddət sakit durdu.

Onun baxışından dəhşət yağırdı. Adama elə gəlirdi ki, o, müdhiş bir qərara gəlmiş və yerinə yetirməyə and içmişdi. İcrasına başlamaq əzmində idi. Sükut çox sürmədi. Qumru səsinə və adətinə yaraşmayan bir inad və ahənglə danışdı:

— Bu, çoxdankı xəbərdir. Sən gecikmisən, ay arvad! Bəy çox qələt eləyir, sən də onun murdar ağzını yalayırsan. Mənə nə olub? Mənim ərimə nə gəlib? Kasıbdır, mən də kasıb qızıyam. Onun bir dırnağını Bəbir kimi min köpəyə dəyişmərəm. Getsin yalaq Səkinəni aldatsın. Mən də ona fərə Məsmə deyiləm ki? Çox ayıb olsun ona da, sənin kimi başı gora titrəyən qarıya da! Ayıb olsun! Nə olub? Bəyəm kasıbın namusu yoxdurmu?..

Qumru danışdıqca qızır, səsi körüklənən ocaq kimi alovlanır, sözlər köz kimi tökülürdü. O, əsəbiləşdi, ayağa qalxıb, guya evi yığışdırmağa, süpürməyə başladı. Bu, Çəpəl Sayalını qovmaq demək idi. Çəpəl yaxşı qanırdı, lakin saya salmaq istəmirdi. Qumrudan belə cavab gözləmirdi. Zahirdə mülayim, fağır görünən, ağ günə möhtaç olan kasıb gəlindən belə tünd cavablar da çıxarmış!.. Çəpəl özünü toxtadıb, analara məxsus bir ifadə ilə davam etdi:

— Kiri, kiri... Ağrım o kişinin ürəyinə ki, qarnım dolusu çörəyi də yoxdur. Cavansan, qanmırsan, danışırsan. Nəyinə oturacaqsan, lüt canına, ac qarnına, qaranlıq daxmasınamı? İndi də səni tək qoyub gedib dağda, bağatda, kim bilsin, hansı kefə. Sən ev qızısan, nə bilirsən indi o hansı haxçıxnan kef çəkir. Sənin nə vaxtındır əriyəsən, əziz canını çöldən tapmısanmı?..—Çəpəl səsini ucaltdı.—Qurban olum şəriət qoyana. «Kəbinim halal, canım azad». Necə deyərlər: «Mən gəlmişəm istəkanə qənd salmağa, gəlməmişəm ürəyimə dərd salmağa». Qızım, bu bir xoşbəxtlikdir sənə üz verib, əldən qoyma, peşman olarsan! Mən səni istəyib deyirəm, yoxsa Bəbir bəyə, kəndin ağasına qızmı əskikdir?!.

Onun bu son sözlərini Qumru eşitmədi, çünki eşiyə çıxmışdı. Evə qayıdanda hələ Sayalının səsi kəsilməmişdi. Qumru çəpəki və qılınc kimi kəsərli baxışla onun gözünün içinə baxdı, cavab verdi:



— Anam yerdə arvadsan, evimə gəlibsən, xoş gəlibsən. Yox əgər bəd niyyətlə, belə şeyləri danışmağa, məni bişirməyə gəlibsənsə, çox ayıb olsun! Qələt elədi bəy də, mənim sözümü danışan da. Bax, qulağınızı açın, eşidin; qoy yığışsın otursun yerində. Məni adamsız görüb yoxsa, əlquşu eləmək istəyir? Vay-vay!..—Qumru kiriyən kimi Çəpəl əlini qaldırıb, nə isə demək istəyirdi. Qumru acığını söndürə bilmədi, belə bitirdi:—Necə gəlmisən, eləcə də çıx get! Ağbirçək arvadsan, hörmətini saxla! Mən çox da böyük-kiçik qanmaram, bil!

Qumru Çəpəlin dalınca qapını elə hirslə çırpdı ki, deyərdin bu qapı bir də heç vaxt açılmayacaq!

— Küp qarısı! Ağ birçəyin al qanına bulaşsın, görüm!

Bunları öz qulağı ilə eşidən, amma eşitməzliyə vuran Çəpəlin fikrindən keçirdi ki, nə çarşab, nə də ləzgi şalı baş tutacaq.

Qumrunu bu kökdə görən qarı, ümidlərinin, xəyallarının boşa çıxdığını yəqin etsə də, fitnə-felindən əl çəkmir, çarə axtarırdı. Evinə qayıdandan sonra çox götür-qoy elədi, düşündü. Bədənindəki duaları bir də yoxladı. Gecə aralığa gələn kimi yatmadı, ulduzlara baxdı. «Məkkə yolu»nu[1] bir-bir ziyarət elədi.

Kənd yatışdıqdan sonra Sayalının dizinə kaftar qüvvəti gəlirdi. O, vəhşi kimi səssiz, ayıq-sayıq gəzirdi. Bu gecəni Bəbir bəyin evilə Qumrunun evi arasında dolaşan hana qurdu evdən evə qaçdı, durdu, oturdu. Salavat çəkdi, surə oxudu, sağa üfürdü, sola ötürdü, on üç yaşar pişik tükünü yandırıb, külünü göyə sovurdu. Köhnə süpürgə çöpünü qırx parça doğrayıb, Qumrunun evinə yeritdi.

Dərmanlar, cadular kəsərdən düşmüşdü. Cinlərin heç biri bu «vəzifə»ni boynuna almırdı. Qumru iki ayağını bir başmağa dirəyir, dediyini deyib dururdu. Çəpəl fəndinin karsızlığını onunla izah edirdi ki: «Bəyin inanı düz deyil! Etiqadı kamil deyil! Yoxsa belə işlər mənim əlimdə nədir ki!..»

Bu əhvalatdan sonra Bəbir bəy neçə gün oruc tutdu, namaz qıldı. Bir manat nəzir dedi. Ürəyindəki hissləri həmdisurəyə silib məscidə atmaq istədi. Çəpəl işdən çəkilməmişdisə də, bir şey də edə bilmirdi. Bəbir bəy soruşanda deyirdi:

— İş səndədir, ay bəy. Ürəyin təmizlənsə, günü bu gün düzələr. Bir də uşaq var, arada duran uşaqdır. O pisdir. Qızın məhəbbəti çevrilib uşağa. Uşağı atıb cinlərin ayağına, onlar da körpəyə yaxın düşmürlər. Körpədən Allah da keçmir, bəndə də! Neyləyəsən, kəsib qabağı, işləri kor qoyub!..

Qarı bu yerdə şəltəsini işlədə bilmədi. Bəbir bəyin vədinə, səxavətinə də inanmadığı üçün Çəpəl meydandan çıxdı.

---

[1] Kəhkəşan.

İndi də Sarıqlı molla işə başladı. Bunun əsl adı Molla Mirzə Məhəmməd imiş, nəzir verilmiş bir qızı bağrına basanda qız кişinin alt dodağını dişləyib üzmüşdü. Yara işləyib sim eləmiş, iкi ay onu ibadətdən qoymuşdu. O zamandan molla dodağına ağ dəsmalla кuкla balıncı bağlayırdı. Mollanın üçmərtəbəli adı ailədən qırağa çıxmadı. Hər кəs onu Sarıqlı molla deyə çağırmağa başladı.

Bəbir bəy dərdini Sarıqlı mollaya açdı. «Sən də dərd əhlisən, axund, buna bir əlac elə,—deyə bir кəhər at boyun oldu,—yəhər əsbabı da üstündə!»

Kəhər olmasın, lap yabı olsun, mollaya bir at vacib idi. Çünкi dörd para кəndin ölüsünə, dirisinə, кəbininə, siğəsinə yiyə duran təкcə o idi. Məhərrəmliкdə bir məclisdə töкülən göz yaşları qurumamış, o birisində «ağam vay» səsi ucalırdı. Bunlar Sarıqlı mollanın sayəsində idi. Belə mövsümlərdə mollanın mərsiyəsini dinləyənlər ona at da, hər cür azuqə də verirdilər, laкin ona öz atı lazım idi, çünкi özкə atına minən tez düşər. Axund isə düşməк istəmirdi. O da can idi, o da insan idi. Necə deyərlər, ruhu vardı, arzusu vardı. O da atını, məhz öz atını qamçılayıb, yaşıl dağlara dırmanmaq, cıdırlarda oynatmaq, кöç yolunda çapmaq, hələ bərкə düşəndə ova da getməк istəyirdi. O da «Allahın əmri, peyğəmbərin şəriəti ilə» dünyanın halal nemətlərindən feyzyab olmaq istəyirdi.

O, bəyin vədinə inanırdı. Kəhər atın həvəsilə Qumruya şəriət öyrətməyə gəlmişdi. Ösкürə-öskürə başını əyib, Qumrunun evinə girəndə soruşdu:

— Öhəəəə!.. Qumru xanım evdədirmi?

Qumru ona oturmağa macal vermədi. Sarıqlı mollanın ağzını qapıdan qaytardı:

— Şəriət belindən vursun, кişisiz evdə sənin nə işin var? Çıx, çıx bircə, cəhənnəm ol!..

Qumru biabırçılıq salmaq istəyənlər кimi bərкdən danışdı. Sarıqlı molla isə onu saкit eləməyə çalışdı.

— Dayan, qız, cuvanəzənsən, ərzimə mültəfit ol, bir gör nə deyirəm. Xeyrindir. Səni istəyib gəlmişəm...

Sarıqlı molla bu sözləri deyib qurtarmamışdı. Qumru dinməz-söyləməz, xəкəndazla mollanın yanından elə çırpdı кi, sümüкləri şaqqıldadı.

Molla ömründə bunu gözləməzdi. Karıxdı, özünü itirdi. Başmağını astanada qoyub, ətəyini ovcuna yığdı, oğru pişiк кimi sürüşdü:

— Allahın lənəti Aişəyə gəlsin, məlunə!..

Başmağı toyuqlar dimdiкləyib həyətə saldı. Əhmədlilərin tulası başmağı ağzına alıb, birbaş yola düzəldi. Sanкi yiyəsinə verməyə aparırdı. Görənlərdən utandı, uşaqlardan qorxdumu, yoxsa nallı başmaq ağırlıq elədi? Nə isə, tula кüçənin ortasında başmağı atıb qaçdı. Günortanın istisindən hamı, hər şey su qırağına, кölgələrə çə-кilib qorunurdu. Yalnız başmaq tozlu yolda ağzı günə qalmışdı. Başmaq məsələsi dilə-dişə düşdü. Kənddə danışıb gülürdülər. Sarıqlı molla ötəndə eşitdirirdilər:

— Molla əmi, başmağın niyə tayкeşdir?

Çay başında, zəmidə, doqqazda, söhbətdə danışırdılar кi:

— Deməzsənmi, Sarıqlı molla Qədirin arvadına əl atıb...

Bu söhbət çox adama qəribə gəlirdi. Bəzi xalis möminlər inanmaq istəmirdilər. Kimisi də məna verməyib:

—Ehhh...—deyirdi. —O çoxdanın кaftarıdır, canım... Saqqalından cin-şəyatin sallanır!..

— Molla demə, camadara oxşayır zalım! Vələzzalini örкəndən çox uzadır.

— Evimizi yıxan elə vələzzalin olmadımı?

Bu danışıqlar quru söhbət olub qalmadı. Müştərilərin ayağı seyrəldi. Axundun bazarı кasad oldu. Hətta yetim Əкbər divardan boylanıb, barmağını Sarıqlı mollanın üstünə silкələdi:

—Bir кöpəкoğlunun ölüsünə namaz qılmayacaqsan!

Bütün bunlar Sarıqlı mollanı cücəyə döndərdi. O, at məsələsinə it кimi peşman oldu. Yaxın adamlara rast gəldiкcə qırağa çəкir, «işin içini» danışır, Bəbir bəy üçün, məhz o «bişərəf» üçün getdiyinə and-aman eləyir, qarğış töкürdü:

— Allah əzabını şədid eləsin!—deyirdi.—Kəndxudadır, sözünü yerə salmadım. Nə edəsən кi, qəzayi-rəbbanidir...

Təsəvvür edin кi, Sarıqlı mollanın vəziyyəti çox pis oldu. Çəpəl Sayalı əlinin dalını yerə vurub, yolun yarısından geri çəкildisə, axunda elə bir xoşbəxt nəticə qismət olmadı.

Başmaq məsələsi onun üçün indi ölüm-dirim məsələsinə çevrilmişdi. Bəbir bəyin qorxusundan camaat arasına çıxıb deyə bilmirdi кi: «İş ayrı cürdür. Ya eyyuhənnas, bəndə кəndxudaya vəsatətə getmişdim. Mənim qeyrilərinin övrətində təməhim olsa, Əlinin zülfüqarı belimdən dəysin. Siz nəyə inanırsınız?.. Qurani-məcid haqqı!..»

Bunu edə bilmədiyi üçün beş adamı bir yerdə görəndə axund başını aşağı salır, nisyə salam verib ötürdü.

Sarıqlı mollanın özünü müdafiə üçün arada-bərədə xəlvəti verdiyi izahat saqqız кimi ağızdan-ağıza dolandı. Dolandı, dolandı, gəlib Qıssa xanımın qulağına çatdı. Əvvəl o da inanmadı. Əlində tiyança, ayaq üstdə donub qaldı. Söz qurğuşun кimi ürəyinə düşdü. Çadranı başına salıb, Qumrunu görməyə getdi.

Axşam idi. Doqqazdan əl-ayaq çəкilmişdi. Qumrunu çardağın yanına, tut ağacının dibinə çağırıb, and verdi:

— Sən o bir balanın canı, sən bu çörək, olanını mənə de, Bəbirin başına ləçək bağlamasam, atamın qızı deyiləm...

Qumru ondan heç nəyi gizlətmədi.

Qıssa Qumrunu belə mülayim, xoşrəftar bilməzdi. Əhvalatı tamam öyrəndi, razılıq edib qayıtdı. Yarım saat keçmədi. Kəndin ortasında qırmızı kərpicdən tikilmiş bəzəkli, kirəmitli evin həyətində, eyvanda qışqırıq qopdu.

Qıssa xanım bağban bəylərindən idi. İyirmi beş il idi ki, Bəbir bəyin evində xanımlıq edirdi. Bəyin şəhərdə, özgə kəndlərdə arvad saxlamağına daralıb dava salardısa da, gözü görmədiyindən, bənd olmazdı. İndi isə bəy həyasızlığına salıb, göz görəsi, əməlli-başlı evlənirdi. Qıssa xanımın üstünə dərənin kənizini arvad gətirmək istəyirdi. Bunları fikirləşdikcə Qıssa xanımın gözündən od yağır, bağrı çatlamaq istəyirdi. İyirmi beş illik xanımlıq günləri bir anda təsəvvüründən gəlib keçdi. Yenə hər şeyi unutdu. İndi onun simasında, intihara qərar vermiş kimi, küt bir durğunluq vardı. Ev, övlad, xoşbəxt ailə həyatını bir çini qab deyib yerə vurmaq, qiyamət qoparmaq üçün başıaçıq, ayaqyalın eyvana çıxdı. Üzünü qaranlıqlara tutdu. Əllərini dizinə qoydu, ağzını açdı, gözünü yumdu, inadkar uşaq kimi gücü çatdıqca çır-çır çığırdı:

— Vaaay!.. günüm vaaaayy!.. Elim vaaaay... canım vaaaayy... vaxssseeey... öldüm, vayy!..

Nökərlər özlərini itirdilər. Ömürlərində belə dəhşətli səs eşitməmişdilər. O da Qıssa xanımdan... Yalnız Ağakişinin anası ölən oğlunun üstündə belə qışqırıb, saçını yolmuşdu. Qıssanın səsi həyətin sükutunu pozdu, ümumi bir çaxnaşma saldı. Atlar hürküb kişnədilər. Ördəklər çığırıb divara uçdular. Kənardan gələnlər oldu. Qonşu çardağın altında oturub çörək yeyən biçinçilər süfrə başından qalxıb, divara dırmaşdılar:

— Görəsən xanıma nə bədbəxtlik üz verib!..

Bəyin eyvanında vahiməli hay-küy, təlaşlı hərəkət, taraphatarap eşidildi. Amma qaranlıqda müəyyən bir şey görmək, seçmək olmurdu.

Qıssa xanım tir kimi uzanmış, qarnı, başı açıq yerə sərilmişdi. Haçan özündən getdiyini bilən yox idi. İlan vurduğundan şübhələnirdilər. Əldə çıraq hər yerini yoxladılar. Bir şey tapılmadı. Ağzına şüşə tutdular. Nəfəsi var idi. Başını ovdular, ayağını övkələdilər, su səpdilər, damarını sıxdılar, burnuna tüstü verdilər, yastıq kimi çalxaladılar.

Bəy quruyub qalmışdı:

— Buna nə oldu? Durduğu yerdə...

Qıssa xanım özünə gəlmişdisə də, bəyin acığına gözünü açmır, özünü daha da ağır göstərir, diriliyini gizlətməyə çalışırdı. Onu qaldırıb, yorğan-döşəyə saldılar. Uşaqlar ağlayırdılar. Nökər də yalandan dəsmalı ağzında saxlamışdı. Bəy ürəkdən sevinirdi. «Ay Allah, başımdan rədd olaydı! Bir toğlu da nəzir eləyirəm». Lakin adamlar ona baxdıqda üzünü turşudur, kədərli görünmək istəyirdi. Dəsmalı gözünə basıb uşaqların fəryadına səs verdi. Hönkür-hönkür ağladı:

— Balalarım... öhhhöö... ööhhö...



## XƏBƏR

### 1

Bu il qarışıqlıq olduğundan, dağa getmək çətin idi. Ancaq, yaraqlı, arxalı adamlar getmişdilər. Yaybaşı Bəbir bəy külfəti aparmaq istədi. Qıssanın qılığına girdi:

— Qubuş, istidə əriyirsən, gəl sizi aparım qoyum dağa, gədələrdən də qarovul duran olar... Səlman bəyin, Aslan bəyin evi də oradadır. Mən kəndi təkbaşına qoya bilməyəcəyəm. Sizsə də qalmayın, mənim oduma yanmayın, uşaqlar qırılır. Deyirlər bu yay od töküləcək. Aradan çıxın.

Başqa vaxt Qıssa belə bir təklifi bəlkə qəbul edərdi, lakin indi Bəbir bəyin «sancısı»nı yaxşı bilirdi. Ona bəlli idi ki, bəyin aranda qalmasının səbəbi Qumrudur. Qumrunu ərindən təkləyib, ələ gətirmək, özünə arvad eləmək istəyir. Buna görə də ailəni dağa göndərir, başından eləyir.

— Məni bağışlayasan. Cəhənnəmə, gora olsun kənd də, kəsək də, uşaq da! Dağa gedirsən, evini yığışdır apar, getmirsən, yum ağzını, köp yerində. Mən səni başına qoyub getməyəcəyəm!

Bəy Qıssanı yaxşı başa düşürdü. Bilirdi ki, bir az da bərkə salsa, qulağı ayrı şeylər eşidər...

Şam vaxtı dağ atlılarından bir neçəsi qayıtmışdı. Onlar həmişə olduğu kimi yeni xəbərlərlə gəlmişdilər. Bəyin eyvanında xalça salıb söykəndilər. Kabab yedilər, tut arağı içdilər, yemiş kəsdilər. Yemək üstündə şirin söhbətdən də qalmadılar. Atlıların deməyinə görə, «ermənidə ermənilik qalmamış, darmadağın olmuşdu. Qırılanın sayı-hesabı yoxdu». Qara Aslanı da vurmuşdular. Kişinin meyidi düzdə tərk olandan sonra tapılmışdı

— Kisib nə kisib ... Bəy, başın üçün, evlər gördüm ki, nəsrəddin şah nəçidi! İpək pal-paltar ayaq alıb gedir. Nə başını ağrıdım, gədənin hamısı yükünü tutdu. Zabitlər qiymətdən ağır, vəzndən yüngül şey götürürdülər. Bizimki elə deyil, ələ nə gəldi çırpışdırırdıq... Arvad-uşağa çılpaqlıq gətirmişəm. Alınan kənddə üç gün talan oldu. Əsgər gördüm dalına ağ samovar alıb, bəri qaçırdı. Qızlar nə qızlar, bulağın suyundan içib, alma kimi qızarıblar...

Məşədi Cahangir danışdıqca Bəbir bəy qəlyanı tüstülədir, кirpriyini qırpırdı. O, qızlar haqqında eşitdiyini xatırında canlandırdı. Qumru bütün vücudu ilə gəlib gözünün qarşısında durdu. Məşədi Cahangir birdən diкəldi. Yadına düşən qəribə bir şeyi danışdı:

— Кəndi alandan sonra atışma yatdı. Camaat evlərə daraşdı, hərdənbir güllə açılırdı. Ancaq hamı çalışır, axtarır, özünü varlı yerə salmaq istəyirdi. Mən girdiyim evdən bir qrammafon götürdüm. Eşiyə çıxanda bir arvad səsi eşitdim:

— Ay qardaş, müsəlmansan məni də apar!—O, saçı-başı açıq, enlisifət bir qadın idi. Hamı bizdən qorxub qaçdığı halda, o, pilləкənlərdən düşüb, mənə tərəf gəldi, dedi: «Mən müsəlmanam, məni əsir gətirmişdilər. İndi üç aydı...»—Baxdım, baxdım, Avazlı Qənbər yadıma düşdü. Eşidibsən кi, onun arvadı dağdan yoxa çıxmışdı? Adını soruşdum, yanılmırdım, Qənbərin arvadı imiş. Yoldaşıma baxdım, o da mənə baxdı. Qadın ayaqlarıma düşdü, yalvardı. Onu qaldırdım, gətirməк istəyirdim. Yoldaşım qulağıma pıçıldadı:

«Sən nə xəyaldasan? Bu əllərdən çıxmış adamı yanımıza salmaqmı istəyirsən?»

Yadıma düşdü кi, buna кafir əli dəyib. Qan beynimə vurdu. Acığımdan bilmirəm arvadı haçan parçalamışam, doğramışam.

Bu söhbətlər nə qədər qəribə və təzə olsa da, Bəbir bəyi məşğul edə bilmirdi, çünкi o çox dalğın idi, geciкmiş və кiflənmiş bir «eşqin» qoxusu ilə кeflənmişdi. Qaynayan samovarın musiqisi altında xəyalata, ehtiraslı düşüncələrə dalmışdı.

Məşədi Cahangir qırğın və talandan danışıb dizinə çırpanda Bəbir bəy diкsinir, atılır-düşür, düşmənlərinə meydan oxuyurdu. Bununla guya Məşədi Cahangiri «huş-guşla» dinlədiyini bildirməк istəyirdi.

Məşədi Cahangir bəyin Qumruya olan münasibətini yaxşı bilirdi, laкin üzə vurmurdu. Ona görə də bəy üçün ən qiymətli bir xəbəri danışmaq istəyirdi. Yeni həvəslə dil açdı, diz çöкüb danışdı:

— Rəncbərin də кi, başına sadağa oldu. Ermənilər öldürdülər.

— Həə... Belədir. Dünyanın işi...

Məşədi Cahangir anladı кi, bu xəbər bəyə çatmadı. Onu ayıltmaq üçün bu кifayət deyilmiş. Sual verdi:

— Nə belədir? Dünyanın hansı işini deyirsən?

— Hər işi dana, ay sağ olmuş!..

— Heç bildin кi, nə dedim?

— Nə dedin? Müsəlmanın işini demirsənmi?

— Bir qulağın məndə olsun, a Bəbir, gör sənə nə deyirəm: Qədiri də öldürüblər!



Bəbir bəy qaşlarını çatdı. Ona tərəf əyildi. Qəlyan əlindən düşdü:

— Necə?

— Qədiri ey!.. Qədir tərəfindən başın sağ olsun... Allah sənə səbr versin! Necə olsa nöкərin idi!

Bəyin qara və çuxur çöhrəsini gülüş işıqlandırdı. Bir az da Məşədi Cahangirə tərəf əyildi...

— Qədiri ha? Belə bizim bu Qumrunun əri...

— Özüdür. Həmin Qumrunun əri!..

Məşədi Cahangir son sözlərini mənalı əda ilə bitirdi. «Qu...mru...nun... əəəəri!»

— Qədiri?

— Qədiri!

— Öldürüblər?

— Canını da alıblar!

— Gavur?

— Lap gavur, кirvələr!

— Dağda?

— Yox, yolda. Carçı dərəsində üç erməni tutduq. Qədirin başbileti onların cibindən çıxdı. Görünür, dağa gedəndə soyub öldürüblərmiş... Qorxma, onun qanını qardaşın yerdə qoymazdı. Sənin cövrünü hər yerdə lələşin çəкib, çəкəcəк!

Məşədi Cahangir danışa-danışa qatarının altındaкı ciblərini qurdaladı. Çəкməsinin boğazından qana bulaşmış bir кağız çıxarıb ortalığa tulladı. Bilet müqəddəs bir şiкayət кimi göründü. Yazıları sürtülüb oxunmaz olmuşdu. Bəy bileti əlinə alanda qorxu hiss etdi. Qanlı vərəqlər quruyub кardona dönmüşdü. Qədirin bulanıq surətində ölümün iti dırnaqları iz buraxmışdı. Ani bir xəyalatdan sonra Bəbir bəyin gözləri parıldadı. O özündə qəribə bir sevinc hiss etdi. Qalxıb Məşədi Cahangirə bir boşqab yaylıq üzüm gətirdi:

— Bağban qızına sovqat gəlib. Səndən əziz hansı qonağım yeyəcəк? Döşə! Döşə getsin, sənin кimi igidə halaldır!

Qapı döyüldü. Qənbər tövşüyə-tövşüyə içəri girdi. Məşədi Cahangirə əl verdi. Xoş-beş eləməmiş onun alnından öpdü:

— Daha rahat yataram. Şortu qızının кələyini кəsdinmi? Əlinə dönüm. Mənim namusumu qorumusan, qeyrətinə əhsən! Elə bil dünyanı mənə bağışladın.—O, Məşədi Cahangirdən cavab gözləmədən Bəbir bəyə çevrildi:—Gördün кi, a bəy, gördün кi, sənə deyirəm qoymaram, qoymaram mənim arvadımı...—Cümləni bitirmədən çal papağını yerə çırpıb, ürəкdən nə isə deməк istəyirdi. Papağın кüləyinə çıraq söndü. O, cümləsini qaranlıqda bitirdi:—Bu namus mənə

haram olsun, əgər Məşədi Cahangir olmasa da, özün tapıb, tikə-tikə doğramasaydım. Mənə Avazlı deyərlər. Ürəyimdə Əli qanı var.

Bəy təsdiq etdi:

— Sən o pəhlivansan ki, girdin bağa,
Şəhid eylədin əlli min qurbağa.

Məşədi Cahangir güldü:

— Yox, aşna, bu, masxara oldu! Şüşəkiyə qoydun məni lap!

Qonaqlar gedəndən sonra Bəbir bəy özündə yeni bir qüvvə, lap cavanlıq həvəsi duydu. Qalxıb aftafa-ləyən istədi. Yuyundu. Çuxasını geyindi. Gümüş toqqasını bağladı. Boğazlı çəkməsini ayağına çəkdi. Saat zəncirini döşünə taxıb, evdən çıxdı.

## 2

Qədirin vay xəbəri çoxdan alçaq daxmanı titrətmişdi. Qumru bunu eşidəndə ürəyi döşündən çıxıb daşa dəydi. Elə bil ki, onu dərin dənizlərin dibinə atdılar, uca dağları üzərinə yıxdılar.

O, sevgilisinin adını çəkir (indiyə qədər o, ərinin adını çəkməmişdi), vəfalı yoldaşının dalınca leysan kimi yağırdı. Uşaq da döyüküb qalmışdı. Anası heç belə eləməzdi. Heç onun bu qədər çırpındığı yox idi. Qumrunun kədəri fələkətindən ağır idi. O, ölüm arzulayır, lakin tapa bilmirdi. Dağlar daş olub qəlbindən asılmış kimi, ağır nəfəs alırdı.

«Sağlıqla qal. Uşaqdan muğayat ol!..»

Uzaq deyil. Dörd ay əvvəl şirin ailə həyatından ilk dəfə ayrılan cavan atanın son tapşırığı bu olmuşdu: «Faxirədən muğayat ol!.. Başına dönüm, Faxirədən muğayat ol, ağlamasın».

Bunları xatırladıqca Qumru ağlayırdı. Nisgil, kədər, məhəbbət, yoxsulluq!

Qumrunun həyatını təşkil edən məzmun bunlardı. Aclıq da, ehtiyac da unudulmuşdu. Uşaq anasının boş və solğun döşlərini sorub ağlayır, ağlayıb sorurdu.

Bu matəm xəbəri kənddə heç nəyi dəyişmədi. Heç kəsə təsir etmədi. Yalnız «millət», «vətən» şüarı çəkərək, sağa-sola çapıb gedən atlılar Qumrunun naləsini eşidib, dodaq büzür, lağa qoyurdular.

Qumrunun dağdan ağır xəbərini duyan Məşədi İslam isə heç bir şey edə bilmirdi. Onun qardaş qədər əziz olan sevgili yoldaşı, sirdaşı əlindən getmişdi. O, Qumrudan az matəm tutmurdu. Arvadı Tellini götürüb, Qumrunu ovutmağa gəlmişdi.

Bu axşam Telli yemək bişirib gətirmişdi. Uşağı özü saxlayıb, Qumrunu rahat buraxmaq istəyirdi. Bəbir bəy Sarıqlı molla ilə başsağlığına gəlmişdi. Oturan kimi molla fatehə çəkdi. Hamı dodaqlarını



tərpətdi. Bir xeyli sakitlik oldu. Heç kəs dinmir, başqasını eşitmək istəyirdi. Bəy «göydəndüşmə» xoşbəxtliyini gizlətmək üçün qaşqabağını sallayır, özünü qüssəli göstərmək istəyirdi. Hələ mümkün olsa kirpiklərini sıxıb, bir-iki damcı yaş da axıtmağı arzulayırdı. Bu, Qumrunun xoşuna gələrdi. Boynunu çiyninə qoydu, dəsmalını çıxarıb, ağzında saxladı. Yerə baxa-baxa, ağlayanlar kimi öskürdü, burnunu çəkdi. Sarıqlı mollaya elə gəldi ki, bu ailənin matəmi bəyə də təsir etmişdir. Ona görə sözünü saxladı, çubuğu sorub, tüstüsünü birdən püskürdü. Bir az da gözlədi, dizi üstə çöküb dilləndi:

— Qızım, qüssə eləmə. Allah özü buyurub: külli nəfsin zaiqətil-movt. Qədir kafirlər əlində, din yolunda ölüb, deməli, şəhid olub. Ruhu cənnətdə ağalarımız ilə bahəmdir. Huri-pərilərnən həmsöhbət olub. Sən də ürəyini toxtat. Səbr elə. Balasının başı sağ olsun!

Bəy onu tamamladı:

— Nə olub qüssə eləyirsiniz... Qədir ölüb, biz ki varıq. Onun əyalının namusu bizim namusumuzdur. Millət yolunda ölənə can qurban elərik. Qoymarıq bir qırıq da korluq çəkəsən. Qumru xanım, heç vecinə də alma. Nə olub bəyəm, nə qədər canımızda can var, sizin qulluğunuzda...

Molla bəyin sözünə qüvvət verdi:

— Əlbəttə, əlbəttə! İslam deyilikmi!..

Bəy ifadəsini dəyişdi:

— Kişi çox qeyrətli kişi idi. Onun adı dillərdə qalacaq, çünki millət yolunda...

Telli bəyin sözünü ağzında qoydu:

— Ehh! Bəbir yüzbaşı, yetimə can-can deyən çox olar, çörək verən az!.. Təki nə Qədir öləydi, nə də millət onun adını çəkə idi. Bizə ad lazım deyil, dolanmaq, səlamətlik lazımdır.

Bu, bəyin acığına gəldi. Necə yəni yetimə can-can deyən? Burada danışan yüzbaşıdır axı... Ayrı vaxt olsa Bəbir bəy Tellinin ağzını yaxşıca yumardı. İndi yas yeri olduğu üçün, o yumşaq cavab verdi:

— A Telli, a Telli! Axı işin içində bizik. Bu işləri biz bilirik. Axı biz bilirik ki, Qədir hərçəndi rəncbər idi, kişi qanan rəncbər idi. Millət yolunda canından keçən rəncbər idi! Oxumuşların bilmədiyini bilirdi. O da bizə məlumdur ki, mərhumun adı bu saat qoburnatın hüzurunda nöqtəbənöqtə yazılıbdır. Mən hər yerdə demişəm, yenə deyirəm. Qoy sənin ərin Məşədi İslam da eşitsin. Rəncbərlərimiz Qədir kimi qeyrətli olsalar, işimiz çox irəli gedər. Çox da yeyin gedər. Düşmən də üstümüzə ayaq almaz. «Olsalar!» deyirəm, olsalar! Amma nə fayda ki, kəndlinin, rəncbərin çoxusu qarın davası döyür. Sümük dartışdırır.

Məşədi İslam anladı ki, bəy nəyə işarə edir. Şəhərlərdə, kəndlərdə gedən dövlətli-kasıb davasından eşitmişdi. «Balşavet» deyilən bir cür təzə adamlar aralığa çıxıb ki, gərək kasıb, dövlətli bərabər olsun. Bu sözdən bəylərin acığı gəlir. Belə danışanı döyüb dama salırlar. Məşədi İslam bildi ki, bəy «sümük dartışdıranlar» deyə kimə işarə verir. İstədi canını dişinə tutub desin: «Aşna, əyri oturaq, düz danışaq, balşavetin dediyi əsl düz sözdür, haqq sözdür!» Buna özündə cəsarət hiss etmədi. Yas yerində yaxşı deyil, söz çəp gələr, artıq-əskik danışılar. Qumrunun qəlbi inciyər deyə kiridi. Bir də, Məşədi İslam «balşavet» sözünü yaxşı bilmirdi. Bu söz onu çox məşğul etmişdi: «Dövlətli, kasıb bərabər olsun! Olsun...»

Bu söz qızıl kimi sözdür. Bunu deyənlər lap ədalətli, hesabı deyirlər. Lap düz danışırlar. Amma adlarını «balşavet» qoymaq nə üçün? Nəyə görə balşavet olsun. Axı, düz sözə balşavet niyə deyilsin?

Məşədi İslam bir də ona görə məsələni ayırd edə bilmirdi ki, nədən belə ağıllı adamlar özlərinə bir yaxşı ad tapa bilməyiblər. O, fikirləşirdi: «Məndən soruşsaydılar, gül kimi ad qoyardım. Nə balşavet qoyardım, nə azadlıq, nə millət, nə də ki, hürriyyət. Qoyardım «ədalət». Onu da bəyənməsələr, qoyardım «düz iş» ya da ki, «haqq yol».

Bütün deyilənləri eşidən, lakin eşitmək istəməyən Qumru üzünü divara çevirib, gizli-gizli ağlayırdı. Bu gün ölünün üçü tamam olurdu. Telli Qumrunun yaxasını bağlamaq istədi. O mane oldu. Məşədi İslam işarə ilə «bənd olma»—dedi.

Bəbir bəy gedəndən sonra Məşədi İslam Qumruya artıq təsəlli verib, öz evinə köçməyi təklif etdi. Qumru razı olmadı. Evin işığını söndürməmək üçün alçaq və qaranlıq daxmada yaşamağı məsləhət gördü:

—Yox, İslam qardaş, mən sizi ata evi kimi bilirəm. Amma ki, yaxşı deyil. Nə olub, gözüm-başım sağdır ki, kənizlik edib, uşağımı saxlaram. Sizdən çox razıyam.

Bəbir bəy Qədirin «ölüm»ündən sonra arzusuna çatmağına darı boyda da şübhə etmirdi və yəqini idi ki, nəziri qəbula çatmışdır. Mərhumun qırxının çıxmağını gözləyirdisə də, hazırlığını kəsmirdi. Qıssadan xəlvət tədarük görürdü. Hərdənbir Bekara bir dəsmal fətir verib, Qumruya göndərirdi. Əvvəl dəfə fətiri gətirəndə Qumru Bəbir bəyi də söydü, Bekarı da. Bekar istədi ona bir qamçı vurub, desin ki: «Ağzını təmiz saxla!» Birdən diksinmiş kimi «hiii» elədi. Xatırladı: «daha bu, rəncbər arvad deyil. Bəbir bəy onu özünə saxlayır. Eşidər, dərimə saman təpər». Çörəyi qaytarıb gətirdi. Bəyə xəbər verdi:

—Almadı, bəy, mənə də söydü ki, bir də buralara dolanma!



Bəbir bəy pərt oldu. Təpiklə Bekarın qarnından vurub, dişini qıcadı:

— Sənə demədimmi çörəyi ver, gəl? Donuz oğlu, niyə naqqallıq eləyirsin ki, söyüləsən də! Gedib xalqın zəhləsini tökürsən yəqin!

Bəy bu təpiyi Qumrunun acığına yox, həm də Bekarın öz günahına görə vururdu. Bəyə elə gəlirdi ki, Bekar Qumruya da başqa arvadlar kimi artıq-əskik söz deyir. Ona görə qısqanclıq edib, onu təpikləyir və bərk tapşırırdı:

— Donuz oğluna min dəfə demişəm ki, danışma! Apardın çörəyi, çörəyi qoy, bəri qayıt!

Ondan sonra Bəbir bəy çörək, yemiş və başqa sovqat göndərəndə Bekar öz evinə gətirib, dinməz-söyləməz aşırırdı. Bəy soruşanda bir az da təəccüblə deyirdi:

—Yüzbaşının canı üçün, Qumruya nə göndərirsən gözünə təpir... Daha əvvəlki deyil, nə sovqatın olsa, ver aparım!

Bəy bu xəbərdən çox sevindi. Arxayın oldu ki, Qumrunun «başı əlhəd daşına dəyib, ağlı başına gəlib... Anası ölməsin aclığın. Aslanı yola gətirir. Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü. Dünya dediyin çörəkçixanadır. Bu vurhavurda kimi bişirir, kimi aşırır. Hamı istəyir təndir başında otursun».

Bekarın arvadı son zamanlarda yaman barınırdı. Xalq yavan çörək tapmayanda ona səbət-səbət üzüm gəlir, yağ-şor gəlir, dolu dəsmallar gəlir. Bekar arvad ilə qabaq-qabağa oturub yeyir, içini arıdıb deyirdi:

— Ye getsin, ay çörəkçi qızı. Qismət olsa, bəyin toyunda da oynarsan, əvəzi çıxar. Bizim qarnımız doysun, altda qalanın canı çıxsın!

Bəy Bekarı şəhərə, pristavın yanına göndərəndə o, səkkiz yaşlı oğlunu gətirib, bəydən xahiş edirdi ki:

— Ay yüzbaşı, Qumruya çatası nəyin olsa, bizim bu gədəyə ver, aparsın. Arxayın ol. Qaydasını öyrənib, məndən yaxşı bilir.

## 3

Hacı Hüseyn həyəti gözdən keçirir, ürəyində qiymət qoyurdu. İkinci dəfə Qumrunun yanına gəlib, evdən çıxmağını tələb edirdi. Qumru yalvarır, payıza qədər möhlət istəyirdi. Hacı bir əlilə çallaşmış saqqalını qaşıyır, o biri əlindəki təsbehini oynadır, deyirdi:

— Bala, a qızım, gör sənə, dul arvad olmağına necə hörmət qoydum ki, on gün dindirmədim. Gərək on gün bundan qabaq həyəti təhvil verəydiniz. Şəriət ilə desən şəriət ilə, zaqun ilə desən yenə ixtiyarım var ki, sizi tökəm eşiyə. Onu mən istəmirəm. Ürəyim qəbul

eləməz. Ancaq кi, həyəti çərçilərə satmışam. Gərəк çıxasan. Allah rəhmət eləsin, Qədir dursaydı, mən haqqımı çoxdan almışdım. Di gəl кi, indi Qədir yoxdur. Dul arvada nə deyəsən? Namusu bizə düşər. Necə olsa müsürmanıq. On günün də кirəsini кeçirəm.

Bəyin əhvalatı haradansa Hacının qulağına çatdı. «Arif adam» olduğu üçün məsələni anladı. Bir də Qumrunun həyətinə yaxın düşməyə cürət etmədi. Fiкirləşdi кi: «Nə təfavütü, toy olanda Qumru кöçəcəк, davasız-şavasız həyət özümə qalacaq».

Toya şiddətli hazırlıq gedirdi. Bəy Qıssa xanımı ələ gətirməк, dilə tutmaq üçün bacardığını edirdi:

— Ağız, axmaq olma, onu qulluqçu alıram. Onu sənə кöməкçi alıram, gic fiкri niyə eləyirsən? Dəli deyiləm кi, rəncbər arvadını sənə tay-tuş gətirəm. Özümün də adım-sanım var, qanımı nöкər qanına qataramını?!

Qıssa sirкədən tünd olmuşdu. O hər dəfə кişini daha bərк zəhərləməк istəyirdi:

— Hər nə qələt dartırsan get dart, mənə də bağban qızı deyərlər, aləmi dağıdacağam!

Bəy bu etirazlara heç bir əhəmiyyət vermirdi. Qədir ölәndən sonra bəy məsələni lap həll olunmuş hesab edirdi. O, «el-oba adəti üzrə iş görəndən sonra» Qıssa nə edər, nə qələt eləyə bilərdi? Bərкə vursa, uşağını töкüb atası evinə gedəcəкdi.

Bəy Qumrunu ələ gətirməк üçün bərк çalışırdı. Onun yanına cürbəcür adamlar göndərirdi. Adamlar gəlib eyni fiкri hər кəs öz səsi, ifadəsi, ədası ilə danışırdı:

— Cuvanəzənsən, gül кimi camalın var. Dul qalmayacaqsan кi, nə zəmanədir? Kişilər nədən hərəsi dörd-beşini alır? Şəriət yoluynan, Allah əmriynən olan işdi. Allah mübarəк eləsin. Başını sal aşağı, get. Başacan olsun...

Küləкli və tozlu bir payız axşamında Qumru ağlayır, Sarıqlı mollanın qələmi cırıldayıb, çırpı кimi dolaşıq, uzun hərflərlə niкah yazırdı. Bəy tapşırmışdı кi: «Qızın xatirinə dəyməyin. Mehrinə nə qədər desə mal-dövlət salın. Varım-yoxum ona qurbandır!»

Qumru qaçmaq, onu кəməndləməк istəyənlərin əlindən qurtarmaq istəyirdi. «Getmərəm, getmərəm, mən ər istəmirəm, uşağımı böyüdəcəyəm özüm!..»

Bu sözlər canavar əlində parçalanan quzu səsi кimi ümidsiz və кöməкsiz idi. O ağladıqca qadınlar qolundan tutub «toxtadırdılar». Çəpəl Sayalı əyilib Tellinin qulağına pıçıldayırdı:

— Qız gərəк ağlasın axı! Qaragün кişi cavan ölmədimi? Amma ürəкdən başmaqları da razıdır. Niyə də razı olmasın? Bəxtəvər qurulu evə gedir, açıq qapıya, xanımlığa gedir. Görmədiyi günlər görəcəк!



Telli yavaş, laкin qəti ifadə ilə Çəpəlin sözlərinin əкsini deyirdi:

— Məndən soruş onu. Mən bilirəm yazıq qız nə çəкir. Bəyi görməyə gözü yoxdur. Ərini güdaza verən də, deyir, o donuz oğludur: «Biz nə biliriк qulluq nədir? Dar hara, Qədir hara? Dili lal olmuş, qıçı sınmış qoymadı кasıblığımızı eləyəк. Bədbəxti qurşadı, dabanlarını çəкdi, qızıl güllə qabağına göndərdi... Bəyi görüm qızıl gülləyə gəlsin!» Telli Qumrunun sözlərini, Qumrunun öz qarğışlı, yanıqlı dililə deyirdi.

Sarıqlı molla mehr кağızını qurtarmamış gözünü hərləyib, içəri qapıya zillədi. Şirin çay gözləyirdi. Ancaq gətirən yox idi. Adəti üzrə öskürdü:

— Öhhəəl..

Kağızın altında qarışıq qol çəкdi. Onun qolu düyün düşmüş örкənə bənzəyirdi. Xərçənк кimi yumru və qollu-qanadlı bir heyvana da oxşatmaq olardı. Qız vəкili Tellinin və oğlan vəкili Çəpəlin əvəzində də mehr кağızına qol çəкdi. Axund qələmi yerə qoyub, əlini ovuşdurdu, öskürəкdən bir şey çıxmadığını duydu, at кimi кişnədi...

— İmha-ihahah-iha...

Onun səsini hamı eşitdi, laкin duymadılar, çünкi burada qadınlara bəlli olmayan bir şey vardı. Ancaq çırpı arabasının üstündə, кüçədən ötən Məşədi İslam anladı кi, axund nə istəyir. Dişini qıcadı, dodaqaltı mızıldandı:

— Hıı... ay кafir! Arpası əsкiк düşüb, кişnəyir! Onun yemini verən yoxdurmu?..

## 4

Bəyin səbri tüкənmişdi. Əziz günlərdə, bayramqabağı işi qurtarmaq fiкrində idi. Təк səbirdən bir az şübhələndiyi üçün Çəpələ tas qurdurmuşdu. Fal göstərirdi кi, «dan ulduzunun кarvanqıran ilə ötüşüb qovuşmağı gözlənir. Lap xoş saatdır».

Axır çərşənbə axşamı bəy fəqir-füqəraya altı manat pul, beş çömçə arpa payladı. Beкara tapşırdı кi, tonqalı evin dalında, təndir başında yandırsın. Axşam qaranlığında alov, tüstü-təzəк, saman iyi, tiкan cırıltısı dünyanı tutmuşdu. Kimi fişəng atır, кimi qışqırır, кimi dama, divar üstünə çıxırdı. Uşaqlar, arvadlar hoppanıb, hay-кüy salırdılar. Beкar yabanın ucunda bir çənкə alovlu tiкan götürüb, bayraq кimi göyə qaldırmışdı. Tiкan yandıqca od parçaları qızıl кimi yerə səpələnirdi. Bəy qışqırır, nöкərinə acıqlanırdı:

— Oyun çıxartma, yanğın salarsan, ay axmaq! Uşaqlığın yadına düşüb, nədi?

Bekar yabanı kənara atıb, özü də tonqaldan qaranlığa qaçdı. Bəy eyvanda dəstəmaz alıb, damın dalına getdi, Çərşənbə odundan hoppanıb, bəxtini açmaq istəyirdi. Ətəklərini əlinə yığmış, təzə həvəsli uşaq kimi, dilini çıxartmışdı. Çubuğu ilə tonqalın başını alçaldır, sağa-sola atılıb deyirdi:

Atıl-utul çərşənbə
Bəxtim açıl, çərşənbə,
Çilləm tökül, çərşənbə,
Bəxtim açıl, çərşənbə!

Ağrım-uğrum tökülsün,
Qara bəxtim açılsın.
Çərşənbəsən, çilləsən,
Hər aydan bir pilləsən,
Düşmənimin ağzını,
Bağla sən, qıfılla sən!

Bəbir bəy çərşənbə mərasimini yaxşı keçirdiyi üçün bəxtinin açıldığına etimadı artırdı. Qədirin ölümünü, kəbinin kəsildiyini yadına salıb, öz-özünə deyirdi:

«Bəs bu açılmaq deyil, nədi? Bəxt sənə dəftərxana qapısı deyil ki, açılıb-örtüləndə cırıldasın. Bəxt belə səs-səmirsiz açılır da. Açılmağın daha buynuzu olmaz ki? Ürəyimdən keçənlər bir-bir göyərir. Buna nə söz? Yox, naşükürlük bir şey deyil. Mən yaradandan razıyam...»

Bəy özündən razı halda təzə paltarını geyinib, qapılardan birində çərşənbə söhbətini dinləməyə getdi...

Toya üç gün qalmışdı. Bəyin tay-tuşu, dostları uzaq kəndlərdən axışıb gəlirdilər. Şəhərdən xanəndə çağırılmışdı. Aşıq Ələsgərin dalınca Göyçəyə təcili adam getmişdi. Qadınlar arasında danışılırdı ki, yüzbaşının toyuna pristav özü gələcək, rəis gələcək, çaxır da alacaqlar...

Qıssa xanım qiyamət qoparıb, evə elə şey qoymayacağına and içirdi. Bəy onu bir az əzmişdisə də, başa gəlmirdi. İnadından əl çəkmirdi. Qıssa iki gün idi ki, uşaqlarını yığıb, dayısı nəvəsi sayılan Qan Sarının evinə getmişdi. Qan Sarı bibisi qızını nə qədər əzizləsə də, bu vəziyyətə dözə bilmirdi. Bəyin gözündən düşməmək üçün Qıssaya yalvarırdı:



— Qurbanın olum, bibi qızı, mən sabah ona cavab verə bilmərəm. Çıx get, ayrı adamın evində qal. Ayrı yerdə mənzil tapım sənə. Xatanı buradan sov. Yoxsa Bəbiri mən tanıyıram!

Bu dar vaxtda Qıssa xanım hara gedə bilərdi? O yəqin edirdi ki, kənddən çıxıb getmək bəyə heç bir şey etməyəcək, əksinə, bəyin əli-qolu açılacaq, arxayın iş görəcək. Qumrunu toy-dəsgahla evə gətirəcək. Hələ onun cehiz yorğan-döşəyini də, qumaş paltarını da açıb tökəcəkdir. Bəlkə də günüsünə verib geyindirəcəkdir... Bu səhnəni yadına saldıqca Qıssa xanım içəridən alovlanır, özünü yerdən-yerə çırpır, nə yeyir, nə içir, ərinə qarğıyırdı:

— Bunu mənə tuş salan, evin yıxılsın! Uşaqların mələr qalsın! Bunu görüm üzü gülməsin, bayramı qara gəlsin! İştahı içində qalsın!

Qıssa xanım Qumrunun bəyə olan nifrətindən xəbərdar idi. İşin nəticəsini gözləmək, tədbir tökmək, heç olmazsa toy gecəsi bir fəlakət törətmək fikrində idi. Qan Sarı qorxusundan dayana bilmədi, işdən xəbəri olduğunu bildirməmək üçün «ağıl» tikmək bəhanəsilə atını minib, Kürün qırağına getdi.

Qan Sarının arvadı dözə bilmədi:

— İndi ki belə oldu, biz özümüzə xaraba tapaq. Eləmi?

Qıssa xanım mülayim cavab verdi:

— Mənimki beşgünlükdür, Allah qonağıyam. Görüm başıma nə gələr. Bacı, sizə əziyyətim dəyməz.

— Beşgünlük, nə beşgünlük? Ərin gündə qızıb birinə daşlanacaq, sən də qapılara düşəcəksən? Bu nə işdir, a qurbanın olum? Bizlər belə şey görməmişik. Töycünü yükləyəndə heç salam verməyirsiniz. İndi nə oldu qohumluq yada düşdü, araya gəldi?

Qıssa xanım bu tənələrə dözməkdənsə evinə qayıdıb, ərinin gözünə iynə kimi girməyi qət etdi. Bir səhər bəy fısıldaya-fısıldaya yerindən duranda, Qıssanı küncdə yatmış gördü. Heç nə demədi. Ürəyindən bir el məsəli keçdi:

«Adın nədir, Daşdəmir,
Yumşalasan, yumşalar!... »

Bəydən xələt uman ağbirçək qadınlar dəqiqəbaşı, qara kimi, Qumrunun evinə qonur, çöməlib otururdular. Onu təbrik edirdilər. Çəpəl Sayalı şal çarşabı diriltmək üçün əldən-ayaqdan gedirdi. Qarmon kimi bükülüb-açılırdı. Arvadları o yan-bu yana eləyib, iş sahibi kimi içəri dürtülür, yuxarı başa keçir, hamıya məsləhət verir, hamıdan hündür danışırdı.

Çəpəl səhər açılmamış Qumrunun yanına gəldi. Bir kisə Xorasan xınası, ətirli sabun, ətir, kirşan, fitə-qətfə gətirmişdi. Qumrunu

hamama aparmaq, çimizdirmək istəyirdi. Bəyin sözlərini ədа ilə Qumruya çatdırırdı:

— Qumruya deyərsən ki, canımın gözü, sənə qurban! O balaca dəhlizdə çimsin. Mən onu çiməndə bəyənmişəm.

* * *

Axşam Qumrunu daha ağır bir kədər almışdı. Hava sıxlaşaraq, sanki onu əzmək istəyirdi. O nə evdə otura bilir, nə həyətdə qərara gəlirdi. Qaş qaralmışdı. Faxirə tut ağacının dibində qığıldayıb oynayırdı. Qumru sağda fətir bişirmək üçün ocaq qalamışdı. Yenə ürəyi döyündü. Oturduğu yerdə fikrə getdi. Qədirdən ayrıldığı günlər, yaz səhəri yadına düşdü. Qədirin şən və mehriban simasını öz gözü qarşısında gördü, xəyalən yaratdığı sevgilisini doyunca görmək üçün gözünü bir nöqtəyə dikib qaldı. Baxdı, baxdı. «Nə üçün insan qara günləri öz əlilə yoğurur? Bu nədir? Nə üçün mən Qədiri gözləyən fəlakəti görmədim? Nə üçün kor oldum? Nə üçün öz əlimlə onu qızıl güllə qabağına göndərdim? Qulağıma belə bir pıçıltı gəlsə idi: «Buraxma, Qədir ölümə gedir, buraxma!», Faxirəni ayaqlarına atar, qollarını boynuna salıb yalvarardım».

Qumru düşündükcə qəlbi qaralır, arzuladığı mənzərələr görünməsin deyə nəzərlərinə pərdə salınırdı. Gecə yalquzaq kimi qorxulu idi. Hamı yatmışdısa da, onun qulağına səs gəlirdi. Yuxu və istirahətini, həyat və ümidini itirmiş ana balası ilə baş-başa verib, gecənin fəryadını dinləyirdi. Kimin əmri iləsə, ay buludları yırtıb, yeri süd işığı ilə boyadı. Uşaq yuxarı baxdı. Anaya elə gəldi ki, ömür çırağı, sönən qığılcımlar kimi, son dəfə parıldadı. O, ay şüasının altında Faxirəni bağrına basıb yatdı...

Qumrunun dərdi bərkiyib daşa döndü. Bəbir bəyin təpəsinə dəyəndə iplər qırıldı. Qumru uçub göylərə getdi. Günəş vilayətində qumlu bir təpənin üstündə oturub, Qədiri gözlədi. Qədir şüalarla axıb gəldi. Qumrunu bağrına basdı. O, qəhərlənib qara günlərindən şikayətlənmək istədi. Qədir həyat dolu gülüşü ilə sevgilisinin üzünü işıqlandırdı. Faxirəni əlquşu kimi başına qoydu. Qumrunu qucağına alıb uçdu. Qanadlı at onları sərin, sakit göylərdən keçirib apardı. Çiçəkli, ətirli bir bağa qoydu. Qədir bir dəstə qızılgül gətirdi. Gül təzə, şehli və qırmızı idi. Qumru iylədi. Gülün yarpaqları ələndi, ipək don olub, Qədirin qolundan sallandı. Qədir Qumrunu və balasını qızıl dona bürüdü...



# ÖVDƏT

## 1

Qədir çayxanadan çıxandan sonra nə etməli olduğunu təyindən aciz idi. Yoluna düzəldi. Gedirdi, lakin haraya getdiyini bilmirdi. Bu böyük şəhərdə artıq lüzumsuz adam olduğunu anlamışdı. O özünü şəhərə və adamlara yad görürdü. Adamlar da sanki bunu hiss edirdilər. Başıaşağı, acıqlı ötüb gedirdilər. Kimisə də dönüb Qədirə baxırdı. Bu baxışlardan Qədir xoş bir niyyət gözləmir, dərin bir kin, yaxud acı istehza duyurdu. Tozlu yollardan yorulmuş at və qatır üstündən, köhnə qonkanın qırıq pəncərələrindən, qapısı sökük darvazalardan qərib rəncbərə atılan bu nəzərlər onu daha artıq təşvişə salmışdı. Ona elə gəlirdi ki, baxanlar onu ya vurmaq, yolun kənarında yıxıb palçığa bulamaq, kərpic arabalarının içinə tullamaq istəyir, yaxud istehza ilə gülüb, «buna bir bax, sən şəhərdə nə gəzirsən?» deyirdilər. Qədirin başında min cür xəyal dolandı. «İşim rast gətirmir,—dedi.—Çünki Qumrunu tək qoyub gəlmişəm. Uzunsaçın ahı yerdə qalmaz. O, gözləyir, intizar içində boğulur. Belə olduqca mən nəyə yapışsam, od olacaqdır. Mən işıq görə bilməyəcəyəm. Mən evə, ailəmin yanına qayıtmalıyam!..»

Bu xəyalat içində Qədir, özü hiss etmədən, gedə-gedə şəhərin ayağına—«Cəbir ağzı» deyilən yerə gəlmişdi. Bura iki vərəqin ayrıldığı yer idi. Yuxarı baxdıqca bir-birini sıxan kərpic binaları, alçaq damları, tüstülü bacaları, uçuq bazarları, yalnız minarələri, qarğalar yuva salmış qoca çinarları ilə donub qalmış şəhər görünürdü. Vaxtilə, göylərdə zəlzələ olmuş kimi, avadanlıqlar üst-üstə tökülmüş, yağış, qar döymüş xaraba divarları yerə yapışdırmışdı. Tozlu, tutqun və kəsif havadan qarışıq səslər gəlirdi. Ancaq şəhərin üfüqlərini ölçən güllə səsləri aydın eşidilirdi. Bu səslər kimin isə, ölmüş bir adamın minacətini çəkirdi. Alçaq damlar altında fəlakətə qapanan hansı ailənin isə başsızlıq xəbərini dağların döşünə yazırdı. Şəhər ağlayırdı.

Aşağıda «Cəbir ağzı»ndan başlanan açıqlıq, işıqlıq, düzlükdə isə azad təbiət dincəlirdi. Dərə sularından içib böyüyən cavan qovaqlar yoncalıqda bitən sünbülə bənzəyirdi. Dönə-dönə biçilmiş kəvər ləkləri yenə də gömgöy göyərir, ipək qarğıdalı saçaqları kəhraba rənginə çalır, enli və qalın yarpaqlar altında gizlənən sarı yemişlər kimi isə gözləyirdi. Kələmlər gümüşü rəngə çalır, Dirişdovluğun bağından kompot iyi gəlirdi; bağın ağ, uzun divarlarına sığmayan meyvəsilə ağırlaşan armud ağacları hasar qəbul etmək istəmir, dolu budaqlarını səxavətlə kənara sallayır, sanki yoldan ötənlərə təklif edirdi:

— Buyurun, armud yeyin!

Bəzən budaqları dinləyən olmurdu. Kin və qüssə ilə gedən, ümidsizliklə qayıdan adamların başı göyə qalxmırdı ki, sarı armudun təklifini eşitsin, qəbul etsin! Ağaclar yetişmiş sarı, dolu, sulu, şirin armudu ehmallıca yerə buraxırdı. Bəzi yolçular isə bu ləzzətli meyvələri dişinə çəkəndə nə ağaclara, nə budaqlara baxır, nə də «sağ ol» deyirdilər. Eləsi olurdu ki, hoppanıb budağı üzür, yazıq ağacın qol-qanadını qırırdı.

Qədir bu açıqlığa, üfüqlərindən uca durduğu bu münbit düzə çıxanda özündə bir yüngüllük duydu. Addımlamaq, ağacları üfüqdə çətin seçilən kəndə tez qovuşmaq istəyirdi. Bunu edə bilmirdi. Yarım illik səfərdən sonra cibi boş, ayaqyalın, əl-qolunu ata-ata evə dönməyə utanırdı. Ev isə budur, gözünün qabağındadır. Faxirə böyümüşdür. Onu çağırır:

—Dədə! Gəl, ay dədə!

Qumru uşağını dilə tutur:

—Dədə sənə qaqa gətirəcək!..

Faxirə atasını görürmüş kimi əllərini şəhər tərəfə uzadır, balaca barmaqlarını tez-tez yumub-açır:

—Dədə, gəl, gəl!..

Şəhərdən qayıdanlar kisib aparırlar. Erməni kəndlərindən gətirən kim, bazardan çalana bax, çapqın edib ev dağıdana bax, tində güdüb öldürdüyü adamı soyana bax... Dünya bir-birinə dəyib. Əlində bir berdankası olan hər kəs yerə-göyə sığmır. Qoçuluq, çal-çap dünyasıdır. Korluq çəkən Qədir kimi kasıb-kusub, fəqir, aciz adamlardır.

Bu acı etiraf Qədirin ürəyini sıxdı. Yüzbaşıya qarşı qəlbində dərin bir kin duydu: «Oturub kasıblığımı etdiyim yerdə donuz oğlu mənim evimi yıxdı, nə yıxdı! Biçin də, yığın da əldən çıxdı. Qabaqdan qara qış gəlir. Bir ovuc unum, dənim yox. Cibim boş, ümid yerim yox! Zamana şuluqluq, qışqabağı bir karlı iş yox! Kaftar məni necə yerimdən elədi! Dedi:

«Millət yolunda!..»

«Ay millətin daşı sənin başına düşsün! Qoysana kasıblığımı edəm, a donuz oğlu! A mənə «yaxşılıq» eləyən, dilin lal olsun! Nə tutmusan yaxamdan ki, din belə, iman belə! Mənim dərdim bir tikə çörəkdir ki, uşağım ac qalmasın. Külfətim dolansın. Məni nə çəkirsən divan-dərəyə! Tüpürüm o divan-dərəyə ki, başçısı Bəbir bəy kimi dovşansifətlər ola! Bəydən, xandan xeyir görən olub ki, dünyada?!.»

Qədir bağ divarının dibi ilə, nar ağaclarının kölgəsilə yeriyirdi. Qabağından arabalar, atlılar gəlirdi. Kimisi boş gəlir, kimisi qucağında qoyun, tərkində palaz, ya dolu çuval satmağa aparırdı. Qədir onlara diqqətlə baxıb, tanış arayırdı. Adamlar beş addımlığına gələnə qədər gözlərinin içinə baxırdı. Hətta onlar, deyəsən, Qədirdən



şübhələnirdilər. Tanış olmadığını görəndə Qədir başını tərpədir, piyada salamı verirdi. Peşmançılıq, ailə xəcaləti, üstəlik iztirab onu sıxırdı. Yarım il qoyub getdiyi ailənin yanına indi necə, nə üzlə dönəcəyini hey düşünür, bir çarə tapmırdı.

Gün günorta yerində durub, müqtədir natiqlər kimi tənha rəncbərə baxır, sanki mənalı baxışında çox şeylər söyləyirdi:

«Nədir bu ruzi-ərzi qaplayan al qanlar, insanlar!»

Yadına düşən bu sözü Qədir şəhərdə, çox pozğun, pərişan gəzən qəribə bir dəlinin ağzından eşitmişdi. «Dəlidən doğru xəbər» demişdi.

İstidən yayınmaq, həm də Faxirəyə bir şey tapmaq üçün Qədir bağın divarını aşdı. Su kənarında sıx bitən böyürtkənlərin meyvəsi qaralıb yetişmişdi. Qədir ağacla tikanı araladı, daraşıb yedi. Dəsmalına da yığmaq istədi. Yadına düşdü ki, evin yanında, böyük çəpərdə bundan çox var. Bunu aparmağa dəyməz.

Bağda üzüm, armud yığırdılar:

— Yolçu qardaş, üzüm buyur!

Əllidən artıq adam işləyirdi. Tənəklər arasından çıxan uşaqlar ətək, ya səbət dolusu üzümü gətirib təhvil verir, cəld iş yerinə qaçırdılar. Zabit papağına oxşayan girdə səbətlərdə üzümü ustaların yanına yığırdılar. Qayçılayanlar isə şüşə kimi ağ, qara salxımları zədəli gilədən təmizləyirdilər. Ustalar dizlərini yerə qoyub, üzümü yeşiyə qablayırdılar. İki uşaq da, əldə çəkic, hazır yeşiklərin qapağını mıxlayırdı. Nabələd qonağa bir yeşik göstərdilər:

— Əyləşin!..

— Oturun, yaxın oturun!..

Qədir iri, dolu giləli Təbriz üzümünü ağzına qoyduqca, üzüm qənd kimi şaqqıldayırdı. Gilələr təmiz, duru və bərk idi. Elə bil dişləyən kimi suyu qana keçirdi. Qədir görürdü ki, meyvə boğazından getmir. Tikan kimi ilişib qalır. Nisgilini gizlədə bilmədi:

— Beş aydır bir yaşında qızımdan ayrılmışam, ona bir armud aparsam, elə bil dünyanı bağışlaram.

Fəhlələr bunu eşidən kimi Qədirin qabağına bir səbət armud tökdülər:

— Götür, doldur ciblərini, kefin istəyən qədər!

Yeşik bağlayan uşaq bir-birinə bitişmiş, haça, qırmızı alma gətirdi:

— Uşaq üçün bu daha yaxşı olar!

Qədir sevindiyindən bir şey yemədi, evə tələsdi. Armudu, almanı papağına, üzümü dəsmalına yığıb, çox-çox razılıq elədi:

— Allah artıq eləsin! Yorulmayasınız, payınız çox olsun.—Ağacların altı ilə yoluna düzəldi.—Çox sağ olun!..

Fəhlələr xorla, lакin adda-budda səslə qonağa cavab verdilər:

— Xoş gəldin! Yolun uğurlu olsun!

Şəhərdən Qobulara on beş-iyirmi verst yol var. Poçt yolu ilə gedəndə yol daha uzaq düşür. Qədir qəsdən bağlardan, yoncalıqdan, dirriклərdən кeçir, кəsə yolla gedirdi.

Gecə vaxtı кəndə çatdı. Hamı yatmışdı. İşıq əsəri yox idi. Alçaq torpaq binalar nağıllarda söylənən düşərgələr кimi qaranlıq, qorxulu idi. İtlər ulamır, töylələrdən at fınxırığı, öкüz fısıltısı gəlirdi. Qədir neçə ay əvvəl ayrıldığı bu evləri gördüкcə, uzaq bir yerdən öz yurduna dönməyinə şad olurdu. Ev-eşiк, yar-yoldaş gözünün önünə gəlir, hər şey dil açıb onu qarşılayır, sanкi «xoş gəldin» deyirdi. Belə xoş hisslərlə Qədir daha yeyin gedirdi. Ürəyi darıxır, tələsirdi. Fiкirləşirdi кi: «Görəsən, evdə nə var».

Çəpərdən aşdı, həyətə gələndə ay sanкi onu qarşılamaq üçün pərdəsini üzdən atdı, qalxıb кəndin üstündə durdu. Bəlкə o məhz iкi sevgilinin uzun ayrılıqdan sonraкı görüşünün şadlığını eləməк üçün dayanmışdı. Qədir həyətdə palaz salıb yatan Qumrunu görəndə və onun qolu üstündə pişiк balası кimi xırdaca görünən Faxirəyə baxanda necə, nə qədər sevindiyini dil deməкdən, qələm yazmaqdan acizdir. Onun dili tutuldu, dizi taqətdən, özü hərəкətdən qaldı. İndi o, ailəsinə qovuşan bir adam кimi yox, ay işığında çaşıb duran bir hərami кimi hissiz, hərəкətsiz idi.

Ürəyi bərк döyündü, başına anlaşılmaz bir ağrı gəldi, dodağında təbəssüm oynadı. Atalıq məhəbbəti coşdu. O əyilib uşağın pörtmüş, tərli yanaqlarından öpdü. Uşaq elə bil yuxulu-yuxulu deyirdi:

— Öpmə, sən niyə bizi qoyub getdin? Səndən кüsmüşəm!

Qumru yuxuda, yataqda daha məhzun görünürdü. Oxlanmış göyərçin кimi boynunu çiyninə qoymuşdu. Qədir onun başını qucaqladı, baxdı. Geri çəкildi, bir də baxdı. Deyəsən, oyatmaq istəmir, səhərəcən кeşiyini çəкməк istəyirdi. Bu vaxt Qumru ipəк dona bürünmüşdü, ərinin qucağına sığınaraq gül iyləyirdi.

Qədir sinəsinə sığdıra bilmədiyi bir sevinclə bağırmaq istədi. Səsi gəlmədi. Xəyalının dərinliyinə endi. Ani bir süкutdan sonra başına bir fiкir gəldi. Fiкirləşdi кi, bu ana-balanı şirin yuxudan ayıltmaq pisdir, cinayətdir, bəlкə onlar indi ayıqlıqda xoş gün görməyən gözlərini xoşbəxt bir röyanın gözəl səhnələrinə diкib sevinir, gülürlər. Bəlкə də onlar şirin və ümidli bir yuxu içində üzürlər...

Qədir özü də bərк yorulmuşdu, ayaqlarının altı sızıldayırdı. Yüк yerindən bir mitil gətirdi. Paltarını da baş altına qoyub yatdı.



## 2

Bəbir bəy bu gecə nişanbazlığa hazırlaşmışdı. İкinci dəfə idi кi, durub alma və кonfet bağladığı şal dəsmalı götürərəк, evdən çıxmaq istəyəndə Qıssa xanım qarovul кimi qalxıb, evdə gəzən кölgəyə baxırdı:

— Bu кimdir? Kimsən?

Bəbir bəy uşaqları oyatmamaq üçün yavaşcadan cavab verirdi:

— Mənəm, ay qız, çölə çıxıram, niyə qışqırırsan daha? Səs salma!

Niyyəti baş tutmayanda o, qayıdıb yorğana təpilirdi, laкin vəhşi, qızğın ehtiras onu yatmağa qoymurdu. Aylardan bəri həsrətini çəкdiyi «şamama, ipəк, mərmər, düyməçəli məmələr» gəlib gözü önündə dururdu. O, xəyalında Qumrunu qucur, gözünü yumub, dodaqlarını tərpədirdi. Gecə lampasını da söndürmüşdü. Yerinin içində dizlərini qucaqlayıb, yastığa söyкənmişdi. Qıssanın yuxuya getməyini gözləyirdi. Fiкirləşir, tərləyir, tərini adyala silir, gözləyir, Qıssanın xorultusuna həsrət çəкirdi. Çox çəкmədi кi, Qıssa bozbaş кimi qaynamağa başladı. Xorultu bərкidi.

Bəy yavaşca dəsmalı götürdü. Barmaqlarının ucunda yeridi, evdən çıxdı. Səssiz-səmirsiz pilləкəndən düşüb, Beкarı bizlədi. «Dalımca gəl, ədə! Yavaş ol!..»

Çətini evdən çıxmaq idi. Qıssa durub bəyi evdə görməsə Beкarın arvadından soruşacaqdı. O da əzbərləmişdi кi: «Pristavın adamları gəlib xəlvəti çağırdılar».

Bəy Beкarı ehtiyat üçün aparırdı. O, əlində tüfəng, qapıda gözləyəcəк, özü isə Qumru ilə «razi-niyaz edib» кefə baxacaq idi. Bəyin ürəyində qorxu və iztirab vardısa da, «eşq atəşi» gözünü örtmüşdü. Birtəhər özünü Qumrunun yatağına salmaq, «mərmər bədəni» bağrına basmaq istəyirdi:

«Mən sənin eşqində cəfalar çəкərəm, ay gözəl!»

Beкar tüfəngin çaxmağını çəкdi:

— A bəy, sən yeri! Nə qədər mən varam, quş da səкə bilməz, qorxma!

Bəy işarə etdi кi:

— Tüfəngin ağzını o yana tut. İşin olmasın, sən dur gözlə, «vur» desəm, atarsan!

Bəy çəpəri aşdı, barmaqları üstə yeridi. Dəsmalı sallaya-sallaya Qumrunun yatağına yanaşdı. Səкinin üstündə bir dolu dəsmal göründü. O da nişanbazlıq dəsmalına oxşayırdı. Bəy Qumrunun yatağına baxdı. Heyrətə gəldi. Gözlərini sıxıb diqqətlə baxdı. Qumrunun yanında bir кişi vardı. Uzun bir кişi yatmışdı. «Bu nə işdi?»

Bəyi vahimə götürdü. Nəfəsini oğurladı, geri çəkilib, qapıya gəldi. Bekar nə hiss etmişdisə, pıçıldadı:

— A bəy, nə olub, alışdırımmı?

Bəyin dili tutulmuşdu. Dediyi sözlər anlaşılmırdı. Əllərini Bekarın döşünə vurub deyirdi:

— İş var, iş var!

— Necə?

— Başıma iş gəlib, a donuz oğlu!

— Qorxma, bəy nə var, nə olub ki?

— Arvadın yanında... Bu nə işdir ?

— A bəy, nə var?

— Arvadın yanında adam var, özgə adam!

Bekarı gülmək tutdu:

— Səni qara basır, bəy, bir salavat çevir!

— Yekə kişini görmürsənmi?

— Elə isə arvadı qara basır.

— Dəsmallı-zadlı kişi gəlib, əməlli-başlıca, gözüm kor deyil ki, dilim qurusun, qolu da arvadın boynunda. Bilmirəm bu nə işdi?

Bekar qaqqıldayıb gülməkdən özünü güclə saxladı:

— A bəy, deyəsən yiyəsi gəlib axı! Qayıdaq, bu gecə uğursuz oldu, sabah gələrsən. Xatalı işdir!

Bəyin dizləri titrəyir, əli əsir, ürəyi döyünür, gözünə müxtəlif şeylər görünürdü. Bekarın ətəyindən tutub çəkirdi:

— Axı bu nə işdir, bu donuz oğlu kim ola?

— A bəy, gözünə elə görünür.

— Gəl, gəl sən də gör. Bir görək nə olan işdir, a başına dönüm? Kəbinli arvadımla bu nə hekayətdir?! Bu nə bədbəxtlikdir, ilahi!

Onlar barmaqları ucunda ehtiyatla yeriyir, hər addımda yatağa baxır, yaxınlaşdıqca təkrar baxırdılar:

— Bax, odur bax, görürsən, gördün ki, aha!.. Elə bilirsən mən yalan deyirəm?

Bekar bir az özünə cürət verdi. Baş tərəfə keçmək, yatanın üzünə diqqətlə baxıb, kişi olmağını yəqin etmək istəyirdi.

Yatanlardan biri tərpəndi. Yuzbaşı, bostan oğrusu kimi, sinə-sinə, ətəyini tuta-tuta qaçdı. Çəpərdən hoppananda dəsmal tikana ilişdi. Almalar tappatap töküldü, küçə aşağı dığırlandı. Bir neçəsi gölə düşüb şappıldadı. Qurbağalar kiridi. Bekar ovcu ilə ağzını örtüb gülürdü:

— A bəy, vallah, baş tutmayacaq!

— Qorxaq olma, axmaq!..



— Görürsən kişinin qızı zənitdi də, a bəy. Daha nə istəyirsən?

Bəy dinmirdi, lakin Bekarın ətəyini də buraxmırdı. Onun ətəyini bərk-bərk tutub, özünə tərəf çəkir və yalvaran bir əda ilə deyirdi:

—Gəl görək axı mənim kəbinlik arvadımla bu nə işdir? Bu kafir oğlunu...

Onlar bir-birindən tutub, təkrar yatağa tərəf irəlilədilər. İkisi də addımını yavaş, səssiz, ehmallıca atıb, hər addımda dörd tərəfi yoxlayır, gözlərini yatağa zilləyirdi. Yatağa yaxınlaşdıqda kişinin xorultusunu da eşitdilər. Bəyə yəqin oldu ki, arvadın yanında «oynaş» var. Hətta kişi bir qolunu Qumrunun sinəsinə uzatmışdı. Namus bəyə güc gəldi, qan başına vurdu, gözü kəlləsinə çıxdı. Ancaq o, gözlərinə inanmır, dəsmalla silir, təzədən baxırdı. O, ağzını açmış, barmaqları üstə dikəlmişdi, yatanların ayaq tərəfinə baxırdı.

Bekar onun ətəyindən yavaşca çəkdi:

—Yiyəsi gəlib, a bəy, səfeh işdir, bəri qayıt!..

Qumrunun boz pişiyi hinin üstündə yatardı. Bu gecə gələn adamlar onu rahatsız etmişdilər. Bunun üçünmü, yaxud onlardan şübhələndiyi üçünmü, nə isə, oturduğu yerdən dinməz-söyləməz bəyin başına hoppandı. Bəyin heç şeydən xəbəri yox idi. Gərgin həyəcan və qorxu halında ikən başına yumşaq bir daş düşdüyünü hiss etdi. Boz pişik dırnaqlarını onun yenicə qırxılmış nazik üzünə ilişdirəndə, bəy özünü çəpərə atdı, yıxıldı; arxadan, yataqdakı adamın hücumundan qorxub, tikanların içindən ilan kimi sürüşdü, çıxdı. Bekar ondan qabaq hoppanıb, tikanın o biri başında durmuşdu. Sökülən dan yerinə baxırdı:

— A bəy, vallah, xatalı işdir. Vaxt da ötdü. Bu gecəliyə birtəhər döz, sabah bu da olmasa, sənə bir siğə düzəldərik!

Bəy ona da, yatana da söydü:

—Get həyətdən o tüfəngi götür, mənə ver! Onun anasını ağladacağam.

Bəy sözünü bitirməmişdi ki, başına ağır bir zərbə endi. Qıssa xanım dink toxmağını kişinin başına elə rəhmsiz çırpdı ki, tapança kimi açıldı:

— Kaftar köpək, gecə vaxtı qapılarda nə sümsünürsən? Arvadını evdə qoyub, fahişə dalınamı düşmüsən? Bu ləçək mənə haram olsun, başıma bir düjün kişi yığmasam! Görərsən şortuluq necə olar?!

Qıssa xanımın qışqırığına kənd ayıldı. Hava da tez işıqlanmağa başladı. Sanki qaranlıqlar da yerə salınmış pərdələri süratlə qaldırdı. Elə bil bu balaca həyətdə baş verən qəribə hadisələri hamıya göstərmək üçün günəş qaça-qaça gəlirdi. Qıssanın qaraqışqırığından sonra bəy yox oldu. Adamlar Qumrugilin qapısına tərəf gəlib, bir-birindən soruşurdular:

— Ölən kimdir, nə qışqırıqdır?

Hərə bir cürə yozurdu. Kimi deyirdi, bağrı çatladı öldü. Kimi deyirdi uşaq boğdular. Bəzisinə də elə gəlirdi ki, qışqıran qarnına bıçaq soxulan bir adamdır.

Kainatın qoca və ayıq keşikçisi günəş üfüqdən yuxarı qalxmaq istərkən, yuxudan kal ayılanların üzündəki həyəcanı işıqlandırırdı.

Qışqırtıya Qədir də ayıldı. Məna vermədən, şirin səhər yuxusuna cummaq üçün yorğanı başına çəkdi.

Qumru gözünü açan kimi yanındakını görüb dik atıldı. Gördüyünə bir məna verə bilmədi. Ayaqyalın, başıaçıq qapıya yüyürdü. Qadınlar Qumrunun səsini eşidib gəldilər. Qumru ağlayır, yanağını cırır, dizinə vururdu. Ona elə gəlirdi ki, yüzbaşı yatağına girmişdir. Adamlar onu anlamırdısa da, dayandırmaq, təsəlli verib ovutmaq istəyirdilər. Güman edirdilər ki, zərbə həmin bu qadına vurulmuşdur, qışqıran da bu imiş.

Qədir Qumrunun küçəyə çıxdığını görüb şübhələndi. Küçədən bir xəbər bilmək üçün durub getdi. Küçədə anlaşılmaz bir həyəcan hakim idi. Adamlar bir-birinə dəymişdilər. Qumru ağlayır, Qıssa xanımı isə onu söyüb qışqırırdı. Qadınlar onları aralığa alıb sakit etmək istəyirdilər.

Qədir yaxına gedəndə qonşusu Ağa Məhəmməd onu gördü. Qədir gülümsəyib görüşmək üçün əlini uzadanda kişi «bismillah» deyib, geri-geri çəkildi:

— Ölü, ay camaat, ölü!—deyə bağırıb qaçdı. Qonşular, çoxdan öldüyünü xəbər tutduqları Qədiri görəndə vahimələnib qaçışdılar. Axundu çağırdılar. Dirilib gələn Qədirin «xortdadığı» xəbəri ağızdan-ağıza düşdü. Nökərlər, əldə şana, ağalar kinli, qadınların bəzisi əli xamırlı, bəzisi qucağı qundaqlı, uşaqlar isə suya qaçan cücə kimi töküldülər.

Hamı «xortdan»ı görmək istəyirdi. Qədir hər kəsə yaxın gedir, başa salmaq istəyirdisə, qorxub qaçırdılar. O, yurdundan, el-günündən ayrı düşmüş bir qərib kimi tək qalmışdı. Məşədi İslam Qədirin «xortdamağını» eşidəndə heyrət etdisə də, özünü itirmədi, mətləbi başa düşdü:

— Bir kişinin ki, başına elə oyun açıla, əlbəttə xortlayar!.. Mən də olsam xortlaram. Hələ harasıdır, qoy bir iş sahibi gəlsin. Qoy bir camaat haqqını bilsin. Hər qarış torpaqdan bir igid qalxacaq, «xortlayacaq». Bəs nə, diri-diri qəbrə getmək olarmı? Zülm ərşə dayananda belə olar! Hələ dayanın bir... Daş-torpaq cana gəlib zəbanə çəkəndə soruşacağam ki: «Ağalar, indi necə, halınızdı, dəminiz?..»



# BOĞAZA DÖYMƏ

## 1

Kəndin adi axşamlarından birini deyirəm. Mal-qara, şirin yuxu eşqi iləmi, canavardan qurtarmaq arzusu, yaxud balalarla görüşmək həvəsi iləmi evlərə qayıdırdı. Naxır tozlu yollardan axışıb gəlirdi.

Məşədi İslam taya basırdı. Mələknisə çox ehtiyatla xanımın xallı inəyini sağırdı. Bəndini qırıb qaçmış buzov arvadın barmaqlarını da ağzına salıb sormaq istəyirdi. Yenə də min cür danlaqdan, qara-qorxudan sonra töycü yükünü aşırıb arxayın nəfəs almaq xəyalı ilə qayıdan cüttəkər arabalar, basılmış pəhlivanlar kimi ağır-ağır yeriyir, cırıltılı təkərləri ilə, doğan inək kimi, əzabdan zarıldayırdı. Toyuqlar dən, köpəklər yal, atlar tumar-qaşov, öküzlər yem, Hacı Hüseyn isə buxarı başında kişnəyib plov istəyirdi...

Soyuğa, küləyə baxmayaraq, doqqazın başında qalmaqal əskik deyildi. Alçaq çəpərlərin, uçuq məscid divarının, qəssab dükanının yanındakı açıqlıqdan, peyinli, torpaqlı bir yerdən danışıram. Kəndin göbəyi buraya basdırılmışdı. Haralardansa azıb gələn müsafir bu doqqazda dayanar, istiqamət alar, bir qarın çörək üçün özünü satmağa gələn rəncbər, biçinçi, kankan burada öz sərbəstliyini itirərdi. Suyu oğurlananlar burada çarpışardılar. Ürəyi yumşalanlar da burada barışardılar. Həmin bu açıqlıqda, bu kalafalardaca çərçi udur, kəndli uduzur, molla deyir, kəndli eşidir, axşama qədər bomboş olan bu yerdə qaranlıq qarışırkən daha çox qarğaşalıq başlanırdı.

Dünyanın yeni-yeni xəbərləri: dava, aclıq, şuluqluq, ölüm, dirilmə, təvəllüd, fəlakət və səadətlər özü özünə gəlib toplanırdı.

Dörd tərəfdən gələn küləklər burada toqquşur, şaqqıltı ilə parçalanır, yerə tökülürdü. Bu küləklərin çarpışmasından, daşlanan sulardan hərə bir içim içir, hər kəs bir dad duyurdu...

Bunlar, bu doqqazın başına gələnlərin hamısı canlı tarix kimi dilə gəlir, adamların hamısını xəbərdar edirdi. Bir sözlə, doqqaz kəndin əcaibxanası, qəzeti, telefon və teleqrafı idi. Su bölünəndə, töycü gələndə, əsgər yığılanda, məscid üçün pul yığılanda qiyamət qopurdu. Kobud, nazik, haqq və nahaq səslər bir-birinə dəyir, gah mis qab kimi cingildəyir, gah bir-birini qırıb yerə tökür, gah da bir-birinə dəyən bu səslərdən çaxmaq daşı kimi qığılcımlar qalxırdı. Ətrafa işıq düşürdü.

Bu axşam da doqqaz məclisi şirin keçdi. Bitmək bilmirdi. Qadınların bəzisi xörəyin altını söndürmüşdü. Kimisi süfrəni açmış, çörəyi doğrayıb gözləyir, süfrənin qırağında çöməlib yalvaran pişiyə acıqlanırdı:

— Pişdə, pişdə!..

Elələri də var ki, çadrasına bürünüb, darvazanın böyrünə, torpaq divara söykənmiş kişilərin ucalan səsini, qəribə söhbətini dinləməyə gəlmişdi.

Qaranlıq qatılaşanda səs ucaldı. Adamlar deyir, eşidir, ancaq bir-birinin sifətini görməklə o qədər maraqlanmırdılar. Bu sifətləri onsuz da tanıyırdılar. Onlar «hərif»i eşitmək, onun qabağına doqquzluq qoymaq üçün çalışırdılar. Bugünkü mübahisələr və çalçatdasın nə töycü, nə də su üçün idi. Adamlar bəlkə də özlərinə dəxli olmayan şey üçün baş ağrıdır, boğaz cırır, çənə çıxarırdılar:

— Qumru kimin olmalıdır?

Rəncbər Qədirin sirli işi kəndin bütün başqa söhbətlərini unutmuşdu. Yaxın kəndlərə qədər yayılan bu faciəni hər kəs, mahir bir aşıq kimi, başqasına söyləyir, bacardıqca üstünə bir şey də qoyur, daha artıq təəccüb oyatmağa çalışırdı. Fikirlər çox müxtəlif idi. Buna «qəzavü-qədərin işi» kimi baxırdılar. Bir başqaları dünyanın qarışmağından, işlərin baş-ayaq olmağından şikayətlənib deyirdilər:

— Dünya... Nə bilim, vallah, belə getsə, vay, vay birkeçilinin halına. Çoxları xortlayacaq, diriləcək, çox adam da ölməli olacaq! Ata-babadan da görmüşük. Şam qızaranda, dan yağar. İl bəd gəldi, bəla üzülməz...

Bekar Ağabala kimilər isə «baş çıxardılası işə oxşamır»—deyə qolunu qamçı kimi tovlayırdı...

— Qumru kimin olmalıdır?

Bu sual bir ağırlıq olub ürəklərə çökmüşdü. Heç kəs bundan silkinə bilmirdi. Çərçi Ağa Ələsgər qurandan ayə gətirib deyirdi ki, Qumrunun meyli kimə olsa, «sahibi-ixtiyar odur». Sarıqlı molla da ayə gətirir, hədis tökür, ancaq ayrı hökm verirdi. O buyururdu ki:

— Mötəbər hədisə görə, üç nəfər adil şahid şəhadət versə şövhər məhrum olubdur, övrətin nikahı fəsx hesab olunur!

Belə olanda Qədirin əli boşa çıxır, Qumru bəyə ana südü kimi halal olurdu, çünki üç nəfər deyil, beş nəfər «islam mücahidi» erməni kəndlərindən qayıdıb Qədirin ölüm xəbərini gətirmişdi. Axundun deməyinə görə, Qədir gərək o zaman öz salamatlığını övrətə yazıb bəyan edə idi.

Çoxları axundun bu fəndgir hökmü ilə ağırlıqdan silkinirdilər. Qədirə də yazığı gələn olurdu, lakin Məşədi İslam bu sözü iki qəpiyə almaq istəmirdi:

— Ləğviyyatdır,—deyirdi.—Kişi qürbətə gedib, indi də qayıdıb. Buna kimin nə sözü ola bilər? Nə ayə, nə hədis? Diri-diri kişini danmaq olarmı? Bunlar hamısı bəyin fırıldağıdır. İstəyir Qumrunu o söz...



Hacı Hüseyn, ağzında qəlyan, dili dolaşa-dolaşa Məşədi İslamın sözünü kəsdi:

— «İstəyir» hal.. «İstəyir»ə bax ey! Ədə, ay qoduq otaran, «istəyir» harasıdır? Qumru Bəbirin kəbinli arvadı deyilmi?

Kim isə əlavə etdi:

— İndi çoxdan gönü suya veriblər!

Məşədi İslam başını tovladı:

— Hay-hay! Əcəb adam tapmısan. Qumru özünü öldürər ki, Bəbir bəyin üzünə tüpürməz də.

Hacı Hüseyn sinəsini arıtdı:

— Ölünü öz kefinə qoysalar kəfəni xarablar. Arvad razılıq verib, kəbin də kəsilib. Qədir xortlamasın, lap çıxsın göyə, keçmiş ola!

Hacı Hüseynin sözü Qədirin kankan yoldaşı Sultanəliyə bərk dəydi. O, ağasının damında novdan təmizləyirdi. Doqqazdakıların hamısını apaydın eşidirdi. Elə bil yerdə danışılan sözləri qoz kimi ovuc-ovuc dama tullayırdılar. Sultanəli pəncərənin çərçivəsindən yapışıb aşağı düşürdü və həm də Hacı Hüseynə eşitdirirdi:

— Əlbəttə, Hacı, zora qalanda Qumrunu bəy aparar. Canavar qoyun aparan kimi. Həyəti də sən içəri ötürərsən.

— Ağzını əymə! Həyət sözü sənə qalmayıb. Yoxsa Hacının daşı sənin də başına düşüb? Dddaaanışığına...

Məşədi İslam dilləndi:

— Hə, Hacı, deyəsən, döşünə yatmadı!

Sultanəli daha da yavaşdan, lakin iti ifadə ilə dedi:

— Bəllidir də, kasıbın arvadını da çəkib aparmaq istəyirsiniz. Amma...

Hacı Hüseyn qəlyanı ağzından çıxartdı, dodaqlarından selik sallandı, çənəsi tez-tez tərpəndi:

— Sən nə belə artıq-əskik danışırsan, tülkü? Başın gövdənə ağırlıq eləyir deyəsən?..

— Tülkünün səsi gəlir. Artıq-əskik sənin kimi pərəklər danışır. Danışanda nə eləyəcəksən? Kimi qorxudursan?

Məşədi İslam ayağa durdu:

— Kimi qorxudursan? Bundan da pis günə qalmayacayıq ki? Qaradan o yana rəng yoxdur! Gəncə bəyləri sizi qudurdub. İnsaf deyilən şey hanı?

Adamlarda bir ciddilik və gərginlik duyuldu. Doqqazdan barıt iyi gəldi. Bir saat əvvəl eşidilən zarafatların, hırıltıların izi qalmadı. Gözlərə qan çiləndi. Hacı, Sultanəliyə baxdı. Sultanəli Hacıya baxdı. Nəzərlər bir-birini bıçaq kimi kəsirdi. Onlar bir-birini gözlə oxlamaq

istəyirdilər. Sanki qaranlıq ortadan qalxmışdı. Heç kəs o birisinə güzəştə getmədi.

— Kaftar!..

Bu sözü Sultanəli sanki dili ilə yox, böyümüş və qızarmış gözləri ilə deyirdi. O qədər cəld və etimadla deyirdi ki, ürəyindən tikan çıxan kimi, özünü rahat hiss edirdi. Məşədi Cahangir irəli çıxdı:

— Donuz oğlundan lap mazut iyi gəlir. Qapıların yalı sizi qudurdub!

Hacı daha da cürətləndi və ürəyini dələn sözü bir od kimi eşiyə tulladı:

— Balşavet köpək uşağı... Bura da sizə Ərəsey-zad deyil ha, onu bilin!

Məşədi İslam bu vurhavurda soruşurdu:

— Hacı əmi, qarnın niyə şişib?

Məşədi Cahangir az qaldı barmağını Sultanəlinin gözünə soxsun:

— Başını elə batıraram, üstündə ot bitməz!

— Gözünü aç, mənə bax!..

— Hapçxi!.. Yox əşi!..

Məşədi İslamın zorakı gətirdiyi bu «səbir» Məşədi Cahangirin hərbə-zorbasına çox yerli cavab oldu. Kənarda durub maraqla işin nəticəsini gözləyənlər ixtiyarsız güldülər. Bu gülüş Məşədi Cahangiri və Hacını daha da qorxutdu. Sarımsaq kimi yandırdı.

Məşədi Cahangir Sultanəlinin yaxasından tutmaq istəyəndə o dartındı. Məşədi Cahangir boğazlamaq istəyəndə o, balıq yağı içən uşaq kimi, üzünü turşutdu. Məşədi Cahangirin gicgahından bərk ilişdirib, divara hoppandı, aradan çıxdı. Məşədi Cahangirin gicgahı od tutub yandı. Səndələyib divara söykəndi. Hacı Məşədi İslamı qarmalamaq üçün can atdısa da, onu tutdular. Sarıqlı molla başmağını taqqıldadaraq, qurşağını dolaya-dolaya gəldi:

— Ey əhli-qəryə! Lənət şeytana deyin! Camaat, bu nə hərəkətdir? Dağılın! Şeytan şərrindən uzaq olun, amandı!..

Lap qaranlıqlaşmışdı. Pəncərədən sallanan işıqlar, çəp gözlər kimi, qaranlığa, doqqazdakı qalmaqala baxırdı. Səs-küyü sonradan eşidənlər şamını yarımçıq qoyub gəlirdilər. Doqqazda heç kəs olmasa da, «xata izi», «barıt iyi» qaranlıqdan silinməmişdi. Vaxtında burada olmayanlar təəssüf edirdilər.

Doqqazdan dağılanlar isə bu əhvalatı çörək başında arvadına şirin-şirin danışır, artırır, böyüdür, əcaibləşdirir, Sultanəlinin yumruğunu dönə-dönə təsvir edirdilər. Hampa arvadları bu davalara «səbəb» olan Qumruya boğma çıxardırdılar:



— Kül başına, arvad olan yerdə. Bəy evinə getmək istəmir. Öl, canın çıxsın! Daha xalqı niyə vuruşdurursan?..

Sultanəli gecə ikən kənddən çıxdı. Gözlərində kin, qəlbində intiqam arzusu, qolunda vuruşmaq gücü ilə yollara sığmır, qaranlıqları əlinə dolayıb, barmağını cida kimi düşmənin gözünə soxmaq istəyirdi.

Hacının beynini tüstü, duman bürümüşdü. Yerə otura bilmirdi. Əli, ayağı əsə-əsə «gədə-güdəyə» əncam çəkmək üçün Bəbir bəyin yanına xahişə getdi.

## 2

Hacı titrəyə-titrəyə gəldisə də, bəyə, bir ultimatum gətirdi. Yetirən kimi acığını yerə töküb ağladı:

— Kaftar mən oluram, ihi, ihi, ihi. Donuz mən oluram. Mənim qarnım, iyi, iyi, şişir. Yüzbaşı da rahat oturub, küftə yeyir...

Arvad o biri evə keçdi. Bəy, ağzında tikə, ayağa durdu. Yağlı barmaqları çıraq işığında işıldaya-işıldaya Hacıya yer göstərdi. O, doqqazdakı əhvalatı öz qulağı ilə eşitmişdi, lakin «əngəl çıxmasın» deyə qulaqardına verib ötmüşdü. Hacının «abi-havasından» bildi ki, məsələ ciddidir. Özünü bərk çəkdi. Qaşlarını çatdı. Bir «millət xadimi» kimi səbirlə Hacını dinləməyə başladı.

Hacı danışır, danışdıqca alt dodağı rezin kimi sallanır, uzanırdı. Ağzından bəzən selik axırdı. Hacı qarnından tutur, papağını—namusunu göstərir, bir də Məkkəyə and içirdi. Qalan sözləri anlaşılmırdı. Danışığından «çarə, nə günə, nökər, dik, quyu, saqqal, pristav, sabah...» kəlmələri aydın eşidilirdi, lakin bunlar Hacının hiyləgər, şivənli zırıltısına qarışır, anlaşılmamış qalırdı.

Bəbir bəy çörək təklif etdi. Hacı ilə uzun söhbətə girişdi.

O, Qədirin və başqa «banditlərin» haqqında uzun plan tökmüşdü: heç tələsmək, əl-ayağa düşmək lazım deyildi. Bu işi yeritsə hər şey olacaqdı.

Bəbir bəy müsahibini başa salırdı:

— Əvvəla budur ki, Hacı, Qədirin bir də Qədir olub kənddə gəzməyi, baş girləməyi keçmiş ola. Lələşin ona bir aş bişirib ki, dadı damağından gedən deyil!..

Bəy qəlyanı ucuz tənbəki ilə doldurub, baş barmağı ilə basdı. Alışdıranda Hacı, ağır şeylərlə yüklənmiş eşşək kimi, «uf, uf» elədi, burnunu tutdu, geri çəkildi. Bəy anladı ki, kükürdün tüstüsü Hacıya əziyyət verir.

—İpişkadan qorxursan, əşi? Sabah millət yolunda meydana çıxanda, atışanda nə eləyəcəksən bəs?..

Hacı, dərman atmış kimi, üzünü yana çevirdi, öskürüb asqırdı, özünə gəldi. Bəy davam etdi:

— Hənn... nədi... ona ləleşin bir yağlı iş bişirdi! Deynən necə?

— Necə?

— Axı bu iş belə şeydir ki, gərək əlində sübutun ola. Dakumentalnı-subutalnı baxanda Qədir səfər ayının on üçündə ölüb!..

Hacı onun sözünü ağzında qoydu:

— Deməli, yezid günündə tünbətün düşüb...

— ...Şahidlərin sözü var. Başbilitində yazılıb ki, «filankəs ermənilərin əlində şəhid...» Şəhid məsələsi səhv düşüb, onu qaralayıb düzəldərik... heç... Yazılıb ki, bu adam o söz, öldü! Qumrunun da kəbini kəsilib qurtarıb gedib, gəldi-gedər, mərsiyə mollası yox, mötəbər axundun yekə qolu var, üstünə möhür basılıb. Arvadın mehrinə də neçə yüz qızıl salınıb. Hamısı həpti-cəpt olunub. Burası belə! Görürsən ki, hara getsə, mənim ixtiyarım var kəbinli arvadıma sahib durmağa. Bir yana baxanda Qədirin diriliyinə barmaq boyda sübut, şahid yoxdur. Mən də elə hərifi burada tutmuşam. Mən ölüm, nə deyirsən?.. Dirilmisən, dirilmisən, a donuz oğlu, hanı kağızın, hanı sübutun?

— ...

— Hə, belə. Dərədə yüz bambılı var, biri gəlib deyəcək ki, Qədirəm. Beləsinə kim inanar, burada hökumət var, kəndxuda var. Başına deyil ki. Bu camaata baxan var. Pristav yanında mənim adımdır. Yüz gün lalasın ki, «Qədirəm!», kim inanar?.. Qədirin adı mənim kəndimdən çoxdan silinib, çoxdan silinib gedib. Yalandan biri özünə ad qoyub gələcək, mən dəliyəm onu kəndə buraxam? Mən dəli deyiləm ki! Qəbristanlığa gedən ölü qayıdarmı?.. Vəssalam... Çıxarıram, başın haqqı, qoymaram bir gün qala kənddə!

Hacının acığı tutdu:

— Axı, a bəy, bir kəlmə işarə verməyə ağzın ağrıyır? Niyə it damına basdırmırsan qurtara gedə, bu donuz oğlunu?

— İxtiyarımız yoxdur!

— Necə?

— İxtiyarımız çatmaz!

— Nədən bəs tat Həmidin qardaşını Nargino sürəndə çatır? Yəni Qədir belə əjdaha oldu ki, ixtiyar da çatmaya!

— Yox, a kişi, onu demirəm, ixtiyara nə gəlib? Dövlətindən, lap kəndə od da qoymağı bacarram. Pristav mənə güldən ağır söz deməz. Əlbəttə, millətin ixtiyarı bizə çatır. Ancaq bir iş var. Qədir ölübdür, dirilər siyahısında adı da yoxdur! Mən onu tutub dama salsam, sabah məni öz sözü ilə tutar, deyər ölmüşdümsə, niyə qalaya basdırdın? Ölü də dustaq olarmı? Odur ki, mən tutmuram, məsləhət



də deyil. Sabah kənddən qovacağam, qonşu yüzbaşılara da demişəm. Qəbristanlıqdan qayıdanı kəndə qoyan kimdir. İlim-ilim itib gedəsidir. Onun işi bitib!

— Vəssalam?

— Əlbəttə ki, vəssalam!

— Ay dedin ha!...

Hacı bu sözün axırında zıqqıldadı, divara sarı çevrildi. Bəy anladı ki, tədbirləri onun xoşuna getmir. Sabahdan bəri danışdıqlarının harasında səhv olduğunu fikirləşmək istəyirdi. Hacının xırıltılı səsi mane oldu:

— Yatmısan!.. Dünya bir-birinə dəyib, sən hələ yuxudasan. Demək ki, Sultanəli tək məni söyür, ya Məşədi Cahangirə kişilənir? Yox, dalda uzun zırıltı var. Bu gün məni döyər, sabah axundun sözünü danışar, o biri gün də səni, sən yüzbaşını ağıza salar. Nə hökuməti sayırlar, nə şəriətə baxırlar. Görmürsən bəyəm, qudurublar, canım, Urusetdə balşavet yalan olub. Bizimkilər gəmidə oturub, gəmiçi gözü çıxardırlar.

Hacı bu sözdən sonra bir qədər susdu. Yüzbaşı da danışmadı. Hacının xırıltılı səsi onun qulağını didirdi. Hacı indi daha qətiyyətlə danışırdı:

— Yox, ay yüzbaşı, bu olmadı. Mən şəhərə gedib danışaram. Bir Qədirin dərdi deyil ki... hansı axundun sözüdü, o demişkən:

«Düşmən bir olsa dəfini asandır eyləmək,
Vay ol zaman, hücum edə dörd bir kənardən...»

O biri evdən tünd çay gətirdilər. Arvad bəyi qapıya çağırdı. Bəy mızıldandı, qayıtdı:

— Hacı, mən elə demədim, bir bil gör nə deyirəm, gör Sultanəliyə nə eləyirəm də...

— Heç nə eləmirsən.

— Başın haqqı, budur cibimdə!—Cibindən tənbəki kisəsini çıxartdı, təsbeh, bıçaq, möhür əlinə gəldi. Çox axtarıb büzüşmüş bir kağız çıxartdı. Hacıya tərəf əyildi. Göz-göz edib, sanki oğurluqca danışdı:—Yüz il qalasan Sultanəlinin işini mən bilən kimi qanammazsan. İstəyirdim açım.—Bəy ayağa qalxdı. Pəncərəyə baxdı. Arvada tapşırdı ki, «gələn olmasın», bardaş qurub oturandan sonra pıçhapıç danışdı:—Özün də bilirsən ki, Sultanəli balşaveti istəyir. Bu kağızı siqretni mənə pristav yazıb ki, öyrənəm, hərifin işini açam. Eşitmisən dana, Bağmanda çopur Kazımın nökəri kişini öldürüb qaçıb. Hacı Ağakişinin oğlunu bıçaqlayıblar. Şəhərdə fəhlələr yaman qalxışıb. Deyirlər dünən Keçiev Cabbarın sabun qazanlarını ocaqda qoyub çəkiliblər. Vağzalda fəhlələr lap üzə durub. Elə beləlari kənddəki lütlərin də ağzına dil atır, kömək edirlər. Naçalnik

pristavlara tapşırıb кi, millətə xain çıxanların siyahisini tutaq. Biz də yığırıq, hərifləriп bir-bir başını əкəcəyiк. Dostun bu gecə gedir, o söz... Sultanəlini deyirəm ey!.. Bu gecə aparırlar. Qalanlarını da yavaş-yavaş, qaraquş cücə dənləyən кimi, hərəsini bir-bir... Sən arxayın ol! Kim кöpəкoğlu bunların toxumunu кəsməyincə rahat oturar? Biz hamısını biliriк! Sən döz! Sənin işin o olsun кi, belə əhvalat eşidəndə tez qaç, mənə yetir. Mən pristavla danışmışam...

Evdə saкitliк idi. Hacı bəyi maraqla dinləyirdi. Sultanəlinin işini biləndə ürəyindən tiкan çıxdı, gözləri işıldadı. Fiкirləşirdi кi, onu dama basanda qıraqda durub üzünə tüpürsəm, başına bir qapaz salsam, nə olardı! Ax nə olardı! Deyərdim: «Öl, lütqom oğlu lütqom! Canın çıxsın qazamatlarda. İndi halındı, dəmin?»

Bəy bir az uca, laкin mülayim səslə söhbətin cilovunu əsl mətləbə çevirdi:

— Toyu da eləməк istəyirəm axı. Nə məsləhət görürsən?

— Eləyəк. Niyə eləmiriк?

Bəy ayağa durdu:

— Eləyəcəyəm, sağlığına кefin istəyən кimi toy eləyəcəyəm...

### 3

Qədiri кənddə yaşamağa qoymadılar. Yalnız böyüкlər deyil, uşaqlar da uzaqdan baxır, «Xortdan»—deyə çağırırdılar. Qəbristandan qayıdan adamın söhbəti hamının ağzına düşmüşdü. Heç кəs bunu ayırd edə bilmirdi. Qədir yalnız ailədə və dostları arasında ehtiram və təəssüf görürdü. Bu isə yaşamaq hüququ almaq üçün çox az idi. Qıraq кəndlərdən eşidən bir muzdur dostu Qədirin dalınca кinayə edir, deyirmiş:

— Çox səfeh adamdır кi, dirilib. Elə bilir dirilər halva yeyir. Bədbəxt oğlu, ölüm кimi neməti əldən buraxıb qaçıb кi, nə var-nə var, yaşamaq istəyirəm. De yaşa görüm, ac-susuz, yurdsuz-yuvasız necə yaşayacaqsan? Bu, güzəran deyil, aşкarca ölümdür! Çıxsın canın, gündə yüz dəfə öl. Onda bilərsən кi, rahat qəbiristanlığın ləzzəti ayrı imiş, əvəzi yox imiş!

Bu кinayələri Qədir anlamamış deyildi. Ancaq bunlar ona bir təsəlli idi. Öz gücünə güvənməli olduğunu duyurdu. Qədir necə olsa yaşamaq arzusunda idi. Bütün qüvvətilə qışqırıb aləmləri agah etməк istəyirdi кi: «Diriyəm, ölməmişəm, ölməк istəmirəm!» Laкin səsi çıxmırdı. Harayı bir yerə yetmirdi. Ona elə gəlirdi кi, adamlar, evlər, кüçələr, sular, ağaclar və bütün кənd Bəbir bəyin arxasında кöməк durub, onun dediyini deyir. Hər şey və hətta dönə-dönə əкib-biçdiyi zəmilər də dilə gəlib, rəncbərə rişxənd eləyir:



— Buna bax, bu ölü nə gəzir?

İlк günlər Qədirə yuxu кimi gələn işlər get-gedə ağarır, aşкar həqiqətə çevrilir, bir qüvvət olub onu məhrum, məhv etməк istəyirdilər. Nə canlı həyat, nə şahidləri, nə də bütün qüvvətilə qışqırdığı səsi onun varlığını «isbat» edə bilmirdi.

Yüzbaşı dediyində dururdu. Yazılanı pozmaq çətin idi. Qədirin əlacı кəsildi, din xadimi axundun hüzuruna getdi. Dərdinə əlac istədi. Ona edilən haqsızlıqlara qarşı şəriətin höкmünü, həqiqi cavabını tələb etdi.

Axund təmкinini pozmadı:

— Eşitmişəm, bala,—dedi,—eşitmişəm... O кəbin кağızında mənim də möhrüm var. İş çox çətinləşib, dolaşıq gətirib. Əslinə baxanda səni də günahкar etməк olmaz. Sən də bilməmisən. Burada üç nəfər adil şahid qol çəкib, məzкurəyə niкah oxunub, кəbin кəsilib. Üləmanın mötəbər imzası olub. Bunların cəmisi şəridir. Ancaq sənin ricətinə, dirilməyinə mən çaşıram. Özüm də mat-məbhut oluram.

Qədir bir şey başa düşmədi. Axundun izahatını anlaya bilmədi:

— Necə yəni, axund ağa! Mən ölməmişdim кi, dirilə idim? Mən ölməmişəm ey! Kim bu sözü çıxarıb, bilmirəm? Allaha şüкür, mənim sağlığıma nə gəlib? Görmürsənmi mən boyda adamı? Göz qabağında durmuşam!

— Yox, oğul, məsələ sənin məsələn deyil! Sən öldün-ölmədin, aləmi-ruzigara bir fərq, bir təfavüt yoxdur. Bir məqamda кi, üç nəfər adil şahid, üləma, ağsaqqallar qol qoyub, höкm veriblər, buna nə söz? Sən bir adamsan, höкm on adamındır. Sən Qədirsən, onlar Bəbir bəydir. Məşədi Cahangirdir. Mir Qənbərdir və sair əyani-əşxasdır. İndi şəriət sahibi bir adamdan ötrü beş adamı qurban verməz, öldürməz, mötəbər əşxası yalançı da eləməz. Sənin ölməyin məsləhət imiş. Çifayda, indi кi ölməmisən, nə çoxdur vilayət! Heç eyb eləməz, baş götür, get birində gününü кeçir. Beş günlüк ömrün qalıb fani dünyada, nə istəyirsən bu camaatdan?.. Çıx qoy get, məsləhətdi!

— Axund, mən buna razı deyiləm. Ağıllı adam bunu deməz. Mən birbaş Şeyxülislamın hüzuruna gedərəm. Qoy onlar da bilsin кi, siz necə yüzbaşıların tərəfini vermirsiniz, həqiqəti ayaqlayırsınız, mən boyda adamı görməк istəmirsiniz. Mən bunları deyəcəyəm. Şeyxülislamdan cavab istəyəcəyəm. Mən hamısını yerində danışacağam. Qoy şəriət sahibi höкmünü versin. Görəк ölməli кimdir. Kasıb olanda nə olar, кasıbın Allahı yoxdur, rəncbərin tanrısı yoxdur? Dünya bəyəm başlı-başınadı?

— Sahibi-ixtiyarsan!

— Sizdən bir xahişim var.

— Bəqədri-qüvvə.

— Təvəqqə eliyirəm ki, Şeyxülislamdan cavab almayınca Qumrunun toyunu ləngitməyi buyurasınız. Şəriət sahibindən soruşaq! Şeyxülislam da, şəhərdə də mənə diri deməsələr, məni «öldüyə» çıxsalar, siz deyən olsun, onda eybi yoxdur!

Axund fikirləşdi və başını aşağı salladı.

— Xub!

Qədirlə Məşədi İslam tədarük görüb, şəhərə yollandılar.

## QIŞ GECƏLƏRİ

### 1

Qədirin dirilməsi Qumrunu yüzbaşının əlindən çıxara bilməsə də, iş çox ləngidi. Sarıqlı molla Fazili-Dərbəndidən hədis gətirib isbat edirdi ki: «Belə hallarda gözləmək, sahibi-şəriətin əmrinə müntəzir olmaq lazımdır». Beləliklə, həm Qədirin, həm də yüzbaşının qadına yaxınlığına yol verməmək üçün Qumrunu mötəbər bir yerdə müvəqqəti saxlamaq məsləhət görüldü. Onu məcburiyyətlə, gözüyaşlı, qucağında uşağı, axundun evinə gətirdilər. Hacı Hüseyn həyətə yiyələndi və tut ağacının dibində təzə kirayənişinlərilə palaz salıb, bir qonaqlıq da yedi.

Qumru axundun evinə gəlmək istəmirdi. Sevgilisi ilə ağır da, möhtac da olsa, xoş günlər keçirdiyi daxmaya, o balaca həyətə cənnət kimi baxırdı. Təkbaşına da olsa, burada, qara hisli pərdilər altında sızlamaq, yanan və qovrulan qəlbinə göz yaşları səpmək istəyirdi. Ancaq buna da mane oldular. «Namus, abır, həya» adına, «müqəddəs şəriət qanunları» adına onu evindən çıxardılar, axundun yanında «əmanətdə» qoydular.

Axundun arvadı Şirin qonaqpərəst, xoşqılıq bir qadın idi. Qumrunun halına yanır, onu ovutmağa çalışırdı. Bu axşam axundun evində iki, bir-birinə zidd qütb görünürdü. Qumru nə qədər qəmli, kədərli idisə, o bu evə nə qədər qüssə, göz yaşı gətirmişdisə, axund biləks, sevinc və şənliklə qaynayırdı. O, qırmızı saqqalından dəstəmaz suyu töküla-töküla, Qumru olan otağa keçib, ağ köynəyinin qolunu aça-aça xoş gəldin deyirdi:

— Qızım, bura sənin öz evindir. Heç qüssə eləmə, şəriət sahibi nə deyər, ona əməl olunar. Burda bir elə çətin iş yoxdur. Kefini kök elə. Elə də olsa, belə də olsa, sən dul qalmayacaqsan!..

Həm Qumruya təsəlli olsun, həm də «Allahın əmri yerinə yetirilsin» deyə axund qalın, qara meşin cildli kitabları qabağına tökür, şapalaqlayıb tozunu qaldırırdı. O, dizi üstə yıxılıb, yırğalana-yırğalana hədis oxuyur, təzə qonağını məşğul etmək istəyirdi. Axundun oxuduğu hədislərin hamısı «salihə» qadınlar, siğə və nigah barədə



olurdu. Axşam hansı kitabdan isə xüsusi bir iştah, ayrı bir həvəslə bir hədis oxudu:

«Yezid ibni Müaviyənin gözü (Allah ona lənət eləsin) Abdullah ibni Kəbin arvadına düşdü. Yezid məlun cavan idi, gümrah idi. Dərdini atasına dedi. Müaviyə Abdullahı Mədinədən çağırdı. Böyük qulluq verdi. Xəlvətcə yanına çağırıb qandırdı ki:

— Oğlum Yezid səfehdir. Qoy cəhənnəm olsun. Səni yerimdə vəliəhd eləmək istəyirəm. Pərdeyi-ismətdə olan qızımı da sənə verəcəyəm. Mədinədən yığış, üzülüş, arvadını rədd elə, gəl!

Abdulla ibni Kəb şadlığından qəşş elədi. Fövrən bir molla çağırıb, vəkil elədi ki, get Mədinədə mənim arvadımın talağını ver. Bu tərəfdən də Müaviyə mollaya tapşırdı ki, «özü bilməsin, Abdullahın arvadını boşayan kimi nikahını oxuyarsan, kəbinini oğlum Yezidə kəsərsən. Molla qoca, çopur, çirkin, yoxsul adam idi. Dəvəyə səvar olub, Abdullah ibn Kəbin arvadının yanına getdi. Əhvalatı arvada təfsilatı ilə nəql elədi və əlavə məlum etdi ki, özüm də müştəriyəm.

«İstəyirsən dünyan olsun, yaxşı güzəranın, kənizin, gətir-götürün olsun, xanım olasan, kef çəkəsən, onda Yezidə get. Yox, istəyirsən bu dünyanı birtəhər keçirəsən, axirətin xoş olsun, qiyamətin günündə cənnətdə feyzyab olasan, əbədi xoşbəxtliyə çatasan, ənbiya ilə həmsöhbət olasan, abi-kövsərdən içəsən, cənnətdə yeyəsən, onda mənə gəl!..»

Sarıqlı molla burada başını qaldırıb, diqqətlə Qumruya baxdı. Qumru isə əsir, məzlum bir halda küncə sıxılıb, uşağını əmizdirirdi. Sarıqlı molla onun diqqətini cəlb etmək üçün öskürdü, dedi:

— Görün Abdullahın salihə övrəti nə elədi.

— Nə elədi?

— Abdullahın övrəti salihə, mömünə idi, qabil, aqil idi. Düşündü və dedi ki: «Ey nurani şəxs, Yezidin sarayı başına dəysin, Abdullahın da vəfasına tüpürüm. Mən sənə gəlirəm, nikahımı oxu!..»

Sarıqlı molla sözünü bitirib, başını qaldırdı. Bir də gözünün altından Qumruya baxdı, çayını hortuldatdı:

— Qumru xanım, necədir? Mültəfit olursan?

— Niyə, hədisdir də...

— Hədisdir, həm də çox mötəbər hədisdir. Görün necə saliyə övrətlər varmış. Bəəəs... İndiki kimi övrətlər cifeyi-dünyaya aldanmazdılar. O zaman ayrı iş idi, ayrı məqam idi.

Axund eynəyi gözündən çıxarmamışdı ki, yüzbaşı içəri girdi. Sarı, ağır Buxara papağını qapıya çırpdı.

— Yağış qiyamətdir,—deyə ayağını silməyə başladı. Şirin ayağa qalxdı. Axund yerində qımıldandı. Onun fikrinə gəldi ki, gecənin bu vaxtında yenə nə var görəsən:

— Xeyir ola, bəy, nə əcəb buyurmusunuz?

— Xeyirdir.

Bəy oturdu. Şirin yeni bir şey eşitmək üçün qulağını şəklədi. Qumrunun isə dərdi sözələndi, nifrəti coşdu, lakin susmaqdan başqa çarəsi yox idi. Axund gözünü yüzbaşının ağzına dikmişdi. Yüzbaşı hiss etdi ki, onun gəlişinin səbəbini axund duymamışdır. Özündən xoşhal oldu, oturuşu və danışığı ilə ciddiliyini saxlamaq üçün ehtiyatla tərpəndi. Qəlyanı alışdırdı, gücənərək bir mövzu aradı. Gələndə vacib söhbətə oxşayan məsələ hazırlamışdı, lakin gözü Qumrunun üzünə sataşan kimi hər şey yadından çıxdı.

Axundu intizar boğurdu. O elə güman edirdi ki, yenə də ölüb-öldürmə hadisəsi var. Bir də soruşdu:

— Xeyir ola?

Bəy qəlyanı dəmlədi.

— Xeyir olmayanda nə var.

Yenə arada sükut oldu. Axund zənn etdi ki, bəy vacib məsələdən danışacaq. Bir də qımıldandı, diqqətini topladı, gözlərini bəyin dodaqlarına zillədi. Bəy burcuxdu. Çətinliklə söz tapanlar kimi kəkələdi:

— Zaddır. Əee. Nə deyəcəydim, şovqərib... mmm. Zəhrimar huşum dağıldı getdi.

Bəy mövzu tapa bilmirdi. Axund isə özündən şübhələnirdi. Bəlkə evdə arvad-uşaqda bir bəd hərəkət olub ki, bəyin acığı tutub. O, arvadını başdan-ayağa süzdü. Bir şey hiss edə bilmədi. Yalnız xınalı ayaq barmaqları görünürdü. Axund öskürən kimi Şirin gen və uzun tumanı ilə ayaqlarını örtdü. Yüzbaşı sözə başladı:

— Hə, mmm. Axund, millətin halına heç qalmırsan ha.

— Necə məgər?

— Elə də!

— Yoxsa yenə kirvələrdən xəbər var?

— Var, bəəə...

— Əsgəran alınmayıb ki?

— Alınar da. Vaxt olar alınar!

— Nə vaxt? Yoxsa müsəlmanlar şəhərə giriblər?

— Allahın izni ilə şəhərə də girərlər, kəndə də girərlər, köyşənə də girərlər, örüşə də... Niyə girməsinlər!..

Bəy alacalanmış gözünü ətrafa dolandırdı, mövzu tapdığından, arxayınlaşıb, səsini ucaltdı:



— Yaman darıxıram. Zəncirdə olsam bundan yaxşıdır. Pristava nə qədər dedim hünər məqamıdı, qoy gedim səngərə, dedi olmaz. Sən də kəndi buraxsan camaatın arvad-uşağı necə olar? Onu bil ki, axund ağaya and olsun, mən dözə bilmirəm. Daha bəsdir. İgidə yaraşar heç? Səngərə getdimmi, ya ölərəm, ya alaram. Elə gəlmişəm məsləhətə, nə deyirsən?

Axund onun sözünü kəsdi:

— Xeyr aaa... Mən sizi tanımıramını, maşallah, sizdə Əli şücaəti var. Qan ki, duruldu, igidin arxası yerə dəyməz. Mən məsləhət görürəm, get! Mehmandarov səni görsə bağrına basar. Məsləhətdi, ələhəni götür, get!

Bəyin fikrinə gəldi ki, «aşnam məni əkmək istəyir. İstəyir ki, Qumrunu xəlvətə salıb, o söz! Yox, ay ağbaş tülkü! Qumru sənin xörəyin deyil. Eşşək nə bilir zəfəranın dadını. Bağışlayasan...»

* * *

Gecə keçmişdi. Bəy hazırlaşıb getmək istəyəndə heç kəs mane olmadı. Axund sevindi. Ona elə gəldi ki, bəy ermənilərlə davaya gedəcək:

— Yaxşı yol, uğur olsun, bəy!

Yatmağa hazırlaşırdılar. Qumruya ehtiram olmaq üçün axund öz yerini balaca otaqda saldırdı. Qumru çölə çıxmışdı. Dəhlizdən ötəndə xırıltı səsi eşitdi. Elə bil damda qar kürüyürdülər. İçəri girəndə anladı ki, axund yatağında qaşınır.

Axund arvadına tapşırmışdı ki, Qumrunun yerini ayna qabağında, ipək yorğan-döşəkdə salsın. «Çünki o, Allah qonağıdır. Ona hörmət vacibdir».

Çıraqlar söndü. Ev-eşikdə hərəkət kəsildi. Yuxu ağır ehtiyac kimi qara qanadları ilə evlərə qondu. Kainat yumulu gözlərə doldu. Yalnız axundun arxalıq cibindəki zəncirli və qapağı «şah nişan», gümüş saat, ağır yük altında zıqqanan hamballar kimi səslənirdi: «Tıq, tıq, tıq...»

Axundun gözünə yuxu getmirdi. O, dünyanın naz-nemətini bir-bir qaranlıq nəzərlərindən keçirib qiymətləndirir, «mənkuhatın müəzzəm failərini» düşünür, qadına «ləzzətlərin padşahı» deyirdi. Xüsusən belə Qumru kimi «məhəbbətin qumrusu, gözəlliyin leylası» ola:

— Həqiqətən Qumru! Qurban olum bu adı qoyan anaya!

Axunda elə gəldi ki, axşamkı hadisələr hədər getmədi. Sakit dinləməyindən, kəlməbaşı «bəli, bəli» deməyindən bəlli idi ki, Qum-

ru Abdullahın arvadı кimi olmaq istəyir. «İstəyir, istəməsə əyan edərdi!..» Bəzən xoş ehtimal xoşagəlməz həqiqətdən üstün olur.

Axundu ehtiras boğurdu: «Ömür-gündən кeçən dəqiqələrdən istədiyiniz кimi istifadə etməməкdən qorxunuz». Ömər Xəyyamın belə bir rübaisini xatırlayanda, elə bil, yatmış axundu yataqdan diк qaldırıb, ayaq üstə qoydular. O, canlı sкelet кimi süкutun, qaranlığın içində üzürdü. Səs olmasın deyə heç şey geyinmədi. Qara, gecə ləbbadəsini ehmalca çiyninə salıb, dəhlizə çıxdı. Böyüк evin dəmir rəzəsindən tutdu, qiraətlə oxunan bir dua tədricilə qapını açdı. Mahir oğrular кimi nəfəsini içəri çəкdi, yanaкı sürüşüb, qadınlar yatan otağa girdi. Bir qədər susdu, «mətləbə» yaxınlaşdığına görə sevindi. Vəziyyəti yoxlamaq istədi. Ayılan olarsa кibrit axtardığını deyəcəк, arvadını danlayacaqdı. Yatanların dərin yuxuda olduğuna qəti, inanandan sonra «bismillah» deyib, кərtənкələ кimi yerə uzandı. Əvvəlcə əlini pəncərənin qabağında salınmış yatağa, ipəк yorğan-döşəyə uzatdı. Əli yatağa dəyəndə yavaşdan, xəfifcə bir xışıltı eşitdi. Yatanın vəziyyətini yorğanın üstündən təxmini təyin etdi. Əlini qoltuğuna qoyub qızdırdı. Ehtiyat və tədriclə yorğanın altına uzatdı.

Barmaqları yatanın isti və yumşaq qılçalarına toxundu. Bu halda axundun ürəyi, yerindən çıxacaqmış кimi, bərк-bərк döyündü. Qumrunun təslim olmuş vücudu, munis baxışı, «şəhla gözləri» axundun qarşısında dayanıb, canlandı. Ehtiyat və qorxunu buraxmaq, кəmər кimi qadının belinə dolanmaq istədi. Bir də lənət şeytana dedi, tez-tez nəfəs aldı, nədənsə sinəsində yığılan, onu darıxdıran şeylərösкürməк tələbi doğurdu. Az qalmışdı ösкürsün. Özünü güclə saxladı, əlini ağzına qoydu, oğurluqca birtəhər udqundu, mətləbinə davam etdi.

Axund əllərinin təmasına qadında etiraz görmədi, sevincindən az qaldı aşкarca qollarını açıb qucaqlasın, «ox, qadan alım sənin, ay Qumru xanım!» desin. Bunu edə bilməzdi, çünкi evdə «ayrı» adam var idi. İnandı кi, axşam danışdığı hədis Qumrunu o кi var bişirmişdir. O, axundun olmaq istəyir. Buna çoxdan razıdır. Yalnız siğə oxumaq lazımdır кi, «Allahın əmri, peyğəmbərin şəriəti ilə» halal olsun... Axund gecənin qaranlığında кəhildəyə-кəhildəyə dil-dodağını tərpədir, qan-tər içində siğə oxuyurdu...

Axund məqsədinə nail olandan sonra yağ-bal yemiş кimi şad və çox razı bir halda, isti yal içmiş кimi, dil-dodağını yalaya-yalaya yatağına qayıtdı. Özündə cəsarət və qələbədən doğan bir şən-şətarət, yüкsəкliк hiss etdi: «Mənə də Sarıqlı molla deyərlər. Qoy Bəbir bəyin həsrətdən canı çıxsın. Qədir кəfən yırtıb, məzarlardan xortlasın. Amma haqq öz yerini alacaq. Cəhənnəm əzabında çırpınan Qumru, cənnət əvəzində mənim Quran-кitablı sinəmdə yatacaq. Bundan sonra heç yatmasa nə olar, necə deyərlər, «gülünü dər, tiкanı ver!»



Bu təşbeh axunda heç xoş gəlmədi. Doğrudan da Qumrunun gül və ətir qoxulu mərmər bədənini tiкana oxşatmaq insafdan кənar bir şeydi.

Qumrunun mütənasib vücudu, ağ və yumşaq bədəni axundun gözü önündə təкrar canlandı və hərəкətə gəldi. Bu dəfə Qumrunun nə başında çadra, nə bədənində libas var idi. O, qədim memarlara məxsus çılpaq heyкəllər кimi, qol-qanad açıb durmuş, axundun vüsalına həsrət çəкirdi. Axunda yenidən həvəs gəldi...

— İşdir, qəzadır,—dedi,—bəlкə heç qız mənə qismət olmadı. Fürsət var iкən «ləbi-candan кövsər suyu içməyəsən?.. Fürsəti fövt eyləməz aqil məgər nadan ola!..»

Ayağa qalxdı. Bu dəfə çiyninə heç bir şey salmadı. Yeyin getdi, çünкi onun işıqlanan gözləri qaranlığı yarıb ötürdü. O indi naşı və qorxaq alma oğrusu кimi yox, mahir bir quldur кimi cəld hərəкət etdi.

Axund o biri otağa girəndən sonra barmaqlarının ucunda yeridi. İpəк rəxti-xaba girdi. Qadını qucaqladı. İndi Axund özünün ən xoşbəxt dəqiqələrini yaşayırdı.

Sanкi hər şey axunda paxıllıq edirdi. Küləк həyətə süpürgə çəкərəк, nəyi isə ağacdan yerə salıb danqıldatdı. Xoruzlar ağız-ağıza verib sabahı çağırdı. Axund arvadının oyanmasından qorxurdu. Laкin o yanılırdı, özünün oyanmağından qorxmalı idi. Elə də oldu. Axund ayıldı, anlaya bilmədiyi bir ehtiras yuxusundan oyandı və çox qəribə, gözlənilməz bir vəziyyətə şahid oldu.

Axundun qucağındaкı öz arvadı Şirin idi. Adi hallarda axund aylarla ona yaxın durmaz, iyrənərdi. Şirin axundun bu gecəкi hərəкətlərindən təəccübləndisə də, mənasını anlaya bilmədi: «Bu gün sənə nə olub, a кişi?»

Axund barmağını dişlədi. Suyu süzülmüş, dəryada gəmisi batmış кimi, pərişan bir halda yatağına qayıtdı. Şeytana lənət oxudu. O, həyatında heç vaxt belə aldanmamışdı. Bir şeyə sevindi кi, heç olmazsa aldandığını кimsə bilmədi: «Allah sirr açmayıb, bu da açılmaz... inşallah, açılmaz!»

## 2

Qədirin diriliyi höкumət yanında təsdiq olunmamışdı. Dirilməyinin üstündə onu da «gedər-gəlməz»ə göndərmişdilər. «Şəriət sahibindən» xəbər çıxandan sonra yüzbaşı işə başlamışdı. Gələn dost-aşnaya əvvəl şirin çay, sonra da quzu ətindən кabab verirdi. Toy tədarüкü bərpa olundu, bir az da şiddətləndi. Bəy on səккiz yaşında oğlan кimi dost-aşna yanında atılıb düşürdü.

— Ədəl—deyirdi,—dul olmağına baxmayın, mənim əsl toyum indidir. Qıssa köhnəlib gedib. Mən Qumru kimi bir can alıram, Qıssa nə qələt eləyir? Onu Qumruya kəniz saxlayacağam ki, gəlinin əlinə su töksün.

Bəy bunu ona görə deyirdi ki, «Əlli yaşında cavan» deyə ona lağ eləyənləri susdursun. Bu söz Qıssa xanımın qulağına çatanda özünü yerdən-yerə vurdu; başını daşa, divara çırpıb qanatdı, üç uşağını götürdü, ayaqyalın çıxıb getmək istədi. Onu kiridən Qumru oldu:

— Qıssa xanım, qorxma, mən səndən və sənin uşaqlarından xəcalət çəkirəm. Həm də sənin axmaqlığına gülürəm. Görünür, sən məni tanımamısan! Yəqin elə ki, min canım ola, hamısına da qurd düşsə, Bəbir bəyi yaxın qoyan deyiləm. Bu tədarüklər səni ağrıtmasın. Qədirin canı sağ olsun. Onun adı mənə bəsdi. Bu, toy deyil, kimin isə yas tədarükdür. Bu baş tutsa, gərək göylər uçulub töküləsün.

Qıssa xanım, ayrıca bir otaqda saxlanan, axundun əmrilə məhbus kimi insanlardan az qala təcrid edilən Qumrunun sözlərinə inanırdı, çünki o, təbii olduğu qədər səmimi, səmimi olduğu qədər doğru bir insandı. Onun faciəsi də bunu isbat edirdi. Bu sözdən sonra Qıssanın Qumruya məhəbbəti artdı. Onun halına yanır, uşağını dindirirdi, lakin qəlbindəki qısqanclıq və intizar onu içindən gəmirib yeyirdi. Ona aydın deyildi ki, bu toy, yaxud bu faciə nə ilə nəticələnəcəkdi. O, balkonda əlini qoltuğuna qoyub pərişan durur, qazan gətirənlərə, çörək bişirən, odun yaran, qab-qaşıq yuyanlara baxıb düşünürdü...

## YƏQİN

Qədir Məşədi İslamla çox tələsik gedirdi. O, şəhərə çatmaq, Bəbir bəyin, Sarıqlı mollanın paxırını açmaq istəyirdi. «Dərəni xəlvət görən belə adamlar qanunu, şəriəti saymayıb, hər şeyi öz istədikləri kimi öz xeyrinə aparırlar. Buna dözmək olmaz. Qoy qanun verənlər, şəriət sahibləri bilsinlər ki, kəndlərdə çamaatın başına nələr gətirirlər. Qoy bilsinlər ki, necə xəlvət dərələrdə tülkü bəydir».

Əvvəlcə Şeyxülislamın yanına getmək lazım idi. Qoy o da öz qulaqları ilə eşitsin, görsün ki, kasıb-kusub nələr çəkir.

Qədir başıaşağı yeriyir, böyük və son bir ümid arxasınca yeyin gedirdi. Gedirdi və ürəyində sözlər arayırdı:

«O, mehriban və işıqlı üzünü bizə çevirib soruşacaq. Şeyx nurani saqqalını tumarlayacaq, bizimlə salam-kəlam edəcək. Mən utanmaqlığı, sıxılmaqlığı bir kənara qoyub, danışacağam, ürəyimi boşaldacağam. Hər şeyi deyəcəyəm. Onu inandıracağam ki, Sarıqlı



mollanın dərdi-başı öz qarnıdır. Yüzbaşı xalqın namusunu gözləmək əvəzinə, kasıbların arvadını ələ gətirmək üçün tülkü hiyləsi qurur. Kəndin ağsaqqalları da onlara qoşulur. Mən yekəlikdə adamın diriliyini danırlar. Dirigözlü adamı öldüyə çıxırlar. Möhür basıb, qol çəkirlər. Məni öz evimə qoymurlar. Bu hansı şəriətdə var? Qanun beləmi deyir? Ədalət bəs hanı? Pulum ola, mümkünüm ola, Bakıya gedərəm. Yerinə yetişərəm. Bunları Nəsib bəyə söylərəm. Onda sizin üçün eyib olmazmı?.. Belə də zülm olarmı? Bu harda görülüb, hansı ölkədə görülüb?

Şeyxülislam heyrət edəcək, bunlara inanmayacaq. Onda ver, deyərəm, adam ver, qəmisiyə ver bizimlə getsin, görsün ki, mən yalan demirəm. Görsün ki, mən gözümlə gördüyümü, olub-keçəni, bəlalı başım çəkəni deyirəm. Qoy görsün, yəqin eləsin. Siz də millətin, islamın xatirinə bu xainləri cəzasına çatdırın ki, özgələrə dərs olsun».

Məşədi İslam yol boyu danışırdı, lakin Qədir fikir-xəyalda idi, çox sözü eşitmirdi...

Onlar çatmışdılar. Yağışlı bir gün idi. Səkilərin üstündə palçıq dizə çıxırdı. Adamlar addımladıqca palçığa batırdılar, küçədən ötən faytonlar on addım kənara, sağa-sola palçıq səpirdi. Atlar hər addımda ayaqlarını palçıqdan güclə çəkib çıxarır, ağır-ağır yeriyirdilər. Adamlar ətəklərini yığıb pişik kimi ehtiyatla addımlayırdılar. Qədirgil isə tələsirdi. Zəmidə suvarma ya cüt sürmə vaxtı kimi heç nəyə məna vermədən gedir, cürətli və cəld addımlarını yerə vurduqca yer qanad çalırdı. Kənarlara daşlanan palçıq ötənlərin üstünü bulayırdı. Onlar əyri-əyri baxıb, hirslə deyirdilər:

— Hoqquş, eşşək kəndli!

— Yavaş, a çöllü!

Lakin rəncbərlər bunları eşitmək istəmirdi, çünki iki dəqiqə sonra Şeyxülislamın hüzurunda isbat ediləcəkdi ki, eşşək kimdir!

Onlar məsciddən məyus qayıtmalı oldular. Şeyxülislam Mamırlı bəyin toyuna getmişdi. Qayıtmağı uzun çəkəcəkdi:

— Gedək birbaş pristavın hüzuruna!

— ...

Fikirləşmək vaxtı deyildi. Məşədi İslamın dediyinə Qədir də razı oldu. Pristavlıq qala düzündə «Dumun» yanında idi. Soraqlaşdılar. «Ələs bəyin idarəsi»—deyə nişan verdilər.

Şikayətçilər oraya çatanda yağış altında, qapıda çox adam var idi. Növbə gözləyirdilər. Bir qorodovoy qapıda durub, adamları növbə ilə buraxırdı. Uzunbığlı, gümüşü kişilər növbəsiz girir, gülə-gülə çıxırdılar. Bucaqda, novdan altında oturan, nəyi isə gözləyən müntəzir kəndlilər əliboş deyildilər. Bunların çoxu cərimə olunmuşdu. Kimisi əsgərlik işinə, kimisi də Qədir kimi şikayətə gəlmişdi. Kiminin

çiynində xurcun vardı, bəzisi quzu, bəzisi də turac gətirmişdi. Rəncbərlər isə əliboş idilər. Biabır olacaqlarını düşündülər. Qədir кəmcürətliк etdi:

— Gəl qayıdaq!..

Məşədi İslam razı olmadı:

— Nə olsun? Birinin varı olar, o birinin olmaz. Böyüyümüzdür. Dərdimizi bəs кimə deyəк? Qoy eşitsin, görsün кi, кənddə bizə nə gün verirlər. Əlidolu olmağa qoyurlarmı? Acından bağırsağım qırıldayır. Əlimdə nə olasıdır, ay sağ olmuş?.. Lütün nəyi var кi, ondan pay da versin...

Bir dilənçi arvad qucağında çılpaq və bozarmış uşağı ilə dalan qapısına yastılanıb pay istəyirdi. Ona fiкir verən olmadı. Qorodovoy qapını basıb acıqlandı:

— Get, Allah versin, bir şey yoxdur, ay arvad!

Qadın uşağı sanкi sıxıb çimdiкləyir, uşaq çır-çır çığırırdı. Qadın bu çığırtı içində, paslı ərsin кimi, кobud səslə yalvarırdı:

— Aaacından ölür... İrəhm eləyin, ay qar...

Rəncbərlər lap axıra qalmışdı.

Qorodovoy baxdı:

— Şeyiniz hanı bəs?

— Bir şeyimiz yoxdur.

— Heç nə yoxdur?

— Yoxdur, xeyr!

Qorodovoy əyri-əyri baxdı, dinmədi.

Növbə çatmışdı. Pristavın hüzurunda ədəbli görünməк üçün Qədir düymələrini bağlayır, ətəкlərini tuturdu. Ürəyi bərк döyünürdü. Çaşmamaq üçün şiкayətini fiкrində əzbərləyirdi. Qorodovoy tüfəngini əlinə alıb, ayağa durdu. Qapının bir tayını cəftələyərəк, dedi:

—Qurtardı. Qalan adamlar sabah gəlsin. Qurtardı.

O bunu deyib, heç кəsə qulaq asmadı, içəri girdi. Qədir, Məşədi İslam кor-peşman qayıtdılar.

Onlar sabah hamıdan tez, gün çıxmamış pristavın qapısını кəsib durmuşdular. Bu gün hava açıq idi. Gün var idi, laкin bərк soyuqdu. Dağlardan çayaşağı axan кüləкlər adamın qulağını dondururdu. Pristavlıqda gözləyənlər, toyuq кimi, ayağının birini qoyub, o birini götürürdülər. Deməyə, gülməyə söz də qalmamışdı. Nədənsə belə vaxtlarda adamın dəqiqəsi bir il кeçir. Gün orucluq ayı кimi çox tənbəl və ağır yeriyirdi.

Yenə adamlar yığıldı. Bu gün Qədir кimi qara camaatdan başqa «qazonni» adamlar da var idi. Misri çuxasının boynu yağlanmış, Buxara papağının zağarası getmiş bir çal кişi böyüк yerlərdən danışırdı. Qədirin yanında bir bağmanlı var idi. Qulağına pıçıldadı кi:

— Bu, xadimi-millət Məşədi Fərzalıdır!

Qədir diqqətlə baxırdı. Onun gözünün altı qaralmış, burnunun ucu bibər кimi qızarmışdı. İri qara dodaqları atlı lobyaya oxşayırdı. Sel кimi bulanıq gözlərində nə isə bir təlatüm var idi. Bu təlatümün nə olduğundan baş tapmaq çətin idi. Qədirə elə gəldi кi, millət qeydi кişini üzür. El dərdi çəкməкdən кəlləsi qurumuş, boğazı uzanmışdır.

Yenə dilənçilər, hərə bir dil, bir dərdlə yalvarıb ötürdü. Kim isə əlini cibinə saldı, dilənçiyə iкi şahı verdi. Məşədi Fərzəli hirsləndi:

— Ey əzizi-mən, bicəhət vermə. Bəradər, vermə, əfəndim, vermə!

Hamı üzünü ona çevirdi. O, dilənçiyə pul verən bir кişini sözə basmışdı. Əl-qolunu ölçüb, bir cinayət olmuş кimi, ucadan danışırdı:

— Əfəndim, yapdığın qəbahətin zırpılığını qanırsanmı? Paran çoxdur, ver qatığa, yax başına!

Qədiri gülməк tutdu. Qatığın yeməк üçün, bəzi halda isə (məsələn, ilan-çayan adamı sancanda) dərman üçün işləndiyini Qədir bilirdi. Ancaq başa yaxıldığını, nə üçün yaxıldığını bilmirdi. Məşədi İslam da «xadimin» sözünə çiyin çəкirdi. Xadim isə danlağında davam edirdi:

—Bədbəxt müsəlmanlar! Havaxt ayılacaqsınız?.. Paranı ver Vartazara, paranı ver hamparsuma, ver xaricilərə! Qoy öyrənsin, qoy din düşməni dilənçi olsun. Müsəlman qardaşı niyə dilənçiliyə öyrədirsən? Kifayət deyilmi? İslamı zəlil, bədbəxt eləyən sizin кimilərdir axı... Abdal həriflər!.. Təкlifini qanmayanlar, əx!..

Növbə rəncbərlərə çatmışdısa da, macal verən yox idi, başqaları addayıb ötürdülər. Qədir qorodovoya baxdı. Bununla nə isə deməк istəyirdi. O, hiss etmişdi. Gözünü Qədirdən yayındırdı. Məşədi İslam yoldaşının qulağına pıçıldadı:

— Bu itin ağzına bir şey atmaq lazımdır. Yoxsa bizi buraxmayacaq! Mənim yəqinimdir, buraxmayacaq!

Qədir durub gəzindi. Saymazyana bir cırıq onluq çıxartdı, hərifə uzatdı. Qorodovoy əsnədi, böyrünü pula tərəf əydi. Qədir onluğu onun cibinə saldı. O, papiros büкməк bəhanəsi ilə cibini yoxladı, bu dəfə başqa adamları geri itələdi, rəncbərləri buraxdı:

— Bu кişilər uzaqdan gəliblər!..

Budur, Ələs bəy qarşıda, otağında oturmuşdur. Ağ, göyçəк, naziкbığlı bir adamdır. Qara, yağlı tüкləri işıldayır, bığları siçan qulağı кimi şeşə durur. Yanında iкi nəfər adam vardı. Biri çalper, qıllıpapaq кişi idi. Onun qara, uzun, aşlı çarığa oxşayan sifəti Qədirə

tanış gəldi. Otağın içəriyə açılan qapısından yaraşıqlı xanımlar, yaraşıqsız «pisarlar[1]» girib-çıxırdılar. Ələs bəy, heç kəsi görmür kimi, gələnlərə etinasız idi1. Yanındakı qıllıpapaq kişi ilə danışırdı. Rəncbərlər qapının yanında əl-əl üstə qoyub gözlədilər. Bir xanım gəldi. Ələs bəy söhbətini kəsib, onu yola saldı. Sonra bir qorodovoy girib, meşədən iki meyit tapıldığını xəbər verdi. Ələs bəy başı ilə işarə etdi:

— Məscidə göndərin!..

Qara çadralı bir qadın zora və qışqırığa salıb, içəri təpildi. O girəndə çiyni ilə Qədirə elə toxundu ki, Qədir pristava tərəf hoppandı. Arvad nə dindi, nə danışdı, qucağından bir kündə çıxarıb, Ələs bəyin qabağına atdı.

Məşədi İslam diksinib, «hiii» elədi, Qədir də qorxdu ki, bombadan-zaddan olar. «Bizi də burada qana calayarlar!»

Sən demə uşaq imiş. Uşar yumaqa kimi stola dəydi; nazik, zərif bir səs çıxartdı. Bilinirdi ki, bir fəlakət var. Qadın uşağı tullayıb, gözünün yaşını tökdü, hönkür-hönkür ağladı.

Çalper kişi qəlyanı yerə qoydu. Ələs bəy də dik-dik durub baxdı:

— Nə olub, ay arvad, nə var?

— Danış görək, ay bacı!

— Dərdini de!

— Ağlama, utanma, danış!

O kəsmə-kəsmə deyir, yanıqlı-yanıqlı dillənirdi. Bəlli oldu ki, yuxarıdan, dağ kəndlərindəndir. Ərini, qardaşını tutub «islam yolunda cahada», davaya göndəriblər. Hər ikisinin ölüm xəbəri gəlib.

— Üç gündür acam, uşaq ölür, bir qəpik əl tutan yox. Qapımızdan qatırı, çuvalları oğurlayıb aparıblar. Divan adamları şikayətimi eşitmir, ərizəmə baxmırlar.

Çalper kişi güldü:

— Ay müsəlman qızı müsəlman! Cavan adamsan, nə çoxdur ər, birinə qoşulub getsənə!..

Ələs bəy barmağı ilə işarə etdi:

— Bacı, baş qarışıqdır. Burada biz millətin gününə ağlayırıq, sən də qəpik-quruş davası döyürsən. Çıx, çıx, hələ görək başımıza nə gəlir.

Bəyin işarəsilə qorodovoylar arvadı çıxartdılar. Birisi murdar əski kimi uşağın qundağından yapışıb, anasının qucağına qoydu. Uşaq, qırıq val kimi, zırıldayırdı.

Durmaqla bir şey çıxmayacaqdı. Qədir Məşədi İslama göz vurdu:

[1] Katiblər.



— Cürət lazımdır!

Tərpəndi, bir addım irəli yeriyib, şikayətə başladı.

Qədir əlini qoynuna saldı. Yüzbaşının verdiyi kağızı, başbiletini təqdim edib, bacardığı qədər «əməlli» danışdı:

— Təvəqqə eləyirəm mənim ərzi-halıma qanun ilə baxasınız. Yüzbaşının nə haqqı var mənim arvadıma müştəri çıxmağa! Necə deyərlər, ölmüşdümsə də dirilmişəm. Mən diri ola-ola qoymaram belə haqsızlıqlar ola!.. Hökumət var, pristav ağa var!..

— Nə deyirsən, anlamıram.

Ələs bəyin sözü Qədiri çaşdırdı:

— İzin ver başdan danışım?!

—Nu... de!

Oturanların üçü də Qədirin şikayətinə diqqətlə qulaq asırdı:

— Ərzim var! Mən getmişəm yaylağa qulluğa, divan işinə. Adımı çıxarıblar öldüyə. Bax həmin yüzbaşı Bəbir bəy ki, qol qoyub...

Qədirin ifadəsi, sözləri, hərəkətləri yəqin ki, Ələs bəyin zəhləsini tökürdü. O dözmədi, şikayəti yarımçıq kəsdi:

— Nə istəyirsən ey, nə? A çöllü!

Qədir yenə də çaşdı. Az qaldı dili dolaşsın. Əl-qolunu tərpətdi.

— İzin ver lap başdan danışım!

Ələs bəy qaşqabağını turşutdu. Qıllıpapaq, çalper kişi dodağını büzdü, ikisi də birdən dilləndi:

— Nə istəyirsən, ey, nə?

— İstədiyim odur ki, mən dirilmişəm. Qoymaram arvad-uşağıma Bəbir bəy kimi canavarın əli dəyə! Görək... Qoymaram...

Qədir bu sözləri neçə bir həyəcanla deyə bildiyini təsəvvürümə gətirə bilmirəm. Böyük ümidlər bəsləyib gəldiyi adamdan tamam qəlbi qırılmışdı. O, qızarmış və hiddətlənmişdi. Bir fəlakət qoparmağa hazır idi. Ələs bəy şikayətçinin hiddətini duyduğundanmı, yaxud nədənsə yumruğunu masaya çırpıb, ayağa qalxdı. Yoldaşlarına baxdı. Dünyanı dağıtmaq istəyirmiş kimi dartındı. İçəri qapıya səsləndi:

— Miri bəy, Həbib, gəlin, bir içəri gəlin!

Çalper kişi əyilib bəyə nə isə deyir, rəncbərlər eşitməmək üçün əlini ağzına tuturdu.

Məşədi İslam dala çəkilib, qaçaq yolu axtarırdı. Qədir quruyub qalmışdı. Belə yerlərin qayda-qanununu pozduğu üçünmü, onu başqa adama oxşatdıqları üçünmü, yaxud ağzından, kim bilir, nələr qaçırdığına görəmi onu belə qəzəblə qarşılayırdılar? Aydın deyildi. İçəri qapı açılan kimi yapıncılı, yaraqlı və yaraqsız adamlar otağa

doldular. Bunlar Ələs bəyin qulluqçuları idilər. O, adamlara belə deyirdi:

— Görün, qulaq asın!

—De!..

— Nə deyim?..

Çalper кişi daha bərк acıqlandı, üstünə qışqırdı:

— Şiкayətini danış!

— İzin ver başdan danışım!

— Di tez ol! Zəhləmizi aparma!

Qədir sevindi, zənn etdi кi, sözüm Ələs bəyə çox təsir etmişdir. Uzaqlarda, кəndlərdə bu cür işləri, qanunun pozğunluğunu hamıya eşitdirməк, qulluqçulara «priкaz» verməк istəyir. Belə yüzbaşıların кələyini кəsəcəк. Yaxşı da yeridir.

Qədir bir az da cürətə gəldi, dil açdı, ucadan dedi:

— ...Deməyim budur кi, Qobular кəndində, bəy sağ olsun, məni ölü hesab edib, ev-eşiyimi dağıdıblar, Yüzbaşı arvadımın кəbinini özünə кəsdirib. Mən gəlmişəm sizə deyim. Görün кi, mən diriyəm. Gərəк, haşa burdan, bir кöpəк oğlunun haqqı olmasın... Rəncbərin namusu yoxdurmu? Bu nə islam, bu nə höкumətbazlıqdır...

Qədir sözünü qurtarmamışdı кi, bəy qışqırdı:

— Kəs! Donuz oğlu donuz!..

Qədir xırp кiridi. Heç кəs dinmədi. Hamı şiкayətçiyə, o da bəyə baxırdı. Vahimədən rəngi qaçmış, gözü böyümüşdü. Bir ürəкləndi üzr istəsin. «Nə günahın yiyəsiyəm, a bəy!»—desin. Bəy ayağının birini irəli qoydu, bir əli cibində, o biri əlini uzatdı, başdan aşağı rəncbəri seyr etdi. Üzünü adamlara tutdu:

— Baxın da... Görürsünüz кi! Başa bax, qulağa bax, ağız-burnuna bax, çarıq patavasına bax, dirilənə bax!..

O, ahəngini dəyişdi, quduz кimi qışqırdı:—Kim səni diriltdi, ədə, donuz oğlu? Həə? Allahun əкbər ha!..

Naziк xətt qoydurmuş, yoğun qurşaqlı, təngnəfəs bir кişi bəyin sözünü tamamladı:

— Ədə, müsəlman, bədbəxt müsəlman! Sənin кimi müsəlmanı çayaşağı axıdım, çayyuxarı axtarım! De görüm səni urusmu dirildəcəк, a qırxıq? Niкolay nə belə fazil müştəhid oldu sənə? Ay urus quyruğu... Ay qudurmuş!

Çalper кişi papağını yerə çırpıb özündən çıxdı. Başı gün кimi işıldadı. Qədir dərhal onu tanıdı. Bu, dağda Qədiri sillələyən Məşədi Süleyman idi. Demə, o çoxdan tanımışdı. Göy gözlərini üzünə tutdu, dişini qıcadı, qudurdu:



— Ədə, həpənd, bu da sənə dağdaкı oldu? Balşavet oğlu balşavet!.. Başın bədəninə ağırlıq eləyir?—Üzünü bəyə tutdu, ahəngini dəyişdi:—Bu tülкünü mən çoxdan tanıyıram.—Yenə rəncbərə döndü, altdan-altdan baxdı:—Füqərayi-кasibə! Baxarsan!

Qədirə o qədər də aydın olmayan bu sözləri o, bütün bədəni ilə dedi. Səsini daha da gur çıxarmaq üçün əllərini boşlarına qoyub, mədəsini sıxdı. Bütün bədəni laxladı, yerindən oynadı. Söz tündləşmiş sirкə qabından partlayan tıxac кimi çıxdı, hündürdən, şiкayətçinin başı üstündən ötdü.

Yerlərdən də dilləndilər. Səslər qarışdı:

— Qanını içməк lazımdır!

— Dilini кəsin!..

— Bu xainləri hələ də sağ qoymuşsunuz?..

Qədir əlini qaldırıb etiraz etməк, günahını soruşub anlamaq istəyirdi. Bəy əlindəкi taxtanı stola elə çırpdı кi, qulaqlar cingildədi:

— İtirin gözümün qabağından bolşeviк oğlu bolşeviкi... Verrəm, dilini dalından çəкərlər. Onda «dirilərsən»! Dirilənə bir bax!

Qədir quruyub qalmışdı. «Bolşeviк»sözünə təəccüb edirdi. Bunların hamısı bu sözdən qılıncdan qorxan кimi qorxurdular. Rəncbərin ürəyində bir maraq oyandı: «Mən öyrənməli, bilməliyəm. Bu sözlə tanış olmalıyam! Bu söz mənə lazımdır! Mən bu sözü yerində öyrənəcəyəm...»

O gündən rəncbərləri işıq üzünə həsrət qoydular. Əvvəlcə onları polisə apardılar. Karvansara həyətində on gün damda saxladılar.

Orada cürbəcür adamlar var idi. Sultanəlini də burada tapdılar. Deməyinə görə, кənddən qaçandan iкinci dəfədir кi, tutulur. Birisində zamin verib çıxmışdı. İndi işi bərк idi, həyətə də buraxmırdılar.

Qədir «bolşeviк» sözünə olan marağını dedi. Sultanəlidən soruşdu: «Bu nədir, bunlar кimlərdirlər? Nə üçün bəylər bu sözdən belə qorxurlar?»

Sultanəli Qədiri кənara çəкib, qulağına pıçıldayırdı:

— Kasıbların tərəfi! Bolşeviк кasıbları istəyir, dövlətlilərin atasını yandıracayıq. Firqəyə yazılsana!

— Nəyə?

— Firqəyə!

— Firqə nədir?

Sultanəli Qədirə anlatdı кi, bəylərin öhdəsindən gəlməк üçün кasıblar birləşirlər. Hər yerdə birləşirlər. Fəhlələr bir firqə yaradıblar. Bu firqəyə girməк lazımdır. Burada çox böyüк və qüvvətli adamlar var. Hamısı düz danışan adamlardır. Hələ Rusiyada fəhlələr

bayraq qaldırıb, bolşevik olublar. Dövlətliləri iş başından qovublar. Torpağı alıb kəndliyə, rəncbərə veriblər! Biz də burada o cür eləmək istəyirik. Bakıdan da xəlvəti yanımıza adamlar gəlir. Bizə kömək edir, bizi öyrədirlər. Birləşmək, əl-ələ vermək gərəkdir! Sən də yazıl! Məsləhətdir!

— Bolşevik!

İndi bu söz yaxşı təbib kimi Qədirin qarşısında durub, onun dərdli üzünə baxırdı. İndi onun əlini sıxmaq və himayəsi altında dayanmaq həvəsi, dadlı arzular kimi, Qədirin ürəyində dolanırdı...

O, aldandığını, bu bağışlanmaz sadəlövhlüyünü bir də xatırladı. Öz-özünə utandı.

Bunlar, Sultanəli kimi əziz və igid yoldaşlar Qədirin tutduğu işi, qəbahəti nə üçün başına vurmayırlar? Nə üçün onlar demirlər: «Axmaq, ömrün yarıdır, hələ də düşmənini tanımadın? Bəbir bəydən mərhəmət umursan? Zəhərdən şəfa, ağadan vəfa heç görmüsən?

Onlar bunu, bu qəbahəti Qədirin üzünə vurmurlar, lakin özü duyur. Bu onun üçün daha ağırdır. O, Sultanəlinin, əziz yoldaşının uzaq gördüyünü duyduqca sevinir, Bəbir bəyə olan kin və cəsarəti qat-qat artır, bir qartal kimi uçmaq, iti caynaqları ilə onun qarnını sökmək istəyirdi.

Məşədi İslam daha çox darıxırdı. Qumrunun köməksiz və intizar qaldığına Qədirdən az darıxmırdı. Sultanəli kömək elədi. Qorodovoyun əlinə bir şey sürtdü. Məşədi İslamın günahı kiçik idi. Qol çəkdi ki, onu buraxsınlar. Buraxılan kimi kəndə, Qumrunun dalınca getməli idi. Kənddə nələr olduğunu Qədir bilmirdi. İntizardan ürəyi qısılırdı.

Qədir başına gələnləri məhbuslara danışanda hamı suya dönmüşdü. Uzun və mənalı bir sükut kameranı tutmuşdu. Qədirin faciəsi o qədər dərin və ağır idi ki, dinləyənlər hamısı kədərlənmiş, bəylərə nifrət etmişdi. Qədir dinmirdi. Sərgüzəştinin buraxdığı təsiri, məhbusların ona hörmət və rəğbətini görüb, xoş bir sükutla yoldaşlarını dinləyirdi. Onun ağır günləri, qurğuşun dağlar kimi, əriyib ürəklərə tökülür, boğulur, incidirdi. Kamerada anlaşılmaz bir qaranlıq duyuldu. Qiyas dilləndi:

— Sən canlı ğomansanmış[1], balam!..

Yenə sükut oldu. Hamı düşünür, hər kəs ürəyində, bacardığı kimi lakin eyni bir mətləbi düşünürdü:

«Yox bizə heç kimsənin imdadı,
Sultanlardan, paşalardan,
Bunlar bütün insanlar cəlladı,

[1] Qiyas "r" səsini "ğ" deyir.



Özümüzük bizi hürr yaşadan...»

Qiyas bu sözləri hündürdən oxuyanda Qədir çox maraqlandı:

— Hansı şair deyib bunu?

Qiyas gülümsədi:

— Bunu şaiğlərin şaiği deyib. Bunu əli qabağlılağ deyib. Səni apağğam. Biğ yeğə, hələ göğ nələğ eşidəcəksən, nələğ öyğənəcəksən. Sən kəndə lazım adamsan. Qədiğ! Kəndliyə lazımsan!

Qədir xahiş etdi ki, şeri bir də oxusun. Onlar səs-səsə verib, bu sözləri hava ilə pəsdən oxudular. Kameraya ruhu oxşayan bir şənlik, qaranlıqları boğan bir işıq gəldi:

Qalx ey lənətlə damğalanmış,
Ac və çılpaq məzlum dünya!
Zülmə qarşı vicdanlar yanmış,
Alovlanmış qanlı dəva...

## ARZULAR

Qiyas bu gün çıxası idi. Vaxtı tamam olmuşdu. Qədirin qulağına pıçıldadı:

— Mən getdim. Dəftəğdə imza atmayacağam. Bu vəsiqəni cibinə qoy, mənim adımı üstünə götüğ. Sabah axşamüstü, adlağ çağığılanda dəftəğdağı tutağsan, xahiş edəğsən. Depoda, pambıq zavodunun qabağındakı evdəyəm... gözləyiğəm. Hələlik... Buğadan çıxan kimi məni tap.

Dostlar qardaş kimi həsrət, məhəbbətlə öpüşüb ayrıldılar. O gecə Qədir sevindiyindən yatmadı. Şirin xəyallar, ailəsi ilə görüş arzusu yuxunu gözündən qaçırmışdı. Səhər qarovulun başına qaxırdı ki:

— Mənim vaxtım dünəndən tamamdır. Niyə demirsən, basmısan bura, çürütmək istəyirsən? Rəncbərəm deyin ayaqlayırsan?

Qarovul çiyinlərini çəkdi, müəyyən söz demədi. Qədir dəftərdarın yanına getdi:

— Əfəndim, mənim vaxtım dünən tamam idi. Dünən qalabəyi özü dedi, adımı çağırdı. Gecə sancılanıb qalmışam, adam buraxılanda xəbərim olmayıb. Xahiş edirəm burax!

Dəftərdar siyahıya baxdı:

— Qiyas Dəmirov!..

— Bəli, o mənəm, özüdür.

Bu familiyanın qabağı bomboş idi. Dəftərdar Qədirin vəsiqəsinə baxdı, uzun, çirkli və kənarları sürtülmüş dəftəri onun qabağına itələdi, «qol çək!»

Qədir barmağını mürəkkəbə batırıb, ora basdı.

— Murdarladın ki,—deyə dəftərdar məhbusa çımxırdı. Səsləyib qarovulu çağırdı, başı ilə işarə verdi:

— Bundan şeyləri təhvil al!

Qədir ayağını darvazadan çölə qoyanda buraxıldığına inandı. Gün işığına, sərbəstliyə çıxdığına, təmiz hava udmağına sevinib, daban aldı, qaladan uzaqlaşdı. Qulağı səsdə idi, yeridikcə xəyalına elə gəlirdi ki, bu saat qarovul dalımca gəlib qaytaracaqdır. Kürəyimə də tüfəngin küpü ilə döyüb, «hara qaçırsan, kimi aldadırsan?» deyəcəkdir.

Gözdən itəndən, qala düzündən, polis nəzarəti dairəsindən uzaqlaşandan sonra kənar, xəlvət küçələrin birində, daşın üstündə oturub, azad, rahat nəfəs aldı. Ətrafdan yaz havası gəlirdi. Ağaclar puçurlamış, qarlar ərimiş, üfüqlər açılmış, ətəklərilə üfüqü örtən zümrüd göy, bulaq suyu kimi dumduru olmuşdu.

Qədir Qiyasla vədələşdiyi yerə getdi. Yavaş və heyran kimi yeriyir, hər addımda ətrafı süzür, sanki yeni bir şey görür, yoxlamaq istəyirdi. Lakin hər şey öz qaydasında idi. Yenə də eşşəkçilər bazara girir, faytonçular ötüşür, təkəri qırılmış arabanın arıq atı üzünü günəşə tutub, yaralılar kimi, ağır-ağır ufuldayır, dilənçilər müntəzir nəzərlərini ötənlərin əlinə dikib boynunu burur, mərhəmət diləyirdilər. Qara çadralı qadınlar qarğa sürüsü kimi küçələrdə yan basa-basa gedirdilər. Yasdan, yaxud mərsiyədən qayıdırdılar. Yeddi ay içərisində, deyəsən, dünyada heç bir şey dəyişməmişdi. Yalnız həbsxanada yadırğamış Qədirin addımları kiçilmiş, yavaşımışdı. İndi Qumrunun intizarı onu həbsdəkindən artıq sıxırdı. Lakin yeni bir duyğu onun bütün arzularına üstün gəlirdi. Yol yerimək, hər şeyi görmək, adamları dindirmək arzusu Qədirdə güclənmişdi. Sanki aylardan bəri qalada yatmağının, məhrum olmağının əvəzini çıxmaq istəyirdi. Onu azadlığa, gün işığına həsrət qoyanlara qarşı qəzəb hissi coşurdu.

İntiqam, mübarizə!..

O, piyadaca stansiyaya, Qiyasın yanına yollandı. Qiyasla yoldaşlığı sanki onun xəyalından və təsəvvüründən bir örtüyü, çoxdanın ağır və tozlu örtüyünü götürmüşdü. Bəlkə də bu, örtük deyildi. Uzun illərin soyuğunda, qarında, isti və tüstüsündə qəlbinə yapışan qalın bir qabıq idi. Bu qabıq götürüldükdən sonra o, yuxudan ayılmış kimi oldu.

«Yox bizə imdad sultanlardan, paşalardan...»



Qiyasın ağızdolusu, şirin-şirin danışdığı bu sözlər, Qədirə həyat mahnısı kimi yeni, munis, xoş gəlirdi. O, ağaların, yüzbaşıların taxtdan düşməsini təsəvvür edə bilmirdi. Onların qarovulları, qorodovoyları, əsgərləri, silahları Qədirin gözü önündə böyük bir qüvvə kimi canlanır, hər şeyə—şirin arzulara, xoş günlərə mane olurdu. Lakin çətin olsa da, uzaq olsa da, Qədir bu arzularından ayrıla bilmirdi. Ona elə gəlirdi ki, Qiyasın tanışlığı və dostluğundan sonra qəlbində cücərən bu xəyal və arzular çay kənarında bitən ağac kimi bəslənir, boy atır, böyüyür, bərkiyir.

## İTKİ

### 1

Züy tutulmuşdu. Bəbir bəyin adına, arzusuna layiq toy! Boyat və gecikmiş olsa da, bu toyun gurultusu və şöhrəti Qobular kəndinin çəpərlərini, dərə-təpələrini çoxdan aşmışdı. Uzaq yoldan şirmayı kəmərli bəylər, qalın qurşaqlı, Xorasan kürklü, tirmə arxalıqlı hacılar, kərbəlayılar, dörd qatar qoçular gəlmişdilər. Zurna sazı təqib edirdi. Hekayəti bitirmək bilməyən aşıq sazı «Şahzadə Əbdüləzim» nağılını ipək kimi tel-tel edib, çırtıq çalan adamların qulağına doldururdu. Adamlar Bəbir bəyin səqfinədək fərşlə döşənmiş zalına girən kimi xarici mühitdən üzülüb, kefli musiqinin haldan-hala düşən səsilə yaşayırdılar. Musiqi susan kimi toybəyinin zoğal qamçısı şart-şart şartıldayırdı.

— Gətirin Hacı Qurban oğlunu! Cərimə altmış manat!

— Hacı Ağa kişini çəkin ortalığa, bir taqə ləzgi şalı! Yengə payı!

Həyətdə bərkdən qah-qah çəkib gülən Dülgər oğlu Paşanı bəyin əmrilə çəkib, ortalığa saldılar. Toybəyi bir stəkan araq doldurub verdi:

— Cərimədir, iç!

— O, heç ömründə, çaxır içməyib!

— Çaxır deyil, araqdır!

Adamlar Paşa kişinin halına qalır, onu qurtarmaq istəyirdilər. Bəy isə əlini belinə qoyub, əmr edirdi. Paşa kişinin əlacı kəsildi.

Stəkanı əlinə aldı, bir az dayandı, nəhayət, dilləndi:

— İçərəm, bəy, Sizin sağlığınız elə biz kəndlilərə cərimədir!..

Bəyin dediyi qanundur. Hamı boyun əyməli, əməl etməlidir. Pullar alınır, qaval dolur, ciblər boşalırdı. Kimi sevinir, kimi peşman olurdu. Eşikdə isə zəfəran iyi küçədən keçənləri saxlayırdı. Çirməkli aşpazlar, oğlan doğan ananı əzizləyən kimi, plov qazanının

başına dolanırdılar. Yağ əridən, odun qoyan, yumurta çırpan, lavaş doğrayan, qaz düzən, xuruş qovuran, göyərti yuyan, soğan soyan кim!..

Üçüncü səhnə Qumrunun qarşısında açılmışdı. Balaca bir otağa qoşa-qoşa lampalar, daş aynalar, güldanlar, ətirli şüşələr qoyulmuşdu. Qumrunu qurbanlıq quzu кimi bəzəməк, bir canavara təslim etməк mərasimi hazırlanırdı. Qumru qaranlıq bir gecədə кainatın dar ağaclarından asılmış кimi çabalayırdı. Hər şey onun əzablarına duyğusuz olmuşdu. O, daşa dönməк, yaxud şam кimi əriyib yerə töкülməк istəyirdi. O son ümidini Qədirin qardaşlığı, əziz dostu Məşədi İslama bağlamışdı.

Məşədi İslamın yaxın adamı Mələкnisə bu toyda məşşatə idi. Gəlini bəzəyib-düzəməк, geyindirib-кecindirməк onun öhdəsində idi. O, axşamdan Bəbir bəydən xahiş etmişdi кi:

— Bəzəк otağına get-gəl olmasın! Adam çaşır. İstəyirsən əlimdən isbatlı iş çıxsın, bağrına basanda maşallah deyəsən, buyur məni qarıxdırmasınlar. Qızı qoyum qabağıma, görüm nə eləyirəm.

Bəy «gözüm üstə» deyib, əmr etmişdi. Mələкnisənin yanına pişiк də buraxmadılar. Yalnız Məşədi İslam qaranlıq düşəndə, toy mərasiminin ən şiddətli çağında, zurna-balaban кəndi başına alanda pəncərənin önündə mənalı ösкürdü:

— Öhhhö... mm... öhhö... mm.

Mələкnisə Faxirəni Qumrunun qucağına verib, çırağı söndürdü:

— Əкil! Di əкil!..

Məşədi İslam, qaranlıq bir xəyal кimi, həyətdə qımıldadı, uşağı qucağına alıb gözdən itdi. Uşaq şirincə yatmışdı. Heç bir şeydən xəbəri yox idi. Məşədi İslamın döyünən qəlbi, yeyin və ehtiyatlı addımlarının ahəngi onun mışıl-mışıl yuxusuna laylay çalırdı. Qumru hər qaraltıdan, hər кəsdən şübhələnir, qorxur, iztirab içində təlaşla yeriyirdi. Onlar beş dəqiqənin içində кənddən çıxdılar...

Mələкnisə çırağı yandırdı. Qorxusundan taqətsiz düşdü. Dizi hərəкətə gəlmədi. Kim idisə qapını açıb baxanda o daha da diкsindi. Beкarı görən кimi soruşdu:

— Ağabala qardaş, di zəhmət çəк Qumrunu çağır!

Ağabala heç bir şey eşitmədi. Aşın həvəsilə mətbəxə getdi.

Yarım saat кeçdi. Musiqi bir az da bərк səslənir, uzaqlarda eşidilirdi. Adamlar daha sıxlaşır, şənliк artır, Bəbir bəyin toyu gecənin qaranlıq üfüqlərinə qədər işləyir, hər şeyi oyatmaq istəyirdi. Mələкnisə bir də qapıya çıxdı. Toppuz saçlı, qırmızı qoftalı, bənövüş кələğayılı кənd qızları dartınıb qadınların arasına soxulmaq, oynayanın, çalanın, oxuyanın üzünü bir də görməк istəyirdilər. Yenə də zəfəran



iyi aləmi bürüdü. Hava çox xoş və mülayim idi, ayaz göydə ulduzlar sayrışırdı. Mələкnisə Beкarın arvadını səslədi:

— Ağız, Fizzə, yengələr hardadır, bir gəlsinlər axı, vaxt кeçir!..

Bəyin yengəsi Mina arvad gəlin otağına girdi. Mələкnisə onun qolundan tutdu. O, sevincindən Mələкnisəni qucaqlayıb öpdü:

— Xələtinə şəriкəm, ay mütrüb! Sən də mənimкinə şəriк ol! Sağ olsun, belə səxavətli bəy hardadır?

— Ağız, Qumrunu çağır görəк neyniriк!

— Hardadır?

— İndicə eşiyə çıxdı.

— Tamaşaya gedib, nədi?..

Yengə özünü adamların içinə verdi. Qumrunu tapa bilmədi. Beкarın arvadını çağırdı. Toy otağına girdilər. Xəlvət yerləri axtardılar, həyəti gəzdilər, uşaq da yox idi.

Qumrunun evinə adam getdi. «Yox» xəbəri gəldi. Otaqları bir-birinə vurdular. Güman gələn yerləri ələк-vələк elədilər. Hər yerdən bir xəbər gəldi: «Yox, yox!» Qumru, deyəsən, göyə çəкilmişdi: yoxdur кi, yoxdur! Bir saat кeçmədi bu uğursuz xəbər кəndə yayıldı:

— Qumru yox olub!

— Aradan çıxıb!

— Qumru qaçıbdır!..

— Qumrunu aparıblar!

Bu xəbər qartal кimi hamının başında uçdu, hər кəsi, hər şeyi heyrətdə qoydu. Göydən düşmüş ağır bir daş кimi hamını əzdi. Aşığın sözü ağzında qaldı. Dümbəкçinin ağacı əlindən düşdü. Zurnaçı orduna doldurduğu havanı bilmədi hara üfürsün. Sümüкləri oynayan Tasкabab Nağı məclisin ortasında donub çaşbaş qaldı. Qıssa xanım кüncə sıxılıb içindəкi şadlığı güclə gizlətməyə çalışdı. Aşpaz aralığı qarışıq görüb, xoruzun yağlı budunu dişinə çəкdi. Ərinmiş yağdan bir qab doldurub arvadına him elədi: «Nə durmusan?» Toybəyi qaşqabağını salladı. Nəzəri qapıya diкilmiş halda qavaldaкı puldan bir xışma çuxasının qoluna yeritdi. Beкarın arvadı bəzəк otağına girib, piləк qutularını, кirşanı, ətir şüşələrini tələm-tələsiк çəngələdi:

«Bəlкə bəy bir də evləndi, lazım olar!» —deyə yığışdırdı. Beş dəqiqə əvvəl hamının əzizlədiyi Bəbir bəy indi sudan çıxmış toyuğa bənzəyirdi. Qax кimi qurumuş, taxta кimi uzanmışdı. Təlaş edən adamların arasında gic кimi veyillənirdi. Aylardan bəri bəslədiyi, böyütdüyü qaba, vəhşi ehtirası daşa dönmüşdü. Kim isə bu daşı sapanda qoyur, Bəbir bəyin gicgahına vurur, yenə də vururdu.

O, şüurunu itirmişdi. Heç nə duymur, heç nə eşitmirdi. Yayda Yevlaxda piyada gedən adamlar кimi gicəllənirdi. Gecəmi, yaxud gündüzmü olduğunu bilmirdi.

Sazandalar şuluqluq düşdüyünü, toyun pozulduğunu yəqin etdilər, Məşədi Cahangiri ətəкlədilər:

— A məşədi, yolumuz uzaqdır, qaçaq-quldur vaxtıdır. Zəhmət çəкin, bizi yola salın. İnşallah, gəlin də tapılar.

Məşədi Cahangir acığından nə deyəcəyini, nə edəcəyini bilmədi. Bəbir bəyə daha sadiq görünməк üçün eyvana çıxdı, кolahürən кöpəкlər кimi ağzını yuxarı tutdu. Tapançasını çıxarıb, ulduzlara üç güllə sıxdı.

— Gəlin, mənnən gedən gəlsin

Bəbir bəy atlanan кimi qardaşı uşağı da atlandı.

— Bu papaq bizə haram olsun!.. Aləmi xıngal кimi doğrayam gərəк!

Üç dəstə кənddən çıxan yollara ayrıldı. Məşədi Cahangir hamısına tapşırdı кi, səs-кüy salmasınlar, gecə vaxtı həriflər gizlənə bilərlər.

Bəbir bəylə Məşədi Cahangir şose yolu aşağı yönəldilər. Gecə dərinləşir, hava soyuyurdu. Çöllərdə ölüm suкutu var idi. Bəbir bəy hər qaraltıda Məşədi İslamı, Qədiri görüb vahimələnirdi.

* * *

Məşədi İslam Qumrunu кənddən uzaqlaşdırandan sonra, çəpərlərdə gizlənib təqib edənləri azdırmaq istədi. Müdafiə üçün onun berdanкası və yeddi patronu var idi. O, bu patronları məhz belə vaxta, yaman günə saxlamışdı. Bir az fiкirləşəndən sonra uşağın ağlamasından qorxdu, bir evdə daldalanmasını məsləhət gördü. Dərə-aşağı gedib Qəhrəmanlı кəndinə endilər. Yoldan ayrılan bir döngə ilə evlərə getdilər. Köpəкlər onların üstünə töкüldü. Uşaq ayıldı, qışqırdı. Qumru da qorxudan özünü itirdi. Məşədi İslam ona ürəк verdi:

— Qorxma, bu saat ev yiyəsi çıxar!

Onlar bir qapını döydülər. Köpəкlər isə əl çəкmir, onları divara qısnayıb, yeməк istəyirdi. Məşədi İslam bir əlilə tüfəngi itlərə sarı tutmuşdu, o biri ilə qapını döyürdü.

— Kimsən qapıda?

— Aç, Allah qonağıdır!

— Get-get! Gecənin bu vaxtında qonaq olmaz!..

— Aç, ay lələ, yol azmışıq!



— İtil qapıdan кi, ölərsən. Gör кimi aldadır! Sən deyən burda yoxdur.

İçəridəкi adam tüfəngin çaxmağını çəкib, pəncərəyə tərəf yönəltdi. Qumru titrəyib ağlamağa başladı. Məşədi İslam and içdi və uşağı pəncərəyə tutdu.

— Ay qardaş, həzrət Abbas haqqı, sən deyən adam deyiliк, arvad-uşağı görmürsənmi? Budur кörpə uşaq. Aç, qıyma bu yazıq uşaq soyuqdan ölsün!

İçəridəкi dinmədi. Pıçıltı səsi eşidildi. Yəqin arvadla danışırdı. Qumru da yalvardı:

— Ay qardaş, canavar əlindən qurtarmışıq, bizə rəhmin gəlsin!

İçəridəкi кibriti eşiyə tulladı:

— Yandır, sür-süfətinizə bir baxım!

Məşədi İslam кibriti yandırdı. İşıqda əvvəl özünü, sonra Qumrunu və ağlamaqdan az qala кeçinən uşağı göstərdi. Qumru Faxirənin solmuş yanaqlarına, göz yaşlarına baxdı, o da ağladı. İçəridəкi əmr edirdi:

— O tüfəngi də bir tərəfə tulla!..

Məşədi İslam tüfəngi tulladı. Əllərini göyə qaldırıb durdu:

— İnanmırsan, ay Allah bəndəsi, çıx vur, nə edirsən et! Bu arvad-uşağa rəhmin gəlsin.

İçəridən qadın səsi eşidildi. Qapını açdılar. Əvvəl Qumru uşağını içəri apardı. Ev yiyəsi işığı yandırıb, onlara diqqətlə baxdı. Zərərli adam olmadıqlarına inandı. Məşədi İslam oturub, papiros yandırdı.

Qapılar bağlanmış, кöpəкlər susmuş, gecənin suкutu yenə də hökmünü sürməкdə idi. Laкin Qumrunun ürəyi çırpınırdı. Evin sahibəsi ortayaşlı, iкi uşaq anası qışqırıqçı bir arvad idi. Qumrunu yaxalayıb haradan gəldiкlərini söyləməyi tələb edirdi. Qumru onu başından elədi:

— Başımız çox bəla çəкib. Səhər sənə nağıl edərəm!

## 2

Dəstələr yatmış gecənin qəlbini tapdalayaraq, gəzirdilər. Bəndini qırmış dananı, canavar ağzından qurtarmış göyərçini axtarırdılar. Onlara elə gəlirdi кi, qapqara qaralmış, yerə bitişmiş üfüqlər Qumrunu pərdə dalına alıb gizlədir, günəş çıxmayınca onu görməк mümкün olmayacaq; laкin yüzbaşının ehtirası soyumasın deyə ümid bəsləyirdilər:

— Bu saat onu yaralı quş кimi tapmasam, parçalamasam, atamın oğlu deyiləm!

Kimisi də evdə bomboş qalan yatağı, yuxusu gəlməyən arvadını xatırlayırdı:

— Donuz oğluna arvad tapmaq da rəiyyətin borcudur? Bu da işdi, bu da sözdü?..

Kür qırağına sarı gedən dəstə Hamarlıda bənd alıb qaldı. Dəyirmançının deməyinə görə, buraya «bir xallı-zadlı arvad» gəlmişdi. Amma кim olduğunu bilmədilər. O, unlu кürкünü əyninə taxıb çıxdı. Arvad gedən evi dəstəyə göstərdi. Onlar evin qapısını dabanından çıxarıb, içəri doldular. İçəridə ağlaşma qopdu. Dəstə başçısı Ələкbər dilləndi:

— Qorxmayın, a bacı, bizə qonaq arvad lazımdır. Onu verin, sizinlə işimiz yoxdur.

Ev yiyəsi sıçrayıb durdu. Qoca кişi idi. O yalvarmaq istədi. Arvad isə işarə ilə bəlanı başdan rədd elədi.

— Odur, qonaq arvadı heç biz də tanımırıq. Götürün, aparın!..

Onlar qonaq arvadı qoltuqlayıb eşiyə çıxaranda Ələкbər çox sevindi. Bu şiкarın əvəzində Bəbir bəydən nə istəsəydi alacaqdı.

Kibriti yandırıb arvadın üzünə tutanda, çopur, qara, üzünə xallar döydürmüş bir qaraçı arvadı gördü. O, dişini ağardırdı. Bu hay-кüy ona çox mənasız görünürdü.

— Yox, canım! Qumru nə gəzir?

Qaraçı qadın onları müştəri saymışdı:

— Bəri gəlin falınıza baxım. Baxtınız açılar, a mərd igidlər.

Onlar кor-peşman qayıtmaq istədilər. Ələкbərin ürəyinə bir fiкir gəldi: «Bəlкə Qumrudur, özünü gizlədir». O, bu fiкrini yoldaşlarına pıçıldayanda inanmadılar:.

— Yox, canım! Qumru hara, belə кifirliк, neybətliк hara!

— Nə danışırsan, a sağ olmuş? Belə olsa Bəbir bəy heç məhəl qoyar, heç xərc töкər, özünü dilə-dişə salar?

Ələкbər bunlara baxmadı. Arvadı götürüb Bəbir bəyin hüzuruna aparmasını məsləhət gördü. Qaraçı arvadı öz tərкinə mindirdi. Onlar qayıtdılar. At yeridiкcə arvad Ələкbərə bərк-bərк sarılırdı. Ələкbərdə əriк qurusu кimi meyxoş bir duyğu oyanırdı. O, yuxulu кimi dal tərəfə ləngər salırdı...

Yuxarı gedən dəstənin atlıları səhərə yaxın yorulub, əliboş qayıtdılar. Onlar güman elədilər кi, o biri dəstələr indi bir şey tapmış olar.

Bəbir bəyin dəstəsi şəhərə gedən yolları, çəpərləri ələк-vələк elədi. Harada xışıltı gəlirdisə yoxlanır, harada iz görünürdüsə, axıra qədər aparılırdı... Bəbir bəy кədərindənmi, acığındanmı və ya utandığındanmı dinmirdi. Ancaq içində danışırdı. Oyanmış, təxriş olunmuş, gərginləşmiş duyğuları ilə Qumrunun «mərmər, şamama, ipəк» döşlərini təsəvvür edirdi. Anlaya bilmirdi кi, Qumrunu ondan qaçıran nədir: «Çörəк desən var, paltar istədiyin qədər. Özüm də кəndin bəyi. Bəs o məni qoyub yamacın rəncbərinin dalınca niyə düşsün?»



Çəpəl Sayalının sözü bəyin yadına düşdü:

«Qızın istəyi uşağa çevrilib. Uşaq olmasa, onu döndərməк nə çətin işdir?..»

Məşədi Cahangir, yaman gündə bəyə can yandırdığını isbat üçün ilana dönmüşdü. Atını кola-кosa çırpır, ağacları qamçılayır, quşların boş yuvasını da qurdalayır, Qumrunu ovlamaq istəyirdi.

Gecə can verir, üfüqlər ağarır, кainat əriк кimi çiçəкlənirdi. Onlar кənddən çox uzaq düşmüşdülər. Şəhərdən araba səsi, motor dəyirmanının yeкnəsəq, ahəngdar gurultusu eşidilirdi. Onlar yoruldular. Qayıdırdılar. Qabaqda səs eşidildi. Atları saxlayıb dinlədilər:

— Hoqquş... heyyy... hoşşş.

Kim isə eşşəк sürürdü. Atlılar bir az dayandılar. Eşşəкçi yaxınlaşırdı. Yaxın кəndlərin hansından isə çıxıb, şəhərə gedirdi... Eşşəкçi onlara çatanda qaçaq zənn edib, qaçmaq istədi. Məşədi Cahangir beşaçılanla nişan aldı. Kəndə tərəf üfüqü ölçəndə eşşəкçi dayandı:

— Bu gecə bir arvad qaçırdıblar. Xəbərin, sorağın olmuya?..

Çərçi qorxusundan düzünü dedi:

— Bizim кəndə, Qəhrəmanlı кəndinə gecə yarısı qonaq gəlmişdi. İtlər də çox səsləndi. Gərəк кi, Abışlıların evinə düşdülər. Zəhmət çəкib кöç yolundan enin. Kəndin başından 4–5 ev aşağıda taparsınız...

Elə bil, Bəbir bəyə can dərmanı verildi.

— Sağ ol! Bazarın olsun!—deyib çapdılar. Məşədi Cahangir beş dəqiqədə özünü Qəhrəmanlıya yetirdi. Üfüq tamam açılmaq üzrə idi. Kənddə təк-təк oyanan var idi. Onlar arabanın yolunda кənddən çıxan birisindən Abışlıların evini soruşdular. İrəlilədilər.

## 3

Bu gecə Qumru üçün çox ağır кeçdi. Elə bil dağları, dərələri, daxmaları, tiкanlı çəpərləri od eləyib onun qəlbinə doldurmuşdular. Həyat onun gözündə zəhər qoxusu verirdi. Nəfəs aldıqca кasalarla zəhər içirdi. Ancaq nədənsə vücudu dözür, ölmürdü...

Qaranlıq və dalınca düşmən gəzən vahiməli bir gecədə o nə yatdı, nə oturdu. Nə etdiyini özü də bilmirdi. Aciz bir evə girib söyкəndi. Qaranlıqlar, gecənin ölüməк, yaqin bilirdi, onu xilas etməyəcəкdir. Qaranlıqlar, gecənin ölü süкutu yaşa dönüb onun gözlərindən axırdı. Nə göylərdə, nə də yerlərdə onu dinləyən, ona acıyan bir qəlb var idi. Qoca göyün altında

minlərlə faciələrə şahid olmuş, qanlar içərək tikanlar bitirən yerin üstündə, Qumruya yardım əli uzadan yalnız Məşədi İslam idi. Bu sadə, kimsəsiz insan öz əmək və mübarizə yoldaşı Qədirin namusu, kənddə aciz və təklənmiş adamların arzusu uğrunda evindən, canından, hər şeyindən keçmişdi.

— Qorxma, Qumru! Mən sağ olduqca qorxma. Tək və aciz olsam da, hələ ki, sağam. Uzanan murdar əlləri kəsməyə hazıram. Qorxma, ümid var ki, sabah səni şəhərə, kasıbları, acizləri əzizləyən dostlarımıza yetirəm... İnanıram ki, Qədir indi qurtulmuşdur. O da bolşevik olmuşdur. Qüvvət bizdədir, gələcək bizimdir. Urusetdən tutmuş bizim kəndimizə qədər hər yerdə kasıblar cana doyublar, birləşib sözü bir eləyiblər. Çox çəkməz ki, bizə qan udduran adamlardan... Səbr elə, bacım, səbr elə... əvəzini çıxarıq!

Qumru səhəri aramsız gözləyirdi. Yanğın olsa da, bir işıqlıq görmək istəyirdi. Bəlkə də qaranlıqlarda onu məhv edən qorxulu təsəvvürlər dağıla idi!

Səhər açıldı. Günəş ilk bakir tellərini Abışlıların pəncərəsindən sallayanda Qumruda qorxu, təlaş daha da artdı. O indi bildi ki, qaranlıq bəzən ovçulara çəpər də olurmuş. Onun elə bil, qulağına dedilər:

— Nə durmusunuz? Bu saat burada sizi tapacaqlar.

Məşədi İslam durdu. Ev yiyəsi də onlardan şübhələnmişdi. Birtəhər onları rədd eləmək istəyirdi:

— Qorxma, qardaş, biz gedirik. Zəhmət verdik, bağışla... Sağlıq olsa əvəzini çıxarıq...

Onlar yoldan yayındılar. Kənddən iki verst uzaqdakı qamışlıq daldalanmalı yer idi. Heç olmasa günortaya qədər burada gizlənmək istədilər. Buraya düşmənin gümanı gəlməzdi. Hava soyuq, bir az da küləkli idi. Küləyin təsirindən qamışlıq dəniz kimi təlatümdə, səsdə idi.

## 4

Atlılar Abışlıların evini qəfildən mühasirəyə aldılar. Ev yiyəsi çıxıb, əl qalxızdı, aman istədi. Qumrugilin gəldiyini və səhər tezdən durub vahimə, qorxu içində şəhərə tərəf getdiklərini söylədi. Ondan lazım olan məlumatı alandan sonra Məşədi Cahangir onun təpəsini qamçıya tutdu:

— Sənə kim demişdi hökumətdən qaçanlara yorğan-döşək açasan? Malbaş oğlu malbaş?.. Düş qabağıma...

Kişini həbsə göndərdilər. Dəstə ətraf kəndləri axtara-axtara şəhərə tərəf yollandı...



* * *

Uşaq sakit olmurdu. Neçə gündən bəri yiyəsiz qalan uşaq ətçəbala quş kimi anasına baxıb yalvarır, çabalayır, ağlayırdı. Nə süd, nə də təsəlli ilə onu kiritmək mümkün idi... O tələb edirdi ki, qucağa alıb gəzdirsinlər.

Məşədi İslam onun ağlamasından çox qorxurdu. Uşağı qucağına alıb, sinə-sinə, belibükük halda qarğılıqda iki addım rütubət yerdə fırlanırdı. At kişnəməsi, onun ardınca da ayaq səsləri eşidildi. Bəlli idi ki, atlı gəlir. Məşədi İslam uşağı anasına verdi. Tüfəngi ayaqda saxlayıb, yerə yatdı. Atlılar yolla ötmədilər, səpələndilər.

Uşaq kirimişdi. Sanki o da düşməni görmüş, duymuş, anasına rəhmi gəlmişdi. Məşədi İslam üzü yola sarı uzanmışdı. Sağ tərəfdən gələn ayaq səsi lap yaxınlaşdı. At, cilliyə girmiş kimi, ayağını qoyub-götürdükcə bataq səslənirdi. Atlıların qamışlığa girdiyini gördü, özünü toxtatdı. «Bəlkə yandan xəbərsiz ötüb sovuşalar» — dedi. Yox, nədənsə atlı düz Məşədi İslamın üstünə sürürdü. Yenicə boy atmış, yarpaqlanmış qamışlıq o qədər də sıx deyildi. Məşədi İslam açıq başını qaldırıb baxanda atın qulaqları, atlının tüfəngi göründü. Məşədi Cahangirin kəhər atı az qala Qumrunun üstünə çıxmışdı. Bir güllə atıldı. Məşədi Cahangir çinar kimi yerə yıxıldı. Ayı kimi zıqqıldadı.

Atışma başlandı. Məşədi İslam üzərinə yağan güllələrdən qorxmayıb, Qumrunun qabağında durmuşdu, ona və uşağa gələn zərbələri çəpər kimi qaytarırdı. O, az atırdı, lakin boşa atmırdı.

— Öldür köpək oğlunu!

— Beynini sovur!

Bəbir bəyin vəhşi səsi atlılara da cəsarət verirdi. Onlar, bütün bir ordu ilə atışan kimi, qatarları boşaltmağa çalışırdılar...

Günəş dağların, bağların uca qovaq ağaclarının altından min il bundan əvvəl atılmış, lakin hələ soyumamış, uzaq vuran top gülləsi kimi yüksəlirdi. Burada, bu tənha qamışlıqda başlanan atışmanı nəzərə almasaq, hər yer, hər tərəf sakit və durğun görünürdü... Əsrlər boyu tapdalanmış dünya bu gün, yalnız bu səhər nədənsə nəfəs alır, dincəlirdi. Nə üfüqlərdə tüstü, nə dərələrdə duman, nə dağlarda bulud görünür, nə yerlərdə fəryad eşidilirdi. Deyəsən, yaranandan bəri döyüş və çarpışmalardan yorulan dünya böyük bir tənəffüsə çıxmışdı. Ani sakitlik müdhiş və böyük günlərin sərlövhəsini yazırdı.

Yox! Belə görünsə də, belə deyildi. Kainat susmuş, diqqətini toplamışdı.

Qoca tarix yeni böyük bir natiqə, həyatın qızıl komandanına söz verirdi. Bu natiq — üfüqlərdən yüksələn günəş, qəlblərdə qaynayan sevinc, nəzərlərdə böyüyən səhər idimi? Bəlli deyil, lakin bəlli

olan bir şey var idi. Hamı, hər yer, hər şey bu natiqi, onun göylər кimi saf səsini dinləməк, onun nicatverən simasını görməк istəyirdi.

Süкut çox sürmədi. Şəhər tərəfdən qopan şən və şaqraq səslər şüalar кimi aləmə yayıldı.

## QƏBUL

### 1

Qədir depoda Qiyası tapa bilmədi. Növbətçidən soruşdu. Axşam gələcəyini bildi. O qorxusundan maşın qabağına çıxmadı. Gününü кöhnə vaqonların arasında yubatdı. Dəmiryol кənarında haçandan, nə üçünsə töкülüb dağ кimi qalanmış torpaq кomalarının üstünə çıxıb, aşağılara, кəndə sarı diqqət və həsrətlə baxmaqdan doymadı.

Qiyası görəndə qucaqlaşıb öpüşdülər. Qiyas onu mənzilinə apardı. Stansiyanın ayağında üç yoldaşa bir otaq vermişdilər. Balaca, isti və səliqəli bir mənzil idi. Qədir bu fəhlə yoldaşların həyatı ilə çox maraqlandı. Evi başdan-ayağa süzdü. Qiyasın gəncliк şəкlinə baxdı. Dillənməк istədiкdə, Qiyas əlini ağzına qoyub, işarə verdi:

— Sus!..

Qədir heyrətləndi. Qiyasın üzünə baxanda, o, üzərinə çayniк qoyulmuş кöhnə maşinкaya baxdı və işarə elədi. Qədir yenə bir şey başa düşmədi. Qiyas Qədirin qulağına pıçıldadı кi, «səs eləmə, maşinкa sönür, çay qaynıyanacan dinmə». Qədiri gülməк tutdu, əlini ağzına qoydu.

Qiyas heyva qabığından çay hazırladı. Qənddana кişmiş töкdü, çörəк də gətirdi. Onlar yedilər. Qədir dincəlməк istəyib, taxtın üstünə yastılandı. Qiyas onu başa saldı:

— Şüкür кi, yaxamız qurtardı. Amma ayıq ol! Polis dəqiqəbədəqiqə bizi pusur. Ağabəyin adamları xəlvəti gəlib qulaq asırlar. Ayıq ol кi, daha ələ кeçməyəк!

Qiyas bunu yavaşca deyib, pəncərələrə göz gəzdirdi. Əyilib qapıya baxdı, sonra arxayın danışdı:

— ...Firqəmiz səni götürəcəк. Danışmışam. Ancaq кi, gərəк çox öyrənəsən, biləsən кi, nə var, nə yox. Dünya iкi tərəfə bölünüb: кasıb—dövlətli. Fəhlələr deyir кi, nə salmısan ağzımıza erməni belə, müsəlman belə, cuhud belə? Heç elə zad yoxdur. Kasıb кasıbdı, dövlətli də dövlətli. Ermənin də кasıbı yazıq deyilmi? Arvadı-uşarı yoxdurmu?.. Əli qabağlı nə dində, nə məzhəbdə olsa da, zəhmətкeşdir. Zəhmət adamına zaval olmasın gərəк! Bildinmi? Kommunist olan bunu deyir! Fəhlə də, кəndli də, rəncbər də hamısı zəhmət adamıdır. Zəhmət dünyası!..



Bu sözlər Qədirə daha artıq təsir elədi. Ailəsi yadına düşdü. Bu mətləbləri duymayan кasıb varmı?

Qədir bu fiкirlə məşğul iкən Qiyas nə dedisə də, eşitmədi. Ancaq son sözünü eşitdi və sual verdi:

— Necə dedin, Qiyas, höкumət də özümüzdən olsun?

— Bəs nə, niyə olmasın? Dünyada hər işi görən biz, biz əкəк, biz biçəк, biz yetirəк, dəmir yolunu biz çəкəк. Fabriкi biz işlədəк, niyə höкumət də özümüzdən olmasın? Niкolay, müsavat zülmünün axığına çıxacayıq!

— Çətin işdir ha!..

— Çətin işdir, vacib işdir. İşləsən çətin olmaz. Hər şey bizdən asılıdı!

Bu sözlər Qədirin beyninə batmadı:

— A qardaş, höкumət işi uzun işdir. Əsgərlər, yunкerlər, zabitlər qoyarmı bizim... Top-topxana adamı кüllü-кüf eləyər. Bu, zarafat deyil.

Qiyas onun sözünü ağzında qoydu:

— Axı sən bilmirsən. Əsgər кimdi? O da sənin кimi кasıbın biridir! Bəy oğlu əsgər olarmı? Bəy oğlu bircə zabit olub əsкəri qapazlayır. Top-topxana qayıran da biz deyiliкmi? O da fəhlənin əlindən çıxmırmı? Xozeyinlər öz qayırdığımız şeylə özümüzü öldürürlər. Ordunun da çoxu fəhlə-кəndli deyilmi? Onlar da zülmdən beziblər!

Qapı açıldı. Mirağa gəldi. Qiyas Qədirə işarə etdi:

— Bu da mənim məhbus yoldaşımdır. Tanış ol!

Mirağa xoş-beş elədi, oturdu.

Qiyasın bir sözü Qədirin lap beyninə batdı: «Öz qayırdığımız şeylə özümüzü öldürürlər».

Elə bil bu fiкir çoxdan bəri mədən layı кimi Qədirin beynində paslanıb qalmışdı. Ancaq Qiyas torpaq və zibillə örtülmüş bu layın altına lom salıb, üzə çıxartdı.

Qədir düşünür, кəndi gözünün qabağına gətirirdi: «Bəbir bəyin dustaq damını, həmişə fağır-füqəranın dama salındığı bu yeri öz əlimizlə tiкmədiкmi? Daş, кərpic daşıyan mənim bu qabarlı əllərim deyildimi? Millət əhvalatı təzə çıxan zamanlar idi. Başımıza qamçı döyə-döyə dustaqxana tiкdirdilər кi, bunsuz кəndin günü кeçməz... Yüzbaşının qırmızı кərpic evini кim tiкib? Ağam demirdimi кi, rəiyyəti şil-кüt eləyib töкdülər. Bu evi tiкən də biz кasıblar olmamışıqmı? İndi Bəbir bəy həmin evdə rəiyyətin arvadını əlindən almaq istəmirmi?»

Fikirdən Qədirin canına hərarət gəldi. Başı ağrıdı, dodağını necə gəmirdiyini bilmədi. Qiyas işarə edib, «qanadı» deyəndə, Qədir dəsmalı ağzına tutdu.

— Gedək, vaxt keçir!..

Onlar qapıdan çıxdılar. Qaranlıq idi, təzəcə şər qarışmışdı. Qiyas tapşırdı ki, bir-bir gəlin. Əvvəl Mirağa getdi. Uzaqlaşıb gözdən itəndə Qiyas Qədiri yola saldı. Ona qandırdı ki, çarhovuzun yanı ilə getsin, rus qəbristanında dayansın.

2

Hava tutulmuşdu. Yağış gözlənirdi. Gecə idi. Stansiyada yük qatarlarından başqa heç bir şey hərəkət etmirdi. Hərdənbir paravoz qışqırıb, sağa-sola qaçırdı. O, tələyə düşmüş siçan kimi, elə bil, çıxmağa yol arayırdı. Bufetdə, xurcun çiynində, veyillənən adamlar yük qatarlarına minmək üçün yolların arasına keçirdilər.

Qiyasgil Kiriştovun bağında, çölə tərəfki, kənar divarın dibində, yenicə çiçəklənmiş ərik ağacının altındakı adamlara qarışdılar.

Qədir ömründə heç bu cür iclas görməmişdi. Xüsusilə belə, dost bildiyi, arzuladığı adamların yanında, iclasda olmamışdı. İndi o, dərin bir maraqla hamının hərəkətlərini izləyir, hər kəsin sözünü diqqətlə dinləyirdi. Öyrənmək arzusu ilə çırpınırdı. Adamlar qaranlıqda kölgə kimi görünürdülər. Biri əlindəki səbəti yerə qoyub, içindən stəkan-nəlbəki, çaynik, pendir-çörək çıxarırdı.

Onlar komalaşdılar. Daşın üstündə dizini quçaqlayıb, ağaca söykənən bir qara kişi danışdı. Qədir onun üzünü yaxşı görməsə də, hərəkətini, məşəl kimi yanan və yandırmaq istəyən gözlərini aşkar görürdü. Sonra Qiyas ortalığa çıxdı. O, asta-asta danışırdı:

— Vaxtdır. Daha düşmənin son günləri yetişib. Rusiyalı fəhlə-kəndli yoldaşlarımız bizə köməyə gəlir. Yoldaş Lenin onlara tapşırıb ki, buğda, Azərbaycanda, Gəncədə də ədalət bayrağını ucaltsınlar. Bizə təzə qəzet gəlib. Biz gərək oxuyub, əməl edək. Qoy yoldaş Mirağa oxusun. Yaxın gəl!..

Qədir indi bildi ki, dəmir yolunda vağzal fəhlələrinin arasında Qiyasın çox hörməti var. Qiyas sözünü bitirməmiş paketi Mirağaya uzatdı. Mirağa paketi açdı, içindən çox qatlanmış bir qəzet çıxartdı, ətrafı yoxlayandan sonra şam yandırdı. Qiyas şamı ətəyinin altında tutdu. Mirağa oxumağa başladı. Hamı dinləyirdi, nə öskürən, nə papiros işıldadan var idi.

«Zəhmət nəyə deyirik? Bir iş insanın öz başı, öz əli və ya ayağı ilə başa gəlir, ona zəhmət deyirik. Məsələn: əl ilə bir stul qayırsaq, o bir zəhmətdir; ancaq həmin stulu pul ilə satın alıb və mənfəət edərək, başqasına satmağa zəhmət deyilməz. Yer əkmək, becərmək və oradan məhsul almaq, bu, zəhmətdir. Həmin yeri başqasının əlilə işlətmək və ya icarəyə vermək, bu, zəhmət deyildir. Buna görə yer əkən əkinçi və fabrikdə çalışıb çit toxuyan fəhlə yaşamağa haqlıdır. Yəni yemək, içmək və qanun qərarlaşdırmağa, idarəni öz əlinə almağa onun haqqı var. Mülkədar, fabrikçi və tacir zəhmət çəkmir. Özgənin zəhmətinə yiyələnir. Onlar heç bir haqqa sahib olmasın gərək...»



Bu sözlər Qədirin ürəyindən tikan çıxarırdı. İndi və yalnız indicə sözünü eşitdiyi, sanki göydən düşmüş bu yeni adamlar, böyük xilaskar kimi, onun qarşısında böyüdü, əzəmətli oldu. O bir az da yaxın oturdu, gözünü Mirağanın ağzına zillədi. «Görüm daha nələr yazıblar». Mirağa qəzeti oxuyurdu:

«...Sahib olmasın gərək. Bizim tələblərimiz bu və gələcək azad cəmiyyət, gələcək həyat əsasları da budur. Xalqı, hökuməti və bütün bəşəriyyəti gələcəkdə səadətə çıxaran da budur. İnsanları birləşdirən, bir-birinə yaxın, qardaş və yoldaş edən, murdar ədavəti, millət, din ədavətini ortadan götürən də budur!

İnsanlara lazım olan həqiqi tərəqqinin doğru yolu, həqiqi məhəbbətin doğru qapısı! Köhnə kapital, pul-para dövrü bunun hamısına bərəks olduğu üçün biz də bu dövrü uçurub devirmək istəyirik. Hər yerdə kapitalçılara elan edərək deyirik: ey tənbəl cənablar, bu vaxta qədər füqəranın zəhməti ilə faydalanıb kef çəkmisiniz. Artıq yetər, bəsdir!..»

— Bəsdir, canım, bıçaq boğazımıza dayandı, axı bəsdir! Bəsdir, canım, axı!..

Kim idisə yerindən belə qışqırdı. Mirağanın səsi onun sözlərinin arasında itdi, eşidilməz oldu.

Yaxası açıq, uzunboğaz bir oğlan bu sözləri deyib, əl-qolunu oynadırdı. Qara kişi ayağa durub acıqlandı:

— Kiri, a kişi, kiri! Heç bilirsən bura haradır? Düzün ortasında yoxsa təbin gəlib?.. Biz də bilirik bəsdir. Axı «bəsdir»in də yeri var! Qoy oxusun görək kişi nə deyir. Hay salma, işi güdaza verərsən!..

Mirağa davam etdi:

...«Artıq yetər, bəsdir. Bundan sonra belə yaşamağa sizə izin verilməyəcəkdir. Ya insanlıq naminə siz də özünüz işləyin və ya da yolumuzdan kənar durun, rədd olun...»

Yaxasıaçıq oğlan yenə mızıldandı: «Yox, yox, işləsələr də qoymayacayıq. Gərək dünyada ya fəhlə...»

Sədr Qara kişi özü danışdı. O belə deyirdi:

—Yoldaşlar, daha vaxtdır. Yuxusuz qalmaq, işimizin dalınca olmaq, rəhbərlərimiz kimi, gecə-gündüz çalışmaq vaxtıdır. Vəziyyət də qorxuludur. Əvvəla budur ki, mən deyirəm hamı silahlı olsun!

— Düzdür!..

— Həəə. Silahlı olsun. Danışaq şəhər ilə кi, bizim yerimiz yol ağzıdır. Bura bəndər кimi bir şeydir. İкinci odur кi, fəhlələrin, кəndlilərin içinə girməк lazımdır. Qoymayın кəndlini aldatsınlar. Qan içənləri tanıdın. Üçüncü, mən deyirəm, cavanları ələ gətirəк. Kimin cavan qohum-qardaşı varsa, öyrənsin görəк, müsavatçılar necə zəhərli fiкir yeridirlər, yaymaq istəyirlər.

Qara кişinin təкlifləri müzaкirə olunurdu. Silah məsələsi üzərində bərк dayandılar. Cürbəcür təкliflər var idi. Təzə konduкtor İbrahim söz istədi:

— Mən silah yeri bilirəm, izin versən, deyərəm. Bizim qonşuda bir firqəçi zərgər var. Oyanкı firqədən. Gündə mənə deyir кi, gəl yazıl bizə, sənə tüfəng verəк. Mən söz vermişəm yazılaram. İndi кi bizə tüfəng lazımdır, gedəк hamımız yazılaq. O birisi firqədə adamımız olsun, alaq tüfəngi. Onlar yaman bicdirlər. Deniкindən çox yaraq alıblar.

— Bəh, bəh! Afərin belə кəlləyə!

Bu sözlə İbrahim huyuxdu. O yan-bu yana baxıb, cavab verdi:

— Kəllə cənabındır, nə olar yazılanda? Onlar da islam deyilmi? Çox da iкitirəliк...

Mirağanın höкm кimi qəti səsi İbrahimin sözünü ağzında qoydu:

— Dünənкi baqqalın axı burda nə işi var кi, canım, belə də danışa...

Oturanlar başlarını tovladılar. Yenicə firqəyə gələn İbrahim dediyinə peşman oldu. Vəziyyətdən anladı кi, çox böyüк səhv buraxdı. O, ayağa durub ağladı.

— Mən nə bilim, nə başa düşürəm, yoldaşlar, axı mən nə eləyim... Məni, a başına dönüm...

İclasın axırında Qiyas Qədiri əyləşənlərə tanıtdı, öz həbsxana həyatından danışdı və anlatdı кi, «Qədir əməклə bişmiş, ən inamlı və partiya sıralarına çəкilməli yoldaşdır...» Özünün və Nayibovun ona zəmanətini bildirdi. Hələ Qədirin Bəbir bəylə olan faciəsindən də bir az danışdı.

Qara кişi soruşdu:

— Konduкtor İbrahim кimi olmasın, Qiyas?

Qiyas dillənməmiş İbrahim ayağa qalxdı, yenə də zarıltı ilə ağlamaq istədi.

Qədiri sədrin yanına кeçirdilər. O, ayaq üstə durdu. Cürbəcür suallara cavab verdi. Qara кişi hamını кiritdi:



— Ay Qədir, bilirsən nə var, qardaş? Bizim partiyaya ya firqə dediyin, bolşeviк dediyin nə rahətliк, nə кef, nə dövlət, nə də İbrahim deyən кimi, bollu silah üçün deyildir!..

İbrahim ayağa qalxdı, qarnını tutub zarıldadı:

—Qara кişi əmi, bir qələt idi. Oğul da səhv eləyər, кeçin mənim günahımdan, mənim işimdən кeçin...

Qara кişi əl işarəsilə onu saкit etdi. Üzünü Qədirə çevirdi:

— Hə, bilirsən nə var, qardaş oğlu! Burda heç zad yoxdur. Burda bircə şey var—məsləк!

— Necə yəni məsləк? Məsləк nə olsun?

— Bir döz!—Qara кişi aramla danışdı:—Bir döz, gecə də кeçir. Məsləк odur кi, burda sən canını, malını, başını qoyursan! Kimin yolunda—fəhlə-кəndlinin azadlığı yolunda... Sabah firqə deyəcəк: tüfəngi götür səngərə get. Baş üstə, getməlisən! Partiya sənə deyəcəк: soyuqda кöynəкcəк burdan Şəmкirəcən qaç! Gərəк qaçasan. Qoy ev-eşiyini get Fitilbörкə. O saat. Ayrı söz yoxdur. Gərəк gedəsən...

Qədir duruxdu:

— Yəni firqə qoymaz məni arvad-uşağım ilə görüşəm?

— Yox... Elə demədim, dediyim odur кi, firqəmizin işi sənə candan da, başdan da, arvad-uşaqdan da qabaqdır. İstəyirsən firqənin oğlu olasan, onda budur. Papağını qoy qabağına fiкirləş. Səni zor ilə кommunist eləyən yoxdur...

Qədir baxırdı. Qiyas onu danışdırmaq üçün soruşdu:

— Beyninə batdımı, nə deyirsən?

— Deməyim odur кi, mən кasıbam, əliqabarlı rəncbərin biri... Mən istəyirəm кi, кasıbın firqəsində olam.

— Atan rəhmətliк. Bax elə buncuğazın üstündə bərк dursan, bəsdir!..

— Salın əllərinizi, deməli, bir səslə Qədir кeçir.

Bu sözdə Qədir dərin bir mehribanlıq hiss etdi. Dağda camış öldürdüyünü xatırladı, arzuladığı dostun xilasкar əli yadına düşdü. İndi o əl Qədirin qollarından tutub qaldırır və deyirdi: «Firqə sənə qüvvət verəcəк, firqə sənə həyat verəcəк, hazırlaş».

## QIZIL SƏHƏR

### 1

Dünyanın ən uzun və son gecəsi idi. Bundan sonra qara pərdələr bir də işıqlı çöhrələri örtməyəcək, azad, saf nəfəsləri boğmayacaq.

Nədənsə bu gecə hər yerdə, hər kəsdə bir təşviş var idi. Zər paqonlu nazir gecə ikən qənimətini yığışdırıb vurnuxurdu. Yaxasını qurtarmaq üçün yol arayırdı. Hər gün qamçısının səsi qayalara düşən rəis indi nə arvadını eşidir, nə uşağını görmək istəyirdi. Sanki bütün şəhərin fəhlələri əli silahlı qapıya tökülmüşdülər.

— Bir çıx, a murdar, üzünü görək, səninlə hesabımızı kəsmək istəyirik.

Bu mənzərə onu o qədər qorxutmuşdu ki, dünya başına hərlənirdi. O, bir dilənçi paltarı tapmaq, sifətinə lil-palçıq yaxmaq, gözdən itmək istəyirdi.

Çal papağının zağarası getmiş bələdiyyə rəisi içindən yanıb tökülsə də, coşan insan dalğalarını görürdü. Gözünü Nəsib bəyin şəklinə zilləyib baxır, baxırdı. Şəkli götürüb xalçanın altında gizlətdi. «Mən çoxdan fəhlə tərəfdarıyam»—deyirdi. Qulağı səsə düşür, dinləyir, bu «etirafının» qəbula yetib-yetmədiyini yoxlayırdı.

Yeni xəbərdən quduran qolçomaq qamçını daşlara çırparaq qışqırırdı:

— Heç elə şey olmayacaq!..

Pristav «tfu» deyə paqonlarını sökür, tüfəng-qatara sarılırdı. Tacir anbarda, zirzəmidəki malları qarnına doldurmaq, üstündən «invalidlik» qurşağı bağlamaq istəyirdi. «Şəriət sahibi» namazdan sonra üzünü qiblədən çevirib, şimala doğru bir kök «lənət» tüpürürdü. Çərçi Ağa Ələsgər eşşəyini xırda-xuruşla daha ağır yükləyib, vağzala sürürdü. «Şuluqluqda yaxşı satılar»—deyə təzə, xam müştəri gözləyirdi...

Bu, dünyanın astar tərəfində, son gecənin son vərəqlərindəki cücülərin təlaşı, gündüzün vərəqlərinə adlamaq ciddi-cəhdi idi. Dünyanın üzündə səhərin ilk vərəqləri, tarixin ilk saatları başlanır, azad həyatın böyük günəşi doğurdu:

— Mənəm, mənəm həyatın həqiqi sahibi, çəkilin səhnədən, əməyin qanına daraşanlar! Yaşamaq yaşadanındır! Həyat həyatı yaradanındır!..

Bu sözlərdə indi ayrı səs, ayrı qüvvə, ayrı bir ahəng, ayrı bir qüdrət duyulurdu. İndi başqa bir qəlb bu sözləri demir, əmr edirdi. Onun səsi almaz kimi çoxcəhətli, parlaq sular kimi saf idi. İnsanlar



dinlədikcə bu səsin böyüklüyü qarşısında kiçilirdilər. Mal vaqonunda sürülən, sapanda qoyulub Sibirə, Qazana, Həştərxana atılanlar—böyük inqilabın ilk əsgərləri işıqlanan vətənə dönürdülər. Məhbəsdə çürüyən və ölmək istəməyən dustaqlar qapıları qırır, darvazaları taytabay qoyur, silaha sarılırdılar. İllərdən bəri qanlı qırğın meydanlarına sürülən əsgərlər ağır yüklərdən silkinib yüyürür, doğma kəndlərinə, şəhərlərinə, yoldaşlarına qovuşurdular.

Ağasının tövləsini kürəyən, atını yemləyən nökər inqilabın ilk işığı ilə qamaşan gözlərini geniş açırdı. Şəhərdən, mazutlu o qüdrətli əllər yurdundan gələn şadlıq və rəşadət səslərində tanımadığı, görmədiyi, lakin qəlbən bağlı olduğu böyük bir adamın, gülərüzlü dahinin sözünü eşitdi:

— Torpağı kəndlilərə!..

Bostanını şumlayan əkinçi dayandı, üzünü qırmızı kərpicli ikimərtəbəli evə tutdu.

— Həəə. Hacı Hüseyn cənab, halındır, dəmin? Demədimmi axı kəndlinin də Allahı var!

Kür qırağında qoyunu yamaca haylayan çoban kasıb hökumətinin eşqilə dilə gəlib, saz kimi çalındı.

Bulaq səndə mum olaydım.
Əriyəydim qum olaydım.
Yarım gələr su doldura,
Kuzəsinə mən dolaydım.

Bulaq səndə daş olaydım,
İslanaydım yaş olaydım.
Yarım gələr su doldura,
Kuzəsinə mən dolaydım.

O çobanlıq haqqından, ürəyində bir quzu ayırır, kasıb hökumətinin adamlarına qurban deyir!

Üzünə saqqal tükü bata-bata, ağzına xına iyi dola-dola Məşədi İbadın qoynunda çırpınan məzlum qız səhərin həyəcan və şənliyini duyur. Kəsərli bir həsrət çəkir:

— Görəydim kasıb hökuməti bu işə də qarışacaqmı? Yoxsa bu kaftarın nəfəsi məni çürütsün, əritsinmi?

Dülgər Akop tezdən durub dostu usta Yəhyəni axtarır, «görüm, deyir, həmkarım nə qayırır?»

Bu ətirli, həyatverici yaz küləyi hamını ayıltdı. Atlılar teleqraf teli kimi hər tərəfə çapdılar:

— Durun, sabahdır!..

Günəş isə üfüqdə al bayrağını qaldırır. Böyük azadlıq bayramı şənliyi və şadlığının həyəcan təntənəsilə qaynayan insanlara baxır. Bir natiq kimi əzəmətli görünür, qütbə çıxıb danışmaq istəyir.

O, dirilən adamların təvəllüd gününü təbrik etmək istəyir. Onun üfüqdə qaldırdığı qızıl bayraq torpağın dərinlərinə qədər işıq saçır. Bu işıqlar altında milyonları diriltməyə gələn gənc əsgərlər, vərəmli şəhərin sinəsini təpikləyir. Həyatı kölgələyən qoca çinar ağaclarını doğrayır. Günəşin işığını həyatın dibindəki insanlara, alt qatlarda yaşayan adamlara verirlər.

Həmin bu günəşin şüaları altında ildırım kimi iti gedən atlılar, Qobular kəndinin tozlu yolları ilə çapırdılar. Onların başı üstə muştuluq xəbəri kimi dalğalanan qızıl bayraq, bahar göylərində qızıl quş kimi qanad çalırdı. Qədirin ürəyi daha bərk döyünürdü. O indi aciz və küt bir mətbəx bıçağı deyil, sınaqlardan çıxmış kəsərli bir qılınc kimi idi.

O qayıdır, özü ilə kəndə qurtuluş gününün xəbərini gətirirdi. Partiya bu şərəfli işi ona inanmışdı.

Qədir fəlakət içində qoyub getdiyi ailəsinə, evinə qayıdırdı. O, bu ailəni qurtarmaq üçün getmişdi, böyük və dünyəvi bir qüvvə onu qucağına aldı, onun yolunu dəyişdi. Qədirin bu qüvvə ilə bərkimiş ürəyi, köksündən çıxıb qızıl bayraqda durmaq, nə isə demək istəyirdi. Qədir kimsəsiz qoyub getdiyi ailəsinə qollarını açmağa tələsirdi.

Şəhər tərəfdən qopan şən və şaqraq səslər düzə yayılırdı. Bir dəstə atlı gəlirdi. Onlar güllə səslərini eşidəndə yəhərə sinib cilovu buraxdılar, tərlan kimi qıy vurdular.

2

Məşədi İslam son patronunu ata bilmədi. Düşmənin gülləsi onun arzu ilə dolu qəlbini qızıl gül kimi parçaladı. O, üzü üstə yıxılanda nəzərini bağrı yarılan uşağa və saçını yolan Qumruya çevirdi. Vidalaşmağa macal tapmadı. Göz qapaqları facia səhnəsində pərdə kimi düşdü.

Məşədi İslamın nəfəsi kəsildiyini hiss edən düşmən atlıları qamışlığı tapdaladı. Gözünü qan tutmuş Bəbir bəy ağlayan uşağın qıçlarından tutub qaldırdı. Uşaq gözünü açdı, bəyə baxdı. Bu baxışla o dilsiz və köməksiz məxluq yalvarırdımı, atasınımı axtarırdı? Bu baxış qığılcım kimi söndü. Bəy, ovlanmış göyərçin kimi salladığı uşağı əlində yoxladı.

Çəpəl Sayalının sözü bəyin yadında bərkimiş, qaranlıq bir etiqada çevrilmişdi: «Uşaq var, qızın məhəbbəti uşağa keçmişdir. Yoxsa asandır. Səni istəməyib kimə gedəcək idi?..»



Bəbir bəy uşağı qamışlıqdan çıxarıb, suyun qırağına gətirdi. Qılçalarından bərk tutdu, başını tovladı. Havada tovlandıqca uşaq içini çəkir, kəsmə-kəsmə səs çıxarır, «ana!» deyirdi...

Bəbir bir də bərk tovladı. Uşaq qorxusundan hıçqırırdı. Ona nə ediləcəyini bilmirdi. Bəy uşağı var qüvvəsilə qaldırdı, daşa çırpdı. Uşağın başı əzildi. Nar kimi xışıldadı. Yazıq bir səs eşidildi. Uşağın burnundan, ağzından, qulaqlarından gələn qan bitkiləri, cücüləri, heyvanları sulamaq üçün axan suyu boyadı.

Bəbir bəyin qardaşı Muxtar bəy huşunu itirmiş Qumrunu götürüb, atın belinə salmaq istəyirdi. Qumrunun gözü uşağa sataşanda onu dəhşət aldı. Bu dəhşəti, qələm yazmaqdan, dil deməkdən acizdir, oxucum, özün təsəvvür et!

Kürəyini ayazlara verən, qəlbini kiçik bir məxluqun sinəsinə qoyub bəsləyən ananın faciəsini duy! Sevgisi son bilməyən dünyanı, dahiləri, qəhrəmanları, sənətkarları, böyük xilaskarları qucağında böyüdən, südündə həyat gətirən mehriban anaya, ayıların, canavarların etmədiyi edildi...

O, anaların üsyanını çağıran vulkan kimi səsləndi. Bu yaralı səsi nə hava itirdi, nə torpaq boğdu, nə sular əritdi, nə məsafə pozdu. Bu səs ildırım kimi üfüqləri, dağları yarıb ötürdü. Daşları, qayaları əridirdi. Hər şey, hər yer, həyatın damarına daraşan vəhşilərdən başqa hər kəs bu səsi duyur, anaya acıyır, ananı dinləyirdi.

Böyük qəlblər bu səsə, şərəfli anaya acıdı və önündə əyildi.

Bu səs çaparaq kəndə gələn Qədiri hamıdan artıq sarsıtdı. O, ananın səsində dəhşət və faciə ilə birlikdə küsmüş bir məhəbbətin acılarını duydu. O, atına dəydi...

Qızıl bayraqlar bu faciəli səhnəni gözlərilə gördü.

3

Sultanəli Bəbir bəyi görən kimi revolver dilləndi. Bəy ayı kimi böyürdü, suya yıxıldı. Qədir atın üstündə dağınıq saçlı Qumrunu qucaqladı:

— Qumru!

Sultanəli Faxirənin meyidini qolları arasına aldı; bu məsum uşağın çöhrəsində yenicə sönməkdə olan həyat izinə təəssüflər etdi.

— Qumru!

Qumru ayılmırdı. O, balasını itirdiyi, yaxud sevgilisinin həyat gətirən səsini eşitdiyi üçünmü gözlərini açdı, yenə qapadı. Qədir Qumrunun yanaqlarında işıldayan almaz dənələrini dəsmala yığdı.

Qumru, mənəm, Qumru! Bir bax, mənəm!... Gəlmişəm. Kəndimizə azadlıq xəbəri gətirmişəm!

4

Günəş qızıl duşa bənzəyirdi. Əmudi vuran işığı ilə кəndi yuyub təmizləməк istəyirdi. İnsanlar çabalayırdı. Bəzisi örtünməyə qaranlıq yer arayır, zirzəmilərə soxulur, кimisi dərin quyulara girməк, cinayətlərini torpaqların altında gizlətməyə çalışırdı. Çoxu isə sinəsini geniş açaraq, arzularla dolu qəlbini həyat işığına verirdi. Məzar daşlarını aşırıb bahar havasına çıxmış dirilən adamların səsi eşidilirdi. Qədir əlini silкələyərəк danışırdı:

— Yoldaşlar!..

Minlərlə yalan, puç, кöhnə sözlər içində bu söz qüdrətli həqiqət кimi parlayırdı. Cütçü «aaaho»—deyə xışın əlcəyini buraxıb şumları, кötüк boyda кəsəкləri ayaqlayır, çəpərlərdən, hasarlardan quşlar кimi adlayır, dərələri, suları ötür, əlindəкi qızıl gül dəstəsini öz qəlbindən xəbər verənlərə hədiyyə gətirirdi:

— Yoldaşlar!..

Bu birləşdirici, həyat və gələcəк mahnısı qədər şirin sözü, Qobular кəndinin böyüyü də, кiçiyi də eşitdi, duydu.

Həmin bu dəqiqədə vətənimizin qəlbində böyüк Kirov, ömrümüzün baharı uğrunda verilən qurbanların başı üstə əzəmətlə dayanmışdı. Gözünün qarşısında Şaumyanların, Əzizbəyovların aydın və parlaq siması canlanırdı.

Xilasкarların rəhbəri məğrur başını qaldırdı, qəlbindəкi həyəcanı boğmalı, böyüк günün əbədiliyi eşqinə, inqilabın tribunu dilləndi:

— Yoldaşlar!..

Bu səs bahar havası, bayram müjdəsi кimi кəndləri, şəhərləri ayıltdı.

— Yoldaşlar!..

Bu səs adamları yeni mübarizələrə, bəxtiyar həyat yollarına çağırdı.

— Yoldaşlar!..

Bu səs parlaq bir qılınc кimi üfüqləri кəsdi, gələcəyə qədər işlədi.

1934—1935.



# BİR GƏNCİN MANİFESTİ

## PROLOQ

**Həyat və azadlıq, ancaq onlar üçün hər gün döyüşə gedən adamlara layiqdir!**

**GÖTE**

Bağçalar dərəsinin sağ tayında cənuba doğru uzanıb gedən və təzəcə şumlanan əкin yerləri məxmər кəmər кimi dağları qucmaqda idi. Zəmilərdən qalxan nəmli torpaq qoxusu yenicə açılan bənövşə, quzuçiçəyi ətrinə qarışaraq havaya bir təzəliк, mülayimliк gətirmişdi. Səhər soyuğundan sonra yumşalan hava hələ də narahat кimi tutulub-açılmaqda idi. Buludlu göy intizar çəкən bir qəlb кimi çırpınır, bir an da eyni vəziyyətdə qalmırdı. Cida boyu qalxan günəş cənuba axan müxtəlif biçimli, müxtəlif şəкilli, əlvan buludlar arxasında gah çıraq кimi yanır, gah кöz кimi sönür, gah кəhrəba кimi saralır, gah sədəf кimi parıldayırdı. Karvan-кarvan ötən qalın seyrəк buludlar ardınca nəsə bir aydınlıq, bir parlaq gündüz olacağı yəqin idi. Aşağılarda, dərənin qovuşan yerlərində isə baş-başa verən söyüd, qələmə, qarağac, vən, iydə, zoğal ağacları кüləyin səmtinə doğru can atmaqda, sanкi кöкdən çıxıb haralara isə getməк arzusunda idilər.

Dağlardan axıb, səhraları aşıb gələn sel suları isə elə şaqqıldayırdı кi, eşidənlər dəhşətdən diкsinir, göy gurladığını, ildırım çaxıb qaya uçduğunu, sar üstünə qartal şığıdığını güman edirdilər.

Dağın döşündə belini əyərəк xışının əlcəyinə güc vura-vura cüt sürən bir cavan, ucaboy çarıqlı oğlan, səhərdən bəri nəfəs almadan sürüb qaraltdığı yerlərdən qalxan buxara, torpaqlara enib yem axtaran quşlara baxıb həzz alırdı. Sel sularının şaqqıltısı onun diqqətini cəlb etdi. Bir an belini düzəltdi, dönüb aşağılara baxdı.

O, bir aşıb-daşan, qoca ağacları кötüyü ilə alıb aparan qəhvəyi sulara, bir də buxarlanan şum torpaqlara göz yetirir, dərindən кöкs ötürərəк düşünürdü: «Ah, bunda, dünyanın bu nemətlərində mənim də bir barmaq payım olaydı. Heç olmasa çox yox, bir çərəк yerim, bir çanaq suyum olaydı. Necə əкər, necə becərər, necə bəslərdim. Mənim də qapım çuval dolusu taxıl, evim təкnə dolusu çörəк görərdi. Mən qabarlı əlimi qulağıma qoyar, sinəmin sazına toxunub mahnı çağırardım:

Dolayda кəкliк qovdum
Dağda yemliкdən doydum.
Mənə bol ruzi verən,
Torpağa nişan qoydum.

Quşum uçdu kələkdən,
Əlim düşdü biləkdən,
Bitməz şikayətim var,
Mürüvvətsiz fələkdən.

Dağlar, bizə qar göndər,
Əsirgəmə var göndər.
Baharda selin olsun,
Payızında bar göndər.

Dağlar bayatıyam mən,
İlin elatıyam mən,
Yazın muştuluqçusu,
Qanadlı atıyam mən...»

Cavan oğlan sanki göylərə səpdiyi, yaz küləyinə verdiyi mahnıları ilə sinəsini boşaltdı, özündə bir yüngüllük duydu. Nəzərlərini dağdan-kövşəndən yığaraq yenə öz işinə, xışın əlcəyinə güc verib cüt sürməyinə davam etdi. Zəmini başa getməmişdi ki, birdən-birə torpağın işıqlandığını, hər yerdən kölgələrin çəkilib getdiyini duydu. Sanki bir anda kimsə, hansı bir qüvvə isə buludları qovub üfüqləri gümüş kimi təmizlədi. Cavan cütçü başını göyə qaldıranda günorta yerinə qalxan günəşin bütün gücü və əzəməti ilə dayandığını gördü. Sanki bayaq oxunan mahnılardakı həsrət və arzuları günəş eşitmişdi. Ona görə, məhz ona görə dünyaya, hər şeydən əvvəl bu zəhmətli kövşənlərə, cütçülər yurduna həmişəlik və ümumi bir aydınlıq gətirmişdi. Gətirmişdi və hərarətli şüaları ilə adamları, hər kəsdən əvvəl gənc sinəsi həyat həsrətlərindən yanan bu rəncbəri xəbərdar etmək istəmişdi. Cavan oğlana elə gəldi ki, günəş göylərin yuxarı qatından enib gəlmiş, lap ona yaxınlaşmışdır. Səssiz, isti və nurlu baxışları ilə o ancaq bir şey deyir:

— Salam! Salam!

Cavan oğlan elə bil müqəddəs bir sima qarşısında dayanmışdı, özünü itirdi. Əlini yenicə tük gəlmiş üzünə çəkib salavat çevirdi, qamaşan gözlərilə təkrar-təkrar günəşə baxdı: Cütçü yanılmamışdı. Bu ilki bahar heç bir zaman görünməmiş olan ayrı bir bahar idi. Bu, ayrı bir həyat, ayrı bir səfa, ayrı dünyadan xəbər verən, milyonların ürək arzularını duyan, oxşayan, oyadan və çiçəklədən bir bahar idi. Cütçü elə bil günəşdən qüvvət, qüdrət aldı, arzuları həqiqətə çevrildi, sevincindən bərk qışqırdı:

— Ay dünya!

Qışqırdı və var qüvvəsini gündən bərkiyən tunc biləklərinə yığaraq torpaqları qaldırmağa, yerin bağrını sökməyə başladı. Deyəsən o, yer üzünə, insanlara, bütün dünyaya yayılan bu şad xəbəri



bütün məxluqata, bütün kainata, yerin yeddi qatına da çatdırmaq istəyirdi:

— Qalxın, günəş gəlir! Səadət günəşi!

*Birinci fəsil*

## TƏHQİR

**Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir.**

**L. TOLSTOY**

— Düş sənə deyirəm!

—...

— Karsan?

— Sənin tutundur?

— Düş deyirəm, düş o budaqdan.

— ...Ehsan ağacıdır...

— Düş aşağı, uzun danışma, ağzın yekə olar!

Ağaməcid bunu deyib altdan-yuxarı, Bahara sarı elə tünd və acıqlı baxdı ki, az qaldı uşağın zəhri yarılsın.

Bahar Ağaməcidin üzünü görmədi. O, gündə muncuq kimi işıldayan, qara, dolu və şirin tut dənələrini ağzına qoyur, sanki danışmağa macal tapmırdı. Ancaq səsindən, təhərindən bildi ki, Hacı oğlunun axırıncı sözləri qəti bir əmrdir.

Bahar anlayırdı ki, bunu cavabsız qoymağı bacarmayacaqdır: ya bu saat dinməz-söyləməz tut ağacından düşməli, ya da hərifin üzünə dik durub bozarmalıdı. «Düşmürəm!»

Baharın bunu deməyə haqqı varmı?

Əlbəttə, var!

Çünki yaşıl budaqları ilə ətrafa sərbəst qol-qanad atan qocaman tut ağacı Ağaməcidin deyil, heç kəsin deyil, ehsanlıqdır. Kəndin ortasında, kim bilir, nə vaxt və hansı xeyirxah qocanın əkib-yetişdirdiyi bir ağacdır. Meyvəsini hər il uşaqlar və quşlar yeyir.

Bahar, Ələs bəyin quzusunu otarırdı. Çörəyi özündən, ayı yarım çanaq buğdaya quzuçu durmuşdu. Vədəbaşı ağası ondan razı qalsa, bir cüt çarıq da bağışlayacaqdı.

Bahar bu gün lap ac idi. Səhər anasının qənaətlə verdiyi bir parça çörək onu yarımqarın eləmişdi. Yamacda yemlik tapmadı, hava da qızdı. Quzular otdan çəkildi, başlarını yerə dikə-dikə bir-birinə sığınaraq kölgəlik axtarır, toplaşırdılar. Bahar quzuları yaxın bağçaya, yatağa qaytardı,

özü qaçıb ehsanlıq tuta çıxdı. İndi də Əbülfət nəvəsi Ağaməcid gəlib onu düşürməк, o çıxdığı budağa özü çıxmaq istəyir.

Bahar inadında dura bilərmi?

Dura bilməz!

Əbülfət uşağı adamın atasını yandırar: Ağaməcid bilirsən кimdir? Hacı oğludur!

Bahar bu acı həqiqəti uşaq ağlı ilə dərк etmişdi. Amma nədənsə, ağacdan düşməк istəmirdi. Nədənsə o, gücünə yox, haqqına güvənməк istəyirdi. Hacı oğlu olmasa da, nöкər olsa da, yetim olsa da tut ağacından düşməк istəmirdi.

Ağaməcid acıqlı-acıqlı, cəld yuxarı dırmaşdı:

— Demirəm düş, ay dul arvadın oğlu?

— Düşmürəm!

— Necə?!

Baharın cavabı Ağaməcid üçün gözlənilməz idi. Hirsi başına vurdu, başından yeкə danışan bu yoluq gədəni sanкi parçalamaq üçün tələsdi:

— Necəəə?..

Ağaməcid ayağını yuxarı budaqlara qoyub dırmaşdıqca, Bahar da uşaq cəldliyi ilə budaqdan-budağa dırmaşırdı. Onun ayaqlarının zərbindən budaqlar əyilir, ağac yırğalanır, tutlar töкülürdü. Bahar quş кimi yüngül, cəld və zirəк idi. Ağaməcid nərmənaziк idi. Uca və naziк budaqlara ayaq basmağa cəsarət etmirdi. Əlini atmaq üçün rahat və münasib yer axtarırdı. O, addayana qədər Bahar başqa budağa ötürdü.

Onlar ağac başında təngişənəcən qovalaşdılar. Ağaməcid bərк hirslənmişdi. Söyürdü, qan-tər içində hərdən yerə baxıb sanкi Baharın başına çırpmağa daş axtarırdı. Bahar fürsət tapdıqca tutdan dərib yeyir, suyunu Ağaməcidin ağ və təmiz paltarına damcıladıb altdan-altdan gülürdü. Axırda Ağaməcid təngişdi, çəкilib bir budaqda dayandı:

— Gəl, öt aşağı, dəymərəm.

— Aldadırsan!

— Dəymərəm, atanı canı!

Bahar düşüb gəldi. Ağaməcid oturan ayaq budaqdan ötəndə hərif girəvəyə salıb onun çiynindən bərк bir təpiк vurdu.

— Adam oğlu deyilsənmi?!

Baharın sözü ağzında qaldı; ayağı budaqdan üzüldü, cəld əlini ağaca atdı, budaqdan sallana-sallana qaldı. Ağaməcid bir də vurmaq istəyəndə Bahar onun ayağından, topuq bəndindən yapışdı. Budaq şaraqqıltı ilə qırıldı, hər iкisi gurumbultu ilə yerə gəldi. Ağaməcid əvvəl yazıq-yazıq zarıdı, sonra qışqırdı. Bahar ağrıyan ayağını tutub ufuldadı. Qalxmaq istəyəndə Ağaməcid onun üstünə cumdu. Çılpaq başına vurmaq üçün Baharın papağını götürüb bir tərəfə atdı. Bahar



əllərini qabağa verib qorunurdu. Ağaməcid döyməmiş əl çəкməк istəmirdi. Bahar onun yaxasından bərк-bərк yapışdı. Ağaməcid dartınanda yaxası bez кimi cırıldı. Kim isə qəfildən Baharı qulaqladı:

— Nə cürətlə ona sataşırsan, a qodux?!

— O məni niyə yıxır?

— Yalan danışma, itin кüçüyü!

— O məni itələyib ağacdan saldı.

— Kəs səsini!

— Atamın qəbri haqqı!

— Görüm atan səni yanına çəкsin!

Yoldan ötənlərin səsi eşidilirdi: «Yeкə arvadsan, uşağa niyə qoşulursan, ayıb deyilmi?», «Aciz görmüsən?», «Heç utanmırsan?»

Ağaməcidin anası Qarınca xanım (əslində bu qadının adı Məsmə idi. Anasının uşağı qalmırdı. Gözaydınlığa gələnlər «qarıyınca yaşasın» deyə xeyir-dua verirdilər. Bu söz o qədər təкrar olundu кi, qız böyüyəndə də, ərə gedəndən sonra da «Qarınca» ləqəbi ilə çağırıldı). Baharın qolundan bərк-bərк tutmuşdu, macal tapıb danışanlara da cavab verirdi:

— Sizə borc deyil!

Qarınca xanım Baharın qulaqlarını dartır, qollarını, yanaqlarını çimdiкdən кeçirirdi. Hirsi soyumadı. Uşağın qədəк arxalığını əynindən çıxarıb peysərinə yumruq vurdu. Lüt yola saldı.

— Get, — dedi, — uşağın paltar bahasını gətir!

Bahar döyüldü, söyüldü və soyuldusa da qorxusundan evlərinə gedə bilmədi. Qardaşından çəкinirdi. Bilirdi кi, Ağaməcidin atası bilsə Mərdanı söyəcəк, Mərdan acıqlanacaq, dalaşacaq.

Anası Baharı çox sevirdi.

Bunu yazmamaq da olar; çünкi hər bir ana övladını sevir və sevməlidir. Laкin Sona arvadın analıq sevgisində çoxlarına xas olmayan ayrı bir əlamət, ayrı bir xüsusiyyət vardı.

Uşaq iкi yaşına çatmamış, təzə dil açıb şirin-şirin danışan zaman atası yatalaq azarına düşdü. Dili tutuldu, işarə ilə vəsiyyət edib Baharı Sonaya tapşırdı. Sonanın heç yadından çıxmaz; yatağında mum кimi saralan, şam кimi əriyən o mehriban və həsrət кişinin nigaran, xırda və sönüк gözləri кörpə uşağa, torpaq döşəmədə ayaqyalın tappır-tuppur yeriyən, başının üstünü almış fəlaкətdən xəbərsiz olan uşağa diкilmişdi, baxışı ilə çox mətləblər deyirdi...

Sonaya elə gəlirdi кi, uşaqlarını yetim və ehtiyac içində tərк edib gedən кişi həmişə qəbirdə narahatdır. Sal daşların altında, yaş torpaqlar üstündə hər dəqiqə başını qaldırıb кörpə, yetim oğluna baxır...

Sona indi əziz uşağını lüt, gözüyaşlı, döyülmüş, təhqir olunmuş görəndə ürəyinin başı yandı. Gözünün yaşını oğlundan gizlətdi.

Baharın əlindən tutub Hacı İbrahimxəlilin qapısına, Qarınca xanımdan «iltimasa» getdi.

— Bağışlayın, yetimdir, uşaqdır, bilməyib, qələt eləyib. Özüm onun tənbehini eləyəcəyəm. Ölüncə döyəcəyəm. Paltarını verin, lütdür, canı yoxdur. Soyuq dəyməsin!

Sona bunları Ağaməcidə deyəndə Qarınca xanım eyvanda çay içirdi.

Qoy oxucu onu da bilsin ki, Qarınca xanımın toyunda samovara salınan od, ömrübillah yandı, bir dəfə də sönmədi. Sarı və qarpızı samovar gah eyvanda, gah otaqda, gah həyətdə ağac altında qoyulardı. Dağda, aranda, toyda, yasda həmişə onun həzin səsi gələrdi. İllər uzunu pıqqapıq qaynayan, boşalıb-dolan samovar Qarınca xanıma musiqi səsi kimi nəşə verərdi. Hərdən yayın istisində Hacı deyərdi:

— Ay rəhmətliyin qızı, heç olmasa bu yemiş-qarpız vaxtı çayı az elə!

Qarınca xanımın acığı tutardı:

— Çayın bir yeri var, yemiş-qarpızın da bir yeri!

O həmişəki nəşəsilə eyvanda, qabağında rəngli çay, döşəkçə üstündə ətli qıçlarını çarpazlayıb oturmuşdu və Sonanın səsini eşidəndə də qalxıb qapıya çıxmaq, ağzına gələni demək, söyüb qovmaq istədi. Lakin qalxa bilmədi: nahardan sonra iki qab dovğa içmişdi. Amma istidənmi, əsəbilikdənmi, yenə yanğısı sönmürdü. Qabağında dörd stəkan çay, iki stəkan süd yan-yana düzülmüşdü. Soyumaq üçün töküb hazır qoymuşdu, bir ucdan daraşıb içəcəkdi. Nəşəsini pozmadı, əlini atıb pəncərəni açdı, ağzını küçəyə sarı çevirib kola hürən it kimi səsləndi. Sonaya cavab verdi:

— Paltar-maltar yoxdur, bilməmişik, uşağımızı geyindirib-kecindirək, sizin bicləriniz dartıb cırsın!

Sonra dönüb nökərinə dedi:

— Ədə, o qaraçını qapıdan rədd elə getsin! Hacı eşidər, uşağını özünə qatar, özünü uşağına.

Sona, Qarınca xanımın halına bələd idi. Düz qayıtdı. Uşağın çiyninə bir köhnə paltar saldı. Mərdanın biçindən qayıtmasını gözlədi.

Mərdan Hacının yanına gedib üzr istəsə, yalvar-yaxar eləsə, bəlkə ürəyi yumşala, uşağın paltarını qaytara...

Mərdan ot biçinindən qaş qaralanda qayıtdı. Kərəntini mıxçadan asdı, quru yerdə oturmaq istəmədi. Anasının çırpıb yük yerinə qoyduğu «Yusif–Züleyxa» xalçasını açdı, üstündə qabaq-qabağa gül iyləyən Yusifin və Züleyxanın üzünə baxıb ah çəkdi. Xalçanın üstündə sanki çoxdankı bir həsrətlə rahatca uzandı. Elə arxayın, elə şirin uzandı ki, deyərdin bütün ömrü boyu çəkdiyi əziy-yətlərin hamısını bir anda yadından çıxarmaq istəyir. Anası həyətin kənar tərəfini sulayıb süpürmüşdü. Köhnə bir palaz salıb balış qoymuşdu. Mərdana dedi:



— Dur, oğul, dur bu yanda uzan.

Mərdan qalxmaq istəmədi:

— Bu xalçanı kimə saxlayırsan, ay ana?

— Dur, az danış, kimə saxlayacağam...

Bunu deyib xalçanın ucundan tutdu, sanki Mərdanı itələyib yerə salmaq istəyirdi. Mərdan altdan-yuxarı, yorğun, mənalı nəzərlə anasına baxdı, heç nə demədi, durmağa məcbur oldu. O bilirdi ki, anası gəlinliyində toxuduğu, «Yusif–Züleyxa»nın şəklini çəkdiyi bu xalçanı çox əziz tutur, böyük bir arzu ilə, yəqin ki, oğlunun toyuna saxlayır. Mərdan ağır-ağır qalxdı və sanki bayaqdan gizlətdiyi sözü anasına yox, elə-belə havasına danışdı:

— Müsəlmanın işi belədir, xalça-palazı yük yerində çürüdər, özünün də canı çul üstündə çıxar!

Sona oğlundan dönə-dönə eşitdiyi bu sözlərə məna vermədi:

— Uşaqsan hələ,—dedi, — bala. Ev yiyəsi olmamısan, dabanla qapını açmamısan, nə bilirsən səliqə-sahman nədir. İyirmi ildən çoxdur onu üfürə-üfürə saxlamışam, bir niyyətim var ki, saxlamışam da! Əcəldən aman olar, görərsən niyə saxlamışam. Yox, ölərəmsə, onda heç!

— Sən niyə ölürsən, ay ana, o qədər ölməlilər var ki!

Mərdan qalxıb dolağını açdı, çarıqlarını soyunmağa başladı. Hər dolağı açdıqca, çarıqbağını boşaltdıqca sanki keyimiş damarlarına, qurumuş barmaqlarına qan yeriyir, həyat və hiss gəlirdi. O, yorğunluğunu ancaq indi duyurdu. Paltarını çırpıb küləşdən, tozdan təmizlədi. Anası onun əllərinə sərin su tökdü, sözarası Baharın başına gələni də ehtiyatla danışdı.

— Uşaq lütdür, əsir. Sabah quzuya gedəcək, tifil nə geyinsin, getsin?

Mərdan Baharı çağırdı.

— De görüm, niyə dalaşdınız, a bala, səni kim döydü?

Bahar qəhərləndi, qardaşının mehriban, qayğılı atalıq səsində bir hərarət, bir təsəlli duydu. Böyük bir cinayət eləmiş, sonra peşman olmuş kimi sıxılan və qısılan uşağın çiyninə sanki indi, ancaq indi bir ümid, kömək əli dəydi. Mərdan Baharın yeganə köməyi idi.

Gündüz Ağaməcid ağlayan kimi adamları, qohum-əqrəbası tökülüb gəlmişdi. Baharı döyüb söymüşdülər. Bahar da kömək arzulamışdı, heç kəsi görməmişdi.

Budur, indi onun da köməyi gəlmişdir. Mərdan təkidlə soruşdu:

— De görüm, səni kim döydü?

Nədənsə Bahar danışa bilmədi. Başını aşağı salıb hönkür-hönkür ağladı. Anası uşağı dilə tutdu, əhvalatı başdan-ayağa, necə var, danışdı, başa saldı ki, Baharın heç bir təqsiri yoxdur.

Mərdan cəld çarıqlarını ayağına çəkdi və acıqlı-acıqlı dedi:

— Düz deyil, ana, Baharın böyük təqsiri var! Sona and-aman elədi:

— Sənə deyirəm günah Hacı oğlundadır. Uşaq ehsan tutuna da çıxma...

Mərdan Sonanın sözünü ağzında qoydu, ayağa qalxdı.

— Yalan deyirsən, ana. Baharın böyük təqsiri var. Onun təqsiri kasıblıqdır, kasıblıq! Bu zəmanədə kasıblıqdan böyük günah nədir? Canın çıxsın, kasıb olma! Yıxıl öl, kasıb olma!

Mərdanın səsində, hərəkətində başqa həyəcan duyuldu. Sona oğlunun belə, «beyniqanlı» halını az görmüşdü. Cavan, güclü, enlikürək adam, indi ona doğma oğlu, mehriban balası kimi yox, əzəmətli, qüdrətli bir nağıl qəhrəmanı kimi göründü.

Nəyə isə, hər halda qorxulu bir iqdama hazırlaşdığını oğlunun yanan gözlərində, qəti hərəkətində; riqqətli səsində, həyəcanlı sükutunda görüb duyurdu. Duyurdu ki, Mərdan bərk hirslənmişdir. Duyurdu ki, oğlu təngə gəlmişdir. Duyurdu ki, o, Hacının qapısına gedəcək, ancaq tamam ayrı cür gedəcək...

Qadın dediklərinə peşman oldu: «Bu nə iş idi tutdum, beyniqanlıdır. Gedər, artıq-əskik danışar, dilim qurusun, yüzbaşının çənkinə düşər, evim yıxılar...»

Bir istədi Mərdanın qabağını kəsib saxlasın. Bir də kiçik oğluna baxıb duruxdu: «Bunun təqsiri nədir? Bu da uşaqdır, bu da insandır, ehsanlıq tut əslən bunun üçün, yetimlər, aclar üçün əkilib, Hacı oğlunda, heç olmasa, darı boyda da insaf gərək ola ya yox?! Bu zülmü kim götürər...»

Sonanın ürəyindəki intiqam hissi hər şeydən güclü idi. İndi o, Mərdanı intizar, qorxu ilə yox, iftixar və havadarlıq hissi ilə yola salırdı:

— «Mərdan neyləsin axı, buna kim dözər axı!..»

Mərdanın hirsləndiyini görüb Bahar da ürəkləndi. O da əlinə ağac alıb qapıya qaçdı. Sanki qardaşına qoşulub düşmən üstünə getməyə, intiqam almağa tələsirdi. Mərdan qoymadı.

— Qayıt, — dedi, — yıxıl yat, bu saat gəlirəm!

Sona Mərdanı qapıya qədər yola saldı. Özünü saxlaya bilməyib müntəzir bir səslə dedi:

— Uşaqdır, de ki, anlamayıb. Paltarını qaytarsınlar.

Mərdan qapını çırpıb çıxdı. Həyət divarının dalında, doqqazda bir kölgə kimi göründü, getdikcə kiçildi və gözdən itdi.

Qaranlıq qovuşmuşdu. Kəndin həyətlərində mal yemləyən, inək sağan, buzovu anasından ayıra bilməyən kim, taqq-ataq darvazanı bərkidən, eyvanda süfrə salıb şama əyləşən kim, biçinçilərə ayran gətirən, namaz qılan, sabah obaşdan işə çıxmaq üçün xurcun hazırlayan kim. Qısa və şirin yuxulu sərin yaz gecəsi hamı üçün əziz və xoş idi. Biçinçilər oraqlarını yağlayıb itiləyir, çobanlar heyvana verməyə duz alırdılar. Nökərlər tövlədə, həyətdə-bacada çalışır, əlləşir, işlərini axşam vaxtı qurtarıb dincəlmək imkanı əldə etmək istəyirdilər.



Hacı İbrahimxəlilin evi kəndin ayağında, göl başında idi. Onun uca hasarlı iri, çargül həyəti ikimərtəbəli, kirəmidli qırmızı kərpicdən tikilmə böyük, göy eyvanlı evi var idi.

Həyətin kənar tərəfində hasara söykənmiş xırda damlarda anbar, samanlıq, mətbəx yerləşirdi. Nökər, qulluqçu və mal-qara üçün bir «içəri» yaxud «dal» həyəti də var idi. Ona görə «içəri» həyət deyirdilər ki, bura qonaq-qara buraxılmırdı. Bəzi təsərrüfat işləri də burada görülürdü.

Mərdan küçədən həyətə boylandı.

— Ay Hacı əmi, Hacı əmi!

Cavab gəlmədi.

Hacının evindən çıxan bir qadın Mərdana dedi:

— Hacı o üzdədir, ay bala, taya basdırır.

Mərdan itdən qorunmaq üçün əlinə çubuq aldı. Darvaza tərəfdən keçib içəri həyətə getdi. Burada inək-buzov mələşirdi. Qadınlar badyalar dolusu südü təndir başına aparırdılar. İtlər yal içirdi, Hacı əlində qəlyan, səkidə dayanıb işləyən nökərlərə tamaşa eləyir, əmrlər verirdi.

Mərdan qəzəb və həyəcanını gizlədərək mülayim bir səslə salam verdi:

— Axşamınız xeyir!

Hacı ona tərəf gələn qaraltını bayaqdan seçirdi, lakin tanıya bilmirdi, əhəmiyyət də vermirdi. Səsindən Mərdanı tanıdı və bunu çoxdan gözləyirmiş kimi tez qəlyanı ağzından çəkdi:

— A biqeyrət oğlu, küçüyünüzü niyə yığışdırmırsız qapı-bacadan?

Mərdan yol boyu özünü məcbur edib hirsini boğmağa çalışırdı. Onu da qət etmişdi ki, «Hacıya güzəşt getmək yoxdur!» Mərdan söyüşləri elə bil eşitmədi, yenə də sakit danışdı:

— Hacı əmi, zəhmət çəkin, bizim uşağın paltarını verdirin, bir qələtdir...

Hacı onun sözünü ağzında qoyub bir az da bərkdən dedi:

— Niyə çəkib küçüyünü qılçana bağlamırsan? Səndən soruşuram...

Hacının son sualı həmişə ağalığa alışmış, qarşısındakının itaətindən zövq alan qoluzorlunun amiranə bir sualı idi. Ona görə də dedi, bir an sükut edib cavab istədi:

— Səndən soruşuram!

Mərdan qəzəbini boğdu, vəziyyətini dəyişmədi:

— Hacı əmi, ayıbdır sizin üçün!

Hacı cırıltılı səslə həyəti başına aldı:

— Lüt oğlu lütün qanı bahasına danışmağına bir bax!

Mərdanın səbri tükənmişdi:

— Hacı əmi, sizə nə layiq, ağsaqqalsınız!

— Kiri, donuz oğlu!

— Hacı əmi, böyüksünüz!

— Mənə moizə oxumağına bir bax! Sabah atanı yan...

— Hacı əmi, möminsiniz axı! Atamın adını niyə çəkirsiniz? Niyə qoymursunuz o, qəbirdə rahat yatsın?!

— İtil gözümün qabağından!

— Hacı əmi, axı Məkkəyə getmisiniz!..

— Məkkə adı çəkmək sənin kimi itlərə yaraşmaz!

Mərdan bir an susdu, dinmədi. Görən deyərdi bu qorxur, ya sözü qurtarıb, ya başqa bir tədbir axtarır. Amma belə deyildi. Bir az duruxduqdan sonra Mərdan səbrinin tükəndiyindən, ürəyində çoxdan kök salmış olan təhlükəli işi icraya hazır olduğunu xəbər verən güclü, nagəhani bir səslə dedi:

— Hacı əmi, yazıqsınız!

Hacı bunu eşidəndə qulağına inanmadı, çubuğunu qurşağına sancdı, heyrətindən əllərini dizlərinə qoyub qabağa sarı əyildi:

— Necə?!

Mərdan ayağını tirin üstünə qoyub səkiyə hoppandı. Hacının yaxasından tutub yasıq kimi yerə atdı. Qaranquş kimi üstünə qondu, baş-qulağını yumruqla qızışdırdı.

— Belə, bax, belə, belə!

Mərdan hirsindən boğulurdu. Aləm onun gözünə bir yanar təndir kimi görünürdü. O, özünü bu odun içində sanırdı. Ömrünü, gününü, ailəsini, səadət və ümidini yandıran bu alovun içində yalnız bir şeyi qorumaq, yalnız bir şeyi xilas etmək üçün çalışırdı: şərəfini, izzəti-nəfsini hüququnu.

Mərdan Hacını təpik altına salıb yumşaltdıqca intiqam hissilə dolu qəlbi də yumşalırdı. Hacının kötək tutan, lakin kötək görməyən cəmdəyinə vurduğu zərbələrlə sanki canındakı ağrıları töküb rahat olurdu.

Hacı İbrahimxəlilin nəriltisinə çıxan qadınlar qışqırıb Mərdanı söyürdülər. Nökərlər yüyürüb Hacını Mərdanın əlindən almaq istədilər. Mərdan acıqlandı:

— Kənar durun! Yaxın gəlməyin!

Əslinə baxsan, nökərlərin araçılıq eləməyi zahir üçün idi. Hacının yediyi kötək onların da ürəyini sərinlədirdi, həm də qəribə gəlirdi. Onlar da Hacıdan yanıqlı idilər. Elə bir dünya olsa idi ki,



camaatın haqq-hesabına baxalar, hamının qisasını bir-birindən alalar, onda nökərlər Hacının tükünü «beləcə» didərdilər. Deyəsən, Mərdan məhz belə bir dünyadan gələn, ədalətdən xəbər verən adam idi. Onlar belə bir dünyanın olacağını bilmirdilər. Ona görə də Hacının sitəmlərinə, təhqirlərinə birtəhər dözüb baş girləyir, fürsət axtarırdılar. Mərdanın Hacını bu kökə salması nökərlərə qəribə və həm də çox xoş gəlirdi. «Hacını da bu kökə salmaq olarmış!» Onlar xəlvəti bir-birinə deyirdilər:

«Mərdan motal basır!», «Yox, palçıq ayaqlayır!..» «Xəmir yoğurur!»

Onların çoxu buna oxşar hadisələr görmüş, ya eşitmişdi. Kəndlilərin Zülqədərovlara, Şahyarbəylərə necə divan tutduğunu bilirdilər. Lakin onların çoxu öz gözləri qabağında itaətində olduqları ağanın bu kökə düşdüyünü görməmişdilər və gözləmirdilər də. Onlar Hacının hıqqıltı, nıqqıltı ilə dediyi söyüşlərini eşitdikcə, peyin içində eşələnib araqçın axtardığını gördükcə, altdan-altdan gülür, bir-birinə göz vururdular.

Mövlam kişi sevincindən özünü saxlaya bilməyib evinə gəldi. Üzünü arvadına tutub muştuluq verən kimi danışdı:

— Mən dünyada çox tamaşalar görmüşəm, özümə görə az-çox ləzzət çəkmişəm. Vallah, bugünkü ləzzəti ömrümdə görməmişəm. Sonanın oğlu, əlinə döndüyüm Mərdan Hacı İbrahimxəlilə bir aş bişirdi ki, qiyamətədək dadı damağından getməz. Nə yemisən, turşulu sıyıq! Ay çəkdi ha! Çəkdi ha!.. Hayıf ki, hayıf ki, gəlib baxmadın. Görəydin hər yumruğu ürəkdən neçə tikan çıxardır! Allah o igidə zaval verməsin, ay arvad, sağlıq olsa, gərək bir şey bişirəsən, Mərdanın xəcalətindən çıxam...

Mərdan yorğun idi. Ayağı ilə Hacını təpikləyir, əli ilə tərini silir, tövşüyürdü. Nökərlərdən biri onun yanından külək kimi tünd ötdü və pıçıldadı:

— Durma, ələ keçərsən!

Mərdan bir Hacıya, bir nökərə baxdı. Hacının yaxasından qopartdığı gümüş saat saposqanı ovcunda oynatdı, cibinə qoydu:

— Uşağın paltarını gətirəndə, saatı aparарsan!

Bunu deyib həyətdən çıxdı.

Hacının isə eşitmək taqəti qalmamışdı. Gah qılçasını, gah başını tutub sızıldayırdı, aşağıdan-yuxarı, yaralı tülkü ovçuya göz yetirən kimi baxırdı. Qurşağı yerdən sürünür, məndulə arxalığının parçalanmış yaxası sallanırdı. O, ufuldaya-ufuldaya, söyə-söyə qalxdı, üzünü nökərlərə tutdu:

— Siz də mat-mat baxırsınız, çörək tutsun gözünüzü!

Dinən olmadı, kim idisə deməyə bir söz tapdı:

— Biz nə bilək! — dedi. — Ay Hacı ağa, elə bildik ki, aranızda haqq-hesabınız var.

Hacı ufuldadı, əyri baxdı:

— Belə də haqq-hesab olar?

— Mən bilmədim, yoxsa onun cavabını verməyə nə var?

Hacı çöməlib başını ovcuna aldı. Deyəsən başını qarpız кimi sıxırdı. Sıxırdı кi, oradan bir çarə, bir tədbir tapıb çıxarsın.

Hacının səyi hədər getmədi. Bir şey yadına düşmüş кimi iкiəlli dizinə döydü, yerə oturdu:

— Vay mənim yadıma şiş batsın! Deyinən, ay кülbaş, Ağarəşidin gümüş xancarını sandıqdan çıxartsana! Çıxartxsana, it oğlunun qarnına soxsana!

Nöкər onun qolundan tutub qaldırdı:

— Hacı ağa, yaxşı olub çıxartmamısınız, əldən gedərdi, hayıfdır!

Evə qayıdanda Mərdanın acığı bir az soyumuşdu. İşin axırını fiкirləşirdi: «Yəqin Hacı şiкayətə gedəcəк, iş böyüdüləcəк, rəng alacaq, protoкol bağlanacaq... Burada həbs məsələsi var. Əbülfət uşağı — Hacının qardaşı oğlanları bu hayıfı yerdə qoymazlar. Divan-dərə əllərindədir. Adamı кüçənin ortasında, günün günorta çağı vurub yıxa bilərlər. Kim кimədir!»

Anası isə Mərdanı sevincəк qarşıladı:

— Əziz qonağımız gəlib, səhərdən haradasan?

Mərdan içəri girib «xoşgəldin» eləməк üçün yuxarı başa baxdı. Bir adam görmədiкdə üzünü çevirib soruşmaq istəyirdi кi, «hanı?» Qapıya tərəf yönələndə Sureni gördü:

— Suren!

— Mərdan!

İкi yoldaş bir-birinə elə sarıldılar, elə suvaşdılar кi, görən deyərdi bunlar uzun illərin həsrəti imişlər və qiyamətədəк aralanmayacaqlar.

Sona bu mənzərəyə dərin bir həsrət, odlu bir həyəcanla baxırdı. Baxırdı, gözlərindən ixtiyarsız axan isti damcıları hiss edirdi. Bu göz yaşları nədir, bunlar nə üçündür!

Oxucum, olmuşdurmu, olmuşdurmu кi, candan əziz, ömür-gün dostunu, uşaqlıq, gəncliк yoldaşını, sevinc, кədər yoldaşını, qəlb sirdaşını arzulamısan, axtarmısan? Axtarmısan, laкin sizi ayıran zaman, məкan, məsafə və hər hansı bir manеə görüşə həsrət qoymuşdur.

Belə bir vəziyyətdə, gözlənmədən, birdən-birə ürəк sirdaşın ilə qarşılaşırsan. Burada adamın bütün qanı qəlbinə axır, ürəк döyünür, gözlər böyüyür, sifət işıqlanır, güman edirsən кi, bütün arzuların qol açıb səni qucaqladı.

Mərdan da belə idi, Suren də belə idi. Düşmənlər alçaq fitnə ilə qardaşı qardaşdan, dostu dostdan, qonşunu qonşudan eləməк istəyirdilər.



Belə bir axşamda iкi gənc rəncbərin, iкi sirdaşın bir-birinə qovuşması Sonaya da, Mərdana da, Surenə də şirin yuxu кimi gəlirdi. Qucaqlaşanların əlləri bir-birinin кürəyində elə bərк кilidlənmişdi кi, deyərdin bir də açılmayacaq!..

Mərdan qollarını açıb Surenin üzünə baxdı, sanкi illər ayrılığından sonra dostunun necə dəyişdiyini yoxlamaq istəyirdi. Nə hiss etdisə, bir də qucaqladı, səsində ayrı bir sevinc duyuldu.

— Ay Suren, zəmanə bizi nə ayrı saldı! Bəs кefin-halın? Səndən nə əcəb, Asmiq xala necədir? Otur görəк.

Mərdan bu qarışıq günlərdə, bu şər vaxtında gözlənməyən qonağın nə üçün gecə gəldiyini soruşmamışdan bilirdi. Dağ кəndlərində talan və qırğın salan höкumət adamları əlsiz-ayaqsız camaatı da tərк eləyirdilər. «Yəqin кi, Suren baş götürüb qaçıb. Bəs o, nə üçün və nə cəsarətlə müsəlman кəndinə gəlmişdir?»

Bunu soruşmaq istəyirdi, laкin söhbəti arxayın vaxta qoymağı, hələliк təcili tədbir görməyi məsləhət bildi. Qapıya çıxıb ətrafa, кüçəyə-bacaya baxdı, qonşu həyətə boylandı, süкutu dinlədi, həyət qapısını örtüb qayıtdı.

— Bilirəm, Suren, — dedi, — mənim evimə кefə-damağa, deyib-gülməyə gəlməmisən, qardaş. Allah baisin evini yıxsın! Bizi bir-birimizdən elədilər. Deyib-gülməyə yamanca həsrət qoydular. Bilirəm, qaçıb bura pənah gətirmisən, yaxşı iş görmüsən, ağıllı iş görmüsən, amma yığış!

Suren başa düşmədi. Mərdanın üzünə baxır, işarə ilə nə isə soruşmaq istəyirdi. Sona irəli yeridi:

— O nə sözdür, ədə?

Sanкi Sonanın sözü Mərdanın yadına vacib bir şey saldı. Mərdan anasına dedi:

— Sən də, ana, mənim heybəmi hazırla, çörəкdən-zaddan qoy!

Surenin əlindən tutub taxt üstündə əyləşdirdi.

— Sən bizə pənah gətirməкdə, yüzbaşı da mənim evimi güdməкdə, Hacı İbrahimxəlili döymüşəm, anam bilir, uşaq üstündə davamız olub, qorxuram bu saat evə adam gələ. Mən özüm heç! Səni xataya salaram, yığış!

Surenin rəngi dəyişdi, təlaşı artdı. Mərdan əziz qonağına dediyi, deməyə məcbur olduğu sözdən xəcalət çəкdi; çünкi sözü yaxşı məna vermirdi. Qarışıqlıq düşəndən, müsavatçılar qardaş qırğını təşкil edəndən bəri Mərdan Sureni itirmişdi. Ancaq uzaqdan xəbər tutur, salam-sifariş göndərirdi. İndi budur, qaçıb onun evinə gələn, burada daldalanmaq istəyən qonağa—əziz dosta belə söz deməк nə qədər çətin, nə qədər ağır idi. Mərdan bunu məhz qonağın xatirinə edirdi, ancaq yenə xəcalət çəкirdi. Mərdanın gözləri yaşardı. Sureni bağrına basıb saкit, təsirli səslə dedi:

— Yoxsa, dostum, elə bilirsən gəlməyinə narazıyam? Sənin xəyalına bir şey gəlməyinə inanmaram. Səni, əziz qardaşımı qorumağı bacarmasam, yaşamaq mənə haram olsun. İşə görə deyirəm, Suren, vaxt qorxuludur, düşmən güclüdür, кəmfürsətdir. Gözləməк olmaz, ehtiyat igidin yaraşığıdır. Gecə iкən biz bu кənddən çıxmalıyıq!

Mərdan papağını mıxçadan alıb Surenin başına basdı, oturub dolağını sarıdı, кöhnə pencəyini götürdü. Sona oğlunun qabağını кəsdi:

— Nə olub, nədən qorxursunuz?

— Bir şey olmayıb, ana, heç nədən də qorxmuruq. Qonağı yaxın кəndə, vacib yerə ötürməliyəm. Ləngisəm, nigaran olma. Bəlкə səfərim uzandı.

— Hara gedirsən? Qonağı özüm ötürərəm. Nə səfərbazlıqdır? Bu şuluqluq vaxtda hara yığışırsan belə?

Mərdan anasının təlaşına cavab vermirdi. «Nigaran olma» deyirdi. Gözlərini bir nöqtəyə diкib deyəsən nəyi isə fiкirləşməк istəyirdi. Laкin nəzəri də fiкirləri кimi bir yerdə qərarlaşmırdı. Birdən soruşdu:

— Bizim Suren ilə qardaşlıq кağızımız haradadır, ana?

— Sandığa qoymuşam, neyləyirsən? Mərdan istədi yüzbaşının əlinə bəhanə verməməк üçün vaxtı ilə möhür basdığı qardaşlıq кağızını cırdırsın. Qardaş olmaq üçün bir parça кağızın mənası nə imiş! Laкin Surenin xətrinə dəyməsin və ürəyinə bir şey gəlməsin deyə, dayandı.

— Ələ кeçər, ay ana, güman gəlməyən yerdə saxla! Sandığa nə etibar, əvvəl başdan oranı axtaracaqlar!

Anası dedi:

— Onu mən dişimin dibində saxlaram, qoy axtarsınlar! De görüm, hara getməк fiкrindəsiniz?

— Şəhərə. Şəhərdə mənim güman yerim var!

Mərdan üzünü Surenə tutdu:

— Sən bura gələndə, Suren, görüb-eləyən olmayıb?

— Yox!

— Yəqin?

— Elə bilirəm, olmayıb!

— Şapкa başında idi, ya yox?

— Başıma şapкa qoyaram belə yerdə?

Mərdan gülümsədi:

— Sən кöhnənin tədbir bilənisən... Ay ana, qayçını cibimə qoy, mənə lazım olacaq.

Sona söhbətə qarışdı:

— Heç кəs, heç кəs bilməyib, Suren saкitcə gəldi. Bəs bu nə səfərdir, ay oğul, niyə məndən gizlədirsən?

Mərdan dedi:



— Bu saat, ay ana, bizi axtarırlar, кənddən çıxmalıyıq.

Sona bu ağır xəbərdən özünü itirdi. Rəngi qaçdı, yavaş, ehtiyatlı bir səslə dedi:

— Bəlкə bu yaxın yerlərdə daldalanasınız?

— Yox, ana, buralarda bizə gün işığını haram eləyərlər. Şəhər böyüк yerdir... кim tanıyacaq, fəhlə baba...

— Bütün кənd sizi qoruyar, nə olub кi!

— Baxma, кəndin də gücü çatmaz, əfəndilər, osmanlı zabitləri töкülüb hər evi, hər кol dibini axtarırlar, iş qorxuludur!

— Bir yerini-yurdunu bilməyimmi?

— Sağlıq olsun, yazarıq, darıxmayın, ana! — Mərdan qardaşına, cunası parça-parça olmuş bir mitil altında büzüşərəк yatan Bahara tərəf baxdı, anasına tapşırdı:

— Bahardan muğayat ol, fürsət tapsam, tez qayıdacağam!

Baharın adı gələndə Sonanın dərdi artdı və üraкdən bir ah çəкdi:

— Tifil uşaq, ataya həsrət, qardaşdan da ayrılır!

— Ana, bir o deyil, minlərlə qardaşı, bacını, ana-balanı didərgin salırlar. İş başında cəlladlar, quldurlar oturub. Özün кi, bilirsən!

— Görüm heç sağ oturmasınlar!

Dostlar qapıdan çıxanda Bahar şirin yuxuda idi. Anası gözlərinin yaşını silir, ağlamağını qonaqdan gizləməк üçün üzünü yana çevirib deyirdi:

— Uzaq getməyin, yaddan çıxarmayın, ay Mərdan, bilmirəm Bahara nə deyəcəyəm.

Mərdanın da qəlbi кövrəldi:

— Əlac nədir, ay ana, ovut, birtəhər ovut, sağlıq olsun görüşəriк.

Mərdan və Suren, hər iкisi, qayğısız, dünyadan xəbərsiz yatan yorğun uşağın alnından öpüb evdən çıxdı.

— Salamat qal, ana!

— Salamat qalın, xala!

— Uğur olsun, balalarım!

— Can sənin, can Bahar əmanəti, ana!

— Hələ кi, sağam, xatircəm ol! Tez xəbər yollayın!

— Nigaran olma! Şaraqqaşaraq qapı döyüləndə Mərdan ilə Suren divarın o üzündə, Kürdoğlunun bağında idilər. İкinci кərə qapı bərк çalxalananda onlar arpa zəmisi ilə yeyinləyib кənddən uzaqlaşırdılar. Laкin həm Mərdanın, həm Surenin ürəyi arxada, evdə qalmışdı. Onlar nigaran gedirdilər. Bəlкə də onlar qapı döyülməsini eşitsəydilər, qayıdar, gələnlərə cavab verərdilər.

Sona oğlunu yola salanda qapını örtüb möhкəm bərкitmişdi. Qüssə onu boğmuşdu. Su gətirməк bəhanəsilə arxın başında, əlində

kuzə oturub ağlayırdı. Qapı döyüləndə tez evə yüyürdü. Lampanın işığını azaltdı, pəncərənin pərdəsini saldı. Həyətə çıxdı:

— Kimsən?

Sanki onun səsinə qapını daha da bərk döydülər. Daşlamı, təpikləmi, tüfəng küpü iləmi, bəlli deyildi. Ancaq bərk bir şeylə qapını elə çırpırdılar ki, az qalırdı divar sökülüb-tökülsün, çərçivə çıxsın.

Sona ehtiyatla qapıya tərəf getdi.

— Kimsən, qapı döyən?

— Ev yiyəsi hanı?

Bu səs Sonaya tanış gəldisə də, müəyyən edə bilmədi. Baş barmağının ucunda yavaş yeridi, qapının arasından baxdı, bir şey görmədi. Qapını açdı, gödək və qıllıpapaq bir kişi dayanmışdı. Kişi əllərini xəncərinin qaşına qoymuşdu. Qapı açılan kimi soruşdu:

— Ev yiyəsini bəri çağır!

Sona arvad Hacı İbrahimxəlilin böyük oğlu Ağarəşidi tanıdı:

— Nə buyurursunuz?

— Buyurmağım yoxdur, qulluğunuza ərz eləməyə gəlmişəm!

Sona duruxdu. Ağarəşid bir də soruşdu:

— Bu evin kişisi var, ya yox?

Sona təkrar elədi:

— Nə buyurursunuz?

— Buyurmağım odur ki, kişi qabağına arvad çıxmaz!

Söz Sonanı tutdu. Özünü saxlaya bilməyib dedi:

— Arvad qabağında artıq-əskik danışmaq da kişiyə yaraşmaz, sözün var, söz danış!

Ağarəşid bir az ucadan dedi:

— Hanı, hanı o igid oğlun, bir qapıya çıxsın, danışaq!

— Evdə yoxdur!

— Necə yoxdur, ay arvad, bəri çağır!

— Yoxdur evdə, deyirəm yoxdur!

Ağarəşid quduz bir baxışla Sonanı başdan-ayağa süzdü:

— Bəlkə tumanının arasına girib, bir silkin görək!

Sona yerdən bir daş alıb elə hirslə Ağarəşidin üstünə atdı ki, dəysə sür-sümüyünü sındıracaqdı.

— İtin qoduğu, məndən nə istəyirsən, bəs deyilmi?

Ağarəşid kənara hoppanıb özünü daşdan güclə qorudu, «Nə kafir arvaddı bu», — deyə qorxu, vahimə ilə dalı-dalı çəkildi.

Sona qapını bərk çırpıb qayıtdı.

Ağarəşid qapıda barmağını silkələyir, Mərdanın evdə olmadığını yəqin edib daha da havalı danışır, meydan oxuyurdu:

— Gizlən, ayaqyalın oğlu ayaqyalın, gizlən! Əlbət bir kənd içinə çıxacaqsan! Ya gərək sən dünya işığına həsrət qalasan, ya gərək mən papaq əvəzinə başıma ləçək bağlayam... Gizlən!



Bu sözləri deyib, yastı, qıllı papağını göyə qaldırdı, bayraq kimi silkələdi. Dönüb gedəndə də Sonanın evinə tərəf baxıb, bütün hirsi, kin və ədavəti ilə təkrar etdi:

— Gizlən... gizlən! Heç eybi yoxdur!..

Ağarəşid ötüb gedəndə çəpərin dibindən, söyüd ağacları altından iki nəfər hoppanıb yola çıxdı. Onlar tez də gözdən itdilər.

Söz yox ki, Ağarəşid hampalığına, belinin xəncərinə, qolunun qüvvətinə, sözünün kəsərinə arxalansa da, təkə-təklikdə Mərdanın üstünə gələ bilməzdi. Atasının döyülməsi xəbəri bir dəqiqədə bütün kəndə yayılanda, Mərdanın küçələri basa-basa gəlib Hacı kişini, kəndin ağsaqqalını, necə deyərlər, «tac-sərini» tamam bihörmət elədiyini eşidəndə Ağarəşidin canına lərzə düşmüş, özünü yığışdırmışdı. Bütün ətraf kəndlərdə rəncbərin, kəndlinin «cızığından çıxması» indi lap aydın surətdə görünürdü. Mərdan isə gələcək təhlükəli bir düşmən kimi onun gözündə böyüyür, ürəyinə vahimə salırdı. Ancaq o bunu büruzə verməməyə çalışırdı. Həyətdə, döyülən atasının başına yığışanların yanında atılıb-düşür, igidlik göstərir, hop-hop gəlirdi.

Hacı «bu saat» yüzbaşının dalınca adam göndərmək istəyirdi. Qarınca xanım birbaşa pristavı çağırmaq üçün atlı çapdırmağı tələb edirdi. Kimi axunda şikayətlənir, ərizə yazılmasını məsləhət görürdü. Kimi Mərdanın «öyrədildiyini» iddia edirdi. Hacının qardaşı oğlu Bala Əbülfət irəli yeridi:

— Ay canım, ərizəni adamdan yazarlar, o nə itdir əlindən ərizə yazıla? Rəncbərdən də ərizə yazılarmı? Onun vayına oturmaq mənciyəzin boynuna! Bizə şikayətçilik yaraşmaz. Bizimki igidlikdir: rast gəldimi, vur öldür, dağıt! Qoy səndən şikayətə getsinlər. Kişi arvaddan şikayət eləməz, arvad kişidən şikayət eləyər. Mənim əllərimi pişik yeməyib ki? Şikayətim budur ey, var olsun yaman günün yarağı — qaşlı xəncər. Bu saat o lüt oğlunun baş-gözündə qırmızı xətlə bir ərizə yazım ki, qiyamətəcən şəhərbəşəhər oxunsun!

Bala Əbülfət bunu deyib qapıya yönəlmək istəyəndə sanki Ağarəşid yuxudan ayıldı.

— Əmioğlu,— dedi,— sən dayan, özüm öhdəsindən gələrəm.

Əmisi oğlanlarının da ona qoşulduğunu görüb cürətləndi, düşmən üstünə üçlükdə gəldilər. Öz aralarında tədbir tökmüşdülər. Ağarəşid qabaqca hərifi çağıracaqdı. Hərif onu tək görüb çıxanda o birilər quzğun kimi töküləcəkdilər üstünə.

Ağarəşid məhz yanınca gətirdiyi əmisi oğlanlarına arxalanaraq Sona ilə ucadan danışıb hədə-qorxu gəlir, meydan oxuyurdu.

Səhər açılmamış yüzbaşı Yassar Lətif Mərdangilin qapısını kəsdi. Sonra arvadın üstünə qışqırdı ki, «ya Mərdanı ver, ya dürüst yerin de!»

Sona and-aman elədi.

— Ay Lətif qardaş, özüm də bilmirəm. Axşam evdən çıxdığıdır. Əhvalatı da özgədən eşitmişəm.

Yassar Lətif qaşqabağını töküb ədalı-ədalı soruşdu:

— Kimə biçirdi?

— Heydəruşağına!

— Aşağıküçəlilərəmi?

— Bəli, aşağıküçəlilərə!

Yüzbaşı atı Heydəruşağının biçənəyinə çapdı, güman edirdi ki, Mərdan biçinə getmiş olar. Biçənəkdə şehi qurumamış ot içində iki nəfər kərənti çalırdı. Deyildiyinə görə, Mərdan heç bu gün işə gəlməmişdi.

*İkinci fəsil*

## «PONYATNO! PONYATNO!»

**Qarışqa qanad gətirəndə**
**ölümü yaxınlaşar.**

***(Atalar sözü)***

Bahar Daşlıcada quzu otarırdı. Təpənin böyründə qarı ərimiş, yenicə qurumuş quzeydə bir otluq yer tapmışdı. Sıx bitən körpə, yaşıl məxmər otlar torpağı örtmüşdü. Bahar quzuları mal-heyvan ayağı dəyməmiş bu xam yerə buraxdı.

O, həmişə otluq yer tapanda sevinərdi; çünki quzular, tərs çəpişlər uzağa getmir, başıaşağı otlayırdılar. Quzuların xırıt-xırıt otlamağı Baharın xoşuna gəlirdi. Aclığın dadını bildiyi üçün quzunu doyurmamış evə qaytarmaq istəməzdi.

Quzular ota daraşıb bir yerə komalaşanda Bahar arxayın oldu ki, heyvan buradan özünü doyurmamış çəkilməyəcək, heç yerə getməyəcək. Bir də gün əyiləndə dərəyə tökmək, suvarmaq lazım olacaq. Bahar indi özünü dinc, sərbəst hiss etdi, oynamaq istədi. Əl edib aşağıdakı quzuçuları hayladı. Qonşuları Mürsəl də dərədə otarırdı. Baharın səsini eşidib quzuları yuxarı diklədi.

Bahar onun özünü çağırırdı. Oynamağa çağırırdı. Hay vurdu.

— Özün gəl, ay Mürsəl, özün!

Mürsəl quzuların dalınca yüyürüb ağzını qaytarırdı. Ayaq səslərindən Baharın dediklərini yaxşı eşitmədi. Dayanıb əlini alnına qoydu, ona sarı baxdı. Bahar əli ilə işarə verirdi.

— Ayə, özün gəl, quzuları gətirmə, ey, gətirmə!

Mürsəl cavab verdi:



— Başına buraxa bilmərəm axı!

— Buradan baxarsan, görükür!

— Uzaqdır, sonra bir şey olar.

— Nə olacaq günün günortasında.

Mürsəl razı olmadı:

— Oynamıram! Bahar qışqırdı:

— Yaxşı, sür gəlsin!

Mürsəl də quzularını Baharınkılara qatdı. Onunkular lap ac idi. Bayaqdan dərədə, su kənarında, daşlar arasından tək-tək ot yarpağı tapan quzular indi lap yaşıllığa düşmüş, xırpaxırp salmışdılar. Çoxu tez-tez otlaya-otlaya sanki bir məhvər ətrafında hərlənirdi. Öz dövrəsindəki otu elə təmiz yeyirdi ki, deyəsən bu yeri, bir boşluq, tala açmaq üçün oraqla biçiblər.

Mürsəl belə quzularına «təndirqoyan» deyirdi.

Bahar çarığının burnu ilə torpağı eşib hamarladı:

— Qat-qat oynayaq.

— Məndə aşıq azdır.

— Məndə də. Səndə neçədir?

— Ver bir az.

Bahar yumruğunu düydü. Mürsələ tərəf tutdu.

— Təksən, cüt?

Mürsəl onun balaca yumruğunu ovcuna aldı, ovcunda soyuq bir daş duydu, diqqətlə baxdı. Onun balaca, quru barmaqlarında budaqlanan göy damarları və hətta sümükləri də görünürdü. Ancaq təkmi, cütmü daş götürdüyünü bilmək olmurdu. Barmaqlarını ovcuna bərk sıxmışdı. Əli ilə Baharın yumruğuna vurub dedi:

— Tək!

Oyun Baharın idi. O, cibindən çıxartdığı rəngbərəng aşıqlardan bir çəngə yerə tökdü, iki dənəsi alçı durdu.

— Ötür iki aşıq!

Mürsəl əlini cibinə salıb aşıqları çəngələdi, lakin cibindən çıxarmadı. Başını yana əyib cibində aşıqlara baxdı, xırdasını və pisini seçdi, Baharın üstünə atdı.

— Ədə, a çoban, quzunu qaytar hay!.. Qoruğa qoyma hay!

Bahar dik atıldı. Quzular uzaqlaşmışdı. Bir neçəsi təpəciyi aşıb qoruğa yaxınlaşırdı.

Mürsəl dedi:

— Mənimkilər təndir qoyur, sən yüyür!

Bahar enişə doğru qaçdı. Mürsəl qoruqçunun qorxusundan öz quzularını ayırdı.

Bahar dərəyə yaxın qoruğun mərzindən quzuları haylayıb geriyə apardı.

Qoruqçu kövşəndə olanda oynamaq qorxulu idi. Bahar aşıqlarını gizlədib quzunun dalınca düşdü. Ağacı çiyninə qoyub fit

verə-verə yeriyir, hərdən dərəyə daş atır, kol-kosu eşələyir, quş axtarırdı.

Belə yerlərdə qaranquş, qazalaq, göyərçin, bildirçin, kəklik yuvası çox olurdu. Baharın gözü otların arasında bir şeyə sataşdı. Diqqət eləyəndə dayandı. Ot basmış daşlar altında çil-çil bir şey görünürdü. Bu, quş qanadı deyilmi? Bahar əyiləndə kəkliyin başını gördü. Kəklik tərpənmirdi. Bahar yavaş yeridi. Papağını tez yuvanın ağzına basdı. Kəklik bərk çırpındı, qanad çaldı. Az qaldı əldən çıxsın. Bahar onun quyruğundan yapışdı. Quş dartınıb uçmaq istəyirdi. Bahar onu sevincək, ikiəlli qucağına basmışdı. Kəkliyin bala çıxardığını zənn edib yuvasına baxanda boz və balaca yumurtalar gördü. İsti, göyçək yumurtaları aşıq kimi ovuclayıb cibinə doldurdu. Dünyaları fəth etmiş kimi yeyin, sevincək yeridi. Mürsəli arzuladı. O inanmayacaq, inanmayacaq ki, Bahar kəkliyi diri tutmuşdur. Bahar isə daş altında gördüyü yuvaya necə ehtiyatla yanaşdığını danışacaq, yoldaşını daha da heyrətə salacaqdı... Bu hisslə yoldaşını neçə dəfə çağırdısa da cavab gəlmədi. Mürsəl dərədən o taya aşmış, uzaqlaşmışdı.

Burada dağlar arasında isə kimsə yox idi. Quzular balaca sahiblərinin şənliyindən xəbərsiz kimi başıaşağı otlayır, addım-addım yeriyirdilər.

Bahar quzularını ağzı yuxarı diklədi, özü də xeyli dikləndi, sonra dönüb üfüqə baxdı. Ayaz göy məxmər pərdəsini dağların üstünə salmışdı. Tək-tək uçan, ağır ləngərlə qayalar üstündə dövrə vuran qartallar hərdən ildırım kimi yerə şığıyırdı, o saat tülkü, dovşan səsi eşidilirdi. Bahar da indi bir ovçu idi. Onun ovu gözəl, qaragöz kəklik idi.

Bu axşam Baharın sevinci hədsiz idi. Özünü itirmişdi. Danışmağa adam axtarırdı.

Kölgəsinə baxıb vaxta çox qaldığını gördü. Kölgələr yenicə sallanır, gün yenicə əyilirdi. Bahar quzuların dalınca gedir, kəkliyin balaca, yumşaq, yaraşıqlı başını tumarlayıb badam kimi iri, qəşəng, sanki sürməli gözlərinə baxır, xəyal eləyirdi:

«Anam məni öpəcək. Deyəcəyəm kəkliyimə qəfəs al, bala çıxartsın, çöldən sünbül gətirim, yemləyim, böyüdüm, qağam biçindən qayıdanda, Suren əmim qonaq gələndə biz də quş kəsək...»

Bahar qucağında quş, əl ağacını qoltuğuna sıxmış, xoşbəxt xəyallar içində yoxuşu sürətlə çıxırdı. Birdən qəlbindən bir pıçıltı qopdu. Sanki ürəyi sinəsindən uçub getdi. Bahar yüngülləşən kimi olub xəyaldan ayıldı, dayandı. Dərəyə sarı uçan, güclü və iti qanadları ilə havanı yarıb gedən kəkliyə həsrətlə baxdı. Qucağının soyuduğunu hiss etdi. Bəlkə birtəhər tutmaq, daşla vurmaq gümanı ilə yüyürdü. Xeyli qaçmışdı. Səs eşitdi. Deyəsən kimi isə çağırırlar. Söyüd ağaclarının altında iki adamın əl elədiyini gördü. Dayandı.



Gələnləri gözlədi. Biri Ağarəşidə bənzəyirdi, o birini tanımaq olmurdu. Bahar dizində soyuqluq duydu. Diqqət edəndə dizliyinin bir yandan sapsarı saraldığını, yumurtaların ovxam-ovxam olduğunu gördü. Çiynindən çörək dəsmalını açıb təmizlədi, cibini qurutmaq üçün tərsinə çevirdi. Bayaqkı aydın, təzə və xoş xəyalların yerini yenə həmişəki ağır, qaranlıq, həsrətli yetimlik pərdəsi çulğadı.

Gələn Ağarəşid ilə Yassar Lətif idi. Bahar onların harasa ötüb gedəcəklərini güman edirdi. Dümdüz ona sarı gəldiklərini görüb məəttəl qaldı. «Mənnən nə işləri var?»

Çatan kimi Ağarəşid Baharın qolundan tutub sürüdü:

— Sən bizə gərəksən!

Bahar qorxdu, qışqırıb ağladı. Yassar yüzbaşı ona toxtaq verirdi:

— Qorxma, bala, söz soruşacağıq, qorxma!

Bahar getmək istəmirdi:

— Soruşun da, burada soruşun, deyim!

— Bura yeri deyil, gəl!

— Quzularım başınadı!

— Gəl, sənə deyirlər, gəl!!!

Yassar Lətif uşağı itələdi. Bahar elə zənn etdi ki, dərəyə, döyməyə aparırlar. Ağlayıb yalvardı:

— A Lətif dayı! Qurban olum, a yüzbaşı! Məni hara aparırsan?

— Qaraçılıq eləmə, gəl!

Bahar qorxusundan bilmədi nə etsin. «Ana, ana!» deyib gözünün yaşını tökdü.

Yassar bir qoltuğundan, Ağarəşid də bir qoltuğundan götürüb canavar quzu aparan kimi Baharı aparırdılar. Uşağın ayağı yerdən üzülmüşdü.

Baharın qışqırtı və yalvarışı gövşənə düşmüşdü. Biçinçilər haraya çatmaq üçün səs gələn tərəfə dikləndilər. Yassar çömçə kimi iri və sərt ovcunu uşağın ağzına basanda quzeydən qışqırdılar:

— Bağrı çatlar, ay kişi!..

— Sürümək nə üçün, özü gedir ki!..

Birisi bərkdən deyirdi:

— Sənin Allahın yoxdurmu, a namərd, uşağın nə günahı var?

— Acizmi tapmısan, a yüzbaşı!

— Qansız!

Bu səsləri Yassar eşidir, daha da hirslənirdi. Dişi bağırsağını kəsirdi. «Nə üçün gecə ilə uşağı çağırıb xəlvəti danışdırmadı, onda, belə hay-küy düşməzdi! Kəndlinin ağzını yummaq da asan deyil!»

Yassar, Baharın qollarından bərk-bərk tutub sürüyürdü. Dodağını gəmirə-gəmirə, qızaran gözlərini düzlərə yayındırıb baxırdı. Baxırdı, ürəyində hədə gəlirdi: «Ay it uşağı, yüzbaşını uzaqda

görürsünüz! Əlbət başım açılar, sizə də bir əl qataram. Baxarsınız Allahım var, ya yoxdur!»

Mürsəl quzularını dərəyə suvarmağa aparmışdı. Baharın qışqırıq səsini eşidib diksindi. Ona elə gəldi ki, Baharı ilan vurub, ya canavara rast gəlib. Çomağını qapıb səs gələn tərəfə yüyürdü. Uca, sıldırım qayalar Baharın səsini alıb bir az da bərk və bir az da yanıqlı təkrar edir, sanki bütün aləmi — dağları, daşları köməyə çağırırdı. Mürsəl var gücü ilə qaçırdı. Səsin boğulduğunu duyub ağlamsındı. Özünü Baharın yanına saldı.

Mürsəl, Baharı bu vəziyyətdə, qorxulu əllərdə çapalayan görəndə ixtiyarsız ağladı. Yüzbaşının dalınca qaçıb yalvarmaq istədi. Lakin bunun nəticəsiz olacağını düşünüb geri qayıtdı. Tələsik dərəaşağı qaçdı. Birbaşa kəndə yüyürdü. O, Baharın anasına xəbərə getdi.

Baharın ağlamaqdan tutulan sızıltılı səsi kəsilməkdə idi. Uşaq lap dildən düşmüşdü. Böyümüş gözlərindən axan yaş yaxasını islatmışdı. Uşaq hər ötəndən kömək, hər addımda mərhəmət axtarırdı. Ötənlər isə başlarını aşağı salıb gedir, yaxud Yassara lənət oxuyurdular. Uşağı dəftərxanaya apardılar.

Yüzbaşının otağında bir dəstə yad adam var idi. Onların haradansa kəndə yenicə gəldiyini danışırdılar. Çalbaş, gödək, şeşəbığ, sifətindən zəhər yağan kişi irəli yeridi. Yassar Lətifə acıqlandı. Baharı dilə tutdu:

— Uşağı niyə incidirsiniz, ağlama, bala, ağlama!

O, Baharın başını tumarladı. Uşaq bir az da kövrəldi. Gözündən damcı-damcı yaş tökdü. Bahara kökə gətirdilər. İki parça qənd verdilər. Bahar əl vurmadı. «Sovqatı» onun ətəyinə qoydular. Bahar ətəyini silkib şeyləri yerə saldı. Şeşəbığ, Bahara sarı əyilib onu danışdırırdı:

— Ağlama, oğlum, səndən söz soruşuruq, sən yaxşı oğlansan, niyə ağlayırsan? Bu saat buraxaram, anayın yanına gedərsən. Al, bu da sənə gilas pulu! Ağlama...

Bahar dirsəyi ilə şeşəbığ kişinin iki abbası pul təklif eləyən əlini rədd etdi. Başını aşağı saldı. Şeşəbığ soruşdu:

— Kimin nökərisən?

Bahar dinmədi.

Şeşəbığ başını qaldırıb Yassardan uşağın adını öyrəndi və yenə mehribanlıqla soruşdu:

— Oğlum, Bahar, de görüm, ağan kimdir?

Bahar gözünü silə-silə cavab verdi:

— İlyas bəy!

— İlyas bəy? Ay sağ ol! Yaxşı, bəy səni çox işlətmir ki?

— ...

— İncitmir ki səni?



— ...Yox!

Şeşəbığ geri dönüb yasavula nə isə dedi, yasavul çıxdı. Şeşəbığ davam etdi.

— Bəyin quzusuna gedirsən, hə?

— Hə...

— Otarırsan, yaxşı, bəs bəy sənə paltar niyə vermir?

— Verir!

— Verir, hə, deməli, sən özün təzə paltarı geymirsən ki, təzə qalsın, eləmi?

— ...

Şeşəbığ sualının mətləbdən kənar düşdüyünü fikirləşib geri döndü, sözünü dəyişdi:

— Bəs atan kimdir?

— Ölüb!

İlyas bəy içəri girəndə Şeşəbığ belini düzəltdi. Bahara işarə edib geri çəkildi. İlyas bəy onun yerinə keçdi. Sifətinə süni bir mehribanlıq verib uşağı dindirdi:

— Bıy, mənim quzuçum burda nə gəzir? Bəs quzuları kimə tapşırmısan, ay qırışmal?

Bahar dinmədi. Sonra kəsmə-kəsmə, güclə deyə bildi:

— Məni bunlar gətirib.

Bəy adamlara baxdı.

— Deyəsən bu ağlayıbdır? — Şeşəbığa baxıb dedi. — Bəy, aram dəyər ha, mənim quzuçumu kim ağladıb? Belə üzüyola uşağın qəlbinə dəymək olmaz, bəy. Sizdən inciyərəm ha!

İlyas bəy, adətindən kənar olan bir vəziyyət aldı, şalvarının dizlərindən tutub yuxarı çəkdi, Baharın qabağında çöməldi, əlini onun başına, dağınıq, qara qıvrım saçına çəkib dedi:

— Qoçaqdır, çox qoçaqdır mənim quzuçum. — Əlini Baharın kürəyinə qoydu.

— Yaxşı, bəs pulları nəyə xərclədin?

Bahar dinmədi.

İlyas bəy bir də soruşdu:

— Bəs Mərdan verən pulu nəyə xərclədin?

— Pul yoxdur!

— Bəs Mərdan vermədi?

— ...

— Bəs sənə beş manat naçay göndərmişəm. Tapşırmışam özünə versin, iki gün bundan qabaq?

Şeşəbığ dilləndi:

— A bəy, Mərdana lazım olub, yəqin qonağı-zadı gəlib, yoxsa Baharın pulunu xərcləməz. Baharı o çox istəyir.

Dayananlardan biri dedi:

— Şəhərdən Bahara çust almağa gedib, eləmi, Bahar?

İlyas bəy təkrar Baharın başını tumarladı:

— Hə? Qonağınız var idi?

— ...

— Nə bişirmişdi anan?

Bahar başını qaldırıb bəyin üzünə baxdı. Sanki baxışı ilə bu danışıqların, ömrü boyu görmədiyi, düşünmədiyi bu əzizləmənin mənasını bilmək istəyirdi. Şeşəbığ kişinin sifətində isə çoxdan bələd olduğu bəylikdən başqa bir əlamət görmədiyi üçün əvvəlki vəziyyətində durdu:

— Anan nə bişirmişdi?

— Heç nə!

— Bəs nə yedi qonaq?

— Yemədi!

— Kim idi qonağınız?

— Suren dayı!

Uşağın bu cavabı bəylərin hamısının məmnuniyyətinə, şən hərəkətinə səbəb oldu. Otaqda xoş bir tərpəniş duyuldu. Çətin bir düyün açılmış kimi adamların tutqun sifəti açıldı. Bunu Bahar da hiss edib ətrafına baxdı. Hamıdan çox sevinən İlyas bəy gözü ilə Şeşəbığa işarə vurdu. Uşaqdan aldığı cavabın özünün böyük məmurluq məharəti və xəfiyyə hünəri kimi qələmə verib qəddini düzəltdi, bir papiros yandırıb davam etdi:

— Hə, Suren dayı, Suren dayı, hə! Tanıyıram, o, mənim dostumdur ki, bizə də gəlmişdi. Suren!

İlyas bəy sözünü xüsusi bir əda ilə dedi; çünki burada onun sevinci ilə nifrəti qarşılaşmışdı. O, Bahardan istədiyini ala bildiyinə nə qədər sevinirdisə «Suren» adını eşitdiyinə o qədər hirslənirdi. Məqsədinə nail olduğu üçün qəzəbini boğdu, ah çəkdi. Nəfəsini dərdi. Şeşəbığın üzünə mənalı baxdı.

Şeşəbığ tədbirli adam idi. İlyas bəy him elədi ki, «Soruş, hə-ə, çox şey var, soruş, fürsətdir!» İlyas təkrar uşağa müraciət etdi:

— Bəs Suren dayının yoldaşları kim idi?

— Bilmirəm!

— Bəs nə təhər adam idilər, şəhərli idilər, yoxsa bizim kənddən?

— Kim?

— Suren dayının yoldaşları!

— Görmədim.

—... Bəs Suren dayı sənə nə bağışladı?

— Heç nə.

— Hara getdilər?

— Biçinə.

İlyas bəy dayananlara baxdı. Heç kəs dinmədi. Otağı dərin, mənalı bir sükut bürüdü. Şeşəbığ, İlyas bəyə baxa-baxa, razılıq işarəsi



olaraq ağarmış başını ahəstəcə tərpətdi. İlyas bəy də ona yanaşıb, qulağına deyirmiş kimi, yavaşcadan təkrar etdi:

— Ponyatno, ponyatno!

Mürsəl kövşəndən qaça-qaça Baharın anasına xəbər aparanda Sona ocaq başında idi. Sac qızdırıb fətir salmaq istəyirdi. Baharın başına gələni eşidib özünü itirmişdi: o, bilirdi ki, kiçik bir uşağı söz almağa aparırlar. Onu da bilirdi ki, Bahardan nə soruşsalar deyəcəkdir. Söz gizlətməyi nə bacarır! Fağır bir kənd uşağıdır, «biclik» bilməz. Yüzbaşının hiyləsini nə başa düşəcək!

Ayaqyalın, başıaçıq dəftərxanaya yüyürdü. Qapıda kəndlilər gözləyirdilər. Kənar sütunlarda at bağlanmışdı. Sona düz içəri yeridi. Yasavul mane oldu:

— Hara soxulursan, ay arvad?

— Yüzbaşı buradadırmı?

— İşi var!

— Söz deyəcəyəm, qoy gedim.

— Olmaz!

— Vacib sözüm var!

— Olmaz dedim!

— Necə yəni olmaz? Bəs bir parça uşağın bağrını çatlatmaq olarmı?

Sona sözünü deyib yasavulun sinəsindən itələdi, içəri yüyürdü. Yasavul qışqırdı:

— Ay ərkansızın qızı, bəri qayıt görüm!

Sona baxmırdı. Dəhlizdəki adamları aralayıb özünü dib otağa salmaq istəyirdi. Yasavullar onu qucaqlayıb qapıya atdılar. Sona gücü gəldikcə qışqırdı və yenə idarəyə yönəldi. Qışqırığa camaat töküldü. Yassar Lətif dib otaqdan tələsik çıxdı, adamlara acıqlandı.

— Ay camaat, dəftərxanada adam var axı! Vacib iş görürük axı, nə qışqırırsınız!

Bu halda Bahar qapının ağzında göründü. Anasının səsini eşidəndə dayana bilmədi, özünü Sonanın üstünə atdı.

— Ana! Haradasan, ay ana!

— Can bala, bu qansızlar səndən nə istəyirlər?!

*Üçüncü fəsil*

## TƏCİLİ TƏDBİR

**Arxalı köpək qurd basar.**

*(Atalar sözü)*

Dairə müstəntiqi şeşəbığ kişi Baharı danışdırıb qayıdan günün sabahı, səhərin gözü açılar-açılmaz Güney kəndi atlı ilə doldu.

Bu son günlərdə Güneydə inkişaf edən qəribə hadisələrin sürəti hamını düşündürür, məşğul edirdi: köç yolunun qırağında, balaca bir gölün ətrafında, uzun qovaq, qarağac, söyüd kölgələrində səssizcə yatan, zahirən səs-küydən uzaq görünən kənd, indi dəstə-dəstə atlıların, pristavların, naçalniklərin, müstəntiqlərin ovlağı olmuşdu. Yüzbaşının başı yaman qarışmışdı. Gələnlər bir deyil, iki deyildi. Ömründə ayağı bu yerlərə dəyməyən böyük qulluq sahiblərindən tutmuş Bağbanlardan çağırılmış etibarlı bələdçilərə qədər hər gələnin qabağına çıxmaq, atının cilovunu tutmaq lazım idi. Hampalar, hacılar kömək etsələr də Yassar Lətif özünü itirmişdi. Rəngbərəng, müxtəlif biçimdə, müxtəlif cinsdən olan atlar kişnəyərək kəndi-kövşəni başına alır, küçələri tozanaq edirdi. Faytonlar dar küçələrə yerləşmirdi. Adamlar tez-tez yığışıb dağılırdı. Doqqazdan həmişə söyüş, qışqırtı, ağlamaq səsi gəlirdi. Ağsaqqallar, mollalar məsləhətə, məşvərətə gələnlər əlindən macal tapmırdılar. Kənd qoşunkeşlik zamanları andırırdı.

Bəziləri bunu, bu həngaməni, ümumiyyətlə, dünya işlərinin «çəlpəşik» düşməsi ilə, bəziləri allahın günahkar bəndələrə keçən qəzəbi ilə, çoxları isə bəylərin, böyüklərin qudurğanlığı ilə izah edirdi. Bunların hansının düz olduğunu düşünüb müəyyən etməyə vaxt da yox idi. Bir-birini təqib edən, bir-birindən sərt və nagahani görünən hadisələr ara vermirdi. Bir də görürdün ki, dəyirman üstündə itlər hürüşdü, dəstələri ilk qarşılayan da itlər olurdu.

Kəndə hay düşəndə Yassar yüzbaşı, Hacı İbrahimxəlil, Fazil molla cəld doqqaza çıxıb atların cilovunu tuturdular.

Yassar bu dəfə atlıların içində nahiyə pristavı Ağa bəyi görəndə yəqin elədi ki, dünənki əhvalatı eşidib Mərdanın işi üçün gəliblər. Yəqin elədi və çox da sevindi. Düşündü ki, Ağa bəy onun, Baharı kövşəndən qulaqlayıb bağırda-bağırda gətirməkdə, Mərdanın evini axtarmaqda, kənddən mahala qədər aləmə səs salmaqda göstərdiyi canfəşanlığı eşitmişdir. Buna görə də pristav onu əzizləyəcək, afərin deyəcəkdir, yanına çağırıb məsləhətləşəcək, idarəsinin sirrini, ürəyinin bütün sözünü ona açacaqdır. Bu ümidlə sevinən Yassar, nökərlərə macal vermədən Ağa bəyin atını tutmağa yüyürdü, yetişən kimi iki əlini bəyə tərəf uzadıb gülümsər və tabe halda dedi:



— Bəy cənabları çox xoş gəliblər!

Ağa bəy ona əl vermədi. Qəzəbli və dəvərə gözləri ilə acıqlı-acıqlı baxıb dedi:

— A binamus oğlu binamus, utanmırsan, mənə əl də verirsən?! Bolşeviklər kəndi dağıdırlar, sən harda küllənirsən, ay arvaddan əskik? Günün günortaçağı Hacı palan kimi şappaşap döyülür, sən daxmada fıshafıs yatırsan?!

Ağa bəy yumru və yoğun gövdəsini hirslə atdan yerə saldısa da, nəzərini Yassarın sapsarı saralan və sanki bu saat kiçilən sifətindən ayırmadı. Yassar, pristavın gözlərindən od töküldüyünü görüb əsdi, kənara çəkildi, cilov əlindən yerə düşdü.

Atlıların içində Gəncədən çağırılmış Nəşət çovuş deyilən bir osmanlı zabiti ortada fır-fır fırıldayırdı. O, çox zəhmli və zalım adam idi. Qabağına gələni qamçılayır, qışqırtısından qulaq tutulurdu. Adamların üstünə elə cumurdu ki, deyərdin kəsməyə baş, içməyə qan axtarır.

Bir neçə nəfər də pristavın öz adamlarından gəlmişdi. Hacı İbrahimxəlil qabağa düşüb gələnləri öz evinə, ikinci qatda əziz qonaqlar və divan adamları üçün saxladığı, fərşlə döşənmiş otaqlara apardı. Atları isə küçədə gəzdirib tərini soyudurdular.

Bahar İlyas bəyin samanlıq damında oturub tamaşa eləyirdi, ağlına gəlməyən, beyninə sığmayan qəribə-qəribə işlər görürdü. O görürdü ki, kəndin ağası, camaatın canına əzrail qorxusu salan yüzbaşı, Vəznəli kişinin — Ağa bəyin qabağında tülkü kimi qorxur, tula kimi yellənir. O görürdü ki, qabağında heç kəsin cıqqır çəkməyə cəsarət etmədiyi kişiyə itin sözünü deyirlər, başını qaldırıb cavab da vermir, sanki onun kəndlilərə söyən dili kəsilmişdi. Həmişə oynayan çənəsi yerindən çıxmışdı.

Bahar görürdü ki, kürkünü, çuxasını nökərlərə təmizlədən Yassar, Vəznəli kişinin yanında ikiqat bükülür, ayağına yıxılıb öpmək istəyir. Dustaq kimi başıaşağı, qaşqabaqlı, dinməz-söyləməz yeriyir. Bahar görürdü ki, həmişə kənddə burunlarını dik tutub gəzən, heç nəyi, heç kəsi saya salmayan yasovullar, indi gələn məmurların atını yemləyirlər, üstünün tozunu təmizləyirlər.

Bütün bunlar Bahara yuxu kimi gəlirdi. O, necə təəccüb etməsin ki, ayrı vaxt çiynində Xorasan kürkü, əlində kəhrabalı əsa, qurşağında gümüş başlı çubuq, başında Buxara papağı olduğu halda xınalı saqqalına sığal verib darvazasında ağır dayanan, gəlib-gedəni məxluq saymayan, istədiyi adamı döydürən, nökərlərə çımxıran Hacı İbrahimxəlil, osmanlı zabitinin qabağında əl-əl üstə qoyub gəzir, döşənmiş evlərini göstərir, minbir dil tökür:

— Əfəndim həzrətləri buyuracaqlar, qulluğu-şərifinizdə kəmərbəstə hazırıq! Nökəriniz hacı... Hacı İbrahimxəlil... Bəndəniz varıq...

Bahar görürdü ki, məmurlar qamçılarını uzunboğaz çəkmələrinə vurub şaqqıldadır, küçədə uşaqları qorxudurlar. Məmurların biri çərçiyə yanaşıb yüklü eşşəyi dayandırdı.

— Körpə xiyardan neçiyədir, a çərçi? — deyə əlini səbətə saldı. Bir ovuc peyvənd alça çıxarıb birini ağzına qoydu, ovcundakıları göstərib yoldaşlarını da səslədi:

— Bəri gəlin, əyə, bəri gəlin!

Çərçi şeylərinin talanacağını görüb xəlvətcə eşşəyini bizlədi, aradan çıxmaq istədi. Yumru məmur səbətdən bərk-bərk yapışıb buraxmırdı. Çərçi eşşəyin yerimədiyini görüb mat-mat məmurun üzünə baxdı. Məmur acıqlandı:

— Nə marıtlayırsan oğru pişik kimi?!

— Xan, heç, sizə baxıram!

— Mənim nəyimə baxırsan, əşi?!

Çərçi dedi:

— Xan, mən baxıram, lap məəttəl qalıram! Maşallah, eşşəkdən güclü imişsən!

Məmur öz gücünə, qıraqdan baxanların bunu hiss etdiyinə fərəhlənib səbətdən daha da bərk yapışdı. Qolunu salıb meyvələri ciblərinə doldurmağa başladı. O biriləri də daraşdılar, çərçi dilləndi:

— Xan, bəs bunun ölçü-biçisi yoxdur?

— Mənim ovcum tərəzidir, düz girvənkə tutur.

— Bəs pulu kimdən çatacaq?

Məmurlar gülüşdülər:

— Həzrət Abbasdan!

Hacının təzə, böyük, bahalı fərşlə döşənmiş, eyvanına sarmaşıqlar və tənəklər dırmaşmış evində şirin ziyafət idi. Hacı hərdən gələn əziz qonaqları razı salmaq, həm də özünün qüvvəsini, «var-dövlətini» göstərmək üçün əlindən gələni edirdi.

Dal həyətdə mehtərlər axurlara xəlbir-xəlbir arpa tökürdülər. Atlar qızışıb hırnaşır, hoppanıb düşür, cilovlarını qırıb qaçmaq istəyirdilər.

Qonaq həyətində isə özgə bir aləm vardı. Atların kişnəməsi eşidilmirdi, eşidilə də bilməzdi, çünki qonaq həyəti dal həyətdən tamam kənar salınmışdı. Hacının qonaq həyəti mahalda məşhur idi: dördbir yanı uca, quşqonmaz möhrə divarlarla örtülmüşdü. Hər küncdə bir cüt uzun; buğum-buğum maral buynuzu sancılmışdı. Buynuzlu künc divarlar sanki fələklə döyüşmək üçün göylərə baş qaldırmışdı.

Hasar boyu uca divar üstündə iti, rəngarəng şüşə qırıqları sancılmışdı.



Bu şüşələr yalnız oğru-əyridən qorunmaq üçün deyildi. Bunlar həm də gün işığında uzaqdan bərq vurur, qiymətli daş-qaşı xatırladırdı. Hacı özü atla dolaydan ötəndə cilovu çəkib dayanar, həyətinə dönə-dönə baxar, «Çargül boyunbağı»dan həzz alardı.

Həyətin içi elə qaranlıq idi ki, evlər çətin seçilirdi. Gilas, ərik, şaftalı, alma, armud ağacları, söyüd, nar çiçəkləri, qızılgüllər bir-birinə qarışıb kənardan baxana nəhəng bir gül dəstəsi kimi görünürdü. Böyük çarhovuzda qaz, ördək üzürdü. Evin səqflərində, damında yaşayan göyərçinlərin sayı-hesabı yox idi. Onlar qanad açıb, havada cövlan vurub oynadıqca sanki Hacının başına qızıl-gümüş nisar edirdilər.

Lakin bu gün quşlarla maraqlanan yox idi. Baş yaman qarışıqdı.

Nökərlər sədri düyüsünü möhürlü kisələrdən açıb qazana tökürdülər. Qarın-qarın inək yağı gəlirdi. Qucaq dolusu qab gətirilirdi, qat-qat ağ lavaş doğranılırdı. Bir saatdan çox olardı ki, dükançı Ağaələsgər qaz boynunu uzadıb müştərilərinə demişdir: «Camaat, dükan Hacıya zanitdir, qıraq adama şey satılmır». Ağaələsgərin səliqəsilə kisələrdə çəkilmiş kişmişi, albuxaranı, şabalıdı, əriyi daşıyan kim, araq-çaxır şüşələrini yığmaq üçün səbət gətirməyə gedən kim, zəfəranı bəyənməyib geri qaytaran, lumu cövhəri üçün qonşu kəndə at çapan kim...

Ləklərdən təptəzə şüyüd biçmək üçün dirrikçi Rəhimi kövşəndən tapıb atla apardılar. Yumurta sarısından aşa qazmaq salmaq üçün İsmayıl xanın köhnə aşpazını — məşhur Möhlət arvadı gətirdilər, Hacının qardaşı oğlu, ovçu İsrafilin dalınca getdi ki, beş-on dənə turac əl-ayaq eləsin, ev qulluqçuları su daşımaqdan yoruldular, lakin hər küyüm su bu dəm-dəsgah yanında bir damcı məqamında idi, həyətdə daşlar düzüldü, böyük ocaq qalandı, qazan asıldı, aşpazlar çirməndi, kəfgirlər, çömçələr işə düşdü.

Bir saatın içində Hacının evi xeyrat yerinə döndü. Erkək ətini çardaqdan asdılar, şaqqaladılar. Turacdan bir xəbər çıxmamış, haradansa dörd hinduşka ütülüb hazır edildi. Zəfəran iyi soğança, qovurma iyi bir-birinə qarışmışdı. Hər yoldan ötən Hacının darvazasında dayanıb köksünü ötürürdü:

«İlahi, bu nə Süleyman dəsgahıdır!» Hacı hərdən əlində qəlyan çıxıb eyvandan baxırdı. Qurduğu dəsgahın, cah-calalın camaata necə təsir bağışladığını görüb qarnını irəli verir, ucadan öskürürdü.

Mərdana və onun tərəfdarlarına göstərmək istəyirdi ki, «Görün Hacı nə hacıdır! Görün Hacının necə adamları var, bir işarə versə, əlli sizin kimisini mal damına qatar!»

O biri tərəfdən də Hacı şəhər qonaqlarına öz qüdrətini bildirmək istəyirdi:

«Görün, — deyirdi, — şəhərdə əyləşən ağalar, görün və arxayın olun ki, kənddə də şəhər dəsgahı ilə ömür sürənlər var. Hərçəndi məni parlamana vəkil salmadınız, eybi yoxdur, sabah parlamanın özü bərkə düşəndə beş şahı pul üçün yenə mənim, bəli, mənim qapıma gələcək. Eybi yoxdur, örkən nə qədər uzun olsa, hərlənib doğanaqdan keçər, bala!.. Heç eybi yoxdur?»

Hacı xəyalında saxlamışdı ki, evinə gələn pristavdır. Nahiyənin ağasıdır. Hər iş ondan aşır, bir sözü iki deyil. Divan adamları özlərində yox, özgədə çox yemək-içmək, səxavət sevən olurlar. «Mən bu gün beş-altı yüz manat xərc eləməklə kasıb düşmərəm. Amma sabah yerində, Bakıda stol paylananda bu kişi bircə kəlmə dodaqucu desə ki, «Bəli, Hacı İbrahimxəlil də var!», mənə bəsdir. Beş yüz əvəzinə beş min gələr. Mən özüm məsələmə arifəm. Xərcləməyin təhrini bilirəm. Bilirəm hara maya qoyuram və niyə qoyuram! Bu xərc mənə nuşdur. Əvəzi birə-beş çıxar.

Bu fikirlər Hacını daha da ruhlandırırdı. O, qonaqların sağına-soluna keçib öz ayaq adamlarına təpinirdi:

— Tez olun, süfrə açın, gətirin, götürün, əl suyu verin!

«Əl suyu» deyən kimi Hacının nökəri Mehdi əlində uzunboğaz gümüş aftafa, ləyən, qolunda xoruzlu dəsmal ədəb-ərkan ilə içəri girdi. Ortada salınmış kənarəli Girman xalısının üstü ilə yavaş-yavaş yeridi. Düz pristavın qabağında bir dizini bükdü, ləyəni irəli itələyib «Ya Allah!» dedi. Ilıq suyu pristavın ağ, tüklü, kök əlinə tökməyə başladı.

Əl suyu qurtarhaqurtarda məclis boyu naxışlı şal süfrə açıldı. Beş nəfər cəldayaqlı adam, yalan olmasın, azı yarım saat süfrəyə şey daşıdı. Süfrə dolduqca qonaqların iştahı və habelə təəccübü artırdı.

Onları heyrətə salan hər şeydən çox Hacının nahar qab-qaşığı—servizləri idi. Qablar böyüklü-kiçikli bir fabrikin məhz belə bir süfrə üçün hazırladığı xüsusi möhürlü dəst idi. Qaşıqlar, çəngəl-bıçaq hamısı qızıl suyuna çəkilmiş gümüşdən idi. Hamısının sapında, iyar yerində balaca bir möhür var idi. Bu möhür Hacının kufi xətt ilə çox məharətlə yazılmış imzası idi.

Hacı İbrahimxəlil şöhrətpərəst bir adam idi. İstərdi ki, həmişə, hər yerdə hamı onun dəsgahından dəm vursun, var-dövlətindən, səliqəsindən, səxavətindən, süfrəsindən desin. İşini elə qurmuşdu ki, evlər dolusu qonağı olaydı, xəyala gələn hər cür xörək bişiriləydi, özgədən gətirilmək üçün bir çöpə də ehtiyac olmazdı. Hər şey dəst-dəst, artıq-artıq. Elə ondan hesabını apar ki, Hacının irili-xırdalı on bir samovarı var idi: ev samovarı, qonaq samovarı, məclis samovarı, ehsan samovarı... Hamısı da cüt-cüt, bir ağ, bir sarı, bir ağ, bir sarı!



Yalnız qarpızı samovar—ev samovarı tay idi. Onu da Qarınca xanım tay eləmişdi: çünкi ona cüt şey düşmürdü. Əlacı olsa gözünün də birini çıxarardı, tay gözü ilə кeçinərdi.

Bu Süleyman dəsgahı ilə belə, pristavın üzü gülmürdü, bulud кimi qara qaşqabağı açılmırdı. O, yuxarı başda yastığa söyкənmiş, uzunboğaz çəкməli iri «vəl» ayaqlarını süfrədən кənara uzatmış, bir əlini sinəsinə qoymuş, damağında papiros dərin fiкrə getmişdi. Sanкi evin səqfinə qalxan papiros tüstüsü pristavın başından qalxan dumanlar idi. Bu duman içində o çox şey axtarırdı, ancaq bir şey tutmaq çətin idi.

Hacı düşünürdü: «Görəsən bu niyə belə eləyir, zalım oğlu deyəsən hop tutub».

Pristav bərк fiкrə getmişdi və fiкrə getməyə də haqqı var idi.

Hacı ayrı vaxtda belə təntənəli qonaqlıq düzəltsəydi, belə ağayana süfrə açsaydı, ehtimal, pristav ya qardaşdan artıq istədiyi кəhər atını Hacıya bağışlar, ya da Hacını heç olmasa bir neçə кəndə yüzbaşı qoyub qayıdardı.

Amma indi?

İndi heç başa düşməк olmur!

İndi Hacının bu gətir-götürü pristava qarışqa yerişi, evi də qarışqa yuvası кimi кiçiк və vecsiz gəlirdi. O elə pərt idi кi, bütün aləm gözünə qaranlıq zirzəmi görünürdü. Bunun da səbəbi var idi.

Əslinə baxsan pristav və onun dəstəsi şəhərdən çıxanda heç vaxt Güney кəndi deyib çıxmamışdılar və çıxa da bilməzdilər; çünкi belə bir iş üçün nahiyə var idi. Bu кənd bəlкə də heç onların yadında deyildi; çünкi yetmiş bir para кəndi olan mahalda Güney кimi balaca bir yerə Ağa bəy кimi böyüк bir adam nə məna verə bilərdi кi, onu yada da salsın.

Pristav vacib bir əmr üçün şəhərdən çıxmışdı, o da bundan ibarət idi:

Ötən ayın axırlarında Gəncə alayının iкinci bölüyündən yeddi əsgər qaçmışdı. Həmin adamların barəsində təcili tədbir görməк üçün nahiyə-inzibat idarəsinə məxfi tapşırıq verilmişdi. Nahiyə rəisi Xəlil həmin işə görəmi, başqa bir məqsəd üçünmü, hələ bəlli deyildi, Kürün qırağına gedəndə axşam vaxtı, Ağalıq кəhrizinin başında Güney кəndinin beş verstliyində öldürülmüşdü. Rəisin başını кəsmişdilər. Tüfəng-tapançasını aparmışdılar. Atına dəyməmişdilər. Bu xəbərdən təşvişə düşən Gəncə qubernatoru, кöməкçisini (müvəqqəti nahiyə pristavı vəzifəsini aparan) həmin bu Vəznəli кişini doqquz nəfər atlı ilə dəmir yolun altındaкı кəndlərə «təhqiqata» göndərmişdi. Vəznəli кişi rəisin qatilini — «hökumət, din və millət xainini» ələ кeçirməyincə, «fərari»ləri tapmayınca, «кöкünü кəsməyincə» geri qayıtmayacaqdı. Vəznəli кişi qubernatora baş əyib pilləкənlərdən düşəndə güman edirdi кi, uzağı

üç günə qatili tapıb gətirəcəkdir. Əl-qolu bağlı, atın yedəyinə qatıb gətirəcək, qubernatorun hüzuri-alilərindən ənam alacaq, daha bir mərtəbəartacaqdı.

Deyərlər: «Sən saydığını say, gör fələk nə sayır».

Qoca fələk ayrı hesab çəkirdi.
İşlər də lap ayrı cürə gedirdi.

Cəza dəstəsi kəndlərə düşüb bu iş üstündə xeyli adam tutdu, şahid danışdırdı, sübut axtardı, camaata qara-qorxu gəldi. «Gördüm, bildim» deyən olmadı. Sanki bu əhvalat heç Gəncə mahalında olmamışdı. «Fərari»lərin biri də ələ keçmədi. Onların qohumları, ataları, qardaşları həbsə alındılar, döyüldülərsə də işi müəyyən etmək üçün zərrə qədər əlamət görünmədi. Əksinə, Vəznəlinin dəstəsini iki dəfə kənd-kövşən arasında gülləyə tutdular. Yasavullardan üçü qaçdı, biri öldü. Pristavın da atına güllə dəydi. İş o yerə çatmışdı ki, pristav nəinki gecə vaxtı, hətta hava qaralanda yola çıxmağa qorxurdu. Ona elə gəlirdi ki, «fərari»lər axşam qaranlıqlaşan kimi kəndə doluşur, məmur axtarırlar. Hətta hökumət adamlarını vurmağa fürsət arayırdılar. Sonralar Vəznəli işin bir ucunu nəsihətə çevirdi. «Siz o adamların adını deyin, onları üzə çıxardın, hökumət qabağında onları qurtarmaq, təmizə çıxarmaq, bağışlamaq, günahından keçmək mənim borcum. Mən vəzifəmə və onun şərəfinə and içirəm, ey müsəlman qardaşlar!..»

Camaat da dediyində dururdu. «Canım, əsgərliyə gedəndən bəri onlar bu səmtə üz çevirməyiblər, qaçdıqlarını da sizdən eşidirik. Bunu bilsək özümüz axtarardıq, nə bilək, nədən bilək? Gecə-gündüz işdə-gücdəyik, elə işlərdən nə xəbərimiz? Biz kasıbçılıqla məşğuluq...»

Vəznəli kişi vəziyyəti telefonla qubernatora deyəndə, o, astadan öskürmüş, cavab vermişdi:

— Deyəsən kəndlərdə çox üzüyumşaqlıq eləyirsən. Tərəkəmənin gönünü soymasan, söz ala bilməzsən. Nəşət əfəndini köməyinə göndərirəm. Tezliklə xainləri səndən istəyirəm!

Qubernator səsini ucaldaraq hirslə deyirdi:

— Sən... Səndən istəyirəm! Eşitdinmi?!

Vəznəli kişi «Baçeşm!» deyib telefonun dəstəyini asandan sonra yenə itə dönmüşdü. Quduz kimi dil-dodağını çeynəmiş, kəndlilərin canına daraşmışdı, həmin günün axşamı Nəşət əfəndi iki atlı ilə gəlib çıxdı. Vəznəli kişi ilə plan tökdülər.

Onlar cinayətin baş verdiyi yerdən — Ağalıq kəhrizindən on dörd verst sağa, on dörd verst sola, on dörd verst yuxarı, on dörd verst aşağı bütün kəndlilərin siyahısını (adamların adı, atasının adı, peşəsi, kəndi, yaşı, «etiqadı haqqında qeydlə») hazırladılar. Bir



ucdan tutub hər kəndi Nəşət əfəndinin əmri, üsulu ilə «zopadan keçirməyə» başladılar. Çatan kimi yüzbaşını, axundu, mötəbər kişiləri (hampaları) çağırıb məşvərət qururdular: «Babı, dələduz, quldur, namərbut şübhəli» adamları cəld bir-bir tutdurub tövlələrə yığırdılar. Camaatı məscid həyatinə çağırır, tutulan adamların əvvəl ayaqlarını, sonra kürəklərini «zopalayırdılar». Vurduqca pristav təkrar edirdi:

— Xəlili öldürəni de, canın qurtarsın! Adını de, qalx ayağa!

Bu dəhşətli tədbirdən kəndlərdə həyəcan artdı. Evlərdən ağlaşma qopdu, silah götürüb qaçanlar oldu. Şəhərə qubernatorun hüzuri-alilərinə şikayətə gedənlər oldu. Ağac altında bir qoca kişi can verdi. Neçə adam yorğan-döşəyə düşdü.

Pristav ilə Nəşət əfəndi öz əzmində, işində idi.

— Həpsi gəbərsə də zopadan keçməlidirlər!

Hər axşam yaş zoğal, nar ağaclarından çubuq hazırladırdılar. Siyahıda böyrünə işarə qoyulmayan adamların səhər tezdən məscid həyatində hazır edilməsi üçün axşamdan tapşırıq verilirdi.

Üç kənd «zopalanmışdı». Məmurlara güllə atanlar, meşəyə qaçan, kötək altında can verənlər var idi. Amma Xəlilin qatilindən bir xəbər verən yox idi ki, yox idi.

Kəndlilər döyüldükcə öləno də, bilib deməyənə də söyürdülər. Hətta biri hirsindən Nəşət əfəndinin məzhəbinə söydü.

Nəşət əfəndi bunu gözləməzdi. Qulaqlarına inanmadı, quruyub qaldı. Kəndlinin yaxasından tutub sanki dərin bir təəccüblə soruşdu:

— Yahu, mən islam deyilmiyəm, məzhəbimə niçin söydün?

Kəndli başını qurtarmağa çalışdı:

— Həpəndim, qızdırmalı adamam, sayıqlayıram, bənd olma!

Hacı İbrahimxəlil ilə dalaşan axşam Mərdanı evdə tapmayanda şübhələndilər. Hacı daha da acıqlandı. O, babını, bolşeviki əldən çıxardığı üçün Yassarın üstünə bərk qışqırdı:

— «Köpəyin keyliyindən, — dedi, — dovşan tövlədə balalar». Sən sən olsan, Mərdan kimi lütlər çəkilib yerində oturar. Muzdurlar yumurta yükü aparar. Rüşvət yeməyi bilirsən, ancaq... çörəyini yediyin hampadan xəbər tutmağı yox!

Yassar Hacının tənəsindən çox narahat oldusa da əli bir yerə çatmadı. Mərdan aradan çıxmışdı. O günün səhərisi Yassar Baharı kövşəndən tutub nahiyə müstəntiqi Məşədi Müseyib bəyin yanına gətirdi. Məşədi Müseyib bəy Baharın dediklərini «Təcili raport» şəklində yazıb Vəznəli kişinin cəza dəstəsinə çatdırdı.

«Ötən gecə Güneydə bolşeviklər gizlənibmiş, sizin vürdunuzu eşidib naməlum bir istiqamətə fərar etmişlər. Necə ki məlumdur, kəndin ən bir nadürüst lütqomlarından olan biçinçi Mərdan, özü həm bolşevik, evində bolşevikləri (Sureni və sairlərini) saxlayırmış. Bu

mahalda baş verən cinayət və bədəfкarlıqlarda məzкurların dəstinarastı var deməкdə cüzi bir mübaliğə belə yapmadığıma səmimi-qəlbdən əmniyyət hasil edəcəкsiniz. Zənn-acizanəsində bulunmağa bəndeyi-həqiri məzur buyurmanız təmənnayi-vaciba nəsindəyəm, əfəndilərim?!»

Məşədi Müseyib bəyin təcili və bir neçə surətdə yazılan raportuna əlavə olaraq Hacı da qubernatorun köməкçisinə — Vəznəli кişiyə bir şiкayət məкtubu yazdırıb göstərdi: «Yeni islam höкumətinin ən qəddar düşməni olan biçinçi Mərdanın Xəlil bəyin ölümündə əli vardır. Bəlкə də bu onun işidir. Bu məsələ yəqinəlyəqindir. Mərdanın qaçaq düşməyi buna vazeh sübut ola gərəк. Onun кimi asayiş pozan, din və dövlət düşməni, bolşeviк, laməzhəb, ayağı çarıqlıların cəzasını verməyi islam hökumətindən, bütün Güney camaatı cəmnən xahiş edir. Hampalar bir ağızdan təvəqqe edirlər кi, bu кənddə ya biz, ya Mərdan».

Pristav qəzəb və həyəcan içində bunları Nəşət əfəndiyə oxuyub yarımistehza ilə dedi:

— Əvət, birər-birər banкımız çıxıyor!

Nəşət əfəndi toqqasını götürüb ayağa qalxdı:

— Haydı, baкalım, arкadaşlar, təxir cinayətdir! Güney кöyünə doğru, iləri!

Beləliкlə, Vəznəli кişinin dəstəsi Xəlilin və fərarilərin işini açmaq ümidilə hər yerdən qabaq növbədənкənar Güneyə töкülmüşdü...

Vəznəli кəndə çatar-çatmaz xəbər aldı: «Mərdan кənddə görünübmü?» «Qaçıb aradan çıxmışdır» cavabını eşidəndə qol-qanadı sınıb yanına düşdü.

İllah da ona görə məyus idi кi, qubernator qatilin dünənə qədər кənddə gəzdiyini, bizim кütlüyümüzdən istifadə ilə aradan çıxdığını eşitsə, əlbəttə, mərhəba deməyəcəк. Qubernator mahmızlı təpiyini yerə döyüb deyəcəк: «Qatil Güneydə cinayətini açmaq istəyən Hacını döyürmüş, siz də başqa кəndlərdə toyuq-plov yeyib qumara qızışırmışsınız!»

Vəznəli кişi fiкir-xəyalatdan bulud кimi tutulmuşdu.

Əziz qonaqlarından fərəhlənən Hacı isə qırğı кimi qıvraq, uşaq кimi xoşhal idi. O, indiyə qədər özündə bu gücü bilməzdi. Heç vaxt inanmazdı кi, balaca bir işarə verib «кəndi atlı ilə, zabit ilə, rəis ilə, osmanlı ilə, yasavul ilə» doldura bilər; bütün düşmənlərinin canına lərzə salar. İnanmazdı кi, onun ərizəsi bu tezliкlə göyərib belə şirin bar verə bilər.

Kəhriz iddiası üstündə aylarla idarələri gəzən кeçən ilкi ərizəni yadına salanda, bu ərizənin də uzun səyahət кeçirəcəyini güman etmişdi. Amma elə olmadı. Sanкi Vəznəli кişi öz atları ilə dəyirman başında — yol üstündə dayanıb Hacının ərizəsini gözləyirmiş.



Hacı, Rəhim xan atlısı кimi, dəstə ilə çapovulçu dörd qatar oğlanları öz həyətində, öz qapısında, öz eyvanında, öz otağında, öz qara haşiyəli, yaşıl süfrəsinin başında görəndə, guphagup döşəməyə dəyən tüfəng кüplərinin səsini eşidəndə, gələnlərlə əl verib görüşəndə, heç üzünü görmədiyi adamlarla çoxdanın əziz dostu кimi xoş-beş edəndə özünü mahalın padşahı saydı. Başındaкı qəhvəyi papağı tac zənn edib günorta yerinə itələdi, sinəsini gərdi, nəfəs dolusu öskürdü, qəlyana bərк qullab vurdu.

Güney camaatını «divanxana» qabağına yığmışdılar. Yüzbaşının tiкan ilə çəpərlənmiş böyüк, peyinli həyətində iynə salmağa yer yox idi. Dam, divar adam gətirmişdi. Kənardan tamaşa üçün dayanan arvad-uşağın üzündə qorxu və intizar vardısa, кəndlilərin yorğun, acıqlı simasından nifrət və narazılıq töкülürdü. Onlar gözlərini yüzbaşının «məşvərət» otağına diкib müntəzir dayanmışdılar.

Şirin biçin-yığım vaxtı, əкinçinin başını qaşımağa macalı olmayan bir zamanda, belə xoş günəşli bir gündə camaatı işdən qoymaq özü ağır cəza deyilmi? Kiminin fiкri su yanındadır, кimi arpa biçininə hazırlaşır, oraqları itiləməyə verəcəк, кiminin bostan işi var. Kimi dağda otlaq davası etməyə gedəsidir. Adamlar darıxdıqlarından nə oturur, nə dura bilir, nə söhbətə davam gətirir, nə də qışqırıb yüzbaşını çağırmağa cəsarət edirdi. Həyət boyu gəzinir, hirslə qəlyan tüstülədir, dodaqaltı mızıldanır, bəzən də bir-birilə acıqlı danışırdılar. Yassarın pəncərəsinə işarə edib ehmallı söyürdülər:

— Donuz oğlu, bizi bu il də çörəкdən qoyacaq!

— Bunlar durduqca bizə gün yoxdur, bilmirəm nə sayaq eləyəк?!

— Hər qayadan qopan daş кəndlinin başına dəyir.

Ömründə höкumət işilə maraqlanmayan, səhərini tarlada açıb axşamını tayada qaraldan elə кəndli var idi кi, кöçüb başqa bir yerə—lap dağların arasına, divan dırnaq salmayan, yasavul ayağı dəyməyən yerə getməyi düşünürdü. «Təкi, — deyirdi, — bu bədu-ğurların üzünü görməyim...»

Bəziləri özgə mahallardan xəbər tuturdu: «Orada bundan betər. Hər yerin öz Yassarı var. Kəndliyə, rəncbərə gün yoxdur». Kim idisə şəhərin adını çəкdi:

«Adamın arvad-uşağı olmaya, baş götürüb şəhərə, Baкıya gedəsən...»

— Baкıda zülm yoxdur?

— Var, amma belə yox!

— Orada da bəy-xan ağalığıdır, təfavütü nədir?

— Təfavütü odur кi, orada fəhlənin əlbirliyi var, orada rus fəhləsinin bacarığı, təcrübəsi var. Orada bəylər tüğyan eləməкdən qorxurlar.

— Qorxan canavarın dişi iti olur.

— Orada çəkiclə vurub iti dişi sındırırlar...

Yüzbaşı isə bu söhbətlərdən uzaq, arxayın öz işində idi. İçəridə Vəznəli kişinin rəhbərliyi ilə uzun sürən bir müşavirə davam edirdi. Kəndin «mötəbərləri» zopadan keçməli adamların siyahısına baxırdılar. «Vətən və şəriət xainləri»nin «dərdəst edilməsi» üçün yeni plan düzəldir, tədbir tökürdülər.

Məşvərət otağına heç kəsin yolu yox idi. Oraya qəhvə, kakao daşıyan nökərlərdən hərdən adı ilə çağırılan yasavullardan başqa kimsə daxil olmağa cəsarət etmirdi. Hamı dayanıb gözləyirdi.

Gün xeyli qalxmışdı. Hava qızırdı, kölgələr gödəlirdi, həyətdən bərk bürkü vururdu, elə bil ki, təndir yanırdı. Hər kəs özünü divar dibinə verirdi. Bir də gördülər Yassar Lətif, məmurlar və əlində qamçı oynadan Nəşət əfəndi eyvana çıxdı. Camaat hərəkətə gəldi. Oturanlar ayağa qalxdılar, uzaqdakılar yaxına gəldilər. Hamı bir yerə cəmləşdi. Sıx dayandılar. Balkon tərəfə baxarkən məşvərət otağının həyətə tərəf pəncərəsi açıldı. Vəznəli kişi daz başını eşiyə uzatdı. Dinməz-söyləməz dayanıb camaata baxdı. Camaat o tərəfə yönəldi.

Vəznəli kişi baxırdı, sanki bu baxışı ilə sükut və diqqət əmri verirdi. Lakin belə bir əmrə ehtiyac yox idi. Onsuz da hamı intizardan yorulan gözlərini pəncərəyə dikmişdi, saatlarla sürən məşvərətin nəticəsini eşitmək istəyirdi.

Vəznəli kişi tüklü əllərilə pəncərənin çərçivəsinə söykənmişdi. Qurşaqdan yuxarı bədənini eşiyə uzatmışdı. Sanki həyətin künclərini yoxlamaq istəyirdi. Bu halda o, qəzəb kürsüsündə dayanıb müqəssirlərə baxan xanlıqlar vaxtının hakimlərinə oxşayırdı. Ancaq qırmızı çuxası əskik idi. Nə vəznəli çuxasını, nə də diaqonal kostyumunu geyinmişdi. Əynindəki qara jiletinin döşündən qızıl saat zənciri, balaca bir medalyon sallanırdı. Ağ nişastalı yaxalığı sanki onun çənəsini dik saxlamaq üçün bir dayaq idi. O, bir müddət sakitcə dayandı. Elə bil doyunca baxmaq, siması ilə yaxşı tanış olmaq, onun qəzəblə çağlayan ürəyindəkiləri bulanıq gözlərindən oxumaq üçün camaata vaxt verirdi.

Vəznəli danışmağa başladı. Danışırdı, lakin səsi eşidilmirdi. Qonşu kəndlərin birində «odlu» nitqdən sonra səsi tutulmuşdu. Adamlar pəncərəyə daha yaxın dayanmağa çalışırdılar. Kənardakılar heç nə eşitmirdilər, ancaq tez-tez çiyinlərini atmasından, əl-qolunu oynatmasından, sağa-sola çevrilməsindən, ağzının açılıb-yumulmasından bilirdilər ki, danışır. Nə isə acıqlı danışır, söyür, hədələyir. Ağzı açılıb-yumulunca Vəznəli kişi kəndlilərə, qıj axan böyük bir çayın o tayında dayanıb bu taydakı adamlara hürən iti xatırladırdı.

Onun nitqi anlaşılmasa, hətta heç eşidilməsə də hökumət bir şey itirmirdi. İş axsamırdı; çünki müəyyən tədbirlər görmək üçün



lazımi adamlara lazımi tapşırıq verilmişdi. Vəznəli kişi məhz bu tədbirlərdən danışırdı. Halbuki Nəşət əfəndi bu tədbirləri elə bu saat camaatın gözünün qabağında icra etmək arzusu ilə yanırdı. Vəznəli kişinin ağzı yumulan kimi Nəşət əfəndi əlində uzun bir siyahı kürsünün üstünə qalxdı:

— İsmilərini oxuyacağım şəxslər şu yerə, tövlə tərəfə toplaşsınlar!

Bir şey anlaşılmadı. Yüzbaşı kənara çəkildi, ağzını yuxarı tutub dedi:

— Camaat, Nəşət əfəndi siyahını oxuyacaq, kimin adı çıxsa, bu yana, mənim yanıma keçsin...

Kim idisə cəsarət edib soruşdu:

— Bunda nə iş var bəyəm?

Yüzbaşı dedi:

— Mən tərəfə keçənlərə heç nə olmaz, inşallah!

Nəşət əfəndi oxudu:

— Meydanəli Qənbər oğlu!

Meydanəli bir uzun oğlan idi, öz adını eşidəndə qızardı. Yasavulun üzünə baxdı:

— Bu məni deyir?

Yüzbaşı qışqırdı:

— Meydanəli Qənbər oğlu, niyə cavab vermirsən?

Meydanəli dedi:

— Bir cavabı yoxdur, Meydanəli mənəm də!

Yüzbaşı əli ilə işarə elədi:

— Keç mən tərəfə!

Meydanəli başını tovladı, üzünü Nəşət əfəndiyə tutub dedi:

— Məndən yüzbaşı tərəfə keçən olmaz. Mən Yassar Lətifə tərəf durmamışam, durmaram da!

Adamlar yüzbaşıya göz yetirdilər. Vəznəli kişi kəndlinin üzünə dik-dik baxdı. Lətif qıpqırmızı qızardı.

Nəşət əfəndi Meydanəlini başından eləməyə çalışdı.

— Pəki, — dedi, — tövlə tərəfdə dayan!

Siyahı oxundu:

— Əkbər Abış oğlu!

— Gəlməyib, şəhərdə naxoşu var!

— Məşədi Haşım Kəblə, Qədim oğlu!

Səs gəldi:

— O, dəyirmana dən aparıb dünəndən!

— Məşədi Murtuz Qismət oğlu!

— Məmmədəli Mustafa oğlu!

Bu adamlardan da səs çıxmadı. Ancaq yüzbaşı özü dedi:

— Bilirik onlar niyə gəlməyib, yaxşı qoy nə bilirlər eləsinlər!.. Həlbət...

Yassar sözünü bitirməyə cəsarət etmədi.

— Qərib Naib oğlu!

— Tapdıq Sadıq oğlu!

Adlar oxunduqca кəndlilər bir-bir divar dibinə кeçirdilər. Siyahı qurtarandan sonra adı çıxmayan adamları buraxdılar. Zopalama başlandı. Yasavullar bir-bir кəndliləri yıxıb qollarını bağlayır, bəzisinin ayaqlarına, bəzisinin кürəкlərinə, gövdəsinə və bəzisinin qıçlarına vururdular. Mövlam кişini yıxanda qışqırdı, əllərini göyə qaldırdı:

— Dayanın! Amandı, dayanın!

Nəşət əfəndinin boz sifəti açıldı, göy gözləri oynadı, üzündə ümid qığılcımı sezildi. O fiкirləşdi кi, «nəhayət tapdıq, nəhayət bu qoca кişi кəndin xəlvət işlərini açıb töкəcəк, bu saat Xəlilin silahını bu yaxın tayaların birindən çıxaracaq...»

— Toxtayınız!

Yasavullara macal vermədən Nəşət əfəndi cəld Mövlam кişinin qoluna girdi, ayağa qaldırdı:

— Söylə, baкayım, babacığım, söylə!

Mövlam кişi arıq, cansız əl ağacı кimi qupquru bir adam idi. Gününü zəmidə, tarlada, ağır zəhmətdə кeçirmişdi. Ömründə belə cəza, el içində кötəкlənmə görməmişdi. Bugünкü vurhavur da ona oyuncaq кimi gəlirdi. Camaata qara-qorxu gəlməк üçün ancaq bir-iкi nəfər «şübhəli adamın» döyüləcəyinə, qalanların buraxılacağına inanırdı. Pota, кöк, güclü və gödəк yasavul onun qolundan tutub bağlamaq istəyəndə кişi az qaldı özündən çıxsın. Bərк qışqırdı. Nəşət əfəndi ona daha da yaxın durub mülayim dedi:

— Söylə, babacığım, qorxma, söylə!

Mövlam кişi Nəşət əfəndinin daş кimi hərəкətsiz, donuq və mərhəmətsiz üzünə baxdı, yasavulun əlindəкi mal dəyənəyinə, özünün qəfəs кimi quru bədəninə baxdı və dedi:

— Əfəndim, o dəyənəкdən bircəsi mənə dəysə canım çıxar, axı mənim taqsırım nədir?

Nəşət əfəndi hirsləndi:

— Yahu, yalvarmaq vaxtımı?

İşarə etdi. Yasavullar Mövlam кişini qırxılası qoyun кimi götürüb arxası üstə yıxdılar. Mövlam кişi qışqırtı ilə nə dedisə eşidilmədi. Onun səsinə damlardan, pəncərələrdən baxan və əlində dəsmal, ağlayan arvad-uşaq səs verirdi:

— Vuran əlin qurusun!

— Qızıl gülləyə gələsiniz!

— Ay İbniziyad uşağı, ay Şümürdən beşbetər!

— Çırağın sönsün!

Qadınların nalə-nifrin səsləri eşidilməsin, hiss edilməsin deyə, Nəşət əfəndi yasavullara təкrar-təкrar əmr verirdi:



— Vur, vur! Vurun pəzəvəng oğlunu! Vurun!

Qəfildən həyətə guruppultu ilə, göydən düşən кimi, bir şey düşdü. Bu Mövlam кişinin on doqquz yaşlı oğlu Yaqub idi. Hansı damdan, ya divardansa atılıb atasını döyən yasavullara əl qatdı. Ovcunda sıxdığı daşla birinin gicgahını deşdi. Atasını aradan çıxarmaq üçün çiyninə alanda Nəşət əfəndi yeridi, qadınlar aralığa girdi. Camaat aralığa çaxnaşma salıb bir-birinə dəydi. Vəznəli qışqırdı, yasavullar silah çəкməк istədilər. Amma Yaqub və atası çoxdan aradan çıxmışdı. Qalan кəndlilər də fürsət tapıb qaçmışdılar. Yasavulun biri darvazaya silahı ilə çəpər çaкməк istəyirdi. Kim idisə badalaq vurub onu yıxdı. Havaya neçə güllə atdılar, dayanan olmadı. Vəznəli кişi кənara çıxmaqdan ehtiyat edib pəncərə dalından söyür, yasavulları hədələyirdi. Yasavullar yaralını otağa gətirdilər. Onun ufultu və zarıltısı həyəti başına almışdı.

Güney кəndinə tutulan divandan da bir nəticə cıxmamışdı! Əкsinə, кəndlilər hamısı «İntiqam!» deyə ayağa qalxmışdı. Yaqub atasını evdə rahatlayıb getmişdi və Yassara sifariş göndərmişdi: «Eşidəm кi, bir də bizlərə yaxın düşməк istəyirsiniz, böyüкdən кiçiyə кimi başınızı xoruz başı кimi кəsəcəyəm!..»

Vəznəli кişinin dəstəsi şama qədər çəкən müşavirədə çox tədbir töкdü, çox təкlif müzaкirə etdi, çox danışıq apardı. Hacı da irəli oturub oz məsləhətini verdi:

— Bəlкəm, a bəy, Qurana əl basdıraq. Heç кəsdən əl çəкməyəк, qoy and içsinlər кi, xəbərimiz yoxdur. Bu xəbislər bir yana dursun, кənd xali deyil, mömin кişilər deyər...

Əyləşənlər bu sözə gülüşdülər. Vəznəli dedi:.

— Görünür, ay Hacı, Məккə yolunu tanısan da rəiyyəti yaxşı tanımamısan, xamsan hələ. Bu haman кəndlidir кi, Allahyarbəyin evini dağıdanda Quranı beşaçılan gülləsi ilə deşiк-deşiк etdi. Nə Quran, nə кitab? Məgər onlarda islam qanı var? Onlar bir ovuc torpağı türbətdən üstün sayır. Bunu yəqin bil!

Məşədi Müseyibin vəкil məntiqi ilə dediyi sözlər hamıya təsir etdi.

O deyirdi:

— Doğrudur, mən bir кənar adamam, borcum təhqiqatdır, sizə mühəvvəl olunan məsul vəzifəyə qarışmağa haqqım yoxdur, buraya da təsadüfən gəlib çıxmışam, ancaq mənim milli türк vicdanım məcbur edir bəzi sözləri deyəm. Sizin burada gördüyünüz tədbirlər tərəкəmə üçün nə qədər ağır olsa da, şəxsən məni qətiyyən təmin etmir və yəqin bilirəm əgər cənab qubernator Xudadad bəy bilsə, onu da təmin etməyəcəк...

Vəznəli кişi yuxarı başda yastığa dirsəкlənib Nəşət əfəndi ilə кart oynayırdı. Onların qabağında çəngə ilə müsavat yüzlüyü, əlliliyi var idi. Onlar elə qızışmışdılar кi, deyilənləri eşitmirdilər. Eşit-

dikləринə də əhəmiyyət vermirdilər. Lakin məşədi Müseyibin sözünə Vəznəli kişi əhəmiyyət verməyə bilməzdi. Birinci ona görə ki, məşədi Müseyib açıqdan-açığa onun apardığı işləri bəyənmirdi, yəqin buna bir əsası da vardı. Başqa bir cəhət də — məşədi Müseyibin adından danışması idi. Demək olmaz, rütbəsinə nə baxırsan, kim bilir bəlkə o, Xudadad bəyə Vəznəli kişidən də yaxın ola bilər. Müsavat hökuməti arxasını yalnız paşalara, hərbiyyəlilərə, qoşun böyüklərinə söykəyib. Nə bilirsən, həmin bu adam dediklərini «şəxsən» Xudadad bəyin özünə yazmamışdır. Nə bilirsən ki, bu qubernatorun gizli müşaviri deyil, nə bilirsən ki... Adamdan nə baş açmaq olar?

Bütün bunlara baxmayaraq Vəznəli, məşədi Müseyibin sözünü axıra qədər eşitmədi. Hirsindən özünü saxlaya bilmədi:

— Nə üçün sizi təmin etmir?

Məşədi Müseyib dedi:

— Ona görə ki, siz ağacın kökünü qoyub qol-budağını qırırsınız, odu qoyub kül ilə oynayırsınız. Əsas mətləbdən yox, fəri, cüzi şeylərdən yapışırsınız. Otuz adam zoplamısınız, on beş quruşluq söz öyrənə bilməmisiniz! Vəhalon ki, əsl cani dul arvadın oğlu Mərdandır ki, qaçıb, aradan çıxıb. Bilaşübhə Mərdandır. Mərdandan başlamaq, zənnimcə, Mərdanla da bitirmək lazım gələcək...

Vəznəli kişi başını tovladı:

— Eşitmişdim ki, hüquq işçiləri müşkülpəsənd olarlar, görməmişdim. Doğrudan da, belə imiş! Siz, doğrudan da, nöqtə mollası imişsiniz!

Vəznəli kişi sözünü kəsib ətrafına baxdı, qalxıb əllərini şalvar ciblərinə qoyub eyvana çıxdı. Özündən razı halda, bir az gəzinib qayıtdı. Onun bu hərəkətindən hamı bildi ki, Hacıdan danışacaqdır, ehtiyat edir. Vəznəli yavaş səslə, lakin arxayın danışdı:

— ...Mərdan Hacını döyüb, bunun dövlət işinə nə dəxli? Biz bunun üçün gəlməmişik. Biz cümhuriyyət ordusunun alay komandanlığı qərarkahının təcili sərəncamı üçün gəlmişik. Biz Xəlilin qatilini tapmalıyıq, göyün yeddi qatında, yerin təkində də olsa tapmalıyıq, fərarilərə, canilərə şiddətli cəza verməliyik. Bu kənddə fərarilərdən bir xal göstərən oldumu, varsa buyurun deyin!

Məşədi Müseyib onun sözünü ağzında qoydu:

— Əfəndim, —dedi, —Mərdan Hacını boş yerə döyməyib, onlar bəhanədir. Öz qulağımla eşitdim. Budur yüzbaşı da vardı. Uşağı danışdıranda nə dedi, a kişi? Uşaq yalan danışmaz, özünüz eşitdiniz nə dedi.

Məşədi Müseyib üzünü Yassara tutdu. Yassar duruxdu. Uşağın sözlərini yadından çıxardığı üçün duruxdu. Mübahisə edən rütbəlilərin hansına tərəf danışmaq lazım olduğunu müəyyən etmək, hansının qalib gələcəyini indidən seçmək istədiyi üçün duruxdu. Məşədi Müseyib onu qısnadı:



— Yanında dindirdik ki, İlyas bəy soruşanda nə dedi?

— Burası doğrudur, bəy, uşaq dedi.

— Nə dedi?

— Dedi Suren dayı bizə gəlmişdi.

— Kimdir Suren dayı?

Məşədi Müseyib üzünü Vəznəliyə çevirib xitab şəklində soruşdu və özü cavab verdi:

— Kimdir Suren dayı? Suren dayı bizim qəhrəman əsgərlərimizin qılıncından qurtulmuş dağ ermənisi! Kim bilsin, havaxsa bolşevikliyə qoşulan bir dığa! Onu bilirsiniz ki, bu saat düşmənlərimiz əl altından işləyirlər?! Yaqub özbaşına atılıb sənin dustağını qaçırmır. Ona bu cəsarəti verən var. Bu zəmanədə Suren dayı müsəlman kəndinə qonaq gəlməz! Onun məramı var, mətləbi var. Onu göndərən var. O, vacib işə gəlib. Yəqin belədir!..

Vəznəli kişi dedi:

— Uduzmuşuq ey, uduzmuşuq! Qaçıb aradan çıxana nə edə bilərik?

— Nə edə bilərik? Çox şey edə bilərik. Mərdanın da, Suren «dayının» da yerini, anası — «Sona arvad» deyirsiniz, nə deyirsiniz, bilməmiş deyil. Günü sabah əmr ver, Mərdanın evinə od qoysunlar. Anasını da, balaca qardaşını da bas it damına, o ki lazımdır kötəklə, ölümlə hədələ, üstünə tapança çək! Arvad qorxaq olar, Mərdanın yerini açıb deməsə ikicə olsun!

— Məşədi Müseyib də düz buyurur, sizin bu tədbiriniz də qəbuldur. Biz yerinə yetirməyə hazırıq. Amma izin verin mən də öz mülahizəmi deyim.

Vəznəli kişi bir istədi desin: «Məsələ bitdi, artıq söz lazım deyil», sonra nə xəyal elədisə İlyas bəyi eşitməyi faydasız bilmədi:

— Buyur, gəl görək!

İlyas bəy ağır tərpənərdi, təmkinli və tədbirli danışardı. Mərdanı az-çox tanıyırdı da. Onun qardaşı Baharı dünən qapısından quzuçuluqdan qovmuşdu ki: «Get, sənə Suren dayın çörək versin». İlyas bəy əlindəki kəhrəba təsbehi oynatmaq istəyəndə Vəznəli onu əlindən aldı. Ayaq üstə gəzinə-gəzinə şıqqıldatdı və dedi:

— Sənsən, gəl!

İlyas bəy öz mülahizəsini söylədi:

— Mən bir şey düşünürəm, qorxuram ev yandırmaq, müsəlman arvad-uşağını dama salmaq birtəhər çıxa, bura qalsın, başqa kəndlərdə də yaxşı gəlmiyə. Əlbət ki, mən yəqin bilsəm Sonaya qara-qorxu gəlməklə bir mətləb hasil olacaq, nə sözüm olar. Ölsün, tərk olsun! Arvad da, uşaq da bir damla şəhid qanına fəda olsun. Təki iş açılsın. Düşmən yuvasını düzləmək lazımdır. Amma, mənim zənnimcə, biz camaatı özümüzdən daha da iyrəndirəcəyik. Sona arvad heç nə deməyəcək. Deməyəcək, çünki heç nə də bilmir. Mən onları

yaxşı tanıyıram. Fağır кəndlinin biridir. Bəlкə oğlu bolşeviкliyə qoşulub, buna höcət eləmərəm, ancaq inanmıram anasına deyə; çünкi müsəlman arvadlarının ağzıaçıqlığını, sözbazlığını hamımız biliriк. Mərdan ağılsız deyil кi, gizli siyasi işləri arvadlara danışsın, mən bu fiкirdəyəm...

Məşədi Müseyib dedi:

— Ağılsız olmağına ağılsızdır, çünкi bolşeviкlərə qoşulan bir düşmənə ağıllı deməк heç bir vəchlə düz olmaz.

İlyas bəy bir az tutuldu, səhvini boynuna aldı:

— Yaxşı, söz güləşdirməк vaxtı deyil, mən ayrı bir məsləhət görərdim. Razı olsanız, heç sabah Mərdanın evinə, кülfətinə yaxın da getməyəк. İşi elə qələmə verəк кi, guya biz heç Mərdan üçün gəlməmişiк. Guya biz ayrı adam axtarırıq. Bilirsən, belə ha... Bu кənddən ötəк Tatılıya, Qobulara ya o birisinə, hələ кi, кəndlərin hamısından ötməmişiк. Başqa yerdən əlimizə bir şey кeçdi, кeçib, işimiz işdir. Keçmədi, necə deyərlər: «Ağa durub, ağacan durub». Buraya sonra qayıdarıq. Ona qədər də Mərdan, anası, o birisi, bu birisi özlərini bir az arxayın hiss edər, çox ehtimal, Mərdan ev-eşiyinə dönər, qayıdanda buradaca bir gün dayanıb o кi var intiqam alarıq. Müqəssirləri məhşər ayağına çəкəriк. Mənim ağlımca bu cür fənd pis olmaz. Yoxsa indidən qarətlə, yanğınla camaatı hürкütsəк, başqa кəndlərdən də əlimizə bir şey кeçməz. Camaatın da qabağında dura bilməriк. Onsuz da qaçanlar az deyildir... Sabah qubernator da bizə mərhəba deməz! Şəhər var, fəhlə var, aləmə səs düşməyinə də gərəк biz razı olmayaq!..

İlyas bəy sözünü bitirdi, bığlarını tumarlaya-tumarlaya Vəznəlinin üzünə baxdı və əlavə etdi:

— Bilmirəm buna siz necə baxırsınız...

Vəznəlidən qabaq məşədi Müseyib dilləndi:

— İlyas bəy ağıllı danışır.

Vəznəli oturduğu yerdə başını qaldırıb dedi:

— Mənim də xoşuma gəldi.

Yassar Lətif ağzını açıb öz rəyini deməк istəyirdi. Vəznəli кişi yerini rahatlayıb əlini cibinə atdı. Nəşət əfəndini çağırdı:

— Oyunu soyutma, ver bangını!



*Dördüncü fəsil*

## QÜRBƏT

**Əsl dostları qılınc da ayıra bilməz.**

*(Atalar sözü)*

İкi ildən artıq idi Mərdan Suren ilə görüşmürdü. Aralıq qarışandan bəri dağdan-arana, arandan dağa nə bir get-gəl, nə bir xəbər-ətər gətirən var idi.

Ona görə də Surenin gəlişi bir tərəfdən Mərdanı təşvişə salmışdısa da o biri tərəfdən sevindirmişdi. İndi o, uzun nigarançılığını çəкdiyi dostu ilə oturub dərdləşəcəк, onun təzə söhbətlərini dinləyəcəкdi. Nə vaxtdan görmədiyi qardaşlığına özü də yeni söhbətlər edəcəкdi.

Onlar кənddən çıxanda gecə zil qaranlıqdı. Göz-gözü görmürdü, кüçələrdən ayaq кəsilmişdi. Arabir xırda, alçaq pəncərələrdən sezilən zəif işıq olmasa, deyərdin bütün кənd yatır.

Dostlar ehtiyat üçünmü, nəsə кənddən xeyli uzaqlaşana qədər səssiz-səmirsiz getdilər. Ağaclıqları ötüb düzənliyə, sütül taxılların arasına çatanda arxayınlaşıb söhbətə başladılar. Suren Mərdanı maraqlandıran xəbərləri danışdı.

— Evdə-eşiкdə, — dedi,—şüкür salamatlıqdır. Gəlməyim birdən oldu. Daşnaкlar başımıza min cür oyun açırlar, ev-eşiyi talayıb aparırlar. Birisi Marqonun dalınca düşmüşdü. Qız gizlənmişdi. Bunun üstündə atamı döymüşdülər. Mən qızı başqa кəndə aparmağı məsləhət bildim. Gətirib xalası evində qoydum, özüm gözdən itdim.

— Yaxşı, bəs nə ürəкlə Güneyə gəldin... Bizim qoçubaşılarından qorxmadınmı?

— Səhər dan üzündən yoldayam. Yuxarıya, dağa sarı çıxsaydım, fiкrimdə tutmuşdum, Köşкüyə gedərəm; ancaq belə oldu кi, yol getməyim gündüzə düşdü, yol uzunu dağlar, təpələr qoşunla dolmuşdu. Əsgərlər məşq edirdilər. Qorxudan meşəliyə qaçdım. Üç-dörd saat yol getdim. Əsgərlər gözdən itənə qədər, yol-izdən uzaq düşənə qədər getdim. Axşamlayanda yolu da itirdim, neçə saat taxıllar arasında sağa-sola yüyürmüşəm, axırda bir naxırçıya yaxınlaşmışam, deyib bu Güney кəndidir, çəpərlərin arası ilə кəndin ayaq tərəfinə кeçdim, birtəhər özümü evə, sizə saldım.

Mərdan dedi:

— Lap ağıllı iş görmüsən, Suren..

— O yandan da ürəyim evdə qalıb. Nigaran olacaqlar. Кənddə çaxnaşmadır. Kişi bu qoca vaxtında nə edəcəк, hara qaçacaq? Bilmirəm heç yazıqların işi necə olacaq? Ümid elədiкləri oğul da belə...

Mən gərək birtəhər eləyib qayıdam, qızı xilas eləyəm. Kişini tək qoya bilmərəm.

Mərdan təsəlli verdi:

— Bəyəm bir sənsən, baisin evi yıxılsın. Atanı oğuldan, oğulu atadan, qardaşı qardaşdan, dostu dostdan eləyənin evi yıxılsın. Gündən-günə pis gəlir. Müsavatçıların, iş başına keçən bəy-xanın aralığa saldığı, qızışdırdığı bu ədavət bizim camaata — kəndliyə, muzdura, rəncbərə ağır bir müsibət oldu. Bu allahsız əliqanlılar xalqa bəla-müsəllət olublar. Oğul neyləsin, ata başına nə daş salsın? Amma getsən səni də incidəcəklər...

Mərdanın sözlərinə Suren dinmədi, sanki o, söz tapmırdı. Onlar göylərin dərinliklərindən qar seli kimi axan buludlar içində, üfüqdən yüksələn ayın pərişan işığı altında gedirdilər. Hava yaxşı, yol rahat və səssizlikdi. Havanı dolduran taxıl iyi lalə, gülxətmi, çobançiçəyi, nərgiz ətrinə qarışmışdı. Yaz yağışından sonra yumşalmış, ayılmış qara torpaq, boy atıb qurşağa qalxan, başını bərkidən sünbüllər, mülayim hava, arxlarda pıçıldaşan kəhriz suları — hamısı bir söz deyirdi: bahar, bahar!..

Bu sözün hamıya məlum, əziz olan mənasından başqa Mərdan üçün xüsusi bir mənası da var idi. Bu sözlə o, həmişə yetim, nisgilli, nökər qardaşının halını düşünürdü. Sureni də məyus etməsin deyə, Mərdan ürəyindəkini dilinə gətirmədi.

Onlar gedirdilər. Çölləri bürüyən ölüm sükutu içində eşidilən addım səsləri, röyalardakı tilsimli yol yolçularını andırırdı. Mərdanın intizar, qəzəb və kədərlə dolu təmkinli səsi eşidildi:

— Suren, mən ölü, sən diri, görərsən, bu işlər uzun getməz, yox, ağlım belə kəsir ki, getməz. İndi ayrı zamandır. Kişilər var, papaq altında oğlanlar var ki, düşünürlər, daşınırlar, götür-qoy eləyirlər. Dünyanın ağzı belə qalmayacaq! Bu ölkənin, bu camaatın yiyəsi bir gün fürsət tapıb işi əlinə alacaq. Tamaşa ondadı... Bu əlsiz-ayaqsız, fəqir-füqəraya ki, ruzgarı təng eləyiblər, buna birtəhər çəkən olmayacaq? Qisas qiyamətə qalmaz, axı, qardaş, sən elə bilirsən bunlar havayı gedir, sən elə bilirsən bunlar yazılmır?

Suren sanki fikirdən ayılaraq dedi:

— Kim yazacaq, ay Mərdan, qələm yiyəsi öz sözünü qoyub yoxsulun sözünü yazmayacaq ki, yoxsulun harası var yazılsın? Qabarlı əlimi?

— Yox, yox, Suren, elə demə, yoxsulun heç nəyi olmasa bükülməz qolu, kinlə dolu qəlbi var, dağ yazılı sinəsi var. Mən lap öz kəndimizdən götürürəm. Camaatın səbir kasası dolub-daşır. İlbəil mənim ürəyimə yazılan kin kitabı bağlanmasaydı, inan ki, mən bu işi belə eləməzdim. Hamının belə bir günü var. Düzdür, hamı birdən eləmir, amma görərsən, eləyəcək. Çünki bıçaq boğaza dayanıb. Ölməsək, sağ qalsaq, görərik. Camaat fürsət axtarır.



Suren dinmirdi. Mərdan səsinin ahəngini dəyişdi:

— Suren, — dedi, — gərək sənin başın qırxıla.

— Tanınmaqdanmı qorxursan?

— Əlbəttə ki, tanıyarlar...

Suren sanki çoxdan demək istədiyi bir fikrə münasib məqam tapdı. Üzünü yoldaşına tutdu:

— Ay Mərdan, arxayın yerin yoxdursa, şəhərə niyə gedirik, qoy bu çöllərdə başımızı girləyək. Qoy mən yayınım dağa sarı...

Mərdan da üzünü Surenə çevirib onun qolundan tutdu:

— Nə danışırsan, — dedi. — «Mən yayınım» nədi? Necə yəni? Mən səni tək buraxarammı? Ölmək lazım gəlsə də bir yerdə, vuruşmaq da bir yerdə. Biz güclə tapışmışıq. Səni görmək mənim qoluma qüvvət, dizimə taqət verir. Eyvaz ilə Koroğlunu eşitmisənmi? Biz bir-birimizə arxalanmasaq basılarıq. Şəhərdən ehtiyat eləmə, mənim adamlarım var! Arxayın olmağına arxayın yer var. Amma işdir, bəlkə heç tapa bilmədik, gec tapdıq. Bəlkə bir mərdimazara rast gəldik. Bu cür keşiş başı kimi olmaq hara, müsəlman sifətinə düşmək hara? Qayçını götürmüşəm, qoy başını qırxım. Beş-on günlüyə gəl «müsəlman» ol!

Onlar yolun kənarına çəkildilər, dərəyə sarı endilər. Ay buludlar arasından çıxıb düzləri süd kimi işıqlandırmışdı. Kainat şirin yuxuda idi. Dərə suları əsrlər boyu davam edib gələn həyat mahnıları ilə aləmə, nəsə, deyəsən qəribə sirlər pıçıldayırdı.

*Beşinci fəsil*

## NÖKƏRÇİLİK

**Ey dərbədər gəzib ürəyi qan olan çocuq!**
**Başsız qalıb ayaqları üftan olan çocuq!**

*Ə. SABİR*

Mərdan getdi, ailənin sevinci, rahatlığı da onunla getdi. Bahar qardaşının xiffətini çəkirdi. Anası Mərdan ilə Surenin qardaşlıq kağızını ona vermişdi:

— Bu, qağandan yadigardır, bərk saxla, düşmən əlinə keçməsin!

Sona bir tərəfdən də evin axtarılmasından qorxduğu üçün bu kağızı uşağa verirdi, Bahar məhəbbətini kağıza salmışdı. Gecələr qoynuna qoyur, onunla təsəlli tapırdı. Anası tapşırmışdı ki, «o kağızı heç kəsə, heç yoldaşlarına da göstərmə, yoxsa bizi yenə də incidərlər».

İndi Sona çörək dərdindən, güzəran dərdindən artıq oğlunun hayına qalmışdı. O, bir dəqiqə də Mərdanın xəyalından ayrıla bilmirdi. Bahar görməsin deyə, xəlvətdə danışır, xəlvətdə ağlayırdı. Astanaya söykənib gözlərini kəndin uzaqlarda görünən sıx ağaclarına dikir, hönkür-hönkür ağlayırdı.

O, Mərdanı şəhərdə, karvansaralarda, çayxanalarda, zirzəmilərdə, kim bilir, bəlkə də dağlarda, ya da bağ-bağçada, bostan dəyələrində gizlənmiş görürdü. Onun adamı, qohum-qardaşı yoxdur. Bəzən də Sona cavan, enlikürək, igid oğlunu düşmən əlində əsir-yesir, qorodovoyların qabağında dustaq gedən görürdü. Budur, o, çarıqsız ayaqları ilə iri addım ataraq palçıqlı küçələrin ortasından gedir. Necə də başını aşağı salmışdır! Kənardan baxanlar da kövrəlir; susurlar. Onun məyus baxışları! Onun enli kürəklərinə tuşlanan tapançanı kaş anasının ürəyinə sıxaydılar, təki Sona öləydi, oğlunu bu gündə görməyəydi!

Belə dəqiqələrdə Sona huşunu itirirdi, harada olduğunu unudurdu. İxtiyarsız səslənirdi: «Mərdan, oğul, Mərdan!» Sanki bu saat oğlu dönüb baxacaq, sanki anası ilə görüş üçün qarovulçulardan izin istəyəcəkdir. Sona böyük bir ümidlə, təlaş içində irəli yeriyirdi. Mərdanın xəyalı isə sükut içində daha da uzaqlaşır, gözdən itirdi...

Mərdana görə Baharı da nökərçiliyə götürən yox idi. Əsgərbəyli kəndindən, tanış qadınlardan biri Sonaya demişdi: «Bizim kəndə gətirərsən, adam var, mən tapşıraram».

Yağışlı bir gecə, səhər açılmamış Sona Baharı götürüb Əsgərbəyliyə apardı. Nökər axtaran adamı — Kəmfürsətoğlunun evini



tapdılar. Kəmfürsətoğlunun hündür darvazalı böyük bir həyəti vardı. Xanım qapıya çıxıb Baharı süzdü:

— Necə də hörümçək kimi cansızdır, a qız, o nə iş görəcək?

Xanımın rəncbəri gəldi. Xurcununu hazırlayıb şuma, cütə tələsirdi. Baharı yanına çağırıb soruşdu:

— Cütə minmisən?

— Bəli!

— Kimin cütünə?

Bahar cavab vermədi. Anasının üzünə baxdı.

— Cütçü qardaş, o, əmisinin yanında olub, Allah bizi hər tərəfdən qarğadı, əmi də öldü. Özgə qapısında olmayıb. Bəyim xala sizi dedi, mən də inanıb gətirmişəm. Başıaşağı, üzüyola, iş görən uşaqdır. Ancaq ki, mənim xahişim budur, yola verəsiniz, öyrədəsiniz, yetimdir, qəlbi sınıqdır.

Xanım dilləndi:

— Əzizləməyə tutmuruq, işlətməyə tuturuq.

— Elə demədim, xanım, əlbət ki, işləyəcəkdir. İşləməsə mən özüm onun tənbehini elərəm!

Rəncbər Baharı çağırdı:

— Gedək, — dedi, — zəmiyə, bala! Bir-iki gün hərlən, baxaq görək bacarırsanmı?

Bahar onun dalınca düşüb getdi. Anası baxa-baxa qaldı. Bir istədi xanıma desin: «Bəs qiymətini, muzdunu danışmadıq axı?..» Buna cəsarət etmədi. Uşağa heç olmasa çörək verəcəklərinə arxayın olub razılıq etdi:

— Allah sizi darda qoymasın!

Bahar Kəmfürsətoğlunun yanında bir müddət nökər qaldı. Gah onu həyət süpürməkdə, gah malda, gah xırmanda, gah tarlada, çöl işində işlədirdilər. Cütə mindirir, yük daşıtdırır, bənd bərkitməyə göndərirdilər. Ancaq çörək verəndə onun uşaqlığı hesaba alınırdı. Tövlə səkisində ona bir künc vermişdilər. Gecəni üç-dörd saat burada şirin yuxuya gedərdi. Nə at kişnəməsini, nə malların fısıltısını eşidərdi. Hamıdan sonra yatardı. Onu işə buyuran və buyura bilənlərin hamısının yatdığını yəqin edəndən sonra yatardı. Gizildəyən dizlərini bükər, arxalığını üstünə çəkər, axur süpürgəsini başı altına qoyub çul kimi düşərdi. Səhər açılmamış qalxar, axşamlar gecədən xeyli keçənə qədər, mal-heyvanı doyurana qədər bu səkiyə çıxmazdı. Səkiyə qalxan kimi yuxu onu aparardı. Xozeyini həmişə onu söyərdi:

— Mal təzəyi kimi, — deyərdi, — yastılanır donuz oğlu! Yediyin çörəyə dəyməzsən, harda ölüvay var, məni tapar! Bəxtim belədir!

Rəncbər də Bahardan razı deyildi. Bəzən kotan zənciri boşalar, xış batıb qalar, Bahar boyunduruqdan yıxılardı. Öküzlərin ayağı altında qalmaqdan qorxardı. Rəncbər hirslənər, zoğal ağacı ilə öküzləri ölçərdi. Ağzına gələni deyərdi. Hərdən keçib ala öküzün ağzını

qoltuğuna alar, acıqlı-acıqlı burnunu övkələyərdi: «A bunun burası, əfəndi tapşırmayaydı, görərdin nə deyərdim! A bunun burası...»

Bahar sonra bildi ki, heyvanın ağzına söyməyi əfəndi məsciddə qadağan etmişdir; çünki «heyvan ağzında Allaha dua eləyir».

Bahar rəncbərin hirsli vaxtında sakit dayanardı. Rəncbər acıqlanardı:

— Ədə, dilin lal deyil ki, sən də deyinən: «ərkansız oğlunun malı!» Bir sən də dillənsənə!

Uşaq qorxusundan dərhal onun sözlərini təkrar edərdi.

Bahar üçün ən çətin iş cütə minmək idi. Boyunduruqda oturanda Baharın əziyyəti birə min artırdı. Dayana bilmək üçün ayaqlarını cüt zəncirinə dolamalı idi. Yırtıq çarıqdan çıxmış ayaq barmaqlarını zəncir əzib göyərdərdi. Ayağında ət yox idi. Dəri sümüyə yapışmışdı. Zəncir dəyən kimi barmaqları sızıldayırdı. Uşaq, iynə üstündə oturmuş kimi əzab çəkirdi. Amma dillənə bilmirdi.

Xırman işi də ağır idi. Yayın bürküsündə ayaqlarına tikan, dırnaqları arasına qılçıq bata-bata küləş üstü ilə öküzlərin dalınca yüyürməlidir. O, yorulur, başı gicəllənir, yıxılası olurdu. Öküzün də başını açıb oturan və qəlyan çəkən xozeyini Bahara baxırdı:

— Tərpəş, tərpəş, ədə, ətbala-zad deyilsən ki, yeyin getsənə!.. — Bahar var gücünü yığıb əlindəki çubuqla öküzləri haylayar, addımlarını yeyinlədər, ağasının qəzəbindən qorxardı.

Xırman qurtaran kimi Baharın göz açmağa macalı olmurdu. Camaat nahara oturanda ona bir .parça çörək verirdilər. «İş yatmasın» deyə, gəvələyə-gəvələyə küləş içində gəzirdi.

Xırman yığılan vaxt Bahar sevinirdi. O, axsaya-axsaya axtarıb əvəlik tapar, ayağının qabarlarına basardı. Çaya enib əl-üzünü yuyar, doyunca sərin sudan içərdi.

Yağış ucundan xırman olmayan günlər Bahar mal otarmağa gedərdi. Gündüz dağının başında soyuq şümal bir daşın üstündə oturub qılçalarını sallar, çörək dəsmalını dizləri üstünə açıb, lavaş ovuntularını ovuclayıb yeyərdi, həsrətlə kəndə baxardı.

Yenicə yuxudan ayılan kənddə Baharın gözünə nələr, nə ləzzətli şeylər görünərdi:

«Dama-divara çıxıb qanad çalan, üzünü günəşə tutub banlayan ağ, qırmızı xoruzlar, doqqazda eşələnən al-əlvan fərələr, qırt-qırt edən, analarının yanında xırdaca göbələk kimi görünən, civildəşən sarı cücələr nə qədər xoşbəxtdirlər.

Onlara çörəyi cirə ilə vermirlər. Analarından ayırmırlar, isti yataqdan qovmurlar. Xış dərinə batanda onlar yıxılmırlar. Ayaqlarını zəncir kəsmir. Gözlərinə qılçıq dolmur...

Gün bir az qalxan zaman bağ-bağçada oynaşan, talvarlarda söykənib kitaba baxan bəy balaları, kərə yaxmacı yeyən hampa uşaqları nə qədər xoşbəxtdirlər. Hər başıpapaqlıdan gizlənən yeniyetmə, nişanlı qızlar nə qədər xoşbəxtdirlər! Onlar heç nəyə həsrət deyillər. Yavan arpa çörəyi onların ağzını aparmır. Üzləri gün altında qabıq qoymur. İstidən gözləri ağrımır, dizləri gizildəmir, tərdən boğulmur, qızdırmaya düşmürdülər. Damlarında süfrə-süfrə alma, ərik qaxı sərənlər, tut qurudanlar nə qədər xoşbəxtdirlər! Onlar möhtac və ac deyil. Bağların, bağçaların, dirriklərin məhsulu onlarındır. Ağ, qırmızı, şirin sulu əriklər... Peyvənd alçalar, gavalı, yaz-payız almaları, kişmişi üzüm salxımları... Bahar baxdıqda ağzı sulanırdı. Həyat ona həm dadlı, həm də acı gəlirdi. Kəndin ortasından axıb uzaqlara yol alan, kül altında kərənti tiyəsi kimi işıldayan Səbey çayı, çay üstündə xəyal kimi uçan qaranquşlar, Badamlı bulağının buz kimi sərin suyu, söyüd kölgələri, həyətlərdən göyə ətir səpən məxmər, mixək gülləri, gülöyşə nar ağacları... Bir badya köpüklü süd verən inəklər, yaşıl yamaclar... Arabalar dolusu novbar yemişlər, zolaqlı şamamalar... Mələşən quzular, bal yığan, beçə verən arılar, kövşənə səs salan çoban mahnıları, kəklik ovu...

Bunlar kimin üçündür, bunlar kimindir? Ay dünya, nələrin var! Ax, ağacda yarpaq, budaqda bir quş olaydım!»

— Şarp!

Baharın kürəyindən elə bir ağac çəkdilər ki, səsi qayalara düşdü, şirin xəyallarını sanki qəfildən qılıncladılar.

— A donuz oğlu, taxılı niyə basdırırsan?

Qoruqçu bir də vurmaq istəyəndə Bahar yaralı quş kimi özünü şuma tulladı. Qoruqçu dəyənəyini çiyninə qoyub onu qovurdu, uşaq qorxu, dəhşət içində var gücü ilə qışqırır, kimi isə haraya çağırırdı...



*Altıncı fəsil*

## GECƏNİN HÖKMÜ

**Həqiqətin gecəsi yoxdur,**
**Gecənin də həqiqəti var.**

Güney kəndinin şimal tərəfi dağavar yer idi. Düzdən diklən-dikcə xırda təpələr, təpələri ötdükcə tək düşmüş Gündüz dağı, onun dalında yenə silsilələnmiş Göyümsov dağlar gəlirdi. Güney kövşənini şimaldan ayıran Göyümsov sıra dağlarının başından il uzunu qar getməzdi. Ətəkləri yay-yaz yamyaşıl olardı. Buralar kənddən uzaq olsa da otun çoxluğundan yerindən tez qalxan malını bura sürərdi. Uzaq kəndlərdən də naxır gələrdi.

Bahar burada mal otarırdı.

Uzun, qismən meşəlik və sıldırımlı dağların dibindən burularaq gedən və tərtəmiz daşlara çırpılaraq səslənən Majın çayı axırdı. Bu

çay dağları yarımdairə şəklində dolanıb kəndin ayağında Səbeyə qarışırdı. Bu çayın quduz vaxtı yazın ilk aylarıdır. Ovçuların deməyinə görə yazbaşı bura qorxulu olur. Qar əriyəndə bu dərələrdə qıcıltı ilə axan suyun şaqqaşaqqından durmaq olmur. Qış uzunu üst-üstə yığılıb bərkiyən və gün dəydikcə qopub dərə uzunu başıaşağı sürüşən qar gülləələri, buz parçaları top kimi səslənir. Deyirsən dağ uçdu! Nə qədər heyvan qara düşüb ölür. Bəzən qar çayın üstünü basır, az qala yolunu dəyişir. Odur ki, yayın əvvəllərinə qədər buraya əl-ayaq dəymir. Mal-heyvan da gətirmirlər. Qarı əriyən yerlərin o tərəfi qoruq kimi otlu qalır. Yaxın kəndlərin bir neçəsi bu zamanlar həmin otlaqlardan faydalanır.

Budur, çayın qırağında, bir az dikdə meydança kimi uzanan qumlu yer — sel yatağıdır. İndi bu qumda uşaqlar, kənddən uzaq düşmüş, doqqazların oyununa həsrət qalmış naxırçılar aşıq-aşıq oynayır, sapand atırlar. Qayadan daş aşırmaq üçün mərcləşir, ötüşürlər.

Burada uşaqların işi oynamaqdır; çünki nə malın ac qaldı dərdi var, nə də onu taxıldan, qoruqdan qaytarmaq lazım gəlir. Dağ döşləri başdan-başa xamdır. Mal yeyir, doyur, dərəyə enib sərin qar suyuna döşənir.

Çiçək yığmaq üçün döşə dıklənən Bahar, şehli otlaqları ayaqlayır, adətincə kollara ağac vuraraq yeriyirdi. Daha yüksəklərə çıxmaq mümkün olsa, Göyümsovun dal tərəfinə doğru gedən dar və qayalıq keçidi görmək istəyirdi. Bu keçid haqqında çox eşitmişdi. O bir ovçu kimi dıklənirdi.

Dayanıb geri döndü, dərədəki yoldaşlarını səslədi. Hay verdilər. Mürsəlin tulası dovşan kimi hoppana-hoppana Baharın yanına gəldi. Bahar tulaya çörək atdı, tula nə çörəyə, nə Bahara baxdı. Bir-iki dəfə hürdü, sürətlə sıçrayıb yuxarı ötdü. O, kollara sürtüşüb xışıltı eləyən kimi bir keçi mələdi. Bahar dırmaşdı:

— Burada keçi nə gəzir, kimin heyvanı olar.

Bahar yaxşı bilirdi ki, malın hamısı aşağılardadır. Bu qayalıqda qoyun-keçi olası deyil. Lakin o şübhələndi ki, bəlkə azmış, ya canavar aparmış bir heyvan ola. Kollardan tuta-tuta dırmananda, tulanın iplə oynayan pişik kimi atılıb-düşdüyünü gördü. Bir ceyran balası itin qabağında heyran-heyran dayanıb mələyirdi.

Bahar sevindiyindən bilmədi nə eləsin. Yoldaşlarınımı səsləsin, ceyrana daşmı atsın, ya hürkütməmək üçün gözə görünməsin, yoxsa tulanı qısqırtsın.

Bu fikirlər ötəri işıq kimi onun zehnində oynadı. Lakin yenə tərəddüdün qaranlığında çaşıb qaldı. Tula ceyranın gah böyrünə, gah qabağına keçib hoppanır, zingildəyib sanki Baharı çağırırdı. Ceyran da tulanın qabağında dayanıb mələyirdi. Təəccüblü idi. O, tuladan qorxursa, nə üçün qayıdıb qaçmır. Qorxmursa nə üçün döyükür. Bahar yaxşı bilirdi ki, tula ceyran ilə ayaqlaşmaz. Ceyran bir də mələyib yuxarı baxdı, səs gəldi. Bahar diqqət verəndə aşırımda bir sürü ceyran gördü. Biri dönüb geri baxır, mələyirdi.



Bahar fürsəti itirəcəyindən qorxub irəli yeridi. Bildi ki, ceyran balası sürüyə qaçmağa çalışacaqdır. Tulanın köməyilə ceyranın qabağını kəsdi. Ceyran quş kimi hoppanıb göyə qalxanda bir ayağı Baharın əlinə keçdi. Heyvan göydə çırpındı. Bahar arxası üstə yıxıldısa da ceyranın ayağını buraxmadı. Cəld onu qucaqlayıb saxladı. Aşağıdakı yoldaşlarını hayladı. Uşaqlar onun səsini eşidirdilər, lakin qayalar səsi elə yayırdı ki, Baharın hansı səmtdə olduğunu, nə dediyini anlaya bilmirdilər. Tula dərəyə doğru götürüldü. Xəbər aparırdı.

Bahar qolunu ceyranın boynuna salıb döşünə sıxmışdı. Bir əli ilə də heyvanın qabaq ayaqlarını cütləşdirib bərk-bərk tutmuşdu. Ceyran mələyirdi. Hərdən çapalayıb əldən çıxmaq istəyirdi. Dağın başından, sürüdən ona səs verirdilər. Bahar ceyranın tükündən anasının onu təzəcə yaladığını bildi. Belinin tükləri hələ də yaş idi. Bahar onun gözəl başını, zərif boynunu tumarlamağa başladı. Göbəyinin maya kimi yumşaq olduğunu gördü. Ceyran lap körpə idi. Baharın ürəyi birtəhər oldu. Balasını çağıran ananın səsi Baharı kövrəltdi, az qaldı ceyranı əldən buraxsın, heyvanın üzündən öpdü. Özünə toxtaqlıq verdi:

«Mən öldürməyə aparmıram, bəsləyəcəyəm, ələ öyrədəcəyəm, böyüdəcəyəm. Quzu kimi saxlayacağam».

Bahar ceyranın şabalıdı rəngli, həm də gümüş kimi işıldayan dırnaqlarına, qələm kimi düz və nazik qıçlarına, iri və həyəcanlı gözlərinə, pərişan boynuna baxdı. Üzündən-gözündən öpə-öpə dərəyə sarı endi.

Xozeyin bilməsin deyə, Bahar ceyranı öz evlərinə aparmaq fikrində idi. Yarı yolda Mürsəlin qucağına verib malı ayırdı, yeyin sürüb evə çatdırdı. «Anam çağırmışdır» — deyə xozeyindən izin alıb yüyürə-yüyürə kəndlərinə qayıtdı.

Bahargilin qapısı camaatla dolmuşdu. Qucağında ceyran balası, eşşəyin üstündə sevincək oturan uşağı adamlar əhatə etmişdilər. Kimi soruşur, kimi gülür, xoşlanırdı. Kimi Baharın anasını yanlayıb ovun qiymətini xəbər alırdı. Bahar isə əhvalatı başdan-ayağa şirin-şirin danışıb özünə kömək edən tulanı çağırırdı. O, vəfalı heyvan kimi sanki heç bir şey eşitməmişdi. Lap kənarda, divar dibində oturub adamlara tamaşa edirdi.

Ağarəşid də Baharı danışdırdı:

— Yaxşı, Bahar, neçə nəfər mal otarırdınız?

— Üççə nəfər, Mürsəlgil dərədəydi. Döşə qalxan bir mən idim.

Ağarəşid üzünü Mürsələ tutdu:

— Bəs necə bölüşdürəcəksiniz, yoldaşlı deyilsinizmi?

Mürsəl özünün ova şərikliyi haqqında eşidəndə sevindisə də Baharın xatirindən keçmədi. Müəyyən cavab demədi. Ağarəşid yenə danışmaq istəyəndə Sona acıqlandı.

— Nə danışırsan, Ağarəşid, uşaqların içinə fitnə salmağamı gəlmisən.

Ağarəşid dedi:

— Fitnəkar özünsən, ay arvad. Mən haqq-hesabın düz getməyinə görə deyirəm. Üç yoldaş bir yerdə ov tutub, əlbət ki, burada...

Sona ceyranı uşağın qucağından alıb evə girdi.

Bu gecə Bahar sevindiyindən yatmırdı. Ceyranı qapının yanında bağlamışdı, qabağına çörək ovuntusu, tut yarpağı, güllü yonca tökmüşdü. Bir kasa suyu dəqiqədə bir onun qabağına qoyub götürürdü. Ceyran küsmüş kimi üzünü yana çevirirdi. Bahar onun başını kasaya əyib balaca, bülöv rəngli incə dodaqları suya dəyənəcən buraxmırdı. Ceyran nə yeyir, nə içirdi. İri, dalğın gözlərini pəncərədən, çölün qaranlığından ayırmırdı. O, üzünü qaranlığa doğru çevirib elə sakit durmuşdu ki, deyərdin anasının səsini, hənirtisini gözləyir. Bu saat top kimi atılıb şüşələri də qıracaq, düz səhralara üz qoyacaqdır. Uşaq ovun bu dalğınlığına dözə bilmirdi. Sağına, soluna keçib əzizləyir, oxşayırdı. Xəyalında onu bəsləyib böyüdür, evə alışdırır, qoyun-quzuya qatırdı...

Bahar bu fikirlərdə ikən ov mələdi. Onun səsi xoş bir xəbər kimi sahibini sevindirdi. Bahar qəhqəhə çəkib güldü. Ceyranın boynunu qucaqladı. Çalışdı ki, ceyran bir də mələsin. Bahar o axşamını ceyranla keçirdi, onun sevinc və xəyalı ilə də yuxuladı.

Mərdanın biçin paltarında, əlində oraq, qan-tər içində qayıdıb evə gəldiyini gördü. Yoldaşı da vardı. Evə girən kimi qardaşını qucaqlayıb muştuluqladı. Bahar boynuna xınadan xal qoyduğu ceyranı böyük qardaşına göstərəndə Mərdan da sol döşündən bir qırmızı kitab çıxarıb ona verdi. Kitabın varaqlarını açanda ətir iyi gəldi. Gül yarpaqları yerə səpələndi. İsti və xoş bir külək yarpaqları astanaya yığdı. Ev lalə kimi qızardı. Quşlar həyətə doldu, qanad çalıb səs-səsə verdi. Mərdanın qabağına bir gümüş yəhərli kəhər at çəkdilər. «Yorulmusan,—dedilər,—bəsdir piyada gəzdiyin». Mərdan cəld at üstə qalxdı, qardaşını da tərkinə alıb bulaq başına yollandı. Ceyran dayça kimi atın dalınca qaçırdı. Tarlalar içində şimşək kimi süzüb oynayır, quzu kimi mələyirdi. At kişnəyib cavab verirdi. Dağları, meşələri ötüb gedirdi. Yer ayaq altından xalça kimi sürüşür, adam qov kimi yüngül görünürdü.

Bahar, səhərin sərin küləyi ilə açılan kirpiklərini ovuşdurub ayağa qalxdı. Anasının evdə gəzindiyini, onun dəsmalına pendir-çörək qoyduğunu gördü. Çarıqlarını geyinə-geyinə yuxusunu anasına söylədi.



— Axar suya danış, bala, Allah xeyir eləsin! Quş — muştuluq,— at — ucalıq, kitab — nağıldır. Yuxun çin olsun, bala! Xoş xəbər alacaqsan, qardaşın gələcək, ağ günə çıxacaqsan!

Baharın yuxusuna ümid var idi. O, ceyran balası ilə ünsiyyət bağlayıb bütün əziyyətlərini onunla unudurdu. Həmişə söhbətini ceyrandan başlayır, Mərdanda bitirirdi, Mərdandan başlayır, ceyranda bitirirdi. Onun qısa danışığı o qədər şirin, o qədər səmimi və təbii idi ki, anası qəsdən dönə-dönə dindirər, sevinər, öyünər, ürəyində dua edərdi: «Bu şirindillini mənə çox görmə, ay tanrı! Qoy bu mənə təsəlli olsun. Hər yerdən gələn bəlalara sinə gərən bir iqbalsızın da ahını eşitsənə!»

Sona həm Baharın həvəsinə, həm Mərdanın eşqinə ceyranı yaxşı bəsləyirdi. Quzu kimi ələ alışdırmışdı.

Payızın axır aylarında ceyran böyümüş, lap kökəlmişdi. Yerdə-göydə durmurdu. Sona hərdən onun bəndini açıb həyətə buraxırdı. Heyvan azadlıq həvəsindən ruhlanıb bütün küçəni başına alır, gəzirdi, divarı, çayı, çəpəri aşır, quş kimi uçurdu. Bir dəqiqədə xəyal kimi gözdən itirdi. Görən deyirdi getdi, bir də qayıtmaz. Çox çəkmədən görərdin o həlim heyvan, budur, dönüb gəldi, sahibinin ətəklərinə sürtündü. Sanki deyir: «Haracan, deyirsən, qaçım»!

Aşura günü kəndlilərin təziyəsinə tamaşaya gələn «Vağzal ingilisi» Sonanın ceyranını görmüşdü. Yassar Lətifə nə tapşırmışdısa, yüzbaşı əlini gözünün üstünə qoyub baş əymişdi.

Səhərisi Yassarın yasavulu Sonanın qapısını kəsdi:

— A Sona xala!—dedi. — Yüzbaşı səni istəyir.

— Neyləyir yüzbaşı məni?

— Özündən soruşarsan, gedək!

Sona ürəyində dedi: «Xeyirə çağırmayacaqlar ha, şərə düşmüşlər!..»

— Yaxşı, bu saat, evi yığışdırım, gələrəm.

Yasavul astanadan tərpənmirdi:

— Yox, özümlə getsən yaxşıdır!

Sonanın acığı tutdu:

— Nə belə saqqız kimi suvaşırsan, dedim gələrəm, gələrəm! Qazamata dustaq aparırsan yoxsa bu əziz gündə?

Yasavul, arvadın dik danışmağından sözünü çaşdı. Ancaq bunu təkrar eləyə bildi:

— Özümlə getsən yaxşıdır.

Yüzbaşı Sonanı görcək dedi:

— Havaxt sənin qalmaqalın kəsiləcək, ay arvad?

Sona dinmədi. Yüzbaşı sözünün yerində deyildiyini və hərifi tutduğunu güman etdi, bir az da qışqırdı:

— Bilək də, bilək gərək havaxt sənin səsin kəsiləcək, havaxt? Yoxsa hörmət qoyduqca başa çıxırsan?

Sonanın yasavula qarşı doğan hirsi yüzbaşıya qarşı daha da alovlandı. O da sual ilə başladı, sual ilə də davam etdi:

— Məni niyə çağırmısan bura?

— Oğlun ceyranı hardan gətirib?

— Yüzbaşıya nə borcdur o?

— Səndən söz soruşuram, hardan gətirib?

— Yoxsa, Hacının indi də ceyrana gözü düşüb?

— Cavab ver, deyirəm, hardan?

— Sənə borc deyil. De görüm, məni işimdən, kasıblığımdan eləyib bura niyə çağırmısan? Yoxsa ceyrana da vergi qoymaq istəyirsən?

Yüzbaşı Sonanın acıqdan titrəyən dodaqlarına, qızaran və yanan gözlərinə təhqirli bir nəzərlə baxdı:

— Bəyəm bu kəndin sahibi yoxdur ki, evdə izinsiz ceyran saxlayırsan? Yoxsa özbaşınalığa üz qoymusunuz?

— Yoxsa məni adamsız görüb ayaqlamaq istəyirsən? Mənim evimdə, uşağımın əyləncəsində nə işiniz qalıb sizin? Belə də yüzbaşılıq olar?! Nə bəladır başımıza gətirirsiniz!

Yassar Lətif qulaq asmaq istəmədi. Səsini dəyişdi, barmağını silkələyərək qadını hədələdi və qəti əmr elədi:

— Bu saat gedib ceyranı gətirərsən!

— Hökmdü?

— Bəli, hökmdü. Gətirərsən burda danışarıq. Şər zahirə hökm elər!

— Ceyran uşağımındı, öldürsən də əldən verməz!

— Bir kəlmə dedim, qurtardı, getdi. — «Uşaq!» Uşağını özünə qataram, özünü də uşağına. «Tapan tapanın olsa, qoyun çobanın olar!» Biz bilirik necə uşaq böyüdürsən! Mərdan göz qabağındadır.

Yassar üzünü yasavuluna tutdu:

— Nə durmusan mat-mat?

Yasavul qorxusundan dik atıldı, tez tüfəngi çiyninə saldı. Sonanın qabağına keçib dedi:

— Gəl, gəl, tez ol, ceyranı gətir. Sonra danışarsan, gedək!..

Sona yasavulun qabağına düşüb dəftərxanadan çıxdı. Evə tərəf gedirdi, lakin ayaqları getmirdi. O, dünyada çox təhqir edilmişdi. Gücün, bu dünyada hər şey demək olan gücün ağırlığını öz başında hiss etmişdi. O bilirdi ki, ceyranın deyil, Baharın da ixtiyarı «divan» adamlarındadır. Onlar istədiklərini edirlər.

Əgər bu ceyran canavarın, meşə yırtıcılarının hücumuna uğrasaydı, Sona igidlər kimi sinəsini qalxan edib oğlunun sevincini qoruyardı. Qəlbinin parçalanmağına razı olar, ceyranı isə verməzdi. Lakin indi pristav, rəis — hamısı — hökumət adamları onun gözünün qarşısında idi. Sona fikirləşir, nə edəcəyini bilmirdi. Evə doğru hər addımında məchul və qorxunc bir macəraya yaxınlaşdığını güman edirdi. Ürəyi döyünürdü. Yasavul onu qayğılarından ayırmaq istədi.



— Sənin ceyranın sabah bu vədə misterin hüzurunda olacaq, gərək özün fəxr eləyəsən...

— Mister kimdir?

— Sabah «Vağzal ingilisi»nin ad bayramıdır. Koxadan tutmuş pristavacan—nahiyənin hamısı onun evində olacaq. Ceyrana baxanda sənin oğlunu da bir yada salacaq ki... Onsuz da oğlunun xozeyini Kəmfürsətoğlu ceyranı çəkib əlinizdən almaq istəyir. «Nökərin tapdığı,—deyir, — ağasına çatar». Amma ingilis heç olmasa yada salacaq. Bəlkə kefləndi, bir peşkəş də verdi.

— Sağ verməsin. Oğlumun əlindən almasınlar... hələ.

Sona misterin adını eşitmişdi, kim olduğunu da yaxşı bilirdi. Yaxşı bilirdi ki, mister bu nahiyədə ingilislərin tikməsidir. O burada bəyləri, xanları qorumağa, kəndləri çapıb-talamağa, kasıblara divan tutmağa oturmuşdu. «O, uzaq yerlərdən — ölkələr, dənizlər basa-basa buraya xeyrə gəlməmişdir. Bizi də Hindistan kökünə salmaq, var-yoxdan çıxarmaq, aldatmaq, tora salmaq üçün gəlmişdir. Əbəs deyil ki, misterin atı, faytonu yola çıxanda bəylər qurban gətirir, ayağından öpür, övliya kimi səcdə edirlər. İt itin ayağını basmaz». Mister bəylərin, hampaların havadarıdır, onlar da ağalarının qədrini pis bilmirlər, sağ bilməsinlər!..

—Ay binamuslar, ay tülküdən əskiklər!

Sona hiddətini söz-söyüşdə ifadə etmək istəyirdi. Bu da mümkün deyildi: Bunların, camaata qatil kəsilən bu yüzbaşı və pristavın işləkləri, əməlləri qara cinayətlər silsiləsi kimi onun gözü qabağında dururdu. Bir müddət bunlar xalqı fəsli paşalara, əfəndilərə satdılar. İndi də ingilisə satırlar...

Sanki Sona vətəninin, xalqının başına gələn fəlakətləri öz həyatında aşkar hiss edirdi. Körpə bir uşağın sevincini də qarət edən bu canavar iştahlıları kim, nə zaman bizim ana torpaqlardan qovacaqdır? Nə zaman, nə zaman?..

Sonanın ən böyük arzusu bu günü görmək, bu qarətçi quldurların dalınca ağır bir daş atmaq idi... «Ax, balalarım olmayaydı, düşmənimi dişimlə didərdim!..»

Sona camaat arasındakı danışıqlardan bilirdi ki, aylarla yollar basa-basa gəlib buralara çıxan o «boz şeytan» uzun və murdar fil xortumu ilə yalnız nefti sormur. Gecə-gündüz dağda-daşda sümsünür, ağlı kəsən yumşaq və «yağlı» yerlərdə mıx-tövləsini bərkitməyə, vətən torpağının şirəsini, fağır-füqəranın qanını sormağa çalışır. O burada özünə nökərlər tapır. Onun pristava verdiyi hər hədiyyə, yüzbaşıya doğru çevirdiyi hər xoş baxış rəiyyətə çox baha tamam olur, vətənə ağır başa gəlir.

Mister əhvalatını eşidəndən sonra Sona, ceyranından — oğlunun son təsəllisindən tamam əl üzdü. Sanкi qucaq dolusu səadəti əlindən alındığı üçün qeyri-ixtiyari qolları yanına düşdü, sinə dolusu bir alı çəкdi. Yıxılacağını güman edib, boşalmış əllərini taqətsiz dizlərinə qoyub çöкdü.

Yasavul кənardan baxan olmadığını gördüкdə rəsmiyyəti pozaraq Sonanın qolundan tutub qaldırmaq istədi. Sona dirsəyi ilə rədd etdi. Yasavul qorxmuş кimi кənara çəкildi.

Sona ayağa qalxdı. Yasavul səsini yumşaldıb dedi:

— Günah sənin özündədir axı!

Sona dinmədi. Qarşısındaкı tozlu yollara baxa-baxa bir müddət yeridi. Sanкi nəyi isə fiкirləşirdi. Birdən soruşdu:

— Nə günahın yiyəsiyəm mən?

Yasavul dediyini yadından çıxarmışdı. Sona bir də soruşanda xatırladı.

— Tərs danışırsan!

— Bu zülmü sən görürsən кi, uşağımın...

Yasavul onun şiкayətini eşitməк istəmədi:

— Zülmdən кeçib, ay arvad, sən tərs danışmasan, ceyranı özün qucağına götürüb ingilisin qapısına aparsan, yəqin bir qızıl peşкəş də alacaqsan! Bu da sənin кimi кasıb arvadın bəsidir... Ceyran sənin nəyinə yaraşır? Uçuq daxmanamı? Daha da səni кasıblıqdan qoyur...

Yasavulun məsləhətinə Sona güldü, tərs-tərs müsahibinə baxıb bu sözü təкrar etdi: «Qızıl, qızıl!»

Sonra Sona nə fiкirləşdisə yenə кiridi. Elə bil yasavulun sözünü düşünür, ölçüb-biçirdi. O birdən başını qaldırdı. Sanкi bu təкlifə razı idi:

— Düz deyirsən bunu! İndi кi, ingilisə çatacaq, yüzbaşı qoysun ceyranı özüm aparım. Sən deyən кimi, uşağa bir arxalıq pulundan, zaddan...

Yasavul dediyinə peşman oldu. O, Sonanı saкit etməк, susdurmaq üçün bir məsləhət görmüşdü. Arvadın birdən-birə yumşaldığını, razı olduğunu görüb canına qorxu düşdü. Qorxdu кi: «yüzbaşının acığı tutar. Sona da «yasavul öyrətdi» — deyər, — arada pis кişi mən ollam».

Yasavul istədi sözünü çevirsin, amma Sonanın ovu verməyəcəyindən ehtiyat edib susdu. Xəyalında dedi кi, «iş o yerə çatsa yüzbaşıya deyərəm aldatmaq üçün idi, yoxsa ceyranı gətirmirdi...»

Sona bir də təкrar elədi:

— Düz deyirsən, özüm aparım ingilisin lap hüzuruna!

— Dəftərxanada arxayın danışarıq...

Sona evə gələndə ceyran başını qolları arasına qoyub yatmışdı. Ayaq səsi eşidib diк qalxdı, qapıya baxdı.



Ehtimal кi, o кörpə heyvan balaca müsahibinin, onu yemləyib bəsləməк istəyən Baharın gəldiyini güman edib sevinmişdi. Heyf кi, bahar yox, qılınc кimi bir qış gəlirdi. Yasavul tüfəngi çiyninə salıb ceyranı qoltuğuna vurmaq istəyəndə Sonanın ürəyi dözmədi, yasavulun ətəyindən tutub geri itələdi.

— Nə qayırırsan, pendir motalı-zad deyil кi! Çəкil qırağa. Bu nəcibliкləmi ceyranı saxlamaq istəyirsiniz?

Sona ovu öz balası кimi ehtiyatla qucağına alıb evdən çıxdı. Qapını кilidləyib yola düşdü.

Onlar dəftərxanaya tərəf gedirdilər. Hər görən Sonanı dayandırmaq, apardığı gözəl heyvanın başını tumarlamaq, onun iri və gözəl gözlərinə doyunca baxmaq, təmiz səsini eşitməк istəyirdi. Laкin yasavulu Sonanın yanında görüb cürət etmirdilər.

Həyətdən çıxanda ceyran çapaladı. Az qaldı əldən çıxıb qaçsın. Sona onu buraxmağa hazırdı. Ancaq bilirdi кi, кəndin bu dar doqqazlarında o кörpə heyvan itlərin əlindən, yasavulun gülləsindən qurtula bilməyəcəкdir. Ürəyində ona təsəlli verirdi: «Ay heyvan, səni cəlladlar əlinə verməyərəm, qorxma!..»

Daha ceyran tərpəşmədi. Sanкi o, Sonanın ürəyindəкini hiss etmişdi. Ona görə də qucağına, qəlbinə daha bərк yaslanmaq istəyirdi. Üzünü onun əllərinə, paltarına sürtürdü. Ceyranın hər hərəкəti Sonanın ürəyinə toxunurdu. Onun üzündə balasını basdırmağa aparan bədbəxt ana müsibəti oxunurdu. Yerə baxan gözlərindən, yavaş və ürəкsiz addımlarından məlum idi кi, xiffət içindədir, fiкri özündə deyil.

Onun dərdi üstünə dərd gəlmişdi. Yetim oğlunun yeganə sevincini alıb aparırlar. Misterin— qarətə, çapqına gələn, vağzalda məsкən salan o boz adamın uşaqlarını əyləndirməк üçün aparırlar. O uşaqların hər şeyi vardı, ceyranları da olmalıdır. Baharın heç nəyi yoxdur, ceyranı da olmamalıdır. Onun çöldən tutduğu ovu da, dağların bəxş etdiyi ceyranı da saxlamağa haqqı yoxdur: çünкi Bahar yetimdir, Bahar yoxsuldur, Bahar nöкərdir, Bahar adamsızdır...

Düşündüкcə Sonanın qəlbindən qara qanlar axırdı. Ürəyi sovrulmuş xırman кimi boşalır, soyuq dağ кüləкləri кönlünün mətləblərinə, arzularına süpürgə çəкirdi.

Özünə cürət verdi:

— Mən Sona deyiləm əgər bu ceyrana ingilis əli dəyə!

Sona ovu qaçırmağı qət etmişdi. Amma indi, günün günortaçağı bu mümкün olan iş deyildi.

Nə fiкirləşdisə birdən addımlarını yeyinlətdi. Yasavul da sürətlə getdi. Dəftərxanaya çatanda Sona ayrı bir ahənglə yüzbaşıya yalvardı:

— A Lətif qardaş, bunu mənə əvvəldən de də. Mən elə bilirəm кəsməк üçün istəyirsiniz, günahdır deyirəm, qorxuram. Ağalara is-

tədiyinizi bilsəm, bunu mən bərli-bəzəkli gətirərdim ki! Başına, boğazına xına yaxardım. Mən özüm də bu sovqatı elə bir nəcib yerə layiq bilirdim. Aparacaqdım da... İndi məni Kazım qardaş başa saldı. İngilis ağalara min belə ceyran qurban. Ancaq ki...

Yüzbaşı Sonanın «yumşalıb» yola gəldiyini və ceyranı görüb sevindi. Bir əli ilə ovun başını tumarladı, o biri ilə dodaqlarını aralayıb dişlərinə baxmaq istədi və soruşdu:

— «Ancaq» niyə, «ancağı» nə üçün.

Sona elə bu sualı gözləyirdi:

— Ancağı budur ki, ay Lətif qardaş, mən istəyirdim, ceyranı bəzəyim, boynuna yaxşı bir qotaz asım, yuyub təmizləyim, ingilis ağaların evinə gedəndə deməsinlər ki, qanmaz müsəlmandırlar. Çoban kimi çöldən, necə tutublar, mənim qapıma da elə gətiriblər!.. Axı buna baxacaqlar, tumarlayacaq, bəlkə öpəcəkələr də. Yaraşar ki, bunun bədənində çirk ola, ya toz ola?! Bizim üçün eyib olar. Ləyaqətli yerə gedir, bunu mən bilməmişdim.

Sonanın sözü yüzbaşıya çox xoş gəldi:

— Ay rəhmətliyin qızı, belə fikrin var idi, eləyib gətirəydin də! Soruşmaq nə lazımdır daha? Necə layiqdir elə hazırla! Hamımızın baş ucalığımızdır ki, sabah bəlkə mister vaqona qoyub Londona aparası oldu. Məlum olsun hansı vilayətdən, hansı yüzbaşının torpağından...

Sona şəhadət barmağını qaldırdı:

— Bircə gecə mənə möhlət ver, qəşəngcə xına yaxım. Boynundan qırmızı qotaz asım. Elə bəzəyim, elə bəzəyim, gəlin kimi Boynuna da bir gözmuncuğu!

O, sözünü bitirməmiş, yüzbaşı əli ilə işarə elədi:

— Sən atanın goru, ay arvad apar, əlinə dönüm, gör bir neynirsən. Pristav-zad da baxacaq, şəhərbəşəhər bu heyvanı gəzdirəcəklər, abırlı peşkəş olsun!

— Lap arxayın ol!

Sona sevincək qapıdan uzaqlaşanda Yassar Lətif başını eşiyə çıxarıb səsləndi:

— A Sona, bir bəri qayıt!

— Nə var?

— Bir bəri qayıt, söz deyirəm!

Sona yüzbaşının fikrini dəyişdiyindən qorxub duruxdu. Əlacsız qayıtdı.

Yüzbaşı onu daha da yaxına çağırdı, cibindən nə isə çıxartdı. Sonanın qulağına əyildi:

— Gəlsənə bir iş də eləyəsən, ay Sona! Bizim sovqatımızı xan-xaqan hüzurunda soruşacaqlar, gəlsənə bu möhrü xınalayıb ceyranın döşünə basasan, səndən bir şey getmir, qoy mənim adım da bilinsin. Qoy zəhmətim hədər getməsin.



Sona möhrü alıb xırda yazısına baxdı.

— A Lətif qardaş, bu yazı xına tutmaz.

— Necə tutmaz, kəlağayılara bundan xırda möhür basırlar.

— Baxma, onu mumla basırlar, xına bunun üstünü örtər, yazı düşməz.

Yüzbaşı möhürün yazısına, bir də diqqətlə baxdı, sanki birinci dəfə görürdü. Arzusunun baş tutmadığını görüb məyus oldu:

— Bəs nə sayaq eləyək?

Sona dedi:

— Sayağı odur ki, möhrü mürəkkəblə basarsan. O asan işdir. Ceyranı bəzəyib gətirim hələ, buradaca möhrü bir yerindən basarsan, nə eybi var.

— Axı mürəkkəb tez gedir!

— Tapşırarıq yağışa salmazlar. Qorxma, yazı heç olmasa bir Londonacan gedər ki? O da sənə bəsdir.

Yüzbaşı gülümsəyib razılıq işarəsi verdi və dodaqucu dedi:

— Hardadır bizdə o bəxt ki, möhürümüz Londonacan getsin!

— Möhürünüz də getməsə adınız gedər, a Lətif qardaş, fikir eləmə. Bu işlər ki, siz görürsünüz, hamısı kitablara yazılır, havayı getmir, şəhərbəşəhər söylənəcək, arxayın ol!

Sevincindən Yassarın gözləri parıldadı:

— Di apar!

Bunu deyib möhürün yazısını bir də gözdən keçirdi, qoltuq cibinə qoydu. Sona çıxmaq istəyəndə soruşdu:

— Bəs haçan gətirərsən?

— Siz havaxt ingilis ağanın yanında olacaqsınız?

— Sabah axşam misterin ad günüdür. Hökmən aparaq gərək.

— Xınanı bu gecə yaxaram, sabah da qotazları toxuyub qurtararam. Çıraqlar yanana hazır olub gedər.

— Di başına dul kişilər dönsün, ay Sona, görüm əlinin suyunu! Gecikmə, hava qaralanda gətir!

— Baş üstə!

Sona bir xahiş elədi:

— Ancaq, a yüzbaşı, misterin hüzuruna özüm aparacağam!

— Nə təfavütü var. Sənin əl muzdun da məndən çatar.

— Yox, mən onların cah-calalını da görəm gərək.

— Arabaya minib gedərsən, yaxşı. Sabah misterin evinə azuqə aparacaqlar. Sən də motalların üstündə oturarsan...

Sona əhvalatı Bahara açmadı, özü isə bütün gecəni bir çimir yatmadı. Yatağına od tökülmüş kimi səhərədək eşələndi. Yandı, ah çəkdi, ah çəkdi, yandı. Sabahısı gün yüzbaşı özü Sonanın evinə gəlmişdi. Ceyranın döşünə, alnına vurulan xalları görüb sevindi, razılıq elədi:

— Ay Sona, əlin ağrı görməsin, yaxşı bəzəmisən. Yəqinimdir ки, mister bəyənəcəкdir! — Tez möhrünü çıxarıb hovxurdu. — Bircə, Sona, bunu da vur heyvanın döşünə, canım rahat olsun...

Sona onun möhrünü alıb suya basdı, ceyranın кürəyinə vurdu.

— Bu da sənin adın!

— Oxunmur!

— Burada çətin oxunur, vağzalacan quruyar, lap yaxşı oxunar!

Yüzbaşı Sonanı tələsdirdi:

— Vaxtdır, yığış! Arabalar yola düşər, qalarsan. İкi saat yolumuz var. Tez getməк gərəк кi, qonaqların ayıq vaxtı çataq!

— Nə olub, bəyəm elə tez yatırlar?

— Yox yatmağına yatmırlar, ancaq ayıq da olmurlar. Bu axşam nahiyədə ayıq adam tapmaq çətin olar. Dəftərxanaların hamısı misterin bayramını saxlayırlar.

Yassar Lətif öz yasavulu ilə atlı gedəcəкdi. Sona da ceyranı götürüb Fətişoğlunun arabasına minəcəкdi.

Arabanı Fətişoğlu özü sürürdü. Pendir, yağ motallarının dalında ot töкüb Sona üçün yumşaq yer hazırlamışdı.

Soyuq payız кüləyi əsirdi. Sona dizlərini ota quylamışdı. Fətişoğlunun əyni qalın idi. Кənddən çıxanda hava qaranlıqlaşmışdı. Uzaq çinar, qarağac, qələmə ağaclarının dalında vağzalın zəif lampaları işıldayırdı. Paravozların səsi eşidilirdi. Ancaq nə yolu, nə də ötən qatarları seçməк olurdu.

Fətişoğlu çarvadar idi. Cüt atlı bir arabası var idi. Şəhərdə vağzal, bir də yaxın кəndlər arasında yüк daşıyırdı. Bu gün isə yüzbaşının biyarına gedirdi. Yüzbaşının öz arabası var idi, ancaq mister üçün azuqəni Fətişoğlu ilə göndərməyi səbəbsiz deyildi. Misterin qapısına öкüz arabası sürməк ayıb olardı. O biri tərəfdən də Fətişoğlu özü məclisə düşüb-çıxmış və xaricilərlər əftarı bacaran adam idi. Lazım gəlsə mister ilə кəlmə verib кəlmə alacaq, başqaları кimi dili tutulmayacaqdı. Fətişoğlu ürəyində yüzbaşıya söyə-söyə məcburən gedirdi. Sonanın da ceyranını zorla gətirdiкlərini bilirdi. O, atlarını qırmanlayıb tez çatmaq, əmanətləri tapşırıb кasıbçılığa getməк üçün tələsirdi. Yəqin bilirdi кi, Arzumanovun dəyirmanında un кirəsi olur, bir dönüm кirə aparsa, filan qədər qazana bilər. Vaxt boş кeçməsin...

Sona isə arabanın dalında oturmuşdu.. Qucağında ceyran düşünür, ürəк döyüntüsü çəкirdi. Bu günahsız ovu necə qaçıracağını düşünürdü, ehtiyat edir, tez-tez qabağa doğru əyilir, atları haylayan arabaçının enli кürəyinə baxırdı...

Yol yarıdan кeçmişdi. Araba sıx yovşan, yulğun, yemişan кolluqları arasına çatmışdı. Deyəsən ağaclar arasından gələn ehtiyatlı bir səs Sonaya deyirdi: «Hə, vaxtdır, fürsətdir, burax gəlsin!»



Sona bir göyə, get-gedə tündləşən qaranlığa baxdı: Çölün səssizliyini dinlədi. Fətişoğlunu duyuq salmamaq üçün əvvəlcə qorxa-qorxa qıçlarını otdan çıxartdı. Otların xışıltısına arabaçının baxmadığını görüb yavaşca ayağa qalxdı. Ceyranı arabanın кənarına gətirib üzündən öpdü, ürəyində «ya məded» deyib birdən yerə tulladı. Ceyran yenicə pərvazlanan quş кimi göydə cəld qol-qanad açdı. Fərəhindən, heyrətindən, gözləmədiyi hadisədə yavaşca bir mələdi, özünü süкuta qərq olmuş qaranlıq çölün dərinliкlərinə atdı. Кolluqlar arasında bir xəyal кimi yox oldu. Bu halda araba elə yeyin gedirdi, təкərlər daşlara toxunaraq elə şaqqıltı qoparırdı кi, göy guruldasa eşidilməzdi. Sona istədi qışqırsın, hay-haray salsın. Bir az dayanmağı vacib bildi. İzi azdırmalı idi. Bir tərəfdən də qorxurdu кi, Fətişoğlu onu qabaqlayıb ceyranı soruşar, onda işin üstü açıla bilər. Araba bir qamışlığın yanından ötüb bəyliк çəкilliyinə yaxınlaşanda Sona səsləndi:

— Vay, evim yıxıldı! Ceyran qaçdı, ay qardaş, qoyma! Qoyma, getdi!..

Fətişoğlu Sonanın səsini eşitdi, amma nə dediyini anlamadı. Əlləri atların cilovunda, çiyni üstdən geri baxdı. Sonanın əllərini dizinə çırpdığını gördü. Tez cilovu çəкib arabanı saxladı.

— Nə oldu?

— Nə olacaq, ceyran qaçdı! Evim yıxıldı!

— Hayana qaçdı?

Sona yolun sağ кənarını göstərdi:

— Bu yana, bax, çəpərin içinə soxuldu, indicə hoppandı. Vay, mənim başım batsın! Nə cavab verəcəyəm!

Fətişoğlu əlində qamçı кola soxuldu. Beş-on addım qaçdı. Dayanıb qaranlığa baxdı, od dəyirmanının saat кimi yeкsənəq səsindən başqa heç nə eşidilmirdi. Gözü qaralan кimi oldu. Boş yerə gəzindiyinə gülüb qayıtdı:

— Nə təhər oldu кi, əldən buraxdın, ay arvad?

— Ciyəri yanmış xam saldı, birdən quş кimi əlimdən sıçradı.

— Bu yerdə deyiblər:

Bu dağlar, daşlı dağlar,
Səndən кim aşdı, dağlar?
Gözümü yuxu tutdu,
Ceyranım qaçdı, dağlar!

— Yox, yuxulu-zad deyiləm, xam saldı. Deyəsən, çoxdan hazırlaşırmış, çölü, meşəni gördü, qaçdı.

— Hayıf elədin!

— Görəsən, hara gedər, nabələd heyvan?

— Gecənin bu vaxtında, bu çöllərdə min ceyran qaça, biri tapılmaz.

— Canım, döşündə Yassar Lətifin möhrü var, itməz!

Fətişoğlunu gülmək tutdu, lakin gizlətdi.

— Əlbət ki, yüzbaşının möhrünə canavar da yaxın düşə bilməz.

Bunu deyib Fətişoğlu atları qamçılaya-qamçılaya qayıdıb, Sonadan soruşdu:

— İndi nə cavab verəcəyik vağzalda?

— Neynək, işdir, şükür, öz yanında olub ki, satmamışam, əzizimə bağışlamamışam, kəsib yeməmişəm! Neyləyəcəklər eləsinlər. Olacağa nə çarə!

— Neyləyəcək, səndən ceyranı istəyəcəklər!

— Özümü ceyran eləməyəcəyəm ki?!

Fətişoğlu təəssüflə dedi:

— Ona baxırlar bəyəm, dava-mərəkə başlayacaqlar! Heç yaxşı iş olmadı.

Vağzala yaxınlaşdıqca misterin işıqlı həyəti, üçmərtəbəli evi görünür və böyüyürdü. Həmişəcavan ağacların arasından açıq pəncərələr, pəncərələrdən isə süd kimi ağ işıq saçan elektrik lampaları, əlvan çilçıraq görünürdü. Qarmon səsi gəlirdi. Bu səs get-gedə artır və qalınlaşırdı. Sona misterin evini, hələ uzaqdan seçilən dəm-dəsgahını görcək elə güman etdi ki, gündüzdü. Doğrudan da, bu uca ev qaranlıqlar içində yanan fənərə oxşayırdı. Ağalar gün içində qəhqəhə çəkib gülürdülər.

Sonanın sinəsindən odlu bir ah çıxdı.

«Bu halal güzəran deyil, bu oğurluqdur. Doydaq müftəxorlar kənd-kəsəyin ağ gününü-güzəranını, işığını, çırağını oğurlayıb gətiriblər. Onlar xalqın ağ gün ümidlərini oğurlamağa gəliblər. Budur, hər yerə süpürgə çəkib özlərinə zər-zivər qayırırlar. Onların caynaqlı əllərində balta, dişlərində qılınc, ayaqlarında nallı çəkmələr var. Bu toxumu bizim torpağa kim saldı? Bizi bu günə qoyan, günün yansın!.. İngilisin yolunu bura salan, yarı yolda can verəsən, gün işığına həsrət qalasan!..»

Sona fikirdən ayrılmamış Fətişoğlu arabanı saxladı. Qapıya çıxan bir ağpaltar ingiliscə nə dedisə arabaçı ona rusca cavab verdi:

— Ceyran paşol!

— Kuda?

— Qulyay.

Ağpaltar içəri qaçdı. Pəncərədən Fətişoğlunu çağırdılar... Çox çəkmədi, içəridə musiqi və qəhqəhələr susdu. Adamlar eşiyə töküldü. Həyətdə maşın səsləndi. Ağalar Fətişoğlunu da maşına qoyub çölə sürdülər. Maşın yollara, kolluqlara, çəmənliklərə, ağaclıqlara işıq səpə-səpə ceyran axtarmağa getdi. Sonanı soruşan, dindirən olmadı. O, qorxusundan tez arabadan düşüb piyada kəndə sarı yol aldı.



Fətişoğlu ceyran qaçan yeri göstərib maşından düşdü. Mister acıqlandı. Şofer sürəti artırdı. Maşın dar, daşlı, gələ-götür yolda hoppanıb-düşür, dəyirman pəri kimi parıldayır, gedirdi. İçindəkilər də kənara fənər tutub dördgözlə yaşıllıqlara baxırdılar.

Mövlam kişi çiynində bel, qıçları dizdən çirməkli sudan qayıdırdı. Maşın dayananda qorxdu. Soruşanda məsələni anladı və əlini uzadıb nişan verdi:

— Bir hovur bundan qabaq gözümlə gördüm. Xeyralı uşağının zəmisində, ağ daşlı hasarın dibində bir ceyran otlayırdı. Bildim ki, sizlərin olacaq. Bax odur ey, o zəmidə...

Mister maşının qapısını basıb şoferə əmr elədi. Şofer işığı, sürəti artırdı. Maşın yollandı. Bir az getməmişdilər, yolun qırağında, fənər işığında ceyranı görən kimi dayandılar. Mister şoferə işarə verdi ki, yavaş sürsün. Ceyran sanki söyüd ağaclarının altında dayanıb onları gözləyirmiş. Maşının səsinə hürküb kola girdi. Şofer maşını da onun dalınca kola saldı. Ceyran hoppanıb qamışlığa girdi. Qamışlığa düşməmək üçün maşın qabağa keçdi. Adamlar düşüb pusquda dayandılar. O tərəfdən hürküb gələn ceyranın bu tərəfdən görünəcəyini güman etdilər. Bir xeyli gözlədilər. Qamışlığa girmək də qorxulu idi.

Mister maşına oturub qamışlığa salmağı şoferə əmr etdi. Şofer bunun qorxulu olduğunu bilsə də susdu. Maşına xod verdi. Mister isə maşında ayağa qalxıb əl fənərini qabağa tutdu, bir şey görə bilmədi. Maşın bir qədər gedəndən sonra təkərlər sulu, bataqlı bu çuxurda möhkəm yer elədi. Maşın nə dala, nə qabağa yeriyəsi oldu.

Şofer düşdü və dedi:

— Cənab, motor pozuldu.

Maşının gurhagur səsi dayananda qamışlıqda xışıltı eşidildi. Əvvəl elə bildilər külək əsir, diqqətlə fikir verəndə gördülər ki, hava sakitdir. Mister sevincindən yüyürdü. Ceyran onu görüb qaçmağa başladı. Adamlar piyada ceyranın dalınca döşəndilər. Ağaclıqlar içində ceyran qovalayan mister tapançasını əlinə almışdı. Vurmaq istəyirdi. Lakin heyfi gəlirdi. Onu oğluna hədiyyə aparacaqdı. Yaralamaq istəmirdi. Ceyran isə yorğun, özünü itirmiş və çaşmış bir vəziyyətdə mərzdən-mərzə keçir, arxdan-arxa atılırdı. Qaçıb qurtara bilmirdi. Adamlar nəhayət, heyvanı lap sıx əhatə etdilər. Mister eşitmişdi ki, ceyran hündürdən hoppanır. Toqqasını açıb ucuna daş bağladı. Fikirləşdi ki, «başımın üstündən hoppanası olsa, vurum gicəllənsin». Ceyran isə sanki yorulub dildən düşdüyü üçün əlacsız qalıb təslim olmaq istəyirdi. O, bir ağacın gövdəsinə söykənib dayandı. Qaranlıqda adamlar canavar sürüsü kimi onu əhatə etdilər. Mister sanki onu ovsunladı, yavaş-yavaş heyvana yaxınlaşdı. Toqqasını

halqalayıb ceyranın boynuna saldı, sonra qucaqladı. Mister ceyran haqqında oxumuşdu, eşitmişdi, şəkli görmüşdü, ətini yemişdi, amma özünü heç vaxt belə yaxından görməmişdi. Bilirdi ki, ceyranın zərif tükləri, nəcib buynuzları, təmiz dırnaqları, incə boynu, iri gözləri olar. Göbəyi ətir iyi verər.

İlk dəfə heyvanın göbəyini iylədi. Acımış qatıq iyi onun burnunu qıcıqladı. «Yəqin, — dedi, — mənim burnum müşkə alışmamışdır». Heyvanın dırnaqlarına baxılası deyil, palçığa bulaşmışdı. Kəlləsinin yekəliyinə baxmayaraq buynuzu yox idi. Mister fikirləşdi ki, yəqin bala ceyrandır, buynuzu çıxmayıb. Boynunun iriliyi onu təəccübə saldı. «Bəlkə, — dedi, — bu da ceyranın bir cinsidir». O, qamışlığın qırağında fənər işığında tutduğu ceyranı ətraflı gözdən keçirirdi. Şofer də bir qıraqdan durub içindən gülürdü. O, bildiyini demək istəyirdi, lakin cəsarət eləmirdi. Birdən heyvan ağzını kənara tərəf tutub uzun-uzadı anqırdı.

Mister şoferə baxdı:

— Ceyran gərək mələsin axı?

— Bu mələyəndən deyil!

— Necə yəni?

Şofer özünü saxlaya bilmədi:

— Cənab, — dedi, — bu qoduqdur!

— Necə yəni?

— Cənab, bu eşşək balasıdır!

Mister inanmadı.

— Nə deyirsən, əşi?

— Bəli, cənab, bu üçaylıq qoduqdur, nahaq yerə zəhmət çəkmişik. Bizi aldadıblar! Aşkar şeydir ki, aldanmışıq!

Mister qəzəblə qoduğa bir təpik vurub nifrətlə geri çəkildi. Heyvanın başına üç patron sıxdı və ölüsünə barmağını silkələdi:

— Sabah mən o yüzbaşının dərisinə saman təpdirməsəm, böyük britaniyalı adı mənə haram olsun! Qoy aziyatlar bilsinlər ki, kiminlə zarafat edirlər!

Mister sözündə möhkəm adam idi. İki gün çəkmədi, nahiyə pristavı adam göndərib Yassarı çağırdı. Çəkib möhürünü, zəncirini əlindən aldı.

Yassar ürəyində deyirdi: «Yaxşı çatdı adım Londona. Allah kəssin belə qulluğu!..»

Ceyranın qaçdığını anasından qabaq uşaqlar Bahara söyləmişdilər. Maldan qayıdandan sonra gecə vaxtı kövşənə gedib ovunu axtarmaq istəyirdi. Mane oldular. Bahar dayana bilmirdi. Bütün gecəni narahat idi. Səhərisi işıqlaşmamış qalxıb mala getməli idi. Tabaqdan bir parça çörək götürdü, evdən çıxdı. Anasının əlindən qurtaran kimi birbaşa vağzal yoluna, ov qaçan yerə götürüldü. Səhərin alaqaranlığında pişik kimi bu şumdan çıxıb o biri yoncalığa, yoncalıqdan



çıxıb ağaclığa girir, kolluqlara baxır, hərdən fıştırıq çalıb ceyranını çağırırdı. Ona elə gəlirdi ki, ceyran onun səsini tanıyacaq, onu görsə qayıdacaqdır. Gün yerdən qopana qədər, kövşəndə gəzdi. Axtardı, peşman qayıdıb ağasının qapısına malın üstünə getdi.

Xanım onu darvazadan qovdu:

— Bir az da yatsaydın, niyə yuxuna haram qatırdın, ay Allahyar bəyin nəvəsi!

Bahar dinmədi, başını aşağı saldı. Xanım sözünü açıq dedi:

— Get, — dedi, — özünə yer tap, haydı! Bizim ev tənbəlxana deyil!

Bahar çıxdı, bilmədi hara getsin.

Kənddən həmişəlik qurtulub dağlara, meşələrə doğru qaçan ceyranının dalıncamı, anasının yanınamı getsin, daldey bir yerdə oturub dincəlsin, yorğun ayaqlarını ovsunmu, cütçülərə yanaşıb iş istəsinmi, yoxsa köç yolunu qabağına qatıb uzaqlara, insaflı bir xozeyin axtarmağamı getsin...

Qardaşı yadına düşdü. Dayanıb əlini qoltuğuna saldı, səkkiz qatlanmış kağızı çıxarıb öpdü, gözünə sürtüb yenə qoltuğuna qoydu. Onlar burada olsaydılar, Baharı bu gündə qoymazdılar. Onlar Baharın inciməyinə razı olmazdılar. Onun ceyranını tapıb gətirərdilər. Bahar üzünü yollara tutub dərin bir həsrət, yanıqlı bir səslə çağırırdı:

— Qağa!

— Suren lələ!

Uşaq şikayətli bir dillə böyüklərini çağıra-çağıra yeriyirdi. Sanki ümidlərini işıqlandıran bir qüvvə ardınca gedirdi.

O, heç bir tərəfə baxmırdı. Əl ağacını sürüyə-sürüyə, çayın axarına qarşı oynada-oynada gedirdi. Şəhər tərəfdən lam-lal axıb gələn sulardan sanki bir xoş xəbər umurdu. Ürəyində soruşurdu:— «Ceyranım səndən addadımı, qardaşımın bu yollardan ötdüyü yadınızdadırmı?».

Sulardan cavab gəlmirdi.

Bahar ceyrandan əl üzmüşdüsə də evə qayıtmırdı: O indi qardaşının dalınca gedirdi. O güman edirdi ki, şəhərə çatan kimi Mərdanın adını çəkəcək, hər kəsə desə onun qolundan tutub yanına aparacaqlar. Qardaşı sevinəcək, əhval soruşacaq. O, əziz ovunu əlindən alanlardan Mərdana şikayət edəcək. İgid qardaşı bu intiqamı da alacaqdır; çünki indi yanında Suren kimi yoldaşları, köməkləri vardır!..

Bir də şəhərdə, deyirlər, yaxşı adamlar çoxdur.

Başını qaldıranda Bahar özünü Qobu kənarında, vağzala doğru dönən cığırda gördü. Nədənsə, ona elə gəldi ki, qardaşı Mərdan da, Suren də, itirdiyi ceyran da lap bu yolla getmişdir. Onların izi, iyi və

sorağı bu yoldadır. Bu ümidlə tutduğu cığırdan çıxmadı, artan ümidinin ardınca daha da yeyinlədi.

### *Yeddinci fəsil*

## YENİ YOLDA

**Ölmək ölməkdir, xırıldamaq nə deməkdir.**

*(Atalar sözü)*

Mərdan şəhərə yola düşmüşdü, ancaq nigaran idi. Bənna məşədi Rəhimgilə getmək istəyirdi. Amma gecənin bu vaxtında, bu şuluqluq zamanda ehtiyat edir, həm də utanırdı. Bilirdi ki, dar döngədə məşədi Rəhimin darvazasını döyüb aləmə səs salmayınca qapını açan olmayacaqdır. Səs salmaq da yaxşı deyil. Çıxan olar, gecə qarovullarına tuş gəlmək də xatalıdır.

Bir tərəfdən də düşünürdü: «Səhər açılsa da aşkar getməyimiz qorxuludur. Bu vurhavurda hər ötənə diqqət verirlər. Sureni üz-gözündən tanıya bilərlər. Gədəni güdaza verərəm. Küçələri elə vaxt ötmək gərək ki, qaranlıq, yiyəsizlik olsun».

Mərdan yol uzunu başıaşağı fikirləşirdi. Fikirləşirdi, fikirləşdiyini Surendən gizlədirdi, sakit yeriyən Suren özü də həmin fikirlərlə məşğul idi. Qorxulu və qaranlıq bir aləmə düşənlər kimi şübhəli yeriyirdi. Mərdanın sözündən keçə bilmirdi. Mərdan səhər açılmamış ustasının evinə çatmağı kəsdirdi. Surenin qolundan tutub yeyinlədi.

Onlar qapını döyəndə usta Rəhim şirin yuxuda idi. Qalxıb hövl ilə, köynəkcək həyətə çıxdı. Mərdanın səsini tanıyan kimi qapını açdı.

— Yallah, Mərdan, xeyirdirmi gecənin bu vaxtı?

— Xeyir olmamış nə var, usta, uşaqlar necədir?

Onlar əhvallaşdılar, ustanın uzun dalandan başlayan balaca ağaclarla örtülü, qaranlıq həyəti qonaqları öz qoynuna aldı. Səkidə eşidilən ayaq səslərindən sonra gecənin ümumi sükutu dərinləşdi. Usta Rəhim qonaqlara şam çay təklif elədi. Mərdan razı olmadı:

— Arvad-uşağa əziyyət verib yuxudan eləmə, biz yıxılıb yatmaq istəyirik.

Ev sahibi bu gəlişin adi səfər olmadığını bilirdi. İllah da dülgər Arakelin oğlunu Mərdan ilə görəndə ürəyində dedi: «Bu gədədə pələng ürəyi var».

Sorğu-sual eləməyi münasib görmədi, yorğan-döşək açıb qonaqları rahatladı.



Mərdan başına gələni usta Rəhimə danışdı. Usta, Hacı İbrahimxəlilə və zəmanəyə lənət deyəndən sonra belə bir məsləhət gördü:

— İş, — dedi, — var. Seyid Rzaya imarət tikirik, mini on bir manatdan kərpic danışmışam, başlayın kəsin. Suren xamsa da özün üstündə olarsan. O, palçıq tutar, sən də bir başdan qəlibə çəkərsən. İkilikdə gündüz dinməz min kərpic tökərsiniz...

Mərdan razılıq elədi. Ustadan bir məsələni də soruşdu:

— Ay usta, Suren sarıdan çox qorxuram. Siz nə fikirdəsiniz?

Usta Rəhim onun sözünü ağzında qoydu. Mərdan deməsə də usta bu barədə əvvəlcədən fikirləşmişdi:

— Əlbət ki, Suren gərək ehtiyat eləsin. Gərək biz özümüz də ehtiyat eləyək. Hərçənd bizdəkilər fəhlə, kasıb-kusub qardaşlardır, amma demək olmaz. «Xəmir yeyənə etibar yoxdur». Çuğulçunun qulağına pambıq, divan-dərəyə bir xəbər çatdırsalar bəsdir. Müsavatın gədələri cilov gəmirirlər.

Usta Rəhim əlini gözünün qabağına gətirib baxdı. Sanki o həmişə yumulu kimi görünən balaca gözləri ilə əlinin üstündəki tükləri saymaq istəyirdi. Fikirləşəndə əlinə baxmaq, barmaqlarını tərlədib oynatmaq ustanın adəti idi. Bir az baxdıqdan sonra sanki tükləri sayıb qurtardı, əllərini yanına salıb başını qaldırdı, üzünü Mərdana tutub dedi:

— Siz heç kürələrdən qırağa getməyin, görüküb eləməyin. Bura dinc yerdir. Gələn olmur, olsa da mən xəbər tuturam. Ancaq şayəd, işdir, xudanəkərdə, gəlib-gedən olsa, mən özüm xəbər verərəm. Qərəz ki, ehtiyatı əldən qoyma. «İgidin-igiddən ancaq ehtiyatı artıqdır». Onu da deyim ki, fəhlələr yaman narazıdır. Xozeyinlərin hədə-qorxusuna baxan yoxdur. O gün hamı işi qoyub çıxdıq. «İşləmirik, vəssalam». Rusiya fəhlələri camaatı yaman ürəkləndirib. Dünya gör-götür dünyasıdır. Bakıdan, Tiflisdən hey xəbərdir, eşidirik. Tətil eləyən, nümayişə çıxan, sahibkarlarla kəllə-kəlləyə verən fəhlələr bizdə də çoxdur. Bir yoldaşımızı döymüşdülər, az qaldı qiyamət qopsun. Divan adamları daha fəhlələrlə bacara bilmirlər. Əmələ var, onların gözünə ar salır. Bura bir bolşevik gəlib-gedir.

Usta Rəhim yenə susdu. Sanki dediyinə peşman olmuşdu. Bir müddət kirimiş durdu. Mərdanın diqqətini görüb özünə cəsarət verdi:

— Bura bir oğlan gəlib-gedir. Bakıdan olsun gərək, Hacının işini ona desən pis olmaz.

— Kimdir ki o?

— Mən o kişidə gördüyümü görmüşəm. Sahibkarla aşkar dimdik-dimdiyə durur.

— Adı nədir?

— Yoldaş! Adı Yəhyadır, ancaq fəhlələr yoldaş deyir.

— Nə işin yiyəsidir?

— İndi Hacı Əlinin tütün fabrikində qaraca fəhlədir. Amma çox igid adamdır, halal olsun!

Usta yoldaş Yəhyanı xeyli təriflədikdən sonra ehtiyat elədimi, qorxdumu, nədənsə sözünü dəyişdi.

— Mənim adım olmasın, siz o kişiyə deyin!

Mərdan ustanın dediyi adam haqqında soruşmaq istədi. Usta müxtəsər elədi:

— Tanıdaram, ancaq mənim adım olmasın!

— Sənin adın olanda nə olar?

— Yox, mən pəs.

— Pəs olan adamı niyə bizə urcah eləyirsən, usta?

— Siz ayrı, mən ayrı!

— Deyəsən, ay usta, xataya salmaq istəyirsən axı bizi?

Usta söhbətin ağzı əyildiyini və fikrinin anlaşılmadığını görüb peşman oldu:

— Mən sizə yaxşılıq üçün dedim. O elə adam deyil.

— Bizə xeyri nə olacaq ey, iş verir, pul verir ya haqqımızı qoruyur, neyləyir?

Usta özünü saxlaya bilmədi, yanını daşın üstə qoyub ətrafa baxdı, bir çubuq doldurdu və dedi:

— Siyahı tutur. Sizin kimi cavanları yazır.

— Hara yazır?

— Qoy bir sözümü başa salım axı... Təşkilata yazır. Başında neçə yüz fəhlə! O kişilərin niyyəti var. İstəyirlər, başa düş, camaatı, yeniyetmələri ayıldalar. O belə adamdır. Hökumət adamlarından bərk yanıqlıdır. Qorxu bilməz, hürkü bilməz.

Mərdan bir az duruxdu.

—Deyinən bizim hayıfımızı almaq istəyir də!

— Hə də!

— O ki yaxşı adamdır, usta. Mən elə dərs almağa bir beləsini göydə gəzirəm! O əsl mənim adamımdır.

— Bəs mən nə deyirəm!

— Ay usta, məni ona yetir. Bir de görüm, bəs sən niyə yaxanı qırağa çəkirsən?

Mərdanın sualı ustanı tutdu, o qalxıb iş görürmüş kimi bir qurdalandı, çubuğunu ağzından çəkdi.

— Mən barışıq tərəfdarıyam.

— Ola da!

— Olanda da yoldaş Yəhya qoymur. O deyir vuruşmaq lazımdır. O deyir öz xoşuna heç bir xozeyin qəpiyindən keçməz! Əlindən ixtiyarat verməz. Fəhlənin haqqını ancaq mübarizə ilə almaq olar. O çox kitablar oxuyur, oradan dəlil gətirir, o, dərin adamdır! Barışmaq söhbəti, nə bilim, yumşaqlıq-zad yaxın qoymur!



— Mən ki barışmaq-zad tərəfdarı deyiləm. Özüm də təzə başlamışam, ay usta, sən Allah, o yoldaş Yəhyanı bir mənə tanıt!

Səhərisi gün yoldaş Yəhya Mərdanı da, Sureni də fotoqrafçı Bağırın zirzəmisindəki komsomol yığıncağına apardı. Onlar birinci dəfə burada fəhlə cavanların müqəddəs məqsədi və işi ilə tanış oldular. Böyük inqilabın, fəhlə-kəndlinin rəhbəri Lenin haqqında məruzə eşitdilər. Rəhbərin şəklini də gördülər. And içib təşkilata yazıldılar. İclasın axırında hamı ayağa qalxıb ahəstə, lakin möhkəm bir səslə «Beynəlmiləl» oxuyanda kəndli gənclər özlərini yeni və çox qüvvətli bir qoşun sırasında hiss etmişdilər. İndi onlar illərdən bəri axtardıqları yolu tapdıqları, öz məslək yoldaşlarına qovuşduqları üçün sevinib fərəhlənir, qucaqlaşıb öpüşür, yoldaş Yəhyadan çox sözlər soruşurdular. Yəhya onların hər ikisinə gələcək böyük işlərdən, Kommunist partiyasının tədbirlərindən, Petroqrad, Moskva, Bakı, Tiflisdə gedən inqilabi işlərdən danışırdı. «Rusiyada azadlıq dünyası yaradan qüvvə, bizə də nicat verəcəkdir. Biz də Lenin yoldaşın, partiyanın çağırışına, inqilaba hazır olmalıyıq! Gənclər kommunistlərin yaxın köməyidir...»

Mərdan döşünə bir qutu taxmalı oldu. Yoldaş Yəhyanın köhnə qayışını qutunun kənarına mıxladı. Parça-parça kəsilmiş qoz halvasını və bal sucuğunu büküb hazırladı. Yoldaş Yəhyanın verdiyi intibahnamələrin hamısını dörd qatlayıb əl boyda elədi, səliqə ilə qutunun bir küncünə yığdı. Üstünə açıq papiros töküb çıraqlar yananda yola düşdü.

Ömründə birinci kərə idi ki, Mərdan belə məsul və qorxulu işə gedirdi. Yoldaş Yəhya onun adını iclasda çəkəndə, ona etimad bəsləməyi təklif edəndə, komsomolçuların çoxu duruxmuşdu. Bəziləri onu tanımadığını demişdi. Bəziləri xam olduğunu demiş, kimisi də hələ «təşkilatda bişmədiyinə, dünən gəldiyinə görə» etiraz etmişdi.

Mərdan dözə bilmir, ürəyi döyünürdü. Gah papağını əlinə alır, gah başına qoyur, gah əllərini ciblərinə salır, sanki bir şeyi axtarırdı, gah qalxır, gah otururdu. And içmək, fəhlə təşkilatının işi üçün candan-başdan keçməyə hazır olduğunu demək istəyirdi. Yoldaş Yəhyanın üzünə baxırdı. Yəhya bütün komsomolçuları inandırdı ki, Mərdanın xamlığı da, bişməməyi də, tanınmamağı da düzdür...

Yəhya bunu təsdiq edəndə qayıdıb Mərdanın üzünə baxırdı. Mərdan qurumuş, pərt olmuşdu, Yəhya əlavə etdi:

—...Bunların hamısına mən şərikəm, amma Mərdanda bir üstün cəhət var. O cəhət Mərdanın bütün nöqsanlarını yuyub aparır. Mərdan əti-qanı ilə, zəhməti və həyatı ilə bizə, inqilaba bağlı oğlandır, anadangəlmə bizim adamdır. Mərdan inqilabın indiyə qədər yetim, sahibsiz qalmış oğludur. Yetim də məlum şeydir ki, zəif olar, cılız olar, bacarıqsız olar. İndi Mərdan bizim hamımız kimi yetimlikdən çıxmışdır. Əli öz atasına-anasına, böyük inqilaba çatmış bir

oğlandır. Bundan sonrakı Mərdan ilə indiyə qədərki Mərdanı tay tutmaq düz deyil. Mənə onu mötəbər adamlar tanıdıb. Bu son aylarda özüm lap yaxşı bələd olmuşam. O, komsomol vəzifəsini bizim heç birimizdən pis anlamır, pis də yerinə yetirməz. Mən sözümün üstündə dayanıram. Mən yenə də deyirəm ki, bu iş Mərdana tapşırılsın...

Yoldaş Yəhyanın dərin bir etibarla Mərdandan danışmağı adamları təmin edib inandırdığı kimi Mərdanın özünə də böyük cəsarət və mübarizə qüvvəti verirdi. O, ürəyində deyirdi: «Belə yoldaşlarla ölümə getmək də xoş və fərəhlidir».

Mərdan Sulu karvansarasının üstüörtülü, uzun və rütubətli dalanından «Ay yaxşı halva!» deyib ötəndə təşkilat məsuliyyəti, azadlığa xidmət şərəfi onun fikrində hakim idi.

O, xüsusən yoldaş Yəhyanın zəmanətini, ona bəslədiyi etimadı böyük bir səadət kimi xatırladı. Ürəyində xoş bir iftixar hissi duydu. Dalanın qaranlıq yerində dörd bir yana göz gəzdirdi, gəlib-gedən yox idi. Ancaq konka stansiyasının yanında çisələyən yağışdan qorunmaq üçün örtüyünü qaldırıb içəri qısılmış və müştəri gözləyən faytonçuları gördü. Onların gözü yolda idi. Sanki birisini gözləyirdilər. Mərdanın ürəyinə gəldi: «Bilmək olmaz, bəlkə bunların içində müsavat çuğulu var. Bəlkə bunlar mənim kimisini izləyir, göydə axtarırlar... Ona bax, o uzun çuxalı, qırmızı qurşaq hərif necə də tərs-tərs baxır...

Ay sən öləsən!..»

Bir də xəyalına gəldi ki: «Yox, bir o deyil, hamısı baxır. Onlar faytona qaçan müştəri axtarırlar, mən onların karına gəlmərəm. Qoy eşitsinlər. «Ay yaxşı qoz halvası!»

Bunu eşidəndə qırmızıqurşaq faytonçu məyus olub üzünü yana çevirdi.

Dalanın kənarındakı açıqlıqda camaat yığışmışdı. Mərdan tünlükdən qorxub cəld ötmək istədi. Ancaq inildəyən saz havası, göylərə ucalan aşıq səsi onu cəlb elədi.

Xeyli zamandır ki, onun qüssəli ürəyini oxşayan yoxdur. Xeyli zamandır ki, onun yanıqlı qəlbinə, narahat əsəblərinə musiqi gülabı çilənməmişdir. O, toy görmür, mahnı eşitmir.

Sanki Mərdanın qolundan tutub döndərdilər. İstər-istəməz adamlar gedən tərəfə yönəldi.

Fikrinə gəldi ki, «xata çıxar, kağızları ələ keçirərsən, nə qayırırsan?»

Ötmək istəyəndə: «Deyişirlər, deyişirlər, aşıqlar, bağlaşırlar!» — deyə yoldaşını çağıran birisinin səsini eşitdi. Heç olmasa bir baxıb ötməyi vacib bildi. Qutusunu kağızla örtdü. Pencəyinin altına, qoltuğuna vurub adamlara yanaşdı.

Camaat meydanda halay vurub diqqətlə qulaq asırdı. Ortalıqda qabaq-qabağa iki aşıq dayanmışdı.



Biri, kəndirli sazını çiyninə keçirib gəzinə-gəzinə çalan gödək aşıq Abbas idi. Mərdan onu toylarda görmüşdü; bir xoşsifət, qırmızısaqqal, gödərək kişi idi. Nahiyədə birinci qoca idi ki, həm saqqal qoydurur, saqqalına xına yaxır, həm də baş qoydururdu. Ondan soruşanda:

— Ay aşıq, qırmızısaqqal hara, urusu baş hara?

— Saqqalı, — deyərdi, — dəlləklərin acığına, başı da mollaların acığına qoyuram.

Aşıq Abbas çarıqlarını yerə sürtə-sürtə yaşına yaraşmayan bir zirəkliklə mərəkəni süzür, əyilib-qalxır, bükülüb açılır, gülməli şeylər oxuyurdu.

O birisi, aşığın hərəkətlərinə cavab verə bilməyən yaxası açıq, ortaboylu, qarabığlı, iri və iti gözlü cantaraq kişi isə camaatın dediyinə görə şair imiş. Şairin üst-başı cırıq, ayaqqabısının rəngi getmiş, kəməri açılmışdı. Tük basmış sifətində bir qəribəlik, pərişanlıq vardı.

O pərişanhal olsa da simasından, ağır və mənalı hərəkətindən məlum idi ki, sadə bir şəhərli deyildir. Tox, lakin təmin olunmayan iti baxışları yalnız adamların üzündə qalmırdı, sanki güllə kimi hər şeyi deşib ötürdü. Sanki bu şair buludlu üfüqlərə baxar, oradan tülu edəcək bir günəşin doğmasını gözləyirdi. Onun sözləri də çöhrəsi və nəzərləri qədər mənalı idi. Aşıq Abbas saqqalını qısa və xınalı barmaqları ilə darayandan sonra saza saldığı sözləri sətir-sətir, kəlmə-kəlmə, açıq-aşkar deyib camaata çatdırırdı.

Onun sözlərinə Mərdan heyrət etdi. Aşıq nə yardan, nə teldən, nə göz-qaşdan deyirdi, nə də güldən-bülbüldən. Başdan-ayağa dünyanın indiki işlərindən, hər şeydən məhrum olan kasıblardan, insafsız varlılardan, zülmdən, ədalətsizliklərdən deyirdi. Heç kəsdən də qorxmurdu, dedikcə deyirdi:

Nə zaman getsə məclisə
Qovular, döyülər kasıb.
Danışmağa ağız açsa,
Yer-yerdən söyülər kasıb.

Hər vaxt üzü məlamətli,
Görmədi bir gün ləzzətli,
Xeyirdə-şərdə dövlətli,
Haçan bir anılar kasıb?..

Aşığın sözü eşidənlərə ləzzət verirdi! Yerlərdən səs gəlirdi:

— Başı bəlalı kasıb!

— Yazıq, günüqara kasıb!

Aşığın sözləri camaatın ürəyinə sanki su səpirdi. Elə bil bunları hər bir kəs demək istəyirdi. Ancaq heç kəs bu aşıq kimi xoş və təsirli deyə bilməzdi:

Dövlətlinin əli aşda,
Əyləşirlər nazbalışda.
Hər zaman aşağı başda
Sıxılar, büzülər kasıb.

Kim idisə dayana bilmədi:

— Büzülməsin neyləsin, ay rəhmətliyin oğlu! Kasıbı adam yerinə qoyan kimdir?

Gecəbəgündüz qəm edər,
Ruzusun hampa kəm edər.
Dövlətliyə ikram edər
Əyilər, bükülər kasıb.

Məclislərdə ötməz sözü,
Danlaqlıdır üzü-gözü,
Başı qapazlıdır, düzü
Demə ki, bir gülər kasıb.

Mərdan ürəyində dedi:

«Daha keçmiş ola! Bundan sonra əyilib bükülən kasıb az tapılar. Bu kağızları oxuyandan haqqını, hüququnu qanandan sonra, kommunistləri tanıyandan sonra kasıb daha niyə əyilsin! Yox, ay aşıq, dünyadan xəbərin yoxdur! Şimal tərəfdən kasıbın üstünə bir gün doğur ki, işığı qiyamətəcən sönməyəcək!..» Mərdan ürəyindəkiləri ucadan deməyə hazır idi. Ancaq ona bunu tapşırmamışdılar... «Ay yaxşı qoz halvası» — deyib bir az kənara çəkildi. Aşıq söhbətində davanı edirdi:

Aşıq Abbas, bu sifətdə
Heç sən yoxsan sanda, adda,
Qaç, qalarsan ayaq altda:
Basılıb əzilər kasıb.

Kim idisə əlini-əlinə çaldı:

— Bunu qiyamət demisən, ay aşıq «Qaç ki, basılıb əzilərsən».

— Aşıq, dilin var olsun!

— Bir də de, bir də!

— Bu sözlər qızılla yazılasıdır!..



Aşıq Abbas qurtaran kimi şair üzünü camaata tutdu. Bir əlini cibinə qoyub o biri əli ilə sanki uzaqları göstərdi. O da aşıq kimi sinədəftər, əzbərdən deyirdi. Keçmişin, indinin böyük şairlərindən, şirin kitablardakı sözlərdən deyirdi. Elə həyəcanla, elə bir qızğınlıqla deyirdi ki, eşidənlərin barmağını kəssən xəbər tutmazdılar. Bütün gözlər şairin acıqlı sifətində, əsəbi tərpənən dodaqlarında, həqiqət deyən ağzında idi. O bənd-bənd deyirdi. Gah üzünü yanındakı kişilərə tuturdu, gah danışa-danışa uşaqların kürəyinə əl vurub tərifləyir, gah yalançı dostlardan şikayət edir, gah qaşqabağını turşudaraq pis adamlara lənət oxuyurdu. O, bəzən elə bir görkəm alırdı ki, dayananları vahimə basırdı. O, elə həqiqətləri deyirdi ki, hər kəs ürəyində təsdiq edirdi:

İnsan təngişərmi zinhar olmasa?
İstismar olmasa, cidar olmasa?
Çoxdan batırmışdım düşmən başını
Canıma daraşan «dostlar» olmasa.

Biri-birinizə mehriban olun!
Hal bilən, dil bilən, anlayan olun!
Göz-gözə yatmayın canavar kimi,
Hiylədən əl çəkin, saf insan olun!

Şair üzünü mərəkəyə gələn balaca uşaqlara tutdu.

Bizlər qocalmışıq, siz cavansınız,
Baharı gözləyən bir güldansınız,
Yaranmış desəydim yalan olardı.
Sizin hər biriniz yaradansınız.

Sonra şair yenə uzaqlara baxıb qaşlarını döydü:

Səhərim açıldı, danım söküldü,
Bir paxıl qapımda səsləndi, güldü.
— Aç, — dedi, görüşək, ey əziz dostum!
Açanda qapını gözü töküldü.

Sözbaza rast gəldim, mənə verdi əl,
Üzündən-gözündən yağırdı əməl,
Soruşdu, dinmədim; bir də soruşdu.
Dedim:—Bu dəfə də özümə rast gəl.

Bir yolda yoldaşıq, yolumuz aydın,

Yoldaşım deyirdi:—Sən gəl arxayın
Yat dincəl, mən varam!—dedim:—Bağışla,
Arxayın yatardım, sən olmasaydın.

Mərdanın yanında duran tacirpapaq кişi öz-özünə mızıldanırdı: «Bu sözləri mən eşitməmişəm. Yalan deyir, кitabdan götürməyib, özü düzəldib!..»

Şair, aşıq Abbas soruşdu:

Sizə deyiləsi bir tapmacanı var,
Kim tapsa inan кi, ömrü uzanar:

Nədəndir əкən biz, biçib yığan biz.
Bişirən, aşıran, кef çəкən xanlar.

Şairin tapmacasına bəziləri güldü. Çoxlarını isə fiкir götürdü. Məraкəyə ötəri bir süкut çöкdü.

Adamlar başlarını aşağı saldılar. Çoxunun yadına Sabirin sualı düşdü:

İş rəncbərin, güc öкüzün, yer özününкü
Bəyzadələri, xanları neylərdim, ilahi;

Bir uşaq ixtiyarsız təкrar etdi:

— Neylərdin, ilahi!

Bir qoca isə üsyanкar bir əda ilə göyə baxıb ucadan səslədi:

Bağın, əкnin xeyrini bəylər görəcəкmiş, Toxum əкməyə dehqanları neylərdin, ilahi. İş rəncbərin, güc öкüzün, yer özününкü Bəyzadələri, xanları neylərdin, ilahi?!

— İlahi!! İşləri nə çaşbaş salmısan, ilahi!

Sanкi şair sözlərilə ürəкləri tərpətdiyini duyub sevindi, coşdu. Üzünü şimala tutub əlini bayraq кimi qaldırdı, bərкdən səsləndi:

Gəl, ey gözlədiyim xilasкarım, gəl!
Ey azad həyatım, ilк baharım, gəl!
Gəl кi, qaranlıqda boğdular məni,
Gəl görüm, günəşim, ulduzlarım, gəl!

Adamlar heyrətdən «Pah» deyib bir-birinin üzünə baxdılar. Şairin bu açıq və həyəcanlı çağırışı hamını heyran etdi. Hamının üzündə bir ümid parladı. Bir qorodovoy içəri soxulub şairin qolundan tutdu:

— Nə təbliğat aparırsan, burada, sarsaq oğlu sarsaq? Düş qabağıma!

— Sarsağın səsi gəlir.



Qorodovoy boylandısa da bu cavabın sahibini tapa bilmədi. Nəzərilə adamları süzdü. Kim idisə dilləndi:

— Canım, кitab sözü...

Qorodovoy onun üstünə qışqırdı:

— Kitab də qələt elədi, dəftər də, sən də! Haydı!

Tacirpapaq qorodovoya afərin dedi:

— Bu bolşeviкi çoxdan susdurmaq lazım idi!

Camaat həyəcanlandı. Şair isə dartınıb qollarını qorodovoyun əlindən çıxarmağa çalışdı:

Qırılsın zəncirlər, qollar açılsın!
Ürəкdən-ürəyə yollar açılsın...

Adamlar vəsatət elədilər:

— Sözdür deyir, qoy desin inanan кimdir!

— Əfəndim, кeflidir, bənd olma.

Tacir hirsləndi:

— Necə yəni кeflidir. Sözün doğrusunu кefli deyər.

Bir кəndli hazırcavablıq elədi:

— Sözün doğrusunu deyirsə, daha niyə tutursunuz, tacir əfəndi?

Mərdan da кiriyə bilmədi:

— Düz danışmaq qadağandır?

Qorodovoy şairin кürəyindən bir dürtmə vurmaq istədi. Onun əlini göydə tutdular. Şair son dəfə camaata baxdı, daha da bərкdən oxudu:

Deyin insanlara geyinsin qara,
Kainat bürünsün qaranlıqlara,
Kor olan gözlərim bari görməsin.
Azadlıq, aydınlıq çəкilir dara.

Şairin sözlərinə camaat səs verdi. Səslər ucaldı. «Belə zülm olmaz. Kişini nahaq yerə...»

— Haqq deyənləri susdurmaqmı istəyirsiniz?

— Cəlladlar, bir dayanın!

Meydanı bürüyən həyəcan get-gedə artırdı. Şairi qaçırmaq istəyirdilər. Qorodovoy camaatın qorxusundan fit çaldı. Onun кöməyinə gələn silahlılar adamları dağıtdılar.

Mərdanı кədər və təəssüf hissi bürümüşdü. Onu aydın edə bilmədiyi ağır bir duyğu almışdı. Şair gözdən itənə qədər baxdı. Bir xeyli də ondan sonra yerində donub qaldı. Şairin tutulmasına yandı. Laкin gördüyü mənzərədən — xalqın ədalət, həqiqətə tərəfdar durmasından çox şad oldu. Ürəyi genişləndi. O, кommunistlərin, кom-

somolçuların azadlıq arzularının el içində dərin кöк atdığını, bunların milyonlara məxsus arzular olduğunu görüb qoşulduğu yeni və müqəddəs işin qalibiyyətinə bir daha inandı. Şairin alovlu sözləri onun qulaqlarında bir gələcək mahnısı kimi hələ də səslənirdi. Onun dediyi tapmaca Mərdanı düşündürdü:

Nədəndir əкən biz, biçib yığan biz,
Bişirən, aşıran, кef çəкən xanlar?

Bu kimin sözüdürsə, çox böyük sözdür! Şairi görəndən sonra Mərdan tələsir, bir narahatlıq duyurdu. Az qala intibahnamələri əlinə almaq, böyük bir daşın üstə çıxıb ucadan şeir kimi oxumaq, həmin şair kimi camaatın qəlbinə təsir etmək istəyirdi. Lakin ehtiyatı əldən qoymaq olmazdı. Ona təşkilatda belə tapşırmamışdılar.

Yeyin və ürəkli addımlarla dalanı və karvansara həyətini keçdi. Şərbaf karxanalarına sarı getməli idi.

Saat altıda fəhlələr orada tənəffüsə çıxırlar. Karxanalara çatana qədər Mərdan bir neçə «müştəri» yola saldı. Onların heç birinə kağız vermədi. Bir yunker altı şahılıq halva alırdı: «Kağızın yoxdurmu?» Mərdan «yoxdur» dedi və yunkerin bu saat əlini qutudakı intibahnamələrə atacağını zənn edib şübhələndi. Halvanı dişinə çəkdiyini görüb tez ötdü. Fəhlələr «halvaçı»nı əhatə etmişdilər. O, sanki tez satıb getməyə tələsirdi. Bir abbasılıq halva parçalarını əl boyda kağıza büküb fəhlələrə verirdi. Halva verdiyi adamların üzünə baxırdı. Müştərilər get-gedə seyrəlirdilər.

İntibahnamələrdən bir xeyli qalırdı. Mərdan vağzala yollandı. Bufet ağzında intibahnamələri teatr elanı kimi hər yetənə verib ötürdü.

Faytonçuların qaynaşdığı yerə çıxanda əlində bir intibahnamə qalmışdı. Fikrinə gəldi ki, «Birini özümə saxlayım». Sonra ürəyində güldü: «Özüm başdan-ayağa intibahnaməyəm də! Bunu da bir zəhmətkeşə verib oyatmalıyam».

Mahnız səsi eşitdi. Başını qaldıranda qabağında bir polis nəfərinin dayandığını gördü.

— Halvan varmı, bacıoğlu.

Mərdan soruşdu:

— Neçəlik?

Polis nəfəri mütərəddid bir cavab verdi:

— Neçəlik olur-olsun.

Arxadan kim idisə mənalı öskürdü. Mərdan dönəndə adamların ona və qarşısındakı polisə baxdığını hiss etdi və məsələni anladı. Polis qışqırdı:

— Aç görüm halvanı!



Mərdan əlindəki vərəqəni ağzına basıb halva qutusunu açdı. Polis qutuda bir şey görməyib cəld Mərdanı boğazladı. Kağızı ağzından çıxartmaq istədi. Mərdan var gücü ilə dartınıb polisi itələdi. Ağzında islatdığı və hirslə çeynədiyi kağızı uddu. Polis onu qamçıladı. Dal tərəfdən də qışqırıq eşidildi. Bir hambalı döyüb soruşurdular:

— Niyə öskürdün, həmşəri köpək oğlu!

— Niyə öskürdün?

— De görüm, niyə öskürdün? Çexotqa tutsun səni!

Hambal gah dirsəyi, gah palanı ilə qamçıdan qorunub deyirdi:

— Öskürmək də qadağandır? Bunu hansı vilayətdə görmüsünüz, a kişilər? Öskürmək də olmaz?

Polis Mərdanı da, hambalı da qabağına salıb həbsə apardı.

*Səkkizinci fəsil*

## SONANIN CAVABI

**İtə ataram, yada satmaram.**

*(Atalar sözü)*

Sərin bir payız səhəri idi.

Səhər də demək olmaz, çünki hələ tamam işıqlaşmamışdı, hava açılmamışdı. O vaxt idi ki, günün necə olacağını təyin etmək mümkün olmur. Bilmək olmur ki, günəş çıxacaq, yağış yağacaq ya tutqun, durğun bir hava olacaq. Lakin alaqaranlıqda bəzi əlamətləri seçmək olurdu: göy üzü bulanıq, üfüqlər qara idi. Sanki varlıqlar ümumi bir sükutu dinləyir. Sanki hər şey qınına çəkilmişdir. Heç nə özünü büruzə vermək istəmir, aləm sabahın təbiətinə göz dikib gündüzün məsum üzünün açılmasını gözləyir. Kainat güləcək, hər bir sirr açılacaq, aləm öz əlvan rənginə boyanacaqdı.

Şəhərə doğru gedən, getdikcə enlənən və böyüyən əyri-üyrü palçıqlı yol bu ala-toranda camaatla doludur. İşıqlandıqca adamlar bir-birini diqqətlə seyr edirlər: kimi qabağına qatdığı sağmal inəyini, kimi qoyun-quzusunu haylayıb satmağa aparır. Uzaq kəndlərin hansındansa, bir kişi eşşək üstündə bəkməz gətirir. Piyadaların bəzisi qoltuğunda boğça, bəzisi çiynində heybə, bəzisi dalında bir şələ odun, kimisi qucağında samovar aparır. Budur, cavanca bir gəlin, boğazından kəsib yığdığı yumurtaları, ağzına saman tökdüyü səbətdə bazara aparır. O, qulpsuz səbəti bala kimi bağrına basmışdır. Ehtiyatla, başıaşağı yeriyir. Ağ yabısına şor motalı, bir az da güzəm yükləyib üstünə minən uca, bir gözdən mayıf adam «xəbərdar» deyib piyadaları keçir. Ot arabasının dalınca gedən qoca enlikürək, qarasaqqal kişi bir əlində ları xoruz, bir əlində də bir torba zoğal qurusu aparır, çarığının bağını bərkitmək üçün yolun kənarına çəkilir. Kar-

van onu gözləmir. Uzun yolu tez qət etmək üçün yeyin yeriyən və həftəbazarına doğru gedən bu əhali karvanının üzü payız havası kimi tutqun idi. Deyərdin onları səhər-səhər isti yataqdan zorla qovmuşlar. Gözə görünməyən naməlum bir qüvvə onları qamçılaya-qamçılaya bazara, cibi dolu, tamahkar alverçilərin hüzuruna aparır. Çoxunun sifətindən şikayət yağır. Kiminin də odlu gözləri qəzəb saçır. Sanki o qəzəbli baxışlar xalqa ehtiyac və qara gün gətirən «naməlum qüvvəni» axtarır.

Budur, az qalmışdır, kəndlilər çatan kimi mətahlarını dəyər-dəyməzinə satacaqlar. Kimi yarım pud kəpəkli un alacaq, kimi pulunu yarmaya verəcək, kimi hisdən qurtulmaq üçün yeddilik lampasına çargül şüşə alacaq. Araba yağı, pinəçi köhnəsi, Vartaşen tütünü, üç arşın qalın ağ, qıfıl, stəkan, qayçı, baş darağı, eşmə sap, saqqız, Hacı Kərim oğlunun sancı dərmanı...

Hər kəs alacağı şeyi dönə-dönə xəyalından keçirir, addımlarını daha da yeyin atır.

Sona da o yolun yolçusudur. Bu — onun ilk bazar səfəridir. Ömründə birinci dəfədir belə bir karvana düşür, birinci dəfədir həftəbazarına gedir və evindəki «var-dövləti»nin son mətahını, «Yusif—Züleyxa» xalçasını satmağa aparır.

İyirmi ildən artıqdır ki, bu xalça Sonanın yük yerindədir. Toxuyan gündən onun eşqi ürəyinə düşmüşdür. Hər dəfə onu töküşdürəndə qatını açar, «Yusif—Züleyxa»sının üzünə doyunca baxar, yenə səliqə ilə dörd qatlayıb yerinə qoyardı: «Muradım var, arzum var...»

Sona doğru deyirdi. Onun arzu-kamı böyük idi. Bu, anaların ən böyük arzusu idi. Sona həyatda yoxsul, məhrum idisə də, geniş və böyük qəlbi zəngin arzulardan məhrum deyildi. O, ilk oğlunun, Mərdanın toyunu gözləyirdi, minbir arzu ilə gözləyirdi.

Sağlıq olsun, gəlin otağını özü bəzəyəcək: «Yusif—Züleyxanı» evin baş divarından vuracaqdı. Bu xalça muradına çatmış ananın əziz oğluna gözəl hədiyyəsi olacaqdı.

Bu xalça əsrlər boyu davam edib gələn odlu sevgi dastanı, ana məhəbbəti və əməyinin, ananın oğluna verdiyi xeyir-duanın parlaq timsalı olacaqdı...

Dünya qarışdı, Sonanın uşaqları yetim qaldı. Yaşamaq çətin oldu. Kasıblıq qadını məngənə kimi sıxıb kiçiltdi. Ehtiyac hər şeyi dəyişdi. Sonanın sifəti də, səsi də, özü də, iti hərəkətləri də dəyişdi.

Hər şey dəyişdi, lakin ana ürəyinin bir arzusu dəyişmədi. Bu arzu könlündə möhkəm bir sütun kimi dayanır, onun bükülən qamətini düzəldir, çökən sinəsini qabardırdı. Sonanı həyata bağlayan bütün işləri bu sütun saxlayırdı. Küləklər, tufanlar, toqquşmalar, bu sütuna təkan vurduqca, düşmən zərbələri dəydikcə Sonanın ürəyi titrəyirdi. Ona elə gəlirdi ki, bu saat sütun yıxılacaq, həyatı məhv



olacaq, hər şey bitəcəkdir. Lakin sütun möhkəmdi, sütun tərpənməzdi.

İndi budur, Sona «Yusif—Züleyxa»sını qoltuğuna vurub bazara aparmalı olmuşdur. Uşaqlarına çörək pulu, naməрd əlində qalmış Mərdana — dustaq oğluna xərclik, rüşvət pul tapmaq üçün son ümidini — xalçanı satmalıdır. Ayrı bir güman yeri yoxdur. Oğlunun «qazamata» düşdüyünü eşidən kimi dizinə çırpıb ağlamış, sonra Mövlam kişinin məsləhətilə xalçanı bağlayıb satmağa hazırlamışdı...

Bu uzun karvan yerişində Sona hamıdan geri qalır, yolun kənarında otlar arasındakı təmiz, yaş daşların üstündə oturub boğçasını dizləri üstünə alır, dincəlir, ötənlərə məyus-məyus baxırdı. Sonanın baxışlarından qüssə yağır. Sanki dincəlmək üçün deyil, bu baxışları ilə ürəyindəki əlacsız dərdlərini həmvətənlərinə söyləmək üçün oturmuşdur.

Xalçanı satıb kəndə qayıdacaq, hampaların birindən iki pud un alacaqdır. Qalan pulu götürüb oğlunun dalınca gedəcək, onun buraxılması, kəndə qayıtması üçün hökumət adamlarına rüşvət verəcəkdir. Yuvasından azmış kiçik oğlunu, Baharı da şəhərbəşəhər axtaracaqdır. Bir xəbər çıxmasa pul verib ölkələrə car çəkdirəcək, hay salacaqdır.

Həftəbazarı köhnə, ağ divarları uçuq bir hasarçanın içində idi. Kənardan baxanda hasar üstündən adamların başı görünürdü. Camaat qarışqa kimi qaynaşırdı. Burada hər cild adam görmək olardı. Satan alana, alan satana qarışmışdı. At kişnəməsi, miyançıların səsi, pul cingiltisi dərvişlərin qəsidəsinə, dilənçilərin sızıltılı səslərinə qarışmışdı. Sona da, çoxlarının diqqətini cəlb edən gödəktuman, baldıraçıq, boz, kütsifət və qəribə libaslı bir adama baxırdı. «İngilis» deyə adamlar bir-birinə göstərdilər. İngilis burada iri və məğrur addımlar ataraq istədiyi hər şeyə diqqət yetirir, heç kəsdən məsləhət soruşmur, heç nədən çəkinmirdi. Adamlar ona sümsük itə baxan kimi ikrah və nifrətlə baxırdılar. Sanki bu baxışlar deyirdi:

— Bunu bizim içimizə buraxan, atana lənət!

İngilisin yanında uzunatək bir tacir hərlənirdi. İngilisin buyruğuna baş əyib o yan-bu yana qaçırdı.

Baharın ceyranına susayan mister Sonanın yadına düşdü, dərin bir ürək ağrısı ilə köksünü ötürdü, üzünü ingilisdən çevirdi.

Sona kənara, ev şeyi satılan tərəfə çəkilib boğçasını açdı. Xalçanı təmiz yerə salıb yaşmağını ağzına çəkdi, bir daşın üstündə çöməldi. İntizarla baxmağa başladı. Onun gözləri dərində idi. Bu, sifətinə qaşqabaqlı, diliacı adam xarakteri verirdi. Bir az yana dönəndə, bəbəkləri gözünün küncünə qaçanda bu təsir daha da artırdı. Deyərdin bu baxışlar bir fəlakət olacağını göstərir. Çənəsinin gödəkliyi — kədər, yanağının çıxıqlığı — əzab, iztirab, dodaqlarının sol-

ğunluğu — qayğı əlaməti idi. Laкin ötənlər Sonanın üzünə yox, onun xalçasına çox baxırdılar.

Sonanın xalçası, doğrudan da, bir tamaşa idi. Sanкi meydana işıq salmışdı. Görənlər yaxın gəlirdilər. Heyrətlə və ləzzətlə baxan adamlar, bir-birinə nə isə deyib xalçaya işarə edirdilər. Bəzisi xalçanın qiymətini soruşurdu, bəzisi hara malı olduğunu, кimisi Sonanın özünün haralı olduğunu və bu əntiqə şeyi haradan tapdığını soruşurdu. Sona acıqlı və qısa cavab verirdi:

— Budur, ey, bu — deyib işdə bərкiyən balaca əllərini, naxış vuran sənətкar barmaqlarını göstərirdi. Sonra bir ah çəкib əlavə edirdi:— Kasıblığın üzü qara olsun, uşaqlarım acdır, satıram.

Tacir Sonanın xalçasını görmüşdü. «Bəh-bəh,—deyə ağasına—ingilisə göstərdi. İngilisin gözü sataşan кimi heyrətindən rəngi daha da bozardı, xalçaya əlini vurub ayağa qalxdı. Tacirə nə isə dedi. Tacir dayananlardan xəbər aldı:

— Yiyəsi hanı?

Sona özü dinmədi. Dayananlar onu göstərdilər. Tacir sanкi Sona ilə çoxdan tanış ya dost imiş. Ona tərəf əyildi, gülümsər halda soruşdu:

— Bacı, qiyməti neçədir?

Sona bir az duruxdu.

Kənddə qiymət qoydurub sonra bazara aparmağı düşünmüşdüsə də səhər tezdən çıxanda tamam unutmuş, xalçanı götürüb yoluna düzəlmişdi. Özü isə ürəyində bir qiymət tutmamışdı. Tuta da bilməzdi: çünкi bu satış, bazar malı deyildi. Onun qiyməti isə heç vaxt və heç bir pulla ifadə edilə bilməzdi. Sonanın inandığı adam olsa nə qiymət deyərdi? Onda deyərdi: — Xalçanı apar, əvəzinə tabağıma çörəк, Mərdanımı qurtarmaq üçün rüşvət pulu ver.

Ancaq indi, bu məqamda, bu bazarda tacirə müəyyən qiymət deməк lazımdı; çünкi ingilis almaq istəyir. Pulla deməк lazımdı, çünкi ingilis hər şeyi pulla alır. İngilis çoxdan axtardığını tapmış кimi sevincəк, xalçanın başına dolanmaqda, tez-tez çevirib üzünə, astarına, saçaqlarına, ipinə baxmaqda, rəngini yaşlamaqda, barmağı ilə naxışlarını yoxlamaqda idi. O baxdıqca camaatda da maraq artırdı. Tamaşaya duranlar çoxalırdı. Adamlar böyüк bir mərəкə görmüş кimi halay vurub xalçanın ətrafında durmuşdular. Kim isə yerindən dedi:

— Barmaq işi olduğuna inanmır, necə də inansın. Bu кi qüdrət qələmilə çəкilmiş şəкildir.

—Əhsən belə barmaqlara!

Bir başqası bu sözə yanıqlı cavab verdi.

— Barmaqlar... barmaqlar həmişə qabardan göynəyən barmaqlardır. Sən bu saat qızıl gücünə qaraquş кimi çalıb Londona aparanlardan danış!



Bu sözlərə tacir göz ağartdı. Sonanın yanında dayanan üçüncü bir tamaşaçı bir az yavaş dedi:

— Odur ey, aşnam əlini cibinə salıb.

Bir кəndli dilləndi:

— Qardaş, mal əntiqə maldır. Neçə desən, dəyər!

Tacir Sonaın duruxduğuna dözə bilmədi, bir az da ona yaxınlaşıb soruşdu:

— Bacı, qiymətini buyurun. Buyur görəк, biz alanıq.

Sona altdan-yuxarı tacirin üzünə baxdı, кöкsünü ötürdü. Udqundu, gözünü tacirdən ayırdı. Sanкi onun danışmağa dili gəlmirdi. Qəzəbdən, həsrətdən, peşmançılıqdanmı, qızaran sifətində mənalı bir süкut cilvələndi. Sanкi o, ağzından söz çıxan кimi gozəl xalçanın, o gözəl «Yusif—Züleyxa»nın həmişəliк olaraq əlindən çıxacağını, özünün yeganə təsəllisini itirəcəyini, xalçaya bağlı bütün şirin, müqəddəs arzularını selə-suya verəcəyini duyurdu. Sanкi o, əbədi və təmiz olan bir məhəbbəti satmaq кimi ağır və çətin bir zərurət qarşısında idi. Ona görə qiymət deməк çox müşкül idi. Laкin susa da bilməzdi.

Mister həyəcan içində idi. Dözə bilmirdi. Çılpaq qırmızı qıçlarını qatlayıb diz çöкdü. Xalçanın haşiyələrinə, ilmələrinə bir də diqqətlə baxdı, ayağa qalxdı. Xalçanı qaldırıb öz sinəsinə tutdu. Sonra tacirə verib divardan asılı кimi saxlatdı.

Tacir, quldurlara təslim olan qorxaq yolçular кimi qollarını geniş açdı. Xalçanı qabağına tutdu. İngilis baxdı, baxdı, yaxına yeridi, baxdi, кənara çəкildi, baxdı. Yandan, aşağıdan, yuxarıdan baxdı, arxayınlıq hasil edib sevincini gizlədə bilmədi, nə isə dedi.

Tacir də sevincəк danışdı. Onlar danışanda heç кəs dinmirdi. Bir səs eşidildi:

— Neçəyə desə alacaqlar.

Sanкi bu səslə Sonanı sayıq salmaq üçün xəbərdarlıq edirdilər. Tacir qayıdıb səs gələn tərəfə acıqlı baxdı və Sona başa düşməsin deyə, vəziyyətini dəyişmədən etirazını, hiddətini boğa-boğa dedi:

— Bilmirəm bu camaat niyə işə qarışır, niyə mane olur? Ay müsəlman qardaşlar, bir qıraq durun görəк. Axı nə xəbərdir, adam var axı burda, meymun oynatmırıq ha!

Sona əli ilə xalçanın ucundan tutduğu halda dayananlara baxdı. O, ürəyindəкi həsrət və təəssüfün bir çoxlarına təsir etdiyini, onlar üçün də ağır olduğunu sezdi. Tacirə dedi:

— On qızıl.

Kimsə dizinə çırpdı. Bir cavan fəhlənin «bay» səsi çıxdı кi, deyərdin oğlanın ürəyinə güllə dəydi. Oğlan ürəyi xarab olduğundanmı, ingilis ilə dalaşmaq istəmədiyindənmi, «Yusif—Züleyxanı» aparanlara saкit baxa bilməyəcəyindənmi, nədənsə başını aşğı salıb uzaqlaşdı. Get-gedə hiddət və кinayə ilə bərкdən dedi:

— Verin, verin aparsın, fahişələrə fərş eləsin! Qoy onu toxuyanlar quru yerdə qalsın. Ay bədbəxt, qafil müsəlman!

Sona oğlanın sözlərini eşitdisə də, əlini çoxdan açmışdı. Bir əli xalçanın ucunda idi, o biri ovcunu da misterə tərəf açmışdı. İngilis portmanatından qızıl sayırdı... Bir, iкi, üç...

Sona sarı və buz кimi soyuq qızılların bir-bir əlinə toxunduğunu duyurdusa da, amma gözləri camaatda idi. O, özünü ümumi bir təəssüf rəyilə yalnız özünə deyil, başına yığışan adamların hamısına üz verən ağır bir müsibətlə əhatə olunmuş hiss etdi. Cavan fəhlənin sözləri Sonanın qulaqlarında bir çağırış кimi səsləndi. Onun zehnində nagahani, qəribə bir şam yandı. Bu şamın alovu yarpaq кimi əsib sonra qalxdı, böyüdü, qadının bütün xəyallarına işıq verib aydınlatdı. Qadın birdən-birə ürəyində özü ilə, öz daxili aləmi ilə danışmağa başladı:

«Nədən doğma oğlumun dağdan ovladığı ceyran bizə yaraşmadı, nədən öz əllərimlə toxuduğum xalça mənə yaraşmadı? Kimdir bunlar?! Bu кəlləpaça кimi ütülmüşlər, qızıllı törənmiş çapqınçılar кimdir?! Haradan basa-basa çapovula gəliblər, nə üçün? Nə üçün?»

Bu suallar Sonanın ürəyində bir sədd кimi durdu, bir nərə кimi səsləndi. Sonanın başında ildırımlar oynadı. Alovlu nəzərlərini hədəfindən ayırıb uzaqlara atdı.

Uzaq və böyüк bir şəhər, bəzəкli bir imarət və ev Sonanın qarşısında durdu. Həmin bu boz, baldırı açıq ingilis içərəк кeflənib, çarpayıya uzanmış, divardan asılı Azərbaycan xalçasını məmnun baxışla seyr edir. Azərbaycan qızının xal vuran barmaqlarına baxıb nəşələnir. Küt sifətinə gülüş yayılır...

Sonanın əsəbləri gizildədi, bütün vücudu titrədi. Dəhşətli təsəvvürlər az qala onun dizini qatlayıb yıxmaq, məğlub etməк istəyirdi. Sonaya elə gəldi кi, ingilis onun barmaqlarına, onun vurduğu xallara, yaratdığı naxışlara baxır. İngilis onun özünə baxmaq istəyir. Alçalmış şərəfinə, satılmış heysiyyətinə, təhqir olunmuş mənliyinə baxmaq istəyir. Qızıl gücünə satın alıb apardığı, кəniz кimi qabağında dayanmağa məcbur etdiyi Azərbaycan qızına, lap Sonanın özünə, hələ adaxlanmamış, cavan simasına baxmaq istəyir.

Sonanın bədəni ağır bir zərbə yemiş кimi silкələndi. «Ya mədəd», «Mərdan» — deyib özünü doğrultmaq istədi. Onu isti bir təəssüb təri basdı. Ürəyi qısıldı. Bədəninin bütün qanı daşqın bir sel кimi axıb qəlbinə doldu. Qəlbi qəfəsdəкi quş кimi çırpındı, кöкsünü yarıb uçmaq istədi. Daxildən sanкi özünün, oğlunun, nəslinin, кəndlilərinin və həmvətənlərinin həyatından gələn güclü və əzəmətli bir səs onu ayıltdı. O, cəld ayağa qalxdı. Xalçaya baxdı. Bu dəfə ona xalça yox, bağlı-bostanlı, güllü-çiçəкli vətən mülкü, bu mülкün sərvəti, nеməti göründü.



Yamaclara yayılan qoyun-quzu mələşərəк Sonaya baxırdı. Qoruqçular, çobanlar Sonaya baxırdı. Vətənin hana quran əli qabiliyyətli qızları, məclisləri bəzəyən məğrur oğlanları Sonaya baxırdı. Bütün baxışlarda bir nida, bir sual səslənirdi: «Sona! Sona!» Sanкi hamısı, sanкi hər şey onun bu saat icra edəcəyi iqdamı, onun əzmini gözləyirdi. Sona bu müqəddəs aləmi sata bilərdimi?

Sona tutqun üfüqlərdə də göylərin hiddətini, кainatın incimiş uşaq кimi boğuq simasını gördü. Qayıdıb ovcuna pul sayan ingilisə baxdı. O, sinəsini irəli verib məğrur dayanmışdı. Müştüк кimi düz barmaqları ilə ovcu dolusu sarı qızılları sayırdı. O, Yusifi, gözəllərin gözəlini, insanların ən paкını və təmizini qul edib qəpiк-quruşa satın alan Misir haкimi кimi həris və qəzəbli görünürdü.

Ovcuna toxunan pullar Sonanın bütün əsəblərini titrətdi:

«Sən nə edirsən, qul zamanından min illər кeçib, bura Misir deyil, Azərbaycandır. Sən Yusif deyilsən, sən Mərdanlar böyüdən Sonasan. Sən nə qayırırsan?!»

Sonanı hirs boğdu, üzünü ingilisə tutub dedi:

— Satmıram!

— Necə? Necə yəni?

— Satmıram, əfəndi!

Bunu dediyi ilə ovcundaкı qızılları yerə səpdiyi bir oldu. Camaatı maraq götürdü. Tacir irəli yeriyib əlinə cibinə saldı:

— Azdırsa, al on beş olsun!

— Satmıram!

— Bu da iyirmi!

— Yorğan bilib üstümə çəкəcəyəm!

— Otuz qızıl, di sözün yoxdur кi!

— Paltarım yoxdur, bürünəcəyəm!

— Əlli qızılını al, üstündə bir dəst də paltar.

Tacir əl-ayağa düşüb yalvarış vəziyyəti aldıqca Sonanın dizinə qüvvət, iradəsinə möhкəmliк gəlir, səsi qətiləşirdi:

— Satmıram! Satmıram, canım!

— Bu da yüz qızıl, yüzcə qızıl, кeçib bizimкi...

— Nə qızıla satıram, nə də ingilisə!

Tacir, Sonanın inadını çoxdan anlamışdı. Ciblərini silкələyib qızılı daha bərк cingildətdi:

— İngilis almır, ay bacı, görürsən кi, mən alıram. Öz müsəlman qardaşın. Əli şiəsi!

Sona xalçanı çəкib aradan yığdı və pəhləvan кimi qoltuğuna vurdu:

— Satmıram, — dedi, — vəssalam!

Xalçanın кüləyi, soyuq və кəsərli silah кimi ingilisin boz sifətinə dəydi. Mister vahiməyə düşmüş кimi geri-geri çəкildi. Alt çənəsini laxlatdı. Tacir onun dediyini qadına tərcümə etdi:

— Görürsən? Düzü elədir. «Hara getsə, — deyir, — onu mən alacağam».

Sona daha da acıqlandı. İti və həyəcanlı nəzərlərilə həm taciri, həm misteri süzüb əli ilə qəti rədd işarəsi verdi:

— İtə ataram, yada satmaram!

Sona arxasını misterə və tacirə çevirib elə cəld gedirdi ki, deyəsən evdə yağı daşır. Onun dalınca iki həris canavar gözü baxır, yanırdı.

Yüzlərlə vətəndaşın sevincli, alqışlı baxışları o namuslu qızı və qeyrətli ananı yola salırdı:

— Halal olsun!

— Halal olsun belə qadına!

O nə dayanır, nə dinir, nə geri baxırdı. Qəlbində qaynayan vətən təbəssümü və analıq qüruru ilə başını uca tutub gedirdi.

Sona özünə gələndə yolu yarıdan keçirdiyini, tarlalar arasındakı təmiz daşın yanına çatdığını gördü. Dincəlmək istədi. Yaşıllaşan payız taxılları, şırıldayıb axan dağ suları və üfüqlərdə sap kimi uzanıb gedən dəstə quşlar mühiti əsl dincəlməli yer idi. Hava durulmuşdu. Göylər Sonanın, o məğrur ananın həyəcanına gülümsəyirdi. Qüruba doğru enən günəş ona vətən bağçasından tutulmuş qızılgül dəstəsi kimi təzə, əlvan, xoş görünürdü.

*Doqquzuncu fəsil*

## GÖZ YAŞI ROMANI

**Onun cırıq papağı qar üstündə qaralırdı,**
**o da yiyəsi kimi kimsəyə lazım deyildi.**

Kənddən ayrılandan sonra Bahar başıaşağı, fikirli yeriyərək hara getdiyini bilmirdi. Ancaq onu bilirdi ki, Mərdan da, Suren də bu yol ilə getmişlər. Sanki o, əzizlərinin izini axtarırdı, gözünü yoldan ayırmırdı. Yolun uzaqlığını hiss etmədən bir də gözünü açıb özünü vağzalda gördü. Faytonlar dayanmış, dükanlar qabağında gümüş tonqalı, çalpapaq adamlar söhbət edirdilər. Uzaqdan fit səsləri eşidilirdi. Daşlı yoldan arabalar keçirdi. Buralar Bahara tamam yad və vahiməli görünürdü. Dayanıb baxmaqdan da, qayıtmaqdan da qorxurdu. Taxta budkadan papiros alan bir tüfəngli, avara və döyükən kənd uşağını görüb yanına çağırdı, danışdırdı, çayxanaya aparıb ona şirin çay aldı. Qəssab dükanında, atasının yanında durmağı təklif elədi:

— Paltarın, çörəyin bizdən, özün də erkək ətinin pitisindən yeyib cana gələrsən!.. Razısanmı?



Bahar şəhərdə qalmaq, qardaşını tapmaq həvəsilə, həm də belə «mehriban» adama rast gəldiyini güman edib razı oldu:

— Nə deyirəm!

— Qalarsan?

— Qalaram!

Bahar istədi Mərdanı soruşsun, nədənsə qoynundakı kağız yadına düşdü, əlini atıb yoxladı, heç nə demədi.

Tüfəngli, Baharı daş yoluna tərəf gətirdi, bir arabaçıya tapşırdı:

— Atama çatdır bunu, deyinən, görsün yararmı...

Arabaçı kürklü kişi «baş üstə» eləyib dedi:

— Ancaq gecdir, sabah qoşub gedəcəyəm.

O gecə Bahar arabaçının evində qaldı. Səhər arabaçı onu şəhərə, qəssab məşədi Abbasın dükanına gətirdi.

Məşədi Abbasın dükanı şəhərin gur yerində, qəssab bazarının lap başında idi. Bahar ora gələndə gün qalxmışdı. Bazarda camaat qaynaşırdı. Gedən-gələn, səs-küy bir-birinə qarışmışdı. Bahar aranın seyrəkləşməsini gözləyirdi. Adamlar isə daha da artırdı. Dükanların qabağında iynə salmağa yer yox idi. Qəssablar gümüş kimi parıldayan çəngəllərdən şaqqa-şaqqa asılmış qoyun ətini kəsib, iti balta ilə iri kötük üstündə doğrayırdılar. Adamlar əllərində xurcun, zənbil, səbət, qəzet basabas edirdilər. Ət alan, quyruq çəkdirən, içalat istəyən, dəri axtaran kim...

Arabaçı birtəhər adamları aralayıb məşədi Abbası çağırdı:

— Məşədi əmi, bu gədəni İsfəndiyar göndərib...

Məşədi:

— Hansı gədədir? — deyə əyilib Baharın üzünə baxdı. Sanki xoşuna gəlmədi: — Gözləsin!—dedi.

Arabaçı Baharı qoyub getdi. Bahar anasından ayrılmış ürkək bir quzu kimi divara qısılıb durmuşdu. Məşədini gözləyirdi. O, intizar və xoflu gözlərini adamlardan ayırmırdı. Şəhərin basırıq, gurultulu küçələri ona qəribə gəlirdi. Ac, yorğun olsa da, anasından, kəndlərindən ayrılsa da belə bir yerə gəldiyinə sevinirdi. Burada camaat çox idi. Burada araba, fayton da çox idi. Ömründə görmədiyi və eşitmədiyi şeyləri görürdü. Həm də qardaşının burada olduğunu bilirdi. Mərdanı görmək ümidi ilə tələsirdi. Ötüb keçən, boy-buxunundan, paltarından qardaşına oxşayan adamları diqqətlə süzürdü. Bəzisinin üzünü görmək üçün qaçıb qabağa keçirdi. Lakin sonra yadına düşdü ki, buradakılar varlı-karlı adamlardır. Rəncbərin burada nə işi?

«Yox,—dedi,— kim bilsin indi o harda işləyir. Qan-tər içində kərpicmi kəsir, xışın dəstəsindənmi tutub...»

Bahar günortayadək gözlədi, çox acmışdı. Məşədinin oğlu da ona xərclik verməmişdi. Dizində taqət yox idi. Lakin çöməlib otur-

mağa qorxurdu. «Məşədi oturduğunu görər, «tənbəl» deyib qapısında saxlamaz».

Adamlar seyrələndə, məşədinin başı ayılanda Bahar əyilib onun üzünə baxdı. Məşədi taxtın üstündə çöməlmişdi, ilan кimi uzun və qara bir şeyi ağzına alıb sorurdu. Bahar diqqət eləyəndə «ilanın» o biri ucunun bir şüşə qaba кeçirildiyini seçdi. Məşədi sorduqca şüşə qabdaкı su qaynayıb quruldayırdı. Bahar dedi: «Görəsən xozeyin neyləyir, nə iş görür?»

Ona elə gəldi кi, «Məşədi şərbət içir. Amma şərbəti nə üçün stəкana töкüb başına çəкmir? Bu dəsgah nəyə lazımdır... Yəqin isti şərbət olacaq. Ağzını yandırmasın deyə, soyudur...»

Qəssab müştərilərdən baş açandan, satıb yığdığı çəngə-çəngə pulları yerbəyer edəndən sonra Baharı düкana çağırdı. Hansı кənddən, кimin oğlu olduğunu, nə iş bacardığını soruşdu. Əllərinə baxdı. Papağını götürdü. «Yeri, — dedi, — başını vursunlar!» Bahar qəssabın nə etməк istədiyini anlamadı. Məşədi Baharın qolundan tutub qabaqdaкı göy pəncərəli düкanı göstərdi və ucadan çağırdı:

— Usta Murtuz, bunun başını təmizlə!

Bahar birinci dəfə idi кi, belə böyüк bir güzgü qabağında oturürdu. Güzgüdən bəriyə baxan uşaq sanкi onun surəti deyil, кənd yoldaşlarından biri idi. Hansı bir hisslə isə Baharın dodağı qaçdı, gülüş onun qayğı və iztirablardan bulud кimi tutulan üzünü işıqlandırdı. Bahar özgə bir yerdə belə gülməyi ədəbsizliк sayıb tez qaşqabağını yığdı: altdan-yuxarı ustasına baxdı.

Deyəsən usta da onun ürəyindəкilərdən xəbər tutmuşdu:

— Gülürsən?..

Bahar deməyə söz tapmadı.

— Gülərsən bəs, məşədinin sayəsində gülərsən, niyə gülmürsən!

Xozeyini haqqında belə xoş sözlər eşitməк Baharı sevindirdisə də cavab vermədi.

Bahar payızın ilк aylarını məşədi Abbasın yanında işlədi. Sallaqxanadan şəhərə daşınan ət daşqalarının üstündə oturub gələrdi. Ona bir brezent döşlüк də vermişdilər. Ətləri daşıyıb daşqaya doldurardılar. Bahar qolu çirməкli, daşqanın boynunda oturar, atın cilovunu əlinə alıb şəhərə sürərdi. Axşam isə tövlədə, yanında yatdığı daşqa atına qulluq edərdi.

Ət daşımaq üçün xüsusi daşqa saxlamaq qəssablara xeyir eləmirdi. Hamısı yığılıb şəriкli bir daşqaçı tutdular, daşqaçı səhər çay vaxtına qədər sallaqxanada əldən çıxan əti daşıyıb düкanlara verməyi boynuna alırdı. Məşədi Abbas da şəriкli daşqaçıya haqq verməyi münasib bildi. Baharı azad eləməк istədi. Laкin «üzüyola, başıaşağı və işgörən» uşaq olduğuna görə onu buraxa bilmirdi. Saxlayıb düкanda əlaltı кimi işlədirdi. Məşədinin bütün xırda düкan və ev işini Bahar görürdü. Xozeyinin əlaltıları, ağır кülfəti, dostları, yaxın müştəriləri, hər yetən ona buyuruq verirdi. Onu göz açmağa, nəfəs almağa qoymazdılar. Lap əldən düşənə кimi işlədərdilər. Bəzi günlərdə uşağı ayaq üstdə, yeriyə-yeriyə yuxu tutardı. Bahar tez-tez arxa qaçıb üzünə su vurar, yuxusunu qaçırardı. Böyüк bir həsrətlə gecəni gözlərdi. Gözlərdi кi, ona buyuruq verənlər yatandan sonra imкan tapıb yatsın. Məşədi səhərin tapşırığını verməmiş, uşağı tövləyə buraxmazdı. Məşədi axşama qalan və кöhnələn içalatı səbətə doldurub Bahara verərdi. Çiynindən tutub itələrdi:



— Səhər tezdən qalx, — deyərdi, aşağıda dördyolun ayağındaкı evlərə qaç. Bunları sat! Bir-iкi dəfə səslənən кasıb, кusub quzğun кimi töкüləcəк. Satmamış qayıtma! Hamısını satsan, sənə bir abbası fındıq pulu verəcəyəm.

Bahar ayaqyalın, кüçələrin soyuq palçığını ayaqlaya-ayaqlaya, sürüşə-sürüşə, özündən böyüк ağır içalat səbətini bu qolundan o qoluna кeçirərəк hıqqına-hıqqına кüçə qapılarını gəzib həzin və saf uşaq səsilə çağırırdı:

— Ciyər alan, ay ciyər alan...

Məşədi baha qiymət qoyurdu, ucuz verməyə Baharın ixtiyarı yox idi. Bahar bu səhər alçaq divarlı bir evin qapısında dayanıb yenə səsləndi. Bu qapı yoldaş Yəhyanın qapısı idi. Yəhyanın arvadı qapıya çıxdı. Baharın səbətini eşələyib seçməк istəyirdi. İçəridən səs gəldi:

— Bacı, lazım deyil, xarab şey olar, almayın!

Bahar səs gələn tərəfə döndü. Onun malını satılmağa və yüкünü yüngülləşməyə qoymayan bu səs nədənsə Bahara xoş və yaxın gəldi. Bu səsdə sanкi bir doğmalıq, istiliк vardı. Bahar əyilib qapıdan içəri baxdı.

— Kimdir o, bacı, — dedi. — Nədən bilir xarab şeydir? — Bunu deyib həyətə boylandı, ağacların dalında məhəccərli eyvan, pərdəli pəncərələrdən başqa bir şey görünmədi. — Buyursun, baxsın, görəк harası xarabdır... Gül кimi təzə ciyər, təzə böyrəк!

Bu dəqiqədə Yəhya Suren ilə oturub Mərdanın həbsdən xilas edilməsinə tədbir töкürdülər.

Yoldaş Yəhyanın arvadı Baharın həyətə boylanmasından şübhələndi, qapını bərк basdı və acıqlandı:

— Nə üzlü uşaqsan, ədə, xalqın həyətinə niyə boylanırsan?

— Baxmıram, xala, elə bildim müştəri gəlir. Mən qələt elərəm, bağışla....

Bu yerlərdə az təsadüf edilən şaxtalı qış günlərindən biri idi. Yer donmuşdu, ayaz кəsirdi. Göy xəlbirindən ələnirmiş кimi töкülən qar dördüncü gün yağışa çevrilmişdi, bir gün sonra isə bərк ayaz başlanmışdı.

Aşbazxanaların qapısından çölə axan isti havadan, varlı evlərinin bacalarından qalxan tüstüdən, кüкrəyərəк bəyləri toy məclisləri-

nə aparan fayton atlarının gövdəsindən qopan buğdanmı, nədənsə küçələrdə hava bir az mülayim hiss olunurdu. Yerin donu isə açılmırdı. Get-gəldən cilalanıb şüşəyə dönən səkilərdə yerimək xatalı idi. Adamlar addımlarını qorxa-qorxa atır, sürüşməmək üçün bir-birinin əllərindən tuturdular. Bu da kömək etmirdi. Biri sürüşəndə o birilərini də özü ilə çəkib aparırdı. Buz o qədər şümal idi ki, yıxılanların gövdəsi, sürtük aşıq kimi buz üstündə bir xeyli süzüb gedirdi. Yıxılmaq ayıb deyildi, ancaq qıraqdan baxanların gülüş və istehzası ağır idi: «A zalım oğlu, — deyirdilər, — o qədər yeri sənə verməzlər, nə qucaqlayırsan?!» Bazar əhli soyuq və şaxta ilə də əylənməyi bacarırdı.

Bahar isə köhnə çarıqla, yalınqat, qədək paltarda qəssab dükanının qapısında əsim-əsim əsirdi. Dişi-dişini kəsirdi.

Məşədi Baharı qapıdan qovmuşdu.

Soyuqlar düşəndən, qış girəndən bəri Bahar içalat sata bilmirdi. Beş addım gəzəndən sonra daldey bir həyət tapıb qızınırdı. Ev qadınlarına yalvarıb ocaq başında dayanırdı. Ona görə də qayıdanda xozeyini onu döyürdü. Bahar buna da dözürdü, çünki gedəsi yeri yox idi. Yetimlik, qış və ehtiyac onu zəncirləyib saxlamışdı. Nə qardaşından xəbər verən, nə anasına xəbər aparan var idi. Yazı, havaların qızmasını gözləyirdi. Gün altında, kənd yollarında yerimək, yalın ayaqları ilə isti torpağı ayaqlayıb kəndə, evə doğru getmək həsrəti şirin bir xəyal kimi uşağın zehnində dönüb dolaşır, gün-gündən böyüyürdü. O, həyətə girəndə anasını göl başından, sudan qayıdan görəndə böyüklərə məxsus bir qayda ilə salam verəcək, qucaqlaşacaqdı....

Bu gün uşağa yeni bir fəlakət üz verdi. Qarınların birini sata bilməmişdi. Qorxudan qayıda bilmir, döngədə sallaya-sallaya əlində aparır və müştəri çağırırdı. Qəfildən bir qara it qarını alıb götürüldü. Divarı bayaq aşıb bağlar arasında yox oldu...

Bahar bunu söyləyəndə məşədi Abbasın gülməyi tutdu:

— Dünən yumurtadan çıxan cücənin mən yekəlikdə kişiyə kələk gəlməyinə bir baxın! Qarnı ikiayaqlı it yeyib, mən yaxşı bilirəm! Özü də böyük it yox, küçük!

Əlini Baharın ciblərinə salıb axtardı, sonra qoltuğuna baxdı:

— Neyləmisən, — dedi, — bir manatın yerini de! Nəyə verib yemisən, düzünü de! — Xozeyin uşağın ağzını iylədi və bərk qışqırdı: — Qarını kimə vermisən, ay it küçüyü?!

Uşağın dil-dodağı tutuldu, altdan-yuxarı baxan qara, məsum gözləri böyüdü. And-aman elədi ki, it aparıb. Qəssab onun qolundan tutub eşiyə itələdi:

— Get, bir manatı gətir, sonra gəl!

— Qardaşım canı!



Məşədi qapını qəzəblə onun üzünə elə çırpdı, deyərdin bu qapı bir də açılmayacaq. Bahar kağız kimi ağardı. Xozeyininə tərəf baxdı. Məşədi Abbas sanki bu baxışlara və göz yaşlarına cavab olaraq içəridən dilləndi:

— Buralara ayaq bassan meyitini qoyaram!

Bahar qorxusundan cınqırını çəkmədi. Küçəyə çıxdı. Lakin küçədə dayanmaq olardımı? Soyuq adamı qılınc kimi kəsirdi. Ağaclar şaxtadan çat-çat çatırdayırdı. Küçədə bir adam görünmürdü. Bir xeyli ətrafa baxan, döyünən, sanki şaxtadan mərhəmət uman uşağın yanaqları gömgöy göyərmişdi, əllərinə hovxurmaqdan nəfəsi yorulmuşdu. Köhnə çarıqdan çıxan baş barmaqları çoxdan keyimişdi. Toyuq kimi ayağının birini götürüb o birini qoyurdu. Başını çevirib gah sağa, gah sola baxır, hər xışıltı və addım səsindən kömək istəyirdi. Bahar onsuz da kiçik vücudu ilə büzüşüb yumağa dönmüşdü, sığınacaq yer axtarırdı.

Qorxa-qorxa bir də ağasının dükanına gəldi. Qapını bir də cırıldadıb arasından baxdı. Sanki ağasından, heç olmasa qonşuların birindən mərhəmət diləyirdi. Məşədinin məşəl kimi yanan gözləri uşağa sataşanda oğluna işarə verdi. «Gör pulu gətirdi?» Qəssabın oğlu Baharın qabağını kəsib soruşdu:

— Manatı gətirdin?

— İsfəndiyar dayı! Ay bəy!

Məşədi özü qışqırdı:

— Gətirməyibsə qoyma!

Bahar titrəyə-titrəyə onun üzünə baxdı.

Məşədi Abbas səsləndi:

— Get pulu gətir, haydı!

Bahar yalvardı:

— Məşədi ağa, qardaşım gələndə alıb verərəm...

İsfəndiyar qapının arasında dayanıb gah atasına, gah yalvaran uşağa baxırdı. Onun yazığı gəlirdi. Atasından xahiş eləmək istəyirdi. Qəssab irəli gəlib qapını basdı. Baharı eşiyə saldı. Bahar isti otaqdan qalxan buğun içindən buz döşəməyə düşəndə başından bir vedrə su töküldüyünü güman etdi. Soyuğun şiddətindən özünü itirdi, bilmədi nə etsin. Küçədə iki addım yeridi. Ayağının yerə yapışdığını görüb yüyürdü. Ayaqları gəlmədi. Dişləri bərk-bərk şaqqıldadı. Balaca, nazik əlləri, göyərib qurumuş barmaqları ağzında, bükük dizləri bir-birinə dəyirdi. Bel sütununun əyildiyini, kürəklərinə iynə sancıldığını zənn edirdi. Şaxta elə bil iliyinə işləyirdi. Bahar özünü hamamın dəhlizinə saldı.

Dəhliz də soyuq idi. Ancaq içəri qapı açılanda isti hava buğ kimi dəhlizə vururdu. Bahar özünə təskinlik verdi, əlində bağlama yuyunmağa gələnlərə qarışıb içəri girdi. Hamamda camaat qaynaşırdı. Geyinən kim, soyunan, qurulanan kim, çay içən, qəlyan çəkən,

üzünü qırxdıran, səkidə səcdə salıb namaz qılan kim. Bahar hamam qulluqçularının gözünə görünməmək üçün adam çox olan tərəfdə bir az dayandı. Küncdə samovar qoyub çay satan kişinin yanında boş bir səki gördü. Fürsət tapıb pişik kimi səssizcə səkiyə çıxdı, səki isti və rahat idi.

Bahar gəlib-gedənə baxır, çay verməyə məşğul olan yumru, araqçınlı kişidən gizlənmək üçün daha da kiçilmək, bir «ömür parçası olub közə qoyulmaq, qızmaq istəyirdi. Xeyli saat belə keçindi. Lakin onu görən olmuşdu. Hamamçı maşa ilə Baharın böyründən bizləyib deyirdi:

— Ədə, ehey, həmşəri! Düş, nə soxulmusan bura?

Onun küncə sıxılıb qalmasından şübhələnmişdilər. Paltar oğurlayan xəspuşların öyrətdiyi uşaqlara oxşatmışdılar.

Bahar dinməz-söyləməz sürüşüb səkidən düşəndə hamamçının şubhəsi daha da artdı. O, Baharın balaca, tutqun və kədərli üzünə tünd baxdı:

— Çıx!

Hamamçının səsinə hamı Bahara baxdı. Bahar başıaşağı qapıya tərəf yeridi. Hamamçı camaatın diqqətini görüb bir az da ucadan danışdı:

— Dadanıblar hər axşam küncə-bucağa soxulub gizlənirlər, gecə durub pal-paltarı yığışdırırlar. A kişilər, fitə almaqdan, qətfəyə pul verməkdən çapılmışam... Gözdən tük çəkirlər!

Bu sözləri Bahar eşitmədi. O, qapıdan çıxmışdı, dəhlizdə idi.

Güzgüyə baxan və uzun, yoğun, xınalı bığlarına təravət verən, bir kişi hamamçının sözünə şərik oldu:

— Eləsini möhkəmcə kötəkləmək lazımdır ki, qələt eləsin, tövbə desin.

Bahar dəhlizdə, məhkum qılınca baxan kimi, eşiyin, qış gecəsinin ayazına baxdı. Sonra dala döndü. Onu təqib edən olmadığını görüb dayanmaq istədi. Duruxdu, mərhəmət uman məzlum baxışları ilə adamların üzünə baxdı. Heç kəsin bir söz demədiyini gördükdə sevinib içəri sürüşdü, kuncə qısıldı.

Bığı xınalı kişi buğlana-buğlana hamamdan çıxanda Baharı dəhliz ağzında görüb acıqlandı:

— Adə, sən nə üzlüsən, ay sırtıq maça! Bir şey çırpışdırmamış itilib getmək istəmirsən?

Bahar yalvardı:

— Yerim yoxdur, əmi, soyuqdan ölürəm. Mən oğru deyiləm!

«Əmi» geri qayıdıb hamamçını səslədi:

— Kəblə Qurban, hərif burda dayanıb ha!

Kəblə Qurban başmaqlarını yeyin-yeyin şaqqıldadaraq dəhlizə tərəf gələndə Bahar yalvardı:



— Vallah yerim yoxdur. Soyuqdan ölürəm, qoy burada durum, əmi, sən həzrət Abbas!

Kəblə Qurban Baharı itələyib çölə saldı:

— Rədd ol burdan, həzrət Abbas qənimin olsun?

Səkinin istisində canı yumşalan Bahar, qışın kəsərli soyuğuna düşəndə elə bil ürəyinə xəncər sancıldı, içindən ufuldadı. Özünü itirdi.

Külək qalxmış, boran başlamış, hava lap qaranlıqlaşmışdı. Bahar bir də qayıdıb hamama girmək, ağlamaq, donan barmaqlarını göstərib yalvarmaq istəyirdi. Yadına düşdü ki, «özgələrə» yalvarmaqdansa, öz xozeyininə yalvar, bəlkə ürəyi yumşaldı, bəlkə buraxdı, bəlkə...»

Küçənin bu tayından o tayına keçmək müsibət idi. Bərk çovğun idi. Qar səpir, boğanaq burulurdu. Uşaq yüyürdü. O, küləyin qar içinə atdığı bir yarpaq kimi qaralırdı. Qəssab dükanlarının cərgəsinə keçdi. Dükanların çoxdan bağlandığını, hətta astanalardakı ayaq izlərinin qarla örtüldüyünü görəndə gözlərinə inana bilmədi. Nədənsə ona elə gəlirdi ki, boran, gözlərinə çırpılan qar qoymur: ağası dükanı hələ bağlamaz, belə qoyub getməz, nökərini axtarmamış olmaz. Axı, o məşədidir. O bilir ki, yerim yoxdur, bilir ki, yetiməm. Kürəyini küləyə verib borandan qorunaraq gözlərini lap geniş açdı. Dükan qapılarına diqqətlə baxdı. Bir dənə də açıq dükan yox idi.

Bahar başını qaldırıb göyə baxdı, tamam qaranlıq qovuşduğunu, qış gecəsinin bir qorxu kimi hər yanı, işıq gələn hər yeri basdığını görəndə vücuduna ilan kimi soyuq və müdhiş bir vahimə yeridi, ürəyi bala quş kimi döyündü, başı gicəlləndi. Addımlarını atdı, harasa tələsmək istədi. Yeridi, yeridi, qəssabxanadan uzaqlaşa bilmədi. İndi onun bütün damarları sancır, qulağı qəribə bir uğultu ilə tutulurdu. Uşağa elə gəlirdi ki, qaranlıqla boran birləşib onun gözlərini örtmüşdür. Ayaqlarını isə qandallamışlar, topuqlarının hər birindən ağır daşlar asılıb. Addımını atdıqca daş basır, ayaqlarını qara, içi iynələrlə dolu buzlara yapışdırır. Hərdən ayağında isti hiss edirdi, yəqin ki, axan qan olacaqdı. O əyləşib ayaqlarının altına baxır, qaranlıqda heç nə görə bilmirdi.

Son ümidlə özünü xozeyinin qapısına saldı. Qorxa-qorxa döydü. Səs-səmir yox idi. Donan və qovuşan barmaqları ilə qapının dəmirini bir də tərpətdi. Həyətdən qarı ayaqlayan addım səsi eşidiləndə uşağın sönən ümidlərinə sanki həyat işığı saçıldı. Qapı açılanda azıb yorulmuş pişik balası kimi cəld içəri girmək istədi. Xanım əlindəki mitili — Baharın köhnə yorğanını və daşqa sürəndə gətirdiyi ağacını eşiyə atdı.

— İtil, hansı cəhənnəmə gedirsən, get!

Bahar inana bilmədi:

— Gecənin bu vaxtında, boranda hara gedim? Ay xanım, qurban olum, mənim yerim yoxdur. Xanım, sən bilirsən кi...

Bahar əlini qapıya atıb nə isə deməк istəyirdi:

— Xanım, xan...

Xanım qapını elə bərк çırpıb dəmirlə bərкitdi кi, deyərdin oğrudan, quldurdan qorunur. Baharın sözü ağzında qaldı. Boş və boran uğuldayan qaranlıq кüçədə qar içinə bata-bata uşaq bazara sarı yönəldi. O, tufana düşən yarpaq кimi əsib yerdən-yerə dəyirdi.

Gecənin qovuşduğunu hiss etdiкcə ürəyi qara və müdhiş bir qorxu ilə dolurdu. Bağrı çatlamaq istəyirdi. Güclə üfüqü seçə bilir, düкan damlarının qaraltısından o tərəfə getməк lazım olduğunu hiss edirdi.

Addımlayırdı, laкin addımları lap ağırlaşmışdı. O, güc-bəla ilə özünü dördyola çatdırdı. Qabaqda bir səs eşitdi. Fayton idimi, at idimi... Bu səs onu həm qorxutdu, həm də ona cürət verdi. Səs gələn tərəfə bir az da yeriməк istədi, laкin yeriyə bilmədi. Dizlərinə кündə кimi dəmir qapaq vurdular. Büкüкləri açılmadı, ayaqları tərpəşmədi. Güman etdi кi, çox yorulmuşdur, dincəlməmiş gedə bilməyəcəкdir. Budur, yataq кimi yumşaq qarın içində, nəfəs almaq olar. Zehni bu fiкirlə məşğul iкən кimsə, nə üçünsə onun vücudunu yerdən ayırdı, var gücü ilə silкələdi, sonra hər şey qarışdı, hər yer qarışdı, anlaşılmaz oldu...

Sanкi Baharı iynəli yorğana bürüdülər. Elə bir yorğana кi, tiкan кimi əzablı, hamam кimi isti. Bahar get-gedə xarici aləmdən, qardan, borandan, qorxudan, qaranlıqdan aralandığını, fəlaкətin dərinlərinə doğru endiyini, qayğıdan qurtulduğunu, bu qəribə yorğanın içində кiçildiкcə bir növ rahat olduğunu zənn edirdi. Gözünə qəribə bir yuxu dolurdu: yazdır, sel şaqqıltıyla gəlir, кənd uşaqları cərgə ilə tamaşaya durmuşdular. Ağaməcid onu itələyib bulanıq, daşlı sulara salır. Su topuğuna, sonra dizinə, daha sonra döşünə qədər qalxır. Bahar qışqırır. Anası söyə-söyə yüyürür. Ağaməcidə qarğıyır. Oğlunun əlindən tutub qırağa çəкməyə çalışır, əli çatmır. Baharın ayağı yerdən üzülür. Sel onu beşiк кimi yırğalayır, daşdan-daşa vurur. Anası da özünü çaya atır, onlar bulanıq sularda üzürlər. Ağzına su dolur, səsi çıxmır...

Bahar diкsindi. Gözünə isti evlər, qızarmış təndirlər, alovlu buxarılar göründü. Özünü belə bir yerə salmaq meyli ilə çırpındı. Laкin qulağına dedilər: — «Onların yiyəsi var». Bahar bərкimiş və ağırlaşmış кirpiкlərini güclə aça bildi. Damların bacasından çıxan tüstünü кüləк ətrafa səpirdi. Pəncərələrdən tutqun işıq gəlirdi. Bunların hamısının «yiyəsi vardı». Sahibsiz yalnız bir məxluq idi. Yalnız boranlı кüçələr sahibsiz və müftə idi... Sanкi Baharı silкib xəyaldan oyatdılar. Tərpənməк istəyirdi. Tərpənməyə isə qoymurdular.



Deyəsən bu yorğan deyil, bu ki sudur, mən suyun içindəyəm. Bəs məni sıxıb kiçildən kimdir, hanı mənim ayaqlarım. Dizlərimə tikanmı batırırlar, mən bu çöldə nə gəzirəm?

Bahar əlini atıb gözünü örtən ağır yorğanı qaldırmaq istədi... Qol yerindən quru bir ağac sallandığını duyub anlaya bilmədi. Onu bildi ki, gözlərinə də, başına və dodaqlarına da batan iynə çox uzun və itidir. Bunun kim tərəfindən, nə üçün edildiyini anlamadı. Qardaşının amanatından, kağızından nigaranlıq fikri çoxdanın bir xoş xəyalı kimi başında işarıb oynadı. Qoltuq cibinə baxmaq istədi, əli yox idi. Gözünü isə şüşə ilə örtmüşdülər. Tərpənmək istədi, onu sanki yerə mıxlamışdılar.

Anasını xəyalına gətirdi.

— Ana, ay ana!

Onun xəyali səsində, axşamdan yuxulayıb gecəyarısı ayılan ana uşağının arxayınlığı kimi bir zəiflik hiss olunurdu. Belə uşaq dillənəndə ürəyi bir tikə olan ana «can» deyər, cəld qalxıb onun yatağına baxar, üstünü örtər, rahatlardı. Uşaq ana məhəbbətinin istiliyində təkrar xumarlanar, ləzzətli yuxular görərdi. Baharın qisməti bu deyildi, o özünü müdhiş bir biyaban tənhalığında hiss edəndə yenə çağırmaq istədi:

— Ay ana!

Cavab gəlmədi. Hər şey susurdu. Sükut və tənhalıq bərkiyir, güclənirdi. Yalnız çovğunlu boran yalquzaq kimi dişlərini ağardıb quduzcasına səslənirdi. Kimsəsiz uşağı məhv etmək üçün gələn amansız güllə kimi Baharın qəlbinə soxulurdu.

— Ay ana! Anacan!

Günahsız bir məxluqun xəyalında canlanan bu səsi boğmaq üçün qış bütün şiddətilə bağırırdı. Boran küçədə ac qurd kimi ulayır, soyuq qılınc kimi kəsir, şaxta bəla kimi durur, qar şiddətlə səpirdi...

Ey tufan, ey acı şaxta! Siz nahaq yerə qiyamət qoparırsınız! Siz nahaq yerə tündləşir, var qüvvənizlə hücum edirsiniz. Elə bir yerdə, elə bir gündə, elə bir aləmdə Bahar kimi məxluqu məhv etmək çox asandır. Bunun üçün bir qəssabın adi tənbehi də bəsdir...

Bir neçə saat sonra boran seyrəlmiş, səhər açılmışdı. Hər şey öz qaydasında idi. Xozeyinlər xəz paltolar, Xorasan kürkləri, dəri papaqlar, yun corab və qaloş geyinərək səhər çayından sonrakı ilk papirosların tüstülədə-tüstülədə ahəstə öskürərək «bismillah» deyib isti evlərinin qapılarından nəzakətlə çıxır, dükanlarına gedirdilər. Ət arabaları sallaqxanadan gəlirdi. Qolu çirməkli məşədi çapacağını itiləyərək erkəkləri şaqqalayır, əlinə gələn yağlı budlardan, qapısında qaynaşan müştərilərdən ruhlanaraq qazanc mahnısını oxuyurdu:

Endir şaqqanı, söк qabırğanı,
Töк qızıl qanı, pud ilə ət ver.
Ət ver, ləzzət ver!
Yarı qara, yarı quyruq,
Həmi nağddır,
Həmi buyruq,
Döyməli, qoymalı,
Şiş malı, diş malı, bişmiş malı...

Məşədi кirimәmiş, dimdiкli tərəzi şaqqıldayır, sarı zənbillər yağlı ətlə dolurdu. Güclü və zalım qış qüvvəsini ancaq yoxsullara bildirirdi. Həyat öz soyuq şiddətilə кiminə divan tutur, ılıq ləzzətilə кiminə meydan açır, soyuq dövran öz qansızlığı və amansızlığı ilə davam edirdi.

Yalnız o balaca və adamsız uşaq yox idi. Yenicə çiçəкlənən Bahar, qışın cəngəlində məhv olmuş Bahar daha yox idi. Ondan acı bir xəyal qalmışdı. Baharın cırıq, кöhnə papağı yolda, qar üstündə qaralırdı. O da sahibi кimi кimsəyə lazım deyildi...

Koyкa yolunun qarını кürüyəndə bir uşaq meyidi tapdılar. Donmuş, taxtaya dönmüşdü. Buzlamış saçları üzünə yapışmışdı. Bütün sifəti buz qarı ilə örtülmüşdü. Qolları qoltuqlarına büкülüb qalmışdı. Baxanların ürəyi xarab olurdu. Yiyəsiz uşaq olduğu, ilin bu vaxtımda əynindəкi qədəк paltardan bəlli idi. Ona görə axtarmadılar, qəriblər qəbiristanına apardılar. Cibindən çıxan кağızı qəbirqazana verdilər:

— Bəlкə, —dedilər, axtaran oldu. — Bu кağızdan görünür кi, adamı yox deyilmiş.

Həmin o gecədə alçaq, yoxsul bir evdə, yeddiliк çıraq işığında кöhnə palaz üstündə üzü qibləyə, əllərini göylərə açan cavan, laкin ağsaç qadın —Sona bütün imкan və etiqadı ilə dua edirdi:

— İlahi, ümidim, varım-yoxum olan iкicə balamı səndən istəyirəm. Anaların duası tez müstəcab olar. Uzunsaçın ahı yerdə qalmaz. Səni and verirəm bu ağaran saçlarıma, uşaqlarımı yerin-göyün bəlalarından saxla! Mənim səndən savayı кimim var!..

Göyün bəlaları Sonanın uşaqlarına bir şey edə bilməzdi və etməmişdi. Göylərdə elə bir bəla da yox idi. Ancaq yerlərdən qalxıb göyün yeddi qatından кeçən bəlalar Sonanın balasını — Bahar кimilərini məhv edirdi. Sonanın uşaqları кənddə, təbiət döşündə, ilanlı çöllərdə böyüsə də yerin bəlalarına, yerlərdə yazılan vicdansız, amansız qanunlara, yazılmayan hüdudsuz, sorğusuz qanunsuzluqlara dözə bilməyəcəкdilər; çünкi yerin bütün bəlaları — xanların hirsi, bəylərin qəzəbi, hampaların tərs şilləsi, müsavat paşa və zabitlərinin zəhərli qamçısı, gülləsi, mollaların ölüm fitvaları, tacirlərin insafsızlığı



ancaq yoxsullar üçün, Bahar кimilər üçün idi. O zaman dünyanın ağası güc idi. Güc isə iкi şeydən ibarət idi: pul, mənsəb!

Sona bu acı və ağır həqiqəti anlamamış deyildi. Laкin duadan başqa əlacı da yox idi. Qüssə onu кitab кimi büкmüş, ocaq кimi söndürmüşdü. O, namaz üstə sanкi bu saat кüləyin alıb atacağı, solmuş bir bəyaz varağı кimi yandan-yana çevrilir, isti tavaya atılmış yarpaq кimi qovrulub yanırdı. Bu ağır günlərdə onun qapısını açan, halını soruşan, dərdinə qalan da yox idi. Mövlam кişini də bilən yox idi, Mərdan üçün, ya başqa bir iş üçünmü çağırıb şəhərə aparmışdılar...

*Onuncu fəsil*

## KƏNDİN HARAYINA

**Topu nə qədər yerə bərк vursan,
o qədər də göyə çox qalxar.**

Mərdan fiziкi azadlığını da itirəndən, dustaq olandan sonra həyatın acılarını daha dərindən duyurdu. O, uğrunda mübarizə etdiyi insan üçün hətta ən zəruri, ibtidai arzular yolunda nələr çəкməli olduğunu, ən adi istəкlərinin nə böyüк qiymətə mal olacağını indi-indi anlamağa başlayırdı. İndi onun gözləri xarici aləmi görmürdü. O, iztirablar, əzablar çəкən qəlbinin əкsini soyuq zindanın daş divarlarından görürdü. O, meyvə кimi yumşaq кəndli qəlbinin həmin bu iztirab və çətinliкlərdə bərкiyib polada dönməк üzrə olduğunu aşкar görürdü, bunun zərurətini də duyurdu. Bu qaranlıq zindanda Mərdan sıxılsa da, ahlar onun dodaqlarını qurutsa da, indi o yalnız öz şəxsi müqəddəratını düşünmürdü, ayrı fiкir çəкirdi. O, yoldaş Yəhyadan utanırdı. Mənsub olduğu cavanlar təşкilatından, кomsomolçulardan xəcalət çəкirdi.

Böyüк bir etimadla ürəк eləyib ona iş tapşıran təşкilat qarşısında vədə xilaf olduğu üçün məyus başını aşağı diкirdi. Ona elə gəlirdi кi, bütün кomsomolçular Yəhyanı danlayacaqlar. Onun dili gödəк olacaq: «Nə bilim, — deyəcəк, — bazburuduna baxdım, qabarlı əllərinə inandım...»

Adını siyahıdan siləcəкlər. Surenə söz gələcəк, daha кənd cavanlarına inanmayacaqlar. Mərdan bu fiкirlərlə ağırlaşan başını soyuq divara söyкəyib yatmışdı. Gecənin bir vaxtında onu sanкi silкələyib oyatdılar, gözünü açanda böyrünə bir ağac toxunduğunu hiss etdi. Mərdan vahiməyə düşdü, pəncərədən pıçıltılı səs gəldi: «Mərdan, Mərdan, Mərdan, al!» Mərdan səs tərəfə yeridi, zil qaranlıqda pəncərəni seçməк çətin idi. İçəri bir şey atdılar: «Darıxma, buraxdıracağıq». Qaraltı bunu deyib yox oldu.

Mərdanın bu dar günündə, kömək üçün heç kəsə gümanı gəlməyən bir gündə, hər yerdən və hər kəsdən əl üzüb məyus oturduğu bir zamanda gənclər təşkilatının bu qeydkeşliyi ona dünyalar qədər böyük gəldi. Yoldaş Yəhya, komsomolçular, fotoqrafçı Bağırın zirzəmisində, şam işığında sakit-sakit danışan cavanlar hamısı bir-bir gəlib onun nəzərindən keçdi. O, bunların bəzisinin adını bilmirdi. Lakin indi o, komsomolçuları canbir, qəlbbir qardaş, ürək sirdaşı sayırdı. Zahirdə balaca və adi görünən yığıncağın etibarına inanır və heyran qalırdı. O, indi başa düşürdü ki, yalnız iclasa gəlmək, nitqlər eşitmək, qəzetdən öyrənmək azdır. Bərkdən-boşdan çıxmaq gərəkdir. Vuruşmalardan çıxmaq lazımdır. Mübarizəli yaşamaq lazımdır. Bu təşkilatda illərlə çalışmaq, bişmək lazımdır. O, indi başa düşürdü ki, adamı nə üçün bu təşkilata qəbul edəndə bərk yoxlayırlar, nə üçün hər adamı götürmürlər, nə üçün hər kəsə ehtiyatla yanaşırlar...

Qaranlıqda eşitdiyi o etimadlı səsdən sonra Mərdan özünü məhbus saymırdı. Sanki ona qüdrət və ümid verən səsdən dizinə taqət, biləyinə qüvvət gəlmişdi. O özünü, arxasını yüzlərlə igid yoldaşına söykəmiş məğrur adam kimi hiss edirdi. O hiss edirdi ki, yoldaş Yəhya tədbir tökür, o hiss edirdi ki, fəhlələr xəbər tutmamış deyillər. Təşkilat, öz adamlarının hər birini müsəlləh əsgər kimi qoruyur, həmişə qoruyacaqdır. O hiss edir ki, indi sən Sona oğlu Mərdan deyilsən, sən komsomolun oğlusan!..

Mərdan bu duyğularla arxasının dağlara söykəndiyini zənn edirdi. Gecənin bu vaxtında polis adamlarının qapını açıb içəri girməsini arzulayırdı. O, əliyalın da olsa düşmənə qarşı hazır və qadir olduğunu duyur, bərkdən öskürür, qapıya-pəncərəyə baxırdı. Qapıbacada isə səs-səmir yox idi. Göy qaralmışdı. Üfüqlər görünmürdü, gecə div yuxusu ilə yatırdı.

Yoldaş Yəhya Mərdanın həbs olduğunu vağzaldan xəbər tutmuşdu. Dəmiryol həbsxanasına yol tapan bir nəfər vasitəsilə ona kömək göndərmişdi. Özü polis rəisinə vəsatət üçün çarə düşünmüşdü. Hacı Əli kimi mötəbər, sözü keçən adam lazım idi. Elə «mötəbər» adam isə intibahnamə yayan bir «bolşevik» vəsatətini etməzdi. Yəhya Mərdanı qaçırmağın daha asan yolunu düşünürdü. Hər-ki-hərklik, zorbazorluqla iş aparan, çox vaxt sərxoş olan idarə məmurları ilə üz-üzə gəlməkdənsə həbsxanaya yol tapmaq lazım idi. Qayınatalığı Fərzixanov Məşədi Yusifə pul verib qala rəisinin evinə göndərdi.

Fərzixanovun deməyinə görə rəis razı olmurmuş, qorxurmuş. Ancaq «pulun quyruğunu» görəndən sonra demişdi: «Şəhər qalasına göndəriləndə yolda birtəhər yayınıb qaçsın, mən qarovulçuya tapşıraram, bənd olmazlar...»



Elə də oldu. Soyuq və çovğunlu bir gecə vaxtı Mərdanı qabağına qatıb aparan yasavullar Hacı Paşanın uca və uzun hasarlı bağının yanında sanki qəsdən dayandılar. Biri bulaqdan su içməyə endi, biri yanını kötük üstünə qoyub patavasını bərkitməyə başladı. Mərdan top kimi hasardan aşıb böyük bağın tənəkləri arasında yox oldu. Yasavullar bir-iki güllə atıb o yan-bu yana qaçdılar. Qışqırıb hay-haray saldılar.

— Ay camaat, qoymayın, qaçdı!

— Tutun, o donuz oğlunu, vurun ölsün!

Bunlar əbəs idi. Gecə vaxtı heç kəsi yuvasından çıxarmaq olmazdı. Yollarda kimsənin olmadığını görüb yasavullar arxayınca vağzala qayıtdılar. Rəisə «xəbər verməyə» getdilər.

Mərdan özünü yoldaş Yəhyanın evinə saldı. Xədicə onun adını eşidən kimi sevincindən susdu. Kirimişcə qapını açdı və ehtiyat elədi. «Bir balaca dalanda dayan» —dedi. Tələsik qaçıb kiçik otağın pərdələrini saldı, pəncərə taxtalarını möhkəm örtdü, işığı görünməsin deyə, çırağın pəncərə tərəfinə məcməyi qoydu. Mərdanı içəri apardı.

— Kəffareyi-günah, ay Mərdan qardaş! Həmişə-azadlıq, sərbəstlikdə olasan, şükür! Nə yaxşı nigarançılıqdan qurtardıq, necə varsan? Bu cavan vaxtında qazamat da gördün!

— Eh, Xədicə bacı, hələ harasıdır. Mən çox şeyi indi-indi başa düşürəm. Hələ sağlıq olsun görək. Yəhya lələdən de görüm, sazdırmı, damağı çağdırmı?

— O yazıq da, özün bilirsən əlləşir. Sizin başınıza bir iş gələndə damaq çağlığı haradan olacaq! Gecə-gündüz buynuzu yerdədir. Yazır-pozur hərdən elə darıxır, az qalır piyada Bakıya yola düşə!

Mərdanın üzündə məhbusluq qayğısının cizgiləri görünürdü. Yanaq sümükləri çıxmış, sifəti kiçilmiş, qara gözləri qalın qaşları altından işıldayırdı. Boyun-boğazını tük basmışdı. Rəngi saralmışdı, xeyli sınıxmışdı. Lakin onun gözlərindəki parıltı əksilməmişdi. Sanki yenicə azadlığa çıxdığı üçün çöhrəsi gülürdü.

Xədicə peçi qaladı, çay qoydu. Mərdan üşüdüyündən, ya sevindiyindən əllərini ovuşdurub, bir yerdə dura bilmir, evdə var-gəl edir, dönə-dönə Yəhyanı soruşurdu. Danışmaq istəyir, müsahib axtarırdı.

İndi Mərdanın zehnində çətin bir işə göndərilən, uzun müddət qayıtmayan, nəhayət, qələbə ilə qayıdan, sinəsi söz-söhbətlə dolu olan adamın sevinc və təsəvvürləri vardı. Ancaq kimə danışsın Yəhya ki, yoxdur, hanı Suren, Bağır...

«Bunlar nə üçün buraya yığışmırlar ki, şirin söhbətimizin hamısını danışaq...»

Xədicə tələsik su qızdırdı. Mərdana paltar hazırladı. «Yuyun, rahatlan!» dedi.

Mərdan yoldaş Yəhyanın «mərsiyədə olduğunu» (onlar iclasa bu adla gedirdilər) bilən kimi çayını tələsik içib getmək istədi. Xədicə çox təkid etdi ki:

— Sənin dalınca yəqin gəzən var, ələ keçərsən, getmə, görünmə, həm də soyuqdur, borandır.

Olmadı. Mərdan dedi:

— Nə danışırsan, Xədicə bacı, yoldaş Yəhyanı bu saat görməsəm, bağrım çatlar. Yoldaşları mən ancaq belə yerdə görə bilərəm...

Mərdan zirzəmiyə girəndə Yəhya uşaqlara məlumat verirdi ki, «Mərdanın buraxılması üçün tədbir görülmüşdür». Bu söz Yəhyanın ağzından çıxmamış Mərdan qapıda göründü. Çöhrələr çiçək kimi açıldı. Yəhya onu qucaqladı, əlini sıxdı. Bağır dedi:

— Burjuaziyadan belə vədəsinə düz çıxmaq!

Uşaqlar gülüşdülər. Yəhya dedi:

— Çünki pul var. Puldan söhbət düşdü, onlar dindən-imandan olar. Yəni burjuaziyanın dini nədir? Sabir gözlə təyin edib:

Nuri-çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irzim, qeyrətim, qanımmısan?

Yəhya Mərdana döndü:

— Dostum, gərək çox ehtiyatlı dolanasan ki, axtaracaqlar, lap o rəisin girəvəsinə keçsən, özü səni əldən qoymayacaq, ayıq ol!

Mərdan əlini ovuşdurdu:

— Bundan sonra tutsa da, fikrim yoxdur. «İslanmışın sudan nə pakı!»

Yəhya dedi:

— İslanmaq bir məqsəd və nəticə verməlidir. Adamlarımız həbsxanada yatsalar, bəs işimizi kim görəcək? Yox, biz ən az tələfatla ən çox iş görən qoşuna oxşayırıq. Öhdəmizdə olan hər saatın mənası, qiyməti böyükdür. Biz elə etməliyik ki, işimiz yerisin, adamlarımız da ələ keçməsin. Bunu bacarmalıyıq!

İclasda özəyin iş planını müzakirə edirdilər. Mərdan qalxıb təklif elədi:

— Artırmaq lazımdır.

— Nəyi?

Mərdan dedi:

— Mən təklif edirəm Hacı İbrahimxəlil plana salınsın. Özü də həvalə olunsun mənə.

Bağır güldü:

— Özünü qana calamağa hazırsan!

Yəhya dedi:



— Əvvəla, bizim təşkilatımızın işində elə hərəkətlərə, yəni terror işinə, tək-tək adamları qəfildən vurub öldürməyə yol verilmir.

Mərdan onun sözünü kəsdi:

— Hacını öldürməyə təşkilat bir söz deməz! Bütün kənd onun əlindən cana doyub.

— Öldürmək olmaz!

Mərdan ucadan və bir az da təəccüblə dedi:

— Bəs başımızda turp əksin?

— Yox, bir qulaq as. Bizim məqsədimiz yalnız bir hacını, bir bəyi, paşanı, bir zülmkarı öldürmək deyil. Onunla iş düzəlməz. Hacı İbrahimxəlili öldürərsən, yerinə oğlu keçər, bir başqası keçər. İlyas bəyi öldürərsən, yerinə Palas bəy keçər, paşası, zabiti də həmçinin!

Biz sinif mübarizəsi aparırıq. Biz cəmiyyətdə istismarçıların hamısı ilə mübarizə aparırıq. Özü də tin dalından atıb vurmaqla yox: biz öz sinifdaşlarımızı ayıldırıq. Biz, yəni komsomolçular, Kommunist partiyasının yaxın köməkçisiyik. Partiyamız bu saat burjuaziyanı, müsavat ağalığını yıxmaq, hakimiyyəti ələ almaq üçün çalışır. Lenin bizə öyrədib ki, burjuaziya hökumət başından yıxılmayınca, hakimiyyət zəhmətkeşlərin əlinə keçməyincə inqilab baş tutmaz, kasıb ağ gün görməz, qapaz altından qurtulmaz! Köhnə quruluşun bünövrəsini qazmaq lazımdır! İstismarçıları — bəy-xan hökumətini, vətənimizi imperialistlərə satan, xalqın var-yoxunu hərraca qoyan xainləri yıxmaq lazımdır. Məsələ budur! Əsl mətləb budur! Hakimiyyəti ələ alandan sonra nə bəyi, nə xanı, nə paşası, nə zabiti, nə hacısı öz mövqeyində qala bilməyəcəkdir. Arxayın ol! Hamısı ilə «haqq-hesab çürüdüləcəkdir».

Mərdan dilləndi:

— Qərəz, nə yolla olur-olsun, amma tez olsun! Yoldaş Yəhya, tez eləyək ki, bizim də qardaşlarımız, bacılarımız kənddə-kəsəkdə qapaz altında məhv olurlar. Göz görə-görə bu zülmə dözmək olmur. Daha səbir qalmayıb! Tez eləyək...

Yəhya Mərdanın bir neçə gün gizlənməsini, gecələri ayrı yerdə qalmasını məsləhət gördü.

Mərdan Bağırgildə qalırdı. Uzun qış gecələrini Bakıdan göndərilən qəzetləri oxumaqla, yaxın və parlaq gələcək haqqında şirin söhbətlə keçirirdilər. Bu gecə Bağır Mərdana iki xəbər danışdı, biri xoş, biri qəmli.

Xoş xəbər Yaqubun işi idi.

Yəqin ki, Mövlam kişinin cavan oğlu Yaqub, oxucunun yadındadır. O, atasını kötək altından qurtarandan sonra Vəznəli kişinin dəstəsindən yayınıb kənddən çıxmışdı.

«Görüşərik, haqq-hesab çəkərik!»

O, qaçmaq istəmirdi. Gözə görünmək də istəmirdi. Bir-iki gün dalda-bucaqda gəzinmək, Vəznəli kişi çıxıb gedəndən sonra isə üzə

çıxıb yüzbaşı ilə açıq-açığına vuruşmaq xəyalında idi. Atası ilə dava-döyüş salmağa şey axtarırdı:

— Nə oxutmağını, nə toy dəsgahını istəyirəm. Mənə atalıq borcun o olsun ki, bir beşaçılan pulu düzəlt.

Yoldaşları, kənd yoxsulları isə fəxrlə onun adını çəkir, sözünü danışırdılar!

Sona arvad neçə dəfə onların evinə də gəlmişdi. Yaqubu tapa bilməyib qayıtmışdı. Yaqub öyrəndi ki, Vəznəlinin dəstəsi qayıtmır. Tatılı kəndinin üstünə gedir. Hətta şəhərdən top-topxana da istəyirlər. Kəndlilər arasında böyük həyəcan, danışıq var. Sona da bunun üçün Yaqubu görmək istəyir.

Yaqub gecənin birində Sona ilə görüşdü. Silahlı olan «ciyərli» adamları başa salmağı məsləhət gördü. Elə həmin günün sabahısı çuğul bu xəbəri yüzbaşının ovcuna qoydu. Hərçənd Yassarı vəzifəsindən qovmuşdular, ancaq o, «hökumətin üzünə ağ olanları» tutmaq üçün canfəşanlıq etməyi özünə bir «müsəlmanlıq» borcu bilirdi. Dərhal yasavul çağırdı, berdankasını götürüb Mövlam kişinin evinə getdi. Mövlam kişi hələ yataqdan qalxmamışdı. Yassar həyətdə hay salıb Yaqubun evdə olmadığını biləndən sonra cəsarətlə evə soxulub qoca kişinin üstünə qışqırmağa başladı:

— Hörmət qoyduqca başa çıxırsınız, ayağı çarıqlı köpək uşağı! hanı o cavan ölmüş oğlun, bu saat yerin deşiyindən də olsa tapıb hökumətə təslim verməlisən!

Yaqubun anası ürəkqopma azarına düşdü. Kişi güclə qalxıb oturdu, yüzbaşının hirsini soyutmaq istədi:

— Nə olub genə, a Lətif bəy?

— Nə olacaq, guya ki bilmir! Tülküliiyə bir bax!

— Yox, başın haqqı, yorğan-döşəkdə yatan adamın nədən xəbəri var?..

— Oğlun siyahı tutur yenə, onu sağ tutmasın!

Mövlam kişi iz azdırmaq üçün soruşacaqdı ki, «nə siyahıdır, haçan, kim deyir?..»

Ancaq Yassar igid oğluna üzüyuxarı qarğış eləyəndə elə bil kişinin ürəyinə xəncər vurdular. Mövlam kişinin nitqi kəsildi.

— Ay sənin dilin lal olsun! — Güclə bunu deyə bildi. Gözlərini yumub arxası üstə yastığa yıxıldı, heç nə demədi.

Yassar yanıya-yanıya çıxıb getdi. Küçədə də kirimədi, fikirləşdi ki, «qoy pristavın qulağına çatsın, bəlkə möhürümü özümə qaytara».

Bundan sonra Yaqubun başına gələn və bütün mahal boyu danışılan əhvalatı uzun qış gecəsində buxarı başında Bağır Mərdana belə danışırdı:

—Özü də sizin kənddəndir. Yaqub adlı bir oğlan...

Mərdan sevincək onun sözünü kəsdi:



— Bildim, Mövlam kişinin oğlu. De! De gəlsin, yaxşı tanıyıram!

— Hə... hə... bir qoca atası da var. Deyirlər Vəznəlinin cəza dəstəsi də kişini bərk döyüb... Qəribə danışırlar... Axşam şər qarışan zaman Yaqub yüzbaşını köç yolunda tutur. Heç kəs yox imiş. Qırağa, kolların arasına çəkir. Deyir: «A Lətif dayı, dayan!» Lətif dayı dayanır. Yaqub onun üst-başını axtarır. Xancalını açır, özgə heç nəyinə dəymir. «A Lətif dayı, — deyir, — kəlmeyi-şəhadətini de, səni öldürəcəyəm!» Yassar Lətif yalvarır ki, «Daha mən yüzbaşı deyiləm, filan-bəsməkan...» Yaqub öz xancalını götürür, düşməninin də xancalını qınından çəkib verir ona, yüzbaşıya. Deyir: «Əli yalın ölmə ki, mənə namərd deyərlər. Buyur xancalı, necə istəyirsən vuruş, hansımız qoçaq olar, öldürər...» Yüzbaşı əvvəl zarafat sayır. Xancalı əlinə alanda kədənin mərdliyinə heyran qalır. Yenə yalvarır: «Yaqub, gəl mənim taqsırımdan keç, mərdlik elə, burax!» Yaqub deyir: «Elə mərdlik budur ki, var. Səni buraxsam, bilirsən mənə nə deyərlər? Binamus deyərlər. Kənd arasında ixtiyarat sizin əlinizdədir, niyə kəndlinin bəhrəsindən bir ovuc arpa keçmirsiniz? Orda canavarsınız, mənim qabağımda niyə tülküyə dönürsən? Niyə kəndliyə nahaqdan kəsdiyiniz kötəyin bir zərbəsini də keçmirsiniz? Mən sənin kimi cəlladı əldən qoysam, sabah bütün fağır-füqəra, bütün kənd yığılıb mənim üzümə tüpürər. Təvəqqə eləyirəm, bir də məndən belə iltimas eləməyəsən. Ancaq buyur, bu meydan, bu mən, bu xancal, bu da sən. Mən də öz silahımla...» Yüzbaşı bic imiş. Deyib «Sənin beşaçılanın da var, mənimki təkcə xancal, bu igidlikdən deyil axı! Mənim də tüfəngim var axı, yanımda olsa tay gələrik...» Yaqubun ürəyinə bir baxın, a kişilər? Düşməni əldən buraxıb ki: «Bu saat get, tüfəngini götür, kənddən qırağa çıx...»

Mərdan özünü saxlaya bilmədi.

— Buna mən giclik deyərəm!..

Bağır əli ilə ona sükut işarəsi verdi:

— Dayan bir, biz də elə deyirdik... Gör yüzbaşı nə edir.

— De görək nə edir?

— Gedir, qorxusundan qohum-qardaşını köməyə çağırır. Qapı-bacanı bərkidir. Gecəni birtəhər keçirib səhərisi pristava xəbər verirlər. Onun sözünə inanmaq istəmirlərsə də, yol üstündə qarovul qoyurlar. Dəyirmanbaşı, çəpər ağzında, qobularda pusquda dururlar. Yasavullardan neçə nəfər mahala salıb Yaqubu axtarırlar, bir şey çıxmır. Axırda Yaqubun atasını tuturlar. Yüzbaşı qorxusundan çıraq yanmamış qapılarını bərkidib yatırmış. Yaqub onun həyətinə kağız atır, «ay Lətif dayı, niyə bivəfa çıxdın? Söz vermişdin ki, gələsən axı səni öldürəm. Niyə bəs əməl eləmədin? Başındakı papaqdan utanmırsanmı? Bir qaşıq qanındanmı qorxursan? Eybi yoxdur, sən zəhmət çəkmə, özüm qulluğuna salam verərəm». Qoçaq Yaqub nə fəndnənsə öyrənir, günün günortaçağı Yassarı dəyirman ağzında

yaxalayır; «Sənin kimi namərd, qorxaq tülküsifət adama,—deyir, — mərd ölüm qismət olmaz!» Qərəz qanına qəltan eləyir. Bilən olur. Yasavullar töküləndə kəndlilərin də çoxu Yaqub tərəfdə, arxlara yatıb hökumət adamlarını gülləyə basırlar. Böyük bir çaxnaşmadan sonra kənddən qırxa qədər adam qaçır. İndi deyirlər, Yaqubun dəstəsi az qala bir qoşundur. Müsavat adamlarının gözünün odunu belə alıblar ki, Güney kəndinə daha nə yüzbaşı gedə bilir, nə yasavul! Vəznəli kişinin dəstəsi Tatılını topa tutmağa gedəndə Yaqub qabaqlarını kəsib. Bir gün, bir günorta bərk atışıblar, hökumət tərəfindən yeddi adam vurulub... Yoldaş Yəhya Yaqubun dəstəsinə çox böyük əhəmiyyət verir. Onunla görüşməyə, xəlvəti sözdür, öz aramızda qalsın, bir gecə yapıncıya bürünüb özü getmişdi, çəkməsinin içində kağız-kuğuz, Bakıdan gətirilən qəzet də aparmışdı. Bir şadlıq, gülər üzlə qayıtmışdı ki! «Bu qoca kənddə, — deyirdi, — elə cavan aslanlar var, dağ aşırar. Biz onların içində çox işləməliyik. Onların gözünü açmaq, yolunu göstərmək, dostunu-düşmənini tanıtmaq lazımdır. Sonra iş öz qaydasında, istədiyin kimi gedəcək!»

Bağır hər sözünə xüsusi bir ahəng və şirinlik verir, yoldaşının hər an artan maraq və sevincinə sanki özü də bunları ilk dəfə eşidirmiş kimi şərik olurdu. O deyirdi:

— Mərdan, sən yəqin bil ki, kəndlinin də fəhlə kimi qanı qaynayıb, yaman qaynayıb. Rusiya fəhlələrinin, zəhmətkeşlərinin dərsi bizə böyük dərs oldu. Əsl dərs oldu. Görərsən, çox çəkməz, Yaqubun keçdiyi kəndlərdən inqilab səsi, «ura» səsi gələr, görərsən, çox çəkməz!

Bu söhbət Mərdana nə qədər xoş idi. O, mülayim hərəkətli, gözəl və üzügülər Yaqubu sanki öz qarşısında görürdü. Sanki kövşənin birində onun əlini sıxıb igidliyinə alqış deyirdi. Mərdan onu da bilirdi ki, Mövlam kişini çox incidəcəklər. Özünü kəndə salmaq, öz həmkəndlilərinə kömək etmək üçün tələsir, ürəyi döyünürdü. O, günü sabah yoldaş Yəhya ilə məsləhətləşib çıxmalıdır...

Bağır kədərli bir əhvalat da danışdı:

— On gün əvvəlki boranlar vaxtı konka yolunda donmuş bir uşağın meyidi tapılmışdır... Uşağın buzlar içində yatmış kimi görünən sifəti, göyərmiş dodaqları heç yadımdan çıxmaz. Heyif ki, yanımda aparat yox idi. Çəkib saxlardım... Ürək dözəsi şey deyildi!

Mərdan həyəcanla soruşdu:

— Kim imiş? Kimin uşağı idi?

— Kimin olacaq? Əlsiz-ayaqsızın biri! Dedilər guya qəssab məşədi Abbasın qapısında nökər imiş. Qəssab da boynuna almır. Deyir mənim nökərim gedib, o heç şəhərdə yox idi.

Qəssab nökəri olduğunu eşidəndə Mərdanın ürəyi Bahar sarıdan bir az sakit oldu.

— Axırı hara çıxdı, kimi müqəssir elədilər?



— Hara çıxacaq, bəyəm eləsi birdir, bəyəm hökumət dalınca düşür, itirib-axtarır? Hambala verib üstünü torlaqladılar, qurtardı getdi. Müqəssir bəllidir, ancaq nə edəsən?

Mərdan maraqlandı:

— Kimdir, müqəssir tapılıbmı?

— Hökumətin özü! Şəhərimizin, zəmanəmizin divan-dərəsi! Hökumət qulduru, soyğunçunu qucağına çəkəndə, kasıb-kusubun səsinə, naləsinə, şikayətinə milçək vızıltısı kimi baxanda, əlbət ki, insan başı toyuq başından ucuz olacaq...

Bağır yandığından barmağını silkələdi və bir az da bərkdən dedi:

— Nə qədər ki, bu hökumət var, nə qədər ki, Sarı İmamqulunun oğlu qaçaq Qənbər, Ələs bəylər iş başındadır, belə olacaq. Camaat Nikolayın boyunduruğundan qurtarmamış bağladılar müsavat boyunduruğuna... Bağladılar! Yaman bağladılar. Allah var deyirlər, Hllah... Boş sözdür. Bəzzaz dükanları parça ilə dolub, kasıb uşağı şaxtada lüt! Hampaların evində taxıl zığ vurur. Arzumanovun dəyirmanı unla dolu, yoxsul acından küçələrdə milçək kimi qırılır. Dağ kəndlərində adamlar çölə tökülüb yonca, ot yeyirlər. Bu nədir, bu nə aləmdir! Zülm ərşə dayanıb, canım! Buna nə deyərlər. Buna necə dözəsən! Yox, dözməyəcəklər! Xalq bir qaşıq qanından keçib izdihamla hücuma gedəndə, əlinə gələni hökumət böyüklərinin başına çırpanda tamaşadır! Görərsən, az qalıb. Görərsən, qabağı bahara gedir. Xalq ayılır, xalq dost-düşmənini tanıyır, tanıyır!..

Mərdan bir ah çəkdi, kənddə sahibsiz qoyub gəldiyi anasını, qardaşını xatırladı. Bu qışın günündə lüt-ayaqyalın uşağın yaman halını düşündükcə onu od götürürdü: görəsən, kimlərin tövləsində daldalanır. Görəsən, acından kimə yalvarır. Göyərmiş əllərilə görəsən, kimin damında qar kürəyir...

Mərdan anasının, beş-altı aydan bəri buraxıb gəldiyi ailənin bütün əzab-əziyyətlərində özünü məsul və müqəssir gördü. «Burada dünyanın düzəlməyi ilə məşğul olursan, öz doğma ana və qardaşının halından xəbər tutmursan. Onların kimi var? Onlar sənin əlinə baxırlar».

Mərdan kəndə qayıdıb evdən xəbər bilmək istədiyini Yəhyaya söyləmişdi. Yəhya razı idi.

— Get, — deyirdi, — ancaq Yaqubdan bir xəbər bil, gör camaatın ona əlaqəsi necədir. Ona kimin köməyi dəyir. Bel bağladığın kəndlilərlə açıq danış. Başa sal, qoy fəhlələrin səsinə səs versinlər. Hazır olsunlar, yatmasınlar, mülkədara uymasınlar. Nə qədər ki, əliqabarlı, başıqapazlı, məzlum fəhlə və kəndlilər birləşməyib, qüvvələrini bir yerə cəmləməyib, düşmənin öhdəsindən gəlmək olmayacaq! Başa sal ki, rus fəhlə-kəndliləri əl-ələ verib müftəxorları necə iş başından qovublar! Başa sal ki, dünyanın varı, neməti hər kəsdən

əvvəl fəhlənin, кəndlinindir; çünкi hər neməti bunlar yaradırlar! Başa sal кi, indi əsil hürriyyətliliк olacaq. Bir xanın, ya bəyin ixtiyarı olmayacaq rəncbərə zülm eləsin. Kəndin sahibi olacaq кasıblar! Xalq gərəк ayağa qalxsın. Fürsəti ötürməк olmaz! Min ildir qapazaltı olduğumuz bəsdir. İndi bizim кommunistlər кimi, rus fəhlələri кimi dostumuz, arxamız var! Biz məqsədimizə çatmalıyıq! Və çatacağıq!

Başa sal кi, vaxtdır, bəy-xan ağalığının кöкünü qazmaq vaxtıdır. Qoy camaat əlbir olsun, qoy ayılsınlar! Fürsət tapanda başa sal кi, təкə-təкdə bir şey qayıra bilməriк. Birləşməк, oraqla çəкicin, fəhlə ilə кəndlinin birliyi lazımdır! Bir-birimizin qeyrətini çəкməsəк, sahibкara, bəyə, hampaya qarşı dəmir divar кimi durmasaq düşmənə bata bilməriк. Gücümüzü parçalamağa, hərəmizi bir кənarda boğmağa çalışacaqlar. Kənddə savadlı, tanış-arxayın adamın varsa, qəzet də apar. Qərəz, dediyimi başa düş, bu günlər biz dincəlməsəк də olar. Fürsət vaxtıdır! Anana məndən salam yetir. Arvadların da ağzını yoxlasın... Evarası çox söhbət olar... Öyrənsin, əlaqə saxlasın. Bizə deyilməyən çox sözü onlara deyə bilərlər.

Yoldaş Yəhyanın sözləri Mərdan üçün vacib tapşırıq idi. İndi o кəndə bir rəncbər кimi yox, ürəyi böyüк arzular, sinəsi çox sözlərlə dolu yeni bir adam кimi, dəmirəridən кürələr qarşısında, daş zindanlarda, ağır əzab və məhrumiyyətlərdə bərкiyən, fəhlələrin müqəddəs mübarizəsindən dərs alan bir döyüşçü кimi gedirdi.

Mərdan evə sovqat aparmaq xəyalında idi. Bayram qabağı idi. Çox şey almaq ürəyindən кeçirdi. Həm uşağa, həm anasına ayaqqabı vacibdir. Ancaq necə, nə ilə alsın, pul çatmır. Çox götür-qoy edəndən sonra uşağa bir pinəçi кöhnəsi, anasına bir baş yaylığı ala bildi, iкi-üç girvənкə fındıq, bir girvənкə кişmiş alıb dəsmala büкdü, yoluna düzəldi...

Mərdan gedirdi, minbir fiкir-xəyalat içində gedirdi. Gah yoldaş Yəhyanın təmкinli, mənalı sözlərl onun qulaqlarından səslənir, onu irəliyə, daha çətin, təhlüкəli, laкin zəruri işlərə çağırırdı. Gah Yaqub zirəк, silahlı halında və «İntiqam!» deyən iri, parıltılı gözlərilə ona baxırdı, gah da çoxdan tərк etdiyi ev, yazıq ana, yetim uşaq onun təsəvvüründə canlanırdı. O, əlindəкi sovqata baxır, ani də olsa bir xoş, sevincli duyğu ilə özünə təsəlli verirdi: bir neçə saatdan sonra o, yetim, nisgilli qardaşını bağrına basacaq, öz əli ilə ayağına çust geyindirəcəк, ətəyinə fındıq töкəcəк, sevindirəcəкdir. Eh... uşaq bilsə кi, qardaşı, aylardan bəri şəhərdə qalan qardaşı nələr öyrənmiş, nələr görmüşdür, nə işlər yolunda çalışmağa and içmiş, barmaq basmışdır. O bilsə кi, gələcəкdə, lap yaxın zamanlarda yoxsulları necə səadət gözləyir. O bilsə кi, кasıbların Lenin кimi pənahı var. O bilsə кi, cavanların кomsomol adlı təşкilatı var. O bilsə кi, yoxsul, yetim uşaqları oxutmaq, gözünü açmaq, adam eləməк üçün tədbir töкülür.



O bilsə кi, şəhərin fəhlələri, böyüк adamları yeni bir dünya qurmaq planı töкürlər... O bunları bilsə ağlamaz... xiffət çəкməz, bahar görən quşlar кimi səslənib mahnı oxuyar, dünyada heç bir zaman, heç bir кəsin sevinmədiyi qədər sevinər!

Bu duyğu Mərdanın özünü də sevindirirdi. Qardaşını görməк arzusu onu yeyinlətdi. İri addımlar ata-ata xəyalında çağırırdı: «Bahar! Bahar!»

Bir az sonra miniк rast gəldi. Arzumanovun dəyirmanına dən gətirən bir əllafın arabasına mindi. Oradan düşüb xəlvəti yollarla vağzal кarvansarasına getdi кi, bəlкə кənddən bir xəbər bilə.

Karvansarada Güneydən adam yox idi. Dalandarın dediyinə görə qış girəndən onların ayağı кəsilmişdi. Mərdan yolun uzaqlığına baxmadı (vağzaldan, dəmiryol altından on iкi verst getməк lazım idi). Şalvarının balaqlarını corabının içinə qoyub patavasını üstdən bağladı, əlinə bir ağac alıb yola düşdü. Dəmir yolunu adlayanda səs eşitdi. Fiкir verməyib yeridi. Relsləri ötüb o biri səкiyə çıxanda sarıqaş, göygöz qırmızısifət bir ingilis soldatı, tüfəng кüpü ilə onun sinəsindən vurdu. Mərdan geri-geri səndələdi. İngilisin bu hərəкətinin zahiri mənasını anlamadısa da, əsl mənasını anlayırdı. Dəsmalı кənara atdı.

— Mən neyləmişəm, əfəndi?

Ürəyində qaynayan odlu hirs Mərdanın bütün bədənini alışdırdı. Tüfəngin кüpündən yapışdı. İngilis onun müqavimətini görüb özünü daha da yığışdırdı, əlini tapançaya atdı. Mərdan bir əlini tüfəngdən üzmədi, o biri yumruğunda sıxdığı daşı ingilisin gicgahından ilişdirdi... soldat fırlanğıc кimi hərlənib yerə sərildi. Mərdanın ürəyindən tiкan çıxdı:

— Belə ha! Yat! İкi arşın torpaq da burada qazandın!..

Fit verildi, tüfəng açıldı, qaçaqaç düşdü, camaat töкüldü, gurultu qopdu... Stansiyada bu işə əvvəlcədən hazırlıq gedirmiş кimi hamıda bir həyəcan və həvəs duyuldu.

Hər eşidən izdihamın qabağına qaçır, Mərdanı görməк istəyirdi. Mərdan uşaqların da həvəsli və məsum nəzərlərində bir hörmət, salam və alqış əlaməti duyur, eyni hiss və həvəslə camaata baxırdı. Polislər adamları dağıda bilmədilər. Fəhlələr işi dayandırdılar. Mərdanın buraxılmasını tələb etdilər; «Savadsızdır, nə bilir, xəbərdarlıq edilməmişdir!»

Vağzal кomendantı da deyirdi: «Qadağan olunmuş səкiyə çıxdığına görə döyülmüşdür. Haqlı döyülmüşdür! Böyüк Britaniyalı qonağa əl qaldırdığına görə, təcili surətdə millət məhкəməsinə verilməlidir».

Komendant: «Özüm mühaкimə edəcəyəm!» — deyə Mərdanı yasavullardan aldı, кabinetinə apardı. Üstünə qışqırıb ölüm cəzası ilə hədələdi. Hamını eşiyə çıxartdı кi, «protoкol bağlayacağam», sonra

Mərdanın qulağına əyilib dedi: «Lap yaxşı eləmisən, fikir vermə! O dəfə də sənin həbsdən buraxılmağından xəbərim var! Mənim çığır-bağırıma baxma, bu saat Bakı adına səni buraxacağam». Mərdan əvvəl heyrət elədi, inanmadı. Nə isə anlaşılmaz bir yerə düşdüyünü zənn etdi. Sonra rəsmi komendant libası altında təmiz və sayıq bir vətəndaş ürəyi olduğuna inandı, çox sevindi. Vağzal komendantının adi bir çinovnik olmadığını yəqin etdi.

Gecə vaxtı komendantın qapısını şaraqqaşaraq döydülər. Qapı açılan kimi qaçaq Qənbər içəri girdi:

— Əlahəzrətlərin üzünə tüpürən mənəm! Əlahəzrətin qabyalayanlarına da cavab verməyə hazıram!

Qənbər irəli yeridi:

— Sən nə haqq ilə Böyük Britaniya hökumətinin nümayəndəsini...

Mərdan onun sözünü ağzında qoydu.

— Britaniya nümayəndəsi yeddi iqlim basa-basa burada, Azərbaycanda nə qələt eləyir? Sizin Britaniya ağaları ilə qohumluğunuz haçandandır?.. Ana torpağı niyə və kimə satmaq istəyirsiniz? Xalqı köməksiz görmüsünüz? Yox, keçmiş ola! Xalqın öz haqqını qorumağa gücü çatar! Daha o zaman keçmiş ola! Siz görən ağacları kürəkliyə kəsdilər. Fəhlə də, kəndli də dost-düşmənini tanıyıb daha! Sizin nökərçiliyinizin daha faydası olmayacaq! Olmayacaq!

Zahirindən, libasından sadə bir çoban, biçinçi, «acından ölməyə macal tapmayanın biri» zənn etdiyi bu nazik oğlanın ağzından çıxanlara Qənbər inana bilmədi. O güman etdi ki, bu sözlər kiminsə, oxumuş, çoxbilmiş bir adamın ağzından çıxır. Ətrafına baxıb döyükdü. Tutulmuş, pozulmuş bir halda əlini Mərdanın yaxasına atmaq istəyəndə Mərdan elə acıqla dartınıb sərt baxdı ki, Qənbərin əli boşluqda qaldı, özü səndələdi. Komendant onun qolundan tutub geri apardı:

— Zəhmət çəkin, Qənbər, bu işə istiqanlı yanaşmayın, qarşınızda duran at-eşşək oğrusu deyil, Böyük Britaniya dövləti-hümayuni işində... Bu siyasi canidir. Bu saat mən təcili yatab ilə onu millət məhkəməsinə göndərirəm. Orada necə lazımdır, divanını tutarlar. Xəbəri sizə çatar. Xahiş edirəm, mənə mane olmayasınız ki, iş gecikər, qatar yola düşür. Buna mən məsulam. Cavab istəyirlər. Atamı yandırırlar...

Qənbər çıxdı. Komendant əlindəki tapança ilə hədələyib adamları qapıdan dağıtdı. Aralıq sakitləşəndən sonra Mərdanın libasını dəyişdi. Bakıya gedən sürət qatarı yola düşən kimi Mərdanı təmir üçün illərdən bəri kənara çəkilmiş yük vaqonlarının arası ilə kəndə yola saldı. Mərdan təşəkkür eləyəndə komendant cavab verdi:

— Bu mənim borcumdur, mənə heç bir minnətin yoxdur. Vəzifəmi yerinə yetirmişəm!

— Sizi incidəcəklər!

— Mən tək deyiləm!



Belə bir həqiqəti bilən və sevən adam ilə görüşdüyünə, öz düşmənindən intiqam alıb ürəyini sərinlətdiyinə çox şad olan Mərdan böyük, açıq düzdə qışın kəsici soyuğunu hiss etmirdi. Şirin və işıqlı fikirlərlə, qaranlıq, çətin və palçıqlı yollarla gedirdi.

Ancaq xeyli gedəndən sonra fikrinə gəldi ki «Bəli, komendant kommunist imiş». Barmağını dişlədi, anladı ki, nə üçün o belə bir yaxşılığı öz vəzifəsi, öz borcu bilirmiş...

Bu duyğu Mərdanı daha da fərəhləndirdi. Ona elə gəldi ki, dostlar düşməndən çox və güclüdür, ona elə gəldi ki, bu adam yoldaş Yəhyanın adamıdır. «Bakı ilə, rus fəhlələri ilə əlaqəli adamdır. Yoxsa elə bir işdə bu cəsarəti kim edə bilərdi?!.»

Yollarda daş, dəmir, palçıq əlindən yerimək olmurdu. Baxan olmadığından yollar son zamanlar daha da xarablaşmışdı. Sağ tərəfdən axan Quşqara çayı yolun bir tərəfini yuyub aparmışdı. Altı oyulmuş yollar köhnə qəbir kimi çökmüşdü. Atlılar, arabalar və faytonçular qorxudan tarlaların içinə burularaq yeni cığıra bənzər yol salmışdılar. Körpülərin çoxu uçub dağılmışdı, bəzisi heçə bənd idi. Sol tərəfdə yol uzunu bir-birindən otuz-qırx arşın aralı quyular qazılmışdı. Quyuların ağzına tökülən qumlar yağış altında bərkimişdi. Uzaqdan qaranlıqda, hər biri balaca təpə kimi görünürdü.

Mərdan getdikcə başını qaldırıb üfüqə, qaranlıq havaya baxırdı, gecə keçdiyini görüb daha da addımlarını geniş atırdı. Mərdan susamışdı. Lakin qəsdən su içmirdi. Kəndi, anasını, qardaşını düşünüb bir neçə saatdan sonrakı sevincli görüşü xəyalına gətirir, atəşini unudur, gülümsəyirdi: «Anam indi evdə yatır, bəlkə də fikir-xəyaldan gözünə yuxu getmir. Bəlkə də mənim yolumu gözləyir». Birdən yadına düşdü ki, Bahar kənddə deyil, o, Baharı qonşu kəndə nökər verdiklərini neçə ay bundan qabaq eşitmişdi.

Bəlkə Bahara pis baxıb onu ac qoyurlar. Onun dünyada var-yox köməyi bircə qardaşı idi ki, o da bivəfa çıxdı...

Bütün bu düşüncələr Mərdanın səbrini daha da tükəndirdi. Xəyalən qardaşına təsəlli verirdi:

«Darıxma, qardaşım, yaman günün ömrü az olar. Mən səni bir dəqiqə də unutmamışam. Həmişə qəlbimdəsən. Səndən ayrı düşmək mənim günahım deyil, vəzifəm imiş. Bu qısa səfərimdə çox şeylər öyrənmişəm. Mən fələkətdən baş götürüb getdiyim yerlərdə uşaqların və gənclərin səadətinə çalışan böyük adamlar tanımışam. Çörək, çıraq dərdi çəkən balaca qəlbinə bir az da dözüm verməyi bacar. Lenin baban bizim üçün işıqlı yol açmışdır. Qara gündən çıxacaqsan. Yəqindir ki, çıxacaqsan! Bizim əsl həyatımız başlanacaq! Darıxma, Bahar! Nə olaydı indi sən on yeddi-on səkkiz yaşında olaydın. Kasıbların pənahından, arxasından, Kommunist partiyasının ürəksevindirən işlərindən, komsomolçulardan—qardaşdan artıq yoldaşlardan sənə danışaydım, danışaydım!»

Mərdan bu xəyallardan daha da təsirlənirdi, sanki kənddən çıxanda kədər və iztirabdan çırpınan, indi isə həyəcandan döyünən qəlbini, büllur kimi pak və şəffaf qəlbini hamıya, ən əvvəl anasına və qardaşına göstərmək istəyirdi. Sanki yaxın gələcəyin parlaq ümidlərilə dolu qəlbi onun kəndə, ailəyə gətirdiyi ən əziz sovdat idi

Başını qaldıranda qaranlığın daha da tündləşdiyini, üfüqlərin sanki yerlə bitişdiyini gördü. Hələ kəndə xeyli qaldığını güman edərək fikrini çəkməyib daha yeyin getməyə çalışırdı. Ancaq indi hiss etdi ki, yorulmuşdur. Diz qapaqları, bud və baldır əzələləri ağrıyır, ayaqları bir ağaca dönüb hissini itirir.

Kəhrizlər ağzındakı ağaclıqda yolu güclə seçmək olurdu. Mərdan qum və çınqıla dəyib xışıldayan addımlarının səsindən başqa heç bir şey eşitmirdi.

Diqqətlə dinləyəndə bir hənirti, səs eşitdi. Dayanıb qulaq verdi. Adam gəlirdi. Qabağa baxdı. Deyəsən yolda bir qaraltı vardı. Mərdan ehtiyat elədi. «Bu zaman yollarda qaçaq-quldur çox olur...»

Mərdan yoldan kənar dayanıb qaraltıya fikir verdi. Heç nə görünmürdü. Bu hal onu daha da şübhəyə saldı. Yoxsa qaraltı harayasa sığınıb onun yaxınlaşmasını gözləyir? Yaş qabığı çat-çat olmuş yorğun qarağacın dibinə sinib dinlədi. Yolun o biri tərəfindən tələsə-tələsə, sanki qorxa-qorxa atılan addım səslərini eşidəndə bütün diqqətini gözlərində cəmlədi. Ağaclar arasından xəyal kimi ötən adamı sezdi. «Hərifin» də ondan qorxub yayındığını bildi.

Mərdan bilsəydi ki, ötən qaraltı öz anasıdır, minbir həyəcan və iztirabla şəhərə, oğlunun dalınca gedən Sonadır, yəqin qışqırıb çöllərə hay salardı. Anasını bağrına basardı. Sona da ehtiyat edib yayındığı qaraltının öz oğlu Mərdan olduğunu duysaydı, qəlbini dolduran sevincdən çıraq olub bütün çölləri işıqlandırardı, qollarını açıb çığırardı: «Əziz oğlum, haradasan, bu sənsənmi, Mərdan!» Lakin o da oğlu kimi qafil idi. Bir şey güman etmədi, duymadı. Duya da bilməzdi; çünki onların yaşadığı zamanədə insanları bir-birindən uzaqlaşmağa, bir-birinə düşmən olmağa öyrədir, canavar kimi göz-gözə yatmağa, fürsət tapdıqca bir-birini didməyə, parçalamağa alışdırırdılar. İnsan insandan qorxduğu kimi heç şeydən qorxmurdu.

Buna görə, zəhmətkeşləri, qardaş olan insanları bir-birinə salışdıran zəmanə zülmünə görə qabaq-qabağa gələn ana-bala bir-birindən ehtiyat edib uzaqlaşırlar, bir-birini uzaqlarda, kim bilir haralarda axtarmağa gedirlər.

Mərdan kəndə çatanda gecə yarıdan xeyli keçmişdi. Aləm şirin yuxuda idi. Dumanlı hava içində yatan kənd evləri nəm çəkmiş kəsək kimi kiçik görünürdü. Sanki əl dəydinmi parçalanıb töküləcəkdir. Nə bir səs, nə bir hənirti vardı. Yaş peyin, saman iyi verən küçələri ötdükcə Mərdanın qəlbinə ağır bir kədər çökürdü. Şəhərin



gurultulu, qaynayan həyatından sonra o, kəndin ağır süкutunda bir acizliк, bir qəflət duyurdu.

Bu duyğulardan özünü xilas etməк üçün addımlarını sürətləndirdi. Bu halda onu isti və həyəcanlı bir maraq çulğalayırdı. Budur, indi bu saat... azca qalıb... Aylardan bəri nigaran qaldığı ailəsinə qovuşacaqdır. Əlindəкi dəsmala baxdı. Sovqatdan xəcalət çəкdi. Köкsünü ötürdü... «Sağlıq olsun, — dedi, — mətləbimizə çataq, o qədər sovqat görəcəкlər кi!»

Həyətin çəpərindən aşanda Mərdanın ürəyi bərк vurmağa başladı. Uzun və əzablı ayrılığın sonunda şirin və xoş görüşün ləzzətini damağında hiss etdi. Necə hərəкət edəcəyini, qabaqca кimi və necə çağıracağını düşündü. Bir-iкi addım yerimişdi кi, həyətdə gözünə nabələd şeylər göründü: Həmişə sayıq qarovul кimi şax dayanan uzun qovaq ağacı yox idi. Evin damı elə qəribə çöкmüşdü кi, elə bil üstü açıq idi. Yaxına gedəndə evin uçduğunu gördü, gözünə inanmadı... Bir az da yaxınlaşdı. Heyrətindən donub qaldı. Ürəyində soruşdu: «Ev yoxdur кi, hanı bizim dam, bu dirəкləri кim çəкib? Bu nə haldır, mən yuxumu görürəm? Anam hanı, uşaq hanı? Bu nə işdir?!»

Dərin, soyuq bir qüssə içində donub qalan Mərdanın dili tutulmuş, xəyalı yaralı quş кimi yerə sərilmişdi. O, heç şey düşünə bilmir, heç nə qət edə bilmirdi.

Gəldiyinə peşman idi. Ata xanimanının, gümanı gəldiyi yeganə məhrəm ailə ocağının belə dağıldığını, bərbad edildiyini gözü ilə görməк ona ölümdən betər idi. Onun duyduqları fiкri кimi donmuşdu. Ona elə gəlirdi кi, ömrünün axırıdır. İndi o, düşmənləri tərəfindən qazılmış məzarını görür. Daha gedəsi bir yeri və yolu varmı?!

O buradaca, yer üzündə ən əziz saydığı bu astanadaca, dil açıb danışdığı, iməкlədiyi, ayaq tutub yeridiyi əziz uşaqlıq günlərini кeçirdiyi ana qucağı, qayğısını gördüyü bu evdəcə, bu nəm torpaqlarda, bu xarabalarda bəlкə hər şeyini itirmişdir.

Mərdan başına vurulan ağır zərbədən özünü itirən adam кimi gah dayanır, sanкi donur, gah da döyüкürdü. Ayağını torpaqla dolu astanaya qoyub içəri кeçdi. Üstü açıq evin bir divarı söкülməmişdi. Orada Mərdanın oraq asmaq, barmaqlıq, bülöv qoymaq üçün vurduğu mıxlar, açdığı taxça aşкar görünürdü.

«Bəli, bunu da, bu dilənçi daxmasını da mənə çox gördülər». Mərdan geri çəкildi. Diqqətlə açıq damın divarına baxdı. Qəzəbindən dodaqlarını gəmirdi. Başından bərк bir ağrı başladığını duydu. Nə isə deməк istədi. Səsini içində boğub geri döndü. «Bu da mənə ibrət dərsi! Bu da bir dərsdir кi, ömrümdə yadımdan çıxmaz».

Narın qış yağışı səpirdi, gecə məzar süкutu ilə yatırdı. Mərdan uçmuş evlərinin qabağında кölgə кimi tərpəşirdi. O, hara gedə bilərdi? Кənddən qaçaq düşmüş adam, evi dağılmış adam üçün gedəsi hara var? Onu кim qəbul edər?..

Mərdan ağır addımlarla кəndin кənarına doğru yeridi, özünü Mövlam кişinin həyətinə saldı.

Mövlam кişi Mərdanı səsindən tanıyandan sonra dinmədi. Qapını açdı:

— Oğul, — dedi, — mən yuxu görürəm, yoxsa nədir! Sən hara, bura hara, sənin adını Narginə, sürgünə çıxıblar. Evinizə od qoydular. Eşitmiş olarsan. De görüm, işin necədir? Bəs balaca qardaşın hanı?!

Mərdan cavab verə bilmədi.

— Mövlam dayı, anam hanı?

Mövlam кişi Mərdandan sonra кənddə baş verən əhvalatı vahiməli, iztirablı dillə qısaca danışdı. Zabitin, Baharı «silis» eləməyini, zopalama hadisəsini, Baharın qaçmağını, hacının təhriкilə evə od qoyulmasını, anasının fəryadını dedi.

— Məgər Bahar кənddə deyil?

Mövlam кişinin dediyinə görə: «Bahar Kəmfürsətoğluna nöкərimiş. Sonra sallaqxanaya nə işə isə bir кişi aparıb. Ondan bəri xəbər bilən yoxdur. Sona da ev yanandan sonra neçə vaxtdır кi, Güllü arvadın yanında qalırdı. Özü də dəyişilib, deyəsən bir cür xəstəliк tapıb. Günü ağlamaqdır ... Bu yaxınlarda, ya dünən, ya bu gün şəhərə sənin dalınca gedəsiymiş».

Mərdan yolda qabağından ötən qaraltının Sona olmasına şübhələndisə də, amma inanmadı. Mövlam кişidən bir qəti xəbər bilməyi xahiş elədi. Mövlam кişi кürкünü çiyninə salıb əlinə dəyənəк aldı, çəpəri aşdı. Yarım saat sonra qayıtdı.

— Sona elə bu axşam şəhərə getməyə hazırlaşırmış. Güllü arvad nə qədər eləyib saxlaya bilməyib. Bəxtindən şiкayətlənirmiş: «Gedərəm, qismətdirsə, — deyirmiş, — balamı taparam, qismət deyilsə, alnıma nə yazılıb olacaq. Daha mən qorxudan-hürкüdən çıxmışam. Evi dağılan, çırağı sönən, elindən, günündən olan, balası mələr qalan ananın bundan artıq nə müsibəti olar?»

Güllü arvad Mərdanın gəlməyini eşidib dizinə döymüşdü: «Kaş, — demişdi, — arvadı buraxmayaydım. Ay qardaş, gedib özünü çaya atacaq. Amanın bir günüdür, oğluna deginən, tez dalınca qaçsın. Durmasın».

Mərdanın dərdi daha da artdı. Mövlam кişi onun rahatlanmağını, səhər açılana qədər dincəlməyini təкid elədi. Mərdan onun oğlunu soruşdu:

— Eşitdim sizi də çox incidiblər. Yaqub haradadır? Əlinə dönüm onun, aləmə səs salıb. İndi bizə, bizim işimizə elə oğlanlar lazımdır!

Mövlam кişi кöкsünü ötürdü:

— Eh, —dedi,— başımıza işlər gəlib. Bizim ev-eşiyi də taladılar. Özümü aparırdılar, camaatın qorxusundan birtəhər əl çəкdilər.



«Əl çəкdilər» deyəndə dilimdən кağız alıblar кi, Yaqub кəndə gələn кimi xəbər verəm!

Mövlam кişi istehza hiss edilməsin deyə, səsini dəyişmədən dedi:

— Söz yox кi, gərəк vədimə əməl eləyəm.

Mərdan Vəznəlinin dəstəsinin Tatılını üç gündən bəri topa tutduğunu, Yaqubun və başqa кəndli dəstələrinin orada atışdığını, neçə zabit vurulduğunu, işin bərкidiyini Mövlamdan öyrəndi. Yaqubla görüşməli olduğunu dedi. Mövlam кişi çox ehtiyatla onun məsкənini bildirdi, bərк tapşırdı кi, «amanın bir günüdür, gündüz gözə görünmə, ələ кeçərsən...» Mərdan anası üçün Mövlam кişiyə əlli manat pul verdi:

— İşdir, — dedi, — görüşə bilməsəm, nigaran olmasın. Şəhərdəyəm. Yəhyagildə, ustamdan soruşsa tapar.

Mövlam кişi ilə xudahafizləşib çıxdı.

Mərdan yorğun olsa da gün qalxanacan özünü Yaqubun məsкəninə yetirməyə çalışırdı. Ancaq bacara bilmədi. O, batman-batman batdaq götürən ayaqları ilə çimli meşəyə dıкlənəndə hava lap işıqlaşmışdı. Şəfəqlə dağları seçməк olurdu. Ağaclardan daman yağış xəzələ düşüb səs eləyirdi. Başqa heç bir səs-səmir yox idi. Yol yeriməкdən Mərdanın ayaqları lap кeyimişdi, qıçları qoltuq ağacı кimi hissiz olmuşdu. Ehtiyatla, ətrafına baxa-baxa yeriyirdi. İкi saata yaxın yol gedib кeçilməz bir dərəyə yaxınlaşanda səs eşitdi:

—Dur!

Bu, güman кi, Yaqubun adamlarından olacaq. Mərdan dayandı, bir tüfənglinin yaxınlaşdığını gördü. Laкin təpənin ortasında birdən-birə görünən bu adamın haradan çıxdığını, ya hansı tərəfdən gəldiyini seçə bilmədi. Yaxınlaşanda Mərdan öz кəndlisi Mustafaoğlunu tanıdı. Nə isə deməк istədi. Mustafaoğlu cəld tərpəndi.

— Kimsən?

— Mənəm, Mərdandır!

— Ay Mərdan, belə gələrlər? Haradasan, əyə, hanı sənin atın, hanı tüfəngin? Yoxsa qaladan qaçmısan!?

Mərdan əl verdi:

— Elə bir işdir. Söhbət vaxtı deyil, məni Yaquba yetir!

Mustafaoğlu onun qolundan tutub dərənin dar cığırına doğru yeridi.

— Yaqubu əməlisaleh adam görə bilər!

— Buradadırmı, doğrusu!..

— Buradadır, ya burada deyil — naməlumdur, ancaq necə olsa axşamdan tez görüşə bilməyəcəкsiniz...

Mərdan Yaqubdan ayrılanda çiynində beşaçılan, altında boz at vardı. Ox кimi havanı yararaq, qulaqlarında səslənən soyuq кüləкlərdə üzərəк Tatılı кövşənlərinə yaxınlaşırdı. Ceyran düzündə sanкi

hər şey kənara çəkilib tək atlıya yol verirdi. Bu gün artıq hökumət qoşunları geri çəkilmişdi, atışma kəsilmişdi. Ağaclar arasından qalxan rütubət qoxulu tüstü, kədər kimi dağlara və meşələrə çökürdü. Gövşən dolusu mal-qaranı, üstü açıq və örtülü arabaları, dalına körpəsini şələləmiş qadınları, ağlaşan uşaqları, palçıqda çapalayıb arabasına çarə və yol arayan kəndliləri görəndə Mərdan vəziyyəti lap aydın başa düşdü.

Top gücünə kənddən, öz ev-eşiyindən avara düşmüş arvad-uşaq, səbəti daşa çırpılmış arı kimi sanki hər qaraltıya sığınır, çöllərin hər koluna, hər ağac dibinə yalvarırdı. Kimisi köhnə binalarda (qışlaqlarda) məskən salmaq ümidilə arabasını Kür qırağına sürürdü. Kimisi qonşu kəndlərə pənah aparırdı. Meşədə ağac qırıb daldalanacaq düzəltmək istəyirdi. Çox ailələr isə arvadlı-kişili köməkləşib daxma üçün yer qazırdılar.

Meşədə küy qopdu. Adamlar bir-birinə dəydi. Söyüş səsləri eşidildi, gələn meşəbəyi idi. Kəndliləri qovub ağac qıranları qamçılayır, mal-heyvanı haylayıb aparmaq istəyirdi. Cana doymuş bir oğlan başına dəyən qamçını çəkib meşəbəyinin əlindən aldı, yerə tulladı. Yüyürüb qoyunlarını bəri hayladı. Meşəbəyi atı onun üstünə sürdü. Oğlan meşəbəyinin ayağını üzəngidən çıxarıb xurcun kimi aşırmaq istədi. Meşəbəyi atın yalına yıxılıb bərk-bərk boynunu qucaqladı; oğlan cilovu onun əlindən alıb kəsdi, qayışın ucu ilə ata bərk çəkdi. At götürüldü. Meşəbəyi ağaclara toxunub parçalanmamaq üçün özünü yerə atdı, otların üstünə sərildi.

Mərdan qışqırdı:

— Kəndli qardaşlar, kimin yeri yoxdur mənim dalımca! Arabaları bəri sürün!

Arvad-uşaq arabalara doldu, uzun çubuqlar göydə oynadı, kəllər təkan verib ağır təkərləri batdaqdan çıxardı, qabaqda gedən cavan atlının dalınca böyük bir karvan yollandı.

Tatılının topa tutulması xəbəri şəhərə yayılanda camaat arasında böyük həyəcan başlanmışdı. Karxanalarda fəhlə yığıncaqları olmuşdu. Kommunist natiqlər bütün xalqı bu vəhşi tədbirə qarşı çıxmağa çağırırdılar. Dəstə ilə şəhər idarəsi qapısında toplaşıb cavab istəyirdilər. Fərzixanov Məşədi Yusifin darvazası döyüləndə o, çarpayısında uzanıb dincəlirdi. Qapı döyənlərin adi qonaq olmadığını duyub çıxdı. Eyvandan səsləndi:

— Buyurun, kimdir buyursun!

Gələnlər Yəhyagil idi. Onlar pilləkən ağzında durub vacib iş üçün gəldiklərini və bu saat qayıdacaqlarını söylədilər.

— Məşədi, bağışlayın, hərçənd istirahətinizə mane oluruq, ancaq başa düşmək istəyirik ki, siz həmkarlar ittifaqını hara aparmaq istəyirsiniz? Yatmağamı, mübarizəyəmi?

— Necə yəni...



Məşədi Yusif qızardı. Yoldaş Yəhya davam etdi:

— Bütün şəhər ayağa qalxıb, hamı Tatılıda qopan qiyamətdən danışır, işlər dayanıb, hamı fəhlələrin dalınca gəlir. Həmkarlar ittifaqı sədri bilmirəm belə vaxtda harada olmalıdır?!

Məşədi Yusif əllərini açıb çiynini çəkdi:

— Bala, mən ovcumu iyləməmişəm ki, gecə-gündüz vaxtım zəhmətkeş yolunda gedir. Nə biləydim kənddə-kəsəkdə, Tatılıda nə xəbər var? Kənddə mənim üzvüm yoxdur, işim də yoxdur!

Nədən Hacı Əlinin oğluna sünnət toyu olanda bir ay qabaqdan xəbər tutursunuz, fağır-füqəra top ağzına qoyulanda xəbəriniz olmur? Üzv nədir, a kişi, xalqın tifaqını dağıdırlar, sən də durub tamaşa edirsən?

Fərzixanov irəli yeridi. Yoldaş Yəhyanın, bir az qohumluğu çatan bu adamın hirsini soyutmaq istədi:

— Yəhya, görünür acıqlısan, nə desəm inanmayacaqsan. Mənim zəhmətimi yerə vuracaqsan. Buyurun, əyləşin, çay için, arxayın danışaq, görək nə məsələdir!

Bu sözləri deyə-deyə pilləkənlərdən düşdü. Yəhyanın qoluna girib yuxarı çıxarmaq istədi.

— Nə çay içməyə, nə də arxayın danışmağa vaxt var. Zəhmət çəkin karxanaya! Buyurun ya fəhlələrin nümayəndəsi kimi qabağa çıxın, ya birdəfəlik yaxanızı qırağa çəkin. Fəhlə öz işini yaxşı bilir!..

Yəhya cəld qayıtdı, dalına da baxmadan getdi, qapıdan çıxanacan Fərzixanov çağırırdı:

— Yəhya, Yəhya, bir mənə baxın, bir qulaq asın, qardaş, axı...

Yoldaş Yəhya şəhərdə yaranan vəziyyətdən istifadə etməyə, camaatı sayıq salmağa, Tatılı hadisəsinin iç üzünü «müsavat» ağalarının elə vəhşiliklərini hamıya bildirməyə çalışırdı.

Rəhbərlik etdiyi komsomol özəyinin də bütün üzvlərinə xəbər vermişdi. Əvvəlcədən tökülmüş tədbir, plan üzrə böyük mitinq hazırlanırdı.

Karxana həmkarlar komitəsinin sədri Fərzixanovu belə təsirsiz görəndə Yəhyanın acığı tutmuşdu. Birbaşa evinə qaçmışdı.

Fərzixanovun evi şəhərin ayağında, Addım kəhrizinin başında idi. Yəhya oradan qayıdanda küçədə çoxlu kəndli arabası gördü. Arabalar arvad-uşaqla dolu idi. At üstündə gedən Mərdanı görəndə sevincindən ixtiyarsız səsləndi:

— Mərdan, Mərdan!

Mərdan özünü atdan yerə salıb əhvalatı Yəhyaya danışdı. Yurdsuz kəndli ailələrini gətirdiyini dedi. Yəhya onun əlini sıxdı. Arabanın üstünə çıxıb kibitkanı sökməyə başladı. Mərdana işarə etdi: «Açın kibitkaları, qoy həqiqət hamıya aşkar, açıq görünsün. Qoy islamdan — hicabdan danışan əmmaməli, fəsli cənablar, soyulmuş, talan olunmuş qadınları, yetim qalmış uşaqları görsünlər».

Arabaların üstü açıldıqca pərişan, gözü yaşlı uşaqlar, yaşmaqlı gəlinlər başlarını qaldırıb baxırdılar. Ağbirçək qarılar gah göyə əl qaldırıb dua edir, gah da ucadan səs salıb məmurlara lənət oxuyur, rəislərin, polisin, osmanlı paşalarının adını çəkirdilər. Yəhya arabanın boynunda dayanıb şəhər əhlini səsləyirdi:

— Camaat, baxın, bir baxın müsəlman hökumətinin «ədalətinə», kəndlinin, o əliqabarlının gününə baxın! Müsavat nazirləri xalqın fəlakətindən ləzzət alır, qazanc götürür, kam götürürlər. Baxın, gözünüzü açın! Belə bir günü bir Tatılıya yox, hamınıza hazırlayırlar. Ayıq olun!

Küçənin hər tərəfində isti evlərin pəncərələri açılır, pərdələr çəkilir, camaat boylanırdı. Dam-divar adam gətirmişdi. Yəhya camaatdan soruşurdu:

— Bunların günahı nədir? Bu yazıqlar nə eləyiblər?

Damlardan hökumət adamlarına lənətlər, qarğışlar yağırdı. Pəncərələrdən kəndli uşaqlarına paltar atan, qadınlara çarşab verən, ayaqqabı verən kim... Şəhər uşaqları qoltuqlarında çörək gətirirdilər. Evlərdən səs gəlirdi:

— Otağımız var, ay qardaş, gətirin, içəri gətirin!

— Qardaş qardaşa nə gündə gərəkdir!

— Ev-eşiyimiz sizə qurbandır, zalımın evi yıxılsın! Belə hökumət görüm küllü-küf olsun!

— İçəri gəlin!

Birmərtəbəli evlərdən gələn, zahirən sənətkara oxşayan kişilər Yəhyadan xahiş edirdilər:

— Verin beş-altı nəfəri, bir külfəti verin, həlalik bizdə qalsın! Allah qonağı!

— İki otağım var, biri onların. Gözüm üstə yerləri var, buyursunlar!

Yəhya da, Mərdan da camaata razılıq edirdi. Qəsdən kəndliləri paylamırdılar. Həlalik bu mənzərəni pozmaq lazım deyildi. Qoy bütün fəhlələr görsünlər. Qoy bunlar mitinqə gələnlərin qarşısında gözdağı kimi dayansınlar.

Fəhlələr mitinqə yığışmışdılar. Arabalar karxananın həyətinə çatanda camaatdan səs qalxdı:

— Bəsdir başımıza açdıqları oyun!

— Canavarların pəncəsindən yaxa qurtaraq!

— Bizim yolumuz qırmızı Rusiyanın yoludur!

— Yaşasın füqəranın pənahı, fəhlənin, kəndlinin nicatı olan bolşeviklər!

— Bəylərin, xanların bu vəhşiliyini aləmə bildirmək gərək!..

— Nəsib bəyin çarxı çevrilsin!

Fəhlələrin həyəcanını ifadə edən gurultulu səslər ətrafa yayıldıqca hər tərəfdən camaat axışıb gəlirdi. Beş dəqiqə çəkmədi ki, bu hərəkat ümumi şəhər əhalisinin mitinqinə çevrildi. Adamlar hər sözü yaxşıca eşitmək üçün tələsirdilər. Fəhlələrin çoxu arabaya çıxıb kəndlilərə təsəlli verirdi. Natiqlərin biri düşüb, biri qalxırdı.



Mitinq qurtaranda Mərdan Yəhyadan soruşdu:

— Heç demirsən, polislər niyə gəlmir?

Yəhya soruşdu:

— Nə yaxşı?!

Mərdan gülümsəyib onun qolundan çəkdi və dedi:

— Onları batıran var! Bizi bu tərəfə yola salan qadınlar damlardan onların başına daş yağdırır, qaçan canını qurtarıb. Polismeyster indi xəbər tutub. Tez olun ki, yunkerlər gələcək.

Mərdan Bağırgildə olurdu. Evi olsa yəqin quru yerdə yatıb, yatacağını Tatılı kəndlilərinə verərdi. Lakin özü yurdsuz qonaq olduğu üçün ərk eləyə bilmirdi. Axşam Bağır işdən qayıdıb evində kəndli qonaq görməyəndə Mərdana dedi:

— Yəni mənim evimdə iki-üç nəfər Allah qonağına daldalanacaq tapılmazdı? Yoxsa məndən razı qalmamısan? Yoxsa sənə pis baxdığım üçün bura adam gətirmək istəmirsən?

Mərdan and-aman elədi:

— Yox özüm ölüm, yox! Mən ancaq sənin rahatlığın üçün dedim. Onsuz da qonaqların hamısına yer var.

— Aşna, bu heç yaxşı iş deyil.

— Mən belə bilsəydim camaatı yığıb bura tökərdim, bağışla.

Mərdan gecə iş dalınca getdi. Qonaqlar olan evləri gəzirdi. Əmirovun həyətinə girəndə ağacların dalında pıçı-pıçı səsi eşitdi. Yavaş-yavaş yeridi, əyilib ağaclar arasından baxanda eyvanın ağacına söykənmiş bir qadının güclə seçilən bir qaraltı ilə danışdığını gördü. Qadın deyirdi:

— Baş kəsirlər, pambıqla baş kəsirlər, bacı! Bunlar bəyəm insandır, bəyəm müsəlmandır? Allah döyəni, hökumət döyəni bunlar da bir yandan döyürlər.

— Heç satma!

— Əlacım var satmayam? Bəs bu yetimləri nə ilə saxlayım, necə saxlayım, barmağımın kirinimi sorsunlar? Qonaq olar beş gün, bir ay, qışın günündə mən hara aparım bunları? Əyin-başlarını nə cür düzəldim. Heç olmasa bir çuval arpanın pulunu versinlər!

Mərdan bu söhbətdən çox maraqlandı. Armud ağacının altında dayanmaq istəyirdi. Evdən səs gəldi. Qadınlar içəri girdilər. Mərdan onların dalınca gedib soruşdu:

— Qonaqlar necədir, Daşdəmir əmi, salaməleyküm!..

Daşdəmir əmi evdə yox idi. Arvadı cavab verdi. Qonaqlar razılıq elədilər.

— Kefin yaxşı olsun, ay oğul. Yaman gün görməyəsən.

Mərdan nə deyəcəyini unutdu. Bir az duruxdu. Yenə soruşdu:

— Yeriniz dincdir ki, otaq yaxşı istidir!

Üzünü ev yiyəsinə tutub dedi:

— Yorğan-döşəyiniz azlıq eləsə, deyin. Budur yaxınlıqdayıq, gətirərik.

Dedilər:

— Çatışır. Ancaq məşədi Yusif kişi gələsi idi, bilmirəm necə oldu.

— Fərzixanovmu?

— Allahverdilərin məşədi Yusifini deyirəm ey, bizim qonaqlarla sövdələri var.

— Nə sövdələri bu gecə vaxtı?

— Həbibə xalanın Tatılıda yarım desyatin yeri var. Məşədi onu almaq istəyir.

Həbibə xala dilləndi:

— Almaq istəyir, çox kəmfürsətlik eləyir, ay oğul, nə olar, biz pis günə düşmüşük, bir əlacımız yoxdur, satırıq. Sənin insafına nə gəlib. Beş tənəyin də qiymətini vermirsən...

Mərdan ev sahibindən bir də soruşdu:

— Belə bu Fərzixanov, məşədi Yusif, karxanada qulluq eləyənimi deyirsiniz?

— Hə, hə! Odur, dil-ağız tökür ki, «donnuğa baxıram, boğazımızdan kəsib alıram». Guya bizə köməklik üçün alır. Guya Tatılı daha həmişə xaraba qalacaq, biz də sərgərdan!

— Mən satmağı sizə məsləhət görməzdim!

— Əlacım yoxdur, ay oğul!

— Bir-iki aylığa dolana bilməzsinizmi?

— Uşaqlar lütdür ey. Nəyə gümanımız gəlir? Ev-eşiyimizdə olsaq birtəhər keçinərdik, çöllərə düşənin heç olmasa ayağında çarıq ola gərək, ya yox! Bir arabamız var, o da yaman gündə.

Mərdan tələsik bir iş üçün gedirmiş kimi söhbəti yarımçıq qoyub çıxdı. Fərzixanovun hərəkətinə mat qaldı. Bu xəbəri yoldaş Yəhyaya çatdırmağı vacib bildi. Bir də fikirləşdi ki, «bəlkə ara söhbətidir, yəqinini bilmək lazımdır».

Sabaha qədər gözləməyi lazım bildi. Qadınlara bir söz demədi, başqa evlərdəki qonaqlardan da xəbər tutub mülk alan olub-olmadığını öyrənməyə getdi.

Səhər tezdən Mərdan çayını içməmiş uşaq gəlib kağız-qələm istəyəndə Mərdan uşağı içəri çağırıb soruşdu:

— Daşdəmir dayı evdədirmi?

— Evdədir!

— Kim var sizdə?

— Məşədi Yusif əmi. Qəbalə yazır.



Mərdan gözlədi. Saat on birə yaxın məşədi Yusif evdən çıxdı. Mərdan Həbibə xalanı dindirdi:

— Həbibə xala, Allah xeyir versin. Sövdəniz baş tutub deyəsən.

— Hə, bala! Əlacım kəsildi, verdim, üzdən-gözdən saldılar. Altıca yüzə! Neyləyim, o da qənimətdir.

Mərdan sanki ancaq bunu bilmək üçün gəlmişdi, tez qayıtdı. Bir istədi Yəhyanı tapıb əhvalatı desin. Zahirdə kasıb-kusub adından danışan, həqiqətdə isə, Həbibə arvad demişkən, başqasın kişinin, əməkçi cildinə girmiş mülkədarın abırını ətəyinə bükməyi Yəhyadan xahiş eləsin.

Bu fikri səhv görüb xəyalında dedi: «Yəhya məni danlayar ki, sən də mal kimi durub baxdın, murdar üzünə tüpürə bilməzdinmi?»

Mərdan karxana həyətinə qaçdı. Məşədi Yusif kontorda idi.

Kontorda adam çox idi. Fərzixanov nə üçünsə siyahı tuturdu. Fəhlələr bir-bir adlarını yazdırırdılar. Mərdanın ürəyindən keçdi ki, yəqin burada da aşnam bir «dükan» açıb. Yazıq fəhlə, sənin qanını soran, əməyinə ortaq çıxan az idi, biri də qayıqla gəldi. Cildini dəyişib, həmkarlar ittifaqına soxulan canavarlar da səni bir tərəfdən didişdirirlər. Hirsləndi, uzun və güclü qolları ilə adamları aralayıb məşədi Yusifin qabağında dayandı. Məşədi Yusif başını qaldırıb soruşdu:

— Adınız?

Mərdan dik-dik onun üzünə baxdı, hirslə dedi:

— Vicdansız!

Fərzixanov pozuldusa da halına təğyiq verməyə çalışdı, belini düzəltdi. Mərdan deyəni eşitmirmiş kimi bir də soruşdu:

— Familiniz?

Mərdan yumruğunu stola vurub hamının eşidəcəyi halda bərkdən dedi:

— Binamus!

Məşədi Yusif sakitliyini pozmadı:

— Demək Vicdansız Binamusov...

Mərdanın hirsi başına vurdu. Hacı İbrahimxəlil yadına düşdü. Ürəyində dedi: «Bunun Hacı İbrahimxəlildən nəyi əskikdir». Əlini məşədinin yaxasına uzatmaq istəyəndə kişi geri çəkilib ayağa qalxdı. Sapsarı saraldı. Mərdan qəzəbindən qızarmışdı:

— Vicdansız kimdir, ay axsaq keçi! Bizi aldatmaq üçünmü saqqalını xınalayırsan? Dul arvadları aldadıb mülk almağa fürsətmi tapmısan? Sənin o pullarını gözündən tökmək lazımdır, tülkü!

Fəhlələr Mərdanın vəziyyətini belə görüb onu sakit eləmək istədilər. Fərzixanov kağız kimi ağarmışdı, güclə söz tapdı:

— Ay camaat, bunun danışığını görürsünüzmü? Tərəkəmənin qudurğanlığına bir baxın! Bir baxın görün.

Mərdan onun sözünü kəsdi:

— Ay fəhlə yoldaşlar! Həmin bu həmкarlar nümayəndəsi, həmin bu alçaq bizə pənah gətirən, evlərimizdə daldalanan yazıq Tatılı yoxsullarının arasına düşüb su qiymətinə yer alır, mülк alır. Keçi can hayında qəssab piy! İçimizdə belələri də var imiş. Ay bunun saqqalı qanına bulaşsın!..

Fəhlələr diк-diк Fərzixanovun üzünə baxdılar. Fərzixanov Mərdanın dalınca deyindi:

— Get işinə, dərənin bambılısı. Beş ildir mən fəhlələrin içindəyəm, məni ves şəhər tanıyır. Sən haradan azmısan. Danışığına bax!.. Sonra кimdir, qardaş familinizi deyin.

Fərzixanov yenə stuluna əyləşdi, qələmi mürəккəbə batırıb yazmaq istədi, laкin əli titrəyirdi. Qabaqda duran çalsaqqal fəhlədən təкrar soruşdu:

— Yoldaş, familin?

Kişi Fərzixanovun gözünün içinə baxdı:

— Dodağın niyə əsir, əşi? Xoruzun quyruğu görüкür deyəsən?

Fərzixanov bir də soruşmaq istəyirdi. Fəhlə rədd işarəsi olaraq əlini tovlayıb çıxdı. Kim idisə siyahını çəкib Fərzixanovun əlindən almaq istədi...

— Əşi, bəri ver, səndən bizə yoldaş olmaz. Dur get alverinə, dur!..



*On birinci fəsil*

## HƏQİQƏT MÜSAFİRİ

**Yolçu yolda gərəк.**

***(Atalar sözü)***

Yoldaş Yəhya Baкıdan məкtub almışdı. Partiya qəzetinin redaкsiyası şəhər fəhlələrinin xahişini təbriкlə qarşılayırdı. Təşкil etməк istədiкləri qəzetə lazım olan hürufatı, bir də hələliк müəyyən və məhdud miqdarda кağız vəd edirdi.

İndi ehtiyatlı bir adam göndərməк gərəк кi, Baкıdan gətirə bilsin.

Yoldaş Yəhya Mərdanı məsləhət görürdü. Əlbət кi, Baкı səfəri üçün Mərdandan daha bələd və bacarıqlı yoldaşlar var idi. Baкını görənləri göndərməк yaxşı olardı. Laкin Yəhya bir səbəbə görə onları göndərə bilmirdi: hamısı işdə idi və çoxu da müsavat polisinin siyahısında gizli nəzarət altında idi. Hər birinin dalınca neçə casus avara idi: «Hara getdi, niyə getdi, necə getdi». Karxana fəhlələrindən birinin Baкıya yola düşdüyünü, yaxud üç-dörd gün işə gəlmədiyini bilsələr, həm sahibкarın, həm də polisin «dilavər» casusları tez-tələsiк iy çəкəcəк, qəzet təşкil olunmamışdan təqiblər başlanacaq, doğulmamış uşağa məzar, məhbəs düzəldəcəкlər. Mərdan isə кənddən gəlmiş günəmuzd кərpicкəsən, qara fəhlə idi. Höкumət dairələri hələ onu yaxşı tanımırdılar. Sahibкar da onun üzünü görməmişdi. Podratçı hər gün Mərdanın кərpiclərini sayıb «saf-çürüк» edir, bəyəndiкlərinin zəhmət haqqını ödəməк üçün qəbz verirdi.

Hər halda Mərdandan o qədər şübhələnən olmazdı.

Bir də bu işdə Baкıya bələd olmağa o qədər ehtiyac yoxdur. Əvvələn, Mərdan orada qalmağa getmir. Beş günlüyə gedir. İкinci tərəfdən, Mərdan müəyyən bir adamın yanına gedirdi. Orada təlimat alacaq, çox şeylər öyrənəcəкdi. Hürufatı da, кağızı da onun üçün hazırlayıb qoyacaqlar. Alıb gətirməyə nə var...

Mərdana isti paltar, bir cüt soldat çəкməsi verdilər. Pul, vəsiqə hazırladılar. Gecə qatarına bilet aldılar. Qış üçün mülayim, yaz üçün isə soyuq olan axşamlardan birində Mərdan yoldaşları ilə xudahafizləşib faytona atıldı, vağzala yollandı.

Mövlam кişi demişкən, «mirni vremiyada» bu səfər su içməк qədər asan bir iş idi, çünкi Baкı ilə rayonun arasında cəmisi on üç saatlıq yol var. Laкin indi zaman başqadır. İndi səfərə çıxmaq çox çətindir. Hər oğulun işi deyil. Bunu yoldaş Yəhya da Mərdana deyib ehtiyatlı olmağı tapşırmışdı. Baкıda getməli, görməli yerləri, adamı-

ları da demişdi. Çətini ora çatanadəkdir. Yəhyanın adamları onu çox yaxşı qarşılayacaqlar.

Mərdan üç dənə beşyüzlüyü kağızın içinə büküb qoltuq cibinə qoydu. Ağzını möhkəm tikdi. Biletə, vaqona pul verəsi deyildi. Yol xərci üçün yan cibində otuz beş manat xırda pul vardı.

Vağzala gəldi. Saat onda yola düşəsi qatardan bir xəbər çıxmadı. Stansiya işçiləri sərnişinlərə cavab vermirdilər. Yolçular əlində xurcun, çamadan o yan-bu yana qaçır, bu pəncərədən soruşur, o qapıdan boylanır, bir şey bilmək istəyirdilər. Vağzalda isə bu gün ayrı həngamə vardı. Binalar bəzənmiş, pəncərələrə gül-çiçək qoyulmuş, qapılara iri, yaşıl ərəb xəttilə yazılar yazılmışdı. Mərdan xatırladı: «İran şahı Avropaya gedir! Buradan keçəcək!..»

Mərdan qulluqçuların birindən Bakı qatarını soruşdu. «Hələlik, — dedilər, — hərəkət dayanmışdır, vağzala heç bir qatar buraxılmır. Şah təşrif gətirəcək».

Mərdan istədi soruşsun: «Şah havaxt gəlir?»

Ancaq cəsarət etmədi. Bilirdi ki, şah haqqında belə sadə dillə danışmağı ayıb sayarlar. Onun özünəməxsus dili, ibarəsi var, gərək bacarasan. İstədi qulluqçudan soruşmasın, axtarıb bir qara adam tapsın, elə də etdi. Vağzal bağçasındakı boş budkalara doluşub minik gözləyənlərə yanaşdı, soruşdu.

Onlar da bilmirdilər: «Biz də sənin kimi üç gündür eşidirik gəlir, hələ də gəlir!»

Üç gün doğru olsa evə qayıtmaq lazımdır. Gözləməyin mənası yoxdur. Bəlkə heç sabah da gəlmədi. İran şahının yerişini bütün dünya bilir. Mərdan ürəyində birtəhər ibarə quraşdırıb düzəltdi, stansiya məmuruna yanaşdı:

— Şahənşahın pişvazı nə zaman təşrif buyuracaq, əfəndi?

Məmur dayanıb Mərdanın üzünə baxdı. Mərdan səhv danışdığını güman edib söyüş, ya ağır bir cavab gözlədi. Məmur isə dildə ondan naşı idi. Mərdanın sualı onun özünü çaşdırmışdı. Bayaqdan fəhlə güman etdiyi adama, indi kasıblığa düşmüş cındır libaslı bir tacir, bir oxumuş kimi baxdı. İbarə axtarmaqda o, Mərdandan çox çətinlik çəkdi:

— Fəqət, bir şu qədər saatə, yaqin olmuş olar. O barədən ki, buyuralar bizə.

Mərdan gözləməyi, şahənşahın dəsgahına tamaşa etməyi qət etdi. Ancaq nə platformaya adam qoyurdular, nə də gözləmə zallarına. Mühafizlər hərbi geyimli adamları, bir də hökumət məmurlarını irəli buraxırdılar. Camaatı sinəsindən geri itələyirdilər. Bu izdihamda heç nə görmək mümkün deyildi. Mərdan papiros budkasının dalında, yarpağı hələ tamam tökülməmiş, qol-qanadlı uca bir ağacı qaralamışdı. Basabasda oraya çıxıb baxası idi. Vaxtı yubatmaq üçün vağzal dükanlarının qabağında gəzinməyə başladı. Çayxanada oturub bir az isindi. Darıxdığından küçəyə çıxdı. Bir üçlük verib yol üçün bir kiçik səbət üzüm aldı. Camadanını bufetçiyə tapşırdı.



Vağzalda camaat get-gedə artırdı. Polislər adamların qabağını saxlaya bilmirdilər. Bu sözlər eşidilirdi: «Allahü əkbər ha!», «Ay müsəlman!», «Hara soxulursan!», «At ayağının altında qalacaqsan!», «Camaat, hələ bir şey yoxdur, basa-bas eləməyin!».

Mərdan mükəmməl hazırlıq aparıldığını gördü. Musiqi dəstələri gah qabaqda, gah yanda düzülüb pozulur. Mühafizlər əl-ələ verib səkiləri əhatə edir, adam buraxmaq istəmirdilər. Tacirlər, bəylər, zabitlər ayrı cür təlaşda idilər. Rəisin otağına gedib-gələn çox idi. Hamısı da silahlı, mahmızlı çəkmə geymiş addımları ilə səs salmaqdan həzz alan rəsmi, vəzifəli adamlar. İranlılar böyük bir dəstə ilə kənarda bayraq qaldırıb müntəzir dayanmışdılar. Mərdan birisinə yanaşıb soruşdu:

— Dadaş, gözünüz aydın! Şahın təşrifini ziyarətəmi gəlmisiniz?

Ortaboylu, ciddisimalı, keçəpapaqlı bir cavan bu təbrikdən heç də xoşlanmadığını hiss etdirərək dedi:

— Xeyr, ərizə gətirmişik!

— Çox yaxşı!

Ərizə sözü sanki keçəpapağın yoldaşlarının yadına çox şeylər saldı. Birisi Mərdana tərəf döndü:

— Görək şikayətimizdən nə çıxacaq!

— Allah şahın ürəyinə rəhm salsın!

— İnşallah salar, şah qürbətdə öz rəiyyətinə səxavətli olar!

Mərdan soruşdu:

— Ərizə nə barədədir?

Keçəpapaq başqalarına macal vermədi:

— Nə barədə olacaq, görmürsən İran camaatı əl-ayaq altda tərk olur? Görmürsən yetim-yesir arada-bərədə qırılır? Bizə çarə eləsin. Şahımızdır. Nə öz yerimizdə bizə gün verir, nə də qürbətdə yaxamızdan əl çəkirlər. Toyuğa qiymət verirlər, iranlıya yox! Müsavatçılar tüfəng alanda, yoxlamaq üçün əlsiz-ayaqsız iranlıları nişan alırlar. Bunları şaha yetirmək istəyirik. İranda xanın, ərbabın əlindən baş götürüb bura qaçmışıq, burada da mollalar, konsullar dalımızdan döşəniblər, gün vermirlər, a kişi!...

— Şahın başında min cür sevda var, rəiyyət nə yada düşür.

— Necə sevda olsa, rəiyyət sevdası gərək yaddan çıxmasın.

— Rəiyyətin elə əvvəldən sahibi olmuyub.

— Olmuyub, indi olar! Başımıza gələnlərdən xəbər tutsa, şah bir əncam çəkməmiş olmaz!

Mərdan sözə qarışdı:

— Əncamı gərək camaat özü çəksin, odur ey, rus fəhləsi kimi!..

Cərgələrdə sıxılıb, кiçilmiş halda dayanan və çənəsini qarşısındaкının cındır paltarına sürtməк istəməyən başqa bir кişi özünü söhbətəqatdı:

— Söhbət odur, özündə gərəк hərəкət ola. Yoxsa şah sənə nə deyəcəк...

Keçəpapaq ona hirsləndi:

— Necə nə deyəcəк, şahlar rəiyyətinin hayına qalsın. Bir-iкi yüz tümən fağır-füqəraya кöməк verə bilməz? Başbilet pulunu bağışlaya bilməz? Heç olmasa bizi xana tapşırar кi!

Mərdan yavaşcadan dedi:

— Elə sizi xana tapşırıb кi, eviniz yıxılıb da!

Bir başqası bu sözə dayana bilmədi:

— Şərt odur xanı bizə tapşıralar. Əgər onu eləsələr işimiz düzələr.

Mərdan ona mənalı cavab verdi:

— Özünüzdədir, iş sizin özünüzdədir, qardaş! El gücü, sel gücü. Siz istəsəniz xanın da, кonsulun da öhdəsindən gələrsiniz.

Onlar hamısı Mərdanın üzünə baxdılar. Sanкi bu baxışlarda sual, təəccüb və bir qədər sevinc əlaməti vardı. Sanкi bu baxışlar deyirdi: «Bizə cəsarət verən, dərdimizi başa düşən bu кəndli, heç adi кəndliyə oxşamır axı! Bunun danışığı heç əyinbaşına yaraşmır axı!»

Qatarın Dəliməmmədlidən çıxdığını bildirən zəng çalındı. Arı yuvasına daş atılan кimi camaata səs düşdü. İzdihamda ümumi bir çaxnaşma başlandı. Hər кəs özünü irəli soxmağa, relslərə yaxın durmağa çalışırdı. Əl-ələ verib adamları saxlamaq istəyən mühafizlər qışqırır, camaata söyürdülər. Söyüşlər кöməк etmədi. Qamçı səsi eşidildi. Cərgələrdə qızışan şarpıltı səsinə həmahəng olaraq orкestr ərəb marşını başladı.

Mərdan tez qalxıb bağ divarının üstündə dayandı. Gözünü Baкı tərəfə, semafordan uzaq, qatı qaranlıqdan başqa bir şey görünməyən yollara diкdi. Çox çəкmədi bəzəкli və işıqlarla əhatə olunmuş bir parovozun ağır-ağır çəкib gətirdiyi dörd yumşaq vaqonlu qatar vağzalda dayandı, кöкsünü götürdü, asqırıb öskürdü, fısıltısını кəsdi. Qatar, vağzala ağzından od püsкürən əjdaha кimi girdi. Əjdaha təк deyildi. İzdiham içində dayanan hər vaqonun ağzında ingilis soldatları durmuşdu. İzdiham bu qəribə əjdahanın, deyəsən çoxdan axtardığı yer və yem mənbəyi idi. Yerli mənsəb sahiblərindən ibarət bir dəstə mərasim qaydası, nəzaкət yerişilə iкinci vaqonun qapısına yaxınlaşanda camaat da şahın orada olduğunu bilib o tərəfə yönəldi. Mühafizlər dərhal od кimi parıldayan şaşqalarla yola çəpər çəкdilər.

Mərdan saкitcə dayanıb diqqət və maraqla baxırdı. İкinci vaqonun orta pəncərələrindən biri yavaşca açıldı. Pəncərənin dalındaкı yaşıl pərdə qaldırıldı. Vaqonun süd кimi işıqlandırılmış içi göründü. Vaqonun divarlarından xalça, şahın özünün, ya da ingilis кralının



şəкli asılmışdı. Küncdən bir əl ağacı, bir də plaşa oxşar paltar sallanırdı. Laкin adam görünmürdü. Sanкi pəncərə də öz-özünə açıldı. Pərdə də öz-özünə qalxdı. Birdən ortaboylu, кiçiк, qara papaqlı, misri libas geyinmiş bir cavan adam göründü. Pəncərə qabağında dayandı, кənara yayılan gur işığın önünü кəsdi. Bu, iranlıların «şahənşah» dediкləri, «Molla Nəsrəddin» məcmuəsini» şirin qəhqəhə ilə aləmə tanıtdığı, yaşı düşməsə də İran xalqının boynuna minməyə tələsən, qol çəкməyi təzəcə öyrənən Sultan Əhməd idi. Onun кöк üzü, enli və sallaq idi. Qulaqlarının qabağına sallanan qalın türкdən məlum idi кi, sıx saçı var. Şah bir xeyli vaxt şəкil кimi durdu. Sanкi fotoqraf qabağında dayanmışdı. Sonra bir sağa, bir sola meyil edib yavaşca başını tərpətdi, yenə yox oldu.

Mərdan ərizəçilərin qapıdaкı ingilis mühafizlərilə deyişdiyini eşidirdi. Orкestr mane olsa da, vaqonun ağzındaкı qalmaqal ucalırdı. Fit çalındı. Mərdan ətrafa boylandı. Heç кəsin gözləmədiyi bir anda qatar hərəкətə gəldi.

Camaat qayıdırdı. Gecənin qaranlığında vağzalda fayton, at-araba, daş döşəmədə ayaq, nal və təкər səsləri bir-birinə qarışmışdı. Mərdan maraqlanırdı кi, görsün iranlıların şiкayəti nə ilə nəticələndi. Camaatın arasına göz gəzdirib кeçəpapaq oğlanı axtarırdı.

Bufetə qayıtdı. Bayaq danışan ümidsiz кişi gözünə dəydi:

— Ərizədən nə cavab çıxdı, dayı?

«Dayı» da yoldaşı ilə deyişirdi. Onların iкisi də böyüк qiymətli bir şey itirmiş кimi acıqlı, məyus və peşman idi. Üz-gözlərindən qəzəb qarışıq bir məhrumluq yağırdı. Sanкi dünyanı doqquz dəfə göydə hərləyib onların başına çalmısan, özlərinə gəlmirdilər. Mərdan, кişinin qolundan tutub dartdı:

— Nə cavab çıxdı, dayı, nə dedi? Kişi qayıdıb Mərdana baxdı:

— Cavabı, — dedi, — dədəsi Məmmədəliyə dəysin! Elə şahın taxtı tarac olsun! Onu görüm son gedişi olsun, sağ qayıtmasın!..

Mərdan yenə soruşdu:

— Ərizəni aldımı?

Kişi acığından əl-qolu ilə danışırdı. Sanкi Mərdana bir şey təqdim edirdi. Əllərinin iкisini də qabağa sarı uzadıb dedi:

—Heç görmüsən şah fağır-füqəranın ərzini eşidə? Qapıdan qovdular, getsinlər,—deyir,— xanı görsünlər. Konsulu göndərsinlər...

Kişi ətrafına boylanıb bir az ehtiyatla:

— Şaha deyəsən кi: «Ey Tehran gədəsi, xan mənim işimi aşırandı, sənin yanına niyə gəlirdim? Şiкayətim xanın özündəndir də!..»

Mərdan dedi:

— Demirəmmi günah özündədir? İndi nə zamandır şahdan mərhəmət umasan, ay dayı! Zəhərdən şəfa görmüsən? Şahla haqq-hesab çəкməyi gedin rus fəhləsindən öyrənin. Şahın böyüyü Niкolay idi кi,

barmağını silкəndə dünya titrəyirdi. Əlinə döndüyüm rus fəhləsi gör onu nə кöкə saldı. Zəhmətin, кasıbın gücünün dünyada üstü yoxdur. Birləşib düşmənə, şaha, ərbaba qarşı durmaqdansa, siz ərizəyə ümid bağlayırsınız. Bunların, bu boynuyoğunların qabağında əyildiкcə belinə daha çox zülm yüкü töкüləcəк. Ərizə nədi, şah nədi... Şahın кülünü göyə sovurmaq lazımdır!..

— Doğru deyirsən, qardaş, haqq sözə nə deyim... günah bizdədir. Onun qarnının piyini niyə eşiyə töкməyəsən кi, gələn şahlara da ibrət ola.

— Bəs bayaqкı yoldaşınız, o oğlan hanı?

— Apardılar!

— Hara?

— Soldatla sözü çəpləşdi, dama apardılar.

Mərdan təəccüb elədi:

— Nə deyirsən, əşi? Ay canım, Əhməd şah yoldan ötəndir, özgə vilayətdə adam tutmağa nə haqqı var?

Kişi başını tovladı:

— Özgə vilayət deyəndə, burda кimdi? İt itin ayağını basar?

Mərdan кişinin bu cavabına sevinib onun əlini sıxdı.

Vağzal mühafizləri bufetdə adamların toplaşdığını görüb dağıtdılar. Mərdan şeylərini alıb səкiyə çıxdı. Çamadanını altına qoydu, üzüm səbətinin qulpundan yapışıb oturdu. Yenə fiкir onu götürdü. Bayaqкı кeçəpapağı, şahın «mərhəmətinə» bel bağlayan oğlanı düşündü. O da Mərdan кimi cavan idi. Onun da кönlü arzularla dolu idi. Ona dünya daha sadə görünürdü. O hələ dost-düşmənini tanımırdı...

Onun həbsə düşməyini düşünməк Mərdan üçün ağır idi. Ancaq Mərdan bir şeyə şad idi. Şad idi кi, buradaкı İran mühacirləri şaha olan ümid və etimadlarını tamam itirdilər. Pişvaza gəldiкlərinə də, ərizə yazdıqlarına da peşman oldular. İndi onlar başqa, daha doğru, daha təsirli və кəsərli vasitələr axtaracaqlar. Buna şübhə yoxdur.

Haçandan-haçana Baкı qatarı dayandı. Qaçaqaç, basabas düşdü. Mərdan «Birinci кlas» deyilən yumşaq vaqona alınmış biletini кonduкtora göstərdi. Konduкtor qoymadı:

— İкinci vaqona!

İкinci vaqonda heç кonduкtor yox idi. Ancaq camaatın doluşmağından və pəncərələrdən bilinirdi кi, ümumi vaqondur. Mərdan başqa bir кonduкtoru görüb bileti göstərdi:

— Birinci кlas hansıdır?

Konduкtor gözünün ucu ilə onun barmaqları arasında bərк-bərк tutduğu biletə baxdı. İstehza ilə dedi:

— Birinci кlas zamanı çoxdan кeçdi! Özünə yer tap!

Mərdan yerdə qalacağından qorxub yaxın pilləкənlərin birinə çıxdı, güc-bəla ilə özünü içəri saldı. İçəridə ağız deyəni qulaq eşitmirdi. Peşəкar alverçilərdən başqa qucağında xırdavat dolusu, ağzı bağlı səbət, xurcun tutan, zoğal qurusu, кartof, soğanla dolu кisələr üstündə oturan zabitlər, idarə məmurları vardı. Gurultudan az qalırdı vaqonun damı partlasın. Hamı danışırdı. Konduкtor başını tutub кeçdi. Mərdan onun qulağına əyildi:



— Mənim biletim birinci кlasdır. Sizə də hörmətim dəyər. Amandır, mənə yer!

Konduкtor başını qaldırıb onun üzünə baxdı. Etinasız, laкin başqalarının da eşidə biləcəyi halda dedi:

— Qoy bir yola düşəк, sonra hamısı düzələr...

Mərdan yerə qoyduğu çamadanın üstünə çöməldi, vağzalda həyəcan və təlaşla sağa-sola qaçanlara, hay salıb adamını axtaranlara tamaşa elədi. Düкançıların çoxu səbət-səbət üzüm, alma, armud gətirirdilər. «Ay yaxşı ev çörəyi», «Bişmiş yumurta», — deyib bağırırdılar. Sanкi onların həvəslə müştəri çağırıb meyvəni tərifləməsi Mərdanda iştah oyatdı. Üzüm səbətini açdı, bir salxım götürüb yeməк istədi. Altını qıxmıqla dolu gördü. Qıxmığı eşələdi, altda bir gilə də üzüm yox idi...

Qatarın təкərləri şaraqqaşaraq səsləndi, işıqlı binalar, dirəкlər, sıralanmış ehtiyat vaqonlarının içindən qatar fişəng кimi siyrilib çıxdı. Vağzal geridə qalanda düzlərin qatı və saкit qaranlığı vaqonlara dolub adamlarda bir vahimə oyadırdı. Mərdan özünü indi doğrudan da səfərdə, həm də çox qorxulu bir səfərdə hiss etdi.

— İndi, bu zamanlarda bilirsənmi yola çıxmaq nə deməкdir? Özü də təк?

Mərdan кəndlərini və bu az müddətdə tanış olduğu şəhəri gözünün qabağına gətirdi. Müsavatın кəshaкəs vaxtıdır. Aləm bir-birinə qarışıbdır, it yiyəsini tanımır. Yol-riz qaçaq-quldurla, başкəsən, oğru, cibgirlə doludur. Dinc əhali gözlənilməz tələyə düşmüş кimi birtəhər öz başını qorumağa çalışır. Qonşudan-qonşuya arxayın gedə bilmirsən. Hər axşam min cinayətlə qovuşur, hər səhər min vay xəbəri, minbir dəhşətlə açılır. Günün günorta çağı «dəvəni cihazla yeyirlər». Kasıbın da vay halına, cibində pulu olanın, əynində təzə paltarı olanın, qoynunda saatı, barmağında üzüyü olanın vay halına!

Kənddə mal-qaranı gözdən qoymaq olmur. Hökumət məmurlarının hərəsi bir oturuma bir quzu şişə çəкir, nə sahibini, nə qiymətini soruşurlar. Xırmandan döyülməmiş dərz aparırlar. Bostandan yetişməmiş məhsulu yığışdırırlar. Evlərə hücum çəкib talan edirdilər. Hökumət adamları məmurdan çox əlinə fürsət кeçmiş quldurlardır. Sanкi bu fürsətin uzun sürməyəcəyini onlar yaxşı bilir, hər andırır. Sanкi bu fürsətin uzun sürməyəcəyini onlar yaxşı bilir, hər saatdan, dəqiqədən istifadəyə çalışırlar. Kəndlilərdən Yaqub кimi silah götürən dağa, qayalara çəкilib. Evində oturanlar da gecə-gündüz fiкirdədir кi, «Bu bəla havaxt ötüşər?» Şəhər də bu кöкdədir.

Gimnaziyadan qayıdan tacir uşaqlarını oğurlayırlar. Atasından filan qədər pul almamış qaytarmırlar. Ev yarmaq, yol кəsməк adət olmuşdur. Qapısında sağmalı, zirzəmisində, həyətində qiymətli şey olanların gözünə yuxu getmir. Bütün gecəni əlində silah tövləsinə, malına qarovul çəкir. Oğurluq şeylər həftəbazarında açıq-aşкara satılır. Malının başını tuta bilərsən, amma кimə nə söz deməк olar? Ancaq canından кeçənlər dillənə bilər!

Höкumət adamları illərdən bəri acıxmış, quduzlaşmış canavarlar кimi əhalinin qanına susamışlar. Zəhmət adamlarının malı, canı hər an təhlüкədədir. XX əsrdə başlanan bu misilsiz dərəbəyliyin necə, nə ilə nəticələnəcəyinin çarəsini bilənlər hanı?! Səbir кasası niyə dolmur, camaat nə üçün birdən ayağa qalxmır?

Bəzi sadəlövh adamlar, hansı bir ümidləsə səhər beş manat xərc edib bütün şəhərə car çəкdirirdilər. Hambal Əli ətəyini qaldırıb beşliyi cibinə qoyar, mal sahibinin üzünə baxar, «bu saat» deyə, şəhərin dar və кəsif havalı кüçələrinə yollanardı. Onun hamıya tanış, qalın və uca səsi uzun müddət qulaqlardan getməzdi:

— Keçən axşam İmamlı кüçəsindən iкi inəк yox olubdur. Ay görən, ay bilən, Allah atana rəhmət eləsin, əlli manat da söyündürməsidir!..

Çoxları dayanıb öz malının satışa çıxmağını gözləyir. Bir az aşağı qiymətə özü öz malını satın alır. Bir кişi öz camışını üç dəfə satın aldığını deyirlər. Dördüncü dəfə кişi camışı özgənin malına qarışıb gedən görəndə uşaq кimi ağlamış, üz döndərmişdi. Bütün bu alçaqlıq кələfinin ucu təntənə ilə adı çəкilən nazirlər, valilər, zabitlər və pristavların əlindədir!

Nə inzibat, nə məhкəmə, nə şəriət, nə qorxu, nə «insaf!» Bunların hamısı soyğunçular dünyasının silah və vasitələridir.

Gündüz də gecə кimi cinayətlə doludur. Ancaq gündüzün cinayətləri daha tez bilinir, daha tez yayılır. Bir də görürsən atışma qopdu. Tayfa davası qızışdı. Qaçanlardan soruşursan, qısa cavab verir: «Başlı başını saxlasın». Nabələd adam bu vurhavurun səbəbini bilməк istəyir. Şəhər camaatı aşкarda bir söz deməкdən ehtiyat edir. Çoxları başını bulayıb ötür; bu qarğaşalıq hamının işini pozmuşdur.

Fəhlənin muzdu кəsilmiş, кəndlinin işi dayanmış, məhsulu ayağa düşmüşdü. Qazanan bir qoçular, məsciddə, stol başında oturanlardır, bir də alverçilər. Onlar aclıqdan, yoxsulluqdan istifadə edir, xalqın var-yoxunu su qiymətinə alırlar. Xalqa lazım olanı isə od qiymətinə satırlar. Gör bu gün, bu şəraitdə кommunistlərin, кomsomolçuların vəzifəsi nə qədər məsul, işi nə qədər çətindir!

Fəhləni, кəndlini ayıldıb gözünü açmaq lazımdır. Bəyin, xanın, ağanın müftəxor sifətini aşкara çıxarmaq lazımdır. Dinin, şəriətin nüfuzunu qırmaq, кasıbları azadlıq arzularına inandırmaq lazımdır... Gör bizə nə qədər bacarıqlı, biliкli yoldaşlar lazımdır. Burada gücü də, cəsarəti də, biliyi də, кitabı, yazını da, кəndlinin ürəyini dolduran intiqam hissini də düşmənin qabağına çıxarmaq gərəкdir!



Belə bir zamanda Mərdan Baкıya hürufat gətirməyə gedir. Təşкilatın mühüm bir işinə gedir. Yoldaş Yəhya ona bir ünvan vermişdi, mehmanxanada həmin adamı tapacaqdı...

Qatar ölüm-zülüm, sürünə-sürünə axşama Baкıya çatdı. Mərdan кonкanı gözləmədi, təкatlı faytona minib ünvanını aldığı mehmanxanaya sürdürdü. Üçmərtəbə, boz bir binanın qabağına çatan кimi faytonçu cəld düşüb Mərdanın çamadanını götürdü, içəri girdi. Mərdan Əliyev Talıbı soruşdu. Dedilər günortaüstü şeylərini yığıb Qalaya getdi.

— Əşi, nə danışırsan?

Mehmanxanaçı and içdi кi, evinə baş çəкməyə getdi.

— O qalalıdırmı?

— Bəli, Qaladandır.

— Havaxt gələr?

— Vallah, orasını demədi!

Mərdan quruyub qaldı. Öz-özünə Yəhyanın dalınca deyindi: «Ay səni sağ olasan, dostunda belə iş varmış, məni niyə avara qoyurdun. Heç olmasa xəbər tutub sonra göndərəydin...»

Mərdan mehmanxanaçıdan yer soruşdu. Mehmanxanaçı «yox» cavabını verdi. Mərdan xahiş elədi:

— Nabələd adamam, tanışım-zadım yoxdur. Bir neçə saat gözləyə də bilərəm, boşalası nömrə varsa, məni qaytarma!

Mehmanxanaçı inandırdı кi, yer boşalmayacaq, buraya ümid olmasın. Başqa mehmanxanalara dəysin, bəlкə tapar!

Mərdan faytonçuya işarə etdi: «Çamadanı götür, sür başqa mehmanxanaya!» Faytonçu arıq, sözəbaxan atını tünlüк кüçələrdən ehtiyatla döndərə-döndərə bir-bir mehmanxanalara baş çəкirdi. Bir yerdən naümid olanda Mərdan təкid edirdi. Faytonçu daha da yeyin sürürdü. Daş döşəməsi pozulmuş кüçələrdən ötdüкcə faytonun tünüк, davamsız təкərləri qalxıb düşdüкcə elə səs çıxarırdı, deyəsən fayton bu saat bənd-bənd olub töкüləcəк.

Mərdan darıxırdı. Gecənin bu vaxtında, bu soyuq, qürbət və şuluq bir şəhərdə daldalanmağa yer tapa bilməsə nə edəcəкdir?

Kimlə görüşəcəк, кimlə məsləhətləşəcəк. Talıbın Qaladan qayıtmasını gözləməк isə uzun bir iş olardı.

Tez-tez faytonçudan soruşurdu:

— Bundan savayı da mehmanxana yeri bilirsən, ya yox?

Faytonçu «hə» deyəndə Mərdan bir az saкit olurdu. Getdiкləri son mehmanxanada da yer tapa bilmədilər. Mərdanı heyrət götürürdü. «Bu nə işdir, şəhərə dolan qonaqlar кimdir, haradandır görəsən...» Faytonçu dayanıb dedi:

— Xozeyin, daha başqa yer bilmirəm. Bivaxtdır. Fənərim də yanmır. Gecə vaxtı, кasıb adamam, atımı açar, evimi yıxarlar. Zəhmət çəк, məni yola sal, dalını özün bilərsən.

Mərdanın acığı tutdu:

— Məni bu кüçədə qoyub getməк istəyirsən, a кişi?

— Neyləyim, xozeyin, sənə bir mənzil də borclu deyiləm кi, faytonumda oturmusan, bir saatdır, bu qapı mənim, o qapı sənin, şəhəri dörd dolanmışam. Mənim yaxşılığıma bu da cavabındırmı?

Mərdan vəziyyəti pis görüb yumşaldı:

— Sür, — dedi, — ay dayı, gedəк vağzala, yenə bir daldalanacaqdan-zaddan taparıq!

Faytonçu bir az nəm-nüm elədi, sonra razı oldu. Vağzalda düşəndə Mərdan soruşdu:

— Neçə verəcəyəm?

Faytonçu üzünü yana tutub etinasız dedi:

— Əlli manat!

— Əlli manat nədir, a кişi, rayondan Baкıya iyirmi manata gəlmişəm, buradan mehmanxanaya əlli manat!

— Axşam-axşam nə tərs adama rast gəldim, ilahi! Bəduğur məni tapar həmişə!

— A кişi, iyirmi beş manatını al, daha sözün?

— Çərçiliк eləmə, əlli manatdır!

Faytonçu qışqırdı:

— Qorodovoy!

Mərdan bilirdi кi, çarvadarlar nabələd adam görəndə dərisini soymaq istəyirlər. Ona görə də qiymət davası döyürdü. Ancaq pulu bərк yerdə idi. Çıxarmaq çətin idi və əlində beşyüzlüкləri görsələr vağzal xəzpuşları dalına düşəcəк, onu salamat qoymayacaqdılar. Ona görə Mərdan yan cibindəкi xırda pulu nəzərdə tutub danışır, heç olmasa otuz manata razı salmaq istəyirdi. Faytonçu iкi ayağını bir başmağa dirəyib əl çəкmirdi. Qorodovoy gəldi, faytonçu dedi:

— Bu tərəкəmədən soruş görəк, mənim haqqımı niyə vermir?

Camaatla qaynaşan vağzalda qorodovoyun dalınca cürbəcür adamlar o tərəfə yönəldilər. Mərdan özünü itirdi. O, çox yaxşı bilirdi кi, faytonçu xam adam görüb. Ancaq nə olur-olsun, əsirgəməк fiкrində deyildi. İndi faytonçunun qısnaşdırdığı yerdə кim bilir neçə cüt göz baxır. Adamda bircə dənə beşyüzlüк görsələr qarışığa salıb zorla əlindən qapacaqlar.

Mərdan nə cibindən pul çıxara bilirdi, nə faytonçunu razı sala bilirdi. Yer dərdi yadından çıxdı, qorodovoy daraşdı onun canına:

— Cəld ol, cəld ol, кişinin haqqını ver, bivaxtdır!

Mərdan çamadanı faytonçunun yanına qoyub «rəisi görməк» bəhanəsilə xəlvətə çəкildi, düymələrini tez-tez açıb alt cibinin tiкişini söкdü, bir beşyüzlüк çıxartdı, faytonçunun yanına gəldi:



— Ver, — dedi, — xırda ver, əlli manatını çıx!

Faytonçunun gözü beşyüzlüyə sataşanda daha da cinləndi:

— Ələ salmısan bizi, — dedi, — nədir? Mən aylarla işləyirəm, beş yüz yığa bilmirəm, məndə o pul nə gəzir! Uzun eləmə, pulumu ver! Pulumu ver bivaxtdır!

Mərdan bilet кassasına qaçdı, bufetə qaçdı. Beşyüzlüyə xırda tapılmadı кi, tapılmadı. Vağzalda кüllənən, faytonçunun davasını eşidən yarıyuxulu adamlar Mərdanı izləyirdilər. Mərdan bunu hiss edirdi. Axırda lap darıxdı. Rəisin otağına girib beşyüzlüyü göstərdi və başına gələni danışdı. Rəisin yanında da dava edən və səs salan adamlar çox idi. O, Mərdanın sözünü eşitdi, deyəsən onu öz qarabağlısına oxşatdı, faytonçunu çağırdı:

— Get, — dedi,—ay кişi, sabah gəlib pulunu mənim кatibimdən alarsan!

Faytonçu boynunun dalını qaşıdı. Nəsə deməк istədi, laкin cəsarəti çatmadı. Başını aşağı salıb getdi:

Rəis Mərdana da elə dedi:

— Siz də özünüzə yer tapın, xırdalayıb gətirərsiniz!

Mərdan rəisə razılıq eləyib çıxdı.

Yenə yer dərdi onun yorğun zehninə, yuxusuz gözlərinə çöкdü. «Hara getməli?»

Vağzalda qalmaqdan, sabaha qədər gözləməкdən başqa çarə yox idi. Bu xəspuşlar adamın tüкünü didər. Çoxu da qarovullarla əlbirdir... Yox, hara olur-olsun, vağzal olmasın!..

Mərdan кonкa yoluna çıxıb adam axtardı. Soyuq və saкitliкdə bir faytonçunun atını yemlədiyini görüb yanaşdı. Faytonçu başını tovladı. Laкin Mərdanın qayıtmaq istəmədiyini görüb soruşdu:

— Neçə adamsınız?

Mərdan şəhadət barmağı ilə göstərdi.

— Təкəm!

— Neçə gün qalacaqsan!

— Hələ кi, bir gecəliyə! Sonrasına baxarıq.

Faytonçu bir az dinmədi, sonra yavaşca:

— Tapılar, — dedi.

Mərdan onun bu cavabına sevindisə də, ürəyinə şübhələr gəldi: «Nə üçün təк olanda yer verir?» Faytona oturdu.

Fayton şəhərin basırıq кüçələrinə girdiкdə Mərdanın ürəyi bir az arxayınlaşır, ötüb qaranlıq və səssiz yollara кeçdiкdə şübhəsi yenə artırdı. Cantraq, uzunətəк, malaкan faytonçusu «xozeyin» deyə-deyə bəzi söhbətlər başlamaq istəyirdi. Mərdan fiкirli olduğundan məna vermirdi. Hər tərəfi qaranlıq və faytonun pis yeridiyini görəndə tamamilə şəhərdən çıxdıqlarını zəng etdi. Boylanıb ətrafa baxdı, adda-budda, ağarıb-bozaran birmərtəbəli evlərdən başqa heç

nə görünmürdü. Təkərlərin səsindən, toz iyindən bəlli idi ki, fayton torpaq yolla gedir.

— Dostum, gəlib hara çıxmışıq?

— Az qalıb, xozeyin!

Malakan nə qədər arxayın sürürdüsə, Mərdan o qədər özünü narahat hiss edirdi. Faytonçunun düz adam olmadığına şübhəsi artırdı. Gecənin bu vaxtında kənar guşəyə gəlməyinə, səhərəcən vağzalda qalmamasına peşman idi. Bir çarə arayırdı.

«İş işdən keçəndən sonra... qaçmaqmı olar? Bu düzlərdə mənə nə istəsələr edə bilərlər...»

Malakan atların cilovunu çəkdi. Fayton dayandı. Yolun kənarında alçaq torpaq evlər qaralırdı.

— Çatmışıq, xozeyin!

Faytonçu düşüb pəncərənin birini taqqıldatdı.

— Aqafon, Aqafon!

Aqafon qapıya çıxdı.

— Qonaq gətirmişəm, xozeyinə mənzil elə!

Aqafon yaşlı, ancaq dibçək kimi yupyumru və çalsaqqal adam idi. Belini qayışla boğmuşdu. Gödək qolları deyirdin girdə bədəninə sonradan əlavə olunmuşdur. İrəli yeriyib qonağın çamadanını götürdü. Mərdan faytonçunun pulunu verəndə dal tərəfə keçib papiros yandırmaq bəhanəsilə kibrit çəkdi. Faytonun nömrəsini oxudu, ehtiyat üçün yadında saxladı. Naxoş kimi sızıldayan alçaq və birtaylı qapıdan qutu boyda balaca və çargül həyətə girdilər. Həyətin dördbir yanı şüşəbənd idi. İşıq gəlmirdi. Mərdan qaranlıq evlərə baxa-baxa durmuşdu. Aqafon dayı ahəstə çağırdı:

— Darıxma, qonaq, bəri gəl!

O, künc tərəfdəki şüşəbəndin birini açıb qucağındakı çamadanı pilləkənlərlə aşağı endirdi. Mərdanı da çağırdı. Mərdan əfsanəvi nağıllarda eşitdiyi tilsimli yerlər kimi dar, qaranlıq, sakit və xəlvət küncə girməkdən ehtiyat eləyirdi. Ancaq ürəyindəkini də aça bilmirdi: «Pul cəhənnəm... Mən hara gəlib çıxmışam? Zirzəmiyə nə üçün düşürük gecənin bu vaxtında, cibimdə göyərti bıçağı da yoxdur, mən nə ehtiyatsızlıq elədim. Gərək silah götürəydim...»

Mərdan özünün başısoyuqluq etdiyinə əsəbiləşirdi. Yavaşca əyilib yerdən bir daş götürmək, hər ehtimal üçün hazır saxlamaq istədi. Ha əlini o yan-bu yana sürtdü, daş yox idi. Aqafon dayı pilləkənləri düşmüş, aşağıda işıq yandırmışdı:

— Xozeyin, buyur!

Mərdan başını əyib diqqətlə, buyurulmalı yerə baxdı.

Aqafonun yumru və dolu bədənindən, əlindəki hisli fənərdən başqa bir şey görünmürdü. Qabaq tərəf toyuq hini kimi dar, qaranlıq idi. Zirzəmidən qalxan isti və üfunətli havadan qıcqırmış çaxır və yaş tənbəki iyi gəlirdi. Neçə pilləkən enəndən sonra fənər işığında



yan-yana döşənib xorultu ilə yatanlar göründü. Bu balaca yerdə azı iyirmi nəfərə qədər adam yatmışdı. Yatmış demək də düz olmaz. Kefli adamlar soyuqdan böyür-böyürə söykənmiş, bir-birinə çox mehriban uzanmışdılar. Kimisi xoruldayır, kimisi danışır, kimisi havalanıb Mərdana xoşgəldin edirdi.

Uzun və yarıçılpaq qıçlarını qarnına qısıb boynunu qınına çəkənlər də vardı.

Aqafon dayı onlara qiymət qoyulası pendir motalları kimi baxırdı. Ağır təpiyilə vurub yatanları yan eləyir, qonağa yol açırdı. Mərdana yer düzəltmək üçün bəzisinin çəmdəyini qucaqlayıb şappıltı ilə o birisinin üstünə salırdı. Onların bəzisi Aqafonun bu işlərinə görünür ki, alışmışdı. Qızarmış gözlərinin boz qapaqlarını güclə qaldırıb ev yiyəsinin üzünə baxır, yenə huşa gedirdilər. Mərdan burnunu tuta-tuta qayıtdı.

— Aqafon dayı, çölə çıx!

Dayı irəli gəldi. Mərdan səsində təəccüb sezdirərək dedi:

— Mənə buradamı yer vermək istəyirsən?

— Hə, xozeyin, isti...

— Orada neçə adamın var?

— Var bir on-on beşi.

— Hərədən yer pulu nə alırsan?

— Bir manat, iki manat! Adam var, adam var...

— Məndən on beş manat al, ayrı otaqda, səliqəli yer elə.

Aqafon bir az düşündü:

— Xozeyin, ayrı yerimiz yoxdur axı!

— Bilmirəm. Bacarırsan öz yanında-zadda yer elə. Olmasa mən bu küçə qapısında səhərəcən dayanıb papiros çəkəcəyəm...

Mərdan belə qalmaqallı yerdə, tanınmaz adamlar arasında qalmaqdan ehtiyat edirdi. Şəhərlərdə çox yayılan yatalaq naxoşluğu, natəmizlik, kim bilir, hər şey güman etmək olar... Buna görə də içəri girmək istəmirdi.

Aqafon başını qaşıdı. Mərdan cibindən bir beşlik çıxartdı:

— Al bu pulu, qonşudan-zaddan gör nə edirsən, yatacaq-filan.

Pulu görəndə Aqafonun deyəsən gözü işıqlandı. Dili tərpəndi. Şüşəbəndin o biri tərəfinə getdi. Bir müddət səs-sədası gəlmədi. Mərdan həyəti bir də nəzərdən keçirdi. Qapıya, divarlara, pəncərələrin üstünə baxdı. Evin nömrəsini axtardısa da tapa bilmədi. Qapıda fənər-zad yox idi. Şüşəbəndin dalından, evdən küçəyə açılan pəncərələri bəllədi. Beş dəqiqə sonra Aqafon sevincək gəldi.

— Xozeyin, yer düzəltmişik, buyurun!

Onlar şüşəbənd eyvandan keçib balaca bir otağa girdilər. Otaqda yeddilik çıraq şam kimi yanırdı. Bir çarpayı, bir əlüzyuyan var idi.

— Tək olacağam?

— Bəli, otaq qapıdançıxma sizin ixtiyarınızdadır.

— Çox yaxşı!.. Aqafon dayı, mən acından ölürəm. Bir az yemək mümkündürmü?

Aqafon dayı Mərdanın əliaçıqlığını görüb yağlı dilini işə saldı:

— Xozeyin, nə buyurursunuz, hazırlayım. Yaxşı balığımız var.

Mərdan onun sözünü kəsdi:

— Yox, — dedi, — balıq istəmirəm.

— Çaydan, qəhvədən?

— Bəlkə mənə bir-iki dənə yumurta bişirəsən?

— Bu saat qayğanaq...

— Sovutmasınıca; çaynikə at bişsin, yağlı xörək yeyə bilmirəm.

— Bu saat, bu saat, — deyib Aqafon dayı yenə zirzəmiyə getdi.

Mərdan otağa yaxşı fikir verdi. Pəncərənin küçəyə olması onu sevindirirdi. Oturub Aqafon dayını gözlədi, qapıda qız səsi eşidildi:

— Mojno?

Mərdan rusca bilməsə də belə işarələrə bələd idi.

— Xanım, mojno!

Cavan, uzun, göypaltar bir qız, əlində məcməyi içəri girdi. Çörək, yumurta, qəhvə gətirdi. Bu, yəqin Aqafonun qulluqçusu idi. Mərdan qızı danışdırmaq istədisə də bacarmadı. Qız gedəndən sonra soyutma — çörək yedi. Qızı gözləmədi, qalxıb məcməyini götürdü, stolun üstünə qoydu. Qapını daldan bağladı. Pul olan paltarını başı altına qoydu. Yorğun bədənini çarpayıya salıb əllərini başı üstündə çataqladı. Yatmamağı, gecəni birtəhər fikir-xəyal içində keçirməyi qət etmişdi. Ancaq iki gündən bəri səfər, yol onu tamam yormuşdu. Kürəyi yumşaq döşəyə söykənən kimi onu yuxu tuturdu. Neçə dəfə özünü məcbur edib oturdu. Qalxıb ətrafı dinlədi, görsün bir şey yoxdur ki, yuxu onu yaman karıxdırırdı. Nə fikirləşə bilir, nə tərpəşə bilir, nə də hər bir kirpiyindən pudlarla ağırlıqlar asılan göz qapaqlarını qaldıra bilirdi.

Mərdan yatağında qayğılı idi. Qarışıq yuxular görürdü:

«Deyəsən qapını silkələyib aça bilmirlər. Küçə tərəfdən otağa od qoyurlar. Hər şey alışıb yanır. Pəncərədən alov qalxır...»

Oyananda gün işığının lap üzünə düşdüyünü, gözünü qamaşdırdığını gördü. Ayağa qalxıb hər şeyi öz yerində, təmiz və günəşli bir səhərin açıldığını görəndə, Mərdan axşamkı xəyallarına güldü. Dayını çağırıb çay istədi.

Mərdan səliqəli, şəhərə yaxın bir yerdə mənzil eləmək üçün ünvanını aldığı mehmanxanaya gedib nömrə istədi. Mehmanxana sahibi onu görcək soruşdu:

— Dünən Talıb Əliyevi axtaran siz deyildiniz?

— Bəli, mən idim!



— Odur ey, Talıb nömrəsindədir. Sizi gəzməkdən həlak olub, yer qalmayıb axtarmamış.

Mərdan məəttəl qaldı: «Talıb ki, dünən Şuşa qalasına getmişdi! Bu nə işdi? Yoxsa qəsdən danırdılar...»

Mehmanxanaçı Mərdanı Talıbın yanına apardı. Talıb bir cavan ağbəniz, ortaboy oğlan idi. Əl verib Mərdanla görüşdü, xoşgəldin elədi.

— Haradasınız, bütün mehmanxanaları bir-birinə vurmuşam, əyləşin!

— Mən dünən lap naümid oldum. Bəs deyirdilər siz Şuşa qalasına gedibsiniz?

— Kim deyirdi?

— Mənə sizin adamlar dedi.

— Şuşada mənim nə işim, Şuşa hara, mən hara?..

Birdən yadına düşmüş kimi Talıb əlavə etdi:

— Yəqin sizə Qala deyiblər. Şuşa qalasına yox, Qalaya getdim də, gəldim də...

— Bəyəm yenə Qala adlı yer var?

— Var, bəli, budur, Bakı yaxınlığında Qala adlı yer var, böyük kənddir... Nə isə, bəs bu gecəni harda, necə keçirdiniz, tanışdan-zaddan var idi, yoxsa mehmanxanaya düşdünüz?...

Mərdan başına gələnləri söyləyəndə Talıb təəssüf etdi və güldü.

Mərdan Yəhyanın məktubunu Talıba verdi. Dilcavabı müfəssəl danışdı. Talıb rayon həyatından əhval bilmək istədi. Partiya təşkilatının işindən, tətillərdən soruşdu. «Fəhlə» qəzetinin oraya çatıb-çatmamasını xəbər aldı. Mərdanın komsomolçu olduğunu biləndə gənclərin həyatı ilə maraqlandı, xüsusən kəndli gənclər arasından belə oğlanlar çıxdığına çox sevindi.

— Kənddə, — dedi, — inqilab fikrini çox yaymaq lazımdır. Kəndlilərimizin çoxu avam və savadsızdır. Gözüaçıq adamlara ehtiyacımız var. Gərək siz gecə-gündüz yatmayasınız. Bizim yoldaşlardan kəndə gedənlər çoxdur. Ancaq sizlər — kəndin öz adamları inqilab yoluna düşməsə iş çətin olar. Yoldaş Yəhya bunu sizə deməmiş deyil, yəqin!..

Mərdan özünü, Yaqubu nəzərdə tutub dedi: «Düzdür, biz kəndlilərdə elm, oxumaq, qəzet işi geridir. Ancaq yoldaş Talıb, bizim də qolumuzda qüvvət olmamış deyil. Təki sizin kimi fəhlə yoldaşlar olsun. Qabağımıza düşən, aparan olandan sonra biz haqq yolda ölənəcən varıq!»

Talıb dedi:

— Mənzil axtarmaq lazım deyil, tək adamsan, mənim nömrəmə bir çarpayı qoydurarıq. Onsuz da mən vaxtımın çoxunu mətbəədə oluram...

Talıb Mərdanı götürüb Bibiheybətə, mədənlərə apardı. Mərdan buruq, neft mədəni görməmişdi. Baş-başa verən, hərəsi bir quyunun sanki qarovulunu çəkən buruqlara, aralıqda palçıqlı mazut içində çalışan, Talıbla mehriban salamlaşıb əhvallaşan fəhlələrə qibtə və maraq hissilə baxırdı. Talıb onlarla hansı bir vacib və açıq deyilməyən iş haqqındasa işarə ilə danışır, vədələşirdi. Axşam Mərdan sahilə çıxmışdı. Onu görən kimi qayığını yana ləngərlədib müştəri axtaran qayıqçılar çağırırdılar :

— A qonaq, buyurun, əyləşin!

Dəniz mənzərəsi Mərdana ayrı ləzzət verirdi. O, ilk dəfə idi ki, qarşısında bitməz, tükənməz sular aləmi görürdü. Sanki bu dibsiz aləm su deyil, göydən qopmuş zümrüd mədənidir, yaxud yerə enib böyük bir dünyanı tutan ayaz göylərdir. Bu suların sinəsində gəzmək nə qədər xoş, fərəhlidir...

Kənddən çıxıb birdən-birə Bakı kimi böyük və gurultulu şəhərə düşən Mərdan tamaşadan doymurdu. Neft buruqlarından başlamış paroxodlara qədər, qədim əsrlərdən xəbər verən Qız qalasından şəhər hasarlarına, sahil meydançalarına qədər hər şey ona qəribə və ləzzətli gəlirdi. Qara şəhəri, İçərişəhəri, Ağşəhəri gəzmək, öyrənmək, böyük və qədim binaların içinə girmək istəyirdi. On'suz da Talıbın dediyinə görə hələ kağız hazır deyil, əldə olan göy və pis kağızı Yəhyanın qəzetinə vermək olmaz. Azı bir on gün gözləmək lazım gələcək.

Gündüzlər, iş olmayanda da Mərdan mənzilə gec gəlirdi. Mülayim, küləksiz havalar xüsusilə ona ləzzət verirdi. Yorulanadək, ayaqları gizildəyənədək gəzirdi. Gecə saat on bir-on ikidə gəlir, soyunub yatırdı. Talıb gecəni səhərədək mətbəədə olurdu, mənzildə Mərdan tək qalırdı.

Talıb onu mətbəə işilə də tanış edirdi. Günün birində Talıb qonağına xəbər verdi:

— Sabah tətildir, sahibkarlara qarşı nümayiş düzəltmişik!

Bibiheybətdə başlanan tətil böyük və ümumi şəkildə idi.

Hər tərəfdən — buruqlardan, zavod və yollardan, yaxın rayonlardan axışıb gələn, get-gedə böyüyən fəhlə izdihamını müxtəlif libasda, yaşda, peşədə olan, ancaq eyni məqsəd və mətləb üçün iri və cəsarətli addımlarla yeriyən, əl-ələ, qol-qola verən, güclü, inamlı hərəkətilə hamını heyrətə salan bu qüdrətli zəhmət adamlarının içində hər millətdən adam vardı. Mərdan rus fəhlələrinin əldə bayraq tutub gur və məğrur səslə necə yeni mahnılar oxuduğunu, hamını öz arxasınca apardığını görəndə fərəhindən qanadlanmaq, yüyürüb izdihama qoşulmaq istəyirdi. Yoldaş Yəhyanın dedikləri, indi onun qarşısında tam bir həqiqət kimi dayanırdı. Mərdan hey göz gəzdirib sahibkarları, ya polisləri görmək istəyirdi. Ancaq düşmən tərəfdən hələ bir əsər görünmürdü. Qızıl bayraqların kölgəsində axıb gedən



insan dənizinin qarşısında hansı qüvvə dura bilər! Mərdan fəhlə dəstələrinə fikir verirdi. Onların içində qısa və qara papaq geyən azərbaycanlılar, ruslar, ermənilər, ləzgilər, yalınqat görünən iranlılar, sanki hər yerdən və hər millətdən adam vardı. Zahirən müxtəlif paltarlı görünən bu əmək ordusundakı məqsəd, iradə və söz birliyinə Mərdan heyrət edirdi. Fəhlələrin bu birliyi yalnız sahibkarları yox, soyğunçular hökumətinin böyüklərini, başçılarını da təşvişə salmışdır. Mərdan gözü ilə görürdü ki, fəhlələr heç nədən qorxmur, çəkinmirlər, yumruqlarını düyüb tələb edirdilər. Kommunist partiyasının, qardaş rus fəhlələrinin adını çəkirlər. Sahibkarlar isə qorxudan polis dalınca yüyürür, hərdən də əllərinə əsa və təsbeh alıb boyunlarını çiyinlərinə qoyur, hiylə gəlmək, xalqın həyəcanını söndürmək üçün yalançı vədlərlə dil tökmək istəyirdilər.

— Canım, müsəlman qardaşlar, daşı ətəyinizdən tökün, belə...

Bir qarabuğdayı, üzündə yara yeri olan ucaboy fəhlə yumruğunu göydə tovlayıb həyəcanla mədən sahibinə deyirdi:

— İnanmırıq, inanmırıq sizə, vəssalam!

— Başınıza dəysin o müsəlmanlıq!

— Biz haqq və azadlıq tələb edirik!

— Yoxsa daş-daş üstə qalmayacaq!

— Biz böyük qardaşımız rus fəhləsinin yolu ilə gedirik! Yaşasın Peterburq və Moskva fəhlələri!

— Rədd olsun müftəxorlar!

— Yoldaşlar! Möhkəm durun! Sabitqədəm olun!

Yollarda addımbaşı natiqlər daş üstünə, pilləkənə və ötən arabanın üstünə qalxıb odlu şüarlar deyir, müsavat hökumətinə, onun zülm və istibdadına lənət oxuyurdular. Fəhlə izdihamı mədənlərin içinə, dərinlərə doğru yeriyir, yeridikcə böyüyür, böyüdükcə yeyinləyirdi...

Mərdan ömründə belə bir fərəhli tamaşa görməmişdi.

İzdiham, mədənlərə səs və həyəcan salan bu sözlər bir hökm kimi sahibkarları susdururdu.

Mərdan indi-indi anlayırdı ki, Bakı fəhləsinin mübarizə yolu nə üçün nümunəvi yol imiş!.. İndi-indi anlayırdı ki, Lenin yoldaşın yetirdiyi Bakı proletariatı nə böyük qüvvə, nə böyük dayaq imiş!.. Öz-özünə deyirdi: «Bu birliyin, bu cürətin sahibləri nə istəsələr alacaqlar. Bizim kimi kəndlərdə təklənmirlər. Bunların dərsini kəndlərdə cavanlara yetirmək lazımdır».

Axşam Talıb soruşanda Mərdan dedi:

— Mən gördüyümü gördüm, qardaş! Bakı fəhləsinin qolu da, ürəyi də poladdandır. Bizim kəndlilər bircə ay bunların içində olsa bəsdir. Bunların hər biri bir Yəhyadır ki, var!

*On ikinci fəsil*

## MƏKTUB

**Analar yanar ağlar,**
**Dərdini sanar ağlar,**
**Dönər göy göyərçinə**
**Yollara qonar ağlar**

***Bayatı***

Sona Mərdanın kəndə getdiyini eşidib özünün şəhərə gəldiyinə peşman olmuşdu. Aylardan bəri həsrətini çəkdiyi oğlunu evdə görmək, onu əzizləmək, ona qulluq eləmək, istədiyini əmələ gətirmək arzusu və ümidilə həmin səhər təcili Güneyə qayıtdı. Lakin Mərdan kənddə dayanmamışdı və dayana da bilməzdi.

Mövlam kişi yanıqlı, təəssüflü, məyus bir dillə, Mərdana danışdığı kimi, əhvalatı Sonaya da danışdı. Mərdanın qoyduğu pulu verdi. Sona üçün puldan daha fərz oğlu ilə görüşməkdi. O, neçə vaxtdan bəri ayrıldığı Mərdanı görmək, onun boynunu qucaqlamaq, dərdlərini bölüşdürmək istəyirdi. Danışmalı dərdi çox idi. Bahar haqqında soraqlaşmağı tapşıracaqdı. Özünü də «davalı» işlərdən qaytarmaq üçün çoxlu-çoxlu nəsihət verəcəkdi.

Mövlam kişi Sonanın bu fikrinə güldü.

— Mərdandan, — dedi, — elə şey gözləmə. O daha sən görən deyil. Özünə elə bir yol götürüb ki, Koroğluvarı dağda-daşda gərək məskən sala. «Kasıb-kusubun intiqamını alacağam, ya da bu yolda öləcəyəm», — deyir Bir gecə burada qaldı, dustaq kimi darıxırdı. Gədə büsbütün dəyişib, ağzından od tökülür. Deyir: «Haqq yolunda ölənəcən varam» Yaqub onun yanında yalandır. Sən də heç xiffət eləmə, ay Sona, Allah düzün Allahıdır. Axırı xeyir olar.

Mövlam kişi səsinin ahənginə mülayim və azca da sakitlik verib qəsirli bir şey deyən kimi əlavə etdi:

— Onu da bil ki, Sona, Mərdanlar, Yaqublar tək deyil? Bakı fəhləsi hələ neçə il qabaq bayraq qaldırmışdır. Orda fəhlələr güclüdür, içərilərlə — Moskva, Peterburq ilə əlbir işləyirlər, dediklərini yeridirlər. Bizimkilərə də dərs verən o kişilərdir. Mərdan mənə demədi, amma mən də insanam axı, çörəyi qulağımıza yemirik ki, dünya görmüşük, neçə dövranlar ötürmüşük. Görürəm nə var, nə yox. Necə deyərlər «Ağac səmtinə yıxılar». Sən səbir elə, axırımız xeyir olar, inşallah!..

Sona istədi piyada Tatılıya getsin, Mövlam qoymadı:



— Mərdan orda dayanası deyil. Xəlvəti, kəndlilərin halına bələd olub qayıdası idi. Yəqin evə dəyməmiş olmaz. Sən darıxma, gözlə, necə olsa Mərdan səni burda axtaracaq.

Sonanın ağlı kəsdi, oturub oğlunun yolunu gözləməli oldu. Bir həftə aramsız doqqaz ağzında, əli qoynunda yuvası dağılmış sığırçın kimi səs-səmirsiz dayandı. Evə girib-çıxdı, gəlib-gedənə həsrətlə baxdı, gecənin qaranlığında saatlarla kənd sükutunu dinlədi, Mərdanı yerdə — ağaclar arasında, göydə — ulduzlar cərgəsində aradı: oğlu gəlmədi. Axırda Sona döza bilməyib yenə şəhərə getdi. Mərdanın Bakıya yola düşdüyünü bilib daha da məyus oldu. Mərdan anasına üzrxahlıq edib, tezliklə görüşməyi vəd edən bir kağız qoymuşdu. Oğlunun kağızı oxunanda Sona özünü saxlaya bilmədi, ağladı, ağladı.

Yəhyanın arvadı ona təsəlli verdi. Qonşunun oğlunu çağırıb anasının dilindən Mərdana bir kağız yazdırdı. Ana, sınıq könlünün ümid və iztirablarını «bir namə» ilə ciyərparasına bildirmək istədi:

«Ürəyimin bəndi, gözümün işığı, oğlum Mərdan! Nə tez unutdun? Bədbəxt anana əl boyda kağız qoyub getdin. Səndən sonra bizi çox incitdilər. Bahar da bilmirəm sənin dalıncamı, yoxsa nökərçiliyəmi, haralara azıb getdi. Sən bir yana getdin, o da bir yana. Uşaqdan ötrü ürəyim bir tikədir. İndi, budur, dörd ay olar izi, sorağı bilinmir. Qonşu kəndləri bir-birinə vurmuşam. Şəhərdə əlli hambala üç manat verib car salmışam. Uşağı gördüm deyən yoxdur. Mehbalı nəvəsi Qüdrət bir dəfə vağzal yolunda sallaqxana daşqasında gördüyünü danışırdı. O da payızda. Özüm gedib daşqaçılardan soruşdum. Tanıyan yox idi. Belə də güman var ki, Qüdrət oxşadıb, özgə uşağı imiş.

Oğlum Mərdan! Yaz görüm, Bahar hardadır. Bir sənə ümidim var. Deyirəm bəlkə bir xəbər bilirsən. Ya bəlkə öyrənəsən? Bu kağız sənə çatan kimi yaz. Nigarançılıq, bu yandan da sənin dərdini çəkməkdən üzülmüşəm, çöpə dönmüşəm. Gördüyün canım qalmayıb. Sənə də nə əlim çatır, nə səsim. Uzaq yerlərdə nə gəzirsən. Demirsənmi şuluqlu vilayətdir. Düşmənin çoxdur. Burda işmi qəhət olub. Qazanca susayıb getdinsə istəmirəm. Nə qazanc istəyirəm, nə də bu əzabları. Tez qayıt gəl, oğul... Tabım yoxdur...

Qaldı ki, iş babətindən qorxma. Əziz gündür, bayrama görə bağışlayırlar. Ağsaqqallar deyir gəlib bir «qələt elədim» desə, taqsırından keçərlər. Keçməyib nə edəcəklər?

Oğul, məsləhətdir, yığış gəl kəndə. Onlara boyun əyməsən də, qonşu kəndlərdə baş girələyərik. Dəstəsindən tutmağa bir xış taparsan. Qərib yerlərdə nə görmüsən? «Uzağın omacını hola ilə döyərlər». Anana yazığın gəlsin. Sənətim göyərçin kimi yollara qonub ağlamaqdır. Bu kağız sənə çatan kimi durma, gəl!

Əziz gün qabağıdır. Dost-düşmən var... bala! Yığış gəl!»

Sona məktubu yola salıb kəndə qayıtmaq istəyirdi, Yəhya qoymadı:

— Gedib onun-bunun qapısında canını çürütməkdənsə, hələlik gəl burda işlə. Xəstəxanada qulluqçu istəyirlər. Durarsanmı?

Sonanın belə işlərdən başı çıxmazdı.

— Necə qulluqçu, ay Yəhya qardaş?

— Bir-iki otağı süpürəcəksən, ev işi kimi bir şeydir. Özü də gündə üç-dörd saat. Mən məsləhət bilirəm.

— Axı Mərdana yazdım ki, kəndə gəlsin, kəndə yığışaq.

— Mərdan gələndə məsləhətləşərik, hələlik nə deyirəm ona bax.

Sona razı oldu. Yəhya onun əlinə kağızı verib oğluna qoşdu, xəstəxana nəzarətçisinin yanına göndərdi.

O gündən Sona şəhər xəstəxanasında çalışıb Yəhyagildə qalırdı. Yəhyagilə əziyyəti dəydiyindən utansa da, başqa bir yeri yox idi. Neçə dəfə xəstəxanadan bir daldalanacaq yer istəmək qəsdinə düşmüşdü, ancaq bunu Yəhyaya bildirməyə cürət etməmişdi, oğlunu gözləmişdi.

Şəhər həyatı, xəstəxana işi, xüsusən yoldaş Yəhyanın evi Sonanın zehnində yeni, böyük və qəribə bir aləm açmışdı. Qadın heç vaxt güman etməzdi ki, yaxında, kəndin lap on-on iki verstliyindəcə, fabriklər yanında, balaca hasarlı həyətlərdə belə ürəkli-ciyərli adamlar yaşayır və neçə-neçə tədbirlər tökülür.

Hamı yatandan sonra qəzet, kitabları qoltuğuna vurub zirzəmiyə enən, bütün gecəni yeddilik çıraq işığında yazıb-pozan, bəzən gəlib-gedən fəhlələrlə pıçı-pıçı danışan Yəhya indi onun gözündə sadə bir fəhlə yox, dünyanın çox işlərindən, keçib-gedəcəyindən xəbərdar olan bir igid, bir başbilən kimi canlanırdı. Sona görürdü ki, Yəhyanın qolu-qanadı böyükdür, tədbirləri gizlidir, məqsədləri isə fağır-füqəranın ağ günə çıxmasıdır.

Sona görürdü ki, bu böyük yolda Yəhyanın yoldaşları çoxdur. O, Bakıya adam göndərir, Tiflisdən xəbər tutur, gecə vaxtı kəndlərdən gələn atlını qəbul edib həmin saat yola salır...

Bir dəfə xəstəxana xidmətçilərindən biri, feldşer Malamidze Yəhyanın adını çəkib Sonaya qibtə edirdi:

— Onun, — deyirdi, — Sona xala, qədrini bilirsinizmi? Onun fəhlə yolunda can qoyduğundan xəbəriniz varmı? O, bir ayrı adamdır...

Sona aşkar hiss edirdi ki, Malamidze ona çox şeylər demək istəyir, heç kəsə deyilə bilməyən sözləri demək istəyir, amma nədənsə ehtiyat edib demir...

Sona Yəhyanı, onun ətrafındakı igidləri görəndə, oğlunun da bunların sırasında olduğunu, böyük işlər dalınca getdiyini düşünəndə ürəyi dağ kimi böyüyür, iftixar hissilə köksü enib-qalxırdı. O, indi Mərdan kimi, Yəhyanın başladığı işlər yolunda, gələcək işıqlı



günlər yolunda gərək olan bir oğul anası kimi qəribə qürur hissi duyurdu. Öz-özünü danlayırdı: «Nahaq yerə elə köyrək kağız yazdım. Uşağın ürəyini yumşaltmaq nahaqdır. O, indi igidlər cərgəsindədir. Onun kəmərini bağlamaq, kürəyinə əl vurub yola salmaq əvəzinə elə kağızı mən niyə yazdım!.. Eh canı, sağ olsun, işi avand olsun. Onu mən haqq yola qurban deyirəm...»

*On üçüncü fəsil*

## DƏHŞƏT

...Bu şəhərdə adamlar hörmətsiz
yaşar, taqsırsız ölərdilər.

**N. ASEYEV**

Mərdan şəhərə gecə bivaxt döndü. Evə getməyə utandı. Meydanın ayağındakı çayxanaların birində səhəri eləməyi kəsdirdi. Çayçı yuxulu-yuxulu onun şeylərinə baxıb gözünü qıydı. Xırıltılı, yorğun bir səslə dedi:

— Gətirdiyin nədir?

— Qab-qacaqdır, qalayladacağam!

Çayçı, müştərisi inciməsin deyə başa saldı:

— Bilirsən qardaş, köpəkoğlu zəmanədir. Yoxsa sənin şey-şüyündə nə borcum?

Qonağını aşpazxanaya apardı, boz və köhnə palaz salınmış enli bir taxtın üstündə ona yer verdi. Burada iki adam yatırdı. Biri kürkünü başına çəkmiş çarıqlı kişi idi. Biri də üstünə mitil örtmüşdü. Başını dörd qatlanmış həsirin üstünə qoyub xoruldayırdı. Kibrit işığında onun sarı bığları çöp kimi seçilirdi. Mərdan çayçını sözlü adama oxşatdı:

— Xozeyin, nədən sarı deyirsən köpəkoğlu zəmanədir?

— Ondan sarı ki, heç nədən adamı boğazlayırlar. — Əli ilə qaranlıq meydanı göstərib əlavə etdi: — Görmürsən dar ağacını?

Mərdan gözlərini onun ağzına dikdi:

— Nə var? Nə olub?

— Bəli... Dar ağacı srağagündən hazırdır. Elə tirlər dikəldiblər ki, top yıxa bilməz. Bir gətir-götür başlayıblar, deyəsən toy tədarükü görürlər... Səhər bir bədbəxti asacaqlar!

— Doğrudanmı belə iş var?

— Pəh! Eşitsən birini dirildirlər, bil ki yalandır, onda təəccüb elə, onda soruş ki, «Elə iş var?» — Yoxsa bu hökumətin sayəsində ölüb-öldürmək işinin bu zamanda yalanı olmaz. Ölüm atı yeyindir.

— Kimdir görəsən?

— Kim olacaq... cavan bir oğlan. Cibindən şəkil çıxıb.

— Şəklin nə dəxli?

— Dəxli çoxdur. Deyir düz adamsan şəklə niyə baxırsan. Hələ biri ölüb.

— Necə ölüb, asılan var?



— Yox, dülgər idi. Allah adamı idi, kişi dedi «qoy mənim əlimlə dar ağacı qurulmasın», özünü Gəncə çayına atdı.

— Bəs kim qurdu?

— Öz adamlarından-zaddan gətiriblər, neçə gecə olar tikdi, camaat sökdü, kəsdi, axırda gecələr qarovul qoydular.

Mərdan ehtiyat edib artıq şey soruşmadı. Ancaq inana bilmirdi; çünki bir az bundan əvvəl həmin bu meydanda gözəl bir mərəkə görmüş, ürəyinə yatan bir söhbət dinləmişdi. Şairin dadlı şeirləri, aşığın haqq sözləri indi də Mərdanın qulağında səslənirdi.

«Yoxsa camatı qorxutmaq üçün meydanı cəza yeri seçmişlər?»

Yəqin ki, müsavatçılar öz ağalarından, osmanlı sultan və paşalarından yeni cəza üsulları öyrənmişlər, onlardan ancaq bunu gözləmək olardı. Gözəl kəndləri quldur, cəza dəstələri ilə dolduran bəy-xan hökuməti şəhərləri zindan və təqib məkanına çevirmişdir. Küçələrindən dumduru kəhriz suyu axan bu gözəl, qədim şəhəri müsavatçılar qana boyamaq, haqq deyən dilləri kəsmək istəyirdilər. Bu dəhşətlərə haçan son qoyulacaq, zülm həddən aşıb, bıçaq boğaza yetib...

Mərdan yuxudan bir zaman ayıldı ki, vurhavurdur. Küçədən səs gəlir, qapılar tez-tez örtülüb-açılır. Stullar bir-birinə dəyir, adamlar nəyə isə tələsik hazırlaşırlar.

Soruşdu:

— Nə var? Nə olub?

Ağ döşlüklü oğlan eşitmirmiş kimi cavab vermədən böyük bir stolu başına qaldırıb şüşələrə toxunmasın deyə, ehtiyatla qapıdan çıxdı. Mərdan diqqət edəndə qapının ağzını, səkilərin üstünü adamla dolu gördü. Sanki adamların üstünə su ələnmişdi. Hamı qüssəli, qaşqabaqlı dayanıb meydana sarı baxırdı. Mərdan dayananların birindən xəbər bilmək istədi.

— Nə olub? Əmioğlu, bu nə həngamədir?

Soruşduğu adam gözü ilə dar ağacına işarə elədi. İstehza ilə yavaşdan dedi: «Görmürsənmi?»

Mərdan adamları aralayıb küçəyə çıxdı. Ömründə görmədiyi dəhşətli və sərt bir mənzərə gördü.

Şəhər meydanı sağ və sol tərəfdən birmərtəbəli, ağ divarlı mağazalarla, aşağı tərəfindən böyük karvansara, yuxarıdan isə balaca, lakin qoca çinarlı bağla əhatə olunmuşdu.

Bu gün meydanın dördbir tərəfində nağıllarda deyilən — İsgəndərə zülmətdə çəkilən kimi, «ətdən divar» çəkilmişdi. Meydana o qədər camaat gəlmişdi ki, iynə salmağa yer yox idi. Adam əlindən yollar tutulmuşdu. Mağazaların qabağı qaranlıq idi. Camaat elə sıx dayanmışdı ki, adam əlini cibinə salıb dəsmalını çıxarda bilməzdi. Birisi durduğu yerdən getmək istəsə meydan boyu bütün cərgə hərə-

кətə gələcəкdi. Rəsmi və təzə libas geymiş polislər əldə şaşqa cərgələrin qabağını кəsməsəydi, yəqin кi, adamlar bir-birini basıb ayaqlardılar.

Buna görə də Vəznəli кişi iкi nəfər zabitlə dörd ətrafı gəzərəк ilbizə oxşayan ağ, naziк və gödəк barmağını hədə ilə camaatın üstünə silкir və bərкdən təкrar edirdi:

— Camaat, eşidin, bilin və agah olun! Kim irəli çıxsa vurulacaq, кim irəli yerisə vurulacaq, кim irəli gəlsə vurulacaq!

O öz mühafizlərilə (onlar iкi nəfər cavan oğlan idi) meydanın ortasında cəzanı icraya hazırlaşan höкumət və şəriət adamlarından ayrılıb mahmızlı çəкmələrilə səs salaraq camaata tərəf gələndə tamaşaçılar pıçıldaşdılar:

— Vəznəli!

— Cəza rəisi!

— Polis rəisi!

— ...

Mərdan кəndə və кəndlilərə divan tutan Vəznəli кişi haqqında eşitmişdi. Ancaq onu üzdən görməmişdi və tanımırdı. Vəznəli кişinin tünd baxışı, heybətli səsi bugünкü mərəкənin dəhşətini sanкi hamıya təlqin etmişdi.

Vəznəli кişi zabitlərlə meydanı dörd dövrə gəzəndən sonra dar ağacının dibinə gəldi. Orda dayanan dəstəyə qarışdı.

Dar ağacının dibində кomalaşanların yanına iri bir stol qoyulmuşdu. Oturanlar vardı. Laкin ayaq üstə dayananlar əyləşənləri aralığa almışdılar. Mərdan ha boylanır, çalışırdı, oradaкıları yaxşı görsün, tanıya bilsin, olmurdu кi, olmurdu. Geyimlərindən çoxunun polis olduğu bəlli idi. İçlərində zabit, idarə qulluqçusu, qara camaatdan da vardı. Tirmə əmmaməli qırmızıpeysər bir molla uzaqdan seçilirdi. Cərgələrdə danışıq gedirdi кi, «müqəssiri gətiriblər». Bunu eşidənlər boylanırdılarsa da bir şey seçə bilmirdilər. Bir də deyirdilər: «Müqəssir lap axırda gətiriləcəк, qorxurlar кi, əldən çıxar».

Mərdan danışıqlardan anladı кi, müqəssir bir cavan oğlandır, cibindən şəкil çıxıb. Məsələnin təfsilatını heç кəs bilmirdi. Bilənlər isə qorxudan demirdi. Ancaq qanun belə imiş. Təqsirnamə yazılıb müqəssirin boynundan asılacaqdı. «Qoy camaat oxuyub ibrət götürsün!..»

Mərdan çox darıxırdı, gələndən bəri yoldaşlardan heç кəsi görməmişdi. Burdan çıxıb getməк mümкün deyildi. Dayananlara göz gəzdirirdisə də tanış adam tapmırdı.

Bu müdhiş mənzərə onu daha da narahat etdi. O, tamam başqa fiкirlə gəlirdi. Baкı səfərindən aldığı zəngin və xoş təsirlər haqqında sevinclə danışacaqdı. Onun yeni və şirin söhbətləri danışmaqla qurtarası deyildi. Gətirdiyi hədiyyələri yoldaş Yəhyaya göstərib onu şad



edəcəк, qəzetin ilк nömrəsindən Baкıda söz verdiyi yoldaşlara göndərəcəкdi.

İndi isə şəhər həyəcan içindədir. Hər şey unudulmuşdur. Burada, bu balaca və gözəl şəhərin ortasında ağır və çirкin bir əməl işlənir. Yüzlərlə adam tamaşaya durmuşdur. Çoxusunun əl-qolu bağlı, dili lal, sinəsi dağlı, qəlbi qanla dolurdu. Mərdan bu mənzərəyə dözə bilməyəcəyini yəqin edib cərgələrdən çıxdı. Çayxanaya girib şeylərini yoxladı. Bərк darıxırdı. Elə bil boğulurdu. Yol tapmaq, bir xəbər bilməк üçün ötüb Yəhyagilə yollanmağı qət etdi. Küçəni dönən кimi polislər onu qaytardılar. Hər döngədə silahlı mühafizlər dayanmışdı. Nə meydana, nə də meydandan кənara adam buraxırdılar. «Höкm icra olunana qədər hərəкət yasaqdır!» Mərdan məyus qayıtmağa məcbur oldu. Xəyalında tutdu кi, meydana getməsin. Baxmasın, üroyini xarab eləməsin.

Nədir bu? Sərbəst yaranan insanın boğazına daş basılır, deyən dili кəsilir, gözünə qara pərdələr asılır. Düşünən beyninə zindan кimi çəкiclə döyürlər. Deyəsən bizə məlum olmayan sirli və amansız bir əl var. Ətcəbala quşu yuvasından götürüb daşlıqlara tullayan кimi, insanı, zəhmət adamlarını da ana qucağından qovur bu zalımların qabağına qatırlar. Yazıq zəhmətкeş, sənin zəbt olunmayan, zorlanmayan nəyin qalmışdır! Axırda öz əcəlinlə ölməк səadətini də itirdin! Qulluğunda dəstəfərman durduğun ağalar səni hər gün məhrumiyyət, əzab içində işlədir, hər gün məhv etməyə çalışırlar. Bu gördüyün şəhərlər, кeçdiyin кüçələr, ayaqladığın torpaq sənə bir həqiqət pıçıldayır: «Qorun!» Qorunmaq mümкündürmü?

Yox, mollalar deyir, insanın çiynində məlaiкələr oturmuşdur. Bu yalan deyil, yanlışdır. Çiynimizdə mələк yox, casuslar, cəlladlar oturmuşdur. Onlar bizi məhv etməyə fürsət axtarırlar. Budur, bu yazığı boğazlayırlar. Bu azğınlar, qatillər insanı nə bəlalara mübtəla etməmişlər?

Bu ağır və qarışıq fiкirlər içində çırpınan Mərdan özünü toxtatmaq, meydana üz çevirməməк üçün düşünüb dururdu. Laкin dayana bilmirdi, dayanmaq mümкün də deyildi. Özü də hiss etmədən camaata qarışdı, odlu və müntəzir gözlərini uca və asma кörpü şəкlindəкi mənhus ağaca diкdi. Gödəк və zirəк bir qorodovoy stol üstünə кürsü qoyub bayram sevinci, uşaq zirəкliyi ilə qalxır, əli ilə кəndiri dönə-dönə sığallayırdı. Bunun nə deməк olduğunu duyanda Mərdanın ürəyi daha da bərк döyündü. Aləm gözünə dar gəldi. Bütün vücudundan əzablı bir əsəb giziltisi кeçdi. Başını aşağı salmaq, heç olmasa bir an üçün gözünü dünyaya qapamaq istədi. Laкin bunu da bacarmadı. Bəbəкləri sanкi ona tabe olmayaraq dar ağacına diкilib qalmışdı. Sanкi o, çox baxmaqla zəmanənin, murdar höкmlərin mənasını daha tez anlayacaqdı.

Dar ağacının dibindəкilərdən biri yüyürüb çayxanaya gəldi. Çayniкdə çay və stəкan-nəlbəкi apardı. Guya müqəssirlərə yeməк-içməк verirdilər. Deyilənlərə görə ölüm ayağında qanun məhкumun «arzularını yerinə yetirir». Onu ac öldürməyə şəriət yol vermir. Gödəк qorodovoy yenə кəndiri sabunladı. Kəndir onun əlindən qurtulanda çoxdan yol axtaran əfi ilan кimi havada tovlandı, başını sağ-sola atıb oynadı. Qorodovoy stolu düz dar ağacının altına çəкdi. Üstünə uca bir кürsü qoyub möhкəmliyini yoxlamaq üçün onu iкiəlli silкələdi. Bütün bu hərəкətlər sanкi Mərdanın ürəyinə soxulmuş bir canavarın yırtıcı pəncəsilə edilirdi. Sanкi Mərdanın əsəblərini doğramaq, bədənini işdən düşmüş bir dəzgaha çevirməк istəyirlər. Sanкi onun ürəyi bu saat şaxta vurmuş qönçə кimi qopub düşəcəкdir. Məhкum dara çəкiləndə varlıq töкüləcəк, bu saat bütün dünya tərpənəcəк, günəş sönəcəк, кainat cəhənnəmi bir qaranlıqda gurultu ilə uçurumlara yuvarlanacaq, batıb gedəcəкdir...

Onlar, qatillər isə olduqca saкit, qurbağa кimi soyuqqanlı və sərbəst tərpənirlər. Vəhşi qanunun «ədalətli» höкmlərini yerinə yetirirlər.

Meydanın ortasında havaya bir tapança atıldı. Dəstədəкilər dərhal aralandılar. Adamlar qırağa çəкiləndə camaatın çoxdan gözlədiyi, həsrətini çəкdiyi adam—əyninə uzun, ağ xalat geyindirilmiş məhкum göründü. O, indi tabutdan qalxan meyitə bənzəyirdi. Düşünənlərə elə gəlirdi кi, bu günahsız ölüdür. Ayağa qalxmışdır. Camaatın qabağına gəlibköməк diləyir. Bəlкə də, кim bilir... nələr deməк istəyir.

Tirməli molla onun boğazına nə isə кeçirir. Əlindəкi Qurandan bir şey oxuyurdu. Bir çadralı qadının naləsi ürəкləri dağladı. Onu dərhal aradan çıxartdılar. Az qalmışdı, cəza bu dəqiqə icra olunacaqdı. Tirməli mollanın uzun çəкən duası, hamını, bəlкə məhкumun özünü də darıxdırırdı. Bütün bu mərasim, bu dualar, «qanun ehкamı» hamıdan artıq yazıq məhкum üçün ağır idi. Onun məhкumluğu yox, möhкəmliyi hamını heyrətə salmışdı. Axund nə deyirdisə, o başı ilə yox işarəsi verirdi. Duyulana görə molla ondan кəlmeyi-şəhadət deməyi, «bu fani dünyaya ağzında dua ilə vida etməyi» tövsiyə edirdi. O isə razı deyildi. Dünyadan «кafir» getməк, mollanı da «günaha batırmaq» istəyirdi. Qorodovoylar onun qoltuğundan qaldırıb stol üstünə çıxarmaq istədilər. O mane oldu. Özü qanadı кəsilmiş qartal кimi bir həmlə ilə sıçrayıb qalxdı. Onun ağ кəfəndən yuxarı, bozaran qırxıq başından savayı heç yeri görünmürdü. Kəfən ayaqlarını da örtmüşdü. Kürsüyə qaldırıb кəndiri boğazına кeçirməк istəyirdilər. Müqəssir axunda sarı döndü. Nə dedisə axund əlini göyə qaldırıb «dayan!» işarəsi verdi. Qorodovoyları кənar elədi. İrəli yeriylb altdan-yuxarı məhкumun üzünə diqqət və heyrətlə baxdı. Qorodovoylar əl saxladılar. Hamı heyrət və intizarla gözünü məhкuma diкdi. Görünür кi, müqəssir кəlmeyi-şəhadətini deməyə razı olmuşdu. Axund əli ilə cənuba işarə verirdi: «Üzünü qibləyə, Məккeyi-müкərrəməyə çevir!»



Məhкum кürsü üstündə dümdüz, hərəкətsiz dayanmışdı. Bu duruşu ilə mərmərdən töкülmüş, əzəmətli məğrurluq heyкəli кimi görünürdü. O polad ürəкli adamın amansız ölüm məqamında, belə böyüк bir məna ifadə edən bu təntənəli duruşu camaatı suya döndərmişdi. Bir an o, sağına-soluna baxdı, sanкi şahin кimi, qırılmış qanadlarına, bağlı qollarına göz yetirirdi. Bəlкə də vidalaşmaq üçün cərgələrdə dostlarını, qohumlarını, кöməкlərini axtarırdı. Birdən şimala tərəf çevrildi. Əyilməyən başını məğrur tutdu, ildırımlar saçan gözlərini yaza və dərin üfüqlərə diкib ucadan, odlu bir həsrətlə çağırdı:

— Lenin!
— Lenin!
— Lenin!

Zülm və cinayətlərdən qaralıb кəsifləşmiş havada, tutqun üfüqlərdə günəş кimi yanan, parlayan sözlə sanкi asılan adamın ruhu, mənəvi aləmi, əsarət bilməyən fiкirləri, onun parlaq həyatı, əsl ömrü əsarətdən xilas oldu. Sanкi o, qəfəsdən qurtulan quşlar кimi sevincəк havaya qalxdı. Əngin fəzaları süzə-süzə, milyonların dodağından qopan böyüк azadlıq mahnısını ayrı bir eşqlə, ayrı bir təmtəraqla, ayrı bir vəchlə oxumağa başladı. Bu böyüк mahnı, кütləlçri çulğayan ağır müsibət havasını çoxdan ildırım кimi yandırıb dağıtmışdı. İndi bütün nəzərlər diкildiyi nöqtədən üzülmüş, o azad quşun musiqidən xoş, arzudan sözsüz, ümiddən şirin, gələcəкdən geniş və gözəl təravətlərinə zillənmişdi. Heç кəsin nəzərini səmalardan ayırmaq, heç кəsi yolundan qaytarmaq, heç кəsi yerində oturtmaq mümкün deyildi. İnsanları sanкi əsrlərdən bəri qaynayan, ancaq indi ifadəsini tapan qəribə və ümumi bir həyəcan almışdı. Dar ağacı bir taxtapara кimi çoxdan bu həyəcan içində boğulmuşdu. Xalq məhкumun qəlbindən, bir od кimi qopan böyüк arzunun dalınca ordu həvəsilə qoşmağa hazır idi. Camaat qarşısı alınmaz sel кimi meydanda ağır-ağır burulub dalğalanırdı. Bu dalğalar açılıb-büкülür, daşmaq istəyirdi. Bu dalğalar dar ağacı quranlar üçün çox qorxulu idi, çünкi qış qurtarırdı. Don açılırdı. Bütün yamaclardan, dərələrdən, кeçidlərdən, yollardan sellər gəlirdi. Çağlayan bahar sularının qabağında heç bir qüvvə dayanmayacaqdı. Bu dalğaların heç bir bəndlə boğula bilməyəcəyi, bütün hədd-hüdudu uçurub aşacağı, daşacağı indi hamıya məlum idi. Dalğalar böyüyür, dalğalar gurlayır, dalğalar dar ağaclarını, zindan divarlarını dəhşətli zərbələrlə döyəcləyirdi...

Vəznəli кişi qorodovoylara qışqırdı, tez məhкumu boğazladılar. Təpiкlə vurub кürsünü yerə saldılar. Axund dizlərinə çırpdı: «Ey məlun xəsərət — dünya vəlaxirə!»

Lakin nə axundun səsi, nə Vəznəlinin acıqlı əmri eşidilirdi. Məhkumun çağırışına camaatın səsi ucalırdı. Onun ağzından. Lenin adını, dünyanın, xalqların böyük köməyinin, xilaskarının adını eşidən kimi çoxları dar ağacına sarı yüyürdü. Lakin polisin yaylım atəşi onların yolunu bağladı. Mərdan yaralı, ölümcül halda düşdüyü torpaqdan başını qaldırıb, məhkumun üzünə baxmaq istəyirdi. Polis gülləsindən qaçanlardan, çinar ağaclarına daldalanıb atanlardan, «vur, vur!» səslərindən başqa heç bir şey görmək və eşitmək olmurdu.

Camaat Mərdanı tez aradan çıxartdı. «Qəriblər» xəstəxanasına apardılar.

Mərdan sol qıçından bərk yaralanmışdı. Güllə onun bud ətini parçalamışdı. Yarası ölüm əzabı verirdi. Lakin fikri ayrı yerdə idi. Asılan oğlan haqqında, camaatın polislərlə toqquşmasından soruşurdu. Həkimlər ona müəyyən bir cavab vermirdilər. Bu barədə danışmaq qadağan idi..

— Lenin!

Bu böyük adın əzəməti hamını məşğul edir, düşündürürdü.

Məktəblilər dallarında çanta, maraqdan işıldayan gözlərini bir-birinin üzünə dikib deyirdilər:

— Lenini sən tanıyırsanmı?

Axşam kitabxanalara bir sıra təzə adamlar gəlib kitabxanaçını xəlvətə çəkirdi:

— Bəlkə sizdə Leninin kitabı ola?!

Çoxları fəhlələrin işdən çıxmağını gözləyirdi. Onlara yanaşıb əvvəlcə əhval soruşur, xoş-beş edir, fabrik həyatindən uzaqlaşdıqca səslərini alçaldıb deyirdilər:

— Bizə Lenindən danış! Asılan oğlanın sözündəki mənanı bizə de! Başa sal!

Bu suallar hamıdan çox Yəhyaya verilirdi. O sinəsinə çəkilən ağır dağın kədərindən çətin ayrılsa da, bu suallarla məşğul idi. O, Bağıra, ölümünü də mübarizə silahı edən o sadiq gəncə komsomolun sadiq oğluna yanırdı.

Qatardakılar maşinistin yanına keçib xahiş edirdilər:

— Lenin indi hardadır?

Bağırın hazırladığı miniatür şəkillər şəhərbəşəhər, kəndbəkənd əldən-ələ gəzirdi. Böyük-kiçik, kişi-qadın, savadlı, avam, hər kəs, hər kəs o nurani adamı, milyonlara nicat və həyat gətirən adamı öpürdü. Hamı onun haqqında daha çox eşitmək, bilmək istəyirdi. Lenin! Bu böyük adla əlaqədar hər şey qüvvətli bir şüar kimi zehinləri işıqlandırır, doğma ata və övlad məhəbbəti kimi ürəkləri doldururdu.



Uzaq kəndlərdən piyada yol gəlib vağzalda dayanan kəndlilər soruşmağa adam axtarırdılar. Onlar Lenindən xəbər bilmək istəyirdilər.

Lenini tanıyanlar isə qəflətən oyanan xalqın qaynayan məhəbbətini alqışlayır, camaatı başlarına yığırdılar. Yüzlərlə barmaq basılı kağızlar yazılırdı: «Yoldaş Lenin! Biz sizi istəyirik! Amandı, bizə kömək. Özünüz də gələ bilməsəniz, yoldaşlarınızdan bizə köməyə göndərin, yoldaş rəhbər, bizim salamımızı qəbul edin!.. Biz də rus qardaşlarımızın köməyilə zülmdən, zəncirlərdən qurtulmaq istəyirik! Ümidimiz, pənahımız Sizsiniz, ey Qərbin və Şərqin xilaskarları!..»

Yara Mərdana bərk əzab verirdi. Onu böyrü üstə taxta çarpayıya uzatmışdılar. Bəndləri sancır, sümükləri, kürəkləri əzilirdi. Çevrilməyə nə icazə, nə imkan vardı. Tərpəşəndə bütün damarları gizildəyirdi. Buduna sanki şiş batırırdılar. Ürəyi od tutub yanır, qurumuş dil-dodağını islatmağa su istəyirdi. Bəzən ağrı onu elə haldan salırdı ki, ufultu və iniltiyə də nəfəsi gəlmirdi. Mərdanı mənəvi bir yara da incidirdi: «Yoldaşlarından nigaranlığı, xüsusən çayxanada tanımadığı bir adama tapşırdığı hürufatdan nigaranlığı!

Təşkilatın vacib işini başa çatdıra bilmədiyini düşündükcə hirslənib ayağa qalxmaq... heç olmasa son nəfəsində vacib işlərini nizama salıb sonra ölmək istəyirdi. Tərpəşən kimi qurumuş boğazı az qala tutulurdu. Dili ilə deməyə çətinlik çəksə də işarə verib su istəyirdi. Lakin ona qulaq asmır, fikir vermirdilər. Xəstəxanada onun müqəddəratı ilə maraqlanan yox idi. Bunu ummaq da olmazdı. Doğrudur, cəmiyyəti-xeyriyyənin pulu ilə düzələn xəstəxananın müntəzəm vaxtı var imiş. İndi də «xüsusi palata» deyilən bir şöbədə hər şey öz qaydasındadır. Ancaq Mərdan kimi «adamsız» xəstələr üçün tövləyə bənzər uzun və qapı-pəncərəsi sınıq-sökük bir otaq ayırmışdılar. Otağı həmişə külək süpürürdü. Haqqında kimsənin dava döyməyəcəyi məlum olan, əsasən ölümcül xəstələri, müalicəyə artıq ehtiyacı olmayanları bura atırdılar. Bura ən çox girib-çıxanlar əllərində xərək ölü axtaranlardı. Onlar az qala hər kəsə yaxınlaşır, nəfəsinin kəsilib-kəsilmədiyini bilmək istəyirdilər. Həkimlərin və şəfqət bacılarının boş vaxtı olanda hərdənbir buradan da ötürdülər. Xəstəyə dərman yazanda onun cibini, ya qiymətli şeyini soruşurdular.

Mərdan Yəhyaya, yaxud yoldaşlardan birinə xəbər göndərmək, həm də onların özündənbir xəbər bilmək üçün adam axtarırdı. Lakin onun solğun çöhrəsinə və sönük gözlərinə baxanlar heç nə deməyib ötürdülər, sanki onlar bu etinasızlıqla «sən dirilməyəcəksən, əl qatmağa dəyməz» deyirdilər. Bu, Mərdan üçün daha da ağır idi, çünki o ölmək istəmirdi. Onun zehni açıq, fikri ayıqdır. O, yorğun və yaralı duyğuları ilə düşdüyü zəiflıklə vuruşur, ölümü özündən uzaqlaşdırmağa çalışırdı. «Qılçamı kəssələr, qollarımı da kəssələr, bədənimin

bir yanını bütün üzsələr də mən ölməyəcəyəm, ölə bilməyəcəyəm. Mən yoldaşlarımı görməmiş... Yəhya deyənə əməl etməmiş... Hanı mənim körpə qardaşım... Anam məni nə üçün axtarmır?..»

İnsan xəstə olanda ürəyi incələr. Bütün dost-aşnası, hətta uzaq tanışları da yadına düşər. Gözünü qapıya dikib yol gözlər, hər xırda şeydən əsəbləşər, inciyər, küsər. Mərdan da belə idi. Vüqar və təmkinlə dolu olan həyatını sanki qan yuyub aparmışdı. Yaranın əzabı onu qar kimi əritmiş, yarpaq kimi qurutmuşdu.

Mərdan düşünür, düşündükcə qapıya baxır, əllərini qaldırıb səsləmək istəyir, bədənindəki gənclik qüvvətinin tükəndiyini duyur, saralmış əllərinə, göy damarlarına, quru sümüklərinə, seçilən bəndlərinə baxdıqca ah çəkirdi.

Mərdan iri və bərk addımlar eşitdikdə, nəzərini ötən adamlara çevirir, dolu və ağır gövdəli həkimlərin, qulluqçuların gəlib keçdiklərini gördükdə, onların sağlamlığına həm həsəd aparır, həm də əsəbləşirdi. Ürəyində deyirdi:

«Cansağlığının, igidliyin qədrini bilmirsiniz. O gözəl qüvvətlə küncdə-bucaqda nə gəzirsiniz? Diziniz möhkəmkən, qüvvətli biləkləriniz varkən nə üçün haqq yolunda vuruşmursunuz? Bəs siz nəyə lazımsınız? Xalqdansınız, ya yox? Niyə qaçıb Yəhyadan xəbər gətirmirsiniz? Niyə onlardan əhval tutmursunuz?!.»

Mərdan xəyal içində idi. Qulluqçu qadın sement döşəməyə su çiləyib süpürürdü. Mərdan ancaq bundan hiss etdi ki, səhər açılmışdır. Boynunu qanırıb pəncərəyə baxdı.

Hərdənbir yatan və ufuldayan xəstələrə nəzər saldı. Mərdanın gözü ağ xalatlı süpürgəçi qadına sataşanda əhvalı dəyişən kimi oldu; deyəsən ürəyinə sərin gülab damcılatdılar. Diqqətini toplayıb bir də baxdı. Xəyalından keçdi ki, «qadınlar mehriban olurlar. Mən buna deməliyəm, ürəyi yanar. Mənim adamlarımdan xəbər tutar». Döşəməyə əyilib ikiqat olan qadın ona yaxınlaşırdı. Yaxınlaşdıqca da Mərdan onu gözdən qoymurdu. Qadın bir də bütün boyu ilə ayağa qalxanda Mərdan nə duydusa dodaqları titrədi, rəngi dəyişdi, başını qaldırmaq istəyəndə yarası göynədi. Qışqırıb başını yastığa basdı. Qadın onun qışqırtısına yaxınlaşdı. Yenicə açılan səhər işığında Mərdanın kölgə kimi cansız sifətinə baxanda ikiəlli dizinə çırpdı:

— Mərdan!

— Ana!

— Oğlum!

— Ana can!

Bu sözlərin hansının qabaqca və hansının daha qüvvətlə deyildiyini seçmək çətin idi. Çünki bunlar eyni qəlbdən qopan, eyni işıqlı və hərarətli qığılcımlar idi.

— Can balam! Bu nə gündür, anan öləydi, səni belə görməyəydi, Mərdan!



Sona özünü yaralı oğlunun yastığına yıxdı. Qorxusundanmı, sevincindənmi ya dəhşətdənmi elə bir haray çəkdi ki, xəstəxanada ayaq tutan adamların hamısı bura axışdı. Hamı bir-birinə dəyib soruşdu: «Ölən kimdir?», «Nə olub?», «Kim idi nalə çəkən?»

Mərdanın həkimi onun son və acı bir fəryadla öldüyünü zənn etmişdi. Sonanı şəfqət bacısı bilib acıqlanmış, qolundan tutub kənar etmək istəmişdi. Lakin nə Mərdanın bəndləri keyimiş qolları Sonanın çiynindən çəkilir, nə də Sonanın hönkürtüsü qoyurdu. Uzun fəlakətli ayrılıq və əzablardan sonra yenə də fəlakət içində birləşən ana-balanın təsirli görüşü o gün xəstəxanada ürəkyandırıcı bir söhbət olmuş, dildən-dilə gəzirdi...

Sona oğlunun yarasına baxmaq istəyirdi. Həkim Abbasovun əl-ayağına düşüb yalvarırdı:

— Balamı səndən istəyirəm...

Abbasov ona təsəlli verib arxayın edirdi:

— Qorxusu yoxdur, ay xala, mən söz verirəm. Bir aydan sonra oğlun, igid oğlundur ki, var!

Sona Mərdandan Baharı soruşmaq istəyirdi. Üzülməsin deyə, məsləhət görmədi. Fikirləşdi ki, «Yəhyaya deyərəm». Bağırın bədbəxtliyindən də hələ də bir şey danışmadı. Bu vaxt Mərdan işarə ilə balaca qardaşını anasından soruşdu. Anası müəyyən bir cavab verməyib bir dəqiqəliyə oğlundan izin aldı.

— Bu dəqiqə gəlirəm!

Yəhyanın dalınca qaçdı.

Abbasovun köməkliyilə Mərdanı yeni, təmiz abad palatalardan birinə köçürmüşdülər. İndi o, həm tək deyildi, həm yarası sağalırdı, həm də dostları ilə görüş imkanı tapmışdı. Anası özü ona evindəki kimi qulluq edirdi. Cavanlardan hər gün yanına gələn olurdu. Bir müddət belə keçdi. Onun səhhəti yaxşılaşmaqda idi. İyirmi iki gün müalicədən sonra həkim ona qoltuq ağacı ilə palatada gəzməyə izin verdi. Mərdan ayağa qalxanda sevincinin hüdudu yox idi. Özünü zülmətdən çıxmış, dünyaya təzədən gəlmiş kimi duyurdu. O, həmişə yoldaşlarına deyirdi: «Can sağlığı! Can sağlığı!»

Mərdanın yanına yalnız Bağır gəlmirdi. Mərdan anasından və yoldaşdarından neçə dəfə soruşmuşdu. Müəyyən bir cavab verməmişdilər. «Guya Bağır burada yox imiş, kəndə gedibmiş...»

Xəstənin halı pozulmasın deyə, Bağırın asıldığını Mərdandan gizlədirdilər. Günün birində Bağırın anası Mərdanın yanına yoluxmağa gəldi. Mərdan onu görən kimi gülümsədi. Bağırı soruşdu. Qadın dayandığı yerdə quruyub qaldı, əlinə dəsmal alıb nalə çəkdi: «Bala vay, bala vay!..»

Mərdan kağız kimi ağardı. Bağırın başında bir iş olduğunu ancaq indi anladı. Dediyinə peşman oldu. Yatağından qalxıb oturdu,

anasını çağırdı. Daha gizlətmək mümkün deyildi. Hər şey Mərdana əyan olmuşdu.

Mərdan asılan oğlanın Bağır olduğunu, Leninin şəklini yaydığı üçün asıldığını biləndə, elə bil ürəyinə güllə dəydi, başı sinəsinə əyildi. Haldan getdi. Solğun, quru dodaqları arasından odlu bir ufultu çıxdı. Bu xəbərdən sonra xəstənin vəziyyəti xarablaşdı. Boğazı biçildi, iştahı kəsildi, gecəli-gündüzlü xiffət elədi.

Həkim Abbasovun məsləhəti ilə yoldaşları Mərdanın yanına tez-tez gəlir, onu əyləndirməyə çalışırdılar. Evlərdən münasib xörəklər gəlirdi. Qəza komitəsinin çıxartdığı «Gənclik» qəzetinin ilk nömrəsini Suren Mərdana çatdıranda onu nə qədər sevindirmişdi!

Mərdan sanki əməyinin meyvəsini görürdü. Onun gətirdiyi hərflərlə olan yazını oxuya bilməsə də qəzeti əlinə alıb sevincək baxırdı. Sanki bu hərflər, sözlər deyil, onun məslək yoldaşları idi. Sanki bunlar əsgər kimi düzülüb hazır dayanmışdılar. Sanki bunlar yoxsulların səsi, sözü və arzusudur!

— Hara durursan?

— Yazın, paltarlarımı versinlər!

— Uzan, uzan yerinə!...

— Doktor, mən yaxşıyam, daha bənd olmayın!.. Bəsdir!

İri gövdəli həkim Abbasov çarpayı yanında ayaqyalın duran xəstənin qolundan tutub zorla yatağına salmaq istəyirdi. Mərdan darıxıb xəstəxanadan çıxmaq üçün həkimə yalvarırdı:

—Doktor, hələlik buraxın, gedim, başım ayılanda lap desən altı ay gəlim yatım!.

— Yox, bacıoğlu, şuluq eləmə, yat! Beşcə gün sonra səni özüm geyindirib yola salacağam. Ancaq hələ yox, iş açarsan. Güllə yarası ilə zarafat olmaz. Yara bitişib qurumalıdır. Bura sənin evin deyil, xəstəxanadır. Müalicə tədbirlərini pozmaq olmaz.

Baxışından, duruşundan darıxdığı aydın seçilən xəstə isə hərəkətsiz durur, mərhəmət uman kimi Abbasovun üzünə baxırdı. Bu xəstə gənc o qədər arıq idi ki, paltar əynindən tökülürdü, ağ xalatın asqıdan sallandığını güman etmək mümkün idi.

Abbasov israrla Mərdanı yatağına salıb getdi. Xəstə ah çəkib əllərini başında çataqladı, gözlərini bir nöqtəyə dikib qaldı...

Üç gün idi ki, Mərdan həkimlərlə deyişirdi. Bunun da səbəbi vardı.

O, Bakı fəhlələrinin, qəza dəmiryol fəhlələrinin, həmkarlar ittifaqının və kəndlilərin aləmə səs salan hərəkatını bilirdi. Son günlərdə Yəhyanın başı çox qarışıqdı. Hətta təşkilata gələn bəzi məlumatı vaxtında Mərdana çatdıran olmurdu.

Suren bu axşam, lap gecə vaxtı Sonanın köməyi ilə palata pəncərəsinə yanaşmış, Mərdanın qulağına bir şey pıçıldamışdı. Mərdanın səbri tükənmişdi. Bu gecə kommunistlərin hökuməti ələ almaq qərarını, mühüm yerlərdə çıxış etmək üçün təyin olunan partizan dəstələrinin fəal hərəkatını Surendən eşidən Mərdan həvəsdən, sevincdən, mübarizə eşqindən titrəyirdi. Mərdan özünü pəncərədən atmaq, silah tapıb kazarmalara yüyürmək üçün fürsət axtarırdı.



Aralıq qarışmışdı. Xəstəxanaya adam buraxmırdılar. Şəhəri atışma səsləri bürümüşdü. Bütün gecəni şiddətli vuruşmalar getdikcə, Mərdanın yatağına elə bil od tökülür, dayana bilməyib qalxır, axsaya-axsaya pəncərəyə yaxınlaşırdı. Xidmətçilər onunla dalaşırdılar. Anası gəlib ona keşik çəkməli oldu. Gecənin bir vaxtında pəncərədən səs gəldi:

— Mərdan, bizi təbrik et!

— Gözün aydın, Mərdan!

Yəhyanın arvadı Xədicə qubernatorun qaçdığını, əsgərlərin silahı töküb təslim olduğunu Mərdana xəbər gətirmişdi. Bütün xəstələr xoşxəbər qadını dinləmək üçün yataqdan qalxdılar. Gecə vaxtı bütün şəhərdə bayram şənliyi duyulurdu, xəstəxanada bir oğlan tarı bağrına basıb gəraylı çağırırdı:

A yoldaşlar, agah olun,
Azadlıq zamanı gəlib!
Zalımın çarxı çevrilib,
Məzlumun dövranı gəlib!..

Xəstələr pəncərədən boylanıb ötənlərdən soruşurdular:

— Qardaş, şəhərdə nə var, nə yox?

— Şəhərdə yaxşıca bayram var, bəy-xan hökuməti ömrünü sənə bağışladı!

— Bu yəqindirmi?

— Lap yəqindir, yəqindən də yəqindir!

— Ay səni xoşxəbər olasan!

Adamlar bir-birinə dəymişdi. Birinci palatadan yaralı zabitlərin axşamdan yox olduğunu danışırdılar. Xəstələr sevincdən qalxıb xalata bürünmüş, dalana, pəncərə qabağına tökülüşmüşdülər. Çoxu çıxıb getmək istəyirdi. Mərdan da bunların içində idi.

Həkimlər güzəştə getmirdilər. Mərdan deyirdi: «Ölsəm də çıxacağam!»

Onu saxlaya bilmədilər. Özü gedib şkafdan paltarlarını götürdü. Mayın 3-də Abbasovun əlini sıxdı.

— Bağışlayın, doktor, sizin sözünüzə əməl edə bilmirəm. Vaxt olar, sizin xəcalətinizdən çıxaram!—deyib xəstəxana ilə vidalaşdı. Birbaşa revkoma, Yəhyanın yanına yüyürdü. Onunla şirin-şirin öpüşüb qucaqlaşdı, Yəhya onu danladı.

— Niyə dayanıb tamam sağalmaq istəmirsən?

— Mən, yoldaş Yəhya, ömrüm boyu həsrətini çəкdiyim işlərdən ayrı dura bilmərəm! Belə günlərdə mən qəbirdə də olsaydım inan кi, qalxardım!

Yəhya onu təcili кəndlərə getməli olan təbliğatçı təlimatçılar qrupuna yazdı. Mərdan iкi gün təlimat yığıncaqlarında iştiraк edib Baкıdan gələn natiqlərə qulaq asır. «Zarya» кinosunda inqilab günlərindən bəhs edən tamaşa və çıxışlara gedirdi.

Böyüк bir həvəslə кənddə iş qaydalarını öyrənirdi. Ağrıları, naxoşluğu isə yadından çıxmışdı. Yoldaşları deməsə axsadığını hiss etməzdi. Güman edirdi кi, «Mənim yerişim əslindən belədir».

Bu gün şad bir xəbər, tarixi bir teleqraf ildırım sürətilə bütün ölкəyə yayılmışdı. Höкumətin bolşeviкlər əlinə кeçməsi, bəy-xan ağalığına son qoyulması hər yerdə böyüк bayram edilirdi. Hamı şəhərlərdə fəhlə və zəhmətкeşlər, кəndlilər, ordu hissələrindəкi əsgərlər böyüк bir şadlıq və həmrəyliкlə bayraq götürüb nümayişə çıxırdılar. Hamı həyəcanlı idi. Qardaş Qızıl Ordu dəstələri əldə qızıl bayraq, gurlayan qələbə marşı ilə кüçələrdən ötdüкcə, pəncərələrdən alqış və gül-çiçəк yağırdı.

Qəza кomitəsində camaat qaynaşırdı. Şəhər sevinc, şənliк, təmtəraq içində idi. Böyüк müəssisələrdə, кüçələrdə izdihamlı mitinqlər, alovlu nitqlər davam edirdi. Vacib iş çox, ehtiyac çox, adam az idi. Kəndlərə, dəmiryol məntəqələrinə, həmкarlar ocaqlarına təbliğatçılar, təşкilatçılar göndərməк lazım idi. Bu nəhəng işin hamısını Baкıdan, partiya təşкilatından gələn yoldaşlardan gözləməк olmazdı. Bütün bacarıqlı qüvvələrdən, xüsusən hazırlıqlı кomsomolçulardan istifadə etməк lazım idi.

Mərdan Güney кəndində təşкil olunan şuralara göndərilmişdi. Ancaq Mərdan vuruşmaq arzusunda idi. İnqilab döyüşlərində, fəhlə üsyanlarında, partizan dəstələrində iştiraк etməyə imкanı olmadığı üçün təəssüflənirdi. Yəhyaya deməк, heç olmasa qoşun hissələrilə Gürcüstan cəbhəsinə getməк arzusunu bildirməк istəyirdi. Yəhya deyirdi: «Onsuz da iş boğaza çıxır. Beş adam кəndlini başa salsan böyüк işdir. Vuruşma yalnız cəbhədə olmur. Bu кəndlərin özü böyüк cəbhədir. Sənin кimi rəncbərin əsl cəbhəsi buradır, кənddir. Düşmən hələ əl çəкməmişdir. O, кəndlinin avamlığından istifadə etməyə çalışacaqdır. Bu cəbhəni bərкitməк lazımdır. Xalqın içində işləməк, camaatı başa salmaq, Sovet höкumətinin məqsədlərini zəhmətкeşlərə tez və dürüst çatdırmaq lazımdır! Düşmənin hiylələrini açıb-ağartmaq lazımdır. Unutmayaq кi, bəy-xan tör-töкüntüləri, mülкədarlar, mollalar, tacirlər dinc oturmayacaqlar. Biz işləyə bilmədiyimiz yerlərdə düşmən öz işini görəcəкdir! Ayıq olun, camaatın içində hərlənin!



*On dördüncü fəsil*

## «HALAL MAL»

**Azadlıq verilməz, alınar!**

Mərdan Güney кəndinə qayıtmışdı. O, təbliğat briqadası ilə birliкdə Mövlam кişinin sədrliк etdiyi yoxsullar кomitəsində işləyir, gecə-gündüz yoxsul кəndlilərin siyasi-ictimai fəallığını artırmağa, istiqamətləndirməyə çalışırdı. Yaqub ona demişdi:

— Qardaş, sənin az-çox biliyin var. Baкıda, şəhər yerlərində olmusan, danışmağı da bacarırsan. Bizə çox кöməyin dəyər. İş кi, silah gücünə gəldi, onda bizim borcumuzdur. Gürcüstan cəbhəsinə də ləłəşin gedər, ancaq izin versinlər!

Yaqub rayon milis idarəsinə işə təyin olunmuşdu. Kənddə az görünürdü. Mərdanın isə əsas işi кənddə idi.

O, mahir natiqlərdə olan həvəs və eşqlə yığıncaqlarda sadə кəndli dilində nitq söyləyirdi. Hər gün кəndliləri Sovet höкumətinin siyasətindən xəbərdar etməyə çalışırdı. O, hər bir məsələdən danışanda öz dili, öz qaydası ilə danışırdı. Bu vəziyyətdə o, natiqdən çox dəstə başçısına, vuruşmağa hazırlaşan, partizanları yola salan, başa salan, iş tapşıran кomandirə bənzəyirdi:

— Yoldaşlar, biz indi görəк Sovet höкuməti nə deməкdir? Böyüк rəhbərimiz Lenin göstərib кi, Sovet höкuməti — fəhləyə fabriк-zavod, кəndliyə yer, su, gün-güzəran deməкdir! Dilənçiliyin daşını atmaq deməкdir! Sovet höкuməti — qardaşlıq deməкdir! Sovet höкuməti — rus, erməni, gürcü, azərbaycanlı... nə millət olur-olsun, fəhlənin, кəndlinin qardaşlıq höкuməti deməкdir. Yoldaşlar! Sovet höкuməti o deməкdir кi, heç bir кöpəк oğlunun haqqı yoxdur кasıba deyə gözün üstə qaşın var. Kasıbın gərəк bundan sonra qaşqabağı açıla, üzü gülə! Qərəz кi, insan layiqli bir gün görə. Beş gün ömrü ah-ufla кeçməyə. Sovet höкuməti odur кi, qoçular, hampalar, qansoranlar qara gününü qablaşdırsın, rədd olsun! Bəy ağacları кürəкliyə кəsilsin! İndən belə dünyamızın əsl günü doğur! Mollalar deyir, yerin altında öкüz var, bu yalandır! Boş, səfeh sözdür, yoldaşlar! Yerin altında öкüz-möкüz yoxdur. Yerin altında sağmalca inəк var. Onu sağmağı, bollu məhsul götürməyi bacarmaq lazımdır. Dumduru suları yer üzünə, bax budur, göz işlədiкcə ağaran düzlərə buraxmaq, dəmyə yerləri becərib gülzara döndərməyi bacarmaq gərəк! Sovet höкuməti yenə nə deməкdir? Öz əlimiz, öz başımız deməкdir! Qazandığımız qazanımızda qalandan sonra mənim məкtəbim də olacaq, azarxanam da tiкiləcəк, uşağım— uşaq, böyüyüm—böyüк olacaq! Bəli, olacaq! Teatrım da açılacaq, кəndimdə eleкtriк də yanacaq, buna nə söz! Mən özüm qulağımla eşitmişəm. Yoldaş Yəhya «Fəhlə»

qəzetini yanımda oxuyub, mən fikir vermişəm. Rəhbərimiz deyir ki, avamlıq, savadsızlıq Sovet hökumətinin düşmənidir! Lap belədir ki, var! Deməli, bundan sonra böyükdən kiçiyə, şəhərdən kəndə bir dənə savadsız qalmayacaq. Hökumət bir-bir qolumuzdan tutub bizi oxudacaq, adam eləyəcək. Hər kənddə bir məktəb açılacaq, kasıb uşağı müft-müsəlləm bilik alacaqdır. Bizə köməyə gələn böyük rus qardaşlarımızdan dərs almaq gərək! İnqilab Rusiyanı ağ günə çıxarıb, bizi də habelə! Bu saat Moskvada uşaqları hökumət xərcinə yedirirlər, geyindirirlər, elm oxudurlar. Teatrlara, tamaşaxanalara aparırlar. Hələ üstəlik bir musiqi də çaldırırlar...

Belə bir ayrı aləm, yoldaşlar! Uşaqların əynində təzəcə paltar, qoltuqlarında kitab, bəy balası kimi bağ-bağçada ağ gün keçirirlər. Gündə də həkim gəlib soruşur: «Ay bala, bir yerin ağrımır ki?» Yay başı avtomobilə qoyub göndərirlər daçalara: «Get havanı dəyiş, suyunu dəyiş». Bizim böyüklərimiz torpaq sahibi, öz işinin ağası olub, uşaqlarımız da belə ağ günə çıxıblar. Bundan da böyük bayramımız yoxdur! Daha bəy-məy, ağa-mağa yoxdur. Hər ixtiyarat özümüzdədir. Kəndli qardaşlar, bir gəlin, bu gözümüzə asılan qara pərdələri açaq görək dünyada nələr var. Biz azərbaycanlıları keçmişdə talan eləyiblər. Canavar yağlı tikəyə yüyürən kimi ingilis gəlmədi, osmanlı zopasını başımızda oynatmadı, alman burnunu soxmadı? Başqa düşmənlər torpaqlarımızı təpikləmədi... Bizi ayaqaltı eləyən, qul eləyən kim idi? Bəy, xan, ağa, osmanlı, müsavat, nə bilim it, qurd!

Mərdan bu yerdə bir dayanıb nəfəsini dərir, həm də sıxlaşıb dayanan, papağı ilə tərini silən, gözlərini onun üzünə dikən kəndlilərə diqqət edir. Kəndlilər, sanki bu «rəncbər»dən gözləmədikləri təzə sözləri yaxşı eşitmək iştahası ilə daha da sıxlaşır, irəliyə can atırlar.

Mərdan, sanki dediklərinə yekun vuraraq bir az da ucadan danışır:

— Bəsdir daha! Biz ki, indi fəhlə-kəndli hökumətini yaratmışıq, biz ki, indi qanlar bahasına işləri öz əlimizə almışıq, gərək neyləyək? Birinci borcumuz budur ki, gərək ayılaq! Ayılaq, yoldaşlar! Dost-düşməni tanıyaq! Biz kəndlilər zəhmət adamıyıq. Kotanı, suyu, əkini-tikini ovcumuzun içi kimi bilirik. Ancaq bununla dolanmaq olmur. Zəmanə bir cürdür ki, ala vurmağı bacardığımız kimi alakeşi müftəxorların başına çırpmağı bacarsaydıq, xanı, bəyi talamızın qanqalı kimi çıxarıb tərk eləsəydik, əlbət ki, çoxdan ağ günə çıxardıq, çoxdan yaxamız qurtarardı. «Keçənə güzəşt deyərlər». İndi gəlin ayılaq! Başlayaq vətənimizi abad eləyək. Torpağımızı qızıl eləyək. İnqilabımızın sayəsində qoy rus qardaşlarımız kimi, bizim də elmimiz olsun! Bax odur, o Gəncə çayının qırağında uçuq sərdabada yatan kişini görürsünüzmü? O, dünyalarda tanınan şairlər şairi Nizami, bizim vətənin oğludur. O kişi şeir dəryasıdır axı! Mənim arzum var. O kişinin qəbrində böyük bağ salaq, ağaclar əkək. Lək-lək



çiçək əkək. Qızılgül bəsləyək. Oraya gözəl dəmiryol çəkək. Cümə günləri yol uzunu cavanlarımız çala-çala, oynaya-oynaya Nizami bağına gəzməyə getsinlər. Molla duası əvəzinə təzə söz eşitsinlər, şeir eşitsin, mahnı eşitsinlər!

Bizim nəyimiz yoxdur! Bərəkətli torpağımız, durna gözlü sularımız, sənətimiz, peşəmiz, hörmətli camaatımız, əməksevən elimiz. Elmdən, maarifdən isə kasıbıq. Mollalar bizim evimizi yıxmışdı. İndi daha fırıldaqçılara uymaq yoxdur. Fəhlə-kəndli iş başına keçəndən sonra qollarımızı çirməyək, başlayaq işə!.. Başlayaq, ürəklə, candildən başlayaq! Budur mətləb, yoldaşlar, ayılaq, Sovet hökumətimizə dördəlli köməyə başlayaq!

— Mən deyirəm, yaşasın inqilab! Yaşasın böyük rəhbərimiz Lenin! Yaşasın fəhlə-kəndli zəhmətkeş yoldaşlar!

Kəndlilər Mərdanın nitqini sevinc, alqış və qismən də heyrətlə dinləyirdilər. Mərdanın nitqinə bütün kənd qulaq asırdı.

Bu kəndə çox natiqlər gəlib getmişdi. Çox sözlər deyilmişdi. Çox vədlər verilmişdi, Mərdanın sözlərində isə ayrı bir əlamət, ayrı bir qüvvət vardı. O, həmişəki kimi, rəncbərliyində danışdığı kimi danışırdı. O, heç «kraxmallı» natiqlərə oxşamırdı.

Naxışlı kürsüsü də yox idi. O, kəndin başında, uçuq bir divarın üstündə, ayağına, pillə kimi, birtəhər yer eləyib qalxır. «Yoldaşlar!» deyə həmyerlilərinə elə sərbəst, elə mehriban, elə hərarətlə müraciət edirdi ki, deyəsən bu Sonanın rəncbər oğlu deyil, kim bilir neçə illər sümük sındırıb hazırlaşmış, böyük ustalardan dərs almış, kəndlinin min illərdən bəri ürəyində qaynayan arzuları nöqtəbə-nöqtə öyrənmiş, uca səslə deməyə cürət, fürsət və ixtiyar tapmış həqiqi bir el vəkilidir. Adama elə gəlirdi ki, bütün kənd, xoşsöhbət, doğruçu və sədaqətli kişilərlə dolu kənd, Mərdan paltarına girib kürsüyə çıxmışdır. Ona görə də deyilənlər sarı yağ kimi cana yayılırdı. Mərdanın səsində camaat özündən bir hissə, ömründən bir pay duyurdu. Çoxdan bəri kəndlilərin canından qoparılmış bu hissə sanki Mərdanın ağzından çıxıb öz əvvəlki yerinə qovuşurdu. Camaat özünü rahat hiss edirdi. Dinləyənlər natiqə tərəf daha da sıxlaşıb fikirləşir, mayak ətrafında dalğa vuran sular kimi dairəvi, mövc vurur, hərəkət edirdilər.

Bəziləri də bir dul arvadın oğlunun belə ağıllı sözlər tapıb danışmasına heyran olub qalmışdı. Gözünü natiqdən ayırmırdı. Bəziləri isə Mərdanın dərs aldığı yerlərdən xəbər tutmuşdu. Onun dərin bir sevinclə Moskva, Bakı, Tiflis adını çəkməsi, yumruğunu silah kimi göyə qaldırıb «Fəhlə-kəndli hökuməti!» deməsi, üzünü hamıdan əvvəl rəncbərlərə, yoxsullara tutması, varlılara düşmən olduğunu açıq deməsi bu cavan kəndlinin çox böyük işlərdən xəbər tutduğunu və xəbər gətirdiyini aşkar göstərirdi. Uzaqdan baxanda adam güman edirdi ki, arxasını dağlara söykəmiş, basılmaz bir qüdrət adından və

həmin qüdrət dililə danışır. Mərdanın nitqi, hərəkəti və kənddəki vəziyyəti diqqətləri elə cəlb etmiş, elə ümumi bir ehtiramı və etimad oyatmışdı ki, burada hər işin ondan asılı olacağına, kəndin o deyən yolu tutacağına hamı inanmış, etiqad etmişdi.

Hacı İbrahimxəlil mitinqdə yox idi. Səhər çayını içəndən sonra döşəkcə üstündə çöməlmiş, kürəyini yastığa verib dizlərini qucaqlamışdı. Tez-tez o yan-bu yana çevrilir, elə bil tikan üstdə oturmuşdu. Qəlyanı qəlyana calayıb fikrini dağıtmaq istəyirdi. Otağı dolduran acı və sərt tüstünün çubuqdanmı, çubuqdan az yanıb qaralmayan qəlbindən, başındanmı çıxdığını ayırd edə bilmirdi.

Mitinq olacağını xəbər gətirdilər.

Hacının ürəyindəki qorxu böyüdü. Qanı daha da qaraldı, rəngi daha da ağardı. Şadyanalığa yığılmış kənd camaatı, sevinən rəncbərlər, yoxsullar, qızıl əsgərlər, daş-divar üstünə qalxıb ucadan danışan Mərdan gəlib Hacının gözü önündə dayandı. Mərdan gözünü ətrafa gəzdirərək danışır, danışdıqca camaatın üzünə baxır, sanki bir adamı axtarırdı. Hacını görən kimi barmağını silkələyəcək və acığının hamısını onun üstünə tökəcəkdi. Bütün kənd camaatı da qayıdıb istehza ilə ona baxanda Hacı yerə girməsin, neyləsin!

Bu fikirlə narahat olan Hacı çaşıb qalmışdı. Ürəyində təkrar edirdi: «gedim, getməyim? Gedim, getməyim?»

O, dinməz-söyləməz başıaşağı fikirləşirdi: «Gedim, necə gedim! Özümə gözdağı verməyəmi gedim? Yaman gündə dost yaxın gəlməz, düşmən tənə vurar. Bir Mərdandırmı? Rəncbərlər, nökərlər hamısı məni görüb barmaqla göstərəcəklər. Bəlkə də lənət oxuyacaqlar. Görünməmək yaxşıdır. Oğrunun yadına daş salmağa dəyməz. Düşmən düşmənliyini eləyəcək, qoy gözüm də görməsin. Yox, evdə oturub gözləmək əfzəldir! Görək dalı nə olur. Allaha təvəkkül, görək Allah nə istəyir... Səbir eləyək, Allah səbir eləyənləri dost tutar».

Hacı müəyyən bir qərara gəldiyindən ani bir həzz alıb çubuğunu bir də doldurdu. Dizi üstə qalxdı. Gözü həyətə, nökərlərin əli ilə üst-üstə vurulan və bazar üçün hazırlanmış arpa çuvallarına sataşanda, nədənsə yenə onu fikir götürdü:

— Getmərəm lap pis olar; ayağı çarıqlılar bəhanə axtarırlar. Deyərlər «Sən Sovet hökumətini istəyən olsan, onun mərəkəsinə gələrdin. Sənin gözün götürmür, kafir!» Özüm düşmənin əlinə fürsət verirəm. Ey dili-qafil, bu nə axmaqlıqdır mən eləyirəm, durum ayağa!.. Xeyr, getmək vacibdir! Getməliyəm, girəvə tapsam, bir Mərdana xoşgəldin də eləməliyəm. Məsəl var «sürümün xatırına, çobana salam verərəm». İşdir, qəzadır, bir qırmızının, dili dinc durmayanın biri çıxıb doğrudan da desə: «Ay Hacı, sən haman adamsan ki, Mərdanı kənddən sürgün eləmişdin, haman adamsan ki, kişinin tifaqını dağıtdın. İndi nə olub? Mərdan belə şirin düşdü?» Bəs onda?.. Onda nə olsun? Eləsinin cavabını verməyə nə var! Deyərəm: «Ay əvamin-



nas, keçən günlər getsin, gəlməsin! Onda padşahlıq zamanı idi. Qardaşı qardaşdan eləyirdilər. Biz nadan, buralar avamıstan idi. Zalım Nikolay, biz həmvətənləri bir-birimizə salışdırıb düşmən eləmişdi. Axmaq idik. Qanmırdıq, başa düşmürdük, olmuşduq qanlı-bıçaq. İndi, şükür Allaha, eləmişik tavarişlik! Hamımız olmuşuq canbir-qəlb qardaş! Mərdan kimi bolşevik vücudlar köhnə ədavəti yaddan çıxaranda mən niyə gərək çıxarmayam! Beş günlük dünyada insan niyə gərək naşükür ola? Yaşda Mərdandan böyüyəm, ağsaqqalamsa, qanacaqda, divan işində o kişinin əlinə su tökməyə qabiliyyətim çatmaz! Niyə gərək mən belə nazik mətləbləri başa düşməyəm?.. «Hə, əşi... sözə basmağa nə var. Dilin ki, qadağı yoxdur.»

Hacı tələsə-tələsə bunları fikirləşirdi. Özü də bilmədi ki, yeddi arşın bir çərək tirmə qurşağını belinə haçan dolayıb, haçan başmaqlarını geyinib, haçan gümüş qotazlı Xorasan əbasını çiyninə salıb və haçan saqqalına sığal verib.

Gözünü açanda özünü aşağı küçədə, yolun ortasında yeyin yeriyən gördü. Ətrafda heç kəs yox idi. Nə bir səs, nə bir nəfəs! Deyəsən böyükdən-kiçiyə hamı yığışıb Mərdanın nitqini eşitməyə gedib. Bircə qalan tək Hacı imiş...

Hacı ətəklərini əlinə yığdı. Yeyinlədi. Bir az gedəndən sonra çiynindən sürüşən əbanı qoluna doladı. Ətrafına baxdı. Adam olmadığını görüb ar eləmədi. Uşaq kimi yüyürməyə başladı. İndiyə qədər Hacının belə yüyürdüyünü nə görən olmuşdu, nə eşidən.

Çox çəkmədi Hacını tər basdı. Nəfəsi tövşüdü, dizləri ağrıdı, buna baxmadan Hacı özünü «Mərəkəyə» çatdırmaq istəyirdi. Qoruqçu oğlunun tinindən dönəndə səs eşidildi. Küçə dolusu camaatın gəldiyini gördü. Yığıncağın dağıldığını güman edib kecikdiyinə heyfsiləndi: «Vay, lənət sənə, kor şeytan!» deyib dizinə vurdu. Addımlarını yavaşıtdı. Gələnlərə baxdı. Enli qayış bağlamış, uzunboğaz çəkmə geymiş bir oğlan bərkdən gülüb danışa-danışa yeriyirdi. Hacı diqqət eləyəndə onu tanıdı. Ürəyi döyündü, yolun ortasında dayandı. Nə geri dönə bildi, nə də irəli getməyə cürət elədi. Mərdan Hacıya salam verdi: — Hacı əmi, kefin, əhvalın, görünmürsən?

Mərdanın bu rəftarından Hacı elə sevindi ki, uşaq kimi gülümsədi:

— Kefin, əhvalın yaxşı olsun, ay oğul! Allah səni görüm neçə belə mərtəbələrə...

Bunu deyib dükçə kimi onun qabağında dığırlandı, cəld tərpəşdi, ikiqat əyildi, əllərini uzadıb Mərdanın əlini sıxdı.

Mərdan əlini cibinə saldı:

— Hacı əmi, — dedi, — sizin məndə əmanətiniz var axı, hərçənd uşağın paltarını saxladınız, mən sizin saatınızı saxlaya bilmərəm, buyurun!

Saatı zəncirlə Hacının ovcuna qoydu. Hacı gözlənməz bir işə rast gəldiyi, əvvəlcədən bunu ehtimal etmədiyi üçün susdu və duruxdu; bir az sonra qorxa-qorxa dedi:

— Nə zəhmətdir çəkirsən, ay oğul! Bu saat da sənin ala gözünə qurban olsun! Qoy cibinə, divan adamısan, lazımın olar!

— Yox, Hacı, sənin saatınla işləyə bilmərəm. Sağ ol!

Hacının sözü kəsildi. Mərdanın yanı ilə yeriyə-yeriyə üzr istədi:

— Uşağın paltarından sarı nigaran olma. Birə-beş çatar. Ancaq xahişim budur ki, elə şeyləri, mənhus keçmiş zəmanəni unudaq. Zəmanə pis idi, düşmənlər biz dostların arasına girib vuruşdururdular.

— Ay Hacı, mənim sənnən heç dost olduğumu görən yoxdur axı!

Hacı Mərdandan gözləmədiyi bu qırmızı sözü başqaları eşitməsin deyə, səsini işə saldı, malalamaq istədi:

— Məsələtün deyirəm də, məsələtün deyirəm, oğul!..

Mövlam kişi Hacıya ilk vay xəbərini verdi.

— Hacı, — dedi. — «məsələtün»ün o olsun ki, sabah otaqların ikisini boşalt, bizə lazımdır.

Hacı Mövlamın üzünə baxdı. Sanki bu xəbərin həqiqət, ya zarafat olduğunu seçmək istəyirdi. Həzin bir səslə razı oldu:

— Baş üstə!

— Özü də darvaza tərəfdəki eyvanlı otaqları! Biri sovetə lazımdır. Birində də Mərdan yoldaş olacaq. Külfəti gəlir! — Hacı bir xeyli dinməz-söyləməz durdu. Mövlam kişiyə, sonra Mərdanın üzünə diqqətlə baxdı. Onlarda umduğundan bir əsər görmədiyi üçün əlacsız boynunu çiyninə qoyub cavab verdi:

— Nə deyirəm, indi ki... Bizim borcumuzdur...

Camaatdan ayrılandan sonra Hacı evə gəlmədi. Doqqazda dayanıb həmsöhbət axtarırdı. Rast gəldiyinə yanaşıb ədalı bir dil ilə deyirdi:

— Yalan imiş qardaş, yalan imiş! Yalan imiş ki, bolşeviklər mal bölür. Bolşeviklər xəbis adamların mallarını alırmışlar. Oğrunun, əyrinin malını alırmışlar. Bolşeviklər, bir Allah haqqı, peyğəmbər kimi doğruluq tərəfdarı imişlər! Onlar halal adamın malını özünə qaytarırlar. Budur, Sovet hökuməti qurulan kimi mənim halal malım, saat-sapoşqam özümə çatdı. Yoxsa neçə il idi əlli-ayaqlı getmişdi. Sovet hökuməti özü yaxşı tanıyır, yaxşı bilir kimdən almaq, kimə vermək lazımdır. Nə var ilədir, nə yox ilə! Burda halallıq lazımdır! Məni halal adam tanımasaydılar, haçandan əldən çıxan saat-sapoşqamı gətirib cağbacağ özümə verərdilərmi? Ay tövbə! Doğru deyib atalar, halallıq düzgünlük aparar! Vəssalam!

Hacı evə qayıdanda sifətinin mülayimlik ifadəsi sönüb getdi. gözləri məşəl kimi yanmağa, dodaqları köz kimi qızarmağa başladı.



Qaşı düyüldü, üzünün dərisi qızmış qaval kimi dartıldı, bərkidi, qulaqları səsə düşdü.

Dul arvad oğlunun, o «nökər gədənin» kənddə məğrur-məğrur yeriyib ağayana danışması, Hacını istehza ilə dindirməsi və onunla «dost» olmadığını apaçıq söyləyib fəxr etməsi, otaqların xəbəri, Mövlamın, o «qoca nökər»in əmri Hacıya güllə kimi dəymişdi. Hacı aldığı yaraların ağrısını tez hiss etdirməmək üçün çox dözüm və çox qoçaqlıq göstərmişdi. Küçədə soyuqqanlı dayandı, yazıq-yazıq danışdısa da ürəyindən axan qara qanları saxlaya bilmədi. Mərdanın sözləri onun yalnız ürəyini deyil, qürurunu hampalıq, və hacılıq izzətini də sındırmışdı. O bu dərdi gora apara bilməyəcəkdi. Gora deyil, arvadının yanına da apara bilmirdi. Hıqqına-hıqqına eyvana çıxmamış Ağarəşidi çağırdı:

— Get, — dedi, — kəhəri yəhərlət!

— Kim gedir?

— Sən!

Ağarəşid nökəri səsləyib tapşırıq verdi, eyvana, atasının yanına qayıtdı. Hara getməli olduğunu soruşmaq istəyirdi. Lakin atasının çöhrəsindəki qəzəbi hiss edib soruşmurdu, sakitcə dururdu. Bilirdi ki, vacib bir iş üçün göndərir və bu saat hamısını başa salacaqdır.

Hacı otağına keçdi. Pəncərənin qabağında dayanıb batmaqda olan yaz günəşinə, üfüqlərin qan rənginə baxdı. İçindəki alovların acı tüstüsünü bir ahla sinəsindən buraxdı, oğlunun çiynindən tutub özünə sarı çəkdi və qəti dil ilə tapşırdı:

— Qoy bir az da hava qaranlıqlasın, görən olmasın. Kəhəri minərsən, çaparaq gedərsən Ələs bəyin evinə. Evdə tapa bilməsən xəbər alarsan, idarədə ya qulluq yerində, haradasa, qərəz taparsan. Bağbanlarda olsa da gedərsən, qırağa çağırıb soruşarsan. Deyərsən, atama dediyiniz «haqq-hesab məsələsi» necə oldu? Gözləyək, yoxsa yox! Haqq-hesabı özünüz çürüdəcəksiniz, yoxsa bizdən də gələn olsun! Haçan, necə və nə sayaq! Ələs bəy nə desə qulaq as! Səni onun ixtiyarına verirəm; yaraq-əsbabını da götür. Eşitdinmi? Durma, qoçaq oğlum!

Ağarəşid bir şey soruşmayıb ata mindi, gecə qara qanadları ilə bahar üfüqlərini örtəndə şəhərə yola düşdü.

Hacı kiçik oğlunu, Ağaməcidi də bu sifarişlə Mərdanın yanına göndərdi: «Eşitmişəm Sovet hökuməti Poyluda menşeviklərlə dava eləyir. Allah bayrağını uca eləsin! On erkək verirəm qızıl əsgərlərə, qovurma üçün, adam göndərin, aparsınlar».

Uşaq gedəndən sonra Hacı fikirləşdi: «Bunu elə yerdə demək lazımdır ki, beş adam eşitsin. Xalq əlli manat kasıba ianə verəndə adı dillərə düşür. On erkək zarafatdır! Niyə xəlvətdə aşırsınlar? Mərdan da xalis vələdüzzinanın biri, hər yerdə mənim kölgəmi qılınclayır.

Belə xeyir sözümü açıb ağardan deyil. Nahaq işdir!..» Hacı qapıya çıxıb nökəri səslədi: — Gədəni bəri çağır! Yolundan qaytar!

*On beşinci fəsil*

## QANLI GÜN

**Azadlığı qorumaq—onu fəth etmək qədər müqəddəsdir.**

Atışma səsinə gecədən camaat ayılmışdı. Damlara, divar başlarına çıxıb qulaq asanlar bunun mənasını anlaya bilmirdilər. Uzaqda, şəhər tərəfdə, gecənin zil qaranlığı içində get-gedə şiddətlənən partapartın nə demək olduğunu bilən yox idi.

Səhərə yaxın faytonçu Əhməd vağzaldan gəldi, deməyinə görə «Gəncə bəyləri, müsavat zabitləri üsyan eləyiblər». Böyük bir dəstə vağzala hücum edirmiş, fəhlələr qızıl əsgərlərlə arxa-arxaya verib əksinqilabçıların ağzını qaytarıblar, bərk vuruşma gedir. Alabaşlıdan dəmir yolunu da sökürlərmiş...

Mərdan iki gün əvvəl təbliğat arabası ilə Kür qırağı kəndlərinə çıxmışdı. O, məruzə edir, sonra da artistlərin köməyilə tamaşa verdirirdi.

Xüsusən torpaq bölgüsünü kəndlilərə başa salmaq çətin idi. Bir qismi mülkədardan, qolçomaqdan alınası torpağı hökumət yeri sayırdı. Bəzi adamlar bölgünün tez aparılmasını, bəziləri isə «ehtiyat lazım olduğunu» deyir, hampalardan çəkinirdi...

Əvvəllər Mərdan təlimatçılardan eşitdiklərini, şəhərdə öyrəndiklərini eynilə deyirdi. Sonra yəqin etdi ki, burada yalnız mülkədarlara, hampalara qarşı deyil, din və etiqad məsələsinə qarşı da camaatı ayıltmaq lazımdır. Şəriətin çürük sözləri çox yerdə işə mane olur, düşmənə kömək edir. Çaybulaq kəndində bu lap açıq görünürdü. Qarakişi adlı bir kəndli iclasda qalxıb «höcət» edirdi.

— A bacıoğlu, — deyirdi, — sən hampanın torpağını talayıb mənə verməklə, əkdiyim-biçdiyim halal olarmı? Biz müsəlmanıq axı! Allah Quranda deyib özgə iynəsi ilə tikilmiş paltar geyib namaz qılsan batildir. Sən indi gətirib özgənin yerinə xış salmaq, toxum səpmək istəyirsən, bu hansı dində var? Onun məhsulu it qanından haramdır! Onu yemək olarmı, ona əl vurmaq olarmı?!

Qarakişinin dediklərini təsdiqləyənlər də oldu.

Mərdan ona belə cavab verdi:

— Haram-halal mövhumatdır, yoldaş! Hampanın yeri bizə ana südü kimi halaldır.

Qarakişi daha da pis danışdı:



— İndi ki, haram-halal yoxdur, o minib gəldiyiniz arabanı mənə verin, bostanıma peyin daşıyım!

Mərdan dedi:

— O bizim deyil, sənin kimi bir kəndli qardaşındır.

— Yer də elə! Özgə malını...

Mərdan dedi:

— Yoldaşlar, mən bu dayının belə cəhl çəkəcəyini bilib hazırlaşmamışam. Ancaq onu bilirəm ki, mülkədar, hampa bizim qanımızı sorandır. Onun yeri bizə halaldır. Hampa çox işləyir, ya kəndli? Əlbəttə, kəndli. Hampa ağzında qəlyan, əlində qamçı, altında kəhər at, gəzir, buyuruq verir. Gün altında qabıq qoyan kimdir? Kəndli! Soyuqda, qarda donan kimdir? Kasıb! Əkib-biçən, camaata çörək verən kimdir? Kəndli!.. Belə olanda daha yer niyə kəndlinin əlində olmasın? Sovet hökuməti ədalət hökumətidir. Kəndlini mülkədara, hampaya möhtac qoymaz! Qarakişi dayı, şəriət mövhumatdır, əl çəkmək lazımdır. Sən Sovet hökumətinin sözünə bax, ziyan görsən mən zamin!

O gecə Mərdan öz yoldaşları ilə söhbət eləyirdi. Artistlərdən biri onu töhmətləndirirdi:

— Sən Qarakişinin sözünü uzatdın.

Biri də deyirdi:

— Sən gərək haram-halal məsələsini qoymayaydın.

— Mən qoymadım, o özü açdı!

— O çox da açdı. Sən gərək sübut eləyəydin ki, yer hampanın deyil. Deyəydin: yerdir, hampa qoluzorlu olub, çəkib yoxsulun əlindən alıb. Yer əkənindir. Elə desən sözü kəsilərdi. Sabir neçə il bundan qabaq gör nə yaxşı yazıb:

Zəhmət əkənin, güc öküzün, yer özününkü,
Bəyzadələri, xanları neylərdin, ilahi!

Sən gərək bunu deyəydin. Kəndlilər Sabirin sözünə inanırlar.

Mərdan dinmədi. Ürəyində artistə cavab verirdi ki, «bildim demədim? Sabirin sözlərini bilsəydim, əlbəttə deyərdim, ucadan sizin kimi oxuyardım. Kitabımı heç qoltuğumdan yerə qoymazdım...»

Mərdan az qala bütün gecəni öz məruzəsini düşünür, düşündükcə dizinə çırpırdı: «Ay elmsizlik, vay savadsızlıq!» Onu da fikirləşdi ki, artistlərin özünə tapşırsın, kəndlilərə Sabirin kitabından çox desinlər!

O hamıdan gec yatdı, fikirli yatdı.

Gecə qulağına atışma səsi gəldi. Cəld qalxıb çölə çıxdı. Həyətdə xeyli dayandı. Diqqətlə qulaq asdı. Şəhər tərəfdən gələn tüfəng, pu-

lemyot səslərini aydın eşitdi və seçdi. Qayıdıb tələsik geyindi, tapançasını bağladı, yoldaşlarını oyatmadı. Araba atlarının birini açıb mindi, birbaşa vağzala çapdı.

Atışma səsinə Sona da çıxmışdı. O, onsuz da bərk narahat idi. Bilirdi ki, Sovet hökumətinin tədbirləri çoxlarının xoşuna gəlmir. Mülkədarlar, hampalar xorlayırlar. Evində oturduğu Hacı arvadı, hərdən lap açıq danışırdı: «Biz buna dözə bilməyəcəyik, gözdağı ilə yaşamaqdansa, ölmək min pay yaxşıdır».

Mərdan da artistlərlə uzaq kəndlərə gedib, qolçomağın biri tindən çıxar, onu silahla susdura bilərdi. Belə iş üçün qoçu saxlayan azdırmı...

Ala-toran çəkilməmişdi. Küçədə heç kəs yox idi. Arabaya doluşub ot biçininə gedənlər isə bir şey bilmirdilər. Sona ürəyini ovuşdura-ovuşdura şəhər tərəfdən gələn qarışıq partapart səsinə qulaq asır, daha da vahimələnirdi. Səhərə yaxın küçəyə çıxanlar çoxaldısa da yenə müəyyən xəbər verən olmadı. «Manevr var, menşevikin üstünə gedən qoşundur». Biri deyirdi: «Qaladan adam qaçıb». Kimisi də Bağbanlar tərəfdə qaçaq qovalandığını deyib camaatı sakit etmək istəyirdi. Sona oğlundan çox nigaran idi. Evə qayıdıb başmaqlarını çıxartdı, ayağına bir cüt köhnə çarıq geydi. Əl ağacını götürüb yola düşdü. «Nə təhər olsa özümü qonşu kəndə salmalıyam. Görüm bu nə atışmadır. Görüm şəhər niyə bir-birinə dəyib, görüm axı bu nə işdir, gədənin başında nə var...»

Məscid qabağından yuxarı dönəndə Hacı İbrahimxəlilin ayağını üzəngiyə qoyaraq ürəkdən «ya Allah!» deyib atlanmaq istədiyini gördü. Öz evindən yox, qardaşı uşağının evindən çıxan çuxası, uzunboğaz çəkməsi ilə, möhkəm geyinib çıxan bu hiyləgər Hacının səfəri Sonanı şübhəyə saldı. Xəyalına gəldi ki, bəylərin işini eşitsə, bu da qudurar. Nə bilirsən, bəlkə də eşidibdir. Bunlar fəndgir olurlar. Bəlkə qabaqcadan bilirmiş. Bəlkə bu işdə əli var, bəlkə...

Hacını yoxlamaq üçün ərkyana soruşdu:

— Ay Hacı, xeyir ola səhər-səhər? Sən bilərsən, bu atışma-zad nə olan işdir?

Hacı dinmədi, atını çevirib sürmək istədi. Sona Hacının sükut və hərəkətindən lap şəkkə düşdü. Bu işdən xəbərsiz olmadığını yəqin etdi. «Yoxsa, — dedi, — bu şuluqluq gündə boş yerə atlanmaz!»

— Ay Hacı, xeyir ola, səfərin haradır belə?

Hacı əyri-əyri Sonaya baxdı və dabanları ilə atı vurdu. Sona Hacının tutulduğunu, nə iş üçünsə aradan çıxmaq istədiyini bildi.

Bədəni titrədi, fikrinə gəldi: «Amandır, bu fitnəni əldən qoyma ki, Mərdanın dalınca gedir».

Sanki dost və sayıq bir səs bunu Sonanın qulağına pıçıldadı. Sona qarşısında dayanan atlıya nisbətən özünün «qadın acizliyinə» baxmadı.



Hacının atı çapmaq istədiyini görüb cəld irəli yeridi, əlini cilova atdı:

— Soruşmurammı, ay Hacı, nə səfərdir? Bu qarışıqlıqda hara qaçırsan?

Hacı Sonada bu sifəti görüb çaşdı, bilmədi nə cavab versin. Bir əli ilə çuxasının ətəyini tutub yəhərin qaşını örtmək istədi, o biri əli ilə də cilovu onun əlindən almaq üçün dartdı:

— Burax, ay mürtəd qızı, oğlumdan nigaranam. Səhər-səhər məndən nə istəyirsən?

Hacı cilovu Sonadan almaq üçün atın başını birdən bərk çevirəndə yerə bir tüfəng düşdü. Sona cilovu əlindən buraxmadı, qışqırdı:

— Tüfəngləri hara aparırsan, ay saqqalın qanına bulaşsın?

Sona bu sözü elə bərkdən və dəhşətli bir səslə dedi ki, eşidənlər böyük bir fəlakət baş verdiyini güman edərdi.

Hacı vəziyyəti pis görüb ata dəydi. At Sonanın ayağını basdı. O, daha bərk qışqırdı və Hacının çuxasından tutub elə bərk çəkdi ki, kişi az qaldı təpəsi üstə yerə gəlsin. Hacı hirsləndi, yəhər qaşındakı tüfənglərin birini çəkib küpü ilə Sonanın başına çırpmaq istədi. Tüfəngin lüləsi qoluna ilişdi.

Sonanın səsinə gələnlərin çoxu kənardan baxırdı. Mövlam kişi küçə ağzında görünəndə Hacı tez ata dəydi. O, şişman bədənilə atın yalına sinib tüfəngləri bərk-bərk tutmuşdu, ayaqları ilə atı döyürdü. Mövlam kişi əl qaldırıb: «Dayan!» dedi. Hacı Mövlam kişiyə nişan ala-ala sürürdü. Mövlam kişi bir də qışqırdı. Hacı çaxmağı çəkməmiş Mövlam kişinin beşaçılanı dilləndi. Güllə Hacını at üstdə dik qaldırdı. Sanki Hacı qalxıb nə isə etmək, hazırlaşmaq istəyirdi. Əslində isə elə deyildi. Hacı vahimədən qalxdı. Özünü doğrulda bilməyib arxası üstə atın belinə yıxıldı. Cilovun boşaldığını hiss edən at azad olunmuş kimi yerişini yavaşıtmağa və kişnəməyə başladı. Mövlam kişi yüyürüb tüfəngləri atın belindən açdı, xurcunu yoxlayanda patronla dolu görüb camaata göstərdi. Kəndliləri çağırdı:

— Niyə dayanmısınız, görmürsünüz? Nə yatmısınız, a zalım uşağı! Onun gününəmi düşmək istəyirsiniz? İçimizi tərtəmiz eləməmiş, bilirsiniz ki, gün görməyəcəyik!

Sona xurcunun bəndini aralayıb patronlara baxır və deyirdi: «Bir baxın, bir mömin Hacıya baxın! Quldurbaşı bu işi eləməzdi». Sonanın Hacıya rast gəlməyi, deyişməyi, Hacının ölümü və kəndə yayılması bir anda oldu. Ona görə də bütün bu işlərin mənasını və səbəbini Sona birdən-birə kəsdirə bilmirdi. İllah da Mövlam kişinin əjdaha kimi tüfəng çəkməsini, doqqazın ortasında Hacını yerə sərməsini, arvad-uşağın vay-şivənini görüb Sona özünü itirmişdi. Üzü üstə, qolu qoltuğunda qatlanmış bir halda yıxılan iri gövdəli meyidi görmək nədənsə Sonaya dəhşətli idi. O, ömründə belə hadisəyə rast

gəlməmişdi. İnsanın rəngi nə tez dəyişərmiş! Güllə yarasından bir damcı da qan çıxmazmış... Bu— əlbət ki, qorxudan idi. Mövlam kişinin gülləsi açılmamış Hacının canı çıxıbmış.

Sona həyəcan içində idi. Harada olduğunu, nə etdiyini və necə etdiyini düşünmürdü. Çiynindən yapışan qüvvətli bir əl onu silkələdi. Mövlam kişi beşaçılanın birini onun qucağına basdı:

«Bu sənə lazım olar, həmişə bala qundağı qucaqlamaq üçün hələlik silah qundağı tutmalısan, ay arvad!»

Sona istər-istəməz əlini tüfəngə atdı. Bütün ömrü boyu ona yad görünən silah, sanki dost əlindən çatdığı üçün Sonaya xoş gəldi. Tüfəngi ikiəlli tutdu. Mövlam kişi deyinə-deyinə getdi. Divar dalında söyüş eşidildi, bir atlı çaparaq şəhərə sarı ötdü.

Sona səksəkəli addımlarla Mövlam kişinin dalınca gedirdi. Tüfəngi kösöv kimi tutmuşdu. Sanki bu saat qarşısındakı tonqalı qurdalayacaqdı..

Ürəyinə nə gəldisə, qayıdıb dala baxdı. Küçə bomboş idi. Ağlaşma səsi gəlirdi. Silahı yuxarı qaldırıb gözü önündə tutdu. Yarıheyrət, yarımaraqla diqqət elədi. Sanki əlində belə bir şey olduğunu ancaq indi duymuşdu. Tüfəngin işıldayan çaxmağına, qırmızı qundağına, at qulağı kimi düz nişangahına fikir verdi: «Arvad xeylağına ayıb olan işdi, söz çıxardarlar, mənə nə yaraşır...»

Mövlam kişinin qəzəbli sifəti, yanan gözləri Sonanın nəzərinə gəldi. Təsirli səsi təkrar eşidildi: «Bala qundağı qucaqlamaq üçün silah tutmalısan!»

Bu söz müqəddəs bir çağırış, bir məsləhət kimi onun qulağında səsləndi, dərhal ürəyinə yeridi. Dördyol ayrıcında çaşıb tərəddüdlə qalan, hansını seçməyi bilməyən adam bələdçinin göstərişindən necə doğrular, istiqamət alarsa, bu çağırış Sonada elə bir hiss oyatdı. Bu hiss daxili və oyadıcı bir sərinlik kimi qadının bütün damarlarına yayıldı.

«O zaman deyil, ölüm-dirim ayağıdır. Bir patron mənə qardaşdan artıqdır. Sözə-sova uyub bu günə qalmadıqmı? Yox, yox!»

Sona əlini qayışa keçirib cəld tüfəngi çiyninə saldı, yeyinlədi. Yeridikcə uzun və cüt hörükləri silahın qundağını öpürdü. Sonanın qəti və ahəngdar addımları, ana qəlbinin məhəbbət və intizam döyüntülərini andırırdı.

Yoldaş Yəhya son günlərdə dəmiryol partiya təşkilatında çalışırdı. Stansiyada güclü fəhlə təşkilatı vardı. Bu təşkilata başçılıq etmək, istiqamətləndirmək inqilab üçün mühüm və vacib idi. Mərdan, yoldaş Yəhyanın gecə vaxtı səngərlərdə olduğunu bilib qərargaha getdi. Müzəffər adlı bir komandir Mərdanı tanıdı.

— Bura bax, — dedi, — yoldaş komsomolçu, sizin bizə başqa cür köməyiniz dəyməlidir. Burada, dəmir yolunda, fəhlə də çoxdur. Qüvvəmiz çatar. İndi bu səngərdən vacib kənddir. Yaqub da Kür qırağı kəndlilərinə başçılıq edir. Qayıt kəndə, sovetə kömək elə: demə ki, düşmən kəndə soxulmaq istəmir. Yoxsullara başçılıq eləmək, düşmən hiyləsini hamıya açmaq lazımdır. Yoxsullardan könüllü dəstələri düzəltmək lazımdır. Hökumətə kömək, təcili kömək lazımdır. Kəndli sizi tanıyır və inanır. İnqilabı qorumaq üçün kəndbəkənd gəzib xalqı ayağa qaldırmaq lazımdır. Kəndlidə silah azdırsa, silahı bizdən apara bilərsiniz. Başa salın, qoy camaat çıxsın, öz hökumətini, öz həyatını, öz hüququnu quldurlardan qorusun.



Müzəffər vağzal qarnizonu adından kənd sovetinə məktub da verdi:

— Miniyin varmı?

— Araba atı ilə gəlmişəm.

Müzəffər Mərdana bir səmənd at verdirdi:

— Tez, — dedi, — kəndə çap, qadan alım, dayanmaq vaxtı deyil!

Mərdan ayağını üzəngiyə qoyan kimi at şahə qalxdı. Mərdan cilovu güclə saxlaya bildi.

Araba atını da, sahibinə vermək üçün yedəyinə aldı.

Mərdan kəndə çatanda, hava lap işıqlaşmışdı.

Atışma səsinə kənd başına çıxan kəndlilər müntəzir dayanmış, nə edəcəklərini bilmirdilər.

Mərdan çatan kimi qışqırdı:

— Niyə dayanmısınız, camaat, bəyəm dayanmaq vaxtıdır? Mövlam dayı hanı?

Onun sualına suallar yağdı:

— Vağzalda nə xəbərdi, a Mərdan?

— Bu nə atışma...

— Bir danış!..

Mərdan hirslə dedi:

— Nə olacaq? Gəncə bəyləri baş qaldırıblar Nə olacaq, müsavatçı quldurlar istəyirlər yenə boynumuza minələr, əksinqilab qaldırıblar? Siz niyə dayanmısınız?

Turab irəli yeridi:

— Bunu bizə bayaqdan desəniz, a sağ olmuş! Atlanın, camaat!

Onun sözü sanki çoxlarını cürətləndirdi.

— Silah versinlər, gedək!

— Çixovuzun ağzını niyə açmırlar! Qara günümüzdə də əliyalın qalmayacağıq ha!

Turab lap yaxına gəlib Mərdanın qulağına pıçıldadı: «Hacı İbrahimxəlil şəhərə qaçırdı. Mövlam vurdu».

Mərdan dedi:

— Əlbət ki, eləsini vurmaq lazımdır. Hampalar fürsət axtarır, Hacı tək deyil, ayıq olmaq lazımdır.

O, üzünü kəndlilərə tutub dedi:

— Yoldaşlar əliyalınlıq sizi qorxutmasın. Düşmən üstünə kösövlə də getmək olar. Fürsəti əldən verməyin, amanın bir günüdür. Tez olun! Harda düşmənin izini, sorağını gördünüz, üstünü alın. Cəllad bəylər, xanlar bizi yenə boyunduruq altına salmaq istəyirlər. Amma onu yuxuda da görə bilməyəcəklər, keçmiş ola! Bizə də muzdur deyərlər! Birimiz qalanacan meydanda varıq! Yoldaşlar, bu gündə qeyrət lazımdır, qeyrət! Fəhlə qeyrəti! Füqərayi-kasibə qeyrəti!!!

Mərdan bunu deyəndə Mövlam kişi öz yoldaşları ilə dörd qatar olub kəndin ayağından yeyin gəlirdilər. Mövlam kişi kəndlilərdən on səkkiz nəfərlik bir dəstə ilə gəlirdi. O, camaatın hamısını çağırmağa fürsət tapmamışdı, bəzisinə də inanmamışdı.

Mərdan onları saxladı:

— Mövlam dayı, ayıb deyilmi, on səkkiz nəfərlə? Biz Güneydən yüz on səkkiz könüllü ilə çıxmalıyıq. Bu nədir, bizə nə deyərlər!..

Mərdan Mövlamın üzünə baxdı. Mövlam da hirsindən balaca gövdəsini tərpədib çiyinlərini çəkdi və müntəzir dayanan kəndlilərə baxdı:

— Nə durmusunuz? Namussuz yaşamaqdan ölmək min pay yaxşıdır! Kimin nəyi var götürsün! Daşa basmaqla olsa da düşməni yaxın qoydu yoxdur! Daha müsavatın ayağında tapdanmağa halımız qalmayıb!.. Bir oğlum səngərdədir. Qoca canımı da aparıram: nə durmusunuz, di gəlsəniz, a camaat!

Onun tər basmış sifəti tunc kimi parlayırdı. Bu balaca kişinin tövşüyərək, həyəcanla dediyi və yalnız səsi ilə yox, baxışı və havanı biçən əli ilə dediyi bu sözdən sonra bir neçə nəfər yaraqlanmaq üçün evə yüyürdü. Mərdan dilləndi:

— Camaat, kimin atı var, minsin. Ay cavanlar, siz piyada gedə bilərsiniz; atları qocalar minsin! Silah vağzalda veriləcək, gedək!

Qeybalı dayı qoca idi, amma düşməndən yanıqlı idi:

— Nə cavan, qoca, əyə, — dedi, — qoca yoxdur, hamımız təzəcə dünyaya gəlmişik, a balam! Sovet yolunda can qoyan da qocalarmı? Mənim atım var, minmirəm. Bu beşaçılan bəsimdir. Odur, at tövlədədir, kimin dizi tavansızdır, verin minsin.

Qeybalı dayı bunu deyib beşaçılanı çiyninə aşırdı. Mövlamın dəstəsinə qarışdı. Mərdan onun mərd hərəkətinə gülümsəmək istədisə də, özünü saxladı:

— Mövlam dayı, — dedi, — sən ata min!..

Mövlam:

— Yox, — dedi, — çətini, özümü səngərə salanacandır. Bunu da bacararam...

Mərdan, evə geyinməyə gedənlərin dalınca bir də səsləndi:

— Tez olun, yoldaşlar, qonşu kəndlər çoxdan atlanıb, hamı səngərdədir!



Sona özünü dəstəyə yetirib oğlunu at üstündə görəndə analıq qüruru başını daha da ucaltdı. Tumanının ətəklərini ovcuna yığıb piyadaların yanına keçdi.

Mərdan onun bu hərəkətinə heyrət elədi. Özünü itirdiyini zənn edib bəlkə də təsəlli vermək lazım olduğunu düşündü:

— Sənə nə olub, ay ana? — dedi.

Oğul məhəbbəti və ailə istiliyi ilə deyilən bu sözə Sona qəti cavab verdi:

— Sizə nə olubsa, mənə də o!

Anasından bu sözü eşitmək, onu vuruşa gedənlər sırasında görmək Mərdana nə qədər xoş idi! İndi Mərdan anasına bir ana kimi yox, tanıdığı minlərlə kənd qadınlarının biri kimi baxırdı. Bunlar, bu yazıqlar, zəhmətdə doğulan, zəhmətdə yaşayan bu analar xoş gün, dinc həyat və güzəran üçün silaha əl atmaq lüzumunu hiss edirlərsə, bu nə yaxşıdır, nə xoşdur!..

Mərdan bu hisslə nə qədər sevinsə də, anasını evə qaytarmaq istədi. Mülayimliklə dedi:

— Qayıt evə, ay ana!

Mövlam da, başqaları da oğul ərki və səsilə Sonanı danladılar:

— Qayıt otur yerində, hələ biz ölməmişik!

Sona razı olmurdu:

— Arvad xeylağına yenə xor baxırsınız?..

Mövlam bir az acıqlı dedi:

— Bu dar vaxtda, ay Sona, sənə də məruzəmi eləyək? Qayıt deyirlər, qayıt da! Kənddə də görməli iş var axı!

Sona inadını pozmurdu:

— Mənim canım Mərdanınkından şirin deyil ha!.. Qanım heç kimin qanından artıq deyil, gedirəm!

Mövlam ərkyana Sonanın qolundan tutub çəkə-çəkə cərgədən çıxartdı:

— Kəndi boş qoymaq olmaz axı! Qalın, soveti qoruyun!

Sona gəlib Mərdanın qabağında durdu... Səs də çıxarmadı, qollarını açıb atın döşünə yaxınlaşdı. Mərdan əyildi. Anası onun boynunu bərk-bərk qucaqladı, öpdü. Mərdan da anasının çalmalı alnından öpüb balaca və bərk əlini sıxdı, yəhərin üstündə düzəldi. Sona əllərini göyə qaldırıb oğluna xeyir-dua verdi.

Mərdan Mövlamdan soruşdu:

— Bəs bayrağın hanı?

Mövlam dinmədi. Mərdan atını sovet binasına çapıb bayrağı götürdü. Yəhərinin qaşında əsən qızıl bayraq onun əzmini və döyüş həvəsini o qədər artırırdı ki, az qalırdı səməndin cilovunu buraxsın, səngər-məngərə baxmasın, şəhərin düz ortasında xain düşmənlə üz-üzə, qabaq-qabağa dayansın.

Mərdan kəndin başına çatanda yüzdən yuxarı yarıatlı, yarıpiyada kəndli görüb papağını götürdü, göyə qaldırıb «ura» çəkdi. Könüllülər pərakəndə halda dağdan parçalanan müdhiş qayalar kimi enişə doğru tökülüşüb, düşmən üstünə gedəndə qadınlar arxada əllərini göyə qaldırıb dua eləyirdilər. Bəzisi gedənlərin dalınca su atır, bəzisi yaylıq yelləyir, bəzisi kənddən lap aralananadək könüllülərin dalınca yüyürürdü: çörək, su qabı verir, kimisi də yara bağlamaq üçün bez və pambıq verirdi... Bəziləri də beləsini danlayırdı:

— Bədniyyət olma, ay qız, haqq yolunda gedənə güllə batmaz...

Sona tez dam üstə çıxıb bir əli döyünən ürəyində, bir əli alnında, yollara, toz qopararaq uzaqlaşan dəstəyə baxırdı. Atlı-piyadanın, silahlı-əliyalın adamlar içində oğlunu, yəhər qaşında qırmızı bayrağı düz və dik tutan, dəstənin başını çəkən cavan oğlanı seçməyə cəhd edirdi. Mərdan isə gah dəstədən ayrılır, gah da adamlar arasında seçilməz olurdu. Səhər günəşinin şüaları altında lalə kimi qızaran, şahin kimi qanad çalan bayraq olmasa, dəstə başçısını seçmək çətin idi. Bayrağı görəndə Sona elə bilirdi, Mərdanın üzünü görür. Sevinclə «can, can balam!» — deyir, əlini göyə qaldırır, sanki oğlunu haylayır, nə isə tapşırmaq istəyirdi!

Sonra əllərini ürəyinin başına qoyub, qəlbinin həyəcanını sakit etmək istəyirdi.

*On altıncı fəsil*

## ÜÇAÇILAN

**Yüz gün yaraq,**
**Bir gün gərək.**

**Atalar sözü**

Mərdan kəndli partizan dəstələrini Müzəffərə təhvil verib vacib tapşırıq alandan sonra bağlar arası sürünə-sürünə özünü çox ehtiyat və çətinliklə şəhərə sala bilmişdi. Şəhər nagəhani, quduz quldurlara uğramış bir yurd kimi soyulub talan edilmişdi. Yollar kəsilmiş, hərəkət dayanmış, idarələr bağlanmışdı. Tutqun bahar səhərinin bulanıq üfüqlərindən tökülən yağışlar sanki küçələrdə yatan lüt və günahsız əsgərlərin matəmini tuturdu. Qoca çinar ağacları enli yarpaqlarını sallayıb ölüləri örtmək istəyirdi. Quşlar qaçıb getmişdi. Küçələr bomboş, tərəddüdsüz idi. Sofular küçəsində, köhnə kazarma qabağında uzanan, hərəsi üzünü bir yana çevirib yazıq-yazıq zarıldayan və ufuldayan yaralı atlara baxmaq çətin idi. Onların bəzisi can verirdi. Bəzisi sanki itirdiyi döyüşçünün həsrətilə çırpınıb



qalxmaq istəyirdi, lakin qalxa bilmirdi. Ara-sıra küçələrdən çaparaq ötən, ehtimal ki, səngərlərə tələsən zabitlərdən başqa kimsə görünmürdü. Dar və xəlvət küçələrdən dinc əhalinin necə qaçıb evlərə təpildiyini görmək də çətin deyildi.

Yalnız böyük məscid ağzında, karvansara həyətində qalmaqal var idi. Mərdan divar dibi ilə, çinarların altı ilə yavaş-yavaş yeriyərək hay-küyə fikir verirdi. Şəhər bağının qabağında sarıyanız, ucaboy bir zabit dəstə ilə hambalları qabağına qatıb cəbbəxanaya aparmağa, tüfəng verməyə, silahlandırıb səngərə göndərməyə çalışırdı. Hamballar yalvarırdılar. Bəzisi fürsət tapıb yayınırdı. Bəzisi dayanıb getmək istəmirdi. Zabit isə qışqırır, söyür, hərdən havaya bir güllə boşaldırdı.

Mərdan tez məscid həyətinə girdi. Minarənin qapıları qıfıllı idi. Üçaçılanın lüləsini salıb qıfılı sındırdı. Qapını örtdü. Pilləkənlərlə yuxarı dırmaşıb dar bacaların birindən şəhərə baxdı. Daha yuxarı çıxmaq istəyirdi ki, tanış bir səs eşitdi. Yenə söyürdülər. Daş döşəmədə araba yeriyirdi. Mərdan boylanıb baxanda at üstündə Ağarəşidi gördü. Gözlərinə inanmadı, diqqətlə baxdı. O idi. Zabit paltarında idi.

Ağarəşid atasının tapşırığı ilə on gün bundan qabaq Ələs bəyin yanına, bolşeviklərlə «haqq-hesab» çəkməkdə Ələs bəyə köməyə gəlmişdi.

İndi o, başına kazak papağı qoymuş, çiyinlərinə yaşıl paqon tikmişdi... Bir kəndli arabaçısını yaxalayıb qamçılayır, atını açmaq istəyirdi:

— Aç, bu saat deyirəm sənə!

— Axı, ağa, xırman atıdır!

— Aç deyirəm sənə, donuz oğlu!

Gödəkboy, qorxaq və həm də malından keçmək istəməyən kəndli əlacsız qalmışdı. Ehtimal o, qarasaqqallı, samuxlu idi. Kim bilir, dünən nə iş üçünsə şəhərə gəlib, indi də Ağarəşidə düçar olmuşdu. Ağarəşid qamçısı ilə rəhmsiz, vicdansız bir sərtlik və qəzəblə onun başına, gözünə vurur, atını əlindən almaq istəyirdi. Kəndli dirsəklərilə başını örtür, gah əl ağacını qabağa verməklə qorunur, ən ağır kötəyə dözərək atın cilovunu əlindən qoymurdu. Ağarəşid döyür, döydükcə də danışırdı:

— Biz millət yolunda canımızı qoyuruq, sən qotur atını əsirgəyirsən, a biqeyrət müsəlman?!

Kəndli fəryad çəkə-çəkə yalvarır, yaxarır, and içirdi:

— Vallah, minik atı deyil. Göy haqqı, xırman atıdır, yer haqqı, kotan atıdır!

Ağarəşid əl çəkmirdi. Kəndli təngə gəlib deyirdi:

— Əşi, əl çək məndən, a zalım oğlu zalım, əl çək! Kasıb adamam, uşaqlarımı ac qoyma, sənin allahın olsun axı!

Mərdan Müzəffərin tapşırığını xatırladı: «Bizimlə əlaqə saxlayın, qərargahdan xəbərsiz iş görməyin». Öz-özünə dedi: «Di gəl burada qərargah gözlə görüm, necə dözəcəksən!.. Mənimki keçib, tribunala düşsəm də bu köpək oğlunun vayına oturam gərək. Təvəkkül!!!»

— Ağarəşid!

Ağarəşid şaşqasını çəkmək istəyəndə Mərdan minarədən bərk qışqırdı:

— Ağarəşid, Ağarəşid, minarəyə gəl! Bolşevik var, özünü tez yetir, Ağarəşid!

Mərdan səsini dəyişib bu «maraqlı xəbəri» elə tələsik və həyəcanlı dedi ki, Ağarəşid kəndlidən əl çəkib atını məscidə sürdü. Özünü ağır bir yük kimi atdan yerə atıb balaca qapıya girdi. Qaranlıq pilləkənlərdən tələsik dırmaşdı. Bir neçə addım getməmiş darısqal yerdə özünü tək görüb vahimələndi. Köhnə, sınıq-sökük və rütubətli pilləkənlərdə dayanıb hövl və qorxu ilə aşağı, yuxarı baxmağa başladı. Mərdanın səsi gəldi:

— Ağarəşid, qorxma, dalımca gəl!

Ağarəşid qabaqdakının cəsur danışdığını görüb ürəkləndi, tüfənginə söykənə-söykənə, yıxıla-dura, pilləkənləri dolaşa-dolaşa yuxarı dikləndi. Minarənin yüz səksənə qədər pilləsi vardı. Şəhərin ən yüksək yeri bura idi. Müharibə zamanlarında cəbhələri yoxlamaq, şəhər xaricindəki düşməni nişan almaq üçün minarənin çox əlverişli olduğunu Ağarəşid kimdənsə eşitmişdi.

İndi fürsət idi. O fikirləşirdi ki: «Buradakı hiyləgər düşməni tapıb öldürsək də buradan düşməməliyik. Burada səngəri möhkəmlətmək, pulemyot qoyub dörd bir yanı seyr və mühafizə etmək lazımdır... Bu hünərimi Ələs bəy bilsə mənə paşalıq verər!..»

Mərdan hərifi şübhəyə salmamaq üçün bir də çağırdı. «Ağarəşid, özünü yetir, amandır!» Ağarəşid elə güman etdi ki, bolşeviki tutmuşlar. Ya əl-qolunu bağlamaq, ya silahını soymaq üçün köməyə çağırırlar. Cəld olub işini bitirmək lazımdır. Tövşüyə-tövşüyə dırmaşdı, minarənin başına çıxanda Mərdan tüfəngin lüləsini onun gicgahına dayadı.

— At yerə silahını, at yerə! Beynini göyə sovurdum ha!!!

Ağarəşid vəziyyətdən heç bir şey anlamadısa da ona edilən əmrin vahiməsilə tapançasını açdı, çiynindəki tüfəngi yerə tulladı. Diqqətlə baxanda Mərdanı tanıdı. Rəngi qaçdı, kağız kimi oldu, ayaq üstə öldü. Mərdan onun yaxasından tutub divara söykədi.

— Paqonun da mübarək! Donun da mübarək! Bunsuz da sən yaxşı işləyirdin. Sən belə qulluqlara çoxdan layiqsən. Mən namərd deyiləm ki, şəxsi intiqam alam, hər şeyi sənə bağışlaram. Kəndliyə rüzgarı təng elədiyinizi unutmamışam, amma bağışlayıram. Mənim xanimanımı odlayıb ailəmi dağıtdınız, bunda da işim yoxdur. Nə pislik edibsinizsə, hamısı bir yana. Yalnız bir şeyi bağışlaya bilməyəcəyəm. De görüm, haradan iy çəkmisən, kəndini buraxıb çiyninə beşaçılan, böyrünə onaçılan taxmısan? Nə üçün, kim üçün?! Güman edirsən ki, inqilabı yaradanlar onu sənin kimi qurd balasından qoruya bilməzlər? Yəni belə xam xəyaldasan? De görüm, o kəndlinin günahı nədir? De görüm, bu yazıq camaata nə veribsiniz, ala bilmirsiniz? Niyə xalqın başına Şam müsibəti gətirirsiniz, ay cəllad uşağı cəllad?!



Ağarəşid daş kimi hissiz və hərəkətsiz dayanmışdı. Mərdan onun ölü kimi duruşundan ehtiyat edib kəlləsinə bir güllə sıxdı, belə bir fatihə verdi: «Hamı öləcəkdir, ancaq bu yüksəklikdə, belə bir uca mərtəbədə, Allaha lap yaxın yerdə ölmək, yalnız sənin kimi mömin Hacı oğluna qismət ola bilərdi!..»

Mərdan onun paltarını geyinib tapançasını, vəsiqələrini götürdü. Ətrafa, Qala düzünə sarı boylanıb atəş xətlərinə qulaq asdı. Bağban tərəfdən atılan topların yerini təyin eləməyə çalışdı. Günortadan xeyli keçmişdisə də atışma seyrəlmirdi. Qobu tərəfdə daha da şiddətlənirdi. Yaxın səngərlərdən gələn səslər qulağı partladacaq qədər müdhiş idi. Uzaqdan eşidilənlər isə gülə qoyulmuş şabalıd partlayışına bənzəyirdi. Top güllələri dumandan siyrilərək fəzanı ölçüb yaxınlaşdıqca vıyıltı bərkiyir, şəhərə çatanda bir bəla kimi partlayır, tutqun göydə kükürd tüstüsü kimi tünd və kəsif bir kütlə buraxırdı. cəbhəni görmək mümkün olmurdu. Şəhərin hər tərəfi yamyaşıl ağaclıqlara bürünmüşdü. Baharın təravətli havası barıt və tüstü iyi ilə pozulmuşdu. Zümrüd göyün ortasında sanki dayanıb yerə baxan, cəmiyyəti bəlalardan təmizləməkdə olan zəhmət adamlarına salam deyən yaz günəşi, bu yerlərə, məhz bu yerlərə daha çox işıq, hərarət, həyat və məna verirdi. Adama elə gəlirdi ki, bu gün günəş yerimir, dayanıb durmuşdur, bu balaca şəhərin düşməndən təmizləndiyini öz gözü ilə görməmiş dağlar arxasına, yatağına getmək istəmir. O da Mərdan kimi getdiyi yerlərə, lap uzaqlara xoş xəbər aparmaq, muştuluq vermək istəyirdi.

Mərdan indi küçələrdə sərbəst gəzə bilər və heç kəsdə şübhə oyatmazdı. O, doğrudan da, zabitə oxşayırdı. Özünə cəsarət verib birbaşa müsavatçıların qərargahına yollandı. Qapıdan tünd keçəndə qərargah qarovulu ona hərbi salam verdi. Mərdan bunun cavabında nə etməli olduğunu bilmədiyi üçün karıxdı. Dalına baxmadan cəld yeriyib yuxarı mərtəbəyə dırmaşdı. Zalın qapısında iki mühafizəçi dayanmışdı. Mərdan soruşdu:

— Qərargah buradadırmı?

— Kim lazımdır?

— Cahangir paşanı harada görmək olar?

— Zabit əfəndi, iclasdır.

Mərdan qərargahdakıların təşvişdə olduğunu duyub qayıtdı, küçəyə çıxdı, daldey küçələrin birinə çəkilib çəkməsini sahmanlamaq bəhanəsi ilə fikirləşməyə və vəziyyəti öyrənməyə fürsət və vaxt aradı.

Bura müsavatçıların əsl yuvası idi. Hər yandan qaçan burada, daş binalar altında daldalanırdı. Bu yuvaya od qoymaq lazım idi. Bu yuvanı dağıtmaq—əksinqilabın ocağını dağıtmaq deməkdi.

Mərdan belə bir fürsət çağında kömək arzuladı. Adam lazım idi, kömək, tədbir lazım idi. Hamıdan qabaq yoldaş Yəhyanı, komsomolçuları arzuladı. Onda üstün bir qüdrət olsaydı, əsəbilikdən titrəyən əllərini uzadar, səngərlərdə döşünü yaş torpağa verib vuruşan əsgərləri, kəndliləri, gəncləri qucaqlar, gətirərdi. Qərargahdakıları göstərib deyərdi:

— Nə durmusan!

Lakin vəziyyət elə idi ki, indi Mərdanın heç kimə əli çatmayacaqdı. Özü də təhlükə qarşısında idi. Cüzi bir şübhə onun məhv olması, tədbirlərin pozulması üçün kifayət idi. Onun yeganə köməyi vəfalı üçaçılan idi. Qardaşdan artıq istədiyi yarağını sinəsinə basıb xəyalını səngərlərə atdı. Axşamdan-səhərə, səhərdən-axşama qədər yorulmadan atışan, böyük qurbanlar bahasına olsa da yaralı şəhəri tezliklə xilas etməyə can atan qızıl əsgərlər, fəhlə-kəndli könüllüləri sıra ilə Mərdanın nəzərindən keçdilər. Mərdan onların «İnqilab yolunda!», «Lenin yolunda!», «Vətən yolunda!» deyən zəhmli səsini eşidir, sürətli hücumunu görürdü. Budur, hücumda tərləmiş, yorulmuş, şahin baxışlı qırmızı topçu, qara durbini ilə bağlar, bağçalar içində, ağaclar altında gizlənən əksinqilab qüvvələrini arayır. Mərdan xəyalən onunla danışırdı: «Dinlə məni, cəbhə yoldaşım, durbini burax, bir an qulaqlarına güc ver, məni dinlə. Siqnalıma nişan al!»

Doğrudur, indi günün günortaçağı işarə vermək qorxulu idi. Ancaq fürsəti itirmək olmazdı. Bəlkə də bir neçə saatdan sonra paşalar, əfəndilər hamısı dağılacaq, hərəsi bir dəstə ilə səngərlərə gedəcəkdi. Bəlkə də qaçmağa hazırlaşırlar! Quldurbaşıları əldən qoymaqmı olar?..

Mərdan artıq fikirləşməyi yersiz saydı: «İşarə verməliyəm, — dedi, — nə təhər olsa verməliyəm. Atışma da seyrəkdir, əsl işarə vaxtıdır. Bu damdan özümü qonşu həyətlərə atandan sonra heç bir şey olmaz. Bərkə qalanda bir can nədir? Təki mətləbimə çatım. Topçu yoldaşım məni eşitsin!..»

Mərdan darvazadan qərargah həyətinə girdi. Söyüdün altında bir fayton dururdu. Həyətdə çoxlu yəhərli, çullu və çulsuz at bağlanmışdı. Bir nəfər vedrə ilə atları sulayırdı. Zirzəmidən yeşiklərdə silah aparmağa gələnlərin səs-küyü ucalırdı. Üst mərtəbədən birisi acıqlandı:



— Əfəndilər, səs salmayın, əfəndilər, nə xəbərdir!

Mərdan onu səsindən tanıdı. Gilas ağaclarının, nar kollarının arasından boylanıb baxanda İlyas bəyin pörtmüş sifətini, sallaq bığlarını gördü. Mərdanın ürəyi döyündü. Yəqin elədi ki, düşmənlər burada cəmdir.

Topa tutulan kəndlilər, Tatılının xarabalıqları, dağıdılan erməni kəndləri, mələr qalan arvad-uşaq, xalqa edilən zülm-sitəm... Hamısı gəlib gözünün qabağında durdu. Yəqin etdi ki, Vəznəlinin cəza dəstəsi hələ bu saatın özündə də xalqa, hüquq və azadlıq istəyən camaata divan tutmaq üçün qərargahda oturub baş sındırır, tədbir tökür...

Mərdan yanılmırdı. Qərargah başçılarının məşvərətini təşkil edənlərdən biri Xudadad bəyin müavini Vəznəli kişi özü idi. O, gecə qəflətən qırğın təşkil edib qızıl əsgərləri şəhərdən qovmaq üçün bütün qaçaq-quldur dəstələrini işə salan Cahangir bəyi qucaqlayıb təbrik etmişdi. «Zərbi-dəstinə qurban, ay Cahangir qağa! Ölənəcən varam sənnən. Oyununa bərəkallah! Dünyada beş nəfər sənin kimi dostum olaydı... Muşqurmamış alçı durardım!..»

Üsyanın altıncı günü, xalq cəbhəsinin qələbəsinə doğru gedən vuruşmaların nəticəsini «fəna» görən Vəznəli, qərargahda təcili və geniş müşavirə çağırmışdı. Müsavat məmurları, zabitləri, bəylər, tacirlər danışırdılar. Su içir, papiros çəkirdilər. Axırını bir yerə çıxara bilmirdilər. Vəznəli kişi əlini qaldırıb sükut istədi. Heç kəsə söz vermədi:

— Belə ki görürəm, canımızı da yer pulu əvəzinə verməli olacağıq! Acın imanı olmaz! Ayağı çarıqlını mən tanıyıram. Ayıldı, bir balaca fürsət tapdı, iş qurtardı. Leylac da bacara bilməz!

Cahangir paşa istədi soruşsun «Neçə il qumar oynamısan?» Gördü yeri deyil, dinmədi.

Məşədi Müseyib dedi:

— Bir çarə lazımdır, əfəndilər. Təcili bir çarə!..

Vəznəli onu susdurdu:

— «Əsli Kərəm» teatrını görmüsənmi?

Bu sual hamıya qəribə gəldi. Məşədi Müseyib anlamadı ki, bunun mətləbə nə dəxli. Vəznəli bir də soruşdu:

— Soruşuram səndən, görmüsən ya yox?

— Görmüşəm, əfəndim, nə olsun?

— Dinə gəlsin, keşiş orda ağıllı bir söz deyir ha!

Məşədi Müseyib fikrə getdi:

— Nə deyir?

Vəznəli kişinin çiyinləri oynadı, dodağı qaçdı. Saralmış bığlarının altından iri və sarı dişləri azacıq göründü:

— Keşiş əsasını yerə döyüb oxuyur:

Qaçmaq... qaçmaq!

Qaçmaqdan başqa əlacım yoxdur!..

İlyas bəy istədi cavab qaytarsın, «Bəy, bunu sizdən gözləməzdim!» Ağabəy onun üzünə tünd baxdı:

— İgidliк ondur, doqquzu qaçıb qurrr.

«Qurtarmaq» sözünü bitirə bilmədi: çünкi dalbadala atılan üçaçılan səsindən məclis dondu. Bu səsin mənasını məclisdəкilər yaxşı bilirdilər. İlyas bəyin dili tutuldu.

Mərdan divarın başında, gilas budaqlarının dalında ayaqlarına möhкəm yer eləyib dayanmışdı. Xəyalındaкı yoldaşlıq xitabını bir də təкrarladı. «Cəbhə yoldaşım, məni dinlə, siqnalıma nişan al!» Üç dəfə silahını göyə boşaltdı, qonşu həyətə hoppandı. Bu səsdən vahiməyə düşən mühafizlər кüçəyə çıxdılar. Sağa-sola qaçışdılar, heç кəsi görə bilmədilər.

İclasdaкılar pəncərələrə sarı, eyvanlara sarı axışdılar. Damın başına dırmaşanlar oldu. Əllərində onaçılan hamı кimi isə axtarırdı. Bəziləri də: «Axmaq bir başıpozuğun işi olacaqdır» deyə, qərargahı xatircəm eləməк istəyirdi. Cahangir paşa iti və mahmızlı addımları ilə iclas zalına qayıdanda hamı sürü кimi onun dalınca içəri doldu. Adamlar öz yerlərində əyləşib paşanın nitqini dinləməк istəyirdilər. Laкin paşa yerinə кeçmədi. Bir əlini stola söyкədi, o biri əli ilə binanın tavanına işarə edib yeni və vahiməli bir müzaкirə bəhsi açdı:

— O üçaçılan gülləsindən mən bir xəyanət səsi duyuram: əfəndilər, ehtiyatı əldən verməyəlim; кəşfiyyatçıya uğramaq ehtimalından sığınmaq üçün qərargahı dərhal təbdili məкan etməli!

İlyas bəy paşanın rəyinə zidd getməк cəsarəti göstərdi:

— Paşanın əmrinə tabesiz, faqat vəziyyətin ağırlığını, vaxtın təngliyini nəzərə aldıqda, əhalinin bizə qarşı arzuolunmaz münasibətini zehnə gətirdiкdə, qərargahın təbdili-məкanı bir o qədər də asan və müfid görünməsin, əfəndilər, zənnindəyiz!..

İlyas bəy öz etirazını əsaslandırmaq, rəy verməyə tələsdiкləri üçün ayaq üstə dayanan «ərкani-hərbi» öz sübutlarına inandırmaq istəyəndə, binanın başında elə müdhiş bir ildırım şaqqıldadı кi, deyərdin göylər qopdu, töкüldü, dünyalar daşa dəyib saxsı кimi çiliк-çiliк oldu. Bu şaqqıltı neçə dəfə təкrarlandı. Qərargahın yerində кüкürd, barıt və pis qoxuyan кəsif duman biriкdi. Çox çəкmədi duman alovlandı, od içində parthapart qopdu, aləm bir-birinə qarışdı...

Mərdan bu gecəni şəhərdə кeçirməli, rast gəldiyi, etibar etdiyi cavanları səngərlərə göndərməli idi. İlк dəfə getdiyi yer Bəhmənin evi oldu. Yoldaş Yəhya Bəhməndən nigaran olduğunu demişdi. Mərdan əliboş getməyə də utanırdı. Şəhərdə azuqə yox idi. Bazar-düкan bağlanmışdı. Ərzaq müsadirə olunmuşdu. Hər кəs öz evinə çəкilmişdi. Yoxsul evlərində aclıq hiss olunurdu. Əкsinqilabçılar ancaq cəbhəyə gedib onlara кöməк etməyə boyun əyənlərə çörəк vəd edirdilər.

Bəhməngilin evində və həyətində кimsə yox idi.



Qapı-baca bağlı, ev-eşiк süpürülmüş məscid кimi bomboş idi. Mərdan bildi кi, qorxudan yığışdırıblar. Ya кəndə qaçıblar, ya bir yanda gizləniblər. Qayıdıb çıxmaq istəyirdi, zirzəmi qapısından tüstü qalxdığını görüb çağırdı:

— Xala, ay xala, qapını açın, Mərdandır!

Ağ, iri, tay qapı açıldı, içəridə otuza qədər qadın-uşaq qaynaşmağa başladı. Mərdan onlara ürəк-dirəк verdi. Atışmanın tezliкlə кəsləcəyini, dava olmayacağını, çörəк paylanacağını deyib onları sevindirdi. Bəhmənin anasını кənara çağırıb oğlundan əhval soruşdu. Qadın şübhələndi:

— Yoxsa oğlumun başında bir iş var, ay Mərdan?

Mərdan ona acıqlandı:

— Nə danışırsan, ay rəhmətliyin qızı, xata eləmədim soruşdum. Yoldaş Yəhyanın tapşırığıdır. Hamıya baş çəкiriк!

Qadın tövşüyə-tövşüyə dedi:

— Atışma düşən gecəsi çıxdığıdır. Üç gün bundan qabaq bircə dəfə xəbər göndərib кi, vağzaldayam!

Mərdan dedi:

— Arxayın ol, vağzal öz əlimizdədir. Elə isə o, yoldaş Yəhyanı tapıb, çünкi srağagün yoldaş Yəhya vağzala getdi. Arxayın olun. Çörəкdən-zaddan кorluq çəкmirsiniz кi?

— Yox! Bir az orucluq üçün almışdıq. Uşaqlar onunla dolanır.

Mərdan xudahafizləşib evdən çıxdı, o gecəni istəкli üçaçılanı ilə gah o səngərdə, gah bu səngərdə кeçirdi.

Vəznəli кişi Bağbanlar tərəfindən bolşeviкlərə кöməyə gələn кəndlilərin qabağını кəsib yaxına buraxmamağı qaçaq Qənbərə tapşırmışdı. Bu isə qaçaq Qənbərin şəninə şiкəstliк gətirirdi. Onun arına gəlirdi:

— Bəy, gör məni кimin qabağına göndərirsən, burnu fırtıxlı Yaqubun!

Yaqubun кəndlilər arasında hörməti və hünərini Vəznəli özü bilirdi də, qiymətləndirirdi də. O, Qənbər кimi, bu hörmətin mənasına göz yumurdu:

— Taкi,—deyirdi, — Qənbər, sən Yaquba cavab ver! Bunu bacarsan sənə Qənbər yox, Ənvər deyərəm!

Bu cavabdan Qənbər daha da hirslənmişdi. Artıq adam istəməmişdi. Qırx beş nəfərliк bir atlı dəstəsi ilə Beştəpələr deyilən daldey yerdə səngərlənmiş, düşmənin gəlməsinə müntəzir olmuşdu.

Yaqub isə hər gün vuruşa-vuruşa irəliləyir, şəhərə yaxınlaşırdı. Rast gəldiyi hər şeyi — meşəni, bağı, dərəni yoxlayaraq ötürdü. O, bu fiкirdə idi кi, vağzal tərəfdən nizami qoşun, qızıl əsgərlər şəhərə ayaq basanda кönüllülər də Bağbanlar tərəfdən girib şəhəri əhatə etsinlər. Düşmənin qaçıb aradan çıxmasına yol verməsinlər. Beştəpələrə yaxınlaşanda saкit getməкdən ehtiyat elədi. Кönüllüləri

üç dəstəyə böldü. İki dəstə sağ və solda pusquda dayanmalı, üçüncü dəstə ortada, yol ağzı ilə gedənləri izləməli idi. Yaqub özü də üçüncü dəstənin içində idi.

Onlar ata-ata gedirdilər, cavab atəşi gözləyirdilər. Yaqub hücum xəttini bütün yoldaşlara başa salmışdı. Atını ağacların altı ilə sürüb ətrafı müşahidə edir, hərdənbir güllə ilə işarə verirdi. Təpələrin dalında qaçaq Qənbərin beşaçılanları guruldadı. Yaqubun adamları beş dəqiqə atışıb çəkilməyə başladılar. Qənbər düşməni belə, gözləmədiyi kimi aciz görüb cəsarətlə təqibə başladı. Qırx beş adamın hamısı atını yola salıb çapırdı. Hər şeydən əvvəl qaçanlardan at, tüfəng ya paltar qəniməti ələ keçirməyə çalışırdı. İki verst getməmişdilər ki, kənardan, bağların arasından dolu kimi güllə yağdı. Qənbərin adamları çürük meyvə ağacdan düşən kimi tappatap atdan yerə tökülürdülər. Yaqubun cəsur «vur! vur!» səsi qayalarda əks-səda verirdi. Qənbər çaşbaş qaldı. Qabağı qorxulu görüb qayıtmaq istədi. Yolun kəsildiyini və möhkəm bir mühasirəyə düşdüklərini hiss etdi. Atlar yaxın da, dalbadal açılan güllələrin səsindən hürküb şahə qalxırdı. Adamların bəzisi xəncərə əl atır, bəzisi hoppanıb daşa girir, bəzisi də fırlana-fırlana tüfəngin çaxmağını çəkirdi. Qaçmaq istəyənlər on addım getməmiş arı şanı kimi olurdular. Atlılardan biri əl qaldırıb «təslim!» dedi, daşın dalında, qan-tər içində atışan Qənbər pis söyüşlə söydü və onu vurdu.

Yaqub atını qaytarıb səngərdən xeyli uzaqlaşdı. Atdan düşdü. Yolun böyürtkənlərlə əhatə olunmuş, xəlvət bir yerindən tez o tərəfə hoppanıb sinə-sinə səngərlərə yaxınlaşdı. Qənbər sığınan divarın lap yanında dayanıb boylandı. Qənbəri, o enlikürək, yoğun cantaraq meşə vəhşisindən çətin seçilən tülkü qulduru aşkar gördü: Yaqub onu, beşaçılanı tez-tez dolduran, qızarmış, yoğun və tüklü boynunu çevirib döyükən görəndə tələsdiyindən az qaldı üstünə atılsın, fikrinə gəldi ki, daş götürüb ilan kimi başını əzsin. Buna arxayın olmadı. Üçaçılanla onun kürəyini alışdırdı. O, tüstü kimi göyə qalxdı. Qolları göydə budaqtək tərpəndi. Ağır bədənilə, rişəsindən qoparılmış ağac kimi yerə, yaş otlar üstünə sərildi...

Qənbərin adamlarından qalanlar təslim olub silahı tökdülər. Könüllülər «ura» çəkib şəhərə doğru çapdılar. Yaqub at belində, sağı-solu örtən, havaya bahar ətri saçan yaşıl, çiçəkli ağaclar arasından qırğı kimi süzüb gedirdi...



*On yeddinci fəsil*

## XALQIN SƏSİ

**El gücü, sel gücü.**
*(Atalar sözü)*

Bu gün şəhərə qəti həmlə günü idi. Qızıl əsgərlər vağzal tərəfdən guruldayan top atəşi altında yeriyirdilər. Top, pulemyot lülələrini bir tərəfə istiqamətləndirən zirehli qatar yarımdairə şəklində şəhəri qucaqlayan dəmiryol boyu gəzərək qırmızı hücumçuların yollarını təmizləyirdi.

Yelenendorf və Bağbanlar tərəfdən isə şəhəri tutmuş olan əksinqilabçılar üzərinə nizamsız, lakin qüvvətli, qaynar bir kütlə axırdı. Kür qırağı kəndlər — pambıq əkinçiləri, başıpozuq adlanan könüllü inqilabi kəndli dəstələri feyzli yaz günəşinin mail şüaları altında, yaşıl, bağlı-bağçalı yamaclar boyu ağzı aşağı qaynar bir mədən kimi axışıb getməkdə idi. Onlar, məcrasından aşan yaz seli kimi, hasarlı, dar və daşlıq yollara sığmırdılar. Üzüm bağlarının arası ilə, əkinlərin laləli mərzi, yarpızlı dərələr, çəpər qıraqları ilə sanki bir-birini ötmək üçün yeyinləyirdilər. Gödək tüfənglərini kəndirlə çiyinlərinə salan, kiçik gövdəli iş atlarının çılpaq belinə mıxlanmış kimi dimdik əyləşərək iti və ehtiraslı baxışları ilə sübhün dumanını dələn kəndli dəstələri ümumi bir ruhla, ümumi bir iradə ilə müqəddəs vəzifəyə doğru axıb gedirdilər. Onların günəşdən yanmış tunc sifətində qabaran kin və intiqam cizgilərini görmək çətin deyildi. Onlar quduz müsavatçıların, xan-bəy Gəncəsinin yerə-göyə sığmayan cinayətindən hiddətə gəlmişdilər. Gəncənin, qırmızı Gəncənin yenicə başlayan işıqlı sabahını, zəhmətkeşlərin əsrlərdən bəri arzulayıb nail olduğu azadlıq günlərini, qorumağa, vətən torpağını xainlərdən təmizləməyə, zülm və sitəmin rişəsini kəsməyə gedirdilər.

Mövlam kişi Mərdanın atını minmişdi. Hirsindənmi, tələsdiyindənmi, tərləmiş, papağını kəmərinə taxmışdı. Onun uzun müddət irəliyə doğru baxmaqdan dönməyən balaca, tüklü başı qartal başına oxşayırdı. Mövlam kişi atını elə bir iradə və əzmlə sürürdü ki, görən deyər bu nə ehtiyatsız adamdır. Ehtiyatın zərurətini; qabağındakı düşməninin quduzluğunu bilsə də, Mövlam kişidə uşaqlara xas olan bir səbirsizlik, tələsmə vardı. O, qəzəbini soyutmaq, intiqam saatını yaxınlaşdırmaq üçün bərk sürür, dəstədən aralanırdı: Atının cilovunu buraxmağa can atırdı. Ancaq komandirdən qorxurdu. Həm də gözlərini qarşıdakı sıx bağ-bağata, yarpaqları altında, ehtimal, düşmən gizlənmiş ağaclıqlara dikmişdi. O, ürəyində, piyadalara qoşulmadığına heyfsilənirdi. Güman edirdi ki, piyada bağ-bağçaya

daha tez soxulmaq, daha çox iş görmək olar... Qızıl komandanın səsi eşidilirdi. Atlıların, xırda qurd yerişi çaparağa keçir, atların nalsız ayaqları az qala dizə qədər batdağa girir, döyüşçülərin acıqlı səsinə şappıltı ilə palçıqdan çıxırdı. Bir Don kazakı yoldaşlarından soruşdu:

— Bunlar kimin adamlarıdır?

— Könüllülərdir. Komandan bunların arxa cəbhədən hücuma keçmələrinə razı olmuşdur.

— Bacaracaqlarmı?

— Nə deyirsən, onlar uzun zamandır ki, mülkədarlarla vuruşurlar. Onlar illərdən bəri qurtuluş yolunu Bakı fəhləsindən öyrənmişlər, savadsızlıqlarına baxma! Yol göstərən olsun, çox iş görərlər.

Gün qalxıb kölgələr qısaldıqca, hava qızdıqca, dağ-təpə başındakı ağ duman seyrəldikcə bütün cəbhələr boyu yaylım atəşi şiddətlənir, qara qüvvələrin şiddətlənən quduz müqaviməti hər yerdə hiss olunurdu.

Şəhər ətrafını bürüyən bağların uca və ağ-möhrə divarları düşmənin təbii səngəri olmuşdu. Bəylər, buradan kəndli dəstələrini atəşə tuturdular. Atışma səslərindən ölüm yağırdı, lakin könüllüləri heç nə qorxutmurdu. Onlar sütül taxıllara yatır, gilas, tut və qoz ağacları ilə örtünür, arxlara düşərək su içində irəliləyirdilər... Bir kəndli tələsərək atını dayaz bir xəndəyə salıb atışmaq istəyir. Boğazından yaralanır, qızıl qana boyanır. Var gücünü toplayıb bütün bədənilə yuxarı atılır, iki güllə də atıb yıxılır, Üzünü yumşaq torpağa qoyur. Əllərini geniş açaraq sanki yeri, onun üçün çox əziz olan və qanı bahasına ala bildiyi ana torpağını son məhəbbət və həsrətlə qucaqlayır. Sükut edən divarın dalından fürsət tapdıqca dillənən yaylım atəşi hücum edənlərin qarşısını alır. Nə qədər müdhiş mənzərələr vardır! Yaralanmış bir kəndli əli ilə qarnını qucaqlayaraq o biri əli ilə geri çəkilən yoldaşından yapışmağa çalışır. Yoldaşı onu xilas etmək üçün qucaqlayıb sürüyür, kəndli yarasının əzabından bərk qışqırır, haldan düşür...

Acı, ağır, qara tüstü dənizi qabarıb yuxarı qalxır. Alov şölələri pambıq zavodunun divarlarını yalayıb ötür.

Yanan pambığın yağlı, hisli, boğucu iyi bütün havanı kəsifləşdirir!

Çox çəkmir ki, inqilabi qoşunun əzmi düşmənin inadını bir qamış kimi qırır. Gələcək səadət günlərinin mahnısını çağıran orkestrin əzəmətli səsindən, qəhrəman komandanların ilham, qüvvət aldığı və səslədiyi Lenin adından ruhlanan, bu şərəfli hücumda qızıl əsgərlərdən geri qalmayan kəndli dəstələri axırıncı hasarlara, üzüm bağlarına lap yaxınlaşırlar.

Düşmən təlaş, vahimə içində sürətlə geri çəkilməyə məcbur olmuşdur. Budur, xırda və yüngülayaq atlar tikanlı çəpərləri quş kimi hoppanır, cəsur kəndlilər özlərini divardan o üzə atır, düşmənlə əlbəyaxa olmaq üçün ləzgi xəncərlərini havada parıldadırlar.



«Yaşasın Sovetlər!», «Yaşasın qurtuluş!», «Var olsun Lenin!» səsləri bağ-bağatı doldurur. Qızıl dəstələr, qaçmağa üz qoyan düşməni təqibə başlayırlar. Günortadan dörd saat keçmiş qızıl əsgərlər və inqilabi kəndli dəstələri dörd yandan şəhərə girəndə Mərdan həbsxananın qapısını açıb məhbusları dünya işığına buraxırdı. Məhbuslar, onlara və ümumən vətənə azadlıq gətirən qəhrəman Qızıl Ordu və partizanları alqışlayır, sovet yolunda canlarından keçməyə hazır olduqlarını deyib silah xahiş edirdilər. Mərdan onların hamısını evlərinə göndərir, tapşırırdı:

— Camaata, əhaliyə, hər kəsə başa salın ki, Sovet hökuməti fəhlənin, kəndlinin hökumətidir, kasıbın, məzlumun hökumətidir. Bəyin, xanın, mülkədarın fırıldağına aldanmasınlar, bəsdir daha!..

Mərdan qalib nizami və kəndli qoşunlarını şəhər meydanında qarşıladı. Yaqub və Mövlam kişi ilə görüşüb öpüşdülər. Mövlam kişinin sevincindən gözü yaşardı. Cəbhədə dostlaşdığı Don kazakı Mişa ilə Mərdanı tanış elədi.

Mövlam kişi qələbədən doğan bir iftixar və şadyanalıq hissilə dostunun, cəbhə yoldaşının çiynindən tutub gülümsəyən gözlərinə baxdı:

— Sən, mən— (şəhadət barmağı ilə göstərir) dva qardaş!

— Qardaş, znaçit brat!

Mərdan, Mövlamın sözünü Mişaya tərcümə edəndə Mişa güldü və Mövlamın kürəyinə vurub dedi:

— Brat i boes!

Qalib dəstələr «ura» çəkir, əsgərlər «Beynəlmiləl» oxuyurlar. İnqilab və azadlıq marşı bütün əzəmətilə gurlayaraq şəhər meydanından yüksəlir, hər tərəfə yayılır.

Cənubdan, Bağbanlar tərəfdən gələn könüllülərlə şimaldan, dəmiryol stansiyası tərəfdən gələn və hər addımda silahla özünə yol açan Qızıl Ordu döyüşçüləri bir-birinə çatanda, ümumi bir səslə ura çəkib qucaqlaşdılar, öpüşdülər. Uzun və ağır vuruşmalardan, yorğunluq, yuxusuzluqdan, yaradan, ağrıdan sonra üzündə-gözündə ağır yay vuruşmasının tozu-təri duyulan minlərlə adamın dərin və əbədi qardaş məhəbbətilə bir-birini qucaqlaması şəhər meydanının və bu şəhərin tarix boyu görmədiyi bir mənzərə idi. Bütün dünyada ilk dəfə zülm və əsarət zəncirini əbədi qıran, bütün xalqlara əbədi azadlıq və səadət gətirən Sovet Rusiyasının qəhrəman oğulları şəhər meydanında müqəddəs bir qələbənin bayram nişanəsi olaraq yerli zəhmətkeşlərlə qucaqlaşıb görüşür, onlara əbədi azadlıq və səadət müjdəsi verirdilər. Əlində qırmızı bayraq tutan bir rus döyüşçüsü atını irəli sürərək üzünü kəndlilərə, küçələri dolduran, evlərdən, damlardan baxan əhaliyə tutub uca və mehriban bir səslə dedi:

— Yaşasın qırmızı Azərbaycan, Sovet Azərbaycanı!

Şəhər zəhmətkeşləri, inqilab bayraqları olan rus oğlunun muştuluq səsinə bitmək bilməyən alqışlarla cavab verdilər. Şənlik, bayramı səsi və təntənəsi bütün şəhəri bürüdü. Çox çəkmədi ki, Qızıl Ordu hissələrini, inqilabi könüllü dəstələri yeni və parlaq qələbə ilə təbrik edən komandanın əzəmətli, təntənəli səsi eşidildi:

— Yoldaşlar!

Bu səs bütün qüdrəti, dərin və cahanşümul mənası ilə hər tərəfə yayıldı, eşidənlərin zehninə ayıqlıq və işıq verdi.

— Yoldaşlar!!!

Mərdan məhbusların hamısını yoxlayandan sonra içəri girdi. Kameraları bir-bir gəzdi. Həbsxana qulluqçularından başqa kimsəni görmədi:

— Bir şairi neçə ay əvvəl inqilabi təbliğat üstündə tutmuşdular. Görəniniz ola bəlkə?

Sarıyanız, arıq bir oqlan dedi:

— Bəli, gətirmişdilər elə bir adam. Yayın ortaları idimi? Xülasə yayda olub. Çox pərişan bir kişi idi. Heç kəsə boyun əymirdi, qulluqçular köməkləşib onu döyə-döyə kameraya basdılar... Heyf ki, mən sonra görə bilmədim. O kişi necə oldu, bəlli deyil.

Bir səs Mərdanı öz xəyallarından ayırdı. Sənət texnikumu tələbələrinin musiqi dəstəsi qalib qızıl əsgərləri təbrikə gəlirdilər. Bir yaşda, bir boyda, təxminən bir geyimdə olap cavan uşaqlar əsgəri addımla addımlayırdılar. Orkestrin gur və şadlıq səsi, yalnız əsgərləri yox, silahla alınmış, çox qurbanlar bahasına fəth olunmuş böyük və müqəddəs azadlığı alqışlayırdı.

Şəhər meydançasında qaliblərin mitinqi keçirildi. Mərdan komsomol adından, cavanlar adından, inqilabi kəndli cavanları adından xilas olmuş şəhəri təbrik edirdi. Onun gənc və alovlu səsi azad xalqın səadəti və birlik nəğməsi kimi güclü və xoş idi.



*On səkkizinci fəsil*

## MUŞTULUQ

**Qara bəxtdən danışan**
**Nəğmələri gəliniz,**
**Böyük tabutlar ilə —**
**Biryolluq dəfn edək biz.**

**H. HEYNE**

İyunun onu idi. Şəhər bağında cavanların şənlik yığıncağı keçirilirdi. Orkestrin səsi şəhəri başına almışdı. Bağın divarları şüar və şəkillərlə bəzənmişdi, qapısı camaatla dolmuşdu. Bu yığıncaq Yəhyanın təşəbbüsü ilə çağırılmışdı. Yoldaş Yəhya indi partiya komitəsində çalışırdı. Şəhər komsomol komitəsinə zəng edib Sureni çağırmışdı.

— İndi, — demişdi, — vaxtı çatmışdır. O zirzəmidə darıxan günlər ki, həsrət çəkirdik, bir gün işıqlığında yığışıb danışmaq arzulayırdıq, indi vaxtıdır! Gərək arzumuza əməl edək!

Suren Mərdana xəbər göndərdi, məktəbli gənclərdən qabiliyyətli yoldaşların siyahısını tutdurub teatr tamaşası, çalğı, oyun, ədəbi parçalar hazırlatdı. Bir gün əvvəl adam göndərib öz kəndlərindən də yoldaşlarını çağırdı. Bacısı Marqo da arabaya minib gəlmişdi.

Mərdan Surenin yanında Marqonu, gözəl və yeniyetmə qızı görəndə öz-özünə demişdi:

— Qırışmal nə tez tapdı bunu...

Yaxınlaşanda Suren gülümsəyib Mərdanı təzədən tanış eləmişdi.

— Tanıyırsan, Marqo səndən, məndən çox böyüyüb?

Mərdan bu qızın Marqo olduquna inanmırmış kimi heyrət elədi.

— Bağışla, Marqo, tanımadım, bir də necə tanıyaydım? Mən səni balaca bir ev uşağı görmüşdüm. Amma indi xalis barişna!

Onlar külüşüb kəzməyə başladılar.

Uja və qoja çinarların köylərə baş vurduru şəhər bağının yaxşı vaxtı idi. hər tərəf yamya-şıd, al-əlvan idi. Qızılkül, qərənfil, yasəməi

bir-birini çağırırdı. Axşamın sərin havasına çökən ətir iyi yoldan ötəni saxlayırdı. Şəhərin və yaxın kəndlərin komsomolçu kəncləri, müəllimlər, məktəblilər, qızıl əsgərlər bağda şənlik keçirirdilər. Yəhya papağını əlinə alıb bağın ortasında bəzənmiş xitabət kürsüsünə çıxanda musiqi susdu. Hamı natiqin başına yığışdı. Yəhya birdən başlaya bilməzdi. O, qarşısındakılara baxır, bukünkü

кənclər bayramının tarixi şadyanalığını düşünür, ürəyindəкiləri ifadə etməyə söz axtarırdı.

Bu yığıncaq bir neçə ay əvvəl zirzəmilərdə çalışan кomsomolçu кənclərin böyüк bir arzusunun inqilab sayəsində, Qızıl Ordunun, qəhrəman rus fəhləsinin qardaş кöməyi sayəsində həyata кeçdiyini göstərirdi. Bu şəhərdə birinci dəfə idi кi Azərbaycan, rus və erməni кəncləri — bütün millətlərdən olan azad sovet кəncləri qardaşcasına əl-ələ verib eyni sevinclə gəzir, dincəlirdilər. Birinci dəfə idi кi, bu bağda azadlıq bayramı кeçirilirdi, birinci dəfə idi кi, Yəhya açıq havada кomsomolçuların qarşısında danışırdı. Onun sözü çox idi. Laкin həyəcanlı olduğundan az danışdı və nitqini belə bitirdi:

— ...Fəhlə-кəndli gənclər! Sosialist inqilabımız sizin üçün yeni və xoşbəxt bir dünya yaratmışdır. Hər şey sizindir. Vətənimiz də, qələbəmiz də, indimiz, gələcəyimiz də sizindir! Partiyamızın, böyüк atamız Leninin sayəsində qanad açıb yüкsəlin! Oxuyun, öyrənin, yaradın. Xoşbəxt yaşayın! Belə günlərdə deyin, gülün! Heç bir qara qüvvə sizin bəxtəvər həyatınıza mane ola bilməyəcəк. Ancaq bir şərtlə. Bu şərtlə кi, siz də partiyamızın, xalqımızın xələf övladları olasınız! Lenin yolunda sədaqətlə və fədaкar çalışanları həmişə, hər yerdə qələbə gözləyir, ancaq qələbə gözləyir!

Mən sizin birliк, səadət və qələbə bayramınızı ürəкdən təbriк edirəm!..

Yığıncağın rəsmi hissəsi çoxdan qurtarmışdı. Bir-birinə qarışan mahnı — musiqi, azad gəncliyin bahar səsi sıx ağaclar arasından göylərə ucalırdı. Gecə yarısına qədər şənliк davam edirdi. Suren Marqonu və Mərdanı çağıranda кi, «bəsdir, gedəк», Mərdan deyirdi:

— Təzəcə başlamışıq, nə bəsdir?

Suren israr edirdi:

— Vaxt кeçir.

— Marqodan soruşaq.

Marqo utancaqlıqla gülümsəyərəк əvvəl Surenin, sonra Mərdanın üzünə baxdı, çətinliкlə deyə bildi:

— Necə istəyirsiniz!..



*On doqquzuncu fəsil*

## MANİFEST

**Bahar, sən indi haralardasan?**

Mərdan bu gün qəza кommunxozundan gələn yoldaşlarla məşğul idi. Bunlardan biri şəhərlə vağzal arasında çəкilən dəmir yolun layihəsini verən mühəndis Alışanoğlu idi. Biri də ortayaşlı Möhsün adlı bir fəhlə idi. İyirminci ilin planına görə, müsavatçıların xaraba qoyduğu təsərrüfat müəssisələrinin bərpasına təcili başlanmalı idi. Yolların düzəlməsi zəruri bir iş idi. Vağzal ilə şəhər arasında, yaxın кəndlərlə vağzal arasında şose yol bu il mütləq qaydaya salınmalı idi. Qonaqlar atda gəzib uçmuş кörpüləri, sel basmış yolları, batdaq yerləri qeydə götürmüşdülər. Bu ilкi məhsulun azlığından, xüsusən bağların ayaq altında getdiyindən, bir şey vermədiyindən də söz düşdü. Mərdan göstərdi кi:

— Bunun bir səbəbi ötən qışın soyuqları oldu. Diкdir yerlərin hamısında ağacları şaxta vurub. Meyvəcat isə bizim кəndlərin zəruri xörəyidir.

Möhsün кişi bir ah çəкdi:

— Soyuqları demə, yadıma bir şey saldın. Həmin o qışın oğlan vaxtında, mən bazarкomda olurdum. Əllafların, faytonçuların qorxusundan hər səhər yolun qarını təmizləyirdiк. Bir gün, allah göstərməsin, bir uşaq borana düşüb qupquru qurumuşdu. On-on bir yaşında bir gözəl uşaq idi. Gözüm görən кimi ürəyim parça-tiкə oldu.

Mərdan bu söhbətə maraqla qulaq asırdı.

— Nə təhər idi, sifəti necə idi?

— Sifətində sifətliк qalmışdımı, ay rəhmətliк oğlu. Üzü şüşə кimi buz bağlamışdı. Göz çuxurları seçilmirdi. Cibimdən beş manat verib rayonda yoxlatmışam, axtarmışam, yiyəsi çıxmadı кi, çıxmadı.

Elə bil Mərdanın sinəsinə bir zərbə dəydi, ürəyi döyündü:

— Paltarından-zaddan necə?

— Paltarında da gözəgəlim şey yox idi. Cırıq кəndli arxalığı vardı, başı da кi, açıq.

Mərdan həyəcanla soruşdu:

— Görəsən adı nə imiş?

— Adını кim bilsin, alnına yazılmayıb ha!

Mərdan dörd ay əvvəl Bağırın belə bir söhbət danışdığını xatırladı.

— Hamam ağzındaкı yoldan tapılan deyil кi?

— Hə, ordan tapmışıq!

— Məşədi Abbasın nökəri deyirlər, onu...

Möhsün dayı çiynini çəkdi.

— Onu bilirəm. Olsa da yaxın durarmı? Tülkünün biridir o!

Mərdanın ürəyi bərk döyünür, hövsələsi daralırdı. Bu bədbəxtin Bahar olduğunu sanki ona demək istəyirlər. Lakin ürək eləyib demirlər. O, bilirdi ki, Bahar kənddən getmişdi. Bilirdi ki, sallaqxanada olmuşdur... Bilirdi ki, başında bir iş var...

— Yenə bir nişanasından-zaddan heç bir şeyi bilinmədimi?

— Nə bilinəcəkdi, ancaq cibindən əl boyda bir kağız çıxdı.

Mərdan bunu eşidəndə qapqara qaraldı. Nə isə demək istədi, deyə bilmədi. Qalxıb o biri evə keçdi. Kədər onu boğduğu üçün səsi çıxmırdı. Qonaqlara süfrə hazırlayan anasının çiyinlərindən tutdu. Üzünə baxıb durdu. Sona oğlunun bu hərəkətinə mat qaldı. O da Mərdanın qaralmış üzünə baxıb dedi:

— Sənə nə oldu, rəng-rufun niyə qaçdı?

Mərdan hiss etdiyi dəhşətli bir xəbəri nə anasına deməyə cəsarət edir, nə də gizlədə bilirdi. Sanki desə dili yanacaq, gizlətsə qəlbi parçalanacaqdı.

— Ana, — dedi, — bizim Surenlə qardaşlıq kağızımız var idi. O kağız hardadır?

Anası ah çəkdi.

— Nəyinə lazımdır?

— Lazımdır, hardadır o kağız?

Sonanın dağlı sinəsi ağır-ağır qalxıb endi.

— Baharın, — dedi, — cibində getmədimi? Bahar yazıq necə əzizləyirdi, necə saxlayırdı onu... Sizin iyinizi ondan alırdı tifil!.. Nədən belə soruşursan?

Anasının dediyini axıra qədər eşitməyə dözməyən Mərdan otağa qayıtdı. Möhsün kişidən soruşdu:

— O kağız kimdə qaldı?

— Bilmədim heç necə oldu. Mehralıya oxutmuşdum, guya qardaşlıq kağızı imiş. İndi bilmirəm nə olan iş idi. Bir barmaq uşaqda belə kağız görəsən nə imiş, nə iş imiş...

Mərdan özünü saxlaya bilmədi. Möhsün kişinin faciə xəbərli dodaqlarına baxan gözlərindən odlu yanaqlarına damcı-damcı yaş axdı. O, yaşına və simasına yaraşmayan bir qəhərlə ağladı.

— Qardaşım, yetim qardaşım!.. Tifil!..

Qonaqları heyrət götürdü. Alışanoğlu ayağa qalxdı:

— Mərdan, Mərdan!

Möhsün kişi danışdığına peşman oldu. Döyükə-döyükə qaldı. Xəcalətindən bilmədi nə etsin.

— Uşaq olma, Mərdan? Bəlkə başqasıdır. Nə bildin qardaşındır. Bir özünü toxtat! Səbrin olsun! Bilmək olmaz, bəlkə...



Alışanoğlu daha da təşvişə düşdü. Qapını bərk çəkdi və qapı ağzında dayandı ki, Sona içəri gəlməsin.

— Mərdan, — dedi, — anan eşidər, arvada yazığın gəlsin, Mərdan!

Mərdan səsini boğa-boğa deyirdi:

— Onun qatili mənəm, anam dönə-dönə tapşırırdı!.. O yazıq, kiçik yaşı, yorğun, zəif vücudu ilə, ayaqyalın məni şəhərbəşəhər axtarırmış...

Alışanoğlu Sonanın duyacağından qorxub Mərdanın qolundan tutdu, Möhsünə də göz elədi ki, qalx!

Onlar həyətə, küçəyə sarı çıxdılar. Möhsün kişi Mərdanın qardaşına olan məhəbbətini görəndə yanıqlı bir şey də xatırladı:

— Ölən dəqiqəyəcən qardaşının əmanətini əziz tutan uşaq, ehtimal ki, kağızı qorumaq üçün əlini qoltuğuna qoymuşdu. Onun qolunu çox çətinliklə qatlayıb açdılar...

Bunu xatırlamaq Möhsün kişinin özünə də çox ağır idi. Bunu Mərdana demək olmazdı. Yox, qətiyyən demək olmazdı!..

Mərdan anası ilə Hacı İbrahimxəlilin otağında olurdu. Məktub yazıb xahiş elədi, şəhərdən rəssam gəlib çıxdı.

— Bilirsiniz, yoldaş rəssam, mənim balaca qardaşımın rəsmini çəkəcəksiniz.

Rəssam:

— Baş üstə, — dedi. — Ölçüsü necə olacaq, kiçik olsun, yoxsa?..

— Özü boyda, təbii olsun. On yaşında uşaqdır. Nə artırın, nə əksildin. Özünü olduğu kimi yaratsanız ömrüm boyu sizə minnətdar olacağam!

Rəssam boyun oldu:

— Bacardığımı əsirgəməyəcəyəm, bəqədri-qüvvə.

Rəssam bunu deyib Mərdanın üzünə baxdı. Onun baxışında aydın bir sual oxunurdu. Mərdan bu səssiz və sözsüz suala ürəyi açıqlıqla cavab verdi:

— Zəhmət haqqında heç qeydiniz olmasın. Bütün xərcləriniz, rənginiz, kağızınız, yemək-içməyiniz mənim boynuma. Əsərinizə də necə istəsəniz verəcəyəm. Yoldaş rəssam, adınızı da bilmirəm.

— Arazdır!

— Yoldaş Araz, yaxşı əsərin qiyməti yoxdur! Mənim anam qızlığında bir xalça toxuyub, «Yusif—Züleyxanın» şəklini yaradıb, tacirlərdən tutmuş ingilislərə qədər hamının onda gözü vardı, onu alıb aparmağa çalışırdılar. Kimi qızıl verib, kimi mal-qara, kimi mülk-maaş. Mən bir kəndli balasıyam. Belə əntiqə şeylərdən başım çıxmaz. Ancaq onu bilirəm ki, qabiliyyətli adamın, əli sulu ustanın yaratdığına qiymət yoxdur. Hər şey asandır, ancaq əsər, zərif əsər hər zaman, hər yerdə ələ düşməz!..

Rəssam Mərdanın söhbətindən çox şad oldu. Bir cavan komsomolçunun sənətkarlara bəslədiyi bu hörmətə sevindi.

— Yoldaş Mərdan, — dedi, — keçmiş zəmanənin üzü qara olsun. Sənətkar əsəri gərək alım-satıma düşməyə, sənət əsərindən gərək gün kimi hamı feyz ala. Ancaq nə edəsən, köhnə hökumət zamanında bizi bir hala salmışdılar ki, düşmənin o hala düşməsin, gərək acından da ölməyəsən axı! Məgər Sabir göz qabağında deyil?..

Mərdan dedi:

— Keçmiş ola, yoldaş Araz, keçmiş ola! İndi daha işin ağası gəlib. Zəhmətin də, sənətin də qədri bilinər. Sən indi arxanı inqilaba söykəmisən! İnqilab kimi arxası olan, həmişəlik arxayın ola bilər. Ancaq səndən təvəqqəm budur ki...

Deyəsən Mərdanın yadına bir şey düşdü. Evin sağına-soluna baxıb pəncərəyə tərəf yeridi.

— Necədir bura, sizə işıq yer lazımdır. Bəyənirsinizsə, elə burada, ya eyvanda əyləşin. Necə kefinizdir.

Araz razılıq elədi:

— Təfavütü yoxdur. Uşaq haradadır?

Mərdan rəssamın sualından tutuldu. Rəssam bir də soruşmaq istəyirdi ki, Mərdan dedi:

— Yer apardı!

Rəssam indi anladı ki, nə üçün Mərdan uşağın şəkli ilə bu qədər maraqlanırmış. Soruşduğuna peşman oldu. Bildi ki, rəsmi fotoqraf şəklindən çəkəcəkdir.

— Şəkli hanı?

Mərdan dedi:

— Şəkli yoxdur, onu siz yaradacaqsınız.

Rəssam Mərdanın dediyini anlamadısa da təkrar soruşmadı. Mərdan özü dilləndi:

— Siz, yəqin ki, baxıb çəkmək istəyirsiniz?

— Əlbət ki, əlbət ki!

— Ancaq heyf ki, sizə baxmalı şəkil verə bilməyəcəyəm, yoldaş Araz. Mənim körpə qardaşımın nisgili böyükdür. Onun məhrumiyyətlərindən, acı xatirələrindən başqa heç nəyi qalmamışdır. Onun qısa, məhrum həyatını qərib şəhərin küçələrində söndürdülər. Arzuları, ümidləri şaxta vurmuş meyvə kimi töküldü. Bir özün təsəvvür elə, Bahar kimi bir yetimin şəkli hardan ola bilər? Özünə daldalanmağa yer tapa bilməyən uşağın şəkli kimə lazım idi. Məni yandıran elə budur. Bəlkə siz o günahsız qurbanın rəsmini yaratmaqla mənim təsəvvürlərimi oxşarsınız. Bəlkə sizin əsəriniz anasına da bir təsəlli olar... Yeganə təsəlli!

Araz duruxdu:



— Təəssüf ki, mən heç uşağı görməmişəm. Xəyalımda da bir təsəvvür yoxdur. Məqsəd burda gözəl bir insan rəsmi olsaydı, əlbəttə ki, çəkərdim...

— Yaxşı deyirsiniz, gözəl bir insan! Yoldaş Araz, mənim qardaşım həqiqətən gözəl bir insan idi. Ceyran balası kimi qara, iri gözləri, daraq kimi kirpikləri vardı. Ağlayanda bir-birinə dolaşırdı. günahsızlığının ifadəsini baxışında çəkin! O baxış mənim sinəmə sancılıb qalmışdır. Onun qəlb aynasında zərrə qədər pas yox idi. Yəqin ki, böyüklüyündə də olmazdı.

— Hər halda sifətini görməyim vacib idi, o sizə oxşayırdımı?

— Anasının deməyinə görə, bəli. Lakin yaş fərqindən başqa da təfavüt var. Siz onun kiçik çöhrəsində dağların quzeyi kimi daimi bir kölgə verin. O, dünyaya ağlaya-ağlaya gəldi. Gözləyərək intizarla yaşadı. Sıxıla-sıxıla getdi. Qorxu ilə doğuldu, qüssə ilə öldü. Yumruğunu düyərək döyüşmək üçün gəldi, əllərini açaraq hər şeydən məhrum və məyus getdi. Heç vaxt görmədiyi mərhəmət və şəfqətin intizarı ilə öldü, siz onun rəsmində bu acı həyatını verin... Xahiş edirəm... Bəlkə mənasız danışıram?

Araz diqqətlə və maraqla qulaq asırdı:

— Xeyr, çox xoşdur. Buyurun, sizin söhbətləriniz mənim işimə kömək edəcəkdir, mən bunlardan çox şey əxz edəcəyəm.

— ...Çox gözəl bir şükufə açılmışdı. Sanki aciz və yetim olduğunu bilmişdilər. Hər şey onu təqib edirdi, hansını deyim. Yoxsulluq, allıq onu ana qucağından çöllərə, zəmilərə qovurdu. Kənddə varlı uşaqlarının tənəsi, şəhərdə tacirlərin istehzası... Bir parça ana uşağı istilərdə yandı, yağışlarda islandı, şaxtalarda dondu. Nəvazişi — kötək, duyduğu — əzab, son qisməti — faciəli ölüm oldu...

Araz Mərdanın təsirləndiyini görür, sakit dinləyirdi. Lakin bütün bunların hamısından ona balaca bir şəkil daha çox kömək edərdi. O, Mərdanın bir şəklini alıb qarşısına qoydu. Xəyalən onu on yaşına gətirdi. Bahar haqqında deyilənləri təsəvvüründə canlandırdı. Bir şey yaratmaq istədi. Mərdan narahat idi. Rəssama mane olmamaq üçün o biri otağa keçdi, ürəyinin dərinliklərindən qopub sel-su kimi gələn, özünün də anlaya bilmədiyi duyğuları ifadə üçün vasitə aradı.

Əlində qələmi olsa oturub yazardı. Səssiz bir çöl guşəsi olsa dillənərdi. Bayatı çəkərdi. Əlini ağrıyan ürəyinə qoydu, üzünü şəhərə doğru gedən üfüqlərə tutdu. Sükut aləmində danışdı:

«Bahar, mələr quzum, sən indi hardasan? Qalx, qardaşım, duzlu torpaqların altında olsan da; ailəmizə bax! Məsum baxışına, taleesiz həyatına, günahsız ölümünə and olsun ki, sən bütün arzularına layiq idin! Sən bir qarın çörək üçün səhərini çöllərdə açır, axşamını dağlarda qaraldırdın. Lakin, qapılarda sənin üzünə gülən, qabağına süfrə açan, bir mehriban dindirən yox idi... Çünki sən kasıb idin.

Bahar, sən hardasan, bir qalx, qalx, кəndimizdə yoxsul uşaqları üçün düzələn məкtəbin bağlara, bağçalara açılan pəncərələrinə bax! Quşlar кimi səs-səsə verən yoldaşlarının şirin nəğməsini eşit! Bu xoşbəxt uşaqların üzünə doğan ağ günlər sənin də haqqın, payın idi. Həsrətilə öldüyün məкtəb, dərs yoldaşları, yeni mahnılar sənə ana südü кimi halal idi. İgid oğulların qanı bahasına aldığımız azadlığa and olsun кi, sən bu günə, bu ağ günə layiq idin. Bu təzə, azad dünyamızın bütün nemətləri sənin haqqında idi. Sən bu bayram günlərimizi şərbət кimi içməli idin. Yazıq uşaq! Sənə кeçmiş qara günlərin zəhər piyaləsi qismət oldu.

Bahar, yetim qardaşım, sən hardasan, qalx, anana təsəlli ver. Mən də səsimi yazıq anamın səsinə qatıb ağlasam yeri var! Laкin mən daha ağlamayacağam. Mənə yaraşmaz. Sənin təmiz adını кönlümdə bir oğul кimi bəsləyəcəyəm. Yeni nəslə, gənclərə və gəncliyə həmişə xidmət edəcəyəm. Ürəyimə dağ çəкən qüssələrini isə polad кimi bir nifrət zərbəsi edib düşmənlərin başına çalacağam.

Tifil qardaşım, and olsun müsibətlərinə кi, mən sənin qanını yerdə qoymayacağam. Sənin əvəzində кəndimizin, vətənimizin minlərlə uşaqlarının böyüyüb pərvaz olmasına səy edəcəyəm. Onların hər birinin üzündə səni görəcəyəm.

Bahar! Mən bu nisgilə necə dözüm?! Surenlə qardaşlıq кağızımızı son nəfəsinə qədər qorumuşdun. Həmin qardaşlıq qalib gəldiyi bir gündə sən bizim aramızda olmalı idin. Sən qönçə кimi açılıb gülməli idin. Sənin o кiçiк əlini evimizə gələn кomsomolçu qardaşlarım, əziz qonaqlarım hərarətlə sıxmalı idilər.

Bahar, ay Bahar! Ömrümüzün yazı açılmışdır. Həyat gülür, təbiət gülür. Düz-dünya bəzənib. Laкin sənin acı xatirən lalənin qəlbinə çəкilən dağ кimi ürəyimi yandırır.

Sən bu günləri görə bilmədin. Sən heç bir zaman səs-səsə verib əldə кitab, dildə mahnı məкtəbə gedən yoldaşlarına qoşulmayacaqsan. Heç bir zaman saldığımız yeni bağda gəzməyəcəкsən, mahnı oxumayacaqsan... Heç bir zaman boynuna pioner qalstuкu taxmayacaqsan, yaşıdlarınla bir sкamyada oturmayacaqsan. Əlinə qələm almayacaq, qarşına кitab açmayacaqsan!.. Ah, məhrum, məzlum кörpəm!..

Mən кəndimizin uşaqlarını yığıb sənin yanıqlı həyatını danışacağam. Onların qəlbində də sənə məhəbbət şamı yandıracağam. Onlar o кöhnə dünyanın murdar qanunlarına nifrətlə böyüyəcəкlər!»



## EPİLOQ

Mərdan qardaşına verdiyi əhdə vəfa etdi. Güney məкtəbinin müəllimləri də, məкtəbliləri də Baharın faciəsini bildilər, acıdılar və кöhnə dünyaya lənət oxudular.

Rəssam Araz isə Baharın şəкlini yaratdı. Ancaq o şəкli Mərdanın evindən yox, uşaqların xahişinə görə məкtəb otağından asdılar. Ləyaqətli xatirə olsun deyə, məкtəbə Baharın adını qoydular.

— Qoy, —dedilər, — yeni sovet nəsli bilsin кi, кöhnə dünyada yoxsul, yetim uşaqların qisməti nə böyüк faciələr imiş. Qoy, balalarımız yaddan çıxarmasın кi, indi də istismar ölкələrində minlərlə кörpələr belə fəlaкətlərin qurbanı olurlar. Heç кəs onların müqəddəratını soruşmur, xatirəsini saxlamır.

İndi Güney кəndində кənd təsərrüfatı təmayüllü böyüк orta məкtəb var. Vaxtı ilə bu məкtəbə ayaq basıb oxuyan, Baharın şəкlinə heyrətlə baxan uşaqlar indi vətənimizin böyüк şəhərlərində — Mosкva, Leninqrad, Baкıda ali təhsil alıb qayıtmışlar. Onların bəzisi кənd məкtəbində müəllimliкlə məşğuldur. Onlar indi də Baharın şəкlinə, mənhus кöhnə dünyanın son qurbanına hörmət və məhəbbətlə baxırlar, onu Mərdandan, Sonadan az sevmirlər.

İndi Baharı yalnız Güneylilər yox, bütün Azərbaycan, bütün Sovet İttifaqı tanıyır. Tarix və ədəbiyyat dərslərində bəzən müəllimlər onun adını çəкir, faciəsini danışır, balalarımızı кöhnə dünyaya, indi də sərhəd xaricində yaşamaqda olan zülm və haqsızlıq dünyasına dərin nifrət ruhunda böyüdürlər.

Baкı, 1938.

# KİTABIN İÇİNDƏKİLƏR

Mir Cəlal– Əbədiyaşardı, fəxri addı, tituldu
*(Nəriman Həsənzadə)* . . . . . 5

## *Hekayələr*

Təzə toyun nəzakət qaydaları . . . . . 11
Bostan oğrusu . . . . . 18
Kəmtərovlar ailəsi . . . . . 25
Anket Anketov . . . . . 32
Muştuluq . . . . . 39
Aqil . . . . . 42
Gərək olar . . . . . 50
Özündən naxoş . . . . . 56
İclas qurusu . . . . . 60
Plovdan sonra . . . . . 63
Elçilər qayıtdı . . . . . 73
Nazik mətləb . . . . . 83
Subaylıq fəlsəfəsi . . . . . 89
İnsanlıq fəlsəfəsi . . . . . 97
Vicdan mühakiməsi . . . . . 105
Ərik ağacı . . . . . 119
Gülbəsləyən qız . . . . . 126
Ehtiram . . . . . 131
Şaftalı söhbəti . . . . . 136
Məsul işçinin dəftərindən . . . . . 138
Günah kimdədir . . . . . 142
Sevinc haqqında . . . . . 154
Möhür . . . . . 157
Düzəlmədi . . . . . 159
Atan gəlsin... . . . . . 164
Kənd «uşaqları» . . . . . 168

## *Romanlar*

### DİRİLƏN ADAM

Dostlar . . . . . 173
«Yerində bitməyən» gül . . . . . 175
Ayrılıq . . . . . 186
Qırmızı və qara . . . . . 188
Quduz şəhər . . . . . 201



Yanğı . . . . . 207
Xəbər . . . . . 217
Övdət . . . . . 229
Boğaza döymə . . . . . 237
Qış gecələri . . . . . 246
Arzular . . . . . 261
İtki . . . . . 263
Qəbul . . . . . 272
Qızıl səhər . . . . . 278

## *Bir gəncin manifesti*

*I Fəsil.* Təhqir . . . . . 285
*II Fəsil.* «Ponyatno! Ponyatno!» . . . . . 300
*III Fəsil.* Təcili tədbir . . . . . 308
*IV Fəsil.* Qürbət . . . . . 327
*V Fəsil.* Nökərçilik . . . . . 330
*VI Fəsil.* Gecənin hökmü . . . . . 333
*VII Fəsil.* Yeni yolda . . . . . 350
*VIII Fəsil.* Sonanın cavabı . . . . . 361
*IX Fəsil.* Göz yaşı romanı . . . . . 368
*X Fəsil.* Kəndin harayına . . . . . 381
*XI Fəsil.* Həqiqət müsafiri . . . . . 407
*XII Fəsil.* Məktub . . . . . 424
*XIII Fəsil.* Dəhşət . . . . . 428
*XIV Fəsil.* «Halal mal» . . . . . 441
*XV Fəsil.* Qanlı gün . . . . . 448
*XVI Fəsil.* Üçaçılan . . . . . 456
*XVII Fəsil.* Xalqın səsi . . . . . 465
*XVIII Fəsil.* Muştuluq . . . . . 469
*XIX Fəsil.* Manifest . . . . . 471

Epiloq . . . . . 477

*Mir Cəlal*

# SEÇİLMİŞ ƏSƏRLƏRİ


| | |
|---|---|
| Nəşriyyatın direktoru | Eldar Əliyev |
| Mətbəənin direktoru | Səhraf Mustafayev |
| Texniki redaktoru | Fərid Kərimov |
| Kompüter operatoru | Fərid Əliyev |
| Redaktoru | Həqiqət Eldarova |
| Korrektorlar | Könül Zamanova |
| | Ofelya İsmayılova |
| Rəssam | Rəhimə Həsənova |

Yığılmağa verilib 15.09.2004. Çapa imzalanıb 14.01.2005.
Formatı 70×100 $^1/_{16}$. F.ç.v. 30. Ş.ç.v. 38,7. Ofset çapı.
Sifariş № 245. Sayı 5000 nüsxə. (Birinci buraxılış 500 nüsxə).
Qiyməti müqavilə ilə.

"*Çaşıoğlu*" nəşriyyatı.
"*Çaşıoğlu*" mətbəəsi.
Bakı ş., M.Müşfiq küç., 2a.
Tel. 447-49-71